

MİR CƏLAL

ADİLOĞLU
www.adiloglu.az

# MİR CƏLAL

Seçilmiş əsərləri
5 clddə

HEKAYƏLƏR
FELYETONLAR
ŞEİRLƏR
OÇERKLƏR
TƏRCÜMƏLƏR
XATİRƏLƏR

# MİR CƏLAL

Seçilmiş əsərləri

HEKAYƏLƏR

I CİLD

Tərtib edənlər: **Nərgiz Paşayeva**
**Təhsin Mütəllimov**

Redaktor: **Şəmsəddin Axundov**
Rəssam: **Nüsrət Süleymanoğlu**

**MİR CƏLAL. ƏSƏRLƏRİ. 5 CİLDDƏ. I CİLD.**
Bakı, ADİLOĞLU nəşriyyatı, 2013, 442 səh.

Beşcildliyə görkəmli ədibimiz Mir Cəlalın kiçik janrlarda yazılmış əsərləri daxil edilmişdir. Cildlərdəki janrların hər biri ilk dəfə olaraq xronoloji ardıcıllıqla verilmişdir. Hekayələrin və oçerklərin əksəriyyəti vaxtilə əvvəlcə qəzet və jurnallarda dərc edilmiş, sonralar kitablarda çap olunmuşdur. Təbii ki, bu zaman müəllif tərəfindən onların bəzisində az, bəzisində isə çox dəyişikliklər, redaktə xarakterli düzəlişlər aparılmışdır. Hətta bu əsərlər daha sonralar başqa kitablarda təkrar çap edilərkən bəzən müəyyən dərəcədə fərqli olmuşlar. Bəzi əsərlərin adları da dəyişdirilmişdir. Beşcildliyə daxil edilən bütün əsərlərin son variantı əsas götürülmüşdür.

Hekayə Mir Cəlal yaradıcılığında əsas yer tutduğundan dörd cilddə onun hekayə yaradıcılığı ardıcıl izlənmişdir. Son cilddə isə ədibin yaradıcılığında epizodik xarakter daşıyan janrlar – oçerklər, şeirlər, tərcümələr, xatirələr və felyetonlar verilmişdir. Bütün bunlar ədibin əsərlərinin nəzərdə tutulmuş akademik nəşri üçün də kifayət qədər əsaslı zəmin ola bilər.

ISBN: 978-9952-25-128-9 © ADİLOĞLU, 2013

# MÜASİR NƏSRİMİZİN HEKAYƏ USTADI

Bədii ədəbiyyat dünyanın gərdişindən, insan taleyinin amansız təzadlarından xəbər verən ən müdrik və mükəmməl mənbədir. Həqiqi sənətin möcüzəsi ondadır ki, o həyatın böyük həqiqətlərindən xəbər verir, necə yaşamağın müdrik fəlsəfəsini insan talelərində, insan xarakterlərində, həyati lövhələrdə bədii sözün qüdrətilə canlandırır, nəticələr söyləyir, uca ideallara səsləyir…

Müasir Azərbaycan ədəbiyyatının görkəmli təməlçilərindən olan Mir Cəlalın zəngin irsi məhz böyük həqiqətlərin sonsuz səmimiyyətlə bədii təcəssümünə əsaslanır. Təxminən əlli illik bədii yaradıcılığında Mir Cəlal öz oxucuları ilə həmişə səmimi və obyektiv söhbət aparmışdır; həyat materialını hər cür «kosmetik əməliyyatlardan» uzaq, bütün həqiqətləri ilə, gözəllik və faciələri ilə, gülməli və ağlamalı tərəfləri ilə canlandırmağı bacarmışdır. Buna görə də sovet dövründə yazılmış əsərləri bu gün də eyni maraq və məhəbbətlə qarşılanır, köhnəlmir və yaqin ki, heç vaxt da köhnəlməyəcək. Onların hər biri yazıldığı zamanın siyasi-ictimai və psixoloji-mənəvi səciyyəviliklərini dəqiqliklə, müfəssəlliklə

təcəssüm etdirdiyindən, öz tarixinin bədii abidəsi, yadigarı kimi əbədi-yaşardır.

Azərbaycan mədəniyyətinin və xüsusən, ədəbiyyatının iyirminci-otuzuncu illərdəki sıçrayışlı yüksəlişini, görünməmiş (və sonralar da görünməyəcək) istedadlar bolluğunun əsl səbəblərini tapmaq çox müşgüldür. O zamankı mənəvi intibahın, mədəni tərəqqinin də təsiri böyük idi. Lakin o vaxt sənət aləminə qədəm qoyan şairlərin, yazıçıların, bəstəkarların, rəssamların və qüdrətli aktyor nəslinin eyni zaman kəsiyində meydana gəlməsi yalnız heyrət doğura bilər. Və bu böyük sənət intibahının sonrakı illərin də bədii yaradıcılıq sahələrinə çox davamlı təsiri oldu və olmaqdadır. Həmin sənətkarların hər birinə bu gün necə də böyük ehtiyacı vardır!..

Mir Cəlal da həmin «bərəkətli» nəslin nümayəndəsidir. O illərin böyük sənət meydanında həm də böyük yaradıcılıq yarışı, qarşılıqlı faydalanma təsiri var idi. Bir sıra nasirlərimiz kimi Mir Cəlal da bədii yaradıcılığa şeirlə başlamışdır. Mir Cəlalın biblioqrafik məlumatlarda göstərilən və əldə olan, 1928-29-cu illərdə yazılmış dörd şeiri onun bədii yaradıcılığının ilk nümunələri kimi maraq doğurur. Lakin «Bakı görüşləri» adlı müfəssəl xatirələrində ədib yazır: «Bakıya köçənə qədər riyaziyyat həvəskarı idim. Seminariyada bu dərsdən yoxlama yazılarını sinifdə hamıdan əvvəl həll edər, əla qiymət alardım. Riyaziyyatdan bir kitaba tənqid yazıb, «Yeni fikir»də çap etdirmişdim. «Riyaziyyatçı» imzası ilə qəzetdə satirik şeirlərim də çap olunurdu.

*Əla, ya əyyühəssaqi tutub dünyani sərxoşlar!*
*Buraxmır çarsıdan keçsin gecə insani sərxoşlar.*

Satirik şeirlərimdən biri belə başlanırdı. Buradakı imzalarımın da maraqlı tarixi var. Satiralarımdan birinə Şəhab (Ulduz) imzası qoymuşdum. Köhnə əlifba ilə «Şəhab» sözünü düz oxumamışdılar, ya nəsə, «Şöhrət» vermişdilər. Sonrakı yazılarımın çoxunda da bu imzanı saxlayıb, təkrar etdilər».

Göründüyü kimi, ədib özünün seminariya illərindən (təxminən 1926-27-ci illərdən) bəhs edir və məhz həmin vaxt satirik şeirlər yazıb



çap etdirməsini xatırlayır. "Balaca felyeton" başlığı ilə çap olunan bu şeirlər məişət məsələlərinə və beynəlxalq problemlərə aiddir, əsasən də satirik pafosla yazılmışdır.

Lakin Mir Cəlal tez bir zamanda öz istedadının istiqamətini müəyyənləşdirir, nəsrə keçir, 1930-cu ildə «Qızıl Gəncə» jurnalında dərc olunmuş «Mirzə» hekayəsi ilə ədəbi aləmin diqqətini cəlb edir. Ədib otuzuncu illərdə hekayə yaradıcılığının ən gözəl nümunələri sırasına daxil olan məşhur əsərlərini yaradır. Ən məşhur romanları olan «Dirilən adam» və «Bir gəncin manifesti» də meydana gəlir. Təsadüfi deyilrdir ki, elə otuzuncu illərdən başlayaraq, Mir Cəlalın adı nəsrimizin ən görkəmli nümayəndələri sırasında çəkilir.

S.S.Axundov, A.Şaiq, C.Cabbarlı, B.Talıblı, S.Rəhimov, M.İbrahimov, Ə.Əbülhəsən kimi görkəmli ədiblərlə bərabər müasir nəsrimizin təməlçilərindən biri kimi Mir Cəlal zəmanəsinin aktual ictimai-siyasi mətləblərinin operativ və sərrast ifadəçisi olur, böyük şöhrət qazanır. 30-cu illərin əvvəllərində iki dahi ədibimiz – C.Məmmədquluzadə və Ə.Haqverdiyev vəfat etdiklərindən (1932,1933), nəsrimizdə satira meydanı demək olar ki, boş qalmışdı. Bədii nəsrimizdə həmişə qüdrətli olmuş satirik ənənələri ilk növbədə Mir Cəlal böyük uğurla və özünəməxsus, orijinal bir üslubda davam etdirir. 30-cu illərdə nəsrimizdə hekayə janrına maraq böyük idi. Gənc nasirlərin, demək olar ki, hamısı ilk növbədə özlərini məhz hekayədə sınayır və tanınırdılar. Satirik, yumoristik əsərlər də az deyildi. Lakin istər həmin vaxt, istərsə də sonrakı illərdə hekayə janrında ən məhsuldar və şöhrətli ədib Mir Cəlal oldu. Otuzuncu illərdə Mir Cəlalın bir ədib kimi fərdi, orijinal yaradıcılıq üslubu da formalaşır, kamilləşir.

Qırxıncı illərdə Mir Cəlalın daha çox elmi yaradıcılığa meyl etməsi və məhz bu vaxt bir alim kimi, ən məşhur əsərləri olan «Füzulinin poetik xüsusiyyətləri» və «Azərbaycanda ədəbi məktəblər» əsərlərini meydana çıxarması, onların əsasında filologiya elmləri namizədi və doktoru alimlik dərəcəsi alması, habelə, «Müxtəsər Azərbaycan ədəbiyyatı tarixi» ikicildliyində yaxından iştirakı, elmi məqalələri və s. onu bədii yaradıcılıqdan bir növ soyudur, bu sahədə əvvəlki sürəti azalır. Əllinci illərdən etibarən Mir Cəlal hər iki sahədə – həm gözəl ədib, həm də gör-

kəmli alim kimi böyük əzmlə çox səmərəli fəaliyyət göstərir.

Mir Cəlal əlli ildən artıq bir müddətdə bədii yaradıcılıqla, elmi fəaliyyətlə və pedaqoji işlə fədakarcasına məşğul olmuşdur.

Lakin bu sahələrin hər birinin necə mürəkkəb və ağır zəhmətin, böyük cəfakeşliyin hesabına başa gəldiyini də unutmaq olmaz. Mir Cəlalın bədii, elmi və pedaqoji fəaliyyəti ayrı-ayrılıqda ədəbiyyatmızda, elmimizdə və pedaqogika tariximizdə ona əbədiyaşar mövqe qazandırmışdır. Və onun belə çoxcəhətli ömür yolunun necə titanik zəhmətin, əzmkar iradənin nəticəsi olduğunun əyani sübutudur.

O da həqiqətdir ki, Mir Cəlal bu sahələrin yalnız biri üzrə fəaliyyətini məhdudlaşdırsa idi, şübhəsiz, orada daha böyük uğurlar qazanmış olardı. Mir Cəlal elmi və pedaqoji sahələrdə ardıcıl fəaliyyət göstərməsəydi, otuzuncu illərin bədii vüsəti onun yaradıcılığında yaqin ki, daha qüdrətli davamını tapmış olardı.

Bununla belə, Mir Cəlal deyəndə, hər şeydən əvvəl, gözəl romanlar və hekayələr müəllifi olan ədib təsəvvürümüzdə canlanmış olur. Çünki o, xalqımızın bədii yaddaşında ictimai tariximizin, xalq taleyinin mühüm problemlərini təhlil edən, həyat və tarix haqqında xalqı ilə ürəkdən, səmimi dərdləşə bilən, onunla sevinc və dərd şəriki olan ustad sənətkar kimi silinməz izlər buraxmışdır. «Dirilən adam», «Bir gəncin manifesti», «Açıq kitab», «Yaşıdlarım», «Təzə şəhər», «Yolumuz hayanadır» kimi romanları, 292 hekayəsi və başqa janrlarda yazılmış bir çox əsəri həqiqi sənətkarın öz xalqı ilə əsl həsb-halının, dərdləşməsinin bədii nümunələridir!

Həqiqi sənət əsərində müəllifin fərdi təbiətinin müəyyən təzahürləri danılmazdır. Görkəmli sənətkarlarda çox zaman böyük şəxsiyyətlə böyük istedadın vəhdəti, qovuşuğu özünü göstərir. Onların hər bir əsərində fərdi təbiətinin təzahürü qabarıq nəzərə çarpır. Mir Cəlalın zahiri görkəmində də, danışığında da, davranışında da, elmi və bədii əsərlərində də sadəlik, səmimiyyət çox güclü olmuşdur. Eyni zamanda bu görkəmli yazıçı, alim və pedaqoq ömrünün əlli ilini həsr etdiyi hər üç sahədə həqiqətpərəstliyi, halallığı, obyektivliyi ilə seçilmişdir. Yazıçılığında bu daha qabarıq və əyani görünməkdədir.

Diqqət edilsə, Mir Cəlalın adi söhbətlərindəki səbrli, təmkinli və səmimi intonasiyanın onun bədii təhkiyə üslubunda da dominantlıq təşkil etdiyini görmək olar. Ədibin bədii təhkiyəsinin ümumi intonasiya tonu, ahəngi sakit, təmkinli, səmimi, bir az da yumorludur, kinayə çalarlıdır. Yüksək pafos, nidalı, suallı ritorika bu üsluba tamam yaddır.





Bəlkə, Mir Cəlalın öz yaradıcılığında çox lakonik janr olan hekayəyə daha geniş yer verməsinin, hekayə ustadı kimi tanınmasının da müəyyən səbəbi ümumən, nitqinin həm şifahi, həm də yazılı şəkildə son dərəcədə yığcam, lakonik və dəqiq ifadə manerası ilə əlaqədardır. Hekayə format xarakterinə görə Mir Cəlalın fərdi təbiəti, danışığı və yazı ədasına son dərəcədə uyğundur. Mir Cəlalın bədii dili ilk növbədə təbiiliyi və səmimiliyi ilə cəzb edir. Eyni zamanda oradakı zəngin obrazlılığın və sözlərin semantik, sintaktik məqamlarının ideya-bədii effekti çox güclüdür, təsirlidir.

■ ■ ■

Hekayə ədəbiyyatımızın nisbətən cavan janrlarındandır. Bu janrın ədəbiyyatımızda əsl inkişafı XX əsrin əvvəllərindən başlanır. Və o, çox az bir vaxtda minillik poeziyamızla ayaqlaşa biləcək ideya-bədii vüsət qazanır.

Mir Cəlalın hekayələri mövzu və üslubca çox müxtəlifdir, rəngarəngdir. Burada ciddi sosial problemlərə, əxlaqi-didaktiki mövzulara, hətta, lirik motivlərə də rast gəlmək mümkündür. Lakin lap ilk hekayələrindən başlayaraq, kinayə intonasiyası, müxtəlif dərəcəli gülüş formaları daha güclü, hətta aparıcı olmuşdur. Əslində, gözəl hekayə bərq vuran almaz parçasına bənzəyir; həcmcə kiçik olsa da, cazibəsi, dəyəri böyük olur. Klassik hekayəmizin ölməz nümunələri «Poçt qutusu», «Usta Zeynal», «Şeyx Şaban», «Mirzə Səfər» hekayələrinin hər biri zəmanələrinin ictimai xarakteri, mənəvi-psixoloji dünyası və sadə insanların tale yolu barədə nə qədər mükəmməl təsəvvür yaradır! Mir Cəlalın hekayələrinin böyük bir qismi onun yaşadığı zamanların sosial, mədəni və mənəvi aləminin səciyyəviliklərini özündə təcəssüm edən sənət yadigarlarıdır.

Hekayə formaca kiçik olduğundan çox operativ və çevik janrdır; zamanla, müasirliklə ayaqlaşan bədii modeldir. Buna görə də hər bir tarixi

mərhələnin və ya müəyyən zaman kəsiyinin siyasi, ictimai və mənəvi özünəməxsusluğu ədəbiyyatın bütün janrlarından daha çox, daha dəqiq məhz hekayədə bədii əksini tapır. Mir Cəlalın da hekayələrində bu cəhət diqqəti cəlb edir. Onun hər bir dövrə aid hekayələri əlvan mozaikalar kimi bir-birini tamamlayır, həmin mühitin, tarixi gerçəkliyin ümumi səciyyəvi mənzərəsini canlandırır.

30-cu illərdə cəmiyyətdəki böyük ictimai-mədəni oyanış, insanların yeni ideologiyalara, yeni qayda-qanunlara uyğun tamam yeni həyat tərzi, mədəniyyət və maarif sahəsindəki tərəqqi, dünyagörüşlərdə, məişətdə və davranış normalarındakı təzadlı münasibətlər «Badamın ləzzəti», «Mərkəz adamı», «Qaymaq», «Təzə toyun nəzakət qaydaları», «Bostan oğrusu», «Qüdrət nümayişi», «Nanənin hünəri» kimi hekayələrdə bədii ifadəsini tapırsa, xalqımızın müharibə illərindəki böyük vətənpərvərliyi, igidliyi, həmin illərdəki görünməmiş çətinliklər «Qardaş qanı», «Yol açıqdır», «Mərcan nənə», «Arxa əsgəri», «Vuran əllər» və başqa əsərlərdə təcəssüm olunmuşdur. Cəmiyyətimizin sonrakı mərhələlərində də xalqımızın güzəranı və məişət tərzi üçün səciyyəvi, tipik olan cəhətlər, sosial-mənəvi mətləblər ədibin hekayələrində ardıcıl və dəqiq bədii əksini tapmışdır. Mir Cəlal öz hekayələrində, hər şeydən əvvəl, bəhs etdiyi zamanın, mühitin ictimai məzmununu, simasını, səciyyəvi xarakterini, koloritini, həmçinin, mənəvi-psixoloji durumunu nəzərə çatdırır, insanların həyat ideallarını, düşüncə tərzini ən güclü və zəif cəhətlərilə dialektik vəhdətdə göstərməyi, təhlil etməyi bacarır.

Mir Cəlalın hekayə ustalığı ilk növbədə əsərlərinin adından başlayır: «Həkim Cinayətov», «Badamın ləzzəti», «Anket Anketov», «İclas qurusu», «Qanlı torpaq», «Nazik mətləb», «Neçə cür salam var?», «Xarici naxoşluq», «Şapalaq», «Ay İsmayıl, başa sal» və s. Ədib çox vaxt əsərin adı ilə, elə bil, söhbətə başlayır, əsərin adı deyiləcək mətləblərə bir növ giriş olur, açar salır... Hekayə adlarında tutarlı məzmun, mətləb işarələri də nəzərə çarpır. Surətlərin adlarından da (xüsusən, komik səciyyəli) xarakter ünvanı kimi istifadə olunur: Əntərzadə, Həpir, Ləbbeyk, Mirzə Xəyal, Anket Anketov, Səyyah xanım, Hərzə xanım, Məftil Kəndirov və s.

Mir Cəlalın hekayələrinin başlanğıcı dinamikliyi, çevikliyi və bilavasitə əsas mətləbə keçidliyi etibarilə diqqəti cəlb edir. «Məmmədhüseyn əhvalatı eşitmişdi. Darvazadan girəndə gözündən od tökürdü. Xəkəndaz əlinə keçdi, ucadan bağırdı:

– Səni mənə calayanın atası tünbətün olsun!

Hirs kişini boğurdu. Sözünü bitirə bilmədi. Kəlməbaşı Saranın dizinə, başına, kürəyinə ilişdirdiyi zərbələrin tappıltısı ilə ürəyindən tikan çıxarırdı. O, vurduqca, odun yaran kimi, bir «hıqqıltı» səsi çıxırdı.

– Axı... hıı! mənim... hıı!.. evimdə hı!.. hıı!

Qonşu arvad Giləxanım xala özünü Saranın üstünə atdı.» («Sara»).

Yaxud: «Yəhya Kamal! Böyük məscidə yolunuz düşsə, ayələrdən çox bu adı oxuyarsınız. Qoca çinar ağacları gövdəsində, yağ tutmuş, kirli, naxışlı qapılarda, kəci qopan divarlarda iti xətlə, səliqəsiz yazılmışdır:

– Yəhya Kamal!

Yayda yeri cızar, qışda qarı sulayar, hər yerdən əlacı kəsiləndə dırnağını yalayıb yazardı:

– Yəhya Kamal!» («Göz»).

Hekayə janrı üçün ilkin şərt bədii lakonizmdir ki, bu da Mir Cəlalın yaradıcılığında örnək dərəcəsindədir. Bu lakonizmin əsas bədii qüdrəti böyük, heyrətamiz səciyyəvilikdə və bu səciyyəvilikdəki ümumiləşdirmə vüsətindədir. Vəzifə naminə və ya vəzifədə olarkən insani duyğularını itirmiş, özü də, az qala, kargüzarlıq ləvazimatına çevrilmiş bürokratlar bədii ədəbiyyatda müxtəlif yöndən və üsullarla ifşa edilmişdir. Mir Cəlalın Anket Anketovu isə satirik qrotesk əsasında bu ictimai eybəcərliyin metaforik təcəssümünə çevrilmişdir. Surətin kinayəli adı və soyadı da kəskin ittiham gücünə malikdir.

Mir Cəlalın satirik və yumoristik surətlərinin əsl təbiilik gücü ondadır ki, ədib onların simasında tənqidi mətləbləri üçün çox səciyyəvi cəhətlər, əlamətlər tapır, eyni zamanda onları ümumiləşdirmə, tipiklik səviyyəsinə qaldıraraq, gülünc cəhətlərini bir az da böyüdür (bəzən də qrotesk dərəcəsində), ittiham obyektinə çevirir. Satirik surətin Anket Anketov adlandırılması ona aşkar ittiham damğasıdır. Hər şeydən əvvəl, bu surətin simasında tənqid olunan keyfiyyət özü əsər yazıldığı zaman üçün son dərəcədə səciyyəvidir, hətta tipikdir.

Vəzifə stolunun insanlığını məhv etmiş və yalnız anketlərlə insanları

tanıyan zavallı bir məmurun mənəvi çürüklüyü, faciəsi satirik qrotesk əsasında sərrast ifşasını, ittihamını tapmışdır. Nəticədə Anket Anketov zamanından asılı olmayaraq, ümumən, insanların taleyinə biganə olan bütün vəzifəpəstlərin, bürokratların ümumiləşmiş portretinə çevrilmişdir... Surətlərin səciyyələndirilməsində, xüsusən, portret təsvirlərində də həmin cəhətlər güclüdür. İlk hekayəsi olan «Mirzə»də əsərin satirik qəhrəmanı Mirzə Şəfinin zahiri belə təqdim olunur: «Əllərini şalvarın cibinə qoyub, sinifdə gəzə-gəzə quduz kimi hayqırıb, ürəyini boşaldırdı. Sallaqxana qatırı kimi dodağını sallamışdı. Papiros tüstüsündən saralıb samana dönən bığları ağzına dolurdu. Çəkməsinin ağarmış burnu əyilmiş və uzun şalvarı yer süpürürdü. Boğazlığı tazı xaltası kimi laxlamış, qalstuku hər tərəfə hərlənirdi. Gün istisindən qızarıb qabıq qoyan boynu incəlmişdi». Belə təfərrüatdan sonra Mirzə Şəfinin şəxsiyyəti və xüsusən, müəllifin ona mənfi tendensiyası tam konkret müəyyənləşmiş olur. Oradakı satirik bənzətmələrlə Mirzə Şəfinin gülünc görkəmi daha görümlü nəzərə çatdırılmışdır.

«Qaymaq» hekayəsindəki Məşədi Möhsünün xarakteri bircə cümlə ilə belə səciyyələndirilir: «Məşədi Möhsün müştüyünü bir ağız sorar, qalın və mavi tüstüdən yumulan gözlərini qıyar, əyilib duvardakı siyahıya baxar, barmaqlarını oynadar, çötkəyə vurar, cavab verərdi». Burada son dərəcədə lakonik şəkildə maraqlı xarakter yaradılmışdır.

Həyati səciyyəviliklərə böyük ümumiləşmə vüsəti vermək bacarığı ədibin yaratdığı lövhələrdə də diqqəti cəlb edir. «İlk günlər» hekayəsində kəndə axşam düşməsi qısaca belə göstərilir: «Axşam olurdu. Dağların uzanan və böyüyən kölgələri narıncı və uzun əbasını sürüyən günəşi qovaraq ucalırdı. Mal-qara kəndə qayıdırdı. Çöldən qayıdıb doqqazlarda görüşən adamların səsi dağlara düşür, sularda əriyirdi. Lampalar yanırdı. Uzuntuman və iribədənli kənd qadınlarının çıraq qabağından o tərəf-bu tərəfə keçməsindən anlaşılırdı ki, evlərdə axşam yeməyinə hazırlıq gedir». Kənd həyatını, kəndli məişətini gözəl bilən sənətkarın dəqiq və səciyyəvi detallarla yaratdığı bu romantik lövhə, bəlkə, bütün kəndlərimiz üçün çox təbii görünə bilər.

Ədibin hekayələrindəki böyük lakonizmdə onun kamil dialoq ustası olması da fəal rol oynayır. Ümumən, Mir Cəlal hekayələrində səciyyəvi



dialoqlar geniş yer tutur ki, bu həm də bədii süjetin dinamikasını, əsərin oxunaqlılığını, bədii marağı və surətlərin münasibətlərindəki dramatizmi aydın nəzərə çarpdırır.

«Baş xörəyə tərəf endi. Qaşıqlar şaqqıldadı. Birdən Xankişinin səsi gəldi:

- Kim oğurladı?
- Nəyi?
- Kim götürdü?
- Nədir itən?
- Mənim qaramı sən yemisən?

Stəkan Xankişinin kəlləsində çilik-çilik oldu. Şərab şüşəsi bufetə dəydi. Şüşələr töküldü. Mürəbbə bankasının böyrü deşildi. Mürəbbə axdı, töküldü. Qaynana təşvişə düşdü». («Təzə toyun nəzakət qaydaları»).

Çox maraqlıdır ki, Mir Cəlalın ilk hekayələrinin bir çoxu bədii sənətkarlıq cəhətdən xeyli sonralar yazdığı əsərlərindən heç də zəif deyildir, hətta, yaradıcılığının ən uğurlu nümunələri də sayıla bilər. Adətən, bədii yaradıcılığın ilk nümunələri daha çox mövzu, üslub və başqa sənətkarlıq məsələlərində axtarışlar, kamilləşmə prosesi kimi səciyyələnir. Mir Cəlal isə elə ilk hekayələrindən, sanki, özünü "tapır"; sonralar yazıçının hekayəçilik manerasında aparıcı və səciyyəvi görünəcək bir sıra sənətkarlıq əlamətləri elə ilk əsərlərindən diqqəti cəlb edir. Təbii ki, Mir Cəlalın bədii təsvir və xüsusən, təhkiyə üslubunda psixoloji dərinlik, dəqiqlik, süjet qurmaq və tipik xarakter yaratmaq ustalığı sonralar xeyli inkişaf etmişdir. Lakin əsl Mir Cəlal üslubunu o, lap ilk hekayələrindən tapmışdır. Ədibin roman yaradıcılığında da eyni vəziyyət müşahidə edilir.

Həmçinin, yumoristik üslub da onun ilk əsərlərindən başlayaraq, aparıcı mövqe tutur. Mir Cəlal gülüşü isə sərrast kinayələri, eyhamlı atmacaları, hətta, çoxmənalı intonasiyaları ilə özünəməxsusdur, təkrarsızdır.

Klassik Azərbaycan ədəbiyyatdakı bədii gülüş daha çox kədərli intonasiyaya, qəmli, hətta, fəci məzmuna malikdir. Və bu ənənə zaman-zaman yeni məzmun və forma zənginlikləri ilə təkamül tapır. Lakin

müdrik və sərrast gülüş məharəti hər ədibə nəsib olmur. Məhz burada xüsusi istedad lazımdır. Özü də şəxsi xarakterdən, gerçəkliyə fərdi baxışdan mütləq asılı olan, təbii (!) meydana gələn, yaranan gülüş istedadı və bacarığı olmalıdır!

Mir Cəlalı yaxından tanıyanlar duzlu, əndazəli yumoru onun fərdi təbiətinin ən səciyyəvi keyfiyyəti kimi, mütləq xatırlayarlar. Adi söhbətlərindəki sakit və səmimi intonasiya, ətrafındakı ən kiçik çatışmazlıqları sezmək, duymaq intuisiyası (əslində, isdedadı!), sözü açıq, şax demək adəti və (ən əsası) gülüş obyektindəki komikliyin səciyyəvi cəhətlərini nəzərə çatdırmaq bacarığı Mir Cəlal gülüşünün xarakterini, məzmununu müəyyənləşdirirdi.

Ədibin əsərlərindəki gülüşün tənqid diapazonu çox genişdir. Burada qardaşının bostanını oğurlayan dələduzlar («Bostan oğrusu»), fanatik təfəkkürlü avamlar («Peşmançılıq») insan taleyinə biganə olan bürokratlar («Qəmbərqulu»), sağlam adamları zorla «müalicə» edib, yeni «müalicə metodları» tapıb, dissertasiya müdafiə edən fırıldaqçı tibb işçiləri («Dissertasiya»), hər kəsə vəzifəsinə, ictimai vəziyyətinə görə müxtəlif şəkildə salam verən simasızlar («Neçə cür salam var») Mir Cəlal gülüşünün əsas hədəfləridir.

Gülüş effektinə, tənqidi məqsədinə ədib komik süjetlərlə, yumoristik və satirik surətlər əsasında, bədii təhkiyədəki kinayə intonasiyalarında, dialoqlarda, surətlərin fərdi nitqində, hətta, ayrıca təsvir detalları əsasında nail ola bilir. Gülüşü «bədii silah» hesab edən Mir Cəlalın hər bir əsərində ədibin nəyə güldüyü, niyə güldüyü və necə güldüyü dəqiq ünvanlıdır, aydın məqsədlidir, effektlidir.

Mir Cəlalın əsərlərindəki tənqidi gülüşün mahiyyətini, məzmununu əsas etibarilə yaşadığı cəmiyyətdəki, ictimai mühitdəki müxtəlif dərəcəli qüsurlara ədibin barışmaz vətəndaş münasibətləri təşkil edir. Bu gülüş həmişə yüksək bəşəri ideallar və böyük ictimai məramlar mövqeyindən çıxış edir. Bu gülüşün forma və üsulları da rəngarəngdir. Burada yumor aparıcı olsa da, yeri gəldikdə, kəskin satiraya, hətta, amansız sarkazma da rast gəlmək mümkündür. Kinayə isə Mir Cəlalın bədii təhkiyəsinin çox fəal tərkib hissəsidir. Kiçik, lakonik kinayələr böyük mətləblərin izahında, surət və hadisələrə müəllif tendensiyasının izharında dəqiq bədii funksiyaya malikdir. Eyni zamanda kinayələr təhkiyənin bədii-estetik cazibəsini də xeyli qüvvətləndirmiş olur.





Vaxtilə Mir Cəlal C.Məmmədquluzadənin nəsrindən bəhs edərkən onun hekayələrini, müəllif mətləbini əksetmə üsullarına görə portret hekayələri və əhvalat hekayələri kimi səciyyələndirmişdi. Bu təsnifat Mir Cəlalın öz hekayələri üçün də çox səciyyəvi görünür. O əsərlərdə ki, müəllif mətləbi əsas qəhrəmanın xarakteri və taleyi əsasında bədii ifadəsini tapır, onların adında da buna işarə olunur («Mirzə», «Həkim Cinayətov», «Sara», «Nənənin hünəri», «Mərcan nənə» və s.). Müəllif fikrinin, məramının bədii təcəssümündə daha çox süjetin cərəyanına, istiqamətinə istinad olunan əsərlərin adında isə hadisələrin mahiyyətinə tutarlı işarələrə yer verilir («Qüdrət nümayişi», «Peşmançılıq», «Qocaların uşaq söhbəti», «Xarici naxoşluq», «Şapalaq», «Şərait yoxdur» və s.). İkinci qrup, əhvalat hekayələri ədibin yaradıcılığında daha çoxdur. Yaradıcılığının əvvəlki mərhələlərində isə portret hekayələri üstün yer tutmuşdur. Portret hekayələrində Mir Cəlalın psixoloji təhlil bacarığı, bənzərsiz talelərin, mürəkkəb xarakterlərin təhlilindəki həssas, riqqətli təsvir imkanları diqqəti daha çox cəlb edirsə, əhvalat hekayələrində orijinal, cazibədar süjetlər qurmaq bacarığı və şirin, səmimi təhkiyə tərzi aydın nəzərə çarpır. Ümumiyyətlə, Mir Cəlalın hekayə yaradıcılığının klassik ənənələrin yeni mövzular, problemlər əsasında davam və inkişaf etdirilməsində, müasir Azərbaycan hekayəsinin məzmun və forma cəhətdən kamilləşməsində müstəsna yeri vardır.

■ ■ ■

Mir Cəlal eyni zamanda ilk qələm təcrübəsi olan bir sıra şeirlərin, müxtəlif illərdə yazılmış oçerklərin, bədii tərcümələrin və xatirələrin də müəllifidir. Ədibin 1926-29-cu illərdə çap olunmuş şeirlərində ozamankı poeziyamızın ənənəvi motivləri öz əksini tapmışdır. Bu şeirlər həm mövzuları, həm də dil və üslub xüsusiyyətləri ilə Mir Cəlalın ədəbiyyat aləmindəki ilk axtarışlarını səciyyələndirir. «Şimaldan səs» və «Dənizin cinayəti» şeirlərində lirik tərənnüm aparıcıdır, inqilabi təkamülə ümid, inam böyük vəcdlə vəsf olunmuşdur.

Təbii ki, bu şeirlər hələ tam poetik kamillikdə deyildir, istedadlı bir gəncin həyat və cəmiyyət haqqında öz fikir və istəklərini obrazlı təcəssüm etmək arzularının, axtarışlarının orijinal nümunələridir. Bu şeirlərdə ümumən ozamankı proletar ədəbiyyatının inqilabi pafosu, inqilaba səadət gətirəcək bir nicat ümidi kimi baxan şairin mübarizə həyəcanları səmimi ifadəsini tapmışdır. Lakin bu şeirlərdə Mir Cəlalın bədii təxəyyülünün, fitri istedadının bəzi əlamətləri də özünü biruzə verir. Bu şeirlərdə sənətkarlıq baxımından orijinal obrazlaşdırma üsulları, fikrin poetik ifadəsindəki zəngin metaforalar diqqəti cəlb edir.

«Şimaldan səs» Rusiyadan gələn inqilab dalğalarına işarə ilə yazılmışdır. Həmin inqilabın «Qızıl Azərbaycan»ın yaranmasına səbəb olmasına, yeni cəmiyyətin yaradılmasına pafoslu misralarla işarə vardır. Şeirin adı yanında müəllifin «Aprelimiz münasibətilə» yazması da təsadüfi deyildir.

Mir Cəlalın ilk şeirlərinin mövzuları və inqilabi pafosu iyirmi və otuzuncu illərdəki poeziyamızın ümumi ruhu, əsas mövzuları ilə əlaqədar və onun bir təzahürü idi. «Şimaldan səs» sərbəst şeirin ritm və qafiyə prinsiplərinə hələ tam uyğunlaşmasa da, bədii obrazlılığının orijinallığı ilə diqqəti cəlb edir. Şeirin əvvəlində deyilir:

*Məhbəsim əbədiyyətin məzarı kibi qaranlıqdır,*
*Dəmir qəfəsimi dəmir divarla hasarlayan canavar gözlü qartallar*
*Daima ayıqdı!..*
*Ağır, dəmir*
*Zəncir*
*Atəşli ah ilə yanan boğazımı silir*
*Ülviyyətim əzilirdi!*
*Səsim acizliyin kimsəsiz üfüqlərində sönür,*
*Varlığımın sonu kimi nəfsin, ölgüncəsinə donur!..*

Burada lirik qəhrəman məhbəs saydığı köhnə həyatın ağırlığını «əbədiyyət məzarı»na bənzədir, ömrünü yaşadığı həmin «dəmir qəfəsin» çarizmin simvolu olan «canavar gözlü qartallar» tərəfindən əlavə bir «dəmir divarla» da hasarlandığını nəzərə çatdırır. Çəkdiyi əzabları



ifadə etmək üçün «atəşli ah ilə» yanan boğazının «ağır, dəmir zəncirlərin» «sildiyini» deyir. Və bu əzablarda məhv olduğunu ifadə edərkən «Səsim acizliyin kimsəsiz üfüqlərində sönür» kimi qüvvətli metaforik ifadə tərzi tapır!

«Dənizin cinayəti»ndə Qara dənizin zahiri görünüşü səciyyəvi detallarla təsvir olunandan sonra onun cinayəti də xatırlanır; «Mustafa Sübhi» adlı bir gəminin batması «dənizin cinayəti» hesab edilir. Bildirilir ki, «Ta yaşayan «Sübhilər» qoparacaqdır qiyam». Açıq görünür ki, şeirdə Qara dəniz köhnə dünyanın bir növ alleqorik əvəzi, bədii obrazı kimi nəzərdə tutulmuşdur (Dənizin adındakı qaralıq da fikrə tutarlı dayaqdır). Məşhur türk inqilabçısı Mustafa Sübhinin adını daşıyan gəmi isə inqilabi qüvvələrin təmsilçisi kimi nəzərə çatdırılmışdır. Şeirin sonu belə bir fikri uğurla yekunlaşdırır:

*Onun ayıq pərəli yüzündəki rəşadət,*
*Bu dənizdə bir zaman qoparacaq qiyamət!*
*Dalğaları sıvrılıb saflanacaq ki, bir gün!*
*İntizar yürəklərə yapılacaq son dügün!*

«Anamın vəsiyyəti» və «Müxbir» şeirləri də inqilabi əhval-ruhiyyənin bədii təcəssümü, nisbətən konkret, görümlü obrazlarda ifadəsidir. Birinci əsərdə ana vəsiyyətinə əməl edən oğulun təhsil alması, cəmiyyət hadisələrinə inqilabi təsəvvürlərin prizmasından yanaşması göstərilmiş, ikincidə isə yeni cəmiyyətdəki müxbirlərin əməyi təqdir edilmiş, «sosializm elinin bir gözətçisi» olması alqışlanmışdır.

"Qızıl Oktyabr" şeiri isə daha çox təbrik məzmunundadır. Bu şeirdə ölkədəki tərəqqi, fəhlə və kəndlilərin yeni həyatı vəsf olunmuşdur.

Mir Cəlalın şeirləri içərisində əruz vəznində yazılmış dörd satirik şeiri də böyük maraq doğurur. "Ramazan həsrəti", "Məscid büsatı", "Sərxoşlar" və "İmperialistlər Tanca üzərində boğuşurlar" şeirlərində ədib zəmanəsinin müxtəlif aktual məsələlərinə münasibət bildirmişdir.

Mir Cəlalın şeirlərindən aşkar bilinir ki, o hələ məzmun və forma axtarışlarındadır. Lakin həmin şeirlərdə bir cəhət xüsusi olaraq, diqqəti cəlb edir. O da fikrin poetik obrazlılığındakı orijinallıqdır.

Ədibin oçerklərinin bir qismi otuzuncu illərin məhsulu olmaqla, həmin dövrün cəmiyyət həyatındakı təbəddülatlara, siyasi-ictimai təzadlara, yeni həyat ümidi ilə çoşqun fəaliyyət göstərən insanların dünyagörüşündəki böyük dəyişikliklərə, maarif və mədəniyyətdəki inkişafa həsr olunmuşdur. Bu oçerklərdə həmin illərin çoşqun pafosu, qurub-yaratmaq əzmi ilə çalışan insanların nikbin arzuları, idealları, gələcəyə ümidi, həmçinin, bəhs olunan mühitin səciyyəvi əlamətləri maraqlı süjetlər, yaddaqalan obrazlar əsasında sadə, aydın və publisist üslubda təsvir olunmuşdur («Qələbənin açarı», «İşləməyən dişləməz», «Bayrağı bərk saxla», «Azad qız», «Boy» və s.).

Ümumiyyətlə, Mir Cəlalın oçerkləri ölkəmizin ictimai həyatının müxtəlif həlledici mərhələlərindəki əhəmiyyətli, səciyyəvi problemlər və hadisələr barədə, həmçinin, zamanın mənəvi-psixoloji xarakteri haqqında bitkin təsəvvür yaradır. Müharibə illərində həmyerlilərimizin cəbhədəki əfsanəvi şücaəti, arxadakı əmək adamlarının vətənpərvərlik əzmi, eyni zamanda həmin illərin nigaran üzüntüləri çox lakonik və səciyyəvi təfərrüatlarla nəzərə çatdırılmışdır. Bu oçerklərdə ədibin vətəndaşlıq həyəcanları bəzən yüksək pafosda, bəzən də niskilli lirik intonasiyalarda bədii təsvir və təhkiyələri istiqamətləndirməkdədir («Xalqın ürək sözü», «İsrafil», «Vətən qəhrəmanı», «Snayper» və s.).

Mir Cəlalın istər müharibə mövzusuna, istərsə də dinc quruculuq illərinə aid oçerkləri kompozisiya-struktur etibarı ilə də fərqlidir, orijinaldır. Sovet İttifaqı Qəhrəmanı İsrafil Məmmədov haqqında olan oçerk doqquz kiçik başlıqdan ibarətdir, hardasa sənədli povesti xatırladır. İsrafilin uşaqlıq illəri, hərbi təhsili, orduda mətinləşməsi, nəhayət, qəhrəmanlığı barədə çox müfəssəl və təsirli təfərrüatlar, faktlar bir-birini tamamlayır. Həmçinin, iki dəfə Sovet İttifaqı Qəhrəmanı general-mayor Həzi Aslanova həsr olunmuş «Vətən qəhrəmanı» oçerkində altı başlıq əsasında bu əfsanəvi qəhrəman haqqında mükəmməl təsəvvür yaradılmışdır. Dinc quruculuq illərinə aid olan dördhissəli «Yeni kəndin adamları» oçerki dörd Sosialist Əməyi Qəhrəmanına aid silsilədən ibarətdir. Təbii ki, oçerklərdə də Mir Cəlal təhkiyəsinin təbiiliyi, şirinliyi öz təravətini saxlamışdır. Hekayələrindəki dinamik dialoqlar və səciyyəvi təfərrüatlıq da öz yerindədir.





Mir Cəlal müxtəlif illərdə bədii tərcümə ilə də məşğul olmuşdur. Ədibin xatirələrində göstərilir ki, onun ilk çap olunmuş əsəri V.Mayakovskinin «Zərbəçilər marşı» şeirinin tərcüməsi olmuşdur. Lakin bu tərcümə indiyədək tapılmamışdır. Ədibin ikinci, üçüncü tərcümələri də şeirdir. Özbək ədəbiyyatından Həmid Alimcanın üçhissəli «Dəmir kanun» və Sabirə Xaldarovanın «Kaspi dənizinə» adlı inqilabi məzmunlu, döyüşkən ruhlu şeirləri Mir Cəlalın tərcüməsində çap olunmuşdur. Həmçinin, özbək ədəbiyyatından Mir Teymurun yeni həyatı tərənnüm edən «Dan» şeirinin və «Məstan ay» adlı hekayəsinin, bir də Bəhram İbrahimovun yeni həyata can atan, fəqət, mürtəce qüvvələr tərəfindən amansızcasına məhv edilən gənc qızın faciəsindən bəhs edən «Şahidə» hekayəsinin tərcümələrini göstərmək olar. Ədib 1956-cı ildə isə türk yazıçısı Fəxri Erdincin «Məktub» adlı irihəcmli hekayəsinin tərcüməsini çap etdirmişdir. Lakin Mir Cəlalın ən böyük tərcümə əsəri Nizami Gəncəvinin «Yeddi gözəl» poemasının nəsr variantı sayıla bilər.

Mir Cəlal nəzmlə bir neçə balaca felyeton, nəsrlə isə cəmi bir felyeton yazmışdır: «Dardanel». Əslində, müəllifin «felyeton» başlığı ilə çap etdirdiyi bu əsər gözəl satirik hekayəni xatırladır. Əsər konkret həyati faktlara əsaslanmır, tənqidi mətləb bədii surətlərin simasında təcəssüm olunur. Burada pivə və su köşklərində böyük qazanc götürən bir tüfeylinin həyat tərzi çox məzəli üslubda, maraqlı süjetdə və komik dialoqlarda nəql edilmişdir.

Mir Cəlalın iki irihəcmli xatirələri də həm faktların zənginliyi, həm də təhkiyə və təsvir cazibədarlığı etibarilə diqqəti çəkir. «Parisdə görüş»də ədibin Fransa təəssüratları, xüsusən, gözəl Parisin dəqiq vəsfi oxucunu yeni bir aləmə aparır, fransız xalqının təbiəti və məişətilə yaxından tanış edir. «Bakı görüşləri» əsəri isə ədibin tərcümeyi-halına və tale yoluna aid son dərəcədə yeni, zəngin məlumatlarla diqqəti cəlb edir. Gəncədəki seminariya illəri, əmək fəaliyyətindəki ilk mərhələlər, bir sıra məşhur ədiblər, alimlər və ictimai xadimlər haqqında çox maraqlı, bəlkə, heç vaxt deyilməmiş faktlar, epizodlar burada öz əksini tapmışdır. Mir Cəlalın tərcümeyi-halının müəyyən dövrü bu xatirələrdə olduğu kimi, heç bir mənbədə izlənə bilməz.

Hər bir xalqın bədii ədəbiyyatı onun taleyini və tarixini tam dəqiqliyi və müfəssəlliyi ilə özündə təcəssüm etdirən bədii abidələrdən ibarətdir. Bütün varlığı ilə xalqına bağlı olan Mir Cəlalın da yaradıcılığında xalqımızın təxminən yarıməsrlik tarixinin müxtəlif mərhələlərindəki ictimai-iqtisadi və mənəvi-psixoloji vəziyyəti, taleyi zəngin həyati faktlar, vüsətli bədii təxəyyül hesabına məharətlə təcəssüm etdirilmişdir.

***Nərgiz Paşayeva***



# MİRZƏ

İki Mirzə Şəfi var. Birisi – bildiyiniz məşhur Mirzə Şəfi, ikincisi – mənim məşhur etmək istədiyim Mirzə Şəfidir.

– Ədə, sənə demirəm, başını dik tut? Qoduq kimi nə qaş-qabağını sallamısan, dərsi söylə!

Mirzə bu kiçik uşağı diri-diri yemək istəyirdi. Turşumuş xamıra oxşayan qırışıq üzü çuğundur kimi qızarmışdı:

– Allah, balam, ya sizi öldürsün, ya məni, yaxam qurtarsın! Əziz ömrü-günümüzü puç elədiniz! Ananız sizi doğunca bir daş doğaydı!

Əllərini şalvarın cibinə qoyub, sinifdə gəzə-gəzə quduz kimi hayqırıb, ürəyini boşaldırdı. Sallaqxana qatırı kimi dodağını sallamışdı. Papiros tüstüsündən saralıb samana dönən bığları ağzına dolurdu. Çəkməsinin ağarmış burnu əyilmiş və uzun şalvarı yer süpürürdü. Boğazlığı tazı xaltası kimi laxlamış, qalstuku hər tərəfə hərlənirdi. Gün istisindən qızarıb qabıq qoyan boynu incəlmişdi. O, boğazını arıdaraq davam etdi:

– Sizdə günah yoxdur, günah sizi mal dalından yığıb məktəbə gətirəndədir. Naxırçı hara, məktəb hara! Sizə yaraşıb tövlə kürümək, mal

yemləmək... Adamın gərək zatında bir şey olsun, zor ilə iş olmaz. Gorun çatlasın, Sədi!

*"Pərtövi-nikan nəgirəd hər ki, bünyadəş bədəst,*
*Tərbiyət na əhlra çün girdəkan bər günbədəst..."*

Mirzə Şəfi burada üzünü turşutdu. Köhnə arvadına lənət oxuduğu və qızdığı dəqiqələr yadına düşdü. Əl-qolunu ölçərək ifadəsini şiddətləndirdi:

– Döyürsən – olmur, döymürsən – olmur... Eh!..

Bu, birinci dəfə deyildi. Sıralarda oturan sakit, top kimi sağlam kənd uşaqları müəllimlərinin xasiyyətinə öyrəşmişdilər. Ona görə də çox zaman ehmallı gəlib, ehmallıca gedərdilər. Müəllimin qabağında dinməzdilər. Bəzilərinin atası demişdi: "Oğul, ətin mollanındır, sümüyün mənim". Ancaq Mirzə Şəfini pərt eləyən, ovqatına soğan doğrayan, daha doğrusu, içgiçilik, uşaq döymək, səhlənkarlıq kimi "xırda-mırda" işlərinin üstünü açan komsomollar onun canını boğazına yığmışdılar. Ən nəhayət, divar qəzetində buraxılan karikaturada Mirzənin xirtdəyə qədər çaxır çəlləyinə girdiyi və ağzından ayə töküldüyü göstərilirdi.

■ ■ ■

Gecə idi. Alçacıq dağın ətəyində yerləşən Söyüdlü kəndi tozlu küçələri, qazma damları, çardaqlar altında yemdən doyaraq qaşınmağa və yalaşmağa başlayan mal-qarası ilə yatır kimi idi. Bu, adi gecələrə bənzəmirdi. Nə rayona məhsul aparan və ya mal gətirən arabaların, nə şəhərdən qayıdarkən gecikmiş adamların şirin söhbət və salamlaşmaları, nə meşə qaraulunun fit səsi eşidilirdi, yalnız uzaq dağların arxasında, sudan çimib çıxan ay qıpqırmızı qızaran mis kürəsi kimi görünürdü.

Evlərdə işıldayan lampaların qabağından uzuntuman kənd qadınlarının ötüb-keçmələri, axşam yeməyinə tədarük görüldüyünü anladırdı. At-araba, kotan səsləri kəsilmişdi. Yaxındakı dərə sularında quruldayan qurbağaların səsinə bəzən köpəklər hürüşürdü.

Mirzə Şəfi ağzındakı tikənin yekəliyindən nəfəs ala bilmirdi. Dirsəyini qaldırıb böyründəki ağ və üzü tikməli balışa söykəndi, udqundu. Gəc ilə suvanmış bəzəkli evin sanki dirəkləri də süfrəyə tamahsılanırdı. Pərizad xala bayırda mal-qaraya baş çəkir, gahdan bir pəncərədən içəri baxırdı. Bişirdiyi yeməyin şirin yeyilməsindən bildi ki, o hər şeydə naşı olsa da, əl suyu verməklə aş bişirməkdə ustadır. "Nazbarı" deyil ki, yeniyetmələr süzsün, Pərizad xala bacarmasın!

– Bu qədəhi Mirzə Şəfinin, on iki ildən bəri kəndin ölüsünə-dirisinə yiyə duran, uşaqlarımızı elmləndirən Mirzənin sağlığına!

Qədəhlər bir-birinə toxunduruldu:

– Sağ ol, Mirzə Şəfi. Yaşa!

– Mirzə, sən mənə də dərs vermisən, qadan alım!

– Öpürəm səni! Dərdimiz, dediyim adamların ürəyinə!

– Sağ ol, Mirzə Şəfi! Dünya durduqca...

Ağızdan eşidilən sözlərə yekun vuran Mirzə, bığlarını tumarlaya-tumarlaya cavab verirdi:

– Qardaşlarım, sağ olaq, var olaq, yeyək, içək, bülbül olaq, qəfəsdə olmayaq... Qəfəs çox köpək oğlu şeydir.

İkinci qədəhlər ləbaləb dolu idi. Söz Mirzənindi. O, bir parça soğan çeynəyərək dəvə kimi dizi üstə oturdu. Onun bədəni buğlanır, ağzından tüstü çıxırdı. Qonaqlar dinləyirdi. Mirzə bir az tarixdən dedi:

– Bu gün buraya yığılanlar kəndin başbilənləridir. Ağalar, əminəm ki, aramızda günortadan sonra kişi olanlar yoxdur. Hacı Ağakişi, Məşədi Qurban, Cahan bəy, Məhəmməd koxa... Bizlər elə əvvəldən də, şükür Allaha, korluq çəkməmişik. Sözbir, əlbir olandan sonra yenə də çəkmərik. Mən İrandan gələndə... – Mirzə burada Hacı Ağakişiyə işarə ilə təbəssüm etdi və dedi:

– Mən İrandan bir əba, bir qəba ilə gəlmişdim. Allahın dövlətindən sizin kimi kişilər sayəsində güzəran sahibi oldum. Burada da sözüm yox. Bir neçə kəlmə gəldi-gedərdən danışmaq istəyirəm. Məni bir bu kənd yox, hamı tanıyır. Necə dərs verirəm, necə uşaqları başa salıram, necə xeyirə-şərə qarışıram, bunda da sözüm yox. Gələk mətləb üstünə. İspalkom mənim ilə bəd başlayıb. Üç-dörd nəfər komsomol oxuyur. Sizə də bəllidir ki, onların əxlaqı! Dolaşmamış adam qoymamışlar.

Hacı Ağakişi yerindən dilləndi:

– Lüt Kərimin oğlu, Abdal Balaxanımın nəvəsi.

– Ay Allah onları borcuna çıxsın.
Mirzə davam etdi:
– O gün divar qəzetində məni bihörmət ediblər. Çıxıb qovlamışam. İspalkom və özək katibi o yandan gəliblər ki, sənin ixtiyarın yoxdur. Qanun belə gəldi, özünütənqid elə getdi... Mən on elə ispalkomları, katibləri suya susuz aparıb, susuz gətirərəm. Doğrudur, indi elə adamların işi xoddur, amma mənə də Cüggü Mirzə deyərlər. Tənqid hər kəsə olsa da, müəllimə xilaf işdir. Müəllimin ki, əzrail zəhmi uşağın gözündə olmadı, götür, yığışdır. İndi uşaq ata-ananın sözünə də qulaq asmır.
Hamı birdən:
– Ay tovba! Atanı adam yerinə qoyan kimdir? Ətbala sərçə kimi dünənki tüksüz sığırçınlar bu gün qomsomol olub müəllimə dolaşırlar.
Mirzə bir az da ürəkləndi.
– Mən neçə dəfə onların barəsində "yerinə" yazmışam. Ancaq yazığım gəlir, bərkə salmıram. Mən bilirəm nə edərəm! Komsomolsan, get komsomolluğuna, məktəbə nə təallüqün var? Məni buraya komsomol qoymayıb ki, o da işimə qarışa! Qoy ağsaqqallar desinlər mənim barəmdə. Mən içdim sənə nə, içmədim sənə nə? Qaldı ki, uşaq döymək məsələsi, çağırılmış bayatıdır ki, xam öküzü kotana qoşanda nə qədər soncuqlar. Başını boş buraxsan öyrətməkmi olar? Gərək döyəsən, qulağını çəkəsən. Birdən-birə adam usta olmaz. Mənim özümü neçə dəfə falaqqaya salıblar. Yoxsa mən elm sahibi ola bilərdimmi? Mən kəndin müəllimi deyiləm, atasıyam.
Cahan bəy qara çaxır ilə dolu stəkanı yerə qoyub, Mirzənin sözünü kəsdi:
– Düzdür! Mirzə Şəfi başımızın yiyəsidir. Onsuz bir günümüz olmasın!
Mirzə bir az da ürəkləndi və burada öz fəaliyyətindən neçə "qələm" xərcə verməyi lazım bildi:
– Özgə kəndlərdə klublar açıblar. Çadrasını atmayan qız qalmadı. Şəriət əldən gedir. Abır-həyanı saxlamaq üçün mən buranı birtəhər yola vermişəm. Bunu deməkdən məqsədim – sağ olsun o kişilər ki, Mirzəni uşaq-muşağa satmazlar və Mirzə də onların yolunda can qoyub və qoyacaq. Sağ olsun namuslu kişilər, qədirbilən simalar!
Qədəhlər boşaldı. Süfrə qırağında oturanların boynu büküldü. Mirzə Şəfi qırmızı və xumarlanan gözlərini gah bir açıb, yumur, ölü yerində quran oxuyurmuş kimi, irəli-geri yırğalanır, yaralı səsi ilə oxuyurdu: "Gözün qurbaniyəm, saqiii..."

■ ■ ■

Bu əhvalatdan bir ay sonra Mirzə Şəfi ilə maarif müdiri arasında belə bir danışıq oldu:
– Məni Söyüdlü kəndindən götürmüşsünüz?
– Bəli!
– Bəs hara təyin etmişsiniz?
– Evinizə.
– Axı mən səkkiz ildir müəlliməm, işləyirəm.
– Odur ki, sizə dincəlmək lazımdır. Bəsinizdir, çox işləmişsiniz.
– Ayrı məktəbə qoya bilməzsiniz?
– Yox!
Maarif şöbəsinə müxtəlif iş üçün dəstə-dəstə müəllim, tələbə girib çıxırdı. Hamı divarın dibində kötük kimi dayanan, hərəkət etməyən Mirzə Şəfinin üzünə baxıb ötürdü. Mirzənin sifəti qızarmışdı. Üzünün qırışıqları dərinləşmişdi. Kirpikləri tökülmüş və çuxura düşmüş gözləri muncuq kimi işıldayırdı.

*1930*

# HƏKİM CİNAYƏTOV

Gənc tələbə Ramazan Əlizadə səhiyyə şöbəsində ərizəsinə dərkənar qoydurub, tələsik müalicəxanaya yollandı. Qırmızı mürəkkəblə və xırda xətlə yazılmış dərkənar bu məzmunda idi: "Təcili tibbi yardım göstərməli!"

Ramazan atasının başına gələn bədbəxt hadisədən çox təşvişə düşmüşdü. Atasız qalacağını təsəvvür etdikcə beyninə bir ağrı dolurdu. Özünə ümid verərək deyirdi: "Atamın yarası bir o qədər qorxulu deyil. İndiki həkimlər ölünü dirildirlər. Atam üçün niyə qorxuram? Klinikadan bu saat bir həkim alaram, təcili müalicəsinə başlaram".

Ramazan bu kimi fikirlərlə klinikanın qapısından içəri girdi. Bir tərəfdə qadınlar durmuşdu. Bunların duruş və baxışlarından xəstəlik yağırdı. Çoxunun qucağında azarlı uşağı vardı. Kiminin başı, üzü və ayağı sarıqlı idi.

Ramazan şapkasının günlüyünü qaldırdı, ətrafa baxa-baxa müdirin otağını tapdı. Onun işi rayon həkiminə aiddirsə də, səhiyyə şöbəsinin təkidini müdirə söyləməyi yersiz görmədi.





Müdir Ramazanı hörmətlə qarşıladı. Onun atasının başına gələn qəzanın nədən ibarət olduğunu dinlədi. Sonra onu bir tibb bacısına qoşub, rayon həkiminin yanına göndərdi.

Ramazanla tibb bacısı müalicəxananın çiçəkli və ağaclı həyatinə çıxdılar, bir alçaq pilləkəndən qalxdılar. Balaca otağa girdilər. İki nəfər ağ döşlüklü gənc qız nömrə üçün kağız doğrayırdı. Stolun dalında kök, ortaboylu, alnının qırışları uzaqdan görünən bir həkim oturmuşdu. Müəyyən bir işi yoxdu. Yalnız kağız doğrayan qızlarla söhbət edirdi. Hərdənbir söylədiyi məzəli sözlərdən qızlar şaqqıldayıb gülür, həkim də öz müvəffəqiyyətindən açılırdı.

Ramazan gözünü stolun üzərindəki siyahıya dikib, həkimi gözlədi. Həkim Cinayətov öz işində idi. Qızlardan birisi Ramazana baxaraq, həkimə nə isə dedi. Həkim naşı bir ifadə ilə:

– Nə istəyirsən, balam? – deyə soruşdu.

Ramazan əlindəki kağızı göstərərək, izah etdi:

– "Yerevanlılar" küçəsində oluruq. Atam kankandır. Quyuda işlərkən yuxarıdan düşən daş çiynini yaralamışdır. Bərk xəstədir. Buraya gətirmək mümkün olmadı. Təcili kömək lazımdır.

Həkim Cinayətov həvəssiz bir halda əvvəlcə Ramazanın səhiyyə şöbəsinə yazdığı ərizəni oxudu. Sonra səhiyyə şöbəsinin dərkənarını nəzərdən keçirtdi. Qızlardan birisi naz sata-sata həkimə bir şey anlatmağa başladı. Ramazan tələsirdi. Həkim isə hələ yerindən qımıldanmaq istəmirdi. Nəhayət, qız sözünü bitirdi. Həkim başını qaşıyaraq güldü, qızlar da gülüşdü. Ramazan həkimin diqqətini səhiyyə şöbəsinin yazdığı "təcili" sözünə cəlb etmək istədi.

– Səhiyyə şöbəsində onu çox təcili yazdılar. Tələsik gəldim. Tez kömək etməsəniz, sonrası qorxulu olacaq, atamın halı ağırdır.

Həkim Cinayətov haqq-hesab dəftərçəsini istədi. Ramazan tez təqdim etdi. Həkim yenə tələsmədən, qızlar ilə mazaqlaşa-mazaqlaşa iki-üç dəfə haqq-hesab dəftərçəsini başdan-ayağa varaqladı. Sonra bir papiros yandırdı. Əlinə bir kağız aldı. Soruşmağa başladı:

– Adınız? Familiyanız? Küçəniz?

Ramazan bitmək bilməyən cansıxıcı sualların hamısına cavab verdi. Həkim bu işi bitirdikdən sonra kamali-səliqə ilə suçəkəni aldı, yaz-

dığı sual vərəqini qurutdu, ağır bir işdən qurtarmış kimi geniş bir nəfəs aldı, stula söykəndi. Qollarını boynuna çataraq, bərk gərnəşdi. Stulun cırıltısına qadınlar da gülüşdülər. O, saxta bir ciddiyyət göstərərək, yumruğunu stola vurdu, onlara acıqlandı. Təkrar gülüşməyə başladılar.

Ramazan cəsarətlə dedi:

– Yoldaş həkim, tələsmək lazımdır.

– Siz gedin, xatircəm olun, mən adam göndərərəm.

Ramazan sıxıldı. Atasına təcili yardım lazımdı. O, həkimsiz qayıda bilməyəcəkdi. Bu fikrini anlatdı. Cinayətov çəkdiyi papirosu külqabında söndürərək soruşdu:

– Yerevanlılar küçəsi haradadır?

Ayağa qalxıb, divardan asılan planın qabağına getdi, aramağa başladı. Ramazan ona kömək edib, küçəni ona göstərdi.

Həkim:

– Bura çox uzaqdır, – dedi, – piyada necə getmək olar?

Ramazan əsəbiləşdi:

– Həkim yoldaş, tələsmək lazımdır! Siz getməyəcəksinizsə, mən başqa bir həkim istəyim?

Cinayətov ayağa qalxdı. Təkrar oturaraq, üzünü qızlardan birisinə tutdu, onu o birisi otaqdan başqa bir həkim çağırmağa göndərdi. Bu ikinci həkimin gəlib çıxması yarım saat çəkdi. Cinayətov əvvəlcə başqa bir iş haqqında danışdı. Sonra onu Ramazanın atasına baxmağa göndərmək istədi. O isə getmək istəmirdi. Axırda Cinayətov özü getməli oldu. O, otaqdan çıxınca Ramazan iki dəfə klinikanın bayır qapısından çıxıb, təkrar geri qayıtdı. Həkim çox naz ilə yeriyirdi, ağır addımları ilə Ramazanı əsəbiləşdirirdi. Ramazan nə qədər tələsirdisə, Cinayətov bir o qədər ağır tərpənirdi, öz vəziyyətini dəyişmirdi, bəzən ilk dəfə görürmüş kimi, mağazaların vitrinlərinə tamaşa etməyi də unutmurdu. Ehtimal, həkim öz yerişində hifzi-səhhət qaydalarına riayət etmək istəyirdi.

Nəhayət, gəlib qapıda on dəqiqədən bəri gözləməkdə olan Ramazana yetişdi. Xəstənin başı üstünə gəldi. Yorğan altında işıldayan zəif və batıq gözlərə baxdı, "haran ağrıyır, niyə yatmısan?" – deyə bir neçə məlum sual verdi. Xəstənin istiliyini ölçmək, tənəffüsünü, ürək fəaliyyətini yoxlamaq məqsədilə termometri, trubkasını axtardı. Kostyum, şalvar ciblərini bir-bir yoxladı, tapa bilmədi.

– Vay səni... – deyə təəssüfləndi. Öz hafizəsizliyini söydü. Unutduğu şeyləri gətirmək üçün təkrar ağır addımlarla müalicəxanaya tərəf hərəkət etdi.

*1930*

# HACININ XƏYALI

"Dünyanın işi belədir. Zahirdə dəhşətli görünən qanunlar insanların özləri tərəfindən verilir və rədd olunur. Vay o adamın gününə ki, bunu başa düşməsin, qəzetlərə, deyilənlərə inansın. Elə götürək mənim özümü. Bir zamanlar dəli pristavın qaradavoyu oldum; onda gəncdim, qoçaqdım, gözümü ağardanda qorxudan boğaz inəklər bala salardı.

Fələk vurdu, müsavat taxta çıxdı, qulluqlar dəyişdi, tanış olmadığım adamlar iş başına keçdi. Xosrov bəyə bir qırqovul, bir də damazlıq inək bağışlamaqla kəndin yüzbaşılığını aldım. Əsl ömür-günüm buradan başladı...

Bolşeviklər olduqca ayıqdırlar, yuxuda fikrindən keçəni bilirlər. Mənim igidliyimə bax ki, hələ yerimdən tərpənməmişəm, Allah qoysa, tərpənmərəm də. Yaşamaq üçün mübarizə lazımdır. Burası var ki, beş-altı il bundan qabaq bir tövr keçinmək olurdu, indi işlər çətinləşib, getdikcə də çətinləşir."

Bu kimi fikirlər Hacı Qəhrəmanın başını böyütmüşdü. Boynu çiyninə düşmüş, bədəni süstləşmiş, gözü yumulmuşdu. Uzun dağ yolunu



meyilsizcə addımlayan acmış at sanki bir cənazə sürüyürdü. Hacı Qəhrəman mürgüləyir, yolun harası olduğunu bilmirdi.

Payız günəşi işdən evə qayıdanlar kimi, yeyinləyir, yuvasına enir, kölgələr uzanır, külək əsir, hava sərinləşir, dərələrin sıx ağaclıqları sanki komanda ilə sulara səcdəyə əyilirdi. Quşlar bir xətt kimi üfüqləri cızaraq çəltiklər arasında gözdən itirdi. Çiyni sənəkli gəlinlər şirin-şirin gülüb danışırdılar.

Ətrafı yaşıllıqlarla örtülü sulu dərəyə girdikdə Hacı Qəhrəman qara bir bulud çökdüyünü fərz etdi. Yuxulu gözlərini silərək, rayona yaxınlaşdığından silkindi. Lakin qara və şübhəli fikirlər onun yaxasından əl çəkmədi.

■ ■ ■

29-cu ilin sovet seçkilərində Hacı özünü Şəkər kəndinin ortabablları sırasına sala bilmişdi. İşlər nəinki öz qaydasında gedirdi, hətta gün-gündən yaxşılaşırdı; hörməti artır, iclaslarda çıxış edir, bəzən on beş dəqiqə "nitq" söyləyirdi.

Mərdimazarın dilini ilan çalsın! Kim isə Hacının keçmişini qurdaladı, köhnə küllükləri eşələdi. Bu hal Hacını bərk təşvişə saldı. O, bu işin dalınca oldu, özünə dolaşan sarmaşığın kökünü tapıb qırmaq, dartıb kəsmək istəyirdi. Hacı Qəhrəman istəyirdi ki, "qarğanı yuvasında boğsun." O bilirdi ki, "Hacı köhnə yüzbaşıdır" deyə el içinə söz salsalar, öhdəsindən gələ bilməyəcək. Komsomollar, müxbirlər əl çəkməyəcək. Hacı ilk dəfə bu məsələni ürəyi qızan adamlara açdı.

Xüsusən, cümə günü nahardan sonra Hacının balkonunda bu məsələdən çox danışıldı. İspalkom Həmid qabağındakı stola yıxılır, boşqabdakı qara üzümdən gilə-gilə ağzına qoyaraq, ehtiyatlı bir səslə pıçıldayırdı:

– Hacı, başın haqqı, kənddə yüzü yüz söz desin, nə qədər mən varam, qorxma. Odur, lüt Allahyarın oğlunu gördün nə günə saldım! Dədəsinə tapşırmışam, bir də sizin həndəvərə dolansa, ciyərini kürəyindən çıxararam. O ki qaldı, rayon, orada bir qədər qorxu olacaqdır. Bilirsən ki, indi xalq ustalaşıb, burada bir az səsinə səs vermədin, basıb rayona

gedirlər. Rayondan da nə olsa, təhqiqatı biz aparıb, biz yoxlayacağıq, odur ki, bu tərəfdən də iş düzəlir.

Mən sənə bir kağız verərəm, apararsan rayona. Ay rəhmətliyin oğlu, sənin yüzbaşı olduğunu rayonda kim bilir? Onların çoxusu yeni yetişən uşaqlardır. Köhnə adam yoxdur, nə desələr, biz şahid göstərrik. Bərkə qalanda – o da lələşinin işidir. Keyfini pozma! Sən bircə rayonda əlinə bir tanış keçir!..

İspalkomun sözləri sarı yağ kimi Hacı Qəhrəmanın ürəyinə yayılırdı.

O günlər kənddə böyük hərəkət vardı. Bu il məktəbə birinci dəfə olaraq, ən çox uşaq (102 nəfər) gəlirdi ki, bunları yerləşdirməyə əvvəlki ev darlıq edirdi. Komsomol özəyi katibi qolçomaq Pirinin evini məktəb üçün boşaltmağı təklif edirdi. Buna müqavimət göstərənlər vardı. Taxıl tədarükü aparan muzdur Rüstəm çəpər arasında çox zülm ilə öldürülmüşdü. Muzdurlar komiteti bu qudurğanlığı haman Piridən və həmkarlarından görürdü. Kəndin mollası Şəmkirdə imam zühur etdiyini və tezliklə bu kəndləri də çulğalayacağını elan edir, xüsusən, qadınları təşvişə salmağa çalışırdı. "Kim imam bayrağına girməzsə, qəzəbə gələcək. Dünyanın axır-uxurudur, camaat, mömin olun, nicat tapın!.." – deyirdi.

Komsomolçular mollanın tutdurulub dama basdırılmağına icazə verilmədiyindən pərt olurdular.

Bunların heç biri Hacını saxlamadı. O, bu hadisələrin böyük tarixi günlərə xəbərçi olduğunu yaxşı duyurdu. O bilirdi ki, indi pioneri dindirirsən, sinif mübarizəsindən danışır. Bu çarpışma və gurultular qabağında baş saxlamaq, yüzbaşılıq kimi bir qara damğanı və bununla əlaqədar "köhnə işləri" pərdələmək çox çətin olacaqdı. Buna baxmayaraq, Hacı təvəkkül və ümiddən doymurdu. O, özünü bu hadisələrdən qırağa çəkirdi.

Bir tərəfdən gözə görünməmək, o biri tərəfdən işini düzəltmək üçün Hacı yabısını minib, rayon mərkəzinə gəlmişdi. Onun məqsədi bu idi ki, birtəhər eləsin, yüzbaşı olması barədə söylənən sözlərin "yalan", "şəxsi qərəz" olduğu və fərdi vergiyə salınmaması barədə rayondan bir kağız əlinə keçirsin. Bunun üçün bəzi hazırlıqlar da görmüşdü. Hacının əsas ümidi bu idi ki, yüzbaşılığı haqqında heç kəsin xəbəri olmayacaq.





Kəndin rəyini bilmək istəyəcəklər ki, o barədə kənd sovetinin bir arşın "xasiyyətnaməsi" vardı.

Pirçivan kəndində Hacı Qəhrəmanın qonaq yeri vardı. Usta tərpəndi. Gecəni heç bir evə getmədi. Özünü daha "məzlum" göstərmək üçün RİK-nin pilləkənlərində gecələdi. Boylu bir milis qaraul çəkirdi. Hacı məzlum, həzin səslə onu danışdırıb, RİK sədrinin kim və nə cür adam olmağından bir məlumat almaq istəyirdi.

Milis ona qəti dedi:

– Mən bilmirəm. Sabah olar, özün görərsən.

Səhər RİK katibi Sultanov Hacının ərizəsini oxuyaraq, onu danışdırdı. Hacı dizlərini bükük tutub, əllərini döşünə qoyaraq, danışırdı:

– Başına dönüm, mənim nə günüm olub, əlimin əməyilə işləmişəm, camaatdan soruş, əgər mənim yüzbaşılığımı deyən olsa, boynumu vur.

– Kişi, ağzına gələni danışma! Biz boyun vuran deyilik! Bəs de görüm, sənə yüzbaşı adı qoyan kimdir? Axı nəyə əsaslanıb deyirlər?

Hacı Qəhrəman bunun nədən irəli gəldiyini, yer bölgüsündə Həbib ilə aralarında inciklik olduğunu kəsmə-kəsmə söyləyirdi.

RİK-nin kabinetində üç-dörd adam vardı. Hacı elə ilk dəqiqədə bu adamlardan qorxdu. Onlar əvvəl başqa şey ilə məşğul idilər. Hacı onları maraqlandırdı. Onu dinləməyə başladılar. Onların içində bir nəfər qarayanız, itibaxışlı, sakit duruşlu bir gənc vardı.

Hacı hər sözbaşı gözünün ucu ilə ona baxıb, qorxa-qorxa davam edirdi. O, Hacıya sual verməyə icazə istədi:

– Hacı, – dedi, – səndən bir-iki söz soruşsam, xatırına dəyməz ki?

Hacının rəngi dəyişdi, gözlərini yerə dikdi, bir-iki dəfə udqunduqdan sonra dedi:

– Yox, oğlum, niyə inciyirəm, nə sözün var, soruş.

– Sən gərək ki Şəkərlisən?

– Bəli!

– Eviniz də lap Baba bostanın yanında, Əhməd kişinin qonşuluğundadır.

– Elədir ki, var.

– Hacı əmi, mən sizin evə gəlmişəm, hətta iki gün də orada yatmışam.

Bu söz Hacını təəccübləndirməkdən artıq qorxu və iztiraba saldı.

– Bəli, Hacı, mən sizdə qalmışam. 1919-cu il yadınıza gəlirmi?

– Oğul, qocalmışam, dünən yediyim bu gün yadımdan çıxır.

– Mən sizə elə şeyləri deyəcəyəm ki, qətiyyən unutmamışsınız, onları unutmaq qətiyyən mümkün deyildir. Yadınızdadırmı, 16-cı ilin qış aylarında sizin bir kəhər atınız öldü?

Bu xəbər açıqcasına Hacının yüzbaşılığından, kəshakəs vaxtından verilirdi. Hacı çaşdı, dili dolaşdı, güc-bəla ilə:

– Yadımda deyil... – deyə bildi.

– O atın yəhərini, deyilənlərə görə, siz son günlərə qədər saxlayırmışsınız...

Katib yerindən dilləndi:

– Hacı əmi, olmuya "yadigardır" deyə, bizdən əsirgədiyin yəhərdir?

– Yox oğul, o deyil.

Buradaca gənc fürsətdən istifadə etdi:

– Bəs o yəhəri neylədin Hacı?

– Onu???

– Bəli, vətəndaş Hacı, həmin il mənim on iki yaşım vardı. Sizin tövləni kürüyürdüm. O atın ölümünü məndən gördün, məni ilim-ilim itirdin. Mən qaçası oldum. Uşaq ikən Bakıya gəldim, on beş ildir ki, kəndi görməmişəm.

Hacı özünü itirdi, qan başına vurdu, elə bil dünyanı fırladıb, onun başına çaxdılar, dizi üstə çökdü, bozardı, qızardı. Kabinetdəkilər gənci dinləyirdilər.

– Hacı, yüzbaşılığa keçmək üçün gərək ki, siz pristavın xatırını görmüşdünüz, beşcə yüz manat qızıl pul vermişdiniz.

Gənc sözünü kəsərək, Hacıya sual verdi:

– Vətəndaş Hacı, düzdürmü, yanılmıram ki?

Otağı sükut almışdı. Hacının bədəni ərimiş yağ tuluğuna dönmüşdü. Ondan cavab yox idi, ola da bilməzdi. Fərdi vergidən xilas olmaq, orta kəndli adını saxlamaq arzularını çoxdan unutmuşdu.

*1930*



# İLK GÜNLƏR

## I

Köhnə və alçaq möhrə arasına qoca bir daxma sığınmışdır. Toyuq hininə oxşayan bu daxma üzərində bitən otlar, yuxarıdan baxanda, əl ilə sancılmış quru çöpə bənzəyir. Daxmanın qırıq novdanı da çoxdan su görmür, daş, torpaqla dolmuşdur. Evin balaca, kirli qapısı böyük alma, armud bağına baxır. Bir tərəfi çalı tikanı ilə hasarlanmış həyət ağır ayaqlarla tapdalandığından xırman kimi, çılpaq və qurudur. Burada qoca bir tut ağacı vardır.

Daxmanın içərisi də bayırından qalmaz: aşağı başda, kələ-kötür bir bucaqda su sənəyi, qab-qaşıq, Telli xalanın öz hanasında toxunmuş iki nazik palaz, köhnə bir stol. Stolun üstündə bir fotoşəkil gözə çarpır. Bu, altıyaşlı Cəmilin şəklidir.

Bu ikinəfərlik balaca ailənin roman qədər uzun, faciə qədər ağır bir keçmişi vardır.

■ ■ ■

Kazım Həmid oğlu Məmmədin atlarına baxardı. O, dünyada yeganə arxası və həmdəmi Tellisinin güzəranı üçün hər zəhmətə qatlaşardı. Günəşdən tez durar, Aydan sonra yatardı, gününü tövlədə və samanlıqda keçirərdi.

Uzaq səfərə gedən ağası onu yanına salıb, ata qulluq etmək üçün özü ilə aparardı. Yaxşı bəslənən, kükrəyib uçmaq istəyən atın yerişilə Kazım da ayaqlaşmalı idi. O, qan-tər içində və ürək döyüntüsü ilə mənzilə çatar, ölümcül yorğun olsa da, ata qulluq etməyə başlardı.

"Biz insan deyilikmi? Bizi dülgər yonmamışdır ha! Yuxu bizə də şirindir. Bizi kim belə yaradıb?"

Bu suallar Kazımın fikrindən çıxmırdı, bunlara cavab da tapa bilmirdi. Ancaq mollalar deyirdi: "Hər kəs bu dünyada zillət çəksə, axırı yaxşı olacaq. Ağalara qulluq etmək Allah əmridir...".

Bu sözlər ağalardan başqa heç kəsi təmin etmirdi. Lakin çıxış yolu da görünmürdü. Qabaqda Kazımı bundan da ağır fəlakət gözləyirdi.

Yeni doğulmuş uşağını saxlamaq üçün onun ehtiyacı daha da artırdı. O, təhqir və zillətə dözməkdən başqa çarə tapmırdı. Lakin onun qulağı səsdə idi. Eşidirdi, hiss edirdi ki, ruzgar belə getməyəcək. Hər gecənin bir gündüzü, hər qaranlığın bir işığı vardır. İllah da son zamanlar ağanın yanına tez-tez gəlib-gedənlər, gecə yarısına qədər gizli söhbətlər, Məmməd ağanın qaş-qabağı Kazımın ümidlərinə əsas verirdi.

Çox keçmədi ki, şəhərdə düşən "qarışıqlıqların" səsi aləmə yayıldı. "Nikolayın taxtdan düşməsi və hürriyyət" xəbərləri həyat süpürən, tövlə kürüyən Kazımların da mübahisə mövzusu oldu. Kazım gecə atları yemləyib, evə qayıdandan sonra yoldaşı İsmayılla dərdləşməyə vaxt tapırdı:

– Deyirlər, azadlıq verilib axı!

– Yalandır!

Ot tayaları və çardaqları dalında min ürək döyüntüsü ilə edilən bu söhbətlərdə Kazım ümid aradığı və azadlıq dilədiyi üçün aydın bir gecənin dərin sükutu içərisində Məmməd ağanın qəzəbinə gəldi:

– Kəsik baş söyləməz olar. Bu da sənin "azad" yerin!



Ölüm sükutu içərisində axan qızıl qan yumşaq torpağı islatdı, bir çökəyə doldu, silinməz ləkə kimi bərkidi, qaraldı...

Gümüş Ay duru göy dənizindən yerlərə baxıb, qatilin yolunu işıqlandırdığına xəcalət çəkirdi. Sanki gizlənmək üçün ahlardan bərkimiş bulud parçasına çatmağa can atırdı.

Yer süd kimi dümağ, üfüqlər açıq, hava durğun idi. Aləm sükut içində idi. Yalnız qaranlıq bir daxmada ağlayan uşaq "ata" deyib, dincəlmirdi. Telli quru və boş məməsini uşağın ağzına salıb, təsəlli verirdi:

– Kiri, bala, atan sənə qaqa gətirəcək!.. Laylay, balam laylay!..

■ ■ ■

Aralıq get-gedə qarışırdı. Hər gün şəhərdən gələn bir-birinə zidd xəbərlər kənddə vəziyyəti dəyişdirdi. Bir müddət kənd tamamilə hərki-hərkilik oldu. Hər əli silah tutan aləmə ağalıq etmək istəyirdi.

Kənddə nəsil davası düşdü. Mirzəlilər, Yusiflilərdən qan iddiası etdilər. Bir gecədə yeddi nəfər Yusiflilərdən öldü. Yusiflilər silaha sarıldı, – günün günorta çağı məscid qabağında Mirzəlilərdən dörd nəfəri yerə sərdilər. Kənddə iki nəsil canavar kimi bir-birinə daraşdı. Get-gəl kəsildi. Kimsə evdən kənara çıxmırdı. Yalnız qadınlar və gəlmələr küçədə görünürdü.

Hadisələr sürətlə cərəyan edirdi. Daxili qarışıqlıqlardan sonra diqqət osmanlıların basqınına cəlb olundu. Varlılar bu basqını qurbanla qarşıladı.

Kəndlərə osmanlıların "asayiş gətirəcəyi" haqqındakı ümidlər boşa çıxdı: ağzı söyüşlü, əli zopalı osmanlılar yeni soyğunçu sifətilə kəndlərə daraşdı. Onlara nökərçilik edən, addımbaşı kürsüyə çıxan "millət carçıları" bəylər, xanlar atlarını oynadanda qara camaat dost-düşmənini daha yaxşı tanımağa başladı. Şəhərdən gəlmiş toxucu qadın həmin tut ağacının dibində pıçıldayaraq, Telliyə deyirdi:

– Qız, bunlar hamısı keçər. Darıxma! Budur, bolşeviklər işləyirlər. Fəhlələr hazırlaşırlar. Burjuyların, bəy-xanın haqq-hesabına baxılacaq! Sən nə fikirdəsən, elə bilirsən, bu zülmlər yerdə qalacaq? Yoxsulların qoşunu düzəlir. Bizim fabrikdə gecə səhərəcən iclasdır. Fəhlələr əlbir

olub işləyirlər. Bu gün-sabah görərsən!

Telli xala bu xeyirxəbər qadının dodaqlarından öpmək istəyirdi. O, Telli xalanın ürəyindən xəbər verirdi.

– ...Bəy-xanın haqq-hesabına baxılacaq! Yoxsulların qoşunu düzəlir...

Bunlar Telli xalaya yuxu kimi gəlirdi. O, gecə-gündüz fikirləşirdi. Gələcəyin məchul pərdələri və hadisələri içərisində qəlbi işıq üçün çırpınırdı. Ona elə gəlirdi ki, yoxsullar bu yükü apara bilməyəcəklər. Bəylərin zəhmi, topların səsi, jandarmların rəhmsiz sifəti, çapqın, talan, qanlı xəncərlər onun gözü önündə dikəlirdi. Öz-özünə: "Bunların qabağına yoxsullar nə ilə çıxacaqlar?" – deyirdi.

O, bəzən ümidsizliklə başını aşağı dikir, ərinin mehriban dəqiqələrini xatırlayırdı. Telli xalanı yaşadan iki şey idi: o, dünyanın bu cür getməyəcəyinə inanırdı; özündəki həyəcanı bütün yoxsullarda görür və bu həyəcanın böyük bir hərəkatla qurtaracağını güman edirdi. Lakin o bu hərəkatın necə və nə vaxt olacağı haqqında aydın bir şey təsəvvür edə bilmirdi.

Cəmil də Telli xalaya böyük bir təsəlli idi. O, yetim qaldığı gündən uşağını bəsləmək üçün istirahəti, yuxunu özünə haram eləmişdi. Bir müddət xanımlara odun daşıdı, çörək bişirdi, hana toxudu, biçinə getdi, alaq elədi. Sonralar Hacı Həsənin qapısında bir qarın çörəyinə yun əyirməyə, paltar yumağa başladı.

Cəmil isə ağır günlərin dərin ehtiyacı, ağrıları, yetimlik əzabları ilə böyüyür, boy atırdı. Bu yaz onun altı yaşı tamam olurdu. İndi Cəmil də anasının qolundan yapışırdı. Anasilə bərabər odun yığır, su daşıyırdı. Hətta onu qapılara nökər istəyirdilər. Ehtiyacı olsa da anası rədd edirdi:

– Gözümdən qırağa qoya bilmərəm. Bir dənədir. Ürəyimin bəndi, dizimin taqətidir. Nə qədər ki, mən sağam, əsir olmayacaq!

Telli xala Cəmilə baxmaqdan doymurdu. Onun gözləri və girdə üzü tamamilə atasının surəti idi. Telli uşağını qoruyur, hər uşaqla oynamağa qoymurdu.

– Varlı uşaqlarına yaxın getmə! Öz taylarınla gəz! Hidayət, Cəlal, Cahanla...



## II

İyirminci il, sentyabr.

İnqilabın işıq və həyat gətirən təsiri kəndlərin dərinliklərinə qədər işləyirdi. Hər yerdə yeniləşmə duyulurdu. Şəhərdə fabrik və zavodlar fəhlələrin əlinə keçmişdi. Kəndlərdə torpağın kəndlilərə paylanması böyük bayram mərasiminə çevrildi. Bəzi kəndlərdə yoxsullar qrupu zəif idi. Bəzi kəndlilərə də kimin lehinə, kimin əleyhinə, nəyə qarşı əl qaldırmağı başa salmaq çətin idi. Ağır zəhmətdən başqa bir şey görməyən İslam, Əziz, Vəli kimiləri yeni hadisələrdən yaxşı baş açmırdılar.

– Bir başa düş, hökumət sənindir! Muzdursan, bundan sonra kəndin hər işinə sən məsulsan!

Bu sözlər onların çoxunda təəccüb doğururdu. Hər gün şəhərdən kəndlərə dəstə-dəstə təbliğatçı fəhlələr gəlirdi.

Quru Qobu qırağı ilə əlində kağız qovluğu olan bir gənc yeriyirdi. O, böyürtkən kolları, çalı çəpərlərin arasından keçib, kəndin yaşıl ağaclıqları arasında gözdən itdi. O, Abadlı kəndində komsomol özəyi düzəltməyə gedirdi. Gənci hamıdan əvvəl sovet sədri Telli xala qarşıladı. Telli xala gəncin vacib və yeni bir məsələ üçün gəldiyini bildi.

Telli xala hay salmışdı:

– Sabah kotandan sonra cavan uşaqlar hamısı məscidin qabağına yığılsın, şəhərdən hökumət gəlib.

Şər qarışanda məscid həyətinə otuza qədər gənc yığılmışdı. Burada sığırçılar, naxırçılar, qapı nökərləri və bir-iki hampa uşağı da vardı. Kişilər qıraqda durub baxırdılar. Kənddə danışılırdı ki, cavanları əsgər aparacaqlar.

Kimisi də deyirdi:

– Yox, canım, əsgər söhbəti yoxdur, məsələ oxumaq barəsindədir.

Şəhərdən gələn oğlan, cavanların iclasında bir sədr və bir katib seçilməsini təklif etdi. Heç kəs bundan bir şey başa düşmədi. İki dəqiqəlik sükutdan sonra Telli xala ayağa qalxdı:

– Belə, bir adam lazımdır ki, burada stolun dalında dursun, bu günlüyə böyüklük eləsin. Biri də savadlı lazımdır, stolun böyründə otursun, yazsın. Deyin görək, kimi istəyirsiniz?

Yenə heç kəsdən cavab çıxmadı. Uşaqların çoxu utancaqlıqla gülümsəyirdi. Yalnız Hidayət yerində qımıldanaraq qızardı. Telli xala ona işarə ilə:

– Hə, Hidayət, de görüm, sən kimin tərəfdarısan?

Hidayət danışmaq bacarmırdı və istəmirdi. Telli xalanın işarəsinə görə hamı ona baxdı. O özünü itirərək, güclə deyə bildi:

– Mən Sovet hökumətinin tərəfdarıyam.

Uşaqlar əl çaldılar. Telli xala başa saldı:

– Belə bu iclasda kimin böyük olmağını istəyirsən, onu de!

– Elə isə böyüyümüz Xanlar olsun.

– Xanları istəməyən yoxdur ki? – deyə şəhərdən gələn oğlan soruşdu. Cavab çıxmadı. Şəhərli gənc, Xanlar Qasım oğlunun sədr olmasını səsə qoydu:

– Kim istəyir ki, Xanlar iclasımızın sədri olsun, əlini qaldırsın!

Sədr özü əlini qaldırdı, buna baxıb, hamı əlini qaldırdı.

– Salın! İndi kim istəmirsə, əlini qaldırsın!

Yenə hamı əlini qaldırdı.

Gənc gördü ki, başa düşülməyib, yenidən üç dəqiqə izahat verdi, Telli xala kəlağayısının ucunu çiyninə atıb, əlini stula söykədi, danışdı:

– Bax, oğul, bir adamı seçəndə sən bir söz deyə bilərsən: ya istə, ya da istəmə! İstəyirsən, əlini qaldır, istəmirsən, əlini qaldırma. Vəssalam! İndi fikirləşin! Kim istəyirsə, qabaqca əlini qaldırsın, kim istəmirsə, sonra qaldırsın. Bir qaldıranlar sonra qaldırmasın.

Xanlar sədr keçdi. Katibliyə savadlı adam olmadığından bu iş şəhərdən gələnin boynunda qaldı. Xanlar ayaq üstə dururdu, gənc danışırdı, başqaları qulaq asırdı. O, komsomol təşkilatının nə olduğunu kənd gənclərinin anlayacağı dildə danışmağa çalışırdı. Bu onun üçün olduqca çətin idi.

– Baxın, yoldaşlar! Bu gün mən buraya vacib bir iş üçün gəlmişəm. Şəhərdə və böyük kəndlərdə komsomol təşkilatı vardır. Sizin kənddə də bunu düzəltmək istəyirik. Bu kənddə iki nəfər komsomol üzvümüz var. Komsomol nə deməkdir? Yəqin ki, kommunistləri tanıyırsınız. Kommunist Partiyası hökumətimizin, xalqımızın rəhbəridir. Gələcəkdə kommunist olmaq üçün cavanlar indidən hazırlaşmalıdır, öyrənməlidir, oxumalıdır, tərbiyələnməlidir, kommunistlərdən ibrət götürməlidir. Bu işi eləmək olarmı? Olar! Lap yaxşı eləmək olar, o zaman ki komsomol olasan, komsomol olmaq – Lenin yolu ilə getmək, kənddə kommunistlərə kömək etmək, Sovet hökumətinə, yoxsul-muzdura kömək etmək deməkdir. Gərək sən işində lap düz olasan, hamıya nümunə olasan. Komsomol ola bilər on dörd yaşından yuxarı, iyirmi üç yaşından aşağı fəhlə, muzdur, yoxsul və ortabab cavanlar. Varlı, hampa və dükançı balalarını komsomola götürmək olmaz. Heç vaxt olmaz! Bizim təşkilat fəhlə və yoxsul cavanlarındır...

Gənc sözünü bitirib kiridi. Oturdu. Əl çalmadıqlarından bildi ki, yenə danışmasını gözləyirlər. Təzədən ayağa qalxıb əlavə etdi:

– İndi, yoldaşlar, mən məruzəni qurtarıb, deyirəm: yaşasın Sovet hökuməti!

Bu sözü eşidən kimi əl çaldılar. Sədr soruşdu:

– Kimin sualı var, desin, harasını başa düşmədiniz, soruşun!

Uşaqların hamısında bir həvəs və sevinc oyanmışdı. Sual verən yoxdu. Lakin bu, heç də o demək deyil ki, hamı anlamışdı. Uşaqlarda komsomol təşkilatına oyanan həvəs və maraqla qarışıq təsəvvür də doğmuşdu. Bu təşkilatın harada olacağı, nə vaxtadək olacağı və nə edəcəyi haqqında çox adam aydın düşünə bilmirdi.

Cəmilin özü də mat qalmışdı. Məruzəçi deyirdi: "Komsomola hampa, dükançı balaları girə bilməz, halbuki, bu saat iclasın sədrliyini aparan Xanlar özü hampa balasıdır. Ondan başqa burada hampa uşaqları da vardır."

Cəmil bir qəsd edirdi ki, bu işi soruşsun, bir də fikrinə gəldi, bəlkə yersiz olar. Dayana bilmədi. Qorxa-qorxa əlini qaldırdı. Xanlar baxırdı. Şəhərli gənc Xanlara işarə etdi ki, ona söz ver.

– Cəmil, danış!

Cəmil əlindəki dəyənəyi yerə uzatdı, əlini məruzəçi gəncə tutub kəsmə-kəsmə dedi:

– Sən dedin ki, yoxsullar olacaq, eləmi? Komsomol yoxsulundur. Bəs buna nə deyirsən ki, böyründə oturub, böyüklük eləyənin bu saat beş mənim kimi nökəri var. Bununla mənim yoldaşlığım necə tutacaq?

Cəmilin çıxışı iclası çaxnaşdırdı. Xanlar pul kimi qızardı, ayaq üstə

dondu, dil-dodağı qurudu. Hamı əvvəl Cəmilin qızarmış üzünə, sonra da Xanların ağarmış sifətinə baxdı. İclasda bir gurultu başlandı. Gənc ayağa qalxdı. O, hər şeydən əvvəl Cəmilin bu çıxışını alqışladı. Başqa yoxsulları da onun kimi gözüaçıq, cəsarətli olmağa çağırdı. Sonra iclasa sədr olmaq üçün Cəmili göstərdi və Cəmil sədrliyə keçəndən sonra o, suala cavab verməyə başladı:

– Yoldaşlar! Cəmil düz deyir. Komsomol iclasına hampa oğlu, varlı uşağı sədrlik edə bilməz. Gərək onları biz aramıza buraxmayaq. Bu günahın bir azı məndədir. Mən soruşmadım, o kimdir? Günahın çoxu da sizdədir ki, mən məsələni başa salandan sonra, onu deyən də olmadı.

İclas kənddə komsomol təşkilatı qurmağı vacib gördü. Qırx nəfərə qədər yoxsul cavan vardı. Bu cavanların təşkilata cəlb edilməsi böyük siyasi addım idi. Buna nail olmaq üçün Nəbiağalıdakı komsomolçulardan bir neçəsini buraya təhkim etmək lazımdı. İşin bu cəhətini gənc öhdəsinə aldı. Ayın iyirmisində 26-ların vəfatının ildönümü münasibətilə Nəbiağalı komsomolçuları ilə birgə çağırılmış iclasda Abadlı özəyinə on bir nəfər üzv qəbul edildi. Cəmilin ilk iclasdakı çıxışı iclas çərçivəsində, dörd divar arasında qalmayacaqdı və qalmadı da. Həmin axşam Həsənəlinin evində ümumi bir ovqattəlxlik vardı. Tərlan xanım yanlarını qapırdı.

– Başına dəysin iclası da, zadı da! Sənin gədə-güdələrin içində nə işin var! Qoy nənə Tellinin oğlu, naxırçılar yığılsın. Zəmanəyə bir bax! İşə bir bax! Gör kim-kimdən bac alır! Yaxşıdır ki, qapımızın artıq tikəsi ilə böyüyüb, bəslənib... Burnundan gəlsin o... Belədir də!.. Gözünü tutsun ana-bala yediyiniz o çörəklər! Görüm ondan da pis günə qalasınız!..

O, bunları qışqıra-qışqıra deyir, küçədən keçənlərə, inək sağanlara, naxırçılara eşitdirirdi.

Hacı isə eyvanda əsasına söykənərək, qəmli-qəmli otururdu. Onu fikir, xəyal aparmışdı. O, Cəmilin dalınca bir şey demirdi. Yaxşı bilirdi ki, Cəmilin çıxışı hampalara qarşı başlanan mübarizənin bir hissəsidir. Bu mübarizənin dəhşəti, qorxusu, sarsıdıcı qüvvəsi və nəticələri onu çaşdırmışdı.

Xanlar zahirdə kirimiş dursa da, xəlvətdə öz havadarlarına deyirdi:



– Əlimə keçər, anasını mələr qoyaram. Bir dayansın! Dünya belə getməz...

■ ■ ■

– Sən heç əl-ayağa düşmə! Özək katibliyi ağır bir vəzifə deyil. Qəza komitəsi sənə kömək edəcəkdir. Kəndiniz şəhərə yaxındır. Hər dəqiqə əlin bizə çatar. İşə başla, yoxsul cavanları təşkilata çək! Savad kursuna yazıl! Sinfi düşmənini yaxın qoyma! Əhmədlə də danışmışıq, onunla bərk əlaqə saxla! Hər iclasda təhkimçimiz olacaqdır. Sənə artıq kömək etmək üçün özəyə seminariyadan iki nəfər savadlı komsomolçu təhkim edəcəyəm. Daha nədən kəsirin var ki! Get işə başla! Durmaq vaxtı deyil, uğur olsun!

Qəza komitəsinin məsul katibi Nəimovla Cəmil ilk dəfə görüşürdü. Təhkimçi onu nə cür tərif eləmişdisə, Nəimov, Cəmilin qabağında çox məsul vəzifələr qoyurdu.

– Yoxsul cavanları təşkilata çək! Savad kursuna cəlb elə. Pionerləri topla! Sinfi düşməni yaxın qoyma!

Cəmil ilk zamanlar komsomol işində təcrübəsiz idi. İclasda hansı məsələni nə cür qoymağı, nə cür həll etməyi bilmirdi. İş yerinə gələndə qorxur, bəzən iclas da çağıra bilmirdi. Qəza komitəsindən gələn kağızları müəllimə oxudur, nə etmək lazım gəldiyini bilmirdi. Kənddə yeganə kommunist Əhməd də çox zaman şəhərdə və qəzada olur, Cəmilə əli çatmırdı. Bir dəfə "MOPR" təşkilatı düzəltmək üçün gələn kağızı götürüb qəza komitəsinə getdi ki, soruşsun: "Bu kimə çatacaq?"

Qarsatanlı ona izah etdi. Onun dili bir az dolaşıq olduğundan Cəmil heç bir şey başa düşmədi. Ancaq bunu Qarsatanlıya bildirmədən yenə soruşdu:

– İndi mən bu kağızı necə eləyim, yoldaş Qarsatan?

Qarsatanlı onu başa sala bildi ki, iclas keçirmək, məruzə etmək, hərədən üzvlük haqqı yığmaq lazımdır.

Oktyabrın altısında kənd sovetinin otağında çağırılmış iclasda Cəmil bu cür "məruzə" elədi:

– Yoldaşlar, bu gün məsələmiz hərədən bir abbası almaq barədədir. Bir abbasıları yığıb, qəza komitəsinə verməliyik. Bizə bir cür knişka verəcəklər. Özü də bir yer var, oraya yazacaqlar.

Cəmil yadından çıxarmışdı. Ha fikirləşirdi, "MOPR" xatirinə gəlmirdi.

– Bir təşkilatdır, komsomol kimi, orada dustağa düşən fəhlələrə kömək yığırlar.

O, sözünü qurtaranda Lətif ayağa qalxıb dedi:

– Mən başa düşmədim. Nə bir abbasıdır?

– Deyəsən, komsomol puludur. Üzvlük haqqı, – deyə yerdən kimsə səsləndi.

Cəmil cavab verdi:

– Bu ayrıdır, üzvlük haqqı da ayrıdır.

– Bunu hər ay verəcəyik, yoxsa birdəfəlikdir?

Bu suala Cəmil cavab verə bilmədi, lakin yaxasını qurtara bildi:

– Bir halda ki, Ukom indi istəyir, verərik, sonrasına baxarıq. Otur, yoldaş!

İclas bununla bitdi. Cəmil on dörd abbasını götürüb qəza komitəsinə yüyürdü. Fikrində tutmuşdu ki, əvvəla, bu pulların nə üçün yığıldığını yenidən qəti öyrənəcək, sonra da təşkilatın adını əzbərləyəcək. Əhmədin sualını Nəimova verəcək və gələn iclasda neyləmək, nə məsələ danışmaq lazım olduğunu biləcək, qayıdacaqdır.

Qəza komitəsinin qabağı al-əlvan geyimli uşaqlar və komsomolçularla dolmuşdu. Camaat küçəyə sığmırdı. Musiqi səsi hamını cəlb etmişdi. Nəimov komitənin pəncərəsindən boylanıb, yanındakılara nə isə deyirdi.

Cəmil öyrəndi ki, Tiflis komsomolçuları qonaq gəliblər. Qızıl əsgər gedənləri yola salmaq üçün komsomolçular stansiyaya gedirlər. Komitə işçilərinin başı qarışıq idi. Cəmil heç kəslə arxayın danışa bilmədi.

Nəbiağalı özəyinin katibi Movlanı gördü. Gələn iclasda nə məsələ olacağını soruşdu. Onun deməyinə görə, qəza komitəsinin özündən məruzəçi olacaqdır. Bu xəbər Cəmili sevindirdi. Daha o, xalqın qabağında qızarmayacaq, hazır məruzəçi ilə iclası açacaqdı.

■ ■ ■

Axşam olurdu. Dağların uzanan və böyüyən kölgələri narıncı və uzun əbasını sürüyən günəşi qovaraq ucalırdı. Mal-qara kəndə qayıdırdı. Çöldən qayıdıb doqqazlarda görüşən adamların səsi dağlara düşür, sularda əriyirdi. Lampalar yanırdı. Uzuntuman və iribədənli kənd qadınlarının çıraq qabağından o tərəf-bu tərəfə keçməsindən anlaşılırdı ki, evlərdə axşam yeməyinə hazırlıq gedir. Doqqazın başında kimsə uca səslə oxuyurdu:

*Biz sinəsi qovğalarla, alovlarla doluyuq,*
*Komsomoluq, pionerik, biz Leninin oğluyuq...*

Bir az sonra kənd kiridi.

Küçələrin tozu çoxdan yatmışdı. Evlər, qayalar, alçaq divarlar, qapılar ay işığı ilə qalaylanmış kimi, yuxarıdan par-par parıldayırdı. İtlər də susmuşdu, toyuqlar da büzüşərək ağaclarda yatmışdı. Uzaqdan dərə sularının xəlvət pıçıltılara bənzəyən səsi gəlirdi. Qurbağalar ağız-ağıza verib vaqqıldaşırdı.

Evlərdə çox az adam yuxuya getmişdi. Bəziləri əkin işinin fərəhilə qanadlanır, səhərin tez açılması intizarını çəkirdi. Kimisi də Hacı kimi əlindən gedən torpağının, çəmən və yoncalıqlarının ağrısı ilə yatağında ilan çalmış kimi çırpınır, dincələ bilmirdi, sağa-sola çevrilir, ah-uf edib, dabanı ilə yer eşirdi.

Telli xala yatağına girmişdi. Cəmil isə şəhərdən göndərilmiş paltarları öz aləmində ölçüb-biçirdi. Nədənsə bugünkü iclasa çox böyük məna verirdi.

– Ana, on dörd gündən sonra böyük bayramdır: Nikolayın yıxılan günüdür. Bu gün İskəndərov yoldaş yaman danışdı! Fəhlələr hökuməti necə alıblar. Qızıl Ordu necə düzəlib, Kerenski bizi necə aldatmaq istəyib. Lenin yoldaş necə fəhlələri ayıldıb – hamısını danışdı. Bayram günü bütün uşaqlar yığılıb qəza komitəsinə gedəcəyik. Fəhlələr bizə on bir dəst paltar, bir təzə ipək bayraq göndəriblər. Bayrağı da götürüb gedəcəyik. Bütün şəhər nümayişə çıxacaq, ana... Bəs sən kənd sovetini aparmayacaqsan?

– Mənə hələ deməyiblər. Bilmirəm, bala.

Cəmil Böyük Oktyabr inqilabı ildönümü bayramına bütün qüvvəsilə hazırlaşırdı. Seminariya komsomolçuları divar qəzetini yazıb hazır-

lamışdılar. Bircə rəngləməyi qalırdı. O, qəza komitəsindən verilən şüarları, qırmızı parçanı və şəkilləri fikrində ölçüb-biçirdi. Sovet yerləşən evin qabağını yaxşı bəzəmək istəyirdi. Bayram münasibətilə aşıq Paşanın oğlu Yəhya, Eldar komsomola keçirildilər. Bunların hamısından maraqlı bir nəfər qızın – Məşədi Əkbərin qızı Şövkətin komsomola keçməsi idi. Kənddə bu təzə iş idi.

Bərk hazırlıq gedirdi. Qəza komitəsindən verilmiş pula Cəmil nə alacağını bilmirdi. Əhmədə məsləhət elədi.

Noyabrın altısında axşam kənd Sovetinin qabağı çıraqban idi. Axşam yeməyini yeyənlər tələsərək, təntənəli bayram iclasına qaçırdılar.

Məruzədən sonra şəhər komsomolçuları tərəfindən teatr tamaşası verildi. Kişi, qadın o qədər gəlmişdi ki, otaq tutmurdu. Koridorda stul düzülmüşdü. Qapı tərəfdəki basabas içəridəkilərə də mane olurdu.

Tamaşanın ikinci pərdəsi oynanırdı ki, küçədə dalbadal iki güllə atıldı. Sonra ayaq tappıltıları və haray səsi eşidildi. Tamaşaçılar çıxdılar. Otaq boşaldı. Hacı Həsənin oğlu Xanlar camaatı başına yığıb deyirdi:

– Oğru evləri yarırdı. Məni görəndə güllə atıb qaçdı.

Bunun yalan olduğunu çoxları bildiyi kimi, Cəmil də yaxşı anlayırdı. Xanlar bu hərəkətilə bayram təntənəsini pozmaq istəyirdi. Adamlar yenə otağa doluşdu, tamaşa da bayaqkı şirinliyilə davam etdi.

Səhər tezdən uşaqlar nümayişə çıxmağa hazırlaşanda Lətif tələsik gəlib dedi:

– Qapıdakı bəzəkləri, divar qəzetini cırıblar.

Cəmil yumruğunu düyünlədi, dodağını dişlədi, cəld ayağa qalxdı.

## III

İyirmi altıncı ilin May bayramını keçirən Abadlı özəyi az vaxtda çox işlər görmüşdü. İndi özəyin otuz bir üzvü, altı namizədi, beş nəfər də qız üzvü vardı. Komsomolçuların çoxu savad öyrənmişdi. Kənddə açılan məktəbdə savadlı uşaqlar böyüyürdü. Onlar da özəyin işlərinə kömək edirdilər. Xüsusilə kənd müəllimi, Cəmilin ən yaxın dostu və köməkçisi olmuşdu. Komsomolun hörməti çox artmışdı.



Telli xalanı şəhərdə işləməyə aparmışdılar.

Abadlı özəyinin adı və işi şəhərdə də söylənirdi. İki gün əvvəl "Gənc işçi" qəzetində "Özək canlanır" adlı bir məktub da çap olunmuşdu. Burada müxbir özəyin fəaliyyətindən danışandan sonra buraya təbliğatçı verilməsini, qəzet və kitabların çox göndərilməsini irəli sürürdü.

"Hər yerdə qənaət uğrunda mübarizə aparıldığı halda, bizim Abadlı kənd kooperativinin pulunu göyə sovururlar. Müdir Məmmədəli Nayıbov yüz altmış manata özünə bir mürəkkəbqabı almışdır. Bir dükanı süpürmək üçün iki qulluqçu saxlayır. Birinə "qorovulçu" adı qoyub ki, dindirən olmasın (çünki qohumudur). Bundan başqa, dükana lövhə yazmaq üçün bir nəfərə yüz əlli manat verib. Halbuki, bu heç lazım deyil. Fəhlələr hökumət xeyrinə qəpiyi də yığdığı halda, bunu görmürük".

"Yenilik" adlı divar qəzetinin ikinci nömrəsində çap olunmuş bu məqalənin sərlövhəsi "Bayıra atmalı" idi. Müdirin karikaturası da çəkilmişdi. Bunların hamısı hamiliyə gələn tələbə komsomolçuların əli ilə olmuşdu.

Hidayət ehmallıca qəzeti divardan asdı, əlinin yapışqanını sildi. Kəndlilər, məktəblilər, doqqaz başında duranlar yavaş-yavaş qəzetin ətrafına yığıldılar.

Kim isə bu sözləri oxudu:

– Məmmədəli Nayıbov.

Bu adı hamı tanıyırdı. İki dəqiqədə Nayıbova xəbər getdi. O, başılovlu gəldi. Başqalarının eşitməməsi üçün, haqqında yazılmış məqaləni çox çətinliklə, ürəyində oxumağa başladı. Kəndlilər "Nayıbovu bəzəyiblər" deyə gülüşürdülər.

Xüsusilə, Əlibağır oğlunun sevincdən çiçəyi çırtlayırdı. "Əlinə dönüm, – deyirdi, – o kimdir, qoy gəlsin, hələ sözün çoxu məndədir. Nayıbov bankı dağıtdı. Axı belə olmaz, canım!"

Müxbirin imzası "Qarğa" idi. Bu yazı Nayıbovu haldan çıxartdı. "Harada görünüb ki, bir uşaq səni rüsvay eləsin? Buna kim dözər? Bu ləkəni silmək olarmı?" – deyən Nayıbov dodaqlarını gəmirərək, içində söylənirdi. Sonra o, bərkdən bağırdı: – "Buna deyən ola, a tünbətün oğlu, sənə nə? Bank mənim, pul mənim, sənə nə sancı düşüb? Komsomolsan, get komsomolluğuna, xalqın sənətində nə işin qalıb?"

Əvvəlcə Lətifi yaxaladı:

– Onu kim yazıb, mənə ver.

– Müxbirin adını vermək olmaz, – deyə Lətif cavab verdi.

– Sənə deyirəm: müxbiri də sənə qataram, səni də müxbirə, tez ol, adını de! Qarğa kimdir?

– Mənim ixtiyarım yoxdur, get nə edirsən et!

Nayıbov cavab vermədən geri döndü, əsəbi hərəkətlə qəzeti divardan qoparıb, kooperativ tərəfə yönəldi. Lətif hirsləndi:

– Sən bilirsənmi ki, qəzeti divardan götürməyə heç kəsin ixtiyarı yoxdur?

Nayıbov Lətifin üstünə qışqırdı:

– Açıl başımdan! Hər bambılı ağzına gələni yazıb divara yapışdıracaq. Buna bax? Dərənin tülküləri...

Lətifin sözü yox idi. Əhvalatı sovet sədrinə söylədi. Ondan bir sərəncam olmasa, şəhərə gedəcəyini bildirdi.

Çox çəkmədi Cəmil şəhərdən qayıtdı. Əhvalatı eşitmişdi. Rahatlanmadan doqqaz qabağına çıxdı:

– Qəzet hanı?

Hidayət hadisəni tamam danışdı. Dayanmadılar. Tez büro çağırıldı. Uzun bir qərar yazıldı. Qərarda qəzetin əhəmiyyəti göstəriləndən sonra deyilirdi:

"Məmmədəli Nayıbovun divar qəzetini cırması sovet qanununa sığmır. Bu adam qəzetin, hətta özəyin nüfuzunu kütlə arasında tapdalamışdır. Qəza komitəsindən qəti tədbir görülməsi xahiş edilsin. Nayıbov məhkəməyə verilsin. Bu işə təcili binagüzarlıq etdirmək üçün çalışmaq yoldaş Cəmilə tapşırılsın..." Nayıbov və kənd camaatı inanmazdı ki, divar qəzetində bu güc ola bilər! Hadisədən yeddi gün sonra səhər tezdən həmin qəzeti yenə divardan asılı gördülər. Bunun nə demək olduğu hələ anlaşılmırdı. Lakin sovetin katibi kəndlilərə xəbər verdi ki, bu axşam sovetin binasında açıq mühakimə olacaqdır. Nayıbovun cinayət işinə baxacaqlar.

Divar qəzeti öz yerində asılı dururdu. İndi hər kəs ona daha ciddiyyətlə yanaşırdı. Məktəbin əli qələm tutanı Hidayətin və qəzetin başına toplandı. Hidayət "Qızıl Gəncə" qəzetindən bir neçə nüsxə gətirib payladı.



## IV

İyirmi səkkizinci ilin yazı idi. Kənddə təsərrüfat həyatı qaynayırdı, çiçəyini təzə tökmüş yaşıl ipək yarpaqlı dirriklərdə dizinəcən çirməkli dirrikçilər lək sulayırdılar. Məsmə, Səkinə, Pəri çəkillikdə ipəkqurdu üçün budaq qırır, şələləyərək daşıyırdılar. Yaşıl tarlalardan uzaqda, dik təpələrdə əkinçilərin "ho-ha-ho" səsi gəlirdi. Ağ pioner köynəyinin üstündən köhnə toqqa bağlayan naxırçılar, ellik çəmənliyinin lap yuxarılarına çıxaraq, yemlik gəzirdilər. Bir dəstə uşaq kənddə ilk əkin işi aparan traktorların tamaşasına getmişdi.

Gündüz kənddə heç kəs olmurdu. Çörək bişirən, paltar yuyan, su gətirən qadınlar yaşınmadan küçəni keçib gedirdilər. Suların bölüşdürülməsindəki haqq-hesabı aparan sovet katibini qayğı basmışdı.

On beş gündü ki, Cəmilin kasıb daxmasının qapısı cırıldamırdı. Neftsiz lampanın piltəsi qurumuşdu. Qapının ağzında sərçələr eşələnirdi.

Hidayətin ürəyi xarab olurdu. Mümkün olsaydı, o da Buzovnaya siyasi dərs kursuna gedib Cəmildən ayrı düşmək istəməzdi. Lakin bu mümkün deyildi. Kursa yalnız özək katibini istəmişdilər. Hələ bu ayrılıq üç ay olsaydı, dərd yarı idi. Rayon komitələri təşkil olunduğundan qəza komitəsi adam axtarırdı. On dörd rayon üçün yeni katib lazımdı. Cəmilin də adı siyahıya düşmüşdü. Bunu Hidayət qəza komitəsi maşinistkasının qabağındakı kağızda öz gözü ilə görmüşdü. Cəmili oxutmaqdan elə məqsəd də bu imiş. Onu yəqin rayon komitəsinə katib qoyacaqdılar. Bu yaxşı işdi, sevinməli idi. Cəmil rayonda oturandan sonra Abadlı özəyinin işləri daha yaxşı gedəcəkdi. Cəmilin bu cür irəli getməsi özəyin fəxri idi. Lakin Hidayətə Cəmildən ayrılmaq çətin gəlirdi, uşaqlıqdan bir yerdə böyümüşdülər.

Özəkdə iş isə gündən-günə artırdı. Cəmilin yeri görünürdü. Hidayət dərk etməyə bilməzdi ki, indi Cəmilin işlərini yeni katib seçilən adam aparmalıdır.

Bu yandan da səkkizinci qəza konfransına hazırlıq başlanırdı. Özəklər haqq-hesab verirdi. Seçki aparılırdı. Gün olmurdu şəhərdən bir kağız gəlməsin.

■ ■ ■

"Ata, əvvəla, salam! Saniyən, biləsən ki, mənim işim çox pisdir. Kənddən çıxdım ki, dinc olam, burada da məni rahat qoymadılar. Komsomolçular götürüb kənddə elədiyim işlərdən buraya nə yazıblarsa, dünən məni qovdular. Heç kəs üzümə baxmır. Siz göndərən fəsəlini, yağ, yumurtanı yedirtdiyim yoldaşlar indi məni tanımaq istəmirlər. Lap küçədə qalmışam. Bakı, oğlun Xanlar."

Bu məktub gecəyarısı Hacı Həsənin içəri otağında yavaş səslə oxundu. Külfət böyükdən kiçiyə qədər qulaq asdı. Tərlan xanımı bir tərəfdən qüssə, o biri tərəfdən acıq, hirs basmışdı. Qızı xəbər verdi:

– Dünən məktəbdə uşaqlar mənə deyirdi: sən qolçomaq qızısan.

Hacını göynədən hələ taxıl vergisi idi. İki yüz pud! Bunlar onun yanında muştuluq idi. O, deyirdi:

– İki yüz pud möhkəm norma. Məgər bunu bazarda satıb qızıl eləmək, sərhədi köçlü-külfətli aşıb keçmək olmaz? Çarə lazımdır, var-yoxdan çıxdıq. Bircə ay da belə getsə, tükümüzü göyə sovuracaqlar.

■ ■ ■

Gecənin dərin sükutu və zülməti içində baş-başa, nəfəs-nəfəsə verən üç adamın dərdi bir idi, Hacı Həsən deyirdi, Məşədi Əsgər təsdiqləyirdi, o deyirdi, Məşədi Nadir möhürləyirdi. Onlar çala içində idilər. Görünmürdülər, lakin acı və yanıqlı nəfəsləri, hənirtiləri on addımlıqda duyulurdu. Hacı pıçıldayırdı:

– Yox! Gözləməkdən şey çıxmaz. Odur, səndən, məndən adlı-sanlı zamanlılar qaçırlar. Qoy sabah kolxozu qursunlar, onda ha çapala ki qurtaracaqsan. Dözmək vaxtı deyil. İş başına! Gecdir!

Məşədi Nadir ona macal vermədi:

– Sözümüz sözdür!

– Sən gədəni ələ gətir!

– Molla Qulamın planı beynimə batır. Onun.. səs..sıs, sssss!

Yuvasında eşələnən bir qarğa onların bağrını yarmışdı. Hacı özünü tikanların arasına verdi. Məşədi Nadirin gözü dörd oldu.



# V

Payızın axırlarına doğru özəklərdə "yeni iş sistemi" məsələsi müzakirə olundu. Cəmil bu təcrübəni ilk dəfə rayonun böyük özəklərində keçirdi. Hər bir komsomolçuya müəyyən ictimai vəzifə verilir, onun xahişi nəzərə alınır, ondan fərdi haqq-hesab alınırdı. Komsomolçular ictimai vəzifəyə ürəklə yapışırdılar. Kimi təbliğat, kimi səhnə, kimi bədən tərbiyəsi, kimi körpü düzəltmək üçün iməcilik təşkil etmək işinə girişirdi. Eləsi də vardı ki, xalis təsərrüfat vəzifəsi istəyirdi. Lətif Cəmilə deyirdi:

– Canım, təbliğat işini bacarmıram. Qəzeti oxuyub başa çıxanacan yoruluram. Mənə ver əkin-tikin işi. Mən çöl adamıyam. Məktəbin yerini şumlayım, aqroməntəqəni düzəldim, atlara baxım, arxları təmizləyim. Mənimki belə işlərdir.

Cəmil iclası bitirib, rayona qayıdırdı. Tək idi. Qaranlıq qovuşmuşdu. Dəyirman üstündə atı çapmaq istəyəndə koldan atəş açıldı, alov qopdu. Cəmil dərhal özünü atdan yerə atdı, xəndəyə girdi, səngərləndi, yolun o biri qırağını gülləyə tutdu.

Ata güllə dəymişdi.

Atışma səsinə kənddən hay verdilər. Adamlar gəldi. Düşmən kolluqlar içində yox oldu. Lakin Cəmil bu fitnənin başçılarını tanıya bilmişdi. Caniləri tutdular.

Telli xalaya xəbər gedən kimi, təpəsi üstə gəldi. Kənd bir-birinə dəydi. Muzdurlar, komsomolçular həyəcanla deyib-danışırdılar.

Üç gün çəkmədi, istintaq bitdi, Cəmilin həyatına qəsd edənləri sovet məhkəməsi aləmə bildirdi.

Kənd klubu ağzına qədər dolu idi. Qadınların çoxu yaşmaq vurub, içəriyə, portfelli adamlara baxırdılar. Uşaqlar pəncərələrə dırmanırdı. Kişilər məktəb skamyalarında güclə özlərinə yer edirdilər. Ümumi bir səs klubun həyətini də basmışdı. Arı pətəyindən çıxan kimi bir səs ucalırdı. Telli xala əlini göyə qaldıranda hamı susdu. Hamı sakitlik tələb edən Tellinin yuxarı qalxmış bərk əlinə baxdı. Telli, bu gün burada şəhər xalq məhkəməsinin açıq mühakimə iclası olacağını elan edirdi.

Telli kənara çəkilən kimi, məhkəmə heyəti qırmızı stolun dalında göründü. Silahlı mühafizlər üç nəfər qısıqboylu, qarasifət müttəhimi

müqəssirlər kürsüsündə oturtmuşdular. Zalda ümumi bir sükut hökm sürürdü.

Kəndin komsomol fəalına qəsd edən sinfi düşmənlərin açıq mühakiməsi başlanırdı.

*1931*



# SƏFƏR

## I

Bəndalı əsgər gedəsi oldu. Anası Bəndalıya fətir bişirdi, isti paltar verdi. Səhər danüzü qalxıb, ona çay-çörək verdi. Boynunu qucaqlayıb öpdü, onu rayon mərkəzindəki çağırış məntəqəsinə yola saldı. Özü də çəpərin dalına çıxıb əziz, igid və yeniyetmə oğlunun dalınca baxdı. Bəndalı yeyin və düz gedirdi. Alaqaranlıqda onun enli kürəklərini görmək olurdu. Çox çəkmədi, o, bir nöqtə kimi, kiçildi, gözdən itdi.

Anası Bəndalının nişanlısını – Yarpızı gözdən qoymurdu. Sudan qayıdanda, tarlaya gedəndə, klub, tamaşa bilmirdi, harda rast gəlsə, qızı şirin-şirin qayınana dili ilə dindirir, Bəndalıdan söz açırdı. Onun salam-dua yazdığını və guya "Yarpızı hər gecə yuxuda gördüyünü, ondan narahat olduğunu, tezliklə qızdan bir xəbər istədiyini" danışırdı. O, bunların hamısını Yarpızın Bəndalıya olan məhəbbətini ölçmək, onu gözləyib-gözləmədiyini bilmək üçün edirdi. Yarpız isə çox sərin və etinasız cavab verirdi. Arvad Yarpızın bu soyuqluğuna məna verə bilmir

və gileylənirdi:

– Bir zaman, balam, ata-anası yalvarırdı, özü qışın boranında çıxıb qapıda dururdu ki, Bəndalı ötəndə boyuna baxsın. İndi nə oldu? Yoxsa təzəsini tapıblar? Yoxsa "çirkin, sən dur, gözəl axtarım" məsəlidir?

Mehralının arvadı başa saldı ki, demə, qızın anası Bəndalının dalınca deyinirmiş: xalqın kürəkəni, deyirmiş, gedib oxuyar, müəllim olar, doktor olar, böyük adam olar, bizimki də gedər, nə olar, əsgər! Qız yazıq nə vaxtadək oturub gözləsin?

Bu əhvalat Bəndalının anasına ağır gəldi. Əziz oğlunun dalınca edilən bu tənə bir zəhərli tikə kimi onun boğazında qaldı. Onu incitdi, yandırdı, qovurdu, gözlərindən axan iki damcı ilə o, ürəyinə vurulan söz dağını sağaltmaq istədi.

Fikir-xəyal içində oturmuşdu. Poçtalyon içəri girdi. Göy paketdə Bakıdan qalın bir kağız, 150 manat pul və üstünə yazılı bir taxta bağlanmış sovqat gətirdi. Arvad sevindiyindən heç nəyə baxmadı. Kağızı alıb qapıya qaçdı, Əkbərə oxutdu.

Oğlu Bakıdan yazırdı. Şirin sağ-salamatlıq sözlərindən sonra özünün at çapmaqda necə birincilik qazandığını yazırdı:

"Ana, gələn kimi mənə bir kəhər at verdilər. At demə, qanadlı bir quş de, özü də mənə isinişib sözümdən çıxmır, mehriban dolanırıq. Ona döyüş öyrədirəm. Öyrədirəm ki, düşmənlə vuruşda mən yaralanıb yıxılsam, qılıncım əlimdən düşsə, kişnəyib hay salmasın, başıma gələn müsibətdən özünü itirməsin, bütün qüvvəsilə yüyürsün, düşmənin başını qoparsın.

Təlimdəki igidliyimizi bütün şəhər eşitmişdir. Düşərgədən qayıdanda camaat böyükdən-kiçiyə qarşımıza çıxmışdı. Axşamüstü idi. Qızıl bayraqlar əsir, musiqi guruldayırdı, lampalar çiçəklərə qarışmışdı. Küçənin hər iki tərəfində sıx dayanan adamlar bizi görən kimi, əl çalır, şüar buraxırdılar. Mən bu böyük ehtiramı görəndə daha da inanıram ki, bizim ordu dünyada basılmazdır. Ordu nədir, deyərəm, bizim heç bir əsgər dünyasında basılmaz! Bir əsgərin ki, milyonlarla arxası, milyonlarla qardaşı, bacısı ola, bir əsgərin ki igidliyinə milyonlar sevinə, əl çala, o da basılarmı? Gələydin, görəydin, necə igid oğlanlar, necə qəşəng qızlar, gəlinlər bizi qarşılamağa çıxmışdı! Təpəmizə gül yağırdı. Nəcib və utancaq bir qız cərgələri yara-yara gəldi, tanış gördüyünü, birimizə söz deyəcəyini, yaxud adam soruşacağını güman edirdik. Düz mənə tərəf gəlirdi. Üzəngimdən yapışıb əydi. Əlində kağıza bükülü bir məxmər qutu vardı. Qutunu mənə uzadıb:

– Bu hədiyyəni qəbul edin! – dedi.

Aldım. Qızın yumşaq, nazik və isti əlini qızıl əsgər qətiyyəti və səmimiyyəti ilə sıxdım. Qız gülümsəyib dururdu. Onun bağışladığı saatı qoynuma qoyandan bəri qəlbim bərk çırpınır. Mənə elə gəlir ki, o sadə bir qız deyildi, o biz atlıların xalqımızla görüşündən qopan bir sevinc qığılcımı, bir işıq, bir muştuluqdu. O, vətənpərvər xalqımızın öz döyüşçülərinə olan məhəbbəti idi. Nida işarəsi kimi, önümdə durdu, o mənə bir qəlb bağışladı. O mənə dünyanın ən böyük, ən xoşbəxt xalqının qəlbini bağışladı. Mən bu qəlbi sevirəm və qanımla qorumağa hazıram. Mənim qoynumda indi bir saat yox, böyük mehriban və isti bir qəlb çırpınır."

## II

Kənddə camaat Bəndalının məktubundan, onun orduda igidlik göstərməsindən danışırdı. Deyirdilər ki, ona yaxşı mükafat veriblər, partiyaya qəbul ediblər. Özünün də şəkli qəzetlərdə çıxır. Təyyarə ilə uçub kəndin üstündən bir dəfə də Tbilisiyə ötmüşdür.

Bu sözləri Yarpız da eşidirdi, lakin inanmağı gəlmirdi. O, əvvəllər əsgər həyatını və bu adın şərəfini lazımınca dərk etməmişdi. Əsgər deyəndə, onun gözünə şinel, ağır çəkmə, qırxıq baş gəlirdi. İndi isə Bəndalının adı-sanı onu düşündürməyə bilməzdi. O, "oxumuş qızam" deyə, Bəndalının yanında yuxarı kurs tuta bilməyəcəyini yaxşıca başa düşürdü. Qayınanasına salam verməyi, onların qapısına tez-tez dolanmağı və tezliklə oğlanın adresini alıb, ona xüsusi bir kağız da yazmağı qərara aldı.

Gün o gün oldu ki, Bəndalı əsgərlik vəzifəsini bitirib, kəndə qayıtdı. Anası oğlunun boynuna sarıldı:

– Ox, – dedi, – gələn yollarına anan qurban, ay əsgər oğul! Ay igid oğul!

Bəndalı güldü.

– Ana, – dedi, – əsgər demə, zəhmət çəkib komandir olmuşam!

Yar-yoldaş, qohum-əqrəba, qonum-qonşudan Bəndalını istəyənlər tökülüb gəldi. O, gələnlərlə görüşür, əhvallaşırdı. Bəndalı peçin başında oturub Moskvadan, Bakıdan, gəzdiyi gözəl yerlərdən, əsgərlik həyatından, öz yoldaşlarından şirin söhbətlər edirdi. Anası qonaqlara çay-çörək verib, oğlunun sevinc və gülüş qarışıq hər sözünü eşitdikcə arzu-kamını götürürdü. Ona bir də baxırdı. Səsinə, sözünə, tərpənişinə diqqət yetirirdi. Onun yanaqları qızarmış, sümüyü bərkimiş, vücudu möhkəmlənmiş, baxışı itiləşmişdi. Bəndalı bu iki il içərisində iyirmi ilin işini görmüşdü. O yarımsavad, əli qələm tutmayan Bəndalı indi iti-iti yazırdı. Bir yığın kitab gətirmişdi. Partiyalı olmuşdu, əməlli-başlı mərifət öyrənmişdi.

■ ■ ■

Arvad gah Bəndalıya baxır, gah da o biri evdə sudan yenicə qayıtmış, uzanıb fısıldaya-fısıldaya yatmış ərinə baxırdı. Ürəyinə bəzi şeylər gəlirdi: "Bəndalı yuyunmamış yorğan-döşəyə girmir. Bəndalının diş şotkası, sabunu, üz dəsmalı ayrıdır!

Bəndalı hər səhər üzünü qırxmamış çölə çıxmır, qəzet oxumayanda darıxır, səhər tezdən ona təzəcə qəzet gətirirlər. Təzə xəbərləri hamı ondan öyrənir. Gül kimi, tərtəmiz geyinir. Bəndalı necə diliyumşaq, sözünübilən, qanacaqlı olmuşdur!.."

Bu fikirlərlə o, ərinin yanına getdi. Kişi də oyanmışdı. Yerinin içindən baxırdı. Bəndalının anası nədənsə kişisinə belə bir sual verdi:

– A kişi, səni əsgər aparsalar, gedərsənmi?

Kişi dinmədi. Bu sual ona yersiz, bir az da lağ kimi gəldi. O yaxşıca başa düşürdü ki, arvadı onu Bəndalı ilə müqayisə edir, ona təhqirlə baxır.

Arvad bir də soruşdu:

– De görüm, əsgər aparsalar, gedərsənmi?

O özünü sındırmadı. Qılçalarını yorğandan qılınc kimi siyirdi, ayağa qalxdı, qəti cavab verdi:



– Niyə getmirəm, atıla-atıla gedərəm!

Arvad güldü:

– Atıla-atıla getsən, komandir qolundan tutub bayıra atar. Gərək addımnan yeriyəsən, ay yazıq!

Kişi arvadının hazırcavablığına pərt oldu. Durduğu yerdə ona əyri-əyri baxdı. Bir cavab tapmayıb papiros yandırdı. Sonra vacib bir söz xatırlamış kimi, dilləndi.

– Yəni bu Bəndalı bir sənin oğlundur, bəs biz də onun üçün zəhmət çəkib tər tökməmişik?

## III

Bəndalı həyətə, ağacların altına çıxmışdı, hovuza və arxın qırağında bitən çiçəklərə baxırdı. Əlində də tapança kimi bir şey var idi. Anasını çağırırdı:

– Ana, üz-gözünü yaraşığa sal, bura gəl!

Anası gəldi. Bəndalı onun başından yaylığı açdı. Onu ərik ağacının altına gətirdi. Geri-geri çəkilib əlindəki həmayili şeylə arvadın başını tuşladı. Anası qorxdu:

– Nə qayırdığındı, ədə!

– Qorxma, ana, fotodur.

– Fəti nədir, o necə şeydir?

Bəndalı güldü, başa saldı:

– Qorxma, ay ana, bu, şəkilçəkən maşındır. Bir dəqiqədə sənin 12 şəklini çəkəcəyəm. Dost-aşnana payla, qoy baxıb kef çəksinlər.

Arvad yaxasını düymələdi, boğazını bağladı, özünü düzəltdi, gözünü fotoya zillədi. Lakin onun fikri ayrı yerdə idi. Fikirləşirdi ki:

– Görəsən, Bəndalı Yarpızı alar, ya yox?

Bəndalı şəkli çəkib qurtarmamışdı ki, uşaq bir kağız gətirdi. Yarpız öz əli ilə yazırdı:

– "Bu axşam bizə qonaqsınız!"

1931

# BADAMIN LƏZZƏTİ

İmran İçərişəhərin dar, qaranlıq, əyri-üyrü küçələrindən keçdi, daş pilləkənlərdən qalxıb yeddi nömrəli evin alçaq qapısından həyətə girdi. Həyət kibrit qutusu kimi, balaca, yaraşıqlı və kölgəli idi. Bir qadın şüşəbənddə paltar yuyurdu, bir pioner də su quyusunun qabağında, səkidə oturub, aeroplan modeli düzəldirdi.

İmran dəftəri çıxarıb, ev qadınlarının siyahısını tutdu, ayın 25-də açacağı dərnək haqqında, dərs haqqında danışdı. Doqquz nəfərin adını yazdı, qayıdıb getmək istəyəndə fikrinə nə gəldisə, pionerdən bir də soruşdu:

– Üst qatlarda işləməyən evdar qadın yoxdur ki?

Pioner başını qaldırmadı, əlindəki taxta parçasını şüşə ilə yontaya-yontaya dedi:

– Yoxdur, ancaq bir Badam xala var, o da ki lap qoca arvaddır.

İmran dayandı:

– Qoca arvad, yəni on səkkiz yaşı var, ya yox?

– Bilmirəm, yuxarı çıxın, özündən soruşun.



İmran üçüncü qatdakı sement döşəməli dəhlizi keçib Badam xalanın qapısını taqqıldatdı. On-on iki yaşlı bir qız çıxdı. İmran soruşdu:

– Bacı, Badam xala buradamı olur?

– Badam xala yasa gedib.

– Nə vaxt gələr?

– Nə bilim!

– Yaxşı, siz onun familiyasını deyin, mən yazım.

Qız bir az dayandı, sonra içəriyə dönüb səsləndi:

– Məmə, ay məmə! Qapıya çıx!

Qızın səsinə əli tikişli, ortayaşlı bir qadın gəldi. Qadın məsələni anladı. Badam xalanın familiyasını dedi.

– Kərbəlayi Həmidovadır. Yaz, amma Badam xala, nə bilim, belə şeylərə çətin qol qoyar. Heç adını yazmağa qoymaz. Yaxşı olar ki, sonra özünüz gəlib görəsiniz.

İmran siyahını tutub qayıdanda fikrində tutdu ki, axşam işdən sonra Badam xalanın yanına getsin, onunla seçki haqqında danışsın. İctimaiyyətə yovuşmayan qoca qadınları başa salıb, dərnəyə gətirmək birinci şərtdir.

İmran həyətdən yenicə çıxmışdı ki, Badam xala gəldi. Tövşüyə-tövşüyə pilləkənləri çıxdı, eyvanda çadrasını atıb, dincini almağa başladı. Qonşu qız əhvalatı xəbər verdi:

– Gəlmişdilər, arvadları dərnəyə yazırdılar. Səni də yazdırdıq. Familiyan Kərbəlayi Həmidovadırmı?

Badam xala qaşını düydü:

– Necə, necə?

Qızın anası Badam xalanın bu hirsli sualını eşidib, tez eyvana çıxdı:

– Badam xala, seçkilərə hazırlıq gedir. Ali Sovetə seçki qaydalarını ev qadınlarına öyrədirlər. Dərnəkdə oxudurlar. Bütün ev arvadları gedir, səni də yazdılar.

Badam saymazyana cavab verdi:

– Mənim elə yerlərdə nə işim!

– Mən dedim, yazdılar.

– Ay anam, bacım, sənin nə borcuna məni dəftər-kitaba saldırırsan! Canım, gözüm, heç məni birdən-ikiyə iclasda görmüsən?

Qonşu qadın Badam xalaya bələd idi. Onu artıq hirsləndirmək istəmədi, mülayim cavab verdi:

– Heç kəsi dərnəyə zorla yazmırlar. Hamı özü gedir. Sənin adını soruşdu, biz də dedik. Özünü görməyə gələcək. İstərsən, gedərsən, istəməzsən, adını pozar. Heç qorxub eləmə!

Badam xala sakit olub içəri girdi. Lakin ürəyində narahat idi. O zənn edirdi ki, adını yazıb aparan "naməhrəm" adam bir kölgə kimi, ona bağlanmışdır. Onun qəlbinə yol axtarır, familiyasını öyrənməklə bu yolun, bu qapının açarını ələ keçirmişdir.

Bu fikirlər Badam xalanın yadından təzəcə çıxmışdı, eyvanda əyləşib yorğan yunu tökürdü, bir də gördü, Bədirnisə ilə bir cavan oğlan içəri girdi. Bədirnisə Badam xalanı oğlana, oğlanı Badam xalaya tanıtdı:

– Badam xala, bu oğlanın adı İmrandır. Bizə yeni seçki qaydasını öyrətməyə gəlib, buyurun tanış olun!

İmran irəli yeriyib, əlini Badam xalanın əlinə uzatdı. Badam xala başını aşağı salıb, əl vermədi, dinmədi, oğlanın əli uzalı qaldı. Bir az sonra Badam xala dedi:

– Mən qoca arvadam, seçkidə-zadda nə işim!

İmran güldü:

– Qoca olanda, nə olar, on səkkiz yaşın var ki!

Badam xala elə bildi ki, İmran zarafata keçib. Onun üzünə əyri-əyri baxdı, ciddilik əlaməti görüb, heç nə demədi.

İmran aydın danışdı:

– Ölkəmizdə on səkkiz yaşından yuxarı, ağlı başında olan, məhkəmə ilə səsi alınmayan adamların hamısının hökumət seçməyə, hökumətə seçilməyə ixtiyarı var, haqqı var. Seçirlər və seçilirlər. Bütün zəhmətkeşlərin, bütün vətəndaşların hüququ birdir. İstəyir, savadsız qoca arvad, istəyir, universiteti qurtaran mühəndis olsun, istəyir, narkom olsun, istəyir, süpürgəçi! Hamının bir hüququ var. Sabah hər kəs kimi, sizin də seçki kağızınız olacaq, hər kəsin seçilməyini istəsəniz, ona səs verəcəksiniz. Dərnəyin sizə xeyrindən savay zərəri yoxdur. Daha yaxşı, təzə seçki qaydasını öyrənərsiniz. Düşmənləri, xainləri, pis adamları seçkiyə qoymazsınız. İstədiyiniz, bəyəndiyiniz, tanıdığınız təmiz, vicdanlı adamları seçərsiniz.



İmran danışdıqca Bədirnisə Badam xalaya yavaşca deyirdi:

– Yazıl, getsin, bütün arvadlar gəlir. Sənə nə olub ki? İki gündə bir oturub, dərsə qulaq asacaqsan, bunda bir iş yoxdur! Yazılmasan, tay-tuş üstünə ayaq alar. Yazıl, getsin.

Badam xala bərkdən dedi:

– Mənim ağzımla hökumət seçilmir ha!

İmran qadına izah etdi:

– Bir sənin ağzınla seçilmir, düzdür. Ancaq sənsiz də seçilmir, hökumət seçkisində bütün vətəndaşlar iştirak edirlər. Onların rəyi bu işdə əsasdır. Bakıda, deyə bilərəm ki, bu işə soyuq yanaşan tapılmaz. Bütün ölkəmiz, bütün xalqımız özünün ali hakimiyyət orqanlarını seçməyə ciddi hazırlaşır. Hətta bizim düşmənlərimiz, o adamlar ki, biz ona ixtiyar vermirik, özlərini seçkiyə soxmağa, öz adamlarını hökumətə keçirməyə çalışırlar. Amma siz, Badam xala, öz hüququnuzdan istifadə işinə etina etmirsiniz. Belə şey olar?

İmranın yerinə Bədirnisə darıxdı, qələmi onun əlindən alıb, yazmaq istədi:

– Yazıram, Badam xala, oğlanı yorma, di bəsdir.

Badam xala bir az səssiz dayandı və alçaqdan dedi:

– Yazginən!..

Badam xala birinci gün dərnəkdə ağzını da açmadı. Dinməz-söyləməz qulaq asıb qayıtdı. Lakin evdə oğlu Xəlili rahat qoymadı:

– A Xəlil, o bizə dərs verən oğlan deyir ki, lap hökumətin böyüklərini, məsələn, lap o Moskvada əyləşənləri də biz seçəcəyik, düzdürmü?

Xəlil, əslində, qaradinməz adam idi... Elektrik stansiyasında texniklik edirdi. Anasının qocalığını nəzərə alıb, onunla ictimai söhbət açmazdı. Badam xalanın bugünkü sualı Xəlili də maraqlandırdı. Xəlil fikirləşdi ki, iyirmi ildir inqilab olub, işlər dəyişib, dünya ayılıb, camaat irəli gedib, gör mənim anamı ki, adi şeyləri də bilmir. Sabah bir yoldaşımdan belə şey soruşsa, mənə də yaxşı olmaz. Deyərlər, sən necə sovet adamısan ki, evdar anana belə mətləbləri də başa salmırsan?

Xəlil anasına anlatdı ki, Sovet hökuməti xalqın əsl hökumətidir. Həmişə bütün böyüklər seçki ilə, camaatın əli ilə seçilirlər. O, qanunlardan, SSRİ-nin yeni Konstitusiyasından danışdı.

İmranın dərnəkdə dediklərini, bir az pərakəndə olsa da, bacardığı kimi, anasına izah etdi. Badam xala dedi:

– Müəllim yaxşı danışırdı, sən qarışdırırsan...

Sabahısı gün Badam xala dərnəkdən şövqlə, daha aydın təsəvvürlə qayıtmışdı. Oğluna çay-çörək verib, rahat elədi və soruşdu:

– A Xəlil, yoldaş Lenin nə deyib?

Xəlil gülümsədi:

– Bu nə sualdır?

– Soruşuram da, rəhbərimiz nə deyib?

– Lenin deyən bəyəm birdi, ikidi?

– Bir söz var ey, Lenin özü deyib...

Xəlil barmağı ilə şkafda cərgə ilə yığılmış gözəl və qırmızı cildli kitabları göstərdi:

– Lenin bir söz deməyib, Lenin çox söz deyib. Bax, o qırmızı kitabları görürsən ki, orada yazılanların hamısını Lenin yoldaş deyib!

– Yox ey, arvadlar barəsində.

Xəlil anladı:

– Hə, qadınların azadlığı haqqında. Gərək qadınlar kişi ilə bərabər olsun! Azadlıq işi qadınların öz işi...

Burada Badam xala yenə Xəlilin sözünü kəsdi:

– Yox, onu demirəm. Bir söz də deyib e, xörək bişirənləri də yada salır...

Xəlil fikirləşdi, birdən yadına düşdü:

– Bildim, Lenin deyib ki, qulluqçu da hökuməti idarə etməyi bacarmalıdır. Yəni, xörək bişirən arvad da hökumət işlərini bilməli və öyrənməlidir.

– Ay sağ ol! Elə mən bunu axtarırdım. Ağrın alım, onu bir kağıza yaz, ver mənə!

– Neyləyirsən?

– Necə neyləyirsən? Qızıl kimi sözdür, yadımda saxlayacağam. Mənə lazım olar!

Xəlil anasının xahişini yerinə yetirdi. Badam xala Leninin sözü yazılan kağızı qatlayıb, can köynəyinin altına, qoynuna qoydu və oğlundan razılıq etdi.



– Əllərin ağrımasın!

Badam xala indi dərnəyə getməyindən, İmrandan və Bədirnisədən çox razı idi, seçkiləri gözləyirdi. Gözləyirdi ki, görsün, doğrudan da seçkidə, hökumət adamlarını seçəndə onu çağıracaqlarmı. Necə saya salacaqlar, ona harada yer göstərəcəklər və nə deyəcəklər.

Gün o gün oldu ki, Badam xala yaşayan məntəqədə SSRİ Ali Sovetinə seçiləsi namizədlərin müzakirəsi başlandı.

Seçki komissiyası böyük və bəzənmiş bir zalda bütün seçicilərin iclasını çağırmışdı. Evlərə xüsusi çağırış vərəqələri göndərilmişdi. Ömründə birinci dəfə idi ki, Badam xalanın adına evə kağız gəlirdi. O, zər haşiyəli, qırmızı yazılı kağızı ovcundan yerə qoymurdu, sevindiyindən özünü itirmişdi. Bədirnisəyə inanmadı. Oğlunun işdən qayıtmasını gözləmədi. Qapıya çıxdı. Bir portfelli kişi gedirdi. Badam xala onun naməhrəm olmağından utanıb, soruşmaq istəmədi. Bir də fikirləşdi ki, canım, nə naməhrəmbazlıqdır, məni yeməyəcək ki! Kağızı portfelli kişiyə göstərib soruşdu:

– Ay oğul, bir zəhmət çək, oxu görüm, bu kimin adınadır!

Portfelli kişi oxudu:

– Badam Kərbəlayi Həmidova Nəzər qızı!

Badam xala "sağ ol!" – deyib kağızı aldı. Səliqə ilə dörd qatladı, Xəlil yazan kağızın yanına qoydu.

Axşam iclas başlandı. O böyüklükdə zal camaatla dolmuşdu. İynə salmağa yer yox idi. Badam xala basabasdan qorxub, qıraqdan yeriyirdi. Klub müdiri onu görüb irəli çağırdı, yol açdı:

– A yoldaşlar, bu qoca qadınlara qabaq tərəfdə yer verin!

Badam xala Bədirnisəgillə cərgələrin arasından, adamların içindən keçib, lap qabaq tərəfdə oturdu. Badam xala əvvəl bir səhnəyə göz qoydu, şəkilləri, zər qotazlı qırmızı bayraqları, ağ yazılı ipək parçaları gördü. Səhnədə oturanlara diqqət elədi. Heç birini tanımadı. Yavaşca çevrilib dala – zalı dolduran, bir-birilə danışıb gülən təzə, təmiz paltarlı yüzlərcə seçicilərə baxdı, onu heyrət götürdü. Ürəyində dedi: "Pah... Bizim küçədə gör nə qədər camaat varmış! Çoxu da cavan-cavan...".

Bir enlikürək, boy-buxunlu oğlan zəngi tərpədib iclası açdı, danışdı. Sonra namizədlərin müzakirəsinə keçdilər. Badam xala fikir verirdi.

Danışanlar çox asan sözlər deyirdilər. Hamısını anlayırdı, hərdənbir əyilib, Bədirnisədən soruşurdu:

– "Qəti" nədir? "Xarakteristika" nə deməkdir?

Bədirnisə başa salırdı:

– "Qəti" – yəni, möhkəm ol! "Xarakteristika" – yəni, xasiyyətnamə, yəni, bu necə adamdır, belə ha!..

Badam xala görürdü ki, iclasa gələnlər yaxşı adamları, iş bacaranları seçməyə hazırlaşırlar. Hər kəs deputata tapşırıqdan, abadlıq işlərindən deyir.

Badam xala da bildiklərini demək istədi. Bu arzu onun qəlbindən keçəndə sanki bütün vücudunu oda tutdular: bədəni əsdi, onu tər basdı, istədi "eh" deyib, kirimiş otursun, heç danışmasın. Bir də xatırladı ki, bəs mən niyə gəlmişəm? Sabah bir pis adam gəlib bizə böyük olanda hökumət deməzmi, a filanın qızı, niyə dinmədin? Sizdən soruşduq axı? Badamın əli, cəsarətsiz yavaş-yavaş qalxdı. Deyəsən, batmış bir gəmini çətinliklə dənizdən çıxarırdılar, dor ağacı yavaş-yavaş görünməyə başlayırdı. Onun əli başından bir az hündürə qalxmışdı ki, sədr söz verdi:

– De görüm, ay xala. Söz verilir seçici Badam Nəzir qızına.

Badam əyilib Bədirnisədən soruşdu:

– A qız, o bildir incinar gəlmişdi ha, küçənin planını verdi ha, adı Yusif, famili nə idi onun?

– Əmirov, rayon ispalkomunda işləyir, Əmirov!

– İspalkomda işləyəndə, nə olar. Bəyəm, onu seçmək olmaz?

– Olar, niyə, razı olsalar, niyə olmur.

– Mən onu deyəcəyəm!..

Bədirnisə müəyyən bir cavab verməsə də, Badam əzmindən dönmədi. Camaatın onu gözlədiyini, ona tərəf dönüb baxdığını görüb, özünü topladı və ağır-ağır ayağa qalxdı. Sədrə baxdı, bir də dönüb, camaata baxdı. Camaatda maraq artmışdı. Bütün zal susdu. Milçək uçsaydı, səsi eşidilərdi. Bütün gözlər Badam xalaya dikildi. Bədirnisə onu dümsüklədi ki, "Di, tez ol, danış, camaat səni gözləyir!"

Badam, ömründə ilk dəfə idi camaat arasında danışırdı, hökumət işlərində iştirak edirdi. Sevindiyindən, utandığından, ya həyəcanından-





Təzə toyun nəzakət qaydaları səh.112

mı, nədənsə nitqi tutulmuşdu, dili gəlmirdi. İşarə ilə su istədi. Ona su verdilər, xahiş edib uca yerə, tribunaya çıxartdılar. Bir də əyləşən, diqqətlə qulaq asan camaata göz gəzdirdi. Stəkanı əlinə alıb, ağzını islatdı, mülayim səslə sözə başladı.

– O yoldaş, başdan danışan yoldaş çox qəşəng danışdı. Düz deyir ki, gərək deputatlığa təmiz adamları, iş görənləri seçək. Keçən ildən bizim rayonda bir oğlan işləyir. Dərsi qurtarıb gəlib. Adı da Yusifdir, famili də...

Badam duruxanda yerlərdən dedilər: "Əmirov."

Badam gördü ki, onun göstərmək istədiyi namizədi çoxları tanıyır. Bu, ona bir az da cəsarət verdi:

– Həmin o Yusif oğlan bizim evlərə işıq da çəkdi, su da... O, bir plan töküb ki, küçə başdan-başa açılıb, bir abad şəhərə dönüb. Mən görürəm, bizim işlərimizə elə can yandıran lazımdır. Əgər yaşı düşürsə, bir də soruşaq, əgər razıdırsa, mən deyirəm, onu seçək! Lap qabil adamdır. Yoldaşlardan mənim bir xahişim elə budur ki, deyirəm, yaşasın Yusif kimi qabil işçilərimiz və onların müəllimləri!

Əyləşənlər əl çaldılar. Badam xala düşüb yerinə getmək istədi, nəsə yadına düşdü, bir də səhnəyə qayıtdı. Sədrin üzünə baxıb, şəhadət barmağını yuxarı qaldırdı:

– Bir sözüm qalıb, tək bircə sözüm.

Sədr işarə ilə ona danışmağa icazə verdiyini bildirdi. Badam dedi:

– Mən eşitmişəm ki, gəmi təmir edən fəhlələr də mən deyəni deyib. Çünki bizim həyətdə adam var, o danışırdı. Özü də yalan danışan adam deyil. Yusifi də tanıyır.

Badam xala bu sözü deyəndə camaat gülüşdü, təkrar əl çalındı.

Badam xaladan sonra çıxan üç natiq – bir fəhlə, bir nəfər milis işçisi, bir nəfər də komsomolçu qız Yusif Əmirovu təriflədi.

Bədirnisə Badam xalanı təbrik edirdi:

– Sənin dediyin oğlana hamı səs verir. Özü də kommunist imiş, ordeni-zadı da var imiş.

Badam öz təklifində təkid etdi:

– Bacı, kişinin oğluna halaldır!

Sədr də Yusif Əmirovu yaxşı iş görən bir mühəndis kimi tərifl ədi.

Badamın təklifini səsə qoydu.

Badam zal boyu yüzlərlə əlin göyə qalxdığına baxanda ürəyi dağa döndü:

– Əcəb, əcəb! – dedi.

Badam xala iclasdan çıxanda qonşular başına yığılmışdı. Müəllim onun əlini sıxıb deyirdi:

– Səni görüm yüz yaşa!..

Badam xala ömründə pis günlər görmüşdüsə, çox ləzzət də çəkmişdi. Analar üçün ən böyük arzu olan oğul toyu da görmüşdü. Sovet hökumətinin sayəsində yeddinci nəvəsinə 2000 manat da mükafat almışdı. Özünə ipəkdən, şaldan, mahuddan da paltar tikdirmişdi. Yayda bağda, qışda evdə istirahət edib, deyə-gülə gün keçirmişdi. Hətta neçə dəfə Kirovabada, Nuxaya gəzməyə də getmişdi. Sərin yay axşamları hərdənbir Dağüstü parkda gəzmişdi. Kirovun heykəlinə də doyunca baxmışdı. Amma heç vaxt bugünkü qədər ağzı dada gəlməmişdi. O, cəmiyyət içində heç vaxt belə yaxşı bir iş tutub, elin rəğbətini qazanmamışdı. İctimai iftixarın bu ləzzətini görməmişdi. İndi vücudundakı qocalıq hisslərinin töküldüyünü, dizinə və qoluna qüvvət gəldiyini duyurdu. O, ancaq indi hiss etdi ki, arxasında yalnız oğlu yox, böyük bir vətən, qədirbilən bir xalq durur. Onun hər bir doğru, xeyirli sözü və işi həmişə alqışla qarşılanacaqdır. Bundan çox xoşlandı, ayrı bir şirinlik, ayrı bir ləzzət duydu. O, güman etməzdi ki, bu qədər böyük adamlarla – narkomlarla, kommunistlərlə, mühəndislərlə, həkimlərlə, müəllimlərlə, komandirlərlə yanaşı bir qoca evdar qadının da sözünü saya salarlar. Fikir verərlər, eşidərlər. Badam xala qəlbində daşan sevincin təsiri ilə quş kimi yüngül olmuşdu. Evə gəldi, ancaq indi anladı ki, nə üçün qonum-qonşu qadınlar hələ on il bundan qabaq çadralarını atıb oxuyublar, işə girişiblər, kluba, iclasa qurşanıblar... O, indiyə qədər geri qaldığına utandı, ürəyində dedi: "Başıma xeyir, mən də tutmuşam namazın quyruğundan. Seçkiyə qədər mən gərək çox iş görəm. Köhnə şeylərdən lap üzüləm gərək!"

Oğlunu səsləyib dedi:

– A Xəlil, o canamazı apar sat!

Xəlil gülümsədi:

– Kimin nəyinə lazımdır, ay arvad!



Badam xala Xəlilin haqlı cavabından duruxdu, dərin fikrə gedib öz-özünə dedi: "Doğru deyir, mən gecikmişəm."

*1931*

# "MYAXQİY"

"Myaxqiy" sürət poyezdi. Yumşaq yataq. Təmiz yer. Yaşıllıqlar, buludlar, dağlar, binalar pəncərədən baş əyərək keçirlər... Bunu kim istəməz?

...Kassir ilə dədə-babadan qanbir qohum çıxanlar bir-birinə yapışmışdılar. Növbədə birisi burnunu silmək istəyəndə hamı tərpənirdi. Mən isə kassaya yapışdım. Furajkamın kölgəliyi qırılmaq üzrə idi. Kassirin ancaq ətəyini görürdüm. O, cəld fırlanır, mənə bilet hazırlayırdı.

– Bəs burada vaqon, yer nömrəsi?

– 68-ci poyezddə myaxqiy vaqon bir dənədir. Nə nömrəbazlıqdır? Pravadnik göstərər.

– Sonra başağrısı olmasın?

– Arxayın ol!

Tərimi silib, razılıq etdim, qayıtdım. Sabah məni yoldaşlarım yola salacaqdılar.



■ ■ ■

Zəng vuruldu. Bilet növbəsində duranların həyəcanı daha da qaynadı.

İkinci zalda əyləşənlərə zəng heç bir təsir etmədi. Onlar kassadakı hay-küyə baxıb, öz-özlərinə deyirdilər:

– Bax, yola çıxan mənim kimi olar! Bileti səhərdən vaxtında almışam. Poyezd dayandımı, yerimdə uzanıram.

Mən də bunların içində idim. Sanki biz bütün çətinliklərdən sığorta olunmuş imtiyazlı adamlardıq.

Mən "myaxqiy" vaqonu tapdım. Çamadanı cəsarətlə qaldırdım. Konduktor fanarını uzadaraq, mane olmaq istədi:

– Bilet! Bilet!

Bileti yoxladıqdan sonra başını tərpətdi və çamadanı geri çəkdi.

– Düz deyil! Nömrəsi hanı?

Mənim də, yoldaşlarımın da izahatı faydasız oldu. Qonşu vaqonun uzunbığlı başı titrəyən konduktoru öz yoldaşına dedi:

– O yan-bu yandan tanışlıq ilə düzəldib da!..

Dayanmağa, konduktoru inandırmağa nə imkanım var, nə vaxtım. İndicə deyirəm, zəng çalınacaq. Poyezd naçalnikini tapdım:

– Mən verməmişəm ki? Növbətçi ilə danış.

Özümü itirmişdim. Bufetdəki otaqları bir-birinə vurdum. Adamlar mənim ya bir şey oğurladığımı və ya şeyim oğurlandığını zənn edirdilər. Növbətçini furajkasından tanıdım.

– Yoldaş növbətçi, stansiya mənə satdığı biletə nömrə qoymamışdır. Vaqona buraxmırlar.

O, biletə baxdı. Birisinin ardınca qaçaraq cavab verdi:

– Mənə aid bir şey yoxdur. Şəhər stansiyası satıb, mənə nə?

– Bəs siz nə məsləhət görürsünüz, nə etməliyəm?

– Gərək nömrə yazaydılar.

Bundan bir şey çıxmayacağını anladım. Atıldım, zorla vaqona girdim. Çamadanı dizimin arasında tutub pəncərədən bərk yapışdım. Poyezd tərpəndi. Qanım qaralmış və yoldaşlarımı unutmuşdum. Yeni mübarizəyə hazırlaşırdım.

Çox çəkmədi, meydan qızışdı.

– Çıx, yoldaş, çıx! Sən nə naxal adamsan!

– Əlimdə biletim var, mənə yer ver. Naxal özünsən!

Məni zorla çıxara bilməyəcəyini yəqin edən konduktor qonşu vaqona keçdi və tez qayıtdı.

– Gəl, şeyini götür gəl!

Mən bir az sevindim. "Şükür ki, nəhayət, yer tapıldı", dedim. O məni dalanda qoyub getdi. Yarım saata qədər gözlədim. Poyezd qaranlıqları yarıb, relslərdə axırdı. Kəndlərdə arabir lampa işığı görünürdü. Yuxudan duran miniklərə ruh verən dərin fəza, ulduzlar mənim gözümə batır, yuxu çağırırdı. Dörd stansiya getmişdik. Qapını açıb, içəri girdim. Hamı yuxuda idi. Çamadanı ilk kupedə, pəncərənin dibinə qoymaq istəyirdim. Burada tuluq kimi yayılmış bir qadın çalxalanaraq, hövlnak yuxudan qalxdı. Məni yaxaladı:

– Svoluc, çıx buradan!

Mən özümü saxladım:

– Ay xala, bir əvvəl bil, gör nə danışırsan, kefli deyilsən ki?

Mənim sözlərim onun qışqırığı altında boğuldu. Adamlar zəlzələ olmuş kimi, yerlərindən sıçradı. Aşağıdakılar ayağa qalxdı, yuxarıdakılar sallandı. Hamı öz şeylərini yoxladı. Bu halda konduktor gəldi. O məni bir neçə saat əvvəlki mübarizədən tanıyırdı. Boş "yer olmadığını" söyləmişdi.

– Çıx ay yoldaş! Sənə kim icazə verdi?

Arvad daha da cəsarətləndi. Oyananlarda mənim düz adam olmadığıma şübhə daha da artdı. Birisi çamadanımı tutur, o birisi itələmək istəyirdi. Konduktor deyirdi:

– Çıx, çıx! Çıx, vəssalam!

Çamadanı konduktora buraxıb getdim. Vaqondan-vaqona keçdim, baş konduktoru tapdım:

– Budur, yoldaş, soruşun görək, mənə niyə yer vermirlər! Hamıdan artıq pul verdiyim üçünmü?

"Mənim əsəbi ifadələrim və həyəcanım, haqsızlıqlar onu təsirləndirər", deyirdim. O, qırmızı yanaqlı, oynaq gözlü bir qoca idi. Qayibanə söydü, durdu:



– O Saşadır, yaxşı adamdır, sən nahaq şikayətlənirsən.

– Biletim əlimdə ola-ola mənə nə üçün yer vermir?

– Stranno rassujdayeş, nömrəsi yoxdur.

– Biri səhv etmişsə, həqiqəti unutmaqmı lazımdır?

– Savadlı oğlansınız, nömrəsiz bilet alanda bilmirsinizmi başınız ağrıyacaq?

Mən dözə bilmədim:

– Yoldaş, – dedim, – bir işdir düşüb, bir səhvdir, eləmişəm, keçin bundan, mənə yer düzəldin.

– Yer düzələcək, – dedi, – ancaq o kassirin də qulağını burmaq lazımdır. Gedək Saşanın yanına.

Biz həmin vaqona gəldik. Saşa bizi qabaqladı. Baş konduktoru gördükdə daha da ürəkləndi.

– Bu vətəndaş skandal törədir.

Mən yorğun dizlərimi taxtaya söykəyərək, yeni açılan sabahın dərinlərinə baxırdım. Üfüq qəhərli bir ürək kimi sökülür, dalğalar hücum edən ordular kimi şəfəqlərə tökülür, kainat oyanırdı. Saşa-maşa başımdan rədd olmuşdu. Partiyamızın dəmiryol haqqındakı qərarını xatırladım:

"Dəmiryol nəqliyyatında xalq təsərrüfatının hər bir başqa sahələrindən artıq gözdən əsgi asmaq, yalançı zərbəçilik, bürokratizm halları vardır."

Görəsən, bunu Saşalar oxuyacaqmı? Ehtimal ki, oxumayacaqlar. Lakin bu sətirlərin, buna aid tədbirlərin Saşalara oxudulacağına heç şübhə yoxdur.

*1932*

# İSTİFADƏ

*I*

– Yolçu, oradan müəlliməni səslə, bir az söhbət eliyək...

İdris bunu deyəndə, mən həm sevindim, həm də narazı qaldım. Sevindim, ona görə ki, bilikli, məlumatlı adamlar ilə həmsöhbət olmaq adamın məlumatını artırar. Belə adamlardan çox istifadə etmək olar. Narazı qaldım, ona görə ki, yazın günündə, istirahətə çıxdığımız yerdə nə istifadəbazlıqdır.

Müəllimə təbiyyatçı idi, ali təhsili vardı. Öz-özümə dedim: "Yəqin yenə təbiyyət elmindən danışacaq, səhər-səhər sürünənləri, fəqərəliləri, məməliləri və qəlsəməliləri yığıb üstümüzə tökəcək."

Müəllimə gəldi. Narıncı ipək paltar geyinmişdi. Qapıdan girən kimi, işıqlı bir dalğa duydum. Deyəsən, otağı bəzədilər, hər şey mənə zərif, gözəl və sevimli göründü. Dodaqaltı salam verib, kresloya əyləşdi.

Paxıllıqdanmı, nəzakətsizlikdənmi, nədənsə yoldaşlarım məni müəllimə ilə tanış etmədilər. Onsuz da utancaqlıq məni boğurdu. İlk dəfə idi ki, belə bir qadınla qarşılaşırdım. O danışırdı. Lakin nə danışdığını bilmirdim. Mən onun üzünə baxırdım. Zahiri təntənəsinə, əda, gülüş və nəzakətinə görə, bir o qədər gözəlliyi yox idi.

Dəyirmi, mütənasib üzü vardı, ağzı balaca, boyalı dodaqları nazik, gözü yekə, qara qaşları qalın idi. Burnu aşağı getdikcə çadır kimi yayılır, sanki dodaqlarındakı boya qurumasın deyə, kölgə salırdı.

Üzündən aşağı endikcə tənasüb pozulur: boynu yoxdu. Deyəsən, ağır bir qapaz vurulmuş, boynu qınına girmişdi. Ağ, açıq qolları hər iki tərəfdən mərmər sütun kimi sallanırdı. Sinəsi daş ayna kimi parlayırdı.

Səadət xanım məclisi qat-qat şənləndirdi. Hamı özünü yığışdırdı. İdris tərli, kirli corablarını gizləmək üçün çəkməsini ayağına taxdı. Yolçu yuyundu, gəldi, mən də bürküyə baxmayıb, yaxamı düymələdim. Mən yanılmışdım. Səadət xanım təbiyyatdan danışmadı. O mənim istəmədiyim, lakin maraqlandığım şeylərdən söhbət açdı:

– Qadın qəlbi qapalı bir bağçadır, açarı da qadının özündədir. Bu açarı qəlbdə yanan sevgi fanarı ilə arayıb tapmalı, bağçaya isə yaz çağı, küləksiz bir səhərdə, həm də ayaqyalın girməli, iyləməklə kifayətlənməli...

Səadət xanım utandığımı, ya qəribliyimi hiss etdi, tez-tez mənə atdığı baxışlarla kifayətlənmədi:

– İdris, heç qonağın danışmır? – dedi.

Yolçu hazırcavablıq elədi:

– Sən macal verdin ki!

Hamı güldü. Səadət xanım qollarını açaraq, tələbkar bir əda ilə:

– Pajalusta, – dedi.

Mən danışmadım, sözüm də yoxdu. "Bəli", "xeyr" ilə, ya da heç nə demədən dişlərimi ağartmaqla başımı girləyir, məclisimizin bitməsinə tələsirdim.

Başını pəncərədən uzadan bir göyköynək kişi İdrisə bilet verdi:

– Vaxta qırx dəqiqə var, hazırlaş, – deyib, tələsik ötdü.

İdris Şamxora gedəcəkdi. Yolçu da kimi isə gözlədiyi üçün vağzala çıxmalı oldu.

Mən də qalxdım. Həyətə çıxanda İdris dedi:

– Səadət xanımı evlərinə qədər ötür.

Biz xiyaban kənarında əkilmiş cavan tut ağaclarının kölgəsi ilə gedirdik. Onun ilk sualı bu oldu:

– Yəqin siz Gəncədə çalışırsınız?

– Bəli!

– Təzə qurtarıbsınız, eləmi?

– Birinci ildir!

Səadət xanımın sualları məni cəsarətləndirdi, mən bu suallarda cavab arayan bir adamdan artıq sual arzulayan bir həsrət duyurdum.

Bir az fikirləşdim. Ürəyimdə sualı sərf-nəhv cəhətcə yoxlayıb dilləndim:

– Buraya təzəmi gəlmişsiniz?

O güldü, dodaqlarını büzüb, başı ilə "yox" işarəsi etdi, dili ilə də dedi:

– Yooox! Yoooox aa!..

Gülüşü elə qaynayırdı ki, deyəsən, qarqara eləyirdi. Mən başqa bir sual hazırlamaq fikrində ikən, cavabın davam etdiyini görüb dinlədim:

– Yoooox... Səhviniz var. Mən üç ildir ki, buralarda ləbbeyk deyirəm... Nə edim? Mən xanım adamın birisi idim. Başıma işlər gəldi, işləməyə məcbur oldum. Allah kəssin siz kişilərin vəfasını...

Heç mən bunu gözləmirdim. Bir tərəfdən onun "başına gələn iş", o biri tərəfdən də mən yaşda bir uşağı "kişi" adlandırması məni təəccübləndirdi, ona bir çəpinə baxdım.

– Mənim kimi kişilərdəki vəfanı haçan ölçdünüz?

– Bəli, bəli, siz kişilərin vəfasızlığı... Kimə deyəsən ki, bir arvadı, altı ayın gəlinini...

Bunlardan sonra müəllimə mənim qarşımda ucuz bir kitab kimi açıldı. Mən onu köhnə əlifba kimi ötəri oxudum. Səadət xanım Gəncə bəyzadələrindən birinin arvadı imiş.

Əri cüzi qısqanclıq üstündə onu evdən qovmuş, sonra peşman olub, nə qədər çağırmışsa, bu getməmiş, "Eşşək nə bilir zəfəran nədir?" – deyə rədd etmiş. İndi rayon uşaq bağçasında mürəbbiyədir. Neçə-neçə mötəbər yerlərdən onu istəyən var, getmir. Çünki heç birisi xasiyyətinə uymur. Vağzalda bütün mötəbər adamların yanında xüsusi hörməti var. Hətta naçalnik onun şərəfinə bir ziyafət də vermişdir. Hansı ki, orada



İdris də tost deyibmiş...

Bunları eşidəndə mən vicdanən sıxıldım. Belə bir qadına evlənmiş adamın yorulub, yarıyolda qalmağına acıdım. Bunu gizləyə bilmədim:

– Məncə, Səadət xanım, siz nahaq inad edirsiniz. Ürək verdiyiniz adam ilə başacan olmalı idiniz... Hər kiçik ixtilaf ailəni pozarsa, onda nə olar?

Bu söhbətlərlə biz vağzal yanında yeni tikilmiş evlərə çatmışdıq. Səadət xanım burada güllər, sarmaşıqlarla örtülüb, üfüqləri açıq bir həyətdə yaşayırdı. Qapıda dayandım, axşama az qalırdı. Günəş batırdı, batmasından da acıqlanmış kimi qızarmışdı. Buna baxan kim idi; dağlardan, meşələrdən uzanıb gələn böyük, qara kölgələr üst-üstə mindikcə qatılaşır, qaralır, günəşin bozarmış ətəklərini qamçılayırdı. Günəş çəkilib yuvasına getdi.

Mən əl verib Səadət xanımla vidalaşmaq istərkən, o, bir az duruxdu, əlimi buraxmadı. Pambıq kimi yumşaq, ağ əllərinin hərarəti ürəyimə qədər işlədi.

Qatar gəldi. Mən öz kupemə getdim. Səadət xanımdan ayrıldım. O, bufetin qabağında dayanıb, qırmızı haşiyəli əl yaylığını oynadırdı...

İki gün sonra Səadət xanımdan məktub aldım. Zərif kağız, göy astarlı zərf, bənövşəyi mürəkkəb. Bunların hamısı, nədənsə, nəcib, təmiz, saf bir qəlbin nişanəsi kimi, mənə çox xoş gəldi. Stansiyadakı görüşü xatırladım. Məktubunda, nigaran qaldığını yazırdı. "Tənəzzül buyuraramsa", ona "təskini-qəlb" üçün balaca bir cavab yazmağı xahiş edirdi.

Onun xahişinə əməl etdim. Bir açıq məktub göndərdim.

## II

Yazın yuxusu nə qədər şirinsə, oyaqlığı da o qədər ləzzətlidir. Oyaq olasan! Səhərin açılmasına, dənizin içindən qalxan günəşə, üfüqün gül rənginə, may paltarı geymiş meyvə ağaclarının yaylıq oynatmasına, səslərində yerə gümüş pul səpən quşlara, daşları yalayaraq axan duru sulara, arılara, o şüursuz "memarlara" baxdıqca, ən tez duran adamlardan salam aldıqca ömür artmırmı?

Heyif ki, zəng tez çalınır. Dan üzü qalxıb anasına kömək etdikdən sonra çantasını qoltuğuna vuran, yuxuya qalıb, yaxmac gəvələyə-gəvələyə, yaxasıaçıq məktəbə tələsən uşaqlar sinfə doluşurlar, skamyaların arasına səpələnib, məsum və gülər üzlə məni gözləyirlər. Mən tez bağçadan qayıdıram, təəssüflə qayıdıram.

Bu təəssüf sinfə girənə qədər davam edir. Bura, bu sinif bağdan, bağçadan əskikmidir?

Budur, bu bağçanın baharı gəlir! Buranın kiçik günəşləri var! Bütün təbiət – günəş, hava, yerlər, sular, şəhərin bir başından o başına qədər düzülmüş idarələr, hamı, mən də onların içində bu günəşləri bəsləyir, böyüdürük. Bu bağın quşları səsləndimi, o biri quşlar nə lazım? Onların saf, bakirə, həyat və gələcək dolu şən səsi dillərin ən böyük mahnısı, şeirlərin ən gözəl şeiri, dünyanın ən dadlı musiqisidir. Ah, mən də uşaq olsaydım!..

Dərs başlanır.

Sabirin yaradıcılığı!

Mən bu böyük insanı uşaqlara tanıtmalıyam.

– Necə başlayım?

– Çətindir.

Mən hər birini bir Sabir, bir Puşkin, bir Axundov görmək istədiyim uşaqların qarşısında acizliyimi etirafa məcbur oluram. Əllərimi ovuşdurub, sinifdə gəzişirəm. Nə çıxır-çıxsın, başlamalıyam.

– Tahirzadə Ələkbər Sabir...

Xidmətçi qadın qapını açıb, mənə baxır:

– Bağışlayın, darvazada sizi gözləyirlər.

– Deyin dərsdədir!

– Tələsirəm, deyir, bir dəqiqəliyə...

Mən kitabı yerə qoyub çıxdım. Darvazada bir qırmızı paltar qadın dururdu. Əvvəl tanımadım. Yaxınlaşdıqca onun boyu, baxışı və duruşunda keçirdiyim günlərdən bir cizgi seçməyə çalışdım, tanıdım: Səadət xanımdı.

– Sə...

İstədim, salam verib görüşəm. O, üzümə elə tünd baxdı ki, sözüm ağzımda qaldı. Ancaq vəsfəgəlməz yaxşılıqları, ömrü uzunu dostluq və



məhəbbəti yerə vurub, ən böyük cinayətə qoşulan xainə belə baxarlar. Sanki gözümə istiot tökdülər.

– Çox ayıb olsun!..

O bu sözü elə bərk və etimadla dedi ki, elə bil, müqəssir bir adama xitab edirdi. Mənə bir kağız uzatdı.

– Bunu sizmi yazmışsınız?

Kağızı çevirib baxdım, mən yazdığım açıq məktub idi.

– Bəli, mən yazmışam.

– Sən çox qələt eləmisən, başını da... Yoxsa, sənə xəyal, xalq çöldəmi qalıb?.. Xəyalın kimə gedib? Mənə Səadət xanım deyərlər! Sən nə cürətlə mənə bunu yazırsan?

Danışdıqca səsini ucaldır, sifətini turşudur, mənə yaxınlaşırdı. Qurudum qaldım. Məktubda nə yazdığımı xatırıma gətirə bilmədim.

Uşaqlar açıq pəncərələrdən əyilib baxırdılar. Xidmətçi də astanada saymazyana fikir verirdi. Müdir arvadın qırmızı paltarını görüb, pəncərəsini çoxdan açmışdı. Qarnı üstə pəncərəyə yıxılıb baxırdı.

Səadət xanım təhlil edib dururdu:

– Mən ciddi danışmaq istəyirəm. Yoxsa üzüaçıq görmüsən? And olsun vicdana, sənə bir toy tutduraram, külün göyə sovrular, buyur, düş qabağıma, gedək məhkəməyə, görək sən nə haqq ilə bunu mənə yazırsan!

Qorxudan boğazım qurudu. Məhkəmənin açıq iclası, müttəhim skamyası, camaat, yazı, müşavirə otağı, komendant, hökm... Ömrümdə təsəvvürümə gətirə bilmədiyim bir vəziyyət, bir dəhşət xəyalımda böyüdü. Mən, sabah hər biri bir günəş kimi həyatı işıqlandıracaq uşaqların hörmətinə nail olmaq istərkən, təmiz və abırlı böyümək istərkən nə iş idi başıma gəldi? Bu lənət damğasını alnıma kim basdı? Səadət xanımın qumaş libası müdirin gözünü qamaşdırdı, enib gəldi. Həyətdə baxınır, sağa-sola keçib mənə eşitdirirdi:

– Zəng çalınıb ha, sonra...

Özümü itirmişdim. Nə edəcəyimi bilmirdim. Müdirin sözünü bəhanə etdim:

– Bağışlayın, xanım, dərsimi qurtarım, sonra danışaq.

Səadət xanım darvazanın səkisində çöməlib gözləyirdi. Sinfə qayıt-

dım. Dərsimi dedim, oyunmu çıxardım, yoxsa hönkür-hönkür ağladım? Bəlli deyil! Onu bilirəm ki, bütün bədənim əsirdi. Ancaq bəbəklərim oğurluq üstündə döyülmüş pişik gözü kimi işıldayırdı.

Mənə elə gəldi ki, zəng bir ildən sonra çalındı; uşaqlar qımıldanmadan üzümə baxırdılar. Mən çıxdım.

Səadət xanım yola düzəldi.

– Siz ilə seryoznu danışmaq istəyirəm. Adınızı da qoymusunuz müəllim... Beləmi tərbiyə...

Mən məktubu alıb, diqqətlə, adresinəcən hər kəlməsini yoxlayaraq oxudum. Heç bir nəzakətsiz söz tapa bilmədim:

– Bağışlayın, əgər məndən bihörmət iş baş vermişsə, üzr istəyirəm, mən...

Səadət xanım daha qətiyyət və qəzəblə sözümü kəsdi:

– Bağışlayası bir şeyim yoxdur. Mən ciddi danışmaq istəyirəm ki, siz özgənin arvadına nə haqq ilə belə məktub yazırsınız. Axı... Mən... Bir başa düşək, görək, bu nə deməkdir?

Mən onun xahişinə görə, həm də yoldaşcasına bir məktub yazdığımı deyir və bu hərəkətlərə qarşı təəccüb etdiyimi söyləyirdim. O, üzüklü barmaqları ilə məni yanıyaraq, acıqlı-acıqlı baxırdı:

– Kimi aldadırsan? Onu bil ki, qabağındakı bəbə deyil ha! Sən oxuyanı – mən toxumuşam...

Mübahisəmiz dərinləşirdi. O dediyini mən anlamırdım. Mən deyəni o anlamaq istəmirdi. "Mən siz ilə ciddi danışmaq istəyirəm", – deyə şəhər bağına doğru addımlayırdı.

Bağ müsaid idi. Heç olmasa, bu biabırçılığı tanış-biliş eşitməsin, deyə xəlvətə çəkilib, məsələni aydın etmək lazım idi. Bağa girdik. Günortanın istisi ağacların arasına dolmuş, havanı ağırlaşdırmışdı. Qarğalar qoca çinarların başında çırpınır, böcəklər kölgəliklərə dolub səslənirdi. Bağın bir bucağında yaşıllıqda oturduq, heç kəs yox idi. Bu sakitlikdə Səadət xanımın təhqirləri mənə o qədər də acı gəlməzdi, çünki özümdən başqa eşidən yoxdu.

Mən bir az özümə toxtaqlıq verdim. Bir sual hazırladım. "Açıq de görüm, mən sənə nə yazmışam, məni nə haqq ilə təhqir edirsən?"

Mən bu sualı yoğurub, xamır kündəsi kimi hazır etməmişdim ki, bir



də gördüm, Səadət xanım məni qucaqladı.

– Ox... Ay Allah... Bu ki uşaqdır. Qadası... Ölürəm səndən ötrü...

Mən falçı qadının əlində çapalayan göyərçin kimi çırpınırdım. Özümü onun zorba qollarından güclə çıxartdım.

Bu, təhqirin son dərəcəsi idi. O mənə murdar bir cənazə kimi göründü, üz-gözümdən nifrət yağdı. Mən bu canlı meyitin əlindən tezliklə qurtarmaq istədim. O, şişman bədəni ilə böyrümdən sallanaraq dişini ağardırdı.

– Səndə eşq yoxdurmu... Ruhun hanı?..

Mən qolumu dartıb onun əlindən çıxaranda bərk bir qışqırtı eşitdim. O üzərinə isti su atılmış donuz kimi çığırıb yerə yıxıldı, çapaladı... Adamlar töküldülər. Bağın qabağında su satanlar, dondurma yeyən xanımlar, uşaqlar, yoldan ötən qulluqçular gəldilər. Mən qaçmaq istədim. Bir də fikirləşdim: "Yəqin deyəcəklər, bu qadına nə etmişsə, qorxudan qaçır". Dayandım. Nə edəcəyimi bilmirdim.

Səadət xanım lap arxayınca yerə sərilmişdi.

Kimi əlini başına qoyur, kimi qılçasını ovurdu. Dondurmaçı çöməlib qışqırırdı:

– Ədə, su gətir!

– Doldur ver bəri!

Mən istəsəm də kənar dura bilməzdim, adamlar onu mənimlə görmüşdülər. "Aparın dincəlsin", "istidəndir, soyuq suda çimizdirin" deyə xeyirli məsləhətlər verirdilər. Bu sözlər məni daha da əsəbiləşdirdi. Qolundan tutub silkələdim. Gözlərini açıb, üzümə baxdı. Durdu. Getmək istəyirdi. Əlimi qoluna atanda ağırlığını mən tərəfə saldı. Mən qolunu buraxmaq istəyirdim, qorxurdum yıxıla, qucaqlamaq məcburiyyətində olam.

■ ■ ■

Bir müddət gözümə yuxu getmədi. Səadət xanımın qorxusundan ürəyim döyünürdü. Hətta yuxuma girirdi. Dönə-dönə məni qara basırdı. Bu əhvalatın, sevgilimin qulağına çatmasından qorxurdum. Məni belə bir qadınla görənlər nə deyəcəklər?..

Şəhərə çıxanda dostlar mənə mübarəkbadlıq edirdilər.

– Mübarək olsun!

– Nə?

– Necə nə? Lotu, toy edirsən, bəs bizi niyə yaddan çıxarırsan?

Mən and içirəm ki, boş sözdür. Elə bir şey mənim xəyalımdan da keçə bilməz...

Onları inandırmaq çətindir.

– Ay zalım, deyirlər, müvəqqətidir. Beşgünlük kefini sürürsən. Daha niyə utanırsan? Səadət xanım da bir xanımdır.. Allah tükü sanı xeyir versin!.. Dul olanda nə olar?

Səadət xanım, elə bil, qapı-qapı mənim tanışlarımı gəzib, muştuluqlamışdı ki, "biz evlənirik".

## III

Rayonda ağır işdən sonra mərkəzə qayıdanda ləzzət verir.

Cavan oğlansan. Yağmurlu havalardan, yalnızlıqdan qəlbin qaradır. "O"nu xatırlayırsan. Maşına oturub bir günlüyə də olsa, görüşmək üçün özünü Bakıya salmaq istəyirsən.

İdarəyə gəlib, icazə istəyirsən. Müdir ərizənə baxır, üzünə baxır, başını tovlayır:

– Heç utanırsan?

Kor-peşman qayıdırsan. Yəqindir ki, işini bitirməmiş Bakıya gedə bilməyəcəksən. Bir var ki, təşkilatı-zadı saymayıb, oğurluqca gedəsən. Onda da addımbaşı "töhmət" gəlir durur göz qabağında. Xalq Bakıya düşüb, mərkəz havası udanda, sən də dalınca gələn "töhmətin" qorxusundan sərin-sərin tər gətirirsən.

Əlac ona qalır ki, işini qurtarıb, alnıaçıq, üzüağ müdirin yanına gedəsən. Belədə müdir əlini sıxır:

– Hə, kişi oğlu, keflər lap sazdır ki?

İcazə üçün ərizəni verirsən. Gülür. Barmaqları ilə işarə edir:

– Üç gün!

Bu da bəsdir. Ərizəni geri alırsan. Kənarında qırmızı xətt ilə yazılmışdır: "Buraxılsın."



■ ■ ■

Bakıya çatan kimi, hamama qaçdım. Xüsusi təchizat mağazasından aldığım "şəhər" paltarını geydim. Yöndəmə düşdükdən sonra universitetə getdim.

Nə aləm, nə qiyamət ilə "onunla" görüşdük. (Bu görüş barədə bir səhifə ötürürəm, özünüz təsəvvür edin.) Onu qoltuğuma alıb kinoya qaçdım.

"Proletar" kinosu, "Yad qadın" filmi.

Salonda iynə salmağa yer yoxdu. Salon qaraldı, səhnənin divarı ağardı. Ekran harada isə daha böyük şəhərlərdən birində olan əhvalatı çəkib gətirir, bizə göstərirdi.

Mərkəz şəhəri, çoxmərtəbəli möhtəşəm binaları, uzun və böyük küçələri, universal mağazaları, qarınca kimi görünən avtomobilləri, maşın kimi fırlanan milisləri, səliqə ilə yazılmış lövhələri, qaynaşan adamları, çiçək bağları, qəşəng xanımları, gümüş fəvvarələri, tunc üfüqləri ilə gəlib gözümüzün qarşısından keçdi.

Bunların hamısı bizi – iki sirdaşı o qədər məşğul etmişdi ki, məhəbbət söhbətlərini unutmuşduq.

Elektrik lampaları yandı. Qabaq cərgədən bir yastısifət qadının geri baxdığını gördüm.

Sevgilim pıçıldadı:

– O kimdisə, bayaqdan sənə baxır.

Mən bir də baxdım. Boyalı, şişman bir qadın idi. Sifəti tanış gəldi. İxtiyarsız Səadət xanımı xatırladım, qızarıb, üzümü geri çevirdim. Çox keçmədi, onu gördüm ki, bir əl mənim yaxama bənd oldu:

– Vicdansız, məni hamilə qoyub qaçırsan, fahişələr ilə gəzirsən? Vicdansız! Cavab ver! Vicdansız!

O, ağır, murdar əli ilə məni şillələmək istədi. Mən onu itələdim.

– Vay, – deyə elə qışqırdı ki, camaat biz tərəfə axışdı. Ayaq səsləri ordu hücumunu andırdı. Qadın məndən əl çəkmək istəmirdi. Adamlar onu qaldırdılar. Kənar elədilər. Sevgilimin qolundan yapışmaq istərkən, qoymadı, özü mənim qoluma girdi. Adamlardan aralandıq. O, dayandı. Bir üzümə baxdı. Mən açıb hamısını söyləmək istərkən, əlimi sıxdı:

– Xudahafiz!

Mən onun dalınca yüyürdüm, qolundan yapışdım, buraxmaq istəmədim. Gözlərimdən iki damla yaş düşdü. Sevgilim biləyimdən bir yumruq vurdu:

– Əl çək!

Bu cavab bir zərbə kimi başıma dəydi. Qaranlıqda səndələyib qaldım. O getdikcə gedirdi. Qara, toppuz kimi dolu saçlarını kürəyinə atıb addımlayırdı. Uzaqda, səkiləri gümüşlə suvanan yerdə gözümdən itdi. O gedən getdi...

*1932*



# MƏRKƏZ ADAMI

*"Ölərsəm, görmədən Darçın xanımda eşqimə istək,*
*Yazılsın səngi-qəbrimdə: ürək məhzun, can məhzun".*
*(Əntərzadənin bloknotundan)*

Bir axşam kinodan çıxıb mənzilimə gəlirdim. Üç ildən bəri küsülü qaldığım bir yoldaşıma rast gəldim. Üzümü qaranlığa çevirib, saymazyana ötmək istəyəndə, qolumdan tutdu:

– Küsülülüyümüz öz yerində, dost, eşitmişəm otaq axtarırsan, gəl səni bir xeyirli yerə calayım.

– Boynuma böyük minnət qoymuş olarsınız.

– Nardaranski küçədə doqquz nömrəli dalana get. İkinci qatda iki otaq var, bəzəkli gəlin kimi! Hər şeyi içində. Xüsusi əldədir, yiyəsi satır. Özü də suyu qiymətinə: uzağı beş-altı minə alacaqsan. Di durma!

Küsülü yoldaşımın əlini sıxıb yüyürdüm. Həmin evi tapdım. Otaq yiyəsi hələ yatmamışdı. Qəmli-qəmli oturub, deyəsən, məni gözləyirdi.

– Salam!

– Salam!

– Otaq satan burada...

Qoymadı sualımı bitirəm, sevincək cavab verdi:

– Özüdür ki, var. Mənəm. Qardaşoğlu, de görüm, alansan, ya danışdıran?

Bu söz məni yağlı xörək kimi tutdu. Az qaldım, tərcümeyi-halımı danışam.

– Bu nə sözdür, dayı? Siz məni tanımırsınız. Gecə yeddi verst yol tapdalamaqda, döngə-möngəni gəzməkdə sizin, bağışlayın, ala gözlərinizə aşıq-zad olan yoxdur ki! Özü də, təzə, Allah oğluna qismət eləsin, xeyir iş xəyalındayam.

– Oğlum-zadım yoxdur.

– Dediyim odur ki, otaqdan ötrü sinov gedirəm.

Dediyimə peşman oldum, çünki toy məsələsini eşidib, kişi ayağını yuxarı pilləyə qoyacaqdı. O, əlimi şana kimi yekə və qalın barmaqlı ovcunun içinə alıb, mənə tərəf əyildi, qətiyyətlə dedi:

– Alacaqsan ki?

– Alacağam!

– Bir söz deyim də?

– Bir söz de!

– Bir kəlmə, xoşsifət oğlansan, görürəm. Xeyir işin də var, bir kəlmə: bu otaqları sənə verəcəyəm, neçəyə, neçəyə, beşcə min yüz manata. Əllicə dənə qaragöz yüzlüyə! Necəsən?

– Beş min manat?

– Beş!

– Aldım!

– Satdım. Allah xeyir versin!

– Sağ ol!

– İçində həmişə toy-bayram eləyəsən!

■ ■ ■

Səhərisi təzə otağa köçdüm. Anadan yenicə doğulmuş kimi yüngüllük hiss etdim. Köhnə, qaranlıq dar otağımın "acığına" papağımı bir otağa, çəkməmi o biri otağa qoydum. Bir saat pəncərə qabağında, bir saat evin tən ortasında oturdum, dama çıxdım, çarpayıya uzandım, rahatlandım, mızıldayıb mahnı dedim.



Toy məsələsi düzəlmiş kimi idi: oğlan var, otaq var, zaqs var, pul var... Qalıb bircə qız tapmaq...

Axşam oldu. Gün batdı, çıraqlar yandı, şənlik səsləri aləmə yayıldı. Yeni otaqların həvəsi ilə uçurdum. Heç yerə gedəsi deyildim. Otaqlar mənə ən böyük şənlik idi. Divarlara şəkil vurub, sahman eləyəndən sonra çarpayını çəkib sərin balkonda doyunca yatmaq, köhnə, rütubətli otağımdakı yuxusuzluğumun əvəzini çıxmaq istəyirdim. Elə də elədim. Hay-küyə baxmadan uşaq kimi hamıdan qabaq yatdım.

Məni yuxu aparmışdı. Yuxuda görürdüm, şairmi, ya aktyormu, nəsə olmuşam, kolxozçulara deklamasiya deyirəm. Öz-özümə gülürəm ki, mən hara, bu sənət hara?

Yuxudan dik atıldım. Gördüm qonşu otağın balkonunda uzun bir adam Məcnun kimi saçlarını gözünün üstünə töküb, heykəl kimi əlini Şərqə uzadıb qışqırır: "Neçin də sən tökülmiyorsın, ey insanın bədəni, neçin, neçin?"

Məni heyrət götürdü. Gecənin bu vaxtında nə deklamasiya?

– Yoldaş, niyə qoymursan yataq?

– Pəhə! Sən yatacaqsan deyə, biz sənətimizdən əl çəkək? Əcəb işdir! Sabahın xeyir! Bir az mədəni olmaq lazımdır.

Hirsləndim. Ağır söz demək istədim. Bir də lənət şeytana eləyib yorğanı başıma çəkdim.

Mən güman etdim ki, bu adamın təbi gəlib, eşqi qalxıb on-on beş dəqiqə baş-beynimizi aparar, sonra yorular, gedər.

Belə olmadı. Dostum Hamleti ötdü, Aydından dedi. Ondan ötdü, Oqtaya, Otelloya keçdi. Qadınlığa lənətlər yağdırdı, əlini qulağına qoyub, azan çəkdi. Cin vurdu beynimə, yuxulu, gic kimi yerimdən qalxıb dilləndim:

– Ayə, əmioğlu, bu nə hərəkətdir? Axı biz iş adamıyıq! Yuxumuz gəlir. Qoysana bir saat gözümüzə yuxu getsin!

O acıqlandı:

– Müftə konsert verirəm, təşəkkür əvəzinə... Xalq on beş manata bilet alıb, eşidir... Mədəniyyətsiz!

– Buyur, sən mədəniyyətli ol, ancaq səsini kəs...

Dostum mülayim səslə dedi:

– Heç təhəri yoxdur. Sabah saat on ikidə klubda çıxışım var. Özü-

mü biabır edə bilmərəm. Gərək hazırlaşım. Bir də ki, məsələ bu gecənin məsələsi deyil, mən hər gecə beləyəm. Bu mənim sənətimdir. Qonşular da bilir. Təzə gəlibsiniz, bir azdan sonra alışarsınız.

Qorxdum ki, bu adam məni doğrudan da öz hərəkətlərinə alışdıra, bədənim qızdı. Paltarımı geyinib küçəyə çıxdım. Həyətin qarovulu üzümə baxıb, əhvalımı soruşdu. Güldü. Balaca gözlərini fanar işığından qoruyaraq, dişlərini ağarda-ağarda dedi:

– Hə! Get dolanginən, xamsan hənuz! Bacıoğlu, bu namərd oğlunu sən tanımırsan. Buna Əntərzadə deyərlər. Gecələr sənəti budur. Bəzən olur ki, qızlar gətirir, dəstə ilə xor oxuyub, yeddi qapı qonşuları bədxab eləyir. Bəs bu gözəllikdə otaqları üç-beş minə alanda demədinmi bunun amması var?

– Yox, əmi, ammadan o qədər başım çıxmaz.

– Gərək başın çıxa idi. Amma böyük ammadır! Səndən qabaq üç-dördü gəlib-gedib. Bir-iki ay qalıb, qaçırlar ki: "Biz kəsb-kar sahibiyik, gecə yatmasaq, işləyə bilmərik". Nahaq yerə danışıb ağzını ağrıtma, Əntərzadə belə Əntərzadədir. Neçə dəfə cərimə verib, gecə mövzəsini tərgitmir ki, tərgitmir.

Mən adam axtarası oldum. Pulumu versinlər, mən evdən əl çəkim. Otaqların adresini deyən kimi, geri çəkilirdilər:

– Bildim, Əntərzadənin qonşuluğunu deyirsən, müftə versən, alan olmaz! Kim gələr ora?

Axırda əlacım kəsildi, otaqlardan çıxdım.

■ ■ ■

Bir il keçdi. Bu zərərin və yuxusuz gecələrin ağrısı canımdan çıxdı. Əntərzadəni də unutdum.

Təsadüfən bir xeyir işdə haman qarovula rast gəldim. O, Əntərzadə haqqında mənə bu aşağıdakı hekayəni danışdı:

– Fit verildi. Qatar hərəkət elədi. Əntərzadə N rayonuna yola düşdü.

Uzun davadan, çəkişmə və mübarizədən sonra Əntərzadəni mərkəzdən ayırdılar. Ayırdılar, nə ayırdılar! Canı cəsəddən ayıran kimi! Böyük müsibət ilə ayırdılar. Onun təmiz, qat kəsməz, toz qonmaz, qumaş



kimi xış-xış xışıldayan paltarları cib dəsmalına dönmüşdü. Yalvarmaq, xahiş etmək üçün Maarif Komissarlığının dalanında durmaqdan, pilləkənləri düşüb-çıxmaqdan, oturub-qalxmaqdan, qəti, silinməz əmrləri qorxa-qorxa oxumaqdan canı üzülmüşdü. Az qala, bütün xanımları heyrətə salan Əntərzadə indi böyük restoranların yorulmuş aşpazına oxşayırdı.

Rayona getmək xəbərini söyləyəndə, deyəsən, kişiyə vay xəbərini verdilər. Saraldı, kiçildi, boğazı biçildi. Sevgilisi Darçın xanımı yanına saldı, qapı-qapı gəzib, məsul işçiləri bir-bir dişinə vurdu, olmadı. Yalvardı, baxmadılar. Hədələdi, qorxmadılar. Səs-küy saldı, eşitmədilər. Qızdırmalı olması haqqında vəsiqə çıxartdı, inanmadılar. Zərif kağızlarda ərizələr yazdı, rədd etdilər. Maarif müfəttişliyi iki ayağını bir başmağa qoyub deyirdi:

– Rayona gedəcəksən, vəssalam!

Budur, onu mərkəzin gurultulu küçələrindən, gözəl qızlarından, bulvar gəzintilərindən, tost deməli qonaqlıqlardan, konsert axşamlarından, bilyard oyunlarından ayırıb, rayona– "hicra guşələrə" göndərirlər ki, get orada kəndlilərə tamaşa ver...

Bu hadisə Əntərzadə üçün sevgilisinin xəyanətindən də ağır oldu. İllah da ona görə ağır oldu ki, Əntərzadə özünü mərkəz adamı sayırdı. Vağzaldan o yana, şəhər işıqlarından o tərəfə, semaforun dalında dərin bir zülmət olduğunu güman edirdi. Ona elə gəlirdi ki, savadı, bacarığı olan adamlar tökülüb şəhərə gəlirlər. Rayon avamların yeridir. Kim deyirsə ki: "Tərki-adət bə mövcibi-mərəzəst", boş sözdür! Əntərzadə kimi səliqəyə adət edən hanı? Adamlara toxunmasın deyə, tramvaya minməzdi. Sinifdə skamyasını silmək üçün evdən ipək dəsmal gətirərdi. Barmağı mürəkkəbə batmasın deyə, yazı yazmazdı. Dərslərini hər axşam makinaçıya diktə edib, beş-on manat verərdi. Şapkasını asmağa qoymazdı. Qapıçıya xüsusi bir qutu vermişdi. Əntərzadə gələn kimi, görərdin, qutunun ağzı avtomat kimi açıldı. Gözəl gəlinlər saray təzyinatı içinə qərq olan kimi, Əntərzadənin məxmər papağı qutunun içində gözdən itərdi. Əntərzadə çəkməsini sutkada üç kərə sildirərdi, desələr, inanın! Bir gündə neçə dəfə corabını dəyişər, paltarı da o nisbətdə. Küçəyə çıxanda təsadüfən birisi ona toxunsaydı, xəstə kimi, əhvalı pozulardı,

dərhal evə dönüb, qədd-qamətini təzədən güzgü qabağında yoxlar, düzəldər, yoluna düzələrdi.

Lakin rayon məsələsi kişinin varlığını sarsıtdı. O, nəinki səliqə məharətini, hətta başını da itirdi. Darçın xanımla görüşdəki təbəssümləri yox oldu. Üzünü bulud kimi qaranlıq, quyu kimi dərin bir kədər qapladı.

Əntərzadə başını vaqonun pəncərəsinə söykəyib, qəmli-qəmli baxırdı. Nə danışır, nə də bir şey eşidirdi. Ürəyi heç nə istəmirdi. Qəlbinə ağır daşlar asılmış kimi, özünü çox pis hiss edirdi.

Xırr... Qatar dayandı. Vağzalda orkestr səsləndi. Əntərzadə çexollu çamadanı götürüb, qapıya çıxdı. Musiqi onda ruh yüksəkliyinə səbəb oldu: "Cəhənnəmə, – dedi, – rayon olsa da adamı yaxşı qarşılayırlar. Burada klub, teatr-filan tamam özümə baxacaq..."

Ona elə gəlirdi ki, orkestr yerli icraiyyə komitəsi tərəfindən Əntərzadəni qarşılamaq üçün göndərilmişdir. Ayağını pilləkənə qoyanda bərkdən öskürdü – yəni ki, gəlirəm.

Ayağını yerə qoyanda "taaaq" deyib, şalvarının pozulmuş qatına baxdı, çamadanı sol əlinə alıb, sağ əlini görüşmək üçün saxladı, başını qaldırıb salamlaşmağa hazırlaşdı.

Musiqi durmadan çalınırdı, adamlar o tərəf-bu tərəfə hərəkət edirdi. Kimi görüşür, kimi öpüşür, kimi "xəbərdar" deyirdi. Əlifanarlı bir kişi çəkiclə qatarın təkərlərini yoxlayırdı. Əntərzadəyə fikir verən yox idi. O, bir az dayandı və gözlədi ki, bu saat gəlib deyəcəklər: "Əntərzadə yoldaş, yerli təşkilatlarımızın köməyinə, kəndimizi maarifləşdirməyə çox xoş gəlibsiniz, səfa gətiribsiniz! Kənd soveti sizi aramsız gözləyir. Buyurun, əyləşin maşına!.."

Gələn olmadı! Adamlar vaqonların pəncərəsinə baxırdı. Əntərzadə fikirləşdi: "Yəqin səhv düşmüşəm. Onlar məni yumşaq vaqondan gözləyirmişlər. Sən ölməsən, belədir ki, var." Geri döndü, tələsik vaqona girdi. Vaqondan-vaqona keçib, yumşaq vaqona soxuldu. Gözünün ucu ilə pəncərə qabağında qaynaşanlara baxdı, ürəyi döyündü, sevindi, ehmallıca ətəklərini çırpdı, aramla, təmkinlə vaqondan düşdü. Yenə də heç kəs ona etina etmir, heç kəs yaxın gəlmirdi. Musiqi öz işində idi. Əntərzadə qaynaşan izdiham içində hürkmüş qoyun kimi, döyüküb qalmışdı.



■ ■ ■

Əntərzadə gəlib N kəndində, şairlər demişkən, "bərqərar" oldu.

Əntərzadə kəndə baxıb fikirləşirdi: "Uğursuz tale gör məni haralara atdı! Mən şəhərdən, asfaltlı küçələrdən, yumşaq maşınlardan ayrılıb gör necə yerlərə düçar oldum! Yoldaşlarım, sirdaşlarım indi dəniz hamamlarının "mavi" sularında yumurta kimi qızlarla kefə baxarkən, mən də camışları seyr edirəm. Vay bədbəxt Əntərzadə! Yazıq Əntərzadə, sənin nə bəlalı başın varmış!

Əntərzadəni kənd klubuna müdir təyin etmişdilər. Kooperativin böyründə ona bir mənzil də vermişdilər. Onun səhərləri ahla açılır, axşamları vayla qovuşurdu! Sevgilisi Darçın xanıma gündə bir təcili məktub yazırdı, şikayətlənirdi, axırda da təkid edirdi: "Cavab! Cavab! Cavab!"

Əntərzadənin razı qaldığı yeganə şey vardı: kənddə iş görmürdü: "Kəndçi avam camaatdı, hərdən yığıb, bir nağıl döşə qabırğasına, "sağ ol, a qadan alım!" – deyə-deyə getsinlər. Burada mənim vaxtım çox olacaq. Bundan istifadə edib sənətimi işlədə bilərəm".

Yağışlı bir gün idi. Batdaq dizə çıxırdı. Arabalar ağır-ağır gedirdi. Əntərzadə üst paltarı ilə yatağına girib, dam dirəklərini sayırdı. Komsomolçulardan biri gəlib dedi:

– Yoldaş klub müdiri, açarı istəyirlər.

Əntərzadə qalxıb oturdu:

– Kim istəyir?

– Camaat çoxdur! Abas kişi, Xalıq əmi-zad ordadırlar...

Əntərzadə elə bildi ki, klubdan götürüləsi bir şey var, yaxud qəzet-jurnal lazım olub. Ayağa qalxdı, getmək istədi. Pəncərədən baxıb yağan yağışı gördü, fikrini dəyişdi. Dinməz-söyləməz açarı çıxarıb verdi, özü qayıdıb yerinə girdi.

Bir qədər keçməmişdi ki, klub xidmətçisi gəldi:

– Yoldaş Əntərzadə, camaat sizi gözləyir.

– Məni neyləyir camaat?

– Klub dolub. Bilmirəm, ancaq bir vurçatdasındır ki!

Əntərzadənin canına qorxu düşdü. Kluba gələsi "təftişdən" şübhə-

yə düşüb qalxdı, tələm-tələsik qapını bağlayıb getdi...

Əntərzadə klubda adamların oturub söhbət etdiklərini gördü. Bir neçəsi nərd atır, piano çalırdı. Komsomolçular haradansa bəzəkli bir qəzet gətirib, divardan asırdı.

Kənd sovet katibi Əntərzadəni görən kimi gülümsədi:

– Gəl də, gəl çıx, ay müdir, görək axı!

Əntərzadə ona yanaşıb soruşdu:

– İsmayıl, niyə yığılmısınız, xeyir ola?

İsmayıl elə bildi, o, zarafat eləyir:

– Yığılmışıq belə sənin o xətti-xalına, gül camalına baxıb, salavat çevirək!

Əntərzadə qızardı, səsini alçaldıb, bir də soruşmaq istəyəndə Abas kişinin səsi eşidildi:

– Hə, balam, vaxtdır, gətirin görək, tamaşanı başlayın da!

Abas kişi üzünü kənd sovet katibinə və Əntərzadəyə tutub bunu deyəndə, camaatdan əl çalanlar oldu. Əntərzadə işi ayrı cür görüb, İsmayılı kənara çağırdı:

– Mən ölüm, de görüm, niyə yığılmısınız?

İsmayıl, Əntərzadənin üzünə baxıb, ciddiləşdi:

– Başına soyuq dəyib, nədir? Camaat tamaşaya gəlib; sən kimdən soruşursan, bu nə deməkdir?

– Ay İsmayıl, məni qəbrə qoyasan, xəbərim yoxdur. Qardaş, mən çağırmamışam.

İsmayıl gülümsədi:

– Çağırmaq nəyə lazımdır? Klubun kalendar planı hamıya məlumdur. Uşaq da, böyük də bilir ki, onunda tamaşa var. Ayın onudur, gəliblər. Planı düzən, camaata təsdiqlədən klub idarəsi, sən bunu bilməyəndə, bəs kim bilir?

Əntərzadə sərçə kimi çapaladı:

– İsmayıl lələ, sosializmə and olsun, oxumamışam. Bəs mən necə eləyim?

İsmayıl çiynini çəkdi:

– Bilmirəm necə eləyəcəksən! Ancaq camaatı qaytarmaq olmaz. Bizim üzümüzə tüpürərlər. Bir də yığmaq mümkün olmaz. Tez ol, bir-iki



deklamasiyadan-zaddan nə bacarırsan, yadına sal, çalan uşaqları da çağır. Keç səhnəyə, camaat zalı dağıtdı, tez ol!..

Əntərzadə ömründə belə dara düşməmişdi. Çox adamları darda qoymuşdu, çox çətinliyə düşmüşdü, çıxmışdı, ancaq heç beləsinə rast gəlməmişdi. Payızın soyuğunda, xalq yaxasını bərk-bərk düymələyib oturduğu halda, Əntərzadə puçur-puçur tər tökürdü. Qaranlıqda özünü ora-bura çırpırdı.

Bir də gördü pərdə qalxdı. Nərd səsi kəsildi. Camaat kiridi. Qapı örtüldü.

Əntərzadə əlacsız səhnəyə çıxdı, əllərini qarnının üstündə çataqlayıb, böyük faciəvi rolda böyüyən aktyorlara məxsus bir vəziyyət aldı. Camaat əl çaldı. Əntərzadə alqışlar altında, laylay dinləyən uşaq kimi, özünü rahat hiss etdi. Bir saatdan bəri əl-ayağa düşməsinin tamamilə yersiz olduğunu gördü. "Canım, bura kəndistan yeridir. Nə desən, bunlara təzədir, ləzzətlidir. Bunlara nə hazırlıq! Bir ay bu səhnədə dursam, yenə deməyə sözüm çatar."

– Yoldaşlar, əlbəttə ki, qüsurlarımız mövcuddur. Bağışlamanız xahiş olunur.

Abas kişi təsəlli verdi:

– De gəlsin görək!

Əntərzadə ayağının birini irəli qoydu, dik durub, məğrur-məğrur zala baxdı. Yumruğunu bərk düyərək başladı:

– Hamletdən parça... Ey insanın bədəni, neçin də tökülmiyorsın, neçin də parçalanmiyorsın...

Abas kişi əyilib, İsmayıldan soruşdu:

– Kimə qarğıyır?

İsmayıl gözünü səhnədən ayırmayaraq, əli ilə Abas kişini kiritdi:

– Qulaq as, görək nə olur.

Əntərzadə ağzını geniş açırdı. Qantarğa çeynəyən at kimi sifətini turşudub, təpiyini yerə vurur, əl-qolunu ölçürdü: "Neçin, neçin?" – deyə get-gedə özündən çıxırdı. Camaat bunu görüb fikirləşirdi: "Yəqin bu saat maraqlı tamaşa olar". Lakin Əntərzadə başını əyib, geri çəkildi.

Kimsə yerindən dilləndi:

– Yoldaş müdir, musiqi olacaqmı?

Abas kişi ona cavab verdi:

– Necə yəni, olacaq, afişada yazılıb. Bu nə sözdür? Olacaq harasıdır? Biz buraya qarğışa gəlməmişik, gəlmişik musiqidən-zaddan eşidək. Yoldaş müdir, başlayın. Musiqi başlayın, qarğışdan fayda çıxmaz!

Əntərzadə bir müddət qurudu, dili tutuldu. Birdən dilləndi:

– Yoldaşlar, çalğıçılarımız gəlib çıxmadığından...

Zaldan bir oğlan qoymadı ki, Əntərzadə sözünü qurtarsın:

– Yoldaş müdir, biz gəlmişik.

Bu sözü deyən, qucağında torbalı tar olan, yaraşıqlı bir oğlan idi. Onun "gəlmişik" sözünə gurultu ilə əl çaldılar. O, səhnəyə keçdi. Çalmaq üçün stula oturanda, Əntərzadə kölgə kimi titrəyib getdi, pərdənin dalında gözdən idi.

Yaraşıqlı oğlan ətrafına baxdı, elan verən yox idi, özü məlumat verdi:

– Sizin xahişinizə görə: "Həyat".

Sözünü deyib, tarı bağrına basdı. Barmaqları arı kimi pərdələri gəzdi. Qulağı ilə simlərdən tökülən həyat nəğməsini dinləyir, köksünü qabardan həyəcanı, ruhunu oxşayan sevinci, üzünü işıqlandıran təbəssümü ilə cavab verirdi.

Əntərzadə pəncərəyə söykənib, mat-məəttəl qaldı:

"Tikanlı çəpərlərin, palçıqlı küçələrin, balaca daxmaların içində, adi paltarda, sadə simada görünən gənclər içində sənətin həvəskarları yox, sahibləri var imiş." Artıq nə tar eşidilirdi, nə yaraşıqlı oğlan, nə də səhnə nəzərdə idi. Yalnız əlçatmaz bir istedadı məharətlə nümayiş etdirən işıqlı və həssas bir qəlb görünürdü.

Yaraşıqlı oğlan ayağa qalxanda, zal da ayağa durdu. Zərif, incə musiqiyə qarşı qulaqları sarsıdan alqış başlandı.

■ ■ ■

Bu hazırlıqsız müsamirədən sonra Əntərzadə kəndlilərin gözündən daha da düşdü, hələ kişini dilə-dişə də saldılar. Abas kişi hər yetənə deyirdi: "Klub müdirinin qarğışına gələsən, belə adam!"

Təhsilinə, gecə məşqlərinə, vərdişlərinə baxmayaraq, Əntərzadənin



deklamasiyaları heç kəsi cəlb etmirdi. O bu barədə İsmayıla şikayətlənəndə, o da deyirdi:

– Doğru deyirlər! Çox süni başladın. Deklomasiyanın da təhəri var. Yerdən-göydən dəm vurmağın camaat üçün heç bir mənası yoxdur. Kəndli həyatpərəst adamdır. O, ürəyəyatan tamaşa istəyir.

Əntərzadə yanıldığını anladı. İnandı ki: "Kəndlərdə muğamat bilənlər, yaxşı səsi olanlar vardır. Mən nahaq burada sənət məsələsinə əl atıram. Yaxşısı budur ki, bunları şəhərdən gətirdiyim məlumatla maraqlandırım."

Bu fikir Əntərzadənin beyninə batdı. Sevinə-sevinə qəzetləri qabağına töküb məruzə hazırladı. Məruzəni bir də ona görə həvəslə hazırlayırdı ki, bir neçə gün idi rayondan kəndə bir bağça müdirəsi gəlmişdi. Yaxşıca bir qızdı. Onun qarşısında məruzə eləmək – mərkəzdə danışmaq kimi bir şeydir...

Bağça müdirəsi gələndən bəri Əntərzadə üst-başına fikir verməyə, iki aydan bəri unutduğu vərdişlərini xatırlamağa başlamışdı. Günlər keçdi. Əntərzadənin "mədəniyyət barəsində" məruzə günü çatdı.

Yenə həmin klub, yenə qaranlıq bir gecə, lakin yağışsız, ayazlı bir gecə idi.

Camaat kluba toplaşdı. Proqram üzrə Əntərzadə məruzə etməli, sonra bədii hissə başlanmalı idi.

Camaat bədii hissə üçün axışıb gəlmişdi. Əntərzadə ancaq məruzəyə hazırlaşmışdı, camaatı da bura onun üçün yığmışdı. Bədii hissədə nə olacağını, hətta belə bir hissəyə ehtiyac hiss olunub-olunmayacağını düşünməmişdi. Onun şəxsi rəyinə görə belə məruzə bu kənddə eşidilməmişdi. Camaat bunu eşidəndə ağzı açıla qalacaq, yerbəyerdən qalxıb deyəcəklər: "Yoldaş klub müdiri, qadan alım, o söylədiyin cümləni zəhmət çək, bir də de, dəftərimə yazım." Bəzisini də, məsələn, Abas kişi kimilərini heyrət götürəcək, dizinə çırpıb deyəcək: "Vay sənin atan-anan yarımasın, kişi, gör nə avamlıqda qalmışıq ki, belə-belə şeylərdən xəbərimiz yoxdur!" Bağça müdirəsi deyəcək: "Şəhərdə bizi beş il oxutdular, bu sözlərin heç birini öyrədə bilmədilər. Malades klub müdirinə!" Beləliklə, məruzə gecəyarısına qədər çəkəcək. Camaat əl çəkməyib, sualı sual üstündən verəcək. Axırda maarif şöbəsi müdiri məruzəçiyə bir stəkan

şirin çay gətirdəcək, camaatın ağzını saxlayıb deyəcək: "Yoldaşlar, bəsdir suallar! Bu qayət maraqlı və qiymətli məruzəni biz bir də qoyacağıq. Mümkün etsək, rayon icraiyyə komitəsi ilə danışıb, rayon miqyasında qoyacağıq ki, hər bir kəndli tamam göz açıb, mədəniyyəti klub müdirimiz kimi zatların sayəsində bilsin. Məncə, bəsdir suallar. Məruzəçini yormayın". Belə vəziyyətdə, əlbəttə ki, bədii hissəyə yer ola bilməz. Olsa, olsa, klub müdirini təbrik üçün komsomol nümayəndəsinə, pioner nümayəndəsinə, qadınlar nümayəndəsinə (ki, ibarət olmuş ola kəndə yenicə gəlmiş bağça müdirəsindən) söz vermək olar...

Əntərzadə bütün bu mülahizələri nəzərdə tutub, bədii hissəyə hazırlıq görməmişdi. Oxucular darıxıb soruşa bilər ki, de görək, bu maraqlı məruzə başlandı, ya yox? Başlandı nədir, Əntərzadə tribunanın dalında özünü yırtdı, tökdü!..

O, materialsız natiqlər kimi başlamadı, ay nə bilim: "Üzr istəyirəm, nöqsanımı bağışlayın, filan..."

Belə söhbətlərə Əntərzadənin məruzəsində yer ola bilməzdi. O, birdən-birə başladı:

– Yoldaşlar!

Bu sözü elə bərkdən dedi ki, azyaşlı uşaqlar qorxdu, qocalar səksəndi, ortayaşlılar özünü yığışdırdı. Gözünü qabaq sırada oturan bağça müdirəsinin yanağındakı "miskin xallara" dikərək, "mədəniyyət barəsindəki" məruzəsini bitirdi:

– Yoldaşlar! Mən... sözümü... qurtarıb... deyə bilərəm ki... mədəniyyət işlərimiz.... cəhalət işlərimiz... maarif işlərimiz... bisavad işlərimiz... odur ki, bu kənddə işlərimiz...

Abas kişi əlini qaldırdı:

– İşlərimiz nə olsun, yoldaş, axı, onu de!

İsmayıl ona səs verdi:

– Yoldaş Əntərzadə, bizi ələ salmısan, özünü?

Camaat küyləşdi:

– Bu necə məruzədir, vaxtımızı alırsınız? Belə mədəniyyət Əntərzadənin başına dəysin!

– Klubun işini nə korladılar, fələk!

Əntərzadə əlindəki kağız-kuğuzu cibinə doldurur, yerə düşənləri



götürüb qoltuq cibinə qoyurdu ki, salondakı küy onu ayıltdı: dönüb salona baxanda, İsmayılın tribunaya çıxdığını gördü. İsmayıl camaatı sakit edib dedi:

– Yoldaşlar, bizə aydın oldu ki, Əntərzadə bir klub işçisi deyil, xaliscə bir fırıldaqçıdır. Onda günah yoxdur. Biz elə dəmdəməkinin əlinə kağız verib, buraya göndərən maarif şöbəsi ilə danışarıq. İndilikdə klubun idarə işini Yusif yoldaşa tapşırırıq.

Abas kişi gülüb, ayağa qalxdı:

– Əntərzadəni özüm yola salacağam. Dostam o kişi ilə...

Əntərzadə bildi ki, bu "abırla" mərkəzə qayıtmaq mümkün olmayacaq. Mərkəzin gurultulu küçələrini, bulvar gəzintilərini, köpüklü pivəsini, tost deməli qonaqlıqlarını, ətirli Darçın xanımını tamamilə unutdu. Başındakı "mədəniyyəti" satmaq üçün münasib bir yer axtarmaq fikrinə düşdü. Lakin belə bir yer tapa bilməyəcəyini yəqin etmişdi. Ancaq çox gec idi.

*1933*

# QAYMAQ

Mehbalı kişinin Məşədi Möhsünlə haqq-salamı vardı. Onu zəmanənin təmiz və doğru adamlarından sayardı. Mehbalı kişi bir inəyinin məhsulunu ancaq ona satardı.

Qış gecəsinin ayazında donmuş və qalınlaşmış qaymağı mis kasaya tökər, kasanın ağzını dəsmalla örtər, ovcuna alıb vağzala, Məşədi Möhsünün dükanına yollanardı.

Hər səhər Mehbalı kişinin vacib işi bu idi. Yolda birisi, şəhərdən gəlmiş bir qaymaq tamarzısı çıxıb desəydi ki:

– Ay Mehbalı dayı, necə istəyirsən al, o qaymağı məndən eləmə! – Mehbalı kişi qulaq verməzdi. Kasa dolusu qızıl da versən, sözündən dönməzdi və:

– Qaymaq Məşədi Möhsünündür! – deyərdi.

Mehbalı kişi qaymağı neçəyə satardı? Məşədi Möhsünlə necə şərtləşib kəsişmişdi? Biz bunu bilmirik.

Yəqin etmək olardı ki, bunu Mehbalı kişi özü də bilmir. Onun bildiyi şey bu idi ki, Məşədi Möhsün qaymağı görən kimi gülümsəyir. İki



barmağının arasında sıxdığı kəhrəba müştüyünü yerə qoyub müştərisinə əl verir, əhvallaşır, kasanı tərəzinin bir gözünə qoyur, o bir gözünə çəki daşları yığır. Daşlar çatışmadıqda, kasanın ləngəri yerdən qalxanadək soğandan, sarımsaqdan, alça qurusundan, fındıqdan, qozdan... əlinə gələni tərəziyə atır. Sonra qısa və ucu getmiş karandaşı ilə qaymağın çəkisini divara yazır. Qabı boşaldıb, Mehbalı kişiyə qaytarır və: "Xoş gəldin!" – deyir.

Mehbalı kişi nə daş-tərəziyə, nə də haqq-hesaba baxardı, çünki bundan arxayındı. Ancaq Məşədi Möhsünün qabı nə vaxt boşaldacağını gözlərdi. Məşədi Möhsün haqq-hesabı divara qeyd eləyəndə, Mehbalı kişi elə zənn edərdi ki, qaymağın pulu cırınqhacırınqla gəlib cibinə tökülür. O zaman kənddə kooperativ də yaxşı işləmirdi. Mehbalı kişi hər şeyi Məşədi Möhsündən alardı. Qaymağı təhvil verər, qayıdıb getmək istəyəndə yadına düşərdi ki, evə kibrit lazımdır, arvad zəncəfil tapşırıb... Kibrit və zəncəfili alardı, utana-utana soruşardı:

– Məşədi, indi zəhmət də verirəm, hesabımız nə sayaq oldu?

Məşədi Möhsün müştüyünü bir ağız sorar, qalın və mavi tüstüdən yumulan gözlərini qıyar, əyilib divardakı siyahıya baxar, barmaqlarını oynadar, çötkəyə vurar, cavab verərdi:

– Deməli, bir kasa da qaymaq gəlsə, əl-ələ, baş-başa çıxarıq. Eybi yoxdur, gətirərsən, baxarıq. İndi Allaha şükür, özgəsi deyilsən ki...

Mehbalı dərhal boyun olardı:

– Bir kasa demədin?

– Bəli, bir kasa.

– Baş üstə!

■ ■ ■

Bir gün iş elə düşdü ki, Mehbalı kişi obaşdan yoncalığı sulamağa gedəsi oldu. Axşamdan arvadına tapşırdı:

– Mən suda olacağam, gədə duran kimi, qaymağı ver, aparsın. Tez çatdırsın ha, kişi gözləyəcəkdir!..

Səhər arvad qaymaq kasasını dəsmala bağlayıb səkkiz yaşlı oğlu Nadirə verdi və kürəyindən vurub həvəsləndirdi:

– Di balamsan, qaç, qaç, ver! Tez qayıt gəl, çörəyini ye! Sənə süd verəcəyəm.

Nadir dəsmalı sallaya-sallaya vağzala yollandı. Qışdı, lakin gün çıxmışdı. Yollar qurumuşdu. Arxlardan bulanıq su axırdı. Yollardan fayton, araba, hərdən də bir avtomobil ötürdü. Qaymaq tökülməsin deyə, Nadir dönə-dönə qaba baxırdı. Hər baxanda tamahı artırdı, dəsmalı aralayıb, kasanın qapağını götürür, kəhrəba kimi sarı qaymağı görəndə tamah güc gətirirdi.

O, gözünü açandan mal otarmağa getmişdi. Qapılarındakı inəyin yay, qış ağır zəhmətini çəkmişdi, çəmənlərdən ot qurtarana qədər onu otarardı. Ot olmayanda ağaclara dırmaşıb ərik, tut yarpağı tökərdi. Payızda isə yemiş, qarpız qabığını ətəyinə yığıb, gətirərdi. Səliqə ilə doğrar, üstünə bir az da duz səpər, inəyin qabağına tökərdi. İnəyi əzizlər, bəslərdi.

Nə üçün?

İnəyin balası üçün, inəyin südü, qatığı üçün.

Nadir qaymaq yemişdi, onun dadını bilirdi. Lakin o, ömründə öz ixtiyarında bir kasa qaymaq görməmişdi. Nədənsə, Nadirin inəyinin qaymağı dükançı Məşədi Möhsünə çatırdı. Evdə kimsə bu qaymağa əl vurmazdı. Hər səhər Nadirin atası qaymağı sahibinə – Məşədi Möhsünə çatdırmamış rahat olmazdı.

Nadir qaymağa baxdıqca sarı inək gözündə daha da böyüyürdü. Tamah güc gətirdi. İki barmağını salıb qaymaqdan bir lay götürdü, ağzına qoydu. Dedikcə ləzzətli idi. Nadir bir şeyə məəttəl qalmışdı: "Belə ləzzətli şeyi anam mənə nə üçün vermir? Bəs atam nə üçün bunu özü yemir, nə üçün o, yavan çörəyi dişinə çəkir, bu cür ləzzətli şeyi Məşədi Möhsünə verir?"

Nadirin uşaq ağlı bu sirri aça bilmirdi. Fikir-xəyal içində vağzala çatdı. Kasanı Məşədi Möhsünün qabağına qoydu.

Məşədi Möhsünün başı qarışıqdı: şey yığışdırırdı. Nadirin heç üzünə də baxmadı. Qaymağın ağzını açıb baxdı, Nadirin qabağına itələdi:

– Götür, – dedi, – götür! Üzünü yeyib, altını mənə gətirmisən? Mən bunu kimə satım? Götür apar! İşim var, məəttəl eləmə!

Bunu deyib yenə tələsik işinə məşğul oldu.



Nadir qaymağı götürüb qayıtdı. Yəqin etdi ki, atası bilsə, onu döyəcəkdir. Atasına nə cavab verəcəyini ürək döyüntüsü ilə fikirləşirdi.

Axşam Mehbalı kişi çiynində bel, qolları dirsəyə qədər çırmalı, yorğun bir halda evə qayıtdı. Yedi, içdi, isti su ilə yuyunub rahatlandı. Birdən qaymaq yadına düşdü.

– Nadir, – dedi, – Məşədi Möhsün bir söz demədi?

Nadir cinayət işlədiyini bildirən bir tabelik və intizarla divara qısılmışdı. Yavaşca və qısa cavab verdi:

– Yox!

Nadirin cavabı atasını kifayətləndirmədi:

– Çəkdi, götürdümü? Haqq-hesabını yazanda gördünmü?

Nadir dinmədi. Anası ona kömək etdi.

– Yox, Məşədi Möhsünün dükanını heç tapa bilməyib, qaymağı qaytarıb gətirib.

Mehbalı birtəhər oldu:

– Necə yəni qaytarıb? Qaymaq hanı?

Mehbalı kişi taxçada qaymağı görəndə döyüküb qaldı. Bu işi uşağın öhdəsinə atdığına peşman oldu. Kasanın ağzını açıb baxanda işin həqiqətini anladı:

– Adə, ay it südü əmmiş, bu qaymağın başına nə gəlib?

Mehbalı bunu deyib ayağa qalxanda Nadir ağladı. Anasına sığındı, anası məsələni açdı:

– İşin olmasın, a kişi, gədə qaymağın üzünü alıb. İşin olmasın, mən o ki var döymüşəm.

Mehbalı kişi hirsini yeyə bilmədi. Ona elə gəldi ki, Məşədi Möhsünlə neçə ildən bəri saxladığı haqq-salam pozulmuşdur. Nadir bu hərəkəti ilə uzun illərin dost-aşnalığını bir saxsı qab kimi, vurub sındırmışdır. Bu gün qaymaq olmadığından Məşədi Möhsün, kim bilsin, nə qədər əsəbiləşmiş, öz dostunun dalınca necə deyinmişdi!

– Ay səni sağ yemiyəsən! Xalqın malına tamah salmasaydın, ölərdin? Mən sabah kişiyə nə cavab verim?..

Nadir fürsət tapıb dəhlizə keçdi, küçəyə qaçdı. Küçədə heç kəs yox idi. Hava qaranlıqlaşmışdı. Küçənin sonunda bir söyüd ağacı vardı. Nadir başını ağacın soyuq gövdəsinə söykəyib ağlamağa başladı.

Nadir həmin bu söyüd ağacından sarı inək üçün nə qədər yarpaq tökmüşdü! Yaz günləri onu doydurmamış, qarnını şişirməmiş evə qaytarmazdı. İnək qazan dolusu süd verərdi. Nədənsə süd qazana tökülər-tökülməz çevrilib özgənin malı olurdu. Budur, həmin inəyin qaymağı özgənin malıdır. Bir barmaq yediyi üçün Nadiri döyürlər, söyürlər...

Gördüyü işin peşmanlığından alovlanan qəlbini göz yaşları ilə söndürmək istəyirdi. Qayıdıb atasına yalvarmaq, bir də özgə malına əl vurmayacağına and içmək, günahını bağışlatmaq istəyirdi. Lakin Mehbalı kişi Məşədi Möhsünlə görüşərkən, hirsi daha da artacaq, dostunun danlağını eşidib, Nadiri yəqin ki, kötəkləyəcəkdi.

■ ■ ■

Sabahısı gün Mehbalı qaymağa xüsusi diqqət yetirdi. Bir az artıq eləməyə çalışdı. Vaxtından əvvəl götürüb Məşədi Möhsündən üzrxahlığa getdi.

Məşədi Möhsünün dükanını bağlı görüb təəccüb elədi. "Yanılıram", – deyə ətrafına baxındı. Diqqət etdi, girvənkəlik qıfılın üstündən sallanan qırmızı möhrü görüb anladı: "Kişinin dükanını möhürləyiblər!"

Bir müddət duruxdu. Sağa keçdi, sola keçdi, Məşədi Möhsünün harada olduğunu, başına nə gəldiyini öyrənmək üçün kimə yanaşdısa, doğru xəbər deyən olmadı, hərə bir cür söylədi:

– Malı əskik çəkib.

– Naloq verməyib.

– Dükanı hökumətə lazımdır.

Bu xəbərlərə qane olmadısa da, qayıtdı. Heç olmasa, qaymağı onun evinə çatdırmağı qət etdi.

Məşədi Möhsünün evi də qıfıllı idi. Qonşusu qarovulçu Pirinin deməyinə görə: "Nə əngəlli işi vardısa, gecə ikən köçüb qaçdı".

Mehbalı kişi yenə qaymağı yiyəsinə çatdıra bilmədi. Dostu Məşədi Möhsünün fəlakətini unudub qaymağın hayına qaldı. Əlindəki kasanın dərdi ağır bir yük kimi onun boynuna düşmüşdü. Həmişə asanlıqla, deyə-gülə təhvil verdiyi özgə malının sahibi yoxa çıxmışdı. İndi o, nə edə bilərdi? Qaymağı uzun müddət saxlamaq mümkün deyildi. Gün bir cida boyda qalxana qədər vağzalda, bufetin kənarında yük vaqonlarının arasında, faytonlar dayanan meydançada gəzindi. Qaymağın sahibi tapılmadı ki, tapılmadı! Çoxlu fikir-xəyaldan sonra kor-peşman evə qayıtdı.



Kasanı taxçaya qoydu, fikrə getdi. Arvadı kişini bikef görüb soruşdu:

– Nə oldu? Yenə almadı? Axı nə deyib almır, kəhrəba kimi qaymağı? Heç bir dil-ağız eləmədinmi, ay Allahın mağmunu?

Mehbalı kişi əhvalatı arvadına dedi, arvad baxdı, baxdı, dilləndi:

– Cəhənnəmə möhürləyiblər! Daha sən niyə pozulursan?

– Necə pozulmayım ki, kişinin qaymağını qaytarıb gətirmişəm.

– Qaymaq kişinin hardan oldu? Daş düşsün onun başına, heç almasın!

Arvadın sözü, deyəsən, Mehbalının gözündən pərdəni götürdü. Mehbalı kişi özünü toplayıb, bir də fikirləşəndə gördü ki, həqiqətən qaymaq Məşədi Möhsünün deyil, lap onun özünün malıdır; inək onun özünündür, inəyi otaran öz oğlu, qaymağı tutan öz arvadı! İnəyin yemi də öz yoncalığından, öz kərəntisi ilə biçdiyi zümrüd kimi yonca!

Bəs nə təhər olurdu ki, indiyəcən bu qaymaq Məşədi Möhsünün dükanına daşınırdı?

Mehbalı bu sirrin mənasını anlamaqda çətinlik çəkdi. Başqa kəndlilərin işini də nəzərinə gətirəndə eyni sirri gördü. Doğrudan da, kəndlilərin bostan məhsulu, ağartısı, kotan məhsulu vaxtı ilə bu dükanlara getmirdimi? O dükançıların kəndli ilə nə ortaqlı malı vardı? Kəndli pambığını, yununu, buğdasını onların qabağına aparmağa məcbur idi?

Mehbalı kişi indi başa düşdü ki, Sovet hökuməti nə üçün alverçilərin dükanını möhürləyir, kəndliləri aldadanları cəzalandırır. Qalxdı, kasanı gətirib ortaya qoydu, səsləndi:

– Arvad, süfrə gətir! Çay tök!

Arvad süfrə açdı. Çay gətirdi. Mehbalı Nadiri yanına çağırdı. Bir qaşıq özü götürdü, birini də oğluna verdi:

– Ye, ye, oğul, ye! Bu çağa kimi avam olmuşuq!

Mehbalı yedikcə ağzı dada gəlirdi.

– Hansı səfeh oğlu bundan sonra qaymaq satar? Özüm yeyəcəyəm!

Özüm kimdən əskiyəm? – deyə Mehbalı təntənə ilə bildirdi. O, böyük bir şey kəşf etmiş kimi sevindi.

Nadir qaymaqdan götürdükcə atasının üzünə baxırdı. Təəccüb edirdi ki, kişi nə üçün hirslənmir? Nə üçün qaymağı yeməyə izin verir?

Anası zəncəfil çayının hayında idi.

– A kişi, bəs Məşədi Möhsün də yığışdırdı, zəncəfili haradan alacaqsan? – dedi.

– Zəncəfili neynirsən?

– Sancımın dərmanıdır! Necə neynirəm?

Mehbalı kişi udqunub, cavab verdi:

– Sən hər səhər bu qaymaqdan doyunca ye, havaxt sancılansan, mən cavabdeh! Qoy indi də zəncəfili Məşədi Möhsün özü yesin. Əlinə dönüm Sovet hökumətinin, onun sayəsində gözümüz açıldı. Qaymağın əsl sahibi gəlib çıxıb!

*1933*



# SARA

Məmmədhüseyn əhvalatı eşitmişdi. Darvazadan girəndə gözündən od tökülürdü. Xəkəndaz əlinə keçdi, ucadan bağırdı:

– Səni mənə calayanın atası tünbətün olsun!

Hirs kişini boğurdu. Sözünü bitirə bilmədi. Kəlməbaşı Saranın dizinə, başına, kürəyinə ilişdirdiyi zərbələrin taqqıltısı ilə ürəyindən tikan çıxarırdı. O vurduqca, odun yaran kimi bir "hıqqıltı" səsi çıxırdı.

– Axı... hııı! mənim... hııı!.. evimdə hı!.. hı!

Qonşu arvad Giləxanım xala özünü Saranın üstünə atdı:

– Ay Məmmədhüseyn qardaş, nə qayırdığındır? Bu candır axı! Bədbəxti öldürdün ki! Bəsdir! Sən Allahın, bəsdir!

Bir xəkəndaz zərbəsi də Giləxanımın dirsəyinə toxundu. Arvad ufuldadısa da, Saranı əldən qoymadı.

Artıq Məmmədhüseynin ağzı qayıtmışdı. Hirsinin qalanını Cəmilin üstünə tökəcəkdi.

Cəmil qışqıraraq özünü qadınların üstünə atdı. Məmmədhüseyn ilanın başını əzmək istəyirmiş kimi, bir əli ilə divara söykəndi, o biri əli ilə

Cəmilə bir xəkəndaz ilişdirə bildi.

Dəfələrlə içinə mal əti qoyduğundan kirlənmiş, qan ləkəli dəsmalını çıxardıb alnının tərini sildi. Birdən bir şey yadına düşmüş kimi, ayağa qalxdı.

– Giləxanım bacı, dayanma! Şeyləri verin, yerbəyer eləsinlər.

Məsələ aydındı. Bu saat evin şeylərini gizlətmək lazımdı.

– A qız, Bilqeyisə kömək elə!

– Sara, samovarı ver, xalçanı qatla!

Şeyləri tələm-tələsik divardan Giləxanımgilə ötürdülər.

Məmmədhüseyn ayə haşiyəli xalçanı səliqə ilə büküb dəsmala bağladı. Saranın gəlinliyində hazırlanmış atlas yorğanı, ağ samovarı, hamam boxçasını, Məmmədhüseynin vəznəli çuxasını (sovet hökuməti qurulandan sonra Məmmədhüseynin ürəyi açılmadı ki, bu çuxanı əyninə taxsın, beş adam içinə çıxsın) və qeyri qiymətdən ağır şeyləri iki dəqiqənin içində yerbəyer etdilər.

Ev dönüb oldu "bir-həsir, bir-Məmmədnəsir."

Sara gözünün yaşını silərək şeyləri daşıyırdısa, Cəmil yenə də həyətin küncündə yenicə yarpaqlanmış armud ağacına söykənib içini çəkirdi.

Dünənki kimi yadındadır: Molla Tağı ilə, bığı xınalı, yekəburun, göygöz, uca və beli donqar bir kişi gəlmişdi. Yağış da yağırdı. Anası əriştəli sıyıq bişirmişdi. Çox söhbət elədilər. Cəmilin anası yük yerinin dalında üzünü tutaraq oturmuşdu. Kişilərə hərdən cavab verirdi. Ağlayırdı da.

– Eybi yoxdur! Cəmil də mənim oğlum. Onu səndən ayırmayacağıq ki! Cəmili böyütmək mənə xoşdur. O da mənim oğlum.

Uzun kişi bu sözləri deyəndə Cəmil anasının dizi üstündə uzanmış, pişik balası kimi oynayırdı. Saranın gözündən axan yaş uşağı diksindirdi. O gündən sonra uzun kişi Cəmilgildə qaldı. Anası da öyrədirdi ki:

– Ona ağa de, o sənin atandır!

Səkkiz il əvvəl olan bu əhvalatı Cəmil xatırlayırdısa da, yenə mütəəssir olmurdu. Cəmili təsirləndirən başqa bir şeydi.

Bir həftə əvvəl məktəb pioner bürosu pionerlərin evini gəzməyi, kimin necə təmiz, nizamlı yaşadığını öyrənməyi qərara almışdı. Yoxlamaq



üçün Cəmilgilə gələnlər onun kitablarına, dəftərlərinə, yazılarına, yaşadığı evə, yatacağına baxmış, bəzi şeylər yazmışdılar. Təmizlik üçün gəzdiklərini demişlərsə də, nə qadınları, nə də hamam icarədarlığında ödənməmiş vergisi qalan Məmmədhüseyni inandıra bilmişdilər. Məmmədhüseynə elə gəlirdi ki, "ispektorlar" haradansa eşələyib vergi kağızını tapmışlar, pioner-filan bəhanədir. Hökumət də uşaqları göndərib ki, onun var-yoxunu siyahıya alsınlar.

Məmmədhüseyn özünü itirmişdi. Bu bədbəxtliyin başlıca səbəbini Cəmildə görürdü. Evi hökumətə tanıdan Cəmildir. Yoxsa kim nə bilir ki, hamamçı Məmmədhüseynin yurdu haradadır və nəyi vardır. Bütün bunlara görə, Məmmədhüseyn tez evə qaçıb, şeyləri gizlətmək fikrinə düşmüşdü. Cəmili düşündürən bu idi:

– Doğrudanmı ev şeylərini aparacaqlar? Doğrudanmı bu işlər mənim oxumağıma görə olur?..

■ ■ ■

Bu gün evləri qapı-qapı gəzmişlər. Hökumət deyib ki, gərək oxumayan qalmasın, Səriyyəni, Giləxanımı, Zinəti, hətta, Məşədixanımı da yazmışlar. Yazanların içində bir saçıkəsik qız da var imiş. Səriyyəyə demişdi:

– Vaxt ikən oxuyun. Bir-iki ildən sonra savadsızlar utanacaqlar. Yadınızdadırmı, bir vaxt sizin uşaqları məktəblərə çağıranda, qorxub vermirdiniz. Axırda dadını bildiniz, indi özünüz kağız çıxarıb, oğlunuzu böyük məktəblərə göndərirsiniz. Bax, bu iş də elə olacaq. Hökumət kitab-dəftər verir, yaxşı müəllim verir, yer verir, həftədə bir teatr verir, kino verir. Kim oxusa, aparıbdır. Kim getməsə, özü peşman olacaq.

Saçıkəsik qızın sözləri Səriyyəyə, Leylaya xoş gəlmişdi, ancaq Maman arvad lağ eləyirdi, məktəb tərəfə ikiəlli boğma atıb ağzını büzürdü:

– Qadam onun dəftərinə də, qələminə də! Mən gedib matışqalarla baş-başa verə bilmərəm, bacı! Gündə də müəllimlər yambızımdan bir çimdik götürsünlər ki, yoldaşlıqdır. Yox, a bacı, mən qələt elərəm!

Hələ deyirlər ki, Mamanın əri Hacı Əbdüləli kişi bərk tapşırıbmış

ki, elələri həyatə gələndə qapını bağlayıb, desinlər ki, "evdə adam yoxdur".

Hər kəs onların, o şeytan dostlarının əməlinə uysa, nə dünyası olar, nə axirəti...

Sara bunları eşidir, gülürdü. Ona elə gəlirdi ki, bunlar ona aid deyil, çünki onsuz da dərdi çoxdur. Heç hökumət də elə adamlara bənd olmaz, çünki ev-eşik, uşaq dərdi qoymaz ki, başına bir şey girsin. Bir də indi oxumaq Saranın nəyinə lazımdır? Vaxtı keçmiş, günü keçmiş... Kişinin töhmətindən qurtarsa, Cəmilinicə oxutsa, ona bəsdir.

Bu axşam Sara paltar yuyub yorulmuşdu. Böyük çayniki közdə qaynadıb yanına qoymuş, rəngsiz çaydan tez-tez töküb içir, yanğısını söndürmək istəyirdi. Kişi nədənsə çox gecikmişdi. Cəmili də məktəbdə müsamirəyə çağırmışdılar. Sara divardan Səriyyəni səslədi (o, savad kursundan təzəcə qayıtmışdı):

– A qız, darıxıram, təkəm, gəl, bir az otur!

Səriyyə bir işçi qız idi. Şirniçiyə ərə verilmişdi. Əri ilə inciklikləri olduğundan üç həftə idi ki, daha onun evinə qayıtmaq istəmirdi. O, indi özünü sərbəst hiss edirdi. Bu gün ikinci gün idi ki, savad kursuna davam edirdi. Kurs çox xoşuna gəlmişdi. Qayıdan kimi, Saraya tərifləməyə başladı. O, boynunu tərlədən uzun və qara hörüklərini əlinə alıb döşünə saldı. Toxunmaqdan cilalanıb mərmərə dönmüş aralıq divarın daşına dirsəklənib bir az ehtiyatlı, lakin gülərüzlə Saraya anladırdı:

– A qız, yurdda qalan elə sənnən mən imişəm! Kursda arvad istədiyin qədər... Əlinin arvadı, baldızı, Seyidxanım... nədir, o iranlıların həyətində olan arvad...

Saranı maraq götürdü:

– Necə? Ay qız, nə təhər olur? Saç kəsməkdənmi danışırlar? Nə deyirlər sizə? Çadralı qoyurlarmı?

– Yox, a qız!.. Sənin saçında nə işi qalıb!.. Mən də sənin kimi bilirdim. Amma elə yaxşı imiş ki! Sinifdə oturan kimi, müəllim gəldi. A qız, bizə salam da verdi ey! Adlarımızı çağırdı. Hərəmizə kitab, cızıqlı dəftər, qırmızı qələm payladı, özü də dedi ki, iki ayda lap su kimi oxumaq öyrədəcəyəm.

Bu halda darvazanın bir tayı özünəməxsus bir şaqqıltı ilə açıldı. Gələn Şümür Məmmədhüseyn idi.



Sara:

– Vaxsey, ciyərin yansın, kişi! – deyə evə təpildi.

■ ■ ■

Məktəb həyəti uşaqlarla dolmuşdu. Qız, oğlan bir-birinə qarışmışdı. Cəmil anası ilə müdir otağının pilləkənlərində dayanmışdı. Sara ilk dəfə idi ki, oğlu ilə müdirin yanına gəlirdi. O, bu şənliyə yabançı idi. Oğlunun bu yeni həyat ulduzları arasında olduğuna sevinirdi.

Qapı açıldı. Boz kostyum və ağ köynək geyinmiş bir cavan oğlan onları çağırdı:

– Buyurun!

Müdir Sara və Cəmilə yer göstərdi. Oturduqdan sonra onların kefini soruşdu. Cəmil utandığından cavab verə bilmir, yalnız gülümsəyirdi. Sara isə müdirin iltifatından razı idi. Çox şükürlər edir, Cəmilə olan hörmət üçün xəcalət çəkdiyini və bu yaxşılıqların əvəzini verməyə imkan axtardığını bildirirdi.

Müdir dedi:

– Mən Cəmilə heç bir yaxşılıq etməmişəm. Cəmil burada gördüyünüz yüzlərcə uşaqların biri kimi Sovet hökumətinin, sovet məktəbinin oğlu, yeni nəslimizin bir nəfəridir. Doğrudur, siz Cəmilin anasısınız, ancaq Cəmilin daha böyük bir anası var, o da Sovet hökumətidir. Məktəb öz ataanalıq vəzifəsini yerinə yetirir.

Saraya elə gəldi ki, müdir ona məktəbin əhəmiyyətini başa salmaq, ayıltmaq istəyir. "Yəqin, – deyə düşündü, – müdir elə bilir ki, mən də oğlunu məktəbə buraxmayan analardanam." Az qaldı ki, kursda oxuduğuna dair kağızı müdirə göstərib desin: "Başımdakı çadraya baxma! Mən elmin qədrini bilən olmasam, Cəmilin ucundan Şümür Məmmədhüseyn kimilərin vərəmini udmazdım..."

Müdir, ehtimal, Saranı anladığı üçün əsl mətləbə keçdi:

– Sizə zəhmət verməkdən məqsədim bir məsələni danışmaqdır. Pansion məktəblərinə bizdən adam istəyirlər. Seçdik. Yaxşı bilən və yoxsul uşaqlardan altı nəfər gələn ildən hökumət xərci ilə oxuyacaq, yeyəcək, içəcək, geyəcək. Hər şeyləri hökumətdən olacaqdır. Özləri də sənət öy-

rənəcəklər. Gələcəkdə mühəndis olacaqlar. Ancaq eşitdiyimə görə, sizin yoldaşınız Cəmili çox incidir. Odur ki, mən belə məsləhət görürəm: Cəmil bu ildəncə texnikumun pansionuna keçsin. Hər şey verirlər. Yaxşı da yoldaşları var. Mən özüm ona nəzarət edəcəyəm. Siz də tez-tez onunla görüşə bilərsiniz. Nə deyirsiniz, razısınızmı?

Sara çox razılıq etdi, belə olursa, Cəmilin daha tez və yaxşı oxuyacağını bilirdi.

O gündən sonra Cəmil pansionun öhdəsinə keçdi.

■ ■ ■

Bərk isti idi. Yalnız kölgələr uzanıb, hər yeri örtdükdən sonra bir az nəfəs almaq olurdu. Açıqlıq və su qırağı olduğundan körpü üstündə külək vardı. Qonşu qadınlar buraya toplaşmış, qiybət qırır, gəlib-gedəni gözdən itənə qədər süzür, "təhlil" edirdilər.

Səriyyə qaça-qaça ovcunun içində nə isə gətirdi. Əvvəlcə Saraya göstərəcəkdi. Açanda qəzet olduğunu gördülər. Saranın gözü qəzetin ortasındakı şəkillərə sataşdı: diqqətlə baxanda, hamını tanıdı.

– Budur ha! Sənsən. Nə açıq düşmüsən, a bəxtəvər! Nə vaxt çəkdirdin, a qız?

Qadınlar komalaşdılar. Hamı barmağı ilə göstərib deyirdi:

– Bu da Seyidxanımdır.

– Sitarə lap matişgə sayağıdır.

– Arsız gör nə də baxır!

– Çəkil, görək, a qız, qıraqdakı kimdir?.. Zeynəb xanıma oxşayır.

Zeynəb xanım bundan incidi:

– Oxşasın canuva! Mənim elə yerlərdə nə itim azıb?

– Dayan görüm, əşi!

Savad kursuna davam edən qadınların şəkli ilə hər kəs maraqlanırdı. Lakin Seyidxanım ətrafı yoxladıqdan sonra yavaşcadan dedi: "Kişilər bilməsin, yaxşı deyil." Ancaq o bilmirdi ki, Şümür Məmmədhüseyn Sovet hökumətinə qarşı dava xəbərini axtardığı qəzetdə şəkillər gözünə sataşmışdı, hətta zəmanəyə tüpürmüşdü də.

Qadınlar qəzeti o qədər dartışdırdılar ki, bir qulağı cırıldı. Hamısı heyifsiləndi. Səriyyə dinmədi. Sara cırılan yeri yapışdırmaq üçün



yapışqan dalınca uşaq göndərdi. Kim idisə, təsəlli verdi:

– Mən bu qəzetdən aldıraram, adam var, gətirər...

■ ■ ■

Sara Məcid müəllimin diqqətini cəlb etmişdi. Hamıdan əvvəl gəlir, hamıdan tez gedirdi. Hər zaman dal sırada otururdu. Tənəffüslərdə belə bəzən başını kitabdan qaldırmır, dinmir, danışmır, sual vermir, lakin maraqla dinləyirdi. Sual verildikdə isə pul kimi qızarır, utanır, çətin eşidilə biləcək bir səslə və qırıq cümlələrlə, lakin doğru cavab verirdi.

Bu isə Məcidə kifayətdi. O, belə bir mətbəx qadınının birdən-birə Səriyyə kimi aktivləşə bilməyəcəyini bilirdi.

Sara Məmmədhüseyndən gizli, Səriyyənin köməyilə savad kursuna müntəzəm davam edirdi. Onun indi oğlundan – Cəmil tərəfindən heç bir intizarı yoxdu. Bir qorxusu varsa, o da Məmmədhüseyndən və onun kurs məsələsini eşidəcəyindəndi. Buna görə də Sara kursdan tez qayıtmağa məcbur olurdu. O, Cəmilin getməsindən, ərinin işdən gec gəlməsindən istifadə edərək dərsinə davam edirdi. Ərinə və ya başqa soruşanlara – "evdə tək otura bilmədiyimdən axşamlar bacılığımgilə gedirəm", – deyirdi.

Məmmədhüseynin isə son zamanlarda başı çox qatışıqdı. Cəmilin hökumət pansionuna keçməsi münasibətilə öz adının "dəftərə düşməsindən" ehtiyatlanırdı. O biri tərəfdən hamamın bərəkəti qaçmışdı. Adamlar hökümət hamamlarına gedirdilər, xüsusilə də gələn çox az idi. Az qala, odunun, suyun pulunu çıxarmaq olmurdu.

Məmmədhüseyn səhər tezdən siftə eləməmiş, cibindən bir abbası çıxarıb, bir rus, bir Azərbaycan qəzeti alırdı. Qış gecələrində qəzeti qonşu uşaqlara avaz ilə oxutdurar, "hariflərin işi yaxşı deyil" – deyə əllərini ovuşdururdu.

Qəzeti büküb cibinə qoyduqdan sonra dünya işlərindən danışardı. Hərçənd savadı yox idi, amma özünü dünyanın ən böyük "diplomatlarından" hesab edirdi. Ona elə gəlirdi ki, gəlib-keçəcəyini ovcunun içi kimi bilir. Yolda musiqi çalan və "məşq" eləyən uşaqları, qırmızı qalstuklu pionerləri gördükcə uzun bığlarını sığallayaraq öskürər və ürəyində de-

yərdi:

– Ay şeytan əməlinə uyan yazıqlar! Dünyadan xəbəriniz yoxdur.

Uşaqlar isə onu uzaqdan görən kimi, "Şümür Məmmədhüseyn gəlir" deyərdilər. Məmmədhüseyn dəfələrlə nəzir-niyaz vermişdi ki, şümürlüyü üstündən götürülsün, amma başa gəlmədi. Uşaqlar bir yanda dursun, beş manat verib dua etdirəndə, axund onu "Məşədi Ağa Məmmədhüseyn" adlandırırdı. Elə ki, minbərdən yerə düşürdü: "Hə... Şümür Məmmədhüseyn hara getdi?" – deyirdi.

Bunlara görə idi ki, Şümür Məmmədhüseyn Sara ilə çox əlləşə bilmir, onun gündüzlər və ya axşamlar harada olması ilə maraqlanmırdı.

Sara isə ara-sıra qadınlar klubuna gedir, nitqlər eşidir, yeni adamlar görür, yeni şeylər öyrənirdi. Sara indi artıq azad yaşamaq istəyənlərin öz məqsədlərinə nail olduqlarına inanmağa başlamışdı.

O, kursa davam etdikdən sonra açılmışdı. İndi Məcidin suallarına cəsarətlə və düzgün cavab verirdi. Hər yeni hərfi bildikcə, bir xeyli böyüdüyünə inanır, bütün əlifbanı qurtarmağa tələsirdi. Sinfə girən kimi, çadranı açıb bir kənara qoyur, başıaçıq dərsə qulaq açırdı. O, həmişə Səriyyə ilə otururdu. Səriyyənin də Saraya çox köməyi dəyirdi.

Bir gün Sara dərsdən qayıdırdı. Məmmədhüseyn onu gördü. Sara kitabların gizlətmək istədisə də, mümkün olmadı. Məmmədhüseyn dərhal onun üstünü aldı. Çirməkli qollarını aça-aça mənalı və yavaş addımla irəli yeridi:

– Haradan gəlirsən belə?

Sara dinmədi, kitabları pəncərəyə qoydu. Çadrasını açdı.

– Sənə deyirəm, harada idin? – deyə kişi səsini ucaltdı.

Sara bilirdi ki, Məmmədhüseyn işi duymuşdur. Əl çəkməyəcəkdi. İndiyə qədər etdiyi kimi, yumşaqlıq və itaət göstərsə, qol-qanadı qırılacaqdır. Haray salıb dost, düşməni buraya yığmağın da mənası yoxdur. Cəsarətlə cavab verdi:

– Dərsdən gəlirəm!

Bu gözlənilməz cavab Məmmədhüseynə bir güllə kimi dəydi. O, siğəsindən savayı dörd arvad yola salmışdı. Heç birindən belə cavab görməmişdi. Bayaqdan o güman edirdi ki, Sara həya edərək dinməyəcəkdir, təpiklər və yumruqlar altında "qələt eləmişəm" deyəcəkdir və yalvaracaqdır.



"Dərsdən gəlirəm!" Bu cavab Məmmədhüseynə məlum olmayan şeydən xəbər verirdi. Ona görə də kişinin dizləri titrədi, dodağı əsdi. Bir az duruxdu. Sonra Saranın üstünə cumdu, Sara özünü pəncərədən həyətə atdı. Lakin qaçmadı. Belin sapı əlinə keçdi.

Sara Məmmədhüseynin gözündə böyüdü. İndi ərin əlinə baxan, kötəyində əzilən qadına deyil, bir aslana bənzəyirdi. Onun qəti hərəkəti illərcə toplanıb qalan, sızıltılarla paslanan, lakin parlamağa qadir olan qüvvət və bacarığın bir qığılcımı idi. Bu qığılcım bir ox kimi Məmmədhüseynin gözünə batdı.

– Köpəyin qızı... Bəs belə?!

O, qolu ilə başını qoruyaraq "eşqiya şəbihi" kimi qadına hücum etdi. Məmmədhüseynin dirsəyinə çırpılan ağac, quru oduna vurulmuş balta kimi səsləndi. Məmmədhüseyn Saranı yerə çırpmaq və boğmaq fikrində idi. O, ilk həmlədə zəifliyini hiss etdi. Sara onun xirtdəyindən yapışıb, başını geriyə əydi və yerə vurmaq istədi. Özünü belə aciz görən Məmmədhüseyn əvvəl içində təəssüfləndi. Özündə daha şümürlükdən bir əsər qalmadığına inandı. Saranın saçını çəngələyərək vəhşicəsinə yoldu. Sara buraxmadı. Məmmədhüseynin arxası yerə dəyəndə çox yemiş ayı kimi, zıqqıldadı və qışqırdı. Qonşular çoxdan tökülmüşdülər. Saranı evə apardılar. Su verdilər. Həyəcandan, ya əsəbilikdənmi o, ağlayırdı. Məmmədhüseyn isə həyətdə tövşüyə-tövşüyə meydan oxuyurdu:

– Qoya idilər, görəydin səni parça-parça eləyirdim, ya yox!

■ ■ ■

O gündən sonra Sara Məmmədhüseynin üzündən qurtardı. Əməlli-başlı savadlandığını görüb, onu katiblik kursuna qəbul etdilər. Xalq məhkəməsində qulluq etdi. Sonra iclasçı seçildi. O, xüsusən qadın azadlığı cəlladlarına qarşı amansızdı. Məhkəmə sədri Babayev iclaslarda Saranın fikri ilə hesablaşırdı...

*1933*

# TƏZƏ TOYUN NƏZAKƏT QAYDALARI

Qardaşlığım kooperativdə işləyirdi.

Anası da mağazaların hansındasa satıcılığa təyin edilmişdi. Vaxtı yox idi, görüşə bilmirdik. Bu axşam ona rast gəldim.

– Soyuq! Etibarsız! – deyə məni çox danladı. Bərk tapşırdı ki, sabah Bəhlulun toyudur, gələrsən.

Mən boyun qaçırtdım:

– Vacib işim olacaqdır, – dedim.

– İstirahət günüdür, – dedi, – kimə yalan satırsan? İş-zad bilmirəm, gələcəksən, vəssalam!

Mən ona bibi deyirdim.

– Sözün açığı, bibi, mən təzə toy-zad görməmişəm. Qaydasını da bilmirəm. Qonaqların yanında qızarmağa təhərim yoxdur.

Bibi barmaqları ilə ağzımı yumdu:

– Kiri, kiri! Dünya gör-götürdür. Gəl otur, öyrən. Bəhlul da kənd uşağı deyilmi? O da sənin kimi, utancaq, mağmunun biri idi. Getdi, gəldi, girdi, çıxdı. Maşallah olsun, indi nitq deyir. Belə bir gün sənin üçün



də var. Sabah-biri gün, Allah qoysa, sən də bir halal süd əmmiş tapıb evlənəcəksən. Xeyir işin olmayacaqmı, tifil!

Bibimin sözündən çıxmağa qorxdum. Səhər qalxıb şalvarı döşəyimin altından çəkdim, geyindim. Məktəb yoldaşımın saroçkasını aldım. Gümüş zaponka axtardım. Uşaqlar toya getdiyimi bildilər. "Bəxtəvər", – deyə hərəsi bir tərəfdən köməkləşib, məni yar-yaraşığa salmağa çalışdılar. Tamam-kamal toy adamı kimi, yola düşdüm.

Saat yeddidə qardaşlığımgilə çatdım. Vurhavurnan hazırlıq gedirdi. Qazan altına odun qoyan kim, su daşıyan kim, ərzaq gətirən kim, düyü arıdan, toyuq yolan, taqhataq qənd doğrayan kim... Bibi məni öz otağına çağırdı. Bəy hamamdan qayıtmamışdı. Onun üçün təzə çay dəmləmək istəyirdilər, kim isə limon doğrayırdı. Bibi dedi:

– Sağdış, soldışla gələcək!

Bibinin xoşuna gəlmədim. Bəhlulun boyun şallarından birini boynuma elə asdı ki, saçaqları at yalı kimi döşümü örtdü. Çəkməmi çəkib ayağımdan çıxartdı. Bir cüt haşiyəli ipək corab geyindirdi. Belimə sümüklü toqqa bağladı. Bir dəmir qarmaqlı qələm gətirib, döş cibimə keçirtdi, üçbucaq şəklində bükülmüş ipək dəsmalı elə qoydu ki, bir küncü göründü. Şalımın saçaqlarını daradı, yaylığın yanlarından salladı. Güzgüyə baxanda mənə elə gəldi ki, bir boyalı qadın tellərini ayırıb döşümdə oturmuşdur. Bunları gördükcə mən heyrətimdənmi, xəcalətimdənmi dinmirdim. "Adımı oxumuş qoymuşam, bibi məndən çox bilir", – deyə düşündüm. Bibi bununla kifayətlənmədi. Hamı eşiyə çıxandan sonra yanımda oturdu. Zərli balınclara söykənib dedi:

– Tifil, yazıq bala, nə görmüsən dünyada! Kitablar ağzının dadını aparıb. Quruyub, saqqıza dönmüsən. Buna görə deyirəm ki, gəl, get! Bizdə kefin açılar...

Bibim hər cümləni başlayanda dirsəyimə, bitirəndə dizimə vururdu.

– Di qulaq as! Hə, indi toydur. Beş adam içinə çıxacaqsan. Təzə toydur. Başa düş necədir! – O, təzə toyun nəzakət qaydalarını bir-bir saydı: – birinci – əsnəmək, hıçqırmaq, öskürmək, asqırmaq, gərnəşmək qadağandır; ikinci – ədəbli otur, çay içəndə marçıldatma, xörəyin yağı dodağında işıldamasın, gül, amma qaqqıldama, yumşaqca irişdin, bəs-

dir, danış, ancaq qışqırma, dodaqaltı mızıldandın, kifayətdir, elə danış ki, hamıya, hər şeyə, hər vaxta aid olsun; üçüncü – hamı ilə görüş, tanış ol, öpüşmək də olar, o da üzdən yox, dodaqdan; dördüncü – stəkanı nəlbəkiyə yavaş qoy, rumkanı iki barmağınla tut, qaşığı ehmallı tərpət; beşinci – qabını siyirmə, süfrəni batırma, stulu cırıldatma, burnuna əl vurma, qaşınma, qurcuxma; altıncı – yaxanı bağla, başını aç!..

Bibinin sözünü yarımçıq qoyub qalxdım. Boyun şalımı açıb qayıtmaq istədim:

– Hələ ki, xudahafiz!

Qolumdan tutdu:

– Dayan bir, hara durursan?

– Bibi, sən oğlunun əziz canı, sən vicdanın, məni burax! Mən bacarmayacağam. Razı olma ki... yuxum da gəlir. Sabaha dərsim var. Qoy gedim. Yemişcə varam. Mübarək olsun! Necə belə toylar...

Səsimə o biri evdən gəldilər. Qollarımdan dartıb oturtdular. Mən qorxu, iztirabla təzə toyun başlanmasını gözləyirdim. Yalvardım ki:

– Camaat yığılmamış məni zala apar. Adamlar gələndən sonra nə lazım, utanıram...

– Bala, yoxsulluğun üzü qara olsun! Xanımnənəgilin zalını bu günlüyə borc almışıq. Kişilər hələ çaylarını yığışdırmayıblar. Bir az da dur. Səni içəri aparmaq, bax, bibinin bu boynuna!

Bəy hamamdan qayıtdı. Pörtmüşdü, üzünün əti sallanmışdı. Qaşqabağı yernən gedirdi. Ömründə gülüşlə işıqlanmamış kimi görünən tutqun sifəti bir az da enlənmişdi. Şəkil kimi, susub dururdu. Sağdışı, soldışı ona baxıb, guya göz qırpımından nə dediyini anlayır və anladırdılar.

Onlara çay verdilər. Bəy üst dodağını balıq əti kimi nəlbəkiyə saldı, çayı isti-isti hortuldatdı. Bibinin qulağına pıçıldadım:

– Deyəsən, Bəhlul da bilmir.

O mənə cavab vermədi.

Mən təkrar etdim:

– Qaydaları deyirəm, ey... Bəhlul dodağını marçıldadır, ona göz elə!

– Balası, – dedi, – bura toy deyil ki! Öz aramızda eybi yoxdur.



▪ ▪ ▪

Mən çox utanırdım, bir küncdə oturmuşdum. Qonaqlar bir-bir gəlirdilər. Addım səsi eşidən, kimi ürəyim döyünürdü. Təzə toyun nəzakət qaydalarını yadıma salırdım. Elə bil bibim qabağımda və ya çiynimdə oturub, qulağıma pıçıldayırdı: "Belə otur, elə otur!"

Qonaqlar içəri girməmiş mən əllərimi görüşməyə, salamlaşmağa hazırladım. Bibimdən öyrəndiklərimi ürəyimdə əzbərlədim.

Qonaqlar zaldakılarla görüşüb əyləşdilər. Uşaq dəlləkdən qorxan kimi, mən də qonaqlardan çəkinirdim. Onlar mənə tərəf gələndə öz-özümə: "Gözlə ki, nəzakət qaydaları pozulmasın", – deyirdim. Ancaq görüşəndə ayağa qalxıb-qalxmamağın mənasını bilmirdim. Bibim mənə öyrətməmişdi. Başqalarına baxırdım: qalxan da olurdu, oturduğu yerdə əlini uzadıb görüşən də olurdu. Quşbaxışı bu adamları müqayisə etdim. Mənə elə gəldi ki, ayağa qalxıb görüşənlər daha mötəbər adama oxşayırlar. Onları təqlid edib qalxdım. Bir xanımın yumşaq, üzüklü və ağ əlini ovcuma alıb sıxdım.

– Çox xoş gördük! Təbiət sizdən razı olsun! – dedim.

Bəy içəri girdi. Adamlar bir-birinə dəydi. Yuxarı başda üç nəfərlik yer hazırlamaq istəyirdilər. Bibim kəlağayısını yellədərək gəldi, onları geri çağırdı:

– Mən nə vaxt desəm, onda!...

Hazırlanan yerlərdə çalğıçılar oturdular. Dəm tutdular, nə tutdular! Sarı, buxara papaqlı birisi tarı bağrına basıb, özündən getdi. Qaval yox idi. Başıaçıq, boynu şallı, pencəyi çox gödək, qulaqları dik oğlan şaxsey dəfini dizləri arasına alıb mal döyəcləyən kimi, döyürdü. Birisi də klarnet üfürürdü. Onun nəfəs almadan iki saat üfürməsinə hamı mat qalmışdı. Müğənni özündən getmişdi. Pəncərələrdən küçəyə segah tökülürdü. "Can, ay atam balası, can!" – deyən səslər ucalırdı. "Atam balası" elə bərk döyürdü ki, adamın dümbəyə rəhmi gəlirdi.

Stolun yanları adamla doldu. Mən tanıdığım bir nəfər də yox idi. Ona görə bir küncdə qəribsəyirdim. Nəzakət qaydalarından qorxduğum üçün yanımdakıları dindirməyə də cəsarət etmirdim. Bir də gördüm, bəy iri addımlarla otağı ölçüb, yuxarı başa keçdi. Keçdi, nə keçdi! Üç nəfər aya-

ğa qalxdı. Sağdışa, soldışa da yer elədilər. Bəy yenicə oturmuşdu ki:

– Xankişi! – deyə səsləndi.

Tədarük otağından oğru pişik kimi, ağzını təmizləyə-təmizləyə başıaçıq, uzunçənə kişi gəldi (toyda başıaçıq adam bir o idi, bir də mən). Bəy ona əmr ilə tapşırdı:

– Yoldaşlar məclisi sənə həvalə edirlər. İşə başla!

– Baş üstə, ay bəy! Mənim kor gözüm üstə! – deyən Xankişi əllərini ətəyinə silib, ətrafa göz gəzdirdi. – Hə... niyə danışmırsınız? Yoldaşlar, domino oynayan var, desin. Kart kimin meyli çəkir? Muşqulat eyləyək. Təvəqqə eləyirəm, çalanlar yorulanda qrammofonu oxudasınız.

Bibim o biri evdən dilləndi:

– Oynamaq olsun, Xankişi! Oynat!

Adamlar güldülər.

Xankişi irişə-irişə cavab verdi:

– Nə deyirik! Sahibkar deyir, gərək ola da! Başlayaq oynamağa!

Bəy əlini stula vurub Xankişiyə acıqlandı:

– Bu nə mövhumatdı eləyirsiniz? Niyə bəs arvadlar bir yanda oturub, kişilər o biri yanda? Bu saat qatmaqarışıq lazımdır. Məhv olsun köhnə qaydalar!

Bəyin sözünü şarpaşarp alqışladılar. Xankişi stullara əl gəzdirməyə başladı. Hamını növbə ilə bir arvad, bir kişi düzdülər. Elə arvad var idi ki, ərsiz, elə kişi var idi ki, arvadsız gəlmişdi. Bunlar nəzərə alındı. Utancaqlığından tək qalan mən oldum. Xankişi düzdüyü adamlara baxıb əlini əlinə çırpır, nəşələnirdi:

– Bax, belə ha! Mədəni budur ha!

Onun gözü güldü, məni işarə ilə hamıya göstərdi.

– Binəvaya baxın! Yazıq tək-tənha qalıb!..

Adamlar gülüşdülər. Mən tərlədim. Bibim içəridən səsləndi:

– Onun yanında özüm oturacağam!

Məclis bayram mağazası kimi bəzənmişdi. Allı-güllü zərif paltar geymiş qadınların qulağında sırğalar, boyunlarında muncuqlar, barmaqlarında üzüklər par-par parıldayırdı. Sanki onlar satılmaq üçün düzülmüşdü.

Kişilərin burnu, qadınların barmaqları işıldayırdı. Qadınların üzü,



kişilərin dişi ağarırdı. Qadınların dodağı, kişilərin boynu qızarırdı. Otağın havasını sorub klarnetə doldurmaq istəyən adam da rəngbərəng insanların əlvan paltarına bəstələnmiş havalar səpirdi. Özündən gedən müğənnidən gözlənilmədən "Xoruz mahnısı" yüksəldi:

*Mənim toyuğum çil-çil idi,*
*Qanadları pil-pil idi.*
*Toyuq deyil, bülbül idi;*
*Səni yanasan, toyuq tutan,*
*Odlanasan, toyuq tutan!*

Xankişi bir qalın-qayım arvadı aralığa saldı. Yanındakılar pıçıldaşırdı ki, "21-də kassirşadır." Kassirşa doğrudan da qəşəng oynadı. Hər ləngərində bir gəminin qərq olmaq təhlükəsi hiss olunurdu. Döşəmənin taxtaları cırıldayır, şüşələr tərpənir, kənardakı stol titrəyirdi. Musiqi coşanda qadın kələfçəni düyün saldı. Nə etdiyini özü də bilmir, atılıb-düşürdü. Bunların hamısı təzə toyun nəzakət qaydalarını pozurdu. Bibimin içəridən qışqırığı bu arvadın rəqsini yarımçıq saxlayacağını güman edirdim. Olmadı. O, hərdən böyrünə biz soxulan fil kimi, göyə atılırdı. Hamı baş-gözünü qorumağa başladığından, əl çalan yox idi.

Bundan sonra sanki onun tamam əksinə, qəsdən bir arıq hörümçəyi aralığa saldılar. Atlas paltar, qırmızı çəkmə geymiş bu arıq qızın qaşları mötərizə, burnu sual işarəsinə oxşayırdı. Yerindən qalxan kimi, çapalamağa başladı. Onun sürətli, qarışıq hərəkətləri can verən məxluqu andırırdı. Sanki quruya düşmüş balıq özünü yerdən-yerə çırpırdı. Bir az çapaladıqdan sonra stuluna yapışıb qaldı. Sinəsi qalxıb-düşür, nəfəsini dərirdi. Bu da təzə kassirşa imiş!.. Ona macal vermədən qara krepdeşindən çarlston paltar geymiş, pəhləvan kimi, enlikürək bir qadın aralığa çıxdı.

Xankişi səsləndi:

– Yoldaş yoldaşı ilə oynasın!

Yuxarı başda müştükdən papiros çəkən və yaxalığı yanakı əyilmiş bir kişi irəli çıxdı. Qaraquş kimi, qanad gərib arvadına kölgə salmağa, dolanbacı getməyə başladı. Qadın isə irişdiyindən dodağı sallanmışdı.

Əri fırlanırdı, qadın durduğu yerdə qarmon kimi büzülüb açılırdı.

Bunlardan sonra çıxan qadınların çoxu durduğu yerdə qanad çalır, sağa-sola dönürdülər. Yalnız bir nəfər (o da deyilənə görə gəlinin qohumu imiş) gözəl oynaması ilə hətta çalğıçıların da heyrətinə səbəb oldu. Qız al geyimi ilə şəfəq kimi parlayır, xumar gözlər kimi süzülüb gedirdi.

Çaylar içildi. Xörək gəldi. Plov nə plov! Buludlar qarlı dağlar kimi ucalmışdı. Camaat xörəyə girişdi. Evdə qulaq batıran bir marçıltı qopdu. Bir dəqiqədə məlum oldu ki, nə aş çatır, nə də qara.

Xankişi ürək verib dedi:

– Nə qədər kefinizdi yeyin, qorxmayın, xörək tapılar!

Məni fikir götürmüşdü. Marçıltıya, işıldayan dodaqlara, ağ boşqablara uzanan qara biləklərə baxdıqca, yanımda oturan bibimə işarə edirdim:

– Ay bibi, toyun nəzakət qaydaları, deyəsən, bir balaca...

Onun ağzı dolu olduğundan dillənmir, yalnız qaşlarını çatıb:

– Yox, – deyirdi.

Çay stəkanları paylandı. Xankişi bir-bir stəkanları şərabla doldurdu. Yuxarı başdan kassirşa ehmallıca baş qaldırdı.

– Yoldaşlar, – dedi, – xahiş eləyirəm ki, biz xoşbəxt olmuşuq. Bəy yoldaş, yəni Bəhlul, bizim 21 nömrənin işçilərindən olmağına görə, bu bakalı içək, yoldaş, necə ki, mən xahiş eləyirdim, içilsin!..

Xankişi qışqırdı:

– Əl saxla!

Hamı qapı tərəfə baxdı. Naşı bəzənmiş, yaşlı bir qadın içəri girdi. Xankişi təqdim etdi:

– Qız anası!

O saat nidalar ucaldı:

– Yaşasın bəyimizin qayınanası!

– Təbiətin gizli qüvvələri mübarək eləsin!

– Təbiət hamıya qayınana yetirsin!

Qayınananı bəyin yanına keçirtdilər. Bibim camaatın hörmətinə cavab verdi:

– Təbiətin gizli qüvvələri sizə də qismət eləsin! Sizdən razı olsun!..



Stəkanlar dolur, boşalır, sağlığa içilirdi. Eşitməli sözlər danışılırdı. Bəy danışanda hamı diqqətlə dinlədi. O deyirdi:

– Deməsinlər ki, Bəhluldur. Onverset qurtarmasam da... elə bir şeyəm. O daxıl ki, var ha... Buradakıların çoxu həmkarımızdır, başa düşər. O daxıl elə şeydir ki, onverset ondan baş açmaz. Elə onverseti də oradan götürüblər. Görmürsünüz, student gəlir, bizə baxıb öyrənir? Mən deyirəm, o daxılın sağlığına içək ki, (bəy əlindəki stəkanı lampoçkaya qədər qaldırdı) bunu bizə yetirən odur. Bunsuz dünya bərqərar olmaz. Jiznimdə belə ləzzətli şey görməmişəm. İçək bunu daxılın sağlığına!

Stəkanlar döyüşdü, şaqhaşaq göyə çıxdı. Bəyin stəkanı qayınananın boş stəkanına dəyəndə, bəy boynunu əyib geri çəkildi:

– Bu olmadı! Xankişi! Bu arvada nəsihət ver!

Kim isə dilləndi:

– Ədə, dalaşarsız!

Xankişi qayınananın stəkanını doldurdu:

– Kim içməsə, yaxasına tökəcəyik.

– Təklif var: öpüşsünlər...

– Ədə, gəlin ilə öpüşərlər, o ki burada yoxdur.

– Yox, öpüşsünlər...

Xankişi qayınananı qucağına götürüb Bəhlula tərəf qaldırdı. Bəhlul bir öpüş götürüb şərabı başına çəkdi. Qadın qızarıb yerində oturdu, qızın dayısı acıq eləyib getdi. Bəhlul bunu eşidən kimi hirsləndi:

– Kim məni istəmir, gedə bilər!

Başlar xörəyə tərəf endi. Qaşıqlar şaqqıldadı. Birdən Xankişinin səsi gəldi:

– Kim oğurladı?

– Nəyi?

– Kim götürdü?

– Nədir itən?

– Mənim qaramı sən yemisən?

Stəkan Xankişinin kəlləsində çilik-çilik oldu. Şərab şüşəsi bufetə dəydi. Şüşələr töküldü. Mürəbbə bankasının böyrü deşildi. Mürəbbə axdı, töküldü. Qayınana təşvişə düşdü:

– Batdı, batdı! – deyə yeznəsinin ətəyini çəkdi.

Dava qızışdı. Məclis parçalandı, cəbhələr ayrıldı. Bibim özünü aralığa atdı. Qışqırırdı. Mən qulağına pıçıldadım:

– Deyəsən, nəzakət qaydalarını, bir balaca...

Aralıq bir az sakitləşmişdi ki, mən şalı boynumdan açdım. Batinkaları, toqqanı atdım. Öz tələbə paltarımı geyinib, çıxmaq istədim. Bibimin ovqatı təlx olsa da, soruşdum:

– Bağışla, bir dəfə əsnədiyim üçün üzr istəyirəm. Təzə toyun nəzakət qaydalarını pozdum...

Bibim məni bərk-bərk tutub buraxmadı. Hamı dağıldı. Biz o biri otağa keçdik.

Bibim pəncərələrdən qoltuqlayıb aralığa şey tökürdü: konfet qutuları, tort, marmelad...

Mən elə bildim ki, bunları öz aramızda yeməyə saxlamışlar. Bir konfet götürmək istədim, bibim biləyimdən tutub çəkdi. Corab, şal, kağız gül dəstəsi, gümüş qaşıqlar, duxi, pudraqabı, krepdeşin, qəndqabı, bəzək qutusu, dəsmal, yaxalıq, düymə... Bir sözlə, elə bil, 22 nömrəli mağaza açıldı.

Mən gözləyirdim. Bibim səliqə ilə şeylərin qulağından tutub deyirdi:

– Bu şalı Məmmədin arvadı gətirib. Altı dənə qaşıq, isbatlı şeydir, Minəxanım alıb. Bəzək qutusu, əcəbdir! Kişinin adına layiq, Məşədi Rəhimi deyirəm ey!

Bibim sovqatı əlində saxlayır, bəyin fikrini bildikdən sonra kənara qoyurdu. Bəy əvvəl mülayim görünür və deyirdi:

– Xub... Pis deyil... – Sonra: – Zarafat deyil! Ərinə çörək ağacı düzəltmişəm, hələ o çoxdur? Öt!

Bibim bir kağız gül göstərdi:

– Bu da, – dedi, – dostun Əyyubgildəndir.

Bəy mızıldandı:

– Elə dostu qəbrə qoyum! Heç utanmır da!

Bibim bir cüt corabı göstərdi:

– Bunu Həmzət gətirib.

– Kim?

– Mirsaadın arvadı, Həmzət!



– Çox qələt eləyib, gətirib! Sən də çox qələt eləyib almısan! Məni ələ salıb, ya özünü? Qızı küçükləyəndə, mən onu adam bilib subaylığım ilə qırx manat xərcə düşdüm. İndi mənim əziz günümdə kimə doqquzluq qoyur? Dur apar, at üstünə, gəl! Hələ o qədər ac qalmamışıq. İt uşağı! Corab! Özü də nə corab!

Mən bunları görəndə bildim ki, qardaşlığım məni niyə danışdırmır. Toyun nəzakət qaydasını hamıdan bərk pozan mən idim ki, heç nə gətirməmişdim. Döyülməyimdən qorxdum. Həyətə çıxmaq bəhanəsi ilə gecə vaxtı birbaş yataqxanaya götürüldüm. Odur-budur, belə yerlərə getmirəm. Bir də mən təzə toya gedim! Ay tövbə!

*1934*

# "KİM"İN ANDI

Havaxtdandır ki, Bəhramgildə bir bahar şənliyi var. Zivər çiçək kimi açılmış, Lalə xala isə onun başına dolanır. Ev, ailə böyük yubiley qarşısında imiş kimi, hazırlıq görürlər. Lalə xala süpürür, yuyur, çırpır, təmizləyir. Zivər isə sakitcə əyləşərək tikir, gül vurur, olduqca maraqlı əl işi tikdiyi üçün kefi gəlir. Hərdən özü-özünə gülür. Gələn, gedən – hamı bu sevincə şərik olur. Zivərə kömək edib, onu əyləndirirlər.

Bəhram isə hay-küy ilə fabrikdən gəlir:

– Tez ol, xörək ver, acından öldüm.

Lalə xala tabağın xəmirini qaşıyaraq, Bəhrama acıqlanır:

– Yekə oğlansan, kömək etsənə, axı bunlar hamısı sənin...

– Yox bir, mən ölüm, qoyun oturaq. İndidən qoduğu başımıza çıxarmayın...

Hamısı gülüşürlər, Zivər Bəhramın qulağını çəkir:

– Zivər, əziz bir qonaq gözləyir. Hesab üzrə o, bu günlərdə gəlməlidir. Bu, qonağın ilk və son gəlişidir. Həmişəlik qalacaq və ya bir müddət sonra böyük bir çal-çatlasın ilə bir başqa yerə köçəcəkdir. Bu qonaq



yalnız Zivərlə Lalə xala üçün yox, hökumət üçün də əziz və möhtərəmdir. Bu haqda müdirdən xahiş etdik, Zivəri işdən buraxdı. Onu rahatlamağa izin verdi. İndi Zivərin əsas işi qonağı qarşılamaq üçün hazırlıq görməkdir.

Bütün bunlara baxmayaraq, Zivər hələ indiyə qədər əziz qonağı görməmişdir. Onun haqqında yalnız yuxuda görmüş kimi bir təsəvvürü var...

Bu gün vaxt tamamdır. Hamı, hətta Bəhram da qapıda toplaşıb, aramsız olaraq istəkli qonağı gözləyirlər. Balkonda və evdə böyük bir hay-küy var. Qadınlar böyük təlaşla sağa-sola qaçır, evə girib-çıxırlar. Bəhram isə qapıda durmağa məcburdur. O özünü utancaq göstərmək istəyir. Lakin ürəyi döyünür, intizar onu boğur. Çox çəkmədi, içəridən qopan bir gülüşün ardınca şarpaşarp əl çalındı. Hamı bir səslə:

– Muştuluq, muştuluq, – deyə eşiyə, Bəhramın üstünə atıldılar. Bəhram eşitmirmiş kimi, üzünü içəriyə tutub soruşurdu:

– Ay qız, gədə necədir?

Onun bu sualına güldülər. Zivər yorğun bir halda:

– Gədə deyil, qızdır – dedi.

Bir başqası:

– Şamama kimi, yumru bir oğlan.

– Lap ay parçasıdır.

■ ■ ■

Böyük bir qış axşamı. Külək dəhşətli bir sızıltı ilə özünü divarlara çırpır, cöhrələri bıçaq kimi kəsir. Zivər yatağında uzanaraq kitab oxuyur, Lalə xala uşağı isti su ilə çimizdirir. Uşaq nazik bir səslə ağlayır. Bəhram dərin düşüncələrə tutulmuş kimi qaralmış halda içəri girdi. Gülmədi, danışmadı, soyunaraq oturdu, Zivər kitabı bükdü:

– Oxumusanmı, "Bahar şəbnəmləri?"

Bəhram ələmli bir səslə:

– Lenin yoldaş öldü.

Zivərin rəngi qaçdı. Bir müddət duruxdu və yenə inanmadı.

– Yalan olar... Kimdən eşitdin?

– Necə kimdən?

– Uydurma olar.

– Aləm bir-birinə dəyib, nə danışırsan?..

Çox çəkmədi, yüksək, həzin və davamlı bir uğultu şəhəri bürüdü. Fabrik, zavod, maşınboru, tren, təyyarə hamı hər yerdə və hər şey eyni tonda səslənir, ağlayır, eyni şeyi deyirdi:

– Lenin öldü...

Sanki böyük inqilab vətəninin qəlbi, tufanlar kimi həyəcandadır. Böyük dahinin cənazəsi qarşısında mübarizlər diz çökür, bayraqlar əyilir, işçi sinfi and içir. Sanki böyük Leninin ən yaxşı şagirdi, dahi Stalin "hazır!" komandası verir və bütün əməkçilər Leninizm bayrağı altında toplanaraq, ona sadiq qalacaqlarına and içirlər.

Səs kəsilmişdi. Lalə xala uşağı çoxdan Zivərin döşünə salmışdı. Lakin nə Zivər, nə Bəhram özünü bilmirdilər. Fikir onları aparmışdı. Heç kəs danışmırdı. Zivər uşağın üzünə baxaraq sükutu pozdu:

– Heç gör bilir ki, dünyanın harasıdır.

Bəhram Zivəri və uşağı götürüb komsomolların xatirə gecəsinə getdi. Böyük bir izdiham vardı. İşçilər toplanmış, hər kəs danışmaq istəyirdi. Məruzə və nitqlərdən sonra fabrikin Lenin adına qoyulması qərara alındı. Bir çox işçi və işçi qadınlar Lenin firqəsinə daxil oldu. Sədr komsomol Teymur Zivərin uşağını əlinə alaraq, tribunaya çıxdı:

– Yoldaşlar, bu insan balasını görürsünüzmü?! Bizdən sonra Lenin işinin davamçıları. Anasının təklifi vardır ki, bu gecə uşağa ad qoymalıyız. Nə deyirsiniz, kimin sözü var?

Yerlərdən:

– Lenin.

Kimsə yerindən etiraz etdi:

– Yaxşı olmaz.

– İliç necədir?

– Yox, Yanvar, ... yaxşıdır.

Teymur təklifləri hesaba alırdı. Zivərin məktəb yoldaşı Firuzə söz aldı:

– Yoldaşlar, o böyüyəcək, komsomol olacaq. Mən təklif edərdim ki, onun adı KİM olsun. Böyüyər, o zaman bilər ki, komsomol Lenin nəslidir, yaxşı Leninçi olar... Firuzənin təklifi keçdi. Teymur uşağın döşünə bir KİM nişanı da taxdı.

■ ■ ■

O vaxtdan indi tam 10 il keçir. Bu illər içərisində hər şey dəyişdiyi kimi, KİM də dəyişirdi, böyüyürdü. Qızıl qalstuklu, qırmızıyanaq, çevik bir pioner olmuşdu.

O, səhər yerindən qalxarkən sumkasını qoltuğuna vurur, çay içmir, bir tikə çörək gəvələyərək, qapıları çırpıb qaçır. Güllü ilə bağladıqları yarış üzrə gecikməməyə qol çəkmişdir. Hər axşam təkrar Zivərin saçını çəkirdi:

– Bax, ana, səhər məni tezdən oyat ha, yaxşımı!?

– Dünən İsfəndiyar müəllim sinifdə İliçin həyatından danışırdı, böyük babamızın şəkli də lövhəyə vurulmuşdu.

Elə bil, üzünü uşaqlara tutub nəsihət edir.

Müəllim çox yaxşı danışdı. Hamı dirsəklənib maraqla dinləyirdi.

– Hə... belə uşaqlar... Elə bilirsiniz ki, dünya əvvəldən belə idi? Yox! Sizin baba və nənələriniz savadsız, mövhumatçı idilər. Siz indi elə köhnə adamlar görəndə gülürsünüz. Bir vaxt var idi, varlılar, ağalar kasıbları və işçiləri yumruq altında saxlayırdılar. Bunlar? İbrahimin – oğlu da bizim beşinci şöbədə oxuyur, – Gəncə çayında daş ilə başını əzdilər. Kargah Qulu muzdunu istədiyi üçün quyuya salıb öldürdülər. Bunları ki, eşitmişsiniz. Heç bir işçi uşağı oxumaq, doyunca çörək nədir bilməzdi. Hər şey dövlətlilərin idi...

Müəllim üzünü İliçə çevirdi:

– Baxınız, bunu, dünya işçi və yoxsullarının rəhbəri böyük babamız Leninin sayəsində hamı başa düşdü. İşçilər ayıldı, birləşdilər, zülmkarları qovdular... İndi kim deyər, Lenin yoldaş nə vaxt ölüb?

– 1920-ci ildə.

– Yox, düz demədin.

– Müəllim, Lenin babamız ölübdü, yanvarda.

Müəllim gülümsədi. Bu düzdür, yanvarın 24-də. Axı hansı ildə?

– Çoxdan.

– 1924-cü ildə.

KİM doğru cavab verirdi. Müəllim onu saxladı.

– Yaxşı, KİM, de görüm, sənin neçə yaşın var?

– Müəllim anam deyir ki, 10 yaşın tamam olur.

– Deməak neçənci ildə anadan olmusan?

– 1924-cü ildə. Bəs Lenin neçənci ildə ölüb?

– O da 1924-cü ildə.

KİM bir az düşündü və etiraz etdi:

– Yox, müəllim, düz olmur. Niyə mən doğulanda İliç babamız ölsün? Güllü doğulan ilisi ölüb.

Güllü beşinci sıradan ayağa qalxdı, acıqlı-acıqlı KİMin üzünə baxdı və icazəsiz dilləndi:

– Özün doğulanda... danışığına bax, görək İliçi kim yaxşı istəyir. Heç sizin evdə yoxdur, babam İliçin şəklini alıb, kitab da alıb, hələ döşümə nişan da alacaq...

Zəng çalınır, uşaqlar məktəb həyətinə yayılırlar.

■ ■ ■

İliçin vəfatının 10-cu ili xatirə gecəsinə təkcə məktəblilər yox, həm də ata-analar toplanmışlar. Məktəb klubu, şüar, lövhə, şəkil ilə bəzənmişdi. Otağın birində uşaqların əl işi sərgisi vardı.

Müəllimlər, gələnlərə izahat verirlər:

– Budur, Zahidin çəkdiyi Lenin şəkili, oxşatmışdır, bu da yazısıdır.

Bir başqası, qızların dəsmallara yazdığı "İLİÇ XATİRƏSİ"-ni göstərir. Birisi də 13 yaşlı Mahmudun divardan asılmış şeirini oxuyur, anası onun üzündən öpür.

Sonra hamı zala toplanır. Pionerlərin böyüyü komsomol Əkrəm yarım saat Lenindən danışır, ancaq hərdən uşaqların da adını çəkirdi. Bu, pionerlərə çox qəribə gəlirdi. Pionerlər adından söz KİMə verilir. O, rəngi qızarmış, ürəyi döyünə-döyünə tribunaya çıxır. 10 yaşlı pionerlərin, Leninin yoldaşı Krupskaya yoldaşa yazdığı məktubunu oxuyur:

– Əziz Nadejda! Babamız Leninin vəfatının 10 illiyində sənin qüssənə şərik oluruq. Biz İliç ölən ili, hələ eləmiz var ki, həmin günü dünyaya gəlmişik. Bu təsadüfdən razı deyilik. Lenin ilə bir əsrdə yaşayanlar



xoşbəxtdirlər. Lakin bu bizə mane olmur. İsfəndiyar müəllim öyrədibdir, İliç necə uşaqları sevərmiş. Bizi ağ günə çıxaran da İliç olubdur. Ata-analarımız və böyük qardaşlarımızdan İliçin işi haqqında eşidirik. Amma nə olsun ki, biz Lenini görmək, ondan çox söz eşitmək istərdik. Heç İliç haqqında başa düşə biləcəyimiz kitab da yoxdur. Biz birinci məktəb pionerləri sizdən xahiş edirik ki, İliç haqqında bizə yazasınız. Yazın görək, o necə danışırdı. Pioner olmuşdumu, siz onunla çox olmuşsunuz, bilərsiniz, yazın. Bir də xahiş edirik ki, əsirgəməyin, Lenin necə oxuyurdu, heç oynayırdımı, nə oyun oynayırdı? Biz onun dəftərlərini, pioner qalstukunu, sumkasını görmək istəyirik.

Budur, biz məktəbimizdə İliç adına yarış düzəltmişik. Dərsimizi yaxşı öyrənirik. Komsomollar bizə kömək edirlər. Moskva pionerlərinə yazmışıq. Siz də onlara deyin, bizə cavab yazsınlar, darıxırıq. Biz İliçin xatirə gecəsinə sərgi düzəltmişik. Hamımızın əl işimiz vardır, səni məktəbimizə qonaq çağırırıq, gəl, gör necə işlər qayırmışıq.

Müəllimimiz dedi ki, siz pionerlərin böyüyüsünüz. Özünüz də olmasa, yazıçılara deyin İliç haqqında bizə yazsınlar. Hamımız oxumaq istəyirik. İndi gecədir, Leninin xatirə gecəsidir. Hamı, valideynlərimiz kluba toplanmışlar. Onlar fabrik, zavod və idarələrdə öz planlarını yerinə yetirirlər. Stalin yoldaşa vədlər verirlər. Biz çocuqlar İliçə and içirik, onun ən yaxşı şagirdi Stalin yoldaşa söz veririk, İliçin vəsiyyətlərini yerinə yetirəcəyik, komsomol olacağıq, qızıl vətənimizin müdafiəsini öyrənəcəyik. Biz həmişə hazırıq!..

*Pioner salamı ilə, 10 yaşlı pionerlər.*
*40 imza.*

KİMin son sözü alqışlar altında qaldı. Salondan səslər qopdu. O, tövşüyə-tövşüyə səhnənin, pərdənin dalına çəkildi. Zivər onu öpdü, başını tumarladı, tərini sildi, salona gətirdi. Pərdə bəyazlandı, lampalar söndü, kino verilişi başlandı.

*1934*

# LETUN

Kupemizdə qısaboy, qarasaqqal, hörmətcil bir kişi vardı. O, Qubadan Moskvaya göndərilən alma vaqonlarının üstündə qaraul gedibmiş. Qayıdan baş üçün özünə meyvə saxlamışdı. Bizə təklif etdi:

– Buyurun, qardaşoğlu, alma yeyin!

Öz səfərindən, dəmiryoldakı istirahətsizliklərdən şirin-şirin danışırdı. Qulaq asmağımızdan olduqca şaddı. Aranı kəsmir, bir söhbətin nəticəsini o birisinin müqəddiməsinə calayaraq, davam edirdi. Özünə auditoriya tapmış pəltək natiqlər kimi, fürsətdən istifadəyə çalışır, ürəyini boşaltmaq istəyirdi.

– Bilirsən, yol işi uzun məsələdir. Bu xancalım olmasaydı ha...

O bizim vəziyyətimizlə maraqlandığından, ya yuxumuzu qaçırtmaq istəyindənmi suallar verirdi. Moskvada məktəb bitirib qayıtdığımızı eşitdikdə bizi təbrik etdi:

– Var olun! Belə şeyə sevinirəm. Müsəlman uşağısınız, Allah elə eləsin ki, "narqum" qulluğuna çatasınız.

Papirosunu tüstülədərək, bir ayağını qaldırıb, oturaq yerə qoydu, pəncərəyə bərk söykəndi, arxayınca soruşdu:



– Bəs, qardaşoğlu, onversetliyi neçə ildə qurtardınız?

– Dörd ildə.

– Dörd ildə?

– Bəli!

– Hə, onda onversetlik deyil, sizinki qurs imiş. Qurs bizim yerdə də açılır. Nə qursu idi sizinki?

Biz güldük. O, mimikasını dəyişmədən təsdiq etdi:

– Bəli, qurs imiş. Qurs üç-dörd ildə başa gəlir.

– Siz bunu haradan bilirsiniz?

– Oradan bilirəm ki, mənim, Allah sizi də saxlasın, bir bacıoğlum var. Uşaqlıqdan onun çorunu mən çəkirəm. Siz yaşdadır. Altı-yeddi ildir onversetlikdə oxuyur. Deməyinə görə, gələn il qurtaracaq. Mən də söz vermişəm ki, ayaqyalın da qalsam, dost-aşnanı yığıb, şadyanalıq edim. O, məktəbi qurtaranda, adına bir qızıl saat yazdırım. Onversetlik qurtarmaq belədir. On ilə başa gəlir. Uzun işdir, çünki zarafat deyil. Kişi elmin dibinə çatır. Ondan o yana daha bir şey yoxdur. – O, bir az duruxdu, sonra əlavə etdi: – Yox... zəhmətimə görə bacıoğlu da pis deyil. Qırğı kimidir, gecələr də yatmır. Görürsən, kömləkcək oturub yazır, pozur. On elm oxuyur. Həm doktor, həm incinar, həm müəllim, həm də aqronom olacaq. Deyirəm, qoy olsun, bizdən ki, ataya oğul olmadı. Sağ olsun Sovet hökuməti ki, uşaqları oxudur, yetirir.

– Hökumət hesabına oxuyursa, bəs sizin köməkliyiniz nədir?

Bu suala güldü, pəncərədən döndü, bizə tərəf əyilərək yavaşca cavab verdi:

– Ay sağolmuş, nə deyirsən? Doxsan manat pensiya onun papirosunu görməz. Bir də görürsən ki, gəldi. Dayı! Nə var? Bir qastyum almışam. Çıxarıb 200 manat verirəm. Dayı! Nə var? Otaq tutmuşam. Cavandır da. Biz də, heç olmasa, cahıllıq eləmişik axı. Qızlar ilə oturur, durur. Dayı! Nə var? Svidaniyaya gedirəm. Götürüb 30-40 manat cibinə qoyuram. O irəli Bakının lap seçmə qızlarından biri gədənin ətəyindən tutub ki, getmə gözümdən, gedərəm özümdən. Məni almasan, özümü dənizə atacağam.

Müsahibimizin bacısı oğlu ilə çox maraqlandım. Adres aldım. O, tibb institutu tələbələrinin ümumi yataqxanasında yaşayırmış.

■ ■ ■

Bu əhvalatdan altı ay keçmişdi. İstirahət gününün birisində yolum tibb institutuna düşdü, "bacıoğlunu" xatırladım. Ümumi yataqxanaya getdim. Komendantı tapıb, Xosrovbəylini soruşdum.

– Bizdə eləsi yoxdur, – dedi, – Pənahbəyli var. Fərzəlibəyli də var. Bəlkə, Xasayevdir. Xosrovbəyli yoxdur.

Çoxdan orada paltar yuyan tatar arvadını çağırdı. O da tanımadı. Ev dəftərini gətirib, keçən ilin siyahılarını töküşdürüb yoxladım, tapdım. "Bacıoğlu" buradan köçmüşdü. APİ-yə getmişdi.

Çox axtardım. Nəhayət, onu APİ binasında tapdım. Bir sarısaç qızın əlini ovcuna alıb, xüsusi bir nəzakətlə danışırdı. Məzə verib, məzə alırdı. Şalvarının ütüsünə, qolundakı saata baxır, qıza da göstərirdi. Məni qız ilə tanış etdisə də, qız dayanmadı. Qız getdikdən sonra qoluma girdi, havaxtdan bəri məni axtardığını, dayısının mənim haqqımda etdiyi söhbətlər nəticəsində qayibanə məni sevməklə özünü bəxtiyar sandığını söylədi.

– Mən sizi tibb institutunda arayırdım.

O, dayısı kimi, sözümü bitirməyə macal vermədi:

– Eh, – dedi, – başıma qəzavü-qədər gəldi. Hələ mən idim ki, dözmüşəm. Çesni slova, qızlar qoymur ki, adam oxusun. Birisi dalımca düşmüşdü. Gördüm, biyabır olacağam, perevod aldım. Nə deyirsən, mən ölüm, stipendiyamı da alimentə verməyəcək idim ki...

Xosrovbəyli ilə bufetə çıxdıq. Məni buterbroda, qəhvəyə qonaq elədi, pulunu mən verdim.

Bu mənim Xosrovbəyli ilə ilk görüşüm oldu.

İkinci görüşüm 32-ci ilin avqustunda oldu. Bu dəfə o məni axtarmışdı. Kommunist küçəsində rast gəldik. Adəti üzrə qolumdan tutdu. Məxfi şeylər danışırmış kimi, qulağıma əyildi. Bir il içərisində Xosrovbəyli çox dəyişmişdi. Hər şeydən əvvəl ağzının ətrafında, burnunun qanadlarından başlayıb çənənin ucunda birləşən dairəvi cizgi əmələ gəlmişdi. Qaşları sallanmış, yanaq sümükləri çıxmış, sifəti kitab kimi bükülmüş, qol sümükləri sayılası olmuşdu. Bu nisbətdə səsi yavaşımış, gülüşləri səslənməz olmuşdu.



– Papağımı qarşıma qoyub fikirləşdim. Nə deyirsən, mən ölüm? Tutaq ki, indi mən APİ-ni qurtardım. Nə çıxacağam? Nesçasnı bir müəllim! Basacaqlar Dəstəfura. Halbuki, mən studentliyim ilə ayda üç yüz manat daş-baş eləyirəm. Özü də Bakının lap ortasında, nə istəyirəm, o saat, nə deyirsən, mən ölüm? Rayon hara, mən hara. Burada yalan satıb dolanaram, lap iyrənmişdim, AMİ-də sür-sümükdən bezmişdim. Burada da adamı çolma-çocuq ustası eləyirlər. Paçti şto niyanya olasan gərək. Beşgünlük əziz ömrünü gətir çürüt ki, nə var, mən uşaq öyrədirəm. "Düz otur, yanqılıçı yat." Nə deyirsən, mən ölüm?

Mən etiraz etdim:

– İkinci kursdan məktəbi buraxmağın adı yoxdur, zəhmətin hədər gedəcəkdir, – dedim.

– Yox, aşna, – dedi, – müəllimlikdən pəs. Doqumentlərimi almışam. İşimi də düzəltmişəm. İqtisad institutuna girirəm. Paqraynimer üç il zəhmət çəksəm də, olaram bir xozaystvennik. Qarın məsələsi həyat binövrəsidir.

Xosrovbəyli ilə üçüncü görüşüm yaxın günlərdə oldu. Deməyinə görə orada stipendiyasını kəsmişlər, müəllimlər "vicdansızcasına" onunla şəxsi-qərəzlik aparmış, kişini bir "mən ölümə" qurban etmişlər.

– Hamısı cəmdəyimə duvoyqa döşəmişdir. Yəni mən o qədər də olmadım ki, şotavotça da bilmədim? Vicdansızlığa bax ki, idman dərsindən də iki!

Mən güldüm. Müəllimlərin haqlı olduğunu və bütün taxsırların dərs öyrənməyən tələbədə olduğunu göstərmək, nəsihət eləmək istədikdə sözümü kəsdi, tələsik-tələsik doğradı-tökdü:

– Qorxma, lələşin bundan da qurtarmışdır. Onlar bicdirsə, mən onlardan da bicəm. Bir rəng vurmuşam ki, xınadan da betər.

– Nə etmisən?

– Nə edəcəyəm! Ərizəmi vermişəm universitetə, stipendiyası oradan artıq, elmi çox, adı böyük, özü də yalvarıb götürürlər. Təzədən başlayaram, zato əsaslı olar. Qaçestvo yaxşı olsun.

Xosrovbəylinin universitetə girib-girmədiyini bilmədim. Maraqlanmadım da. Lakin dünən onu tramvayda gördüm. Nə əynində ütülü şalvar, nə qolunda saatı, nə də yanında sarısaç qız vardı. Çəkməsinin burnu

yırtılmış, qurbağa ağzı kimi açılmışdı. Kürəyinin təri kömləyini qaraltmış, şapkasının qulağı sallanmışdı. Üzü tüklü, siması çox kədərli idi. Məni görəndə bir təsəlli tapmış kimi gözü, yaşardı. Yanıma gəldi:

– Səndən bir şey soruşacağam, – dedi, – letun nə deyən sözdür?

– Bunu nə üçün soruşursan?

– Ona görə soruşuram ki, böyük iş var. Bunda nə hikmət varsa, doqumentlərimin üstünə letun yazıldığından universitetdən geri qaytardılar. Hansı mərdimazar oğlu mənim evimi yıxıb. Letun nə deyən sözdür?

O çatmışdı, tramvay dayanan kimi, düşəcəkdi. Ayağa qalxdı, bir də soruşdu.

– Get evə, üzünü tərtəmiz yuduqdan sonra güzgüyə bax, – dedim.

Tramvaydan düşdü. Mən onun dayısının sözlərini xatırladım: "Həm doktor, həm incinar, həm müəllim, həm də aqronom olacaq..."

Tramvay getdi. O geridə qaldı.

*1934*



# GÖZ

–Yəhya Kamal! Böyük məscidə yolunuz düşsə, ayələrdən çox, bu adı oxuyarsınız. Qoca çinar ağacları gövdəsində, yağ tutmuş, kirli, naxışlı qapılarda, kəci qopan divarlarda iti xətlə, səliqəsiz yazılmışdır:

– Yəhya Kamal!

Yayda yeri cızar, qışda qarı sulayar, hər yerdən əlacı kəsiləndə dırnağını yalayıb yazardı:

– Yəhya Kamal!

Siz maraqlanıb, bu "möhür" sahibini tanımaq istəyəcəksiniz. Siz onu çoxdan tanıyırsınız. Az-çox ictimai yerlərdə əlaqəniz varsa, mərasimə, mitinqə, iclasa, kluba yolunuz düşərsə, onu gündə bir neçə dəfə görə bilərsiniz. Qoltuğunda qəzet, əlində işıldayan ağac, qolunda qırmızı, yazdırsa – döşündə bir çiçək, nə isə mızıldaya-mızıldaya yanınızdan ötəcəkdir.

Sizi maraqlandıran möhürün sahibi haman bu gödəcik, axsaq, yaraşıqsız adamdır.

Mərasimlərdə rəsmi adam olar. Qılçasını sürüyərək, tribunaya çı-

xar. Musiqidən qabaq salama durar, hamıdan sonra əlini salar.

Pioner bayramında özünü çox sərbəst hiss edirdi. Əlillərin nümayəndəsi bilib, ona tribunada yer vermişdilər. Günlüyü əzilmiş papağını günorta yerinə yeritdi, əlini gözü üstünə qoyub bir şüar da söyləmək istədi:

– Yaş...

Bir pionerin bulaq suyu kimi, duru və təmiz səsi Yəhya Kamalın şüarını ağzında qoydu. Pionerin salamı ilə bütün nümayiş dilə gəldi. Yəhya Kamal küsdü. Getdi. Evə gəldi. Dərdlərini unutmaq üçün güzgünün qabağına keçib, sifətinə baxdı. Bu gün bir qat da artıq qocalmışdı. Qırılıb tökülən çör-çöp palçıqlı yerdə nə qədər iz buraxırsa, onun qəlbinə dəyən bir şey üzündə eləcə qırışıq yaradırdı. Rəngi tutqun, gözləri dumanlı idi. Yaylığını çıxartdı. Dili ilə isladıb üzünü sürtdü. Sürtdükcə sifəti qızarırdı. Bunu təkrarladıqca, özünü on səkkiz yaşında bir gənc kimi görür, sevinir, bu rəngin tez dəyişdiyinə təəssüf edirdi. Adəti üzrə, başındakı ağ tükləri yolmağa başladı. Bu halda çox rəhmsiz olurdu. Səliqəli dirrikçi kimi, başının alağını tərtəmiz vurmaq, onu vaxtından əvvəl qocaltmaq istəyən "zəhrimarların" kökünü kəsmək istəyirdi. Birdən bir şey yadına düşdü. Durdu. Toz basmış mürəkkəbqabını yaxına qoydu, tərcümeyi-halına aşağıdakı parçanı əlavə etdi:

"Ta çocuqkən anamı qeyb etdiyimdən dolayı yetimliklə olmaması qeyri-qabildir. Ac durmaq, pis gündə oturmaq, təzyiqdən başqa bir şey deyildir. Mənimlə vəzihəml olan əsgər fərzəndanın xətti haşa-kəlla peyda olmamışdır. İştə, bu həqirin pərəstarı olmadığından, ona görə də şəbablığım qiyudat təhtində qərq olmaqda hənuz baqidir..."

Özündən razı halda evdən çıxdı. Gödəkcəsinin ətəklərini bir-birinin üstünə qoyub, bərk çəkdi. Əllərini çataqlayıb, yola düşdü. Başıaşağı gedirdi, fikirləşirdi. Gələcəkdə, əsrlər keçdikdən sonra tərcümeyi-halının məktəblərdə keçiriləcəyini təsəvvür edirdi. "Yəhya Kamal çox korluq çəkməyinə baxmayaraq, zəmanəsinin böyük müxbiri, düşüncəli adamı olmuşdur."

Hacı Əlinin evi yanına çatmamışdı ki, şırp dayandı. Yağı tükənmiş traktor kimi, donub qaldı. Mühüm bir səhv etmişdi:

– Ey dili-qafil, o nə idi mən yazdım: "Qiyudat təhtində qərq olmaqda hənuz baqidir."



– "Hənuz baqidir!"

Bu parçanı bir neçə dəfə təkrar edib, geri qayıtdı.

Yəhya Kamalı hərarət götürdü, tər basdı, ürəyi çırpındı. Tələsik evə gedirdi. Tez çatmaq, kibrit çəkib stolun üzərindəki "səhv" olan kağızı yandırmaq istədi. "Yandırmaq da yaxşı deyil. Baxan, görən olar. Yaxşısı budur ki, qara çernil ilə üstünü yaxşıca poz! Yox, onda bütün tərcümeyi-halımdan şübhələnərlər. Deyərlər, görəsən, nəyi var imiş, hərif qorxmuşdur. Kağızı ağzıma alıb çeynəməli, sonra çaya, bulanıq suya atıb axıtmalıyam..."

Yəhya Kamal evə çatanda, qonşusu Məşədi Səkinə xala onun evini süpürüb çıxmışdı. Məşədi Səkinə xala dul arvad idi. Yəhya Kamal onun kirayənişini idi. Onun evsizliyinə, şikəstliyinə yazığı gəlir, hərdən evini yır-yığış edirdi. Davud adlı bir komsomolçu oğlu da vardı. Yəhya Kamal evin süpürüldüyünü görüb təşvişə düşdü. Kağızın ələ keçdiyinə şübhələndi. Qapını tappıltı ilə divara çırpıb içəri girdi. Tərcümeyi-hal yerində, mürəkkəbqabının yanında idi. Lakin üstündəki təzəcə yazılmış vərəqə yox idi.

– Ay Məşədi Səkinə xala, burada bir kağız gördünmü?

– Yox, a bala, bir şey görməmişəm.

– Uzun kağızdır.

– Yerdə xırım-xırda kağızlar vardı. Süpürüb atdım.

– Bəs ha tərəfə atdın?

– Odur, zibil yeşiyində.

Yəhya Kamal bir həftəlik zibili alt-üst etdi. Yerkökü, dəri parçası, papiros kötüyü, kartof qabığı, çörək xırdası, ərik çərdəyi, öküz aşığı, cındır tapdı, ancaq "söz səhvindən" əsər görmədi. Canına lərzə düşdü. Həyəti başdan-ayağa dolandı. Darvazaya baxdı, küləkdən şübhələnib on addım da küçəni axtardı: yoxdu ki, yoxdu!

– Məşədi Səkinə xala, Davud evdə idi?

– Hə, gəlmişdi. Bilmədim nə işi vardı. Gəldi, tez də qayıtdı, getdi.

Bu söz Məşədi Səkinə xalanın ağzından çıxmamışdı ki, Yəhya Kamalın dizi qurudu, rəngi zəfərana döndü. Dili tutuldu. O saat xəyalına gəldi ki, "materiyal gəlib." "Özüdür ki, var! Mərdimazar oğlu yəqin gö-

türüb, kəndimizi, əsil-kökümü xəbər veriblər. Qulaq balası filan yazıblar... Davud da axtardığını tapıb."

İçəri girdi. Otuzillik tərcümeyi-halını bürmələyib cibinə basdı. Dinməz-söyləməz həyətdən çıxdı.

■ ■ ■

Köçəmirli kəndi yaylaqların yaylağıdır. Dəmiryoldan səksən kilometr uzaqdı, təpəsindən qar əskik olmayan dağların ətəyində xəlvət bir dərəyə sərilmişdir. Yəhya Kamal dərd yoldaşı Diləni deyib gəlmişdi.

Vaxtilə komsomolların əlindən dilə-dişə düşən Dilən kənddən-kəndə köçmüş, nəhayət, Köçəmirlidə bənd olub qalmışdı. Kolxoz sədası buralara gəlib çıxanda, o, kooperativi buraxıb qabağa düşdü:

– Gəlin, ay camaat, hökumətimiz dediyi yola! Birinci kolxoza mən yazılıram!

Yəhya Kamal ondan-bundan soraqlaşıb. Dilənin mənzilinə gəldi. Dilən onun boynunu qucaqladı, çox da sevindi. Xəlvətlik idi. Dilən dil açdı:

*Ey vətəndən gələn el aşınası!*
*Şadlıqmıdır gətirdiyin payamın?*

Yəhya Kamal da şair kimi cavab verdi:

*Yoxsa, o yerləri düşmənlər almış,*
*Sən deyənlər dönüb xərabə qalmış...*

Arxayın olmaq üçün Dilən pəncərəni açdı. Çölə çıxdı. Qapını eşikdən qıfıllayıb, pəncərədən içəri girdi. Dostlar "cırıldayan taxta" yastıqlanıb, çox yavaşdan, lakin şirin-şirin dərdləşirdilər. Yəhya Kamal çox təzə xəbərlər gətirmişdi:

– Səndən sonra Hüseynqulu uşağını yaman günə qoydular. Şükürü öldürənlərin işi açıldı. Girmançə Qulunun gədəsi ilana dönmüşdü. Bir günün içində hökuməti kəndə tökdü. Mən gecə bağların içindən cırdım...



Yəhya Kamal dedikcə ah çəkirdi. Dilən eşitdikcə ürəyinin yağı əriyirdi. Öz qəlbində bu işlərin axırı necə olacağını düşünürdü. Bir müddət evi sükut basdı. Eşikdə səs-səmir kəsildi. Gecə keçdiyini hiss etdilər. Dilən ona təsəlli verdi:

– Hələ, ay eloğlu, buralar pis deyil, dinclikdir. Adamlarından da mən o qədər qorxmuram. Var ha! İçində vələdüzzinası çoxdur. Ancaq ki, məni tanımırlar. İşi elə salmışam ki, "niçevo!" Sən ayıq ol. Özünü bir tanıtsan. Ümid Allahadır ki, sovular. Ondan sonra da nə işimiz var, şəhərdə-zadda, arığın nə işi qoruqda ki, qıçını sındırsınlar! Burada kimdir səni-məni itirib-axtaran, ay rəhmətlik oğlu!

## II

Yəhya Kamal kolxoz idarəsində katib vəzifəsinə başladı. Nə başladı! Sabah açılmamış darvazanı açıb oturur, papirosunu tüstülədərək, işləri fikirləşirdi. İdarəyə gələn kolxozçulara stul çəkir, tanısa da, tanımasa da əhvalpürsanlıq edirdi:

– Necəsən? Nə var, nə yox? Arvad-uşaq nə qayırır? Lap yaxşısan ki? Şükür!..

Çox çəkmədi Yəhya Kamalın tərifi dildən-dilə düşdü:

– Kəndə heç belə katib gəlməyib! Kişi kəndçinin qanına bələddir.

Bunlar Yəhya Kamala daha da ruh verirdi. Söz arasına salıb camaata bildirirdi:

– A sağolmuş, kolxoz saxlamırsınız ki, bu nədir? İdarədə qəzet yox, şəkil yox, stul qırıq... Gələydiniz, Bakıda bizim kolxozu görəydiniz, nə dəsgah başlamışam...

O, Bakıdan danışdıqca camaatın gözündə daha da böyümək istəyirdi. Çobanlar çomağına söykənib biri o birisinə pıçıldayırdı:

– Yaman adamdır! Bakıdan deyiblər ki, gərək gedib Köçəmirlini düzəldəsən...

Yəhya Kamal komsomolçuların divar qəzetinə də bir məqalə yazdı. "Kəndli" qəzetinə abunə yazıldı. Yanvarın 5-dən ilk qəzeti aldı. Qəzetin üstünə balaca bir adres kağızı yapışdırmışdılar. Yəhya Kamalın adı

çap hərflərilə aralı-aralı yazılmışdı. O, qəzetin möhürlü tərəfini üstə qatladı. Gəlib- gedənə göstərdi:

– Buyurun, oxuyun! Bakıdan mənə liçni göndəriblər.

Qəzetə abunə yazılandan sonra müxbirlik qələmini itilədi. Redaksiyanın müxbirlərə göndərdiyi anketdən birini poçtdan ələ keçirtdi. Bu anketi də kəndin başbilən adamlarına, komsomolçulara göstərdi.

Məsmə qarı, ispalkomun nəyindənsə narazı idi. Dilən onun qulağına çatdırmışdı ki, katibə deyinən, qəzetə vursun. İspalkom olanda, nə olar. Atasını yandırarlar. Məsmə qarı darvazada camaatın içində Yəhya Kamala yalvarıb deyirdi:

– Qadan alım, a katib, bildir, Səlmanı gərək qəzetxanalara yazasan. Yaz ki, əlsiz-ayaqsızı dolanmağa qoymur.

Yəhya Kamal stulunda burcuxdu, ağır-ağır danışdı:

– Düzələr, düzələr, ay Məsmə xala! – dedi və inandı ki, o artıq müxbirdir. Bunu bütün kənd bilir. Belə bir özünütəmindən sonra camaata eşitdirdi:

– Müxbir dediyin hökumətin gözüdür, amma çifayda, bizim aramızda qədrini bilən hanı? Qəzetxanalarımız dəfəatla deyirlər: yaz, yaz! Di gəl, mən istəmirəm yoldaşlar ilə olam üz-göz. Nə lazım inciklik...

Yəhya Kamal anketi qabağına qoyub doldurmağa başladı. İki sual ona çətin gəldi. Qələmi mürəkkəbqabına söykəyib düşündü, düşündü... Bir papiros tüstülətdi. Durub gəzindi. Yenə də bir şey çıxmadı. Ayaq üstə əyilib bir də diqqətlə baxdı:

– Sizin ictimai mənşəyiniz...

Nəhayət, nöqtələrin üzərində yazdı: "Fəhlə."

Bu sözü o elə cəsarətlə yazdı ki, deyəsən, bayaqdan məəttəl qalan, baş sındıran heç o deyilmiş. Dalısını davam etdirmək istəyirdi. Yenə dayandı, baxdı, geri çəkildi, indicə yazdığı "fəhlə" sözünə acıqlı-acıqlı baxdı. Canına üşütmə gəldi. Qulağı cingildədi, ayağa durdu: "Fəhlə..." "Qəzayi-rəbbani, bəlkə qəzetxanadan soruşdular ki, ay filani, sən harada fəhlə olmusan? Buna şahidin, sübutun hanı?" Bu sual Yəhya Kamalı ayıltdı. Qələmin ucundakı lomba mürəkkəb ilə fəhlə kəlməsinin üstünü örtdü.

"Bəs nə yazmaq? Yazarsan, fəhləyəm, sabah içindən iş çıxar. Yazarsan..." Yəhya Kamalın fikri qarışdı: qolçomaq, alverçi, yüzbaşı, molla... Bu sifətlərin hamısı nəzərinə gəldi. Qaşını çatdı, dodağını gəmirib bunları yadından çıxaranda, sualın qabağında yekə bir qara ləkə gördü. Ləkə o qədər böyük idi ki, o biri sualları da örtmüşdü.

"Bu qara nədir? Ləkə nə deyən sözdür? Bu nə cavabdır?"

Yəhya Kamala elə gəldi ki, bu sualın doğru cavabı öz-özünə anketə yazılmışdır. Redaksiyaya gedəcək, oxuyacaqlar. Köçəmirli kəndinə məxfi məktub yazıb onu "dərdəst" edəcəklər... Dəhşətdən ayağa qalxdı. Evi nəzərdən keçirdi. Kənardan sualın qabağına baxdı. Heç nə yazılmamışdı. Yan-yana düzülən nöqtələr fağır-fağır durur, cavab gözləyirdi.

Yenidən stula oturdu. Lampanı yaxına çəkdi. Qələmi batırıb ürəyində "bismillah" dedi. Əlini kağıza tərəf aparanda ləkəni gördü. Ləkə daha tünd-qara, qatı və iti idi. Ləkə yalnız ictimai məişətində olsa, dərd yarı idi. Anketi doldurmuş, adını, yaşını və stajını da tutmuşdu. Belə anketi, Allah eləməmiş, qəzetxanada görsələr, qırmızı xətt ilə üstünə yazacaqlar:

– Siyahıdan silinsin!

Yəhya Kamal arxasını kürsüyə söykəyib halsız düşdü. Ümid və arzuları qırılan daşdan qopan toz kimi göyə sovrulurdu. Üzünü çevirdi, anketə baxmaq istəmədi, gözü divardan asılan plakata sataşdı. Orada qalstuklu bir pioner "Kəndli" qəzetini uzadıb deyirdi:

"Kəndli, kolxozçu yoldaşlar! Öz qəzetinizi oxuyun və ona müxbir olun."

Həmişə bu kağıza baxıb, ruhlanan Yəhya Kamala indi pionerin dedikləri yabançı gəldi. Üzündə acı bir təəssüf doğdu. Ürəyindən keçdi ki, "nə kəndlibazlıqdır? Motalpapaq Əyyubmu, qazan qarası ilə qol çəkən Bəndalımı sənə müxbir olacaq? Budur, yazılmaq istəyirəm. Nədir? Bu ləkə nədir? Qoysana yazılım! Məndən xeyir görərsən. Xeyir ver!" Gözünün ucu ilə yavaş-yavaş anketə, ləkəyə baxmağa başladı. Diqqət edəndə, ləkədən əsər görmədi. Sual yerində idi. Nöqtələr təsbeh kimi düzülüb cavab gözləyirdi. Heyrət onu aldı:

"Nə tövr olur? Bir şey görmürəm." Gözlərini ovxalayıb bir də baxdı... Gözünü lap sualın qabağına zillədi. Heç nə yox idi. Ancaq qaraladığı sözün böyründən münasib bir cavab yazmaq lazım idi. Bu dəfə o

səbirlə tərpəndi. Qələmi mürəkkəbdən ayıranda, birdən kağızın üzərinə yıxılmadı. Yavaş-yavaş yaxınlaşdı. Deyəsən, yumru ləkə yenə anketin üzərində tərpənirdi. Birdən anladı, başına qapaz vurub güldü. Sevindiyindən əlini əlinə çaldı, ayağa qalxdı. Burnunun kölgəsi az qala, onun zəhrini yarmışdı.

O bir də fikirləşdi. Başqa cavab tapa bilməyib, qaraladığının böyründən yazdı:

"Fəhlə!"

Ona elə gəlirdi ki, heç kəs bunu rədd edə bilməz, fəhləliyini isbat üçün heç nə yoxsa, fəhlə olmadığını isbat üçün də bir şey yox idi:

"Deyərəm, buyur sən isbat elə ki, mən fəhlə yox, burcovoyam. Kim məni tanıyır? Kənddən sorağım gəlincə dabanlarımı yağlayıb, on dağ aşaram." İkinci sualı bir də oxudu:

"Sizin firqəyə mənsubiyyətiniz."

Burada o, tərəddüd etmədən belə bir cavab yazdı.

"Firqə ilə əlaqəmiz sıxdır. Ürəkdən çisti kommunist olmağıma dair vəsiqələrimi lazım olsa, təqdim edərəm." Burada o, kolxoz sədrindən aldığı mükafat vərəqəsini və divar qəzetində "gələcək həyat" barəsindəki məqaləsini nəzərdə tuturdu.

Anket hazır idi. Qatlayıb, paketə qoydu. Cib dəftərindən bir şəkil çıxarıb əlavə etdi. Paketin yapışqanını yalayıb bağladı, kənarına bir manatlıq marka döşədi. Üstünü həm azərbaycanca, həm rusca yazdı:

"Bu məktub Bədkübə şəhərində "Kəndli" qəzetxanasında möhtərəm müdir əfəndilərə vüsul olacaq. Zəhmət buyurub təvəqqe edirəm, qəbul olmağımı yazasınız.

Qrod "Badkuba" qəzetxana "Seleniy" doroqoy ziverdişi."

Səhər tezdən Yəhya Kamal məktubu poçt işçisi Aslana verdi və bərk tapşırdı ki, "sroşni" şeydir, gərək tez gedə. Yəhya Kamal öz xəyalında məktubun hərəkətini yoxlayıb müəyyən etdi ki, yeddi günə qədər qəzetdən cavab gəlməlidir; çünki o xüsusi bir rica da etmişdir.

"Qoy adım rəsmi dəftərə düşsün. Hökumətin gözü olum bir!.. Mən bilirəm, nə edəcəyəm."



## III

Yəhya Kamal Diləndən bir şey öyrənmişdi. Bu fikirə gəlmişdi ki, nə qədər kefi saz olsa da, paltarını dəyişməsin, gözə girməsin. Köhnə, büzük, yaraşıqsız paltarına baxdıqca, Dilənin taxt üstündə verdiyi məsləhət qulağında səslənirdi:

– Gözə girmə. Qoy sənə "yazıq" desinlər. Zəmanə yazıq zəmanəsidir!

Bununla bərabər bir şeyə dözə bilməyəcəkdi:

– Paltarları desən, yaxşı, cırım-cındır gəzərəm.Yeməyi deyirsən, xəlvətdə! Ancaq ki arvadsız işim keçmir. Sabah qışın günündə mən tək dolanamı bilərəm?

Xüsusən Ballı arvadla tanış olandan sonra Yəhya Kamalın səbri kəsilmişdi. Dilənin qolundan sallanıb yalvarırdı:

– A qibləsiz, bu işi birtəhər eləyək. Axı səssiz-küysüz... Nə var ki!..

Əri ölmüş, lakin hələ sulu, cavanca bir gəlin olan Ballının kəbini kəsildi. Cümə axşamı o, "bismillah" deyib, dikdaban çəkmə ilə Yəhya Kamalın mənzilini şənləndirdi.

Beləcə günlər gəlir, keçir, mübarizə davam edirdi. Qolçomaqların bir sinif kimi aradan qaldırılmasından hər yerdə danışır, yazırdılar. Yəhya Kamal da işlərin içində idi. Bəlkə də hündürdən danışan idi. Dilənin sayəsində yeyib dolanır, gün-gündən stajını artırır, hökumətə "yaxınlaşırdı". Kolxozda arxası möhkəm, ispalkomla arası yaxın idi. Onun ehtiyatı yalnız komsomolçulardan idi. Bir gün iclasda katib idi. Protokol yazırdı. Nə təhər oldusa, özək katibi Həmid kağızı onun əlindən aldı:

"Aşna, səndən gözüm su içmir".

Bunu nə sarıdan deyir? Yəhya Kamalı fikir götürdü. İstədi, Həmiddən soruşsun, dili gəlmədi. Təşvişlə evə qayıtdı. Təzə aldığı arvadı xoruldaya-xoruldaya qoyub durdu. Köynəkcək stolun altına girdi. Toz basmış, çarıq bağı ilə sarıqlı bir kağız boxçası çıxartdı. Açıb bir-bir baxdı:

"Bu mənim Qobu kəndində katib olmağıma dair kağızım. Bu rayondan gələn qəzet ki, üstündə peçatlı adım. Bu mənim osoaviaximim. Yardıma və hökumətə üç manat vermişəm. Bu da onun arayışı. Mənim

nəyimdən gözün su içmir? Deyən ola, ay anasının oğlu, işçinin qəlbinə niyə dəyirsən? Niyə qoymursan çaq-çuqqumuzu eləyək? Mən kimə nə eləmişdim?.."

Yəhya Kamal siçan kimi kağızlar arasında o qədər xışıldadı ki, Ballı yuxudan durdu. Kişini görüb, heyrət etdi:

– A ciyərin yanmasın, sətəlcəm olarsan, bu nə gündür?

– Yox, gərək mən o vələdüzzinaya bildirəm ki, kiməm...

Nə oldu, məndən şəhərdəkilərin gözü su içir, nə oldu, qəzetdə oturan partinilərin hamısı məni tanıyır. Dərənin burnu fırtılıqlısı məni ləkələyir?

Yəhya Kamal titrək səslə danışır, vəsiqələri qatlayıb, üst-üstə qoyurdu. Ballı qalxdı. Daldan onu qucaqlayıb, yorğan-döşəyə saldı.

– Sənə deyirəm, kürəyini soyuğa verərsən? Yat! Sabah mən də danışaram. Bərkə qalsa, lap rayona da gedərəm.

– Yox, canım, rayon-zad lazım deyil. Elə bir ispalkom çağırıb ağzına vursa, bəsdir.

Çox çəkmədi ki, Ballı şirin yuxuya getdi. Üfürə-üfürə xoruldadı. Yəhya Kamal isə pəncərədən sivişib, ötən ay işığına baxır, papirosu qaranlığın qəlbində işarır, sönürdü. Gözünə bir çımxır da yuxu getmədi... Qəzetxanadan da cavab gəlməməsi ümidlərini puça çıxarırdı. Fikirləşirdi ki, "deyəsən, bu müxbirlik kitabçasını ala bilməyəcəyəm..."

Havalar gün-gündən soyuyur, qış gəlir, uzun gecələrdə dedi-qodu çoxalırdı. Köcəmirli kəndi noyabrda qar ilə örtülür, yer donur, soyuq qulaqları göynədir, suların üzərində daş aynadan körpü dururdu. Qızlar, gəlinlər kartof yığmaqdan, odun eləməkdən evlərə çəkilir, qoyun yunundan corab, palaz toxuyurdular.

Bu il mal-qaranın məhsulu kolxoza gəlmişdi. Beş yüz qoyunun südqatığı, yağ-pendiri kolxozun əlindən gəlib-gedirdi. Yəhya Kamalın qələmi qılınc kimi kəsir, sözü daşdan keçirdi. Söz düşəndə, o, kolxoz üzvlərinin qulağına çatdırırdı:

– Kolxozumuz yaxşı qüvvəli olacaq. Bu var ki, hələ tezdir. İlkindir. İlk ili qaydadır, hər yerdə zərər eləyir...

Kolxoza on bir qoyun gətirən Zindalı kişi bunu eşidəndə, lap ikitəhər, birtəhər oldu:



– Yəhya, hələ bu nə deyən sözdür? Sənin deməyindən bu il bemuzd olacağıqmı?

Yəhya Kamal təcrübəli adam kimi, Zindalını "başa salırdı":

– Yox, mən elə söz məsəli dedim. Bemuzd niyə olur? Axı təzədir.

– Təzə-məzə bilmirəm. Mən işləmişəm, ya yox?

– İşləməmisən, bəs neyləmisən?

– İşləmişəm, bəs bunun haqqı hara gedib? Üç baş adam...

– Yox, mən deyənə mülfətit olmadın, dayı. İş belədir ki, kolxoz təzədir. Tutaq, belə kolxoz olmasın, ol sən, Zindalı dayı...

– Mən olum!

– Xub, sən deyək ki, arandan köçüb, burada bina salırsan. Yer-yurda, ev-eşiyə zəhmətin gedəcək, ya getməyəcək?

Zindalı kişi susmağını yersiz gördü:

– Gedəcək, gedəcək, buna nə söz!

– Belə olan surətdə necə bilirsən? O kolxoz qurmağı ki, gələcəkdə bir kəndin çörək ağacı ola, oradan sənin çörəyin, paltarın, yeməyin, qəndin, məktəbin, hamamın, balnisan gələ.

– Gələ!

– Bu gəlməklə, yəni belə bir iş başlamaqda birdən-birə qazanc eləmək olarmı, canım? Axı bu işi biz bilirik, neçə yerdə kolxoz qurmuşuq. İş başlamışıq, hər şeyin haqq-hesabı var.

Yəhya Kamal sözünü bitirməmiş, Zindalı dilləndi:

– Mən qanmadım, Yəhya lələ!

Yəhya Kamal söhbətin ciddi şəkil almağından çəkindi. Ayağa durub, ətəklərini çırpdı:

– Bu dəftər-kitab məsələsidir. Əzbərdən çətindir. Mən də bilmirəm.

## IV

Aylar dolandı. Yəhya Kamalın Köçəmirli kəndində dörd aylıq iş stajı tamam oldu.

Yanvar ayının başlanğıcında xəbər çıxdı ki, on beş günəcən kolxozun haqq-hesabı çəkilsin, gəliri müəyyən edilsin.

Yəhya Kamal bu xəbərin təşviş və həyəcanından sakitləşməmişdi ki, qarları basa-basa, dağları aşa-aşa iki nəfər təhkimçi işçi gəldi.

Onlar ispalkomun evinə düşüb kolxozun dəftər-kitabını istədilər. O gecə nə Dilən, nə də Yəhya Kamal yatdı. Belə nagahanı bir qorxunu birtəhər başdan eləmək üçün səhərə qədər oturdular. İşləri hazırladılar.

Şəhərdən gələnlərin biri cavan, qarayağız, arıq oğlandı. O birisi sarısaç bir qızdı. Üzünə baxanda, rus deyərdin. Danışanda xalis azərbaycanca danışırdı. Yəhya Kamal əvvəl elə bildi ki, əsl gələn arıq oğlandır. Qız isə yolda ona "squçnı" keçməsin deyə gəlmişdir. O, bir kənarda oturub güləcək, əziləcək, arıq oğlan ləzzət alıb işin ağırlığını hiss etməyəcəkdir. Yetirən kimi, iki əlini arıq oğlana uzadıb tanış oldu:

– Nökəriniz Yəhya Kamal!

Bu sözü müstəsna tabelik ifadəsilə deyib ikiqat oldu. Birinci gün haqq-hesaba oturanda, ispalkomun evində tünd çaylar süzülür, stəkanlar dolub-boşalırdı. İspalkomun arvadı Sayalı xala da o biri evdə xörək hazırlayırdı. Qovurmanın iyi Yəhya Kamalı damaq etmişdi. Arıq oğlan – Zahidov deyirdilər – çayını nəlbəkiyə tökə-tökə üzünü Dilənə tutdu:

– Gətir, – dedi, – başlayaq görək.

Dilən ayağa qalxdı. İstədi, bayıra çıxsın. Bir də yadına düşdü ki, işlər budur, buradadır, Yəhya Kamalın qulağının dibindədir. Yəhya Kamala işarə etdi:

– Gətirək də!

Yəhya Kamal dizi üstə oturmuşdu. Dik qalxdı. Kamodun üstünə qoyduğu dəftər-kağızı iki əli ilə qucaqlayıb yenə diz çökdü. Arıq oğlanın üzünə baxdı.

– Deyirəm, yoldaş Zahidov, meşayit olar. Qoy çay-çörəyi yığışdıraq, birkərəmə başlayaq.

Zahidovdan qabaq ispalkom əlini endirib etiraz etdi:

– A kişi, nə meşatı var, bəri ver! Ağzın yesin, əlin işləsin, dana!

Zahidov da şərik oldu.

Çay dəsgahına hesabat dəsgahı da əlavə olundu. Yəhya Kamal dəftərini açıb başlamaq istəyirdi ki, ispalkomu çağırdılar.

– Alı kişi, evdəsənmi?

İspalkom qapını açdı.



– Gəl, a Zindalı dayı.

İçəri girdi, oturdu. Çubuğunu doldurdu. Yəhya Kamalın dəftər-kitabına baxmağa gəlmişdi.

Zahidov əvvəlcə nədən başlamaq lazım olduğunu dedikdən sonra bir əmr kimi işarə etdi:

– De gəlsin!

Yəhya Kamal oxuyur, sarı qız çotkəni salır, Zahidov balaca, qara dəftərinə qeyd edirdi:

– İdarəyə gəlib, daxil olub, ərz olsun qulluğunuza, siyahı üzrə yağdan altı yüz manat, pəndirdən yüz yetmiş iki manat əlli iki qəpik yarım. – Yəhya Kamal dişini ağardıb Zahidova baxdı: – Hərçənd ki, yarım qəpiyin mahiyyəti bir şey deyil, amma ki, hesab dinar-dinar. Qoyun dərisi 63 manat 3 qəp., yun 89 manat yarım. Yenə pəndir. Müəllimlərə satılıb, 27 manat iki abbası. Canım sənə desin, ərz eləyim ağanın qulluğuna, yenə yağ 51 manat on dörd şahı, 4 ay ərzində kolxozda 1200 manatlıq məhsul satılıb. Bunun müqabilində, ərz olsun, məxaric ordelləri belədir. Sal ora, – deyə Yəhya Kamal dəftərə baxdı. Saymazyana oxudu. – Sal ora: azarlı qoyunlara dərman 75 manat, sal, 300 manat Oktyabr bayramında çalğıçılara. Yox, yox səhvən oldu, bağışla. 289 manat 87 qəpik olub, çünki onlardan prosent çıxılır. Sal ora, ot biçəndə çörək bişirdik. Üzünə çəkmək üçün yumurta 86 manat 49 qəpik yarım.

Zahidov dəftəri Yəhya Kamalın əlindən aldı. Vərəqləyib baxdı. Zahidov bərk tutulmuşdu. Sarı qız gülümsəyirdi. Yəhya Kamal başıaşağı dəftərə baxır, sanki itirdiyi bir hesabı axtarırdı...

– Yoldaş Dilən, bu pullar kimin qərarı ilə xərclənib?

Dilən diz çöküb cavab verdi:

– Necə ki qaydadır. Qoymuşuq heyətdə. Heyət qərara gəlib ki, bəli, bu şeyə filan qədər vermək olarmı, verməsək, kolxozun işi aşarmı... Qərar var, protokolları da... – Üzünü Yəhya Kamala çevirib dedi: – Yazılıb, necə ki var.

Zahidov soruşdu:

– Haradadır o protokollar?

– Bizdədir, lazım olsa...

– Gətir, lazım olub...

Yəhya Kamal protokolların dalınca gedəndə, yolda çəkməsi çıxdı. Əlinə alıb qaçdı. Onun Köçəmirlidə belə qaçmağı birinci dəfə idi. Qarı xırtıldada-xırtıldada dağın döşündə idarəyə tərəf yüyürürdü.

O, tərli, ləhləyə-ləhləyə qayıdıb içəri girəndə özək katibini də ispalkomun evində gördü.

Zahidov protokollara baxıb, Həmiddən soruşdu:

– Sən zurnaçılara 300 manat verən iclasda...

Yəhya Kamal onun sözünü kəsdi:

– Xeyr, yoldaş, 300 manat deyən yoxdur. Olubdur 289 manat, haqq-hesab düz gərək.

Zahidov sualını bitirəndə, Həmid başını tovladı:

– Ay canım, niyə elə söz danışırsınız. Onların hərəsinə bir göy üçlük verildi, mənim yadımdadır. Şotu bəri elə görüm!

Şot əldən-ələ gəzdi. Yəhya Kamal and-aman elədi:

– Vicdan-məsləkimiz haqqı. Necə ki var, əmək günü yazılıbdır. Qəpik o yan-bu yan olsa, vicdanım itin olsun.

Zahidov kağızları qatlayıb, cibinə qoydu.

– Belə olmayacaq, aşna! Yoldaş Dilən, bu şotlarda adı olan kişilərdən öləni varmı?

Dilən tərəddüdlə Yəhya Kamalın üzünə baxdı:

– Yox, – dedi, – gərək ölüb-itən olmasın. O var ki, tapmaq çətin olacaq.

Zahidov üzünü ispalkoma tutdu:

– Alı dayı, yaz bu siyahını, götür. Haradan olsa, bu adamları tap, yoxlayaq sabahacan! Bu nə haqq-hesabdır?

Alı kişi əl-ayağa düşdü. Yəhya Kamalın yaxasından yapışdı.

V

İclas çox basabas idi. İynə salmağa yer yoxdu. Adamlar üst-üstə oturmuş kimi idi. Hamı iclasın açılmasını səbirsizliklə gözləyirdi. Lakin nə Dilən, nə Yəhya Kamal tapıldı. Onlar qaçmışdılar. Bu xəbər iclasa gələnləri şübhəyə saldı. Hamı arıq oğlanın açdığı işləri görmək istəyirdi.



Pıçıltı, söhbət, öskürək bir-birinə qarışıb, böyük ispalkom idarəsinin tüstülü havasında əriyirdi. Alı kişi açar ilə stola döyəndə səslər xırp kəsildi. Alı kişi Köçəmirli kolxozçularının ümumi iclasını açıb, sözü arıq oğlana verdi.

Arıq oğlan asta-asta, kəlmə-kəlmə danışırdı. Həmid və milis Heydər içəri girdilər. Həmid adamları basa-basa keçdi. Arıq oğlanın qulağına nə isə pıçıldadı. Arıq oğlan başını tərpədib razılıq verdi.

İçəriyə iki qara çadralı arvad gətirdilər. Onlara pəncərənin qabağında yer edildi. Heç biri bu kənd adamına oxşamırdı. Üzlərini bərk-bərk tutmuş, başlarını aşağı salmışlar.

Bunların kim olduğu, nə üçün kolxoz iclasına gəldikləri hamını maraqlandırırdı. Him ilə adamlar bir-birindən soruşurdu:

– Bunlar kim ola?

Zindalı dayı pəncərənin qabağında durub özünü arvadlara tərəf verdi. Üzlərini görmək istəyirdi.

Arıq oğlan məruzəsini qurtarırdı. Müqəssirlərin qaçmasından danışanda şəhadət barmağı ilə qara çadralı qadınları göstərdi. Heydər bu anda çadranı onların başından çəkdi.

Hamını heyrət götürdü. İclas bir müddət susdu. Bunlar, səhərdən bəri kənddə tapılmayan, qaçıb itmiş Dilən və Yəhya Kamal idi. Zindalı kişi diksinib qırağa çəkildi. Yetim Əkbər nə dedi, nə qandırdı, Dilənə bir qapaz ilişdirməyə dartındı. Onu geri itələdilər. Kim isə dilləndi:

– İlanın başını niyə əzmirsiniz?

– Öldürün bu canavarları!

Quzu Allahyar cavab verdi:

– Arvad xeylağı ilə nə işiniz var!

Bu söz Telli xalaya xoş gəlmədi.

*1934*

# "MATIŞGƏ"

Məşədi Hənifə şəhərə yaxın kəndlərdən birində yaşayırdı. Yayda biçinə gedər, qışda kənkanlıq edər, payız vaxtı kürəxanalarda günəmuzd kərpic kəsərdi. Arazı bu taya keçəndən sonra Məşədi Hənifə bütün qorxu və qeydlərdən qurtarmışdı. Onu aylarla işlədib, pulunu kəsən, biyara çağıran, qamçılayan xan və mirbaşılardan canı qurtarmışdı.

Şəhərə çox az gələrdi. Xüsusilə, bu dəfə İrandan gələndən sonra Bakını heç görməmişdi. Bircə dəfə "şuluqluq" vaxtlarda gəldiyi idi.

■ ■ ■

Məşədi Hənifə maşından düşdü. Küftə, çörək qoyduğu və arada "şey-şüy" almaq üçün götürdüyü xurcunu çiyninə atıb şəhərə çıxdı. Həyat qaynayırdı. Bakı, nə Bakı! Avtomobillər quş kimi süzüb gedirlər. Nə kəndliləri lağa qoyan baqqallar, nə dərviş mərəkəsi, nə də çarvadarların səsi var. Yeni tikintilər baş atıb, göyə çıxır. Tramvaylar ildırım kimi şığıyıb, ötür. Məşədi Hənifə heç yeri tanıya bilmirdi. Elektrikdən qorxan adamlar kimi, döyüküb qalmışdı.

Çiyni-başı açıq bir "matişgə" ona əl elədi:

– Bura gəl!

Məşədi Hənifə çox sevindi. "Onsuz da haçandan bəri keyfə çıxmıram. Kəbinli arvadın nəfəsi adamı əridir. Haramın ayrı ləzzəti var".

Məşədi Hənifə "matişgənin" dalınca gedirdi.

Matişgə cavan, həm də gözəldi. Rusa oxşamırdı. Qara saçları və qaşlarına baxanda adam deyirdi, müsəlmandan qarışığı var. O, bir "matişgəyə" baxdı, bir də öz qədd-qamətini süzdü. Onda Rəşt arvadlarını cəlb edəcək bir yaraşıq yox idi, onda qalmış ki, belə qəşəng "matişgə" ola...

– Skoreye!

Məşədi Hənifə rusca bilməsə də, az-çox başa düşürdü. Yaxşı anlayırdı ki, "isqəri", yəni tez ol, yubanma deməkdir. Matişgənin "isqəri" sözü, sarı yağ kimi Məşədi Hənifənin canına yayıldı. "Zalım qızı nə həvəsli şeydi..."

Onlar tramvay xəttini keçir, izdihamı yarıb ötür, heç bir şeyə baxmırdılar. Məşədi Hənifə cibini yoxladı. Ürəyinə gəlirdi ki, "Allah göstərməsin, bu arvadlarda həya yoxdur, adamı biabır edərlər". Qoltuq cibindəki puldan on manat ayırıb, yan cibinə qoydu. "Qalan pulu matişgə görməsin, – dedi. – Bunu verərəm, çığır-bağır eləsə – yeyboq neto – deyərəm."

O, bir istədi, "matişgənin" qolundan tutsun, yadına düşdü ki, o pişik addımı ilə gedir. Onunla yeriməyə hər adamın ayağı yatmaz. "Hamısı birdir. Qoy yerinə çataq, tələsmək nə gərək".

Matişgə döndü, Məşədi Hənifəyə nə isə dedi.

Məşədi Hənifə bir şey başa düşmədi. Gülə-gülə "baruski niznayim" deyə bildi. Matişgə əli ilə işarə edərək, yarı rusca başa saldı:

– Pastel, yorqan, znayeş, yatır?

Məşədi Hənifə anladı ki, "matişgə" deyir: "Yorğan-döşək də var, yatmaq istəyirsənmi?" Sevincdən çiçəyi çatladı. "Matişgəni" qucaqlayıb, öpmək istədi.

– Da, matişgə bacı, isbal, isbal! Canım da qurban. Xərəşo xanım. Malades matişgə.

Getdikcə yol uzanırdı. Məşədi Hənifə tələsdiyindən addımlarını elə

bərk atırdı ki, az qalırdı, yer tərpənsin. Onlar uca və böyük bir binanın qapısına çatdılar. Dördüncü qatda pəncərələrdən bəzəkli pərdələr asılmışdı. Balqonlarda güldanlar, limon ağacları vardı. Tar səsi gəlirdi. Məşədi Hənifənin ürəyi döyünür, tələsirdi. "Pulun ola, bu xanımın yanından heç getməyəsən."

Pilləkənlərdən çıxdılar. "Matişgə" bir bəzəkli otağa girdi. Döşəmənin ortasında bir yorqan-döşək bağlanıb, yol üçün hazırlanmışdı. Bir dənə də əl sumkası vardı. Otağa girən kimi, "matişgə" bağlının ucundan yapışdı, Məşədi Hənifəyə işarə etdi ki, əyil, qoyum belinə. Məşədi Hənifə duruxdu.

– Quda başol?

"Poyezd" sözünü eşidəndə Məşədi Hənifə məsələni anladı. Matişgə onu şey yükləmək üçün gətirmişdi. Bu hal onun şəxsiyyətinə toxunmaya bilməzdi:

– Poşol, – dedi, – dürrək! Hammal sənin atabatandı!

Pastel bağlısına bir təpik vurub qayıtdı. Qapıdan çıxanda bir ağ qastyumlu, yumru kişi içəri girdi. Yumru kişi Məşədi Hənifəyə diqqətlə baxdı.

– Mən səni görmüşəm.

– Sən də gözümə tanış gəlirsən.

– Ərdəbilli olmayasan?

Yumru kişi qollarını açıb qucaqladı.

– Vay, Məşədi Hənifə, qardaş! Sənsənmi? Mən gözümə inanmıram! Sən hara, bura hara?

– Ədə, Ağa Rəhim, mən səni İranda görəndə belə deyildin. Maşallah, nə kökəlmisən, qoburnata oxşayırsan. Burada nə qayırırsan? Matişgələrin evində nə işin var, lotu?

Onlar təzədən görüşdülər. Ağa Rəhim stol çəkdi, Məşədi Hənifənin əlindən tutub, oturtdu.

– Ay Məşədi... Bəs, bura mənim öz evimdir. Zavoddan veriblər. Hamamxanası, aşbazxanası, zorxanası içində. Axşamlar da simsiz teleqraf danışır, dünyanın hər yerindən xəbər verir. Kefim gələndə pəncərələri açıb baxıram. Ves Bakı ayağımın altında qalır.

O səsinin tonunu dəyişdi:



– Bəs, Məşədi, sən hara, bura hara? Arvad-uşaq hardadır?

Matişgə ayaq üstə quruyub qalmışdı. Hamıda sevincli bir utancaqlıq hiss olunurdu. Məşədi Hənifə Ağa Rəhimdən utanırdı; çünki onun arvadına "pis göz ilə" baxmışdı. Ağa Rəhim Məşədi Hənifədən utanırdı, çünki bu köçə-köçdə ona qulluq edə bilməyəcəkdi. "Matişgə" isə onların hər ikisindən utandığı üçün başını aşağı salmışdı.

Ağa Rəhim davam etdi:

– Buyur, tanış ol, Məşədi, bu, mənim həyat yoldaşım Sima xanımdır. Bu gün daçaya yola düşür.

Məşədi Hənifə o saat başa düşdü ki, həyat yoldaşı arvada deyirlər. Öz qəlbində fikirləşirdi: görəsən, mən də uşaqların anasına "həyat yoldaşı" desəm tutar, ya tutmaz?

*1934*

# KARTOŞKA MƏSƏLƏSİ

## I

Pansionda ikən bir müdirimiz vardı. "Kartoşka yevropeyski xörəkdir, kartoşka qərblilərin yumurtasıdır", deyərdi. O, bizi "avropalaşdırmaq" üçün "aziyatski" xörəkləri qadağan etmişdi. Çoxlu qartoşka yedirdərdi. Biz də alışdıq. Evə dönəndə kartoşkanı külə basdırır, "kabab" eyləyib yeyərdik. Sonrakı evimizin buxarısı yox idi. Deməк, kartoşka basdırmağa kül də yox idi. Anamın əlacı kəsilib qazanda qaynadırdı. Mən səhər tezdən qalxıb, yağda qızardırdım. Yağ canına hopdurulmuş, yumşalmış kartoşkanı yedikcə ləzzət verirdi. Adamı bir kasa yağ kimi tutur, doydurur, qızışdırırdı. Odur ki, Çirdaxan kəndi komsomol özəyində kartoşka məsələsinin bu qədər qızğın müzakirə olunmasına təəccüb etməyin.

Kartoşka yeməli, ləzzətli olmasaydı, özəkdəkilər məsələyə hərarətlə yanaşmazdılar. Protokolu hələ köhnə əlifba ilə yazan əməli katibin burnundan tər damlaları muncuq kimi sallanmaz, dəftəri islatmazdı. Çıxışların zərbindən onluq lampa dəfələrlə sönməzdi.



Hökumətin revolyusion qanunçuluq haqqındakı 19 avqust tarixli qərarından iki ay sonra idi.

Bu qərardan sonra kənddə böyük hərəkət əmələ gəldi. Məhkəmə, prokuror, sovet sədri bir-birinə dəydi. Qərarda öz adını oxuyanların dizləri qurudu, bədəni titrədi, dodağı əsdi, gözü bərəldi, başı gicəlləndi.

Qoçu Sarının məhkəməsi ibrət dərsi oldu. Hamı bildi ki, bu yazıya pozu yoxdur.

Özək katibi Mehdiqulu bu qiyamətdən öz hesabını apармaya bilməzdi. Rayon komitetindən də soruşurdular: "Nə iş görmüşsünüz?" Komsomollar da katibi tərpədirdi: "Belə olmaz axı, işləmək lazımdır, sabah nə cavab verəcəksən?"

Mehdiqulu ağır taxtalı bir oğlandı, hələm-hələm canına isti keçməzdi. Ona görə də, demək olar ki, özək uzunmüddətli "otpuska" çıxmışdı. Aktiv üzvləri üç aydan-üç aya üzvlük haqlarını verib gedirdilər. Tam arxayınlıq idi.

– İməciliyə qoşulmaq, qəzet çıxarmaq lazımdır. Əkinə kömək edin!

Katib rayondan, kənddən eşitdiyi bu tələblərə "baş üstə", "100 faiz" cavabı verərdi. Daldaya gələndə isə əziz dostu, arası saz olduğu əməli katibin dediklərini xatırlardı. Əməli katib komsomol olmasa da, yaxşı xətti vardı. Tez-tez yazdığı üçünmü, nədənsə Mehdiqulu onu katib saxlamışdı: – Sən yaxşı işlə, məzbətələri, atnoşenniləri yaxşı yaz, bir bilet sənə daş-baş edərik. Özümüzünküsən, – demişdi. Mehdiqulu əməli katibin sözlərini unuda bilmirdi. O hər zaman deyirdi:

– İşin qurtarıb? Əlini ağdan qaraya vursan, atanın oğlu deyilsən. Nə olub, məyər, gündə yüzü yüz məsələ çıxardacaq. Elə komsomol da gərək qoşula? "Qonse qonsov" biz də bir təşkilatıq, ya yox?

– Mənə də Elat oğlu Mehdiqulu deyərlər! Bəlaliyimə baxma, bir də gördün, cinim vurdu başıma, məsələni qoydum heyətdə, mən ispalqomzad tanımıram. Bir kök vıqovor yapışdıraram belinə. O bitərəf, mən komsomol, ha çapalasın, mənə nə eyləyəcək?..

Bu dəfə elə olmadı. Mehdiqulu ictimai əmlakın mühafizəsindən yapışmağa məcbur oldu. Haqq üçünə, pis də yapışmadı.

Bunun iki səbəbi vardı: birisi məsələnin özünün möhkəmliyi idi. Bu

elə şeydi ki, kənddə hamını hərəkətə gətirmişdi. Oğruların tükünü göyə sovururlar. Bu işdən kənarda qalmaq, xüsusən, özək katibi üçün, gülünc olmaq demək idi. İkinci səbəb o idi ki, Mehdiqulunun umacağı vardı. "İşıq yeri" görünürdü...

Raykoma da yeni katib – yoldaş Qəşəng Həsənova gəlmişdi. Mehdiqulu özünü ona tanıtmalı idi.

– Mejduproçim, – deyirdi, – (Mehdiqulu poçt naçalnikinin yanında iki il işləmişdi, naçalnikin ailəsi, xüsusən, qızı Mehdiqulu ilə yaxın əlaqə saxladığından, ruscadan başı çıxırdı) – sabah rayon komsomol komitetindən adam gəlsə, görsə ki, məsələni "rebrom" qoymuşam, iclasım vaxtında, qərarım yerində, daqladım qaydasındadır, haqqı nədir ki, mənə premya yazmasın, ya da ki məni irəli çəkməsin?..

İclas çox ciddi başlamışdı. Mehdiqulu iclası açan kimi, karandaşı stola döydü:

– Xahiş olunur ki, bitərəflər çıxsınlar.

Bitərəflər sıralardan bir-bir daranıb, iclası tərk etdikcə Mehdiqulu enlənir, şişirdi: "Nə olaydı, Xədicə-Soltan bir quş olub pəncərədən tamaşa eləyeydi! Görəydi ki, onun məhəl qoymadığı, sözünü eşitmək istəmədiyi Mehdiqulunu necə eşidirlər. Kəndin seçmə-seçmə oğlanlarını uşaq kimi iclasdan bayıra tökürəm. Hələ söyləyəcəyim məruzəyə qulaq versəydi. Onda bilərdi ki, Mehdiqulunu inək doğmamışdır. O da bir ananın oğludur. Nə eləsin ki, o qara saçların əsiri olan gündən hicran oduna düşmüşdür..."

O, sakitliyi bərpa etdikdən sonra iclasın gündəliyini oxudu:

1-ci məsələ: heyət məzbətəsinin təsdiqi.

2-ci məsələ: ictimai əmlak haqqında. Mehdiqulunun məruzəsi.

3-cü məsələ: üzvlük haqqı xüsusunda.

4-cü məsələ: özəkdə baratqa barəsində.

5-ci məsələ: cari.

Mehdiqulu uca səslə soruşdu:

– Yoldaşlar, artırıb-əskiltmə, elə də dabavleni və elə də protiv gedən yoxdur ki?

Abbas və Qurban etiraz etdilər:

– Gecənin bu vaxtında beş məsələ həll etməkmi olar? Sabah xalqın



işi var axı!..

Mehdiqulunun acığı tutub, cini başına vurdu. Burnu yelləndi, onu hamıdan tez və yaxşı duyan əməli katib yavaşcadan:

– Sən toxda, – dedi, – lələşin danışar.

Əməli katib ayağa qalxdı, sifətindən yekə mağaza qıfılı kimi asılmış burnunu adəti üzrə əyib udqunduqdan sonra danışmağa başladı:

– Yoldaşlar, komsomollar! Biz gənclərə yorulmaq olmaz. Beş məsələyə də baxaraq, on beşinə də. Bir halda ki, heyətimiz qətnamə verib, demək ki, gənclər komitetinin yeni katibi yoldaş Həsənova ilə razılaşıb... – Əməli katib burada ifadəsini dəyişdi. Sözlərini tələsik-tələsik deməyə başladı.

Abbas başını tovladı:

– Ay məşədi, vaxtımızı alma!

Əməli katib onun sözünü ağzında qoydu:

– Yoldaş, sənə, elə sənin kimilərə cavab verəcəyəm, bir toxda! Nə, nə deyəcəkdim? Heyətimiz qətnamə verib, demək ki, heç nəm-nüm olmaz. Kim razı deyilsə, buyurub, gedib yata bilər. Hansı ki onun barəsində heyət qəti ölçü götürməli, necə ki nizamnamə üzrə bədihidir.

Əməli katib bu sözləri qurtarmamış "heyət məzbətəsini" oxumağa başladı:

"1932-ci sənəsi səfər ayının 15-də Çirdəxan kəndi nəzdində yaşayan gənclər özəyi heyətinin iclası ümumisi vaqe olur:

Sədr: Mehdiqulu Elatov.

Katib: özəyin əməli katibi.

Müzakireyi-yövmiyyə:

1. Ümumi iclasa məsələlər təyini.
2. Mehdiqulunun məruzəsi.
3. Cari məsələ haqqında.
4. Özəkdə baratqa barədə.
5. Üzvlük haqqının pulları barədə..."

Mehdiqulu bir saatlıq hərarətli məruzəsini qurtardıqdan sonra əməli katib üzünü iclasa tutub, soruşurdu:

– Yoldaşlar, indi məsələ qurtardı. Kimin qərarı var?

Heç kəsdən cavab çıxmadı. Yalnız yuxu tökülən gözlərini ovuşdu-

raraq Şirzad təklif edirdi:

– Ya məlumat üçün qəbul olunsun, ya heyətə həvalə olunsun.

Əməli katib ona cavab vermədi:

– Rüsxət verin, yoldaşlar, burada bir qərar var, oxunsun. Heyətin təklifi budur ki, bu qərarı oxumaq.

O, protokolların altından bir meşin cildli dəftər çıxardı. Bu idarə dəftərinin ağ üzlərinə qırmızı mürəkkəblə yazılmış iyirmi beş vərəqdən ibarət qərar idi.

Əməli katib əyilərək öskürdü: "Zəhrimar tütün sinəmə düşmür" deyə döşünü arıtdı. Qiraətlə oxumağa başladı:

"Biz aşağıda qol yazan Çirdəxan özəyində yaşayan üzvlər, elə də namizədlər və elə də həvəskarlar yoldaş Mehdiqulunun dediyi böyük məruzəni ruh yüksəkliyilə dinləyərək, bu qərara gəliriz:

Biz necə, ki yenilikdə olan qırmızı fəal gənclər, baxanda görürük ki, kolxoz olmaq və traktorlarımızın səsi çöllərə düşmüşdür. Səda gəlir. Hansı ki, xışa əks müqabildir. Biz gənclər hökumətimizin şanlı qərarına yüz faiz səmimi-qəlbdən şərikik. Söz veririk ki, özgələrə ibrət olaraq, xain əllərə endirək zərbəni. Həmişə hazırıq, canımız, qanımızla meydanda varıq..."

Əməli katib qərarı çox nəşə ilə oxuyurdu. Bu, Mehdiquluya lap ləzzət verdi. Çünki bilirdi ki, onsuz da rayonda adı heçə çıxan özəyin və özək katibinin üzünü ağartsa, bu qərar ağardacaqdır. Əbəs yerə deyildi ki, əməli katib bu qərarı on gündə dəst-xətt ilə ancaq yaza bilmişdi...

Qərar qurtarmamış əl çalındı.

Mehdiqulu sevincək, qala fəth etmiş qəhrəmanlara məxsus bir təvazölə danışırdı:

– Zənnimcə, qərarı səsə qoymaq artıqdır.

Qurban dilləndi:

– Yox, səsə qoy görək.

Mehdiqulunun cini başına vurdu. Qızardı. Qurban kimi, üç-dörd nəfər vardı ki, ona rahatlıq və qol-qanad açmağa imkan vermirdi. Mehdiqulu, onların "vayına oturmağa" nə qədər cidd-cəhd edirsə, bacarmırdı.

Mehdiqulu dodaqlarını gəmirə-gəmirə qərarı səsə qoydu. Beş nəfər



əleyhinə idi.

– Yaz bunların familyasını, – dedi, – daha pişiyim-pişiyim ilə olmadı.

Üzünü etirazçılara tutub soruşdu:

– Yoldaş Yolçu, de görüm, niyə özün seçdiyin heyətə prot gedirsən? Demirsənmi, bu heyəti buraya qoyan var? Daverit eləyib, işi tapşıran var.

Yolçu durdu:

– Hər bir ittifaq üzvünün ixtiyarı var öz fikrini desin, özünü tənqid etsin. Mən əleyhinə çıxıb deyirəm ki, orada əməli heç bir şey yoxdur. Odur kənddə anbarları, kooperativləri götürək. Nə qədər olur qartoşqaları qolçomaqlar anbardan oğurlayırlar. Siz heç bundan danışmırsınız. Niyə bəs? Mən bunu deyirəm.

Qurban, Abbas da söz istədilər. Mehdiqulu Yolçuya qışqırdı:

– Yetimliyinə hörmət qoyduqca çıxdın başımıza? Qnişkanı əlindən alıb, qovlayaram, onda ağlın gələr başına!

Üzünü əməli katibə çevirib:

– Danış! – dedi.

Əməli katib ağır-ağır başladı:

– Qoy Yolçunu salım başa: əvvəla budur ki, anbar, kooperativ... düz deyirsən, oğurlayırlar, biz komsomollar hələ nə qədər ki, sosializm qurmamışıq, oğurlayacaqlar. Amma sən başa düşmürsən ki, milisoner ayrı, komsomol ayrı. Oğruları biz tutası olsaydıq, daha yekə milis naçalnikinə nə hacət var idi? Bir ətək donluq alır, (üzünü Mehdiquluya çevirərək) belədir, ya qeyri-belədir? Pis danışıramsa, rəhbərimsən, çal ağzıma, deyinən filan-filan şüdə...

Mehdiqulu başı ilə işarə etdi:

– Doğrudur!

Əməli katib davam etdi:

– Xub... Komsomolun işi burada ictimai bir təşkilat olmaqdır. Qabağında durur gözdə-qulaqda olmaq ki, o yan-bu yan danışan olmasın. Komsomol gedib kartoşka gözətləməyəcək, kooperativ qaraulu olmayacaq?.. Yolçu, başa düşdün, ya yox? Qaldı, yetişdi ki, heyətin qərarına prot getmək məsələsi çox böyük işdir: heyətə prot getdin, demək, ona

iş tapşıran Rayon qomitetinə prot getdin. İşin dibinə gedəndə yoldaşlara yaxşı bəllidir ki, Yolçunun fikri. O barədə yerində danışarıq...

Mehdiqulu əməli katibin sözünə qüvvət vermək istədi. Məsələnin "canını" danışdı.

– Gəl, gör ittifaq üzvündə nə qədər qramot yoxdur ki, mühüm bir işi qartoşka, pomidor məsələsinə qatır. Znaçit, kartoşka anbarına qaraul çəkmək. Başına kül, belə cinel! Ay... hay!

Bunlardan bir şey çıxmadı. Etiraz edənlər barmağını salmırdı ki, salmırdı. Mehdiqulu onları eşiyə çıxarmaq istədi. İclasda qarğaşalıq daha da şiddətləndi. Hamı yerindən danışır, ağız deyəni qulaq eşitmir. Kimi qalxır, kimi oturur, kimisi də durub stol başına keçirdi. Mehdiqulu karandaşı yerə çırpıb, sədrlikdən boyun qaçırdı. Əməli katib adamların qolundan tutub, bir-bir nəsihət verirdi:

– Qurban, sən mənim başım, bir toxda, bir otur! Məni qəbrə qoyasan ki, birinci sözü sənə verməyə söz verirəm. Bir toxta! Abbas, sən vicdanın, pəl vurma! Komsomol vəzifəm bir yana, yaşda səndən böyüyəm axı, bir eşit...

Bu da fayda vermədi.

Əməli katib durduğu yerdə qışqırdı:

– Yoldaşlar!

Heç kəs eşitmirdi. Əməli katib stol üzərinə çıxdı, ağır batinkalarını taqqıldadaraq, gücü çatdıqca bağırdı:

– Komsomollar! Ay komsomollar, hey!"

Onun gülünc hərəkəti hamının diqqətini cəlb etdi. Kimi güldü, kimisi də yeni bir şey danışacağını güman edib kiridi. Əməli katib sözə başladı.

– Təklif var! Təklif var! Mən təklif eyləyirəm ki, pişikdən soruşdular: kişidən razısan, arvaddan? Dedi: "Nə o, nə o" (əməli katib bu son sözündə pişik kimi miyoldadı). İndi toxda, mən davanı kəsim, nə şiş yansın, nə kabab. Qurban demir ki, gərək qartoşka qaraulu çəkək? Demir ki, qulaqlar kartoşkanı çırpışdırırlar...

Burada ifadəsini dəyişdi, bir haşiyə çıxdı:

– Gəlin, öz aramızdır, əyri oturaq, düz danışaq. Qulaqın yadına indi kartoşka düşür? Bir dənə axmaq qulaq tapılar ki, on min manatlıq



traktoru qoysun, min manatlıq camışı buraxsın, atı, öküzü, evlərdəki xəlçəni aparmasın, çirmənsin ki, nə var, nə var – gedirəm kartoşka oğurlamağa? Bunlar yerində, keçək mətləb üstünə. Hə, zad, nə deyəcəkdim? Demir ki, özəyin qərarına qartoşka da, pomidor da yazılsın? Hökumətimizin qərarında olmayanları danışmır? Prot gedir? Yaxşısı budur, gəlin qoyaq səsə. Əvvəlinci təklif heyətinkidir. Sədr ilə katibin hərəsinin iki səsi var. Kim istəyir ki...

Abbas onun sözünü kəsdi...

■ ■ ■

Bayır bərk qaranlıqdı, sakitlikdi. Dumandan sonra başlayan xəfif payız yağışı kəsilmək üzrə idi. Göyün bir yerinə sanki top dəyib sökülmüşdü, ulduzlar görükürdü. Yarpaqlarda birikmiş damlalar ağırlaşıb, yerə düşdükcə, "şib-şib" səsi gəlirdi. Bütün kənd yatmışdı. Yalnız qoşa kəhrizin böyründən gələn araba yolu ilə bir avtomobil sürətlə axıb gəlirdi. O, böyük, dəyirmi və işıqlı gözlərilə yollara şüa səpərək irəliləyirdi.

Bir qaraltı yarasa kimi işıqdan yayındı. Sürüşüb qaranlığa qovuşdu. Qəşəng şübhələndi. Maşını dayandırıb düşdü. Qaraltı sürüşə-sürüşə qaçırdı. Şofer maşını döndərdi, qaraltını işığa saldı. Qaraltı – dalında ağır bir meşok aparan gödək bir adam idi.

– Tərpənmə!

Qəşəngin zəhmi, qaraltını çoxdan almışdı. O, meşoku buraxıb, darvazanı açdı. Tappıltı ilə həyətə düşəndə bir qadın "vay, nənə" deyə qışqırdı. İtlər hürüşdü. Gödək adam özünü itirdi. Qəşəng macal vermədən onu yaxaladı, adamlar tökülüşdü, qorxan arvadın oğlu kibrit yandırıb, gödək adamın üzünə baxdı.

– Tfu sənə, həyasız tülkü! – deyə bir sillə şartıldatdı. Qəşəng ona acıqlandı. Gödək adamı kartoşka ilə bərabər maşına basdı.

Arvadın oğlu məsələni anlamışdı:

– Yoldaş Qəşəng, bunlar anbarı dağıdırlar. Mən bilirəm, kartoşka anbarına gedib bu saat yoxlasan, lap yaxşı olar.

O pencəyini geydi, gödəkçəni çiyninə salıb Qəşəngə qoşuldu.

Onlar gəlib anbara çatanda hələ iclas qurtarmamışdı. Qəşəng soruşdu:

– Bura nədir? Nə hay-küydür?

– Anbarın üstü klubdur. Komsomollar burada olurlar. Yəqin iclasdır.

Anbarı yoxladılar. Açılmışdı. Qapıda bir qaloş tayı, içəridə isə üç meşok, bir səngər lapatkası tapdılar. Kartoşkalar doğram-doğram idi. Qəşəng oğlanı yola saldı, özü iclasa girdi.

Hamıda bir dəyişiklik əmələ gəldi. Komsomollar özlərini yığışdırdılar. Mehdiqulu son dərəcə sevindi. "Nə yerində gəlib, fələk! Rayonda birinci özəkdir ki, gecə saat on ikiyə qədər iclas eləyib, belə iş görür. Hələ yoldaş Qəşəng bizim qərarımızı görsə, gözü bərələr. Rayon komitetinə əlli maddəlik bir raport da hazırlasaq, bəsimizdir".

Bu fikir ilə o, Qəşəngə yanaşdı:

– Danışıq el malı barəsində gedir. Yoldaşlar yaman aktiv olublar. Çox iti gedirik. Qərarımızı istəyirsən, bir oxuyaq.

Qəşəng etiraz etmədi.

Mehdiqulu "sss" deyib, diqqəti topladı.

– Yoldaşlar, iclasımızın qərarını oxuyuruq. Yoldaş Həsənova da qulaq asacaq. Söz verilir yoldaş əməli katibə.

Qəşəngin gəlməsindən Mehdiqulu nə qədər sevinmişdisə, əməli katib bir o qədər kədərlənmişdi. Nədənsə, başını aşağı sallamışdı. Şapqanın kölgəliyini gözünün üstünə basıb, qısılmışdı. Sanki stula yapışmaq istəyirdi.

Mehdiqulu sözü ona verəndə işin üstü açılmağından çox qorxurdu. Bir istədi, "ağır xörək yemişəm, sancılanmışam" deyə yaxasını qurtarsın, bir də özünə toxtaqlıq verdi: "Dörd il keçir, əşi, nə tanıyacaq...".

Qalxdı, qiraət ilə qərarı oxudu...

Mehdiqulu Qəşəngdən göz-göz eləyib, əməli katibi bizləyir, qulağına pıçıldayırdı:

– Axırında – "yaşasın Qəşəng, de!" Yaşasın, əbizətni ha!

Əməli katib belə şeylərə ayıq idi. O saat anladı. Son sözlərində gözlərini kağızdan ayıraraq, dəyirmançı kimi ucadan qışqırdı:

– Yaşasın gənc rəhbərimiz Qəşəng, sayəsi başımızdan əskik olmasın!



Şarphaşarp əl çalındı. Mehdiqulunun gözü bir az da işıqlandı. Gülə-gülə Qəşəngin üzünə baxdı. Sözü Qəşəngə verəndə Mehdiqulu sədrlik stolunda möhkəm və arxayın oturdu. "Belə bir fədakarlıqdan, belə bir qərardan sonra da fikir çəkəcəyəm? Bəs haçan fikir çəkməyəcəyəm?" Birdən diksindi, damağına salmaq üçün hazırladığı papiros əlindən düşdü. Kürəyini stulun söykənəcəyindən götürüb, ağzını açdı, gözünü Qəşəngin ağzına zillədi. Yanılmırdı. Qəşəngdən gözləmədiyi şeylər eşidirdi.

– Yaxşı qərardır. Özək katibinə can köynəyi tikməyə yarar. Qoy katibi isti saxlasın ki, canına yel keçməsin. Komsomollar da pis deyil. Gecə səhərə qədər el malı haqqında zərbəli surətdə çənə döyüblər ki, el malını oğurlayanlar arxayın işləsinlər...

Qəşəng özünü saxlaya bilmədi. Əlindəki qərarı ovcunda əzib yerə çırpdı.

Mehdiquludan qeyri-iradi bir "hiy!" səsi çıxdı.

O çox təəccüb edirdi ki, səhv harasındadır. "Bu zəhrimarı oxumuşam, nöqtəsinə kimi nəzər yetirmişəm axı..."

Qəşəng sözünü belə bitirdi:

– İndi bildim ki, Çirdəxanda bizim komsomollarımız çox pis işləyirmiş! Vətəndaş əməli katib, yox, səsiniz bitdili imamındakı kimi yaralı çıxmır, yox! Sizin lənət oxumaqdakı fəsahətiniz, qiraətiniz, bəlağətiniz hara, bugünkü hara! Görünür, imam lütfünü sizdən əsirgəmişdir. Yox, biz sənin imamdan ayrılmağına razı ola bilmərik.

Hamını heyrət basmışdı. Üstlərinə su ələnmiş kimi, məyus, dinməz dururdular. Yalnız Qurban, Abbas və Şirzad kimi ayıq üzvlər, Mehdiqulunun bəyənmədiyi, "intriqant" adlandırdığı üzvlər sevinir, həqiqətin açılmağından fərəhlənirdilər.

*1934*

# BOSTAN OĞRUSU

Gecənin bir aləmində Durmuş kişi yerindən qalxıb, ətrafa göz gəzdirdi. Axşamkı qaranlıq ayaqlanan palçıq kimi, bərkimiş, qatılaşmışdı. Göz-gözü görmürdü. Qardaşı Kərbəlayi Tapdığın üzüm bağı bir ləkə kimi, güclə seçilirdi. Hava bürkü idi. Hər şey əriyirmiş kimi, göy yerə qarışmışdı.

– İş yiyəsi işdə gərək! – deyən, Durmuş kişi çoxdan bəri suvarılmadığından qurumuş və torpağı çatlamış ləklərin arası ilə gedirdi. Quru otlara, yemiş tağlarının süfrə kimi, enli yarpaqlarına dəyib səs salmamaq üçün şalvarını dizinə qədər çırmadı, papağını qoltuğuna vurub, sinə-sinə yeridi. Sonra özünə ürək verməyə başladı: "Heç qorxmaq istəməz! Yatıbsa, işim işdir. Oyaq olsa, deyərəm: "Söhbətə gəlmişəm. Tutdu hənək, tutmadı dəyənək!"

Kərbəlayi Tapdığın dəyəsinə yaxınlaşanda, qulağına səs gəldi. Deyəsən, haradansa: "Ey-hey-hey, ey!" çağırırdılar. Qızılgül kollarının dibinə çöküb qulaqlarını şəklədi. Bir şey xışıldayırdı. Durmuşun fikrinə gəldi ki: "Kişi pusquda dayanmış olar, məni oğru bilib doldurar qırmanı qarnıma." Bu fikir çəkic kimi onun başına dəydi, bədənini odlandırdı. Kişi diksindi. Ayağa qalxıb qardaşını səsləmək istədi. Bir dəqiqə də gözlədi. Xışıldayan şeyin kərtənkələ olduğuna inandı.

Heyvan, Durmuşun vedrəyə oxşayan gövdəsini görüb hürkmüş, rahatsız olmuşdu.

Durmuş dəyənin yanında barmaqları üstə yeriyib xəyal kimi səssizcə Kərbəlayı Tapdığın yatağına yanaşdı. Kişi şirincə yuxuda xoruldayırdı. Əyilib Tapdığın üzünə diqqətlə baxdı. İnandı ki, "yeddi gün, yeddi gecəlik" div yuxusuna gedib. Kərbəlayinin plov yeməkdən böyüyən ağzı elə geniş açılmışdı ki, oraya dolan yuxunu yeddi gün, yeddi gecədə ancaq həzm edə bilərdi.

Durmuş özünü tənəklərin arasına verdi...

Kərbəlayi Tapdığın bağında bir lək yaylıq üzüm var idi. Bu, xırda, yumrugilə, ağ, şirin, sıxsalxım üzümdür. Tez yetişdiyinə görə nobar olur, çox sevilir, az tapılır, baha satılır. Neçə ildir ki, Kərbəlayi Tapdıq altı tənəkdən altı salxım üzüm dərə bilmirdi. Üzümləri gülünü tökər-tökməz ala-qora vaxtında yoluşdurub aparırdılar. Kərbəlayi xəbər tutanadək bir salxım da qalmırdı. Arvad onu çox danlayırdı. Axırda özü də hirsləndi.

– Canım, – dedi, – belə şey olmaz axı, görüm bu zəhrimara dadanan kimdir? Onun qarnını yırtmasam, mən Kərbəlayi Tapdıq deyiləm...

Oğlunu, nökərini də göndərmədi. Üzümlər gül tökəndə, iyun ayının axırlarında yorğan-döşəyini götürüb bağda, dəyədə yatardı. Niyə də yatmasın? Qoruya bilsə, tənəkdə bir pud üzümü var. Qol-qanad açıb, isti torpaqlarda yatan tənəklər bulud kimi dolu salxımlar verir. Dolmalıq vaxtını ötən və baş qaldırıb tac kimi şax duran yarpaqlar, sanki günəşin almaz zərrələrini, sabahın ilhamlı təranələrini sorub salxımlara və şəffaf giləbrə doldurur. Yarpaqlar yaşıl ətəkləri ilə salxımları örtüb bəsləyir. Salxımlar isə pərvazlanmış quş kimi, yuvasına sığmayıb kənara boylanır, quşları çağırır və bəlkə də yoldan ötənlərin zavalına gəlir...

Üzüm, nə üzüm! Şəkər təki şaqqıldayır, diş vuran kimi, şirəsi qana keçir, ürəyə axır, gözə işıq, dizə taqət verir. Tənəklərdən sallanan salxım deyil, onluq çervonlardır.

Vaqon pəncərələrindən baxan bəzəkli xanımların gözü bu üzümə

sataşdımı, deyəcəklər: "Vinoqrad davay!" Belə olanda, hansı axmaq güzəştə gedər? Mən də deyəcəyəm: "Kilosuna odin çervon davay!"

Bu ağıllı fikirlər yalnız Kərbəlayi Tapdığın başına gəlməmişdi. "Ürəkdən ürəyə yol var" deyərlər. Bunları Durmuş da yaxşıca kəlləsinə vurmuşdu. Gecənin bu vaxtında, porsuq kimi tənəklərin arasına soxulub, salxımları şirin yuxusundan oyadan və yoluşduran Durmuş da hər salxımdan "bir çervon" gözləyirdi. Fikirləşirdi ki: "Atadan mənə bir çatı da düşmədi, boğazıma salım. Böyük qardaş (Kərbəlayi Tapdıq) mənə kəbin kəsdi, hamısını içəri ötürdü, məni məğmun elədi. Qapısında bir donuzu əskikdir. Bağı özünə bəsdir. Heç olmasa, bu yaylıq üzümü də mənə çatmazmı?"

## II

Durmuş "işini" görüb bostanına qayıtdı. Üzümü yerbəyer elədi. Bir gilə də ağzına qoyub, şirinliyindən dodağını marçıldatdı. Bu üzüm, cavan vaxtında min bir qorxu və ürək döyüntüsü ilə gecə xəlvət görüşündə nişanlısından aldığı "haram öpüş" kimi ləzzətli idi.

Həmlələr pozmuş, qoşun sındırmış, qala fəth etmiş əsgər sevinci ilə Durmuş yatağına girdi.

Kərbəlayi Tapdığı, elə bil, yuxudan oyatdılar. Qaranlıq, sakitlik, yalnızlıq idi. Nağıllarda söylənən tilsimli gecələr Tapdığın yadına düşdü. Göyə baxdı. Səliqəsiz səpilmiş ulduzlar ona qızıl onluqları xatırlatdı: "Nə ola, bu qızıllar göydən qopa, qızıl yağışı yağaydı. Nə qapaqap olardı, fələk! Qıllı papağımı başıma basıb bir yüzcə dənə yığsaydım, birtəhər olardım. Şəhərin göbəyində bir mülk alardım, ya da Namazlıların bağını ələ keçirərdim, ildə on beş-iyirmi min manatlıq təkcə "Təbriz üzümü" satardım. Onda Durmuş da paxıllığından çatlardı... Qoy onda mənimlə ha bəhsə girişsin!.."

Kərbəlayi Tapdıq bu dadlı xəyalını udmamışdı ki, nökər qulağına pıçıldadı:

– Vaxtdır! Vaxt keçir!

O, yerindən qalxdı, işarə ilə nökərə qandırdı: "Sən o yandan gəl!" Özü ağacların arasından dərəyə endi. Durmuşun bostanına keçdi.



Bağ da, bostan yeri də qardaşlara atadan qalmışdı. O zaman ayrılanda nə təhər oldusa, Durmuş xali yer yiyəsi oldu. Atıldı-düşdü, çığırbağır saldı, şəriət yanında, yüzbaşı yanında sözünü eşitmədilər.

Ovladığı bir qazı ətəyinin altında axunda peşkəş apardı. Sən demə, Kərbəlayi Tapdıq da axunda ağzında bir qızıl onluq göstəribmiş. Bağ davası başlananda axund istiot kimi tündləşdi. Kərbəlayi Tapdığın sözünü təsdiqlədi. Durmuşun üstünə qışqırdı:

– Qaz boynu kimi boynunu uzatma! Kişi ağzında qızıl kimi söz danışır!

Durmuş başını aşağı salıb dedi:

– Eybi yoxdur! Qoy böyük qardaş bağa yiyələnsin, can sağ olar, mən də o xali yerin torpağını qızıla döndərərəm. Heç eybi yoxdur!..

Durmuş doğrudan da dediyini edirdi. Qanqallı, tikanlı, sarmaşıqlı yerin torpağını atım-atım edib, un kimi elədi. Yaxşıca arx çəkdi, su çıxartdı. Yerin ətrafına iki cərgə meyvə ağacı əkdi. Yeri isə hər il dirlik bostan edib çoxlu mənfəət götürürdü. Səliqə ilə əkilmiş, taxtalanmış bostan yaz vaxtı Quba xalçasına bənzəyirdi. Yaşıl, cavan alma, armud, ərik, əncir ağacları saçaq kimi sallanıb sıxlaşırdı.

Durmuşun bostanından dəsmal-dəsmal pul götürməyi, hələ bağ salmaq fikrinə düşməməyi Kərbəlayi Tapdığı narahat edirdi. Fikrinə gəlirdi ki: "Bu gədə məni ötəcək, mənim var-dövlətim yalan olacaq..."

Kərbəlayi Tapdıq bu dərdi sinirə bilmirdi. Durmuşa badalaq qurmağa çalışırdı.

Son zamanlarda gözünü onun yemişlərinə dikmişdi. Dəfələrlə gündüzlər kiçik qardaşının bostanına keçib "əhvalpürsanlıq" bəhanəsi ilə yemişləri bəlləmişdi. İki-üç kisə yemiş "daş-baş" eləyib satdırmaq, bostanın xeyrindən "feyziyab" olmaq iştahasında idi.

Gündüzdən nökəri öyrətmişdi ki, kisə götürüb bağa gəlsin.

Yemiş tağları göyləri əmib, yerləri sormuş, ərköyün oğlan kimi, köks gərib, qol-qanad açmışdı.

Tağların hər qolunda bir neçə yemiş böyrünü sərin torpağa verib, kotana qoşulmalı cöngə kimi yatırdı, sanki göyşəyirdi. Qalın və şax yarpaqları, başında boşqab kimi tutan uzun zoğlar deyil, qonaqcıl gəlin biləkləri idi. Yemişlərin bəzisi qaraqabaq adamlar kimi burnunu yerə

dikmişdi. Çoxusu ağaran qabarıq gövdəsi ilə yelkənə bənzəyirdi. Eləsi də vardı ki, yupyumru şamama kimi...

Kərbəlayi Tapdıq bəllədiyi tağların dibinə sindi. Nökərə him elədi:

– Çırpışdır! Nə durmusan?

Çopur, ağır və böyük yemişlərə əl dəyən kimi, tağdan üzülürdü. Bəzi yemişləri tağdan üzmək çətin idi. Toy və bəylik günləri Tapdığın gözü önünə gəldi. Xəncəri çəkib yemişlərin saplağını kəsdi.

Yemiş, nə yemiş! Öz-özünə tağda cathacat cırılan yemiş!

Tapdıq dayaz ləklərdə sürünə-sürünə yemişləri seçib dərir, nökər isə kisəyə yığıb dərəyə endirirdi.

Çox çəkmədi tağlar boşaldı, kisələr doldu. Dan yeri sökülməkdə idi ki, onlar kolların arasında itdilər.

## III

Səhər açılmış, gün xeyli qalxmışdı. Hər gün danüzü yuxudan duran qardaşların heç biri yatağından çıxmaq istəmirdi. Azar dəymiş kimi, yataqda o yan-bu yana çevrilirdilər. Hətta Kərbəlayi Tapdığın yatağını gün döyürdü. Dözmək mümkün deyildi. Yerini divarın dibinə çəkdi, başını yerə qoydu, gözünü yumdu, qulağını bostana tərəf şəklədi. Ona elə gəlirdi ki, bu saat Durmuşun hay-küyü qopacaq. "Qoy gəlib məni yatan görsün."

Durmuş da qalxmır, gözləyirdi ki, Tapdıq "Üzümlərim, vay!" – deyəndə, gümanı bu tərəfə gəlməsin. Gəlsin, məni yatağımda görsün. Mən də yuxudan indicə oyanmış kimi, gözümü ovuşdura-ovuşdura qalxım, heyrətdə qalım.

– Nə olub, dadaş, nə xəbərdir? – deyə o, yoldan ötənlərə baxmaq üçün yerindən boylandı. Yemiş tağları gözünə birtəhər gəldi. Diqqət edəndə, şübhəsi artdı. Yerindən sıçradı. Şalvarı dizinə çəkib yüyürdü.

Yanılmırdı, bəllədiyi Cərco yemişlərindən biri də qalmamışdı. Ləklər ələk-vələk edilmişdi. Tağlar güllələnmiş igid kimi üst-üstə sərilmişdi. Gözünə inanmadı. Bir də yoxladı, əli ilə tağları çevirdi, ayağı ilə torpağı eşələdi. Otun arasına baxdı.



– Yox, – dedi, – bostanı pozublar!

Yoldan ötənlərdən şübhələndi. Yol üstünə qaçdı. Orada gülə-gülə araba sürən və at üstündə qucağına quzu alıb aparan kəndlilərdən başqa kimsəni görmədi. Qayıtdı. Tapdığa xəbər vermək üçün ləkin qırağından səsləndi:

– Dadaş, ay Kərbəlayi dadaş, hey!..

Onun səsini eşidən kimi, Tapdığın dodaqlarında təbəssüm oynadı: Hə, – dedi, – dostumun canına isti keçir ha!.. – O, yenə eşitməzliyə vurub qalxmadı. – Qoy lap özü gəlsin, çağırsın.

Durmuş mərzi keçib gəldi. Qardaşını yatan gördükdə qışqırdı:

– Ay dadaş, nə yatmısan, evimi yıxıblar, dur görək bu nə işdir!

Tapdığı bostana apardı. Ayaqlanan ləkləri, pozulan tağları bir-bir göstərib yana-yana dedi:

– Gör, bir gör! Gör namərd oğlu malımı nə günə salıb! Buna bax, sən Allah! Bu tağların hər birində beş-altı yemiş var idi. Biri bir oğula dəyərdi... Saxlamışdım el dağdan qayıdana. Vay, köpək oğlu, toxumluqları da yolubdur. Sənin atan gorbagor olsun!

Tapdıq baxırdı, özünü heyrətli göstərməyə çalışaraq dedi:

– Heyif! Heyif zəhmətinə!.. Ay canım, səndə də günah var axı! Bostanda yatmısan, niyə ayıq olmursan? Bilmirsən ki, oğrular gözdən tük çəkirlər? Mən o üzümü güc-bəla ilə saxlamışam. Gecələr yuxunu özümə haram eləmişəm.

Boğazını biçən kədərinə baxmayaraq, Durmuş Tapdığın "üzümü güc-bəla ilə saxlamışam" sözünə içində istehza ilə güldü, öz-özünə dedi: "Ay saxladın ha!.."

Tapdıq qardaşına təsəlli verməyə çalışdı:

– Eybi yoxdur, canın sağ olsun!..

– Heç sağ olmasın belə can ki, əməyinin məhsulunu itə-qurda verəcək...

– Eybi yoxdur. Oğru elə həmişə oğrudur. Sən yenə əkəcəksən, yemiş yiyəsi olacaqsan. Amma oğru...

Durmuş onun cümləsini bitirməyə macal vermədi:

– Oğrunun namusu əllərdə qalsın!.. Axı buna zəhmət çəkmişəm, əlim qabar olub bel vurmaqdan. Xalqlar kimi, muzdura, əmələyə əkdir-

məmişəm. Hər yemişə bir gecə yuxusuz qalmışam axı!.

Burada Kərbəlayi Tapdıq diksindi.

Bayaqdan bəri atası, anası söyülürdü. Buna dözürdü, çünki qardaşıdır, söyürsə də, yarısı özünə gedir. Durmuş ağzını açıb arvad söyüşü söyəndə, kişinin namus damarı dimdik durdu, üzü qızardı, dodağı pörtdü, gözü bulandı, bəbəklərində, deyəsən, ildırım çaxdı. Durmuş isə bir də təkrar etdi:

– Oğrunun namusu əllərə düşsün! Demirmi ki, bunun yiyəsi var?!

Kərbəlayi Tapdıq qırx yeddi yaşa çatmışdı, heç vaxt belə üzüyuxarı namus söyüşü eşitməmişdi. Qan başına vurdu, ürəyinə alov doldu. Əlini xəncərin dəstəsinə atıb, qınından siyirmək istəyəndə, bir də qaşlarını çatıb fikirləşdi: "Yaxşı vursam deyəcək: "Oho! Oğru sənsən ki!.." Yox, açıb ağartmaq lazım deyil..." Boğulmuş bir səslə dedi:

– Nə lazım yemişdən ötrü namusa söyürsən? Yaxşı deyil! Eşidən olar...

Durmuş gözünü pozulmuş ləklərdən ayırmadan bir az da hirslənib, özündən çıxdı:

– Necə yaxşı deyil! Mənim malımı yeyəni söyərəm də, o yana da keçərəm. Bu nə sözdür?

Bu sözlər kürədə qızardılmış kömür kimi, bir-bir Tapdığın ürəyinə dəyir, onu yandırıb-yaxırdı. Ayrı vaxt olsaydı, Kərbəlayi Tapdıq ölüb-öldürməklə cavab verərdi. Amma indi vəziyyət elə idi ki, sükutdan başqa çarə yox idi. O, üz döndərib getdi. Bağına keçdi. Ayağının altında bir salxım əzilmiş üzüm görəndə diksindi:

– Niiih!

Elə bildi ki, kim isə üzümü dərib, bağ yiyəsini görəndə tullayıb qaçıb. Bağın ətrafına baxa-baxa tənəklərə yaxınlaşdı. Yaxınlaşdı, nə gördü! Tənəklər sağılmış qoyun kimi, durub baxır. Yaylıq üzümü elə təmizləyiblər ki, deyəsən, günün günorta çağı buradan bir dəstə oğru keçib. Bir zingirə də üzüm qalmayıb. Salxımlardan qırılan gilələr ləkin içindəki çuxurlara tökülüb. Tənəklərin yoluq yarpaqları sallanır, budaqlar, soyulmuş adam kimi, mat-məyus, boynu çiynində baxır, salxımların saplaq yeri göz yaşı tökür.

Tapdıq, arxası getmiş və evi yıxılmış ata kimi, halsızca diz çökdü.



Tərpənməyə taqəti qalmadı. Ağır-ağır nəfəs aldı, güclə qışqıra bildi:

– Gəlin hay, gəlin hay! Gəlin!..

## IV

Zərər görənlər kənd sovetinə gəldilər. Hər ikisi zərərini dedi, əhvalatı danışdı. Katib akt yazdı və soruşdu:

– Kimə gümanınız gedir?

Durmuş Ağcanın oğlunu dedi. Kərbəlayi Tapdıq isə Danqır Abası yazdırdı.

Katib yenə soruşdu:

– Nə bilirsiniz, bəlkə ikisini də bir adam dərib?

Tapdıq etimadla cavab verdi:

– Yox, mənim bağımı ayrı adam dərib.

– Nədən bilirsən?

– Bilirəm!

– Bilirsən, bəs niyə oğrunu açıq göstərmirsən?

– Yox ey, yadımdan çıxdı, bilmirəm! Bilmirəm, yemiş oğurlayanın atasına lənət!

Məsələni aydın etmək çətin oldu. Danqır Abas həbsdə imiş, Ağcanın oğlu isə bir ay imiş ki, kənddə yox imiş. İş sovetə tapşırıldı, təhqiqata verildi.

## V

Üç gün sonra, axşamüstü milis Qələndər Quliyev sədrin yanına gəldi.

– Dur, bir tez vağzala çıxaq! – dedi.

– Yorulmuşam, yenicə xırmandan gəlmişəm, qılçam gizildəyir, qoy dincəlim, – deyə kənd sovetinin sədri cavab verdi:

– Yox, iş var, gedək!

– Mən ölüm, qoy bir nəfəsimi dərim!

– Yox ey, iş var. Tez ol! Qəribə bir iş görəcəksən.

Sədr çəkməsini ayağına çəkib qalxdı. Onlar bağçanın içi ilə ötüb, çəpərdən aşıb vağzala keçdilər.

Zəng səsləndi, səsi ilə də hamını hərəkətə gətirdi. Kimi adamları basa-basa əlini kassanın pəncərəsinə yetirməyə can atır, kimi çamadan əlində növbətçiyə güc gəlib dal qapıdan platformaya çıxmaq istəyirdi.

Dəqiqələr keçdikcə hay-küy artırdı. Adamlar bir-birinə qarışmışdı. Ümumi gurultu içində vağzal istilahları eşidilirdi:

– Plaskart!

– Sürət qatarı.

– Tranzit.

– Birbaşa.

– Hara soxulursan!

Bufetin sağ kənarında balaca bağın qabağındakı vağzal bazarı minikləri, çağırılmış qonaq kimi aramsız gözləyirdi. Üzümü səbətlərə düzən, almanı yüngül-yüngül çəkib, kağız torbaya dolduran, stəkanı təmizləyən kim, bişmiş kotleti stola düzən, yemişi dilimləyən kim...

Qələndər sədrin qolundan tutub, bağın qırağına gətirdi. Barmağı ilə nişan verdi:

– Bax, mən ölüm, bir yaxşı bax!

Tapdıq iki tay Cərco yemişini yerə düzməkdə nökərinə kömək edir, göstəriş verir, o yan-bu yana baxıb, nökərinə nə isə deyirdi.

Qaynar su budkasının solunda isə Durmuş qabağına yaylıq üzümü ilə dolu balaca bir səbət qoyub kisəni qılçası arasına almışdı, qorxa-qorxa səbətin ağzını bəzəyirdi.

Sədr baxdı, baxdı, yandı, töküldü:

– Yazıq Danqır Abas, binəva Ağcanın oğlu!..

– Çaqqal baş qopardır, qurdun adı bədnamdır, – deyə Qələndər onun sözünü təsdiqlədi.

Qatar gəldi. Adamlar vaqondan töküldülər, qırılmış boyunbağı kimi yerə səpələndilər. Yeyənə, içənə, aldığını qoltuğuna vurana, vaqonda gözləyənə, sevgilisinə meyvə aparana bax! Pullular alır, mallılar satır, aralıqda qalanlar tamaşa edirdilər.

Tapdıq on iki-on üç yemiş xırıda vermişdi ki, müştəri azaldı. Üçüncü zəng vurulandan sonra qatar yola düşdü. Yemiş alan olmadı. Boylanıb budka tərəfə baxanda Durmuşun əlində yaylıq üzümü gördü, yerindəcə donub qaldı.



Onların gözü bir-birinə sataşdı: atışan adamlar kimi, özlərini yığışdırdılar. Diqqətlə bir-birinin üzünə və matahına baxdılar.

Durmuş səbəti yerə qoyub, özünü ağacların arasına verdi. Kərbəlayi Tapdıq nökərə him elədi:

– Gəldilər...

Özü isə divardan hoppanmaq istəyərkən, bir əlin biləyindən yapışdığını gördü. Bu, sovet sədri idi.

Qələndər isə Durmuşu yaxalayıb gətirdi.

Onlar bu iki qardaşı üzləşdirməyə və məsuliyyətə almağa gətirirdilər.

*1935*

# SINAQ GÜNÜ

## I

Məni məktəbə, pansiona götürdülər. Anamdan ayrıldığım gün birlikdə sevindik də, ağladıq da... Səhər açılar-açılmaz o, yataqxanaya girib, şirin yuxuda yatan uşaqlar arasından məni tapmışdı.

...Bu, mənim ən şad, xoşbəxt və aydın səhərim idi.

Səhərlər məktəb hasarının kənarında durub məni çağırar, öpər, əzizləyər, xanımından aldığı yeməyindən mənə pay gətirərdi.

– Toxam, ana, burada çox xörək verirlər.

– Ev bişmişidir. Apar heybənə qoy, dərsdə acanda yeyərsən.

Dəftərimə, qaraladığım vərəqlərə baxar, əlimdə kitab görüb sevinər, sevinərdi...

Məktəbə, kitaba mən də anam qədər inandım, uşaqlığın ən əziz əyləncələrini intizam və rejimlə əvəz etdim. Yazı-pozu aşığım-topum oldu, şeirlər mahnım, şüarlar bayatım oldu. Anam qədər inanıb, əzizlədiyim məktəbin etimadını qırmadım. Məktəbdən yığdığımı küçələrdə dağıtmadım. Müəllimdən aldığımı bədxahlara satmadım. Yoluma işıq saçan kitabın hörmətini böyük tutdum. Gündüzləri odlu məhəbbət kimi qəlbimə qatdım. Günəşdən yapışıb, torpağa söykəndim. Məktəbin oğlu oldum. Elmin həqiqət bayrağını əlimə aldım. Yeni və şən həyatın aydın üfüqlərinə qanad açıb, əsrin səmalarına yüksəldim... İndi, indi isə sürət poyezdində qızıl diplomla, əlbir və ürəkbir yoldaşlarımla evə dönürəm.

– Çıx, ana! Çıx! Çıx stansiyaya, çıx! Ceyran çöllərinə işıqlar səpərək, şüa kimi süzülən poyezdin qabağına çıx! Pəncərəsindən mahnılar yağan, gəlişindən gəlinlər, qızlar xoşhallanan axşam poyezdi böyük şəhərlərdə əmanət buraxdığın qəlbini gətirir, çıx!

İndi o, bəslədiyi arzuları doğruldan oğlu ilə fəxr etməsinmi? Anamın ən böyük, sevincli günü, əziz axşamıdır!

İndi mən yalnız oğul deyiləm. Mən həm də gəncəm. Məni keçmişə bağlayan anamdan başqa, gələcəyə bağlayan sevgilim də var!

Hər ikisini ürəkdən sevirəm. Hər ikisini görməyə tələsirəm.

Bu axşam anamla görüşəcək, öpüşəcəyəm, lakin səhər sevgilimlə sevinəcəyəm.

## II

Anam süfrə saldı. Ailənin bayramı idi. Dördyaşlı qardaşım adresimi deyə-deyə başıma dolanırdı. O, yeni şəkillərimi öpür, qoltuğuna soxmağa çalışırdı. Anam kənddə qolçomaqların pozucu işlərindən danışmağa başladı. Qulağına səs gəldi. Sözünü kəsib, ağzını açdı. Ətəklərini sallayıb, kəndimizi bürüyən qaranlığı dinlədi, əyilib qulağıma dedi:

– Qolçomaqlar kolxozu dağıtmağa can atırlar. Ziyançılıq edirlər.

Əlini stuluma söykəyib, daha yaxın dayandı, yavaşca dedi:

– Şükürü də öl-dür-dü-lər!..

– Necə?..

■ ■ ■

Nədənsə anam nişanlımdan söz açmırdı. Mən darıxırdım. O, kolxozdan məktəbə, pionerlərin oxumağına keçirdi. Radio ilə Bakını dinlə-

diyini deyirdi. Çox fikir verirmiş, heç mənim adımı çəkən yoxmuş.

Mən utanmazlığa saldım:

– Qız necədir?

– Qız hansıdır?

– ...

– Hansı qız?

– Neçə qız var ki?

Anam bir müddət dayandı. Üzümə baxdı, qızardığımı görüb pozuldu:

– Bıyy, yadıma şiş batsın! Onumu deyirsən? Həəə... Necə olacaq, keyfi saz, damağı çağ. Texnikumu qurtardı. Kəndimizdə uşaqlara dərs deyir. Yaman da can yandırır, deyirlər. Barxudar kişi də o gün təriflәyirmiş.

## III

Hamı yatdı. Anama baxırdım. Çiynində ağır yük daşıyıb, uzun yollar gəlmiş bu yorğun yolçunun gələcəyi nədənsə məni düşündürmürdü. Qocalmışdı, saçları ağarmış, beli bükülmüşdü.

Mən onun keçmişini düşünürdüm. O da gəncmiş, o da sevərmiş, o da könül verib, könül istərmiş.

Yox! Mənim sevgim misilsizdir. Kimsə belə sevə bilməz. Mən sevgilimdən ayrı nəfəs almaq istəmirəm. Onunla yaşamaq, onunla əl-ələ verib, bizə gülən varlığın və bizə təslim olan təbiətin hər parçasından, hər guşəsindən bir həyat, sevinc, şənlik, səadət qoparmaq, şirin gənclik günlərimizin hər birini böyük gələcəyə doğru yüksələn pillələr etmək istəyirəm.

Qış tənhalığı, gecənin uzun və sirli qayğıları məni bürüdü. Yerimdən qalxdım. Kiçik və mütərəddid addımlarla yeridim. Heç nə eşitmirdim, duymurdum. Yalnız odlu qəlbimin bərk-bərk döyündüyünü hiss edirdim.

Sinəmi bərk-bərk tutub yeriyirdim. Sanki çənəmin altından yumruq vurub, başımı qaldırdılar. Gözümü açıb özümü "onların" qapısında gördüm. Mənlik və gənclik qürurum oyandı. İzzəti-nəfsimə uymayan hərəkətimdən utandım. Bu bir zəiflikdi. Döndüm, geri baxmadan uzaqlaşdım.



## IV

Şirin yuxudan məni silkələyib ayıltdılar. Bulanlıq və dərin yuxulardan ayazıyıb özümə gəldim. Gecənin nə vaxtı idi. Məni ayıldan kimdi? Bilmədim. Qolumdan bərk sıxıb qaldırdılar:

– Tez! Tez!

– Qalx!

Üzümə bir kağız sürtdülər:

– Oxu! Tez! Tez!

Qapı cırıldadı. O, bunu deyib getdi.

Tələsik kibrit yandırıb, kağıza baxdım. Hamısını yox, iri hərflərlə yazılanları oxuya bildim:

"...Bu saat dəyirman başında olarsan, beş dəqiqəyə..."

Papağımı başıma atdım, qaça-qaça pencəyimi geydim. Dalandan çıxmamış ayaq tappıltısı eşitdim. Adamlar tək-tək yüyürürdü. Daban aldım. Dəyirman başına çatanda bir dəstə adamın yollandığını görüb, səsləmək istədim. Yenə dabana qüvvət verdim. Onlara çatdım. Komandan üzümə baxıb alçaqdan, lakin ürəkdən acıqlandı.

– Keç! Diri tərpən!

Adamlara qarışdım.

Gedirdik. O qədər iti və ciddi gedirdik ki, fikirləşməyə macal tapmırdım.

Nə isə, bir təhlükə var! Kəndin kommunist və komsomolları yığılırlar.

Qaranlıqda qış paltarında heç kəsi tanıya bilmirdim. Yaxınlaşmağa, diqqətlə baxmağa və danışmağa da imkan yox idi. Biz get-gedə addımlarımızı böyüdür, daha sürətlə yeriyirdik. Mənimlə yanaşı gedənlərə diqqət etdim. Onların bəzisi tüfəngli, çantalı idilər. Bu, bir təhlükə olduğunu təsdiq edirdi.

İnsan dözən olur, deyirlər. Bir saatlıq yolu on beş dəqiqəyə getdik. Pərgar kəndinin başından keçərkən, komandan otdelenyaların arasını gəzib, xırıltılı bir səslə tapşırdı:

– Səssiz ha!

Addımlayırıq. Gecənin köksünü tapdalayaraq addımlayırdım. Qabaq cərgədə biri, evdə, istirahətdə imiş kimi ibarə ilə öskürdü.

Komandan yüyürdü. Cərgəyə əyilib, nə isə dedi. Eşitmədim. Qulaqlarıma bir cür qarışıq səslər gəldi. Bizlərdə qorxaq atı çaydan hoppandırmaq üçün belə tələsik çıxan və yazıya uymayan səslərlə acıqlanarlar.

Bizi Damüstü kəndinə, məntəqə mərkəzinə apardılar.

Kəndin alçaq divarlarla örtülü, dar, yuxulu küçələrini keçdikcə qulağıma səs gəlirdi. Hər qaraltını bir adam, hər divarı bir dəstə, hər çökəyi bir səngər görür, hər küləkdən bir xəbər bilməyə çalışırdım.

Kluba dolduq. Burada bizdən başqa üç kəndin adamı hazırdı. Silahlanır, geyinir, hazırlaşırdılar. Kimi yaxasını düymələyir, kimi çantasını bağlayırdı. Bəzisi də mat-məəttəl donub qalmışdı, adamların ağzına baxırdı.

Zəng çalındı. Hamımız gözlərimizi səhnəyə, orada olan şinelli və silahlı komandirlərə dikmişik. Ələmdarlı (rayon partiya komitetinin təbliğat müdiri) da burada idi.

– Yoldaşlar! – deyə, Ələmdarlı dilləndi. Salon susdu.

– Yoldaşlar! Keçən axşam qolçomaqlar Dirəkli kəndinə dolublar. Sovet sədrini, bir nəfər qırmızı milisi öldürüblər. Sovet işçilərini, komsomollardan bəzilərini tutublar. Bu kəndin də qolçomaqları onlara qoşulublar. Museyib yoldaş yaralı qaçıb, xəbər gətirmişdir (o, əli ilə, qolu sarılı bir adamı göstərdi).

Rayonda təcili tədbir üçün üçlük düzəlmişdir. Bizə aid əmri oxumaqdan ötrü söz Məhərrəmov yoldaşa verilir.

Məhərrəmov əlində kağız irəli çıxdı:

*N.RAYONU HƏRBİ ÜÇLÜYÜ*

*Pərgar – Zərilər, Qobular, Damüstü kənd partiya özək katibləri Həkimli və Niyazova.*

*Əmrdir.*

*N3. 11. 45-25-12-31.*

*1. Axşam saat $6^{15}$-də bir dəstə atlı, silahlı qolçomaq Dirəkliyə hücum etmiş, Sovet sədrini, bir nəfər qırmızı milisi öldürüb, idarə və evləri talan etmişlər. Kəndin də qolçomaqları onlara qoşulmuşdur.*

*2. Rayon üçlüyü 24 saatın müddətində bu çıxışı rədd etməyi və düşməni tamamilə məhv edib aradan qaldırmağı qət etmişdir. Buna görə əmr edirəm:*

*a) sizin kəndlərdəki kommunist və komsomolları iki saatın müddətinə toplayıb, silahlandırasınız;*

*b) saat $2^{40}$-dan gec olmayaraq, otuznəfərlik bir dəstə ilə Dirəkli kənd çəpərlərində olasınız. Dəstənin komandanlığını Ələmdarlıya həvalə edirəm;*

*c) qırxnəfərlik ikinci dəstə saat 2-dən gec olmayaraq, stansiya mühafizə dəstəsinə qoşulmalıdır. İkinci dəstənin komandanlığını Rəhimova həvalə edirəm.*

*Üçlük sədri (Kərim).*

Ələmdarlının komanda səsi eşidildi:

– Farağat!

Sağa diqqət cəlb edildi. Həkimli qısa, odlu bir nitq dedi:

– Vətənimiz, müqəddəs işimiz uğrunda fədakarlıq dəqiqələri çatmışdır. Sınaq günüdür. Düşməni məhv etməliyik!

Həkimlinin, o sadə və sadiq partizanın səsi hamını həyəcana gətirdi. Hamı səbirsizliklə komanda gözləyir, bu saat şahincəsinə düşmənin üstünə şığımaq istəyirdi.

Bizi iki cərgə edib, iki addım aralı üz-üzə saxladılar. Qabaq cərgədə məktəb yoldaşım Qorçuyevi gördüm. O, sapsarı saralmışdı.

Ələmdarlı komanda verdi:

– Səngərə getmək istəyənlər aralansın. Arş!

Dərhal hamı bir addım irəli çıxdı.

Yalnız Qorçuyev yerində tək ağac kimi sancılıb durmuşdu. O tərəf-bu tərəfini boş və özünü tək görən kimi, o da qaçıb, irəli çıxanların arasına girdi. Bizə silah verdilər. Yola düzəldik.

Klubda ikən mən bu hazırlıq və hərəkəti dərin təsəvvür etmirdim. Küçəyə çıxdıqda, zülmət içində addımladıqda ani bir inkisari-xəyal məni aldı: "Bu nə iş idi? Ümidlərimin göyərdiyi bir zamanda bu nə iş idi? Mən kəndə sevgilimi görməyə gəlmişdim, yoxsa güllə qabağına getməyəmi? Sabah o məni axtarmayacaqmı? Uzun illər məktublarımla yaşayan qız indi nə edəcək? Bu hadisə onun sadiq, səmimi məhəbbətini daha da alovlandıracaqmı?"

Kənddən çıxmışdıq. Çəpərlər arasından, daşlıq yollardan, sulu çuxurlardan, bəzən də şumlanmış zəmilərdən keçib gedirdik.

Birdən Qorçuyev yumaq kimi dığırlandı, nallanmaq üçün yerə yıxılmış camış kimi ufuldadı. Ələmdarlı onun qolundan tutub qaldırdı, "sıraya" dedi. O, əllərini qarnına basıb, güllə dəymiş kimi büküldü və Ələmdarlıya baxdı:

– Yoldaş komandir, vicdanı-məsləkim haqqı ölürəm. Yeriməyə təhərim yoxdur. Siz gedin, sabah mən atla gəlib, düşmənin anasını ağladaram...

– Qayıt!

O cərrah əlindən qurtarmış xəstə kimi sevincindən dillənə bilmədi. Yerində bükülüb qaldı. Yəqin ki, biz gözdən itəndə evlərinə tərəf daban alacaqdı.

V

Mən indi vətənimi müdafiəyə gedirəm.

Oralarda – dünən deyildiyi yerlərdə, qoca Kürün gölmələri ilə islanan və yayın milçəkli günləri ilə quruyan kəndlərdə həyatın ilk çiçəkləri kimi açılan uşaqlara məktəb tikdik. Kolxoz binasını qızıl bayraq kimi qaldırdıq. Klub düzəltdik. Gözü ilə od üfürən, qəlbində pirlər yatan qadınlarda kitaba həvəs oyatdıq.

Yaratmaq azdır. Yaratmaqla vətən vəzifəsi bitmir. Bu müqəddəs vətənin hər bir qarış torpağını qorumağı bacarmalıyam.

Quldurların basqın etdiyi yerə az qalmışdı. Dan yeri ağarırdı. Qabağımızdakı dağı aşan kimi, düşmənlə qarşılaşacaqdıq. Dəstəmiz qollara ayrılmalı, hərəkət təlimi verilməli idi.

Qarşı tərəfdən səs duyduq: araba gəlirdi, təkərlər səslənirdi. Səslər get-gedə yaxınlaşırdı. Ələmdarlı işarə etdi:

– Təşvişə düşməyin! Gözləyin!

Ağaclar və çəpərlər arasından çıxan iki araba bizə tərəf gəlirdi. Ələmdarlı bizi geridə qoyub özü irəli getdi, daşın dalına sinib, dedi:

– Kimsən? Dayan!

– Bizik, yoldaşlar!



Bəlli oldu ki, bizim dəstəmizin öhdəsinə verilən tibb arabalarıdır. Ağ geyimli həkimlər, şəfqət bacıları arabada ayağa qalxdılar. Bir qızın boyu mənə tanış gəldi. O mənə baxdı. Mən də baxdım. O, arabadan yerə atıldı. Komandana yanaşdı. Nə dedisə, yenə arabaya çıxdı. Yenə də yollara, ağaran üfüqlərə yox, mənə baxdı. Ürəyimə bir şey gəldi. Sıradan çıxmağa izin aldım. Yüyürüb, arabaya yanaşdım. O idi... Səhiyyə arabasında gələn sevgilim idi. Sevincimin hüdudumu var? Elə bil, dünyaları mənə verdilər. Hər şey mənə gözəl göründü. Mən dəstəmizin ən xoşbəxt adamı idim. İndi mən yalnız deyildim, qəlbim də, ümidim də, sevgilim də burada idi. İkimiz bir yolda, bir cəbhədə, bir məqsəd uğrunda çarpışacaqdıq. Sevgimizin ən parlaq bir günü çatmışdı. Biz söyüd kölgələri altında deyilik, ay işığı içində üzmürük. Biz indi bir qəlbdə birləşərək düşmən qabağına çıxmışdıq. Biz, bizi yetirən və böyüdən, səadətlər yurdu olan vətənimiz uğrunda döyüşə gedirdik, qələbəyə gedirdik.

Addımlarımı dərin bir etimadla atırdım. Qəlbim döyüş ehtirası ilə dolu idi. Hər damla qanımda bir od, bir vulkan səslənirdi. Məsafələri uçaraq getmək, qartal kimi düşmənin sinəsinə qonmaq istəyirdim.

Dağı aşmamışdıq. Yaşıllıq bir təpədə dayanmaq əmrini aldıq. Hava işıqlanmışdı. Adamlar bir-birinə baxır, tanışlar bir-birini tapırdı.

"Diqqət" komandası verildi. Ələmdarlı böyük bir daşın üstünə çıxıb səsləndi:

– Yoldaşlar! Qolçomaqlar basqını olmayıb. Bu, bir sınaq idi. Dirəkli kəndi düşmənlərini çoxdan məhv etmişdir. O həm də öz planlarını artıq-artıq ödəmişdir. Dirəkli kolxozçuları azad əmək sayəsində köhnə adətlərindən silkinib, sosializm həyatı yaşayırlar. İndi kəndin tarlalarından traktor səsi gəlir, hər evindən kolxoz mahnısı yüksəlir. Biz bu sınaqla qüvvələrimizi yoxladıq, imtahan etdik. İmtahan çox gözəl keçdi. Yalnız bir nəfərin içüzü açıldı. Qorçuyev kimilərin "sancısı" bəlli oldu... Sağ olun! Təşkilat sizə razılığını bildirir və ümid edir ki, hər bir təhlükə vaxtında hər hansı qara qüvvəyə, təsadüfə qarşı siz beləcə hazır, beləcə fədakar, beləcə vahid olacaqsınız. Azadsınız! Evlərə! Hər kəs iş başına!

Məni heyrət aldı. Bütün bu hazırlıq və gurultunun yalnız sınaq üçün olduğuna inanmağım gəlmirdi.

Camaat urra çəkib dağdan enməyə başladı. Budyonnı havasında oxunan gənclik mahnıları yenicə oyanan bağları, ağacları, tarlaları bürüdü. Mən sevgilimin əlindən tutdum, təbəssümlə işıqlanan üzünə baxdım. Biz sevincimizlə dağa-daşa sığmırdıq.

*1935*



# DOSTUMUN QONAQLIĞI (TƏSADÜF)

Kənddə, tanışlarımdan birinin evində Mirzə Qulamla tanış oldum. O, şəhərdən gəlmişdi. Deməyinə görə, istəkli dostunun ailəsilə bir yaylaq yerinə getmək istəyirdi. Onu vəkil eləmişdi ki: "Get, yer seç, ev tut, mənə xəbər ver!"

Nədənsə Mirzə Qulam mənə çox hörmət eləyirdi. İlk tanışlığımız olsa da, uzun illərin dostu, yaxın qohum kimi danışırdı. Mən onun hər sözünə "bəli" deyirdim, lakin söhbətimizi uzatmaq istəmirdim. O, yəqin bunu hiss etmişdi. Səsini dəyişdi, mənə yaxınlaşıb yavaşcadan dedi:

– Qardaşoğluma başağrısı vermirəm ki?

– Yox, – dedim, – xoşdur, söhbətinizə qulaq asıram.

Mənim bu sözüm ona cəsarət verdi, özünə xam məclis tapmış hoqqabazlar kimi, sevinə-sevinə danışdı, böyük bir müqəddimə ilə başladı:

– Sizləri görəndə, sizin kimi irəli gedən cavanları görəndə elə bilirəm, öz oğlumu, öz kiçik qardaşımı görürəm. Qardaşoğlunun canına and olsun, sənin canına yalandan and içmərəm, məni qəbrə öz əlinlə qoyasan, əgər yalan deyirəmsə, sənin kimi müəllimləri görəndə ürəyim

dağlar boyda böyüyür. Çünki görürəm, siz kultura barəsində, maarif barəsində, elm-ürfan barəsində doğrudan da mərhaba çalışırsınız. Halal olsun Sovet hökumətinin sizə verdiyi çörək! Halal olsun sizə çəkilən zəhmət!

Mirzə Qulam danışırdı. Ev yiyəsi bizi bostana, yemiş-qarpız yeməyə çağırdı.

Mən ev yiyəsinin əkdiyi, becərib yetirdiyi dirriyə tamaşa edirdim. Gömgöy kəvər, nanə, reyhan ləklərini, uzun yemiş tağlarını, tağlardakı yemişləri gördükcə baxmağım gəlirdi. Mənim fikrim zəhmət sevən, səliqə sevən təsərrüfatçı kəndlilərdə idi. Mirzə Qulam isə danışırdı. O, elmin xeyirli şey olduğundan, oxumağın lüzumundan, özünün qocalmağına baxmayaraq dərsə artan həvəsindən, çoxdan mənim kimi bir dost axtarmağından deyirdi. Ev yiyəsi, görünür, onun xasiyyətini bilirdi, səsləndi:

– Mirzə, qonağı yorma! Sənin çənənə hər adam dözə bilməz axı!

Mirzə ev yiyəsinin sözünü zarafat sayıb güldü.

– Ələkbər, – dedi, – sənin bu qonağın lap mənim ürəyimə yatan oğlanmış. A sağolmuş, bizi nə üçün indiyəcən tanış eləməmisən? Söhbətimiz elə tutur ki, gəl gör!

Ev yiyəsinin başqa qonaqları da vardı. Hamı evin qabağında qoyulan və üstünə xalça salınan taxtda əyləşdi, yemişi kəsib dilimlədilər.

Qonaqlar yemiş yeyirdi. Mirzə Qulam danışırdı. Ancaq indi onun sözünə qulaq asan azdı. Ona görə də danışanda mənim üzümə baxırdı. Mən başımı aşağı salırdım.

Mən tələsirdim. Qalxıb gedəndə, Mirzə Qulam ev yiyəsi ilə bərabər bir qırx-əlli addım məni poçt yoluna qədər ötürdü. Addımbaşı elmdən, mərifətdən, səxavətdən, sədaqətdən dəm vururdu. Əlimi sıxıb ayrılanda söhbətinin yarımçıq qaldığına heyifsiləndi, çox xahiş etdi ki, şəhərə gedəndə mütləq onu axtarıb tapım. Adresini də dedi. Xahiş elədi ki, dəftərimin qulağına yazım.

– Yadımda qalar, – dedim, – arxayın olun.

Ayrılandan sonra daha mən Mirzə Qulamı görmürdüm və tamamilə unutmuşdum. 1930-cu ilin yayında təzəcə tətilə çıxmışdım. Yay maaşını da almışdım. Cibim dolu, kefim saz idi. Gürcüstan kurortlarından



birinə istirahətə getməyə hazırlaşırdım. Şəhərə gəlmişdim. Balaca, səliqəli, sulu, ağaclı, bağlı-bağçalı rayon şəhəri yay vaxtı yaxşı olur. Dost-aşna hər tərəfdən məzuniyyət alıb gəlir. Yar-yoldaşla görüşüb əhvallaşırsan, şəhər bağının sərin, musiqili, şənlik axşamlarında gəzirsən...

Acmışdım, yeməkxanaya nahar etməyə gedirdim. Fikrimdə tutmuşdum, bir saat istirahət edərəm, axşam geyinib-kecinib, yoldaşlarımla vədələşdiyim yerə – kluba gedərəm.

Bir ortaboylu, qarapaltar adamın qarşımda durduğunu hiss etdim: o, dümdüz dayanmışdı, bığlarının altından yüngülcə qımışırdı, əlini də mənə tərəf uzatmışdı.

– Xoş gördük, ay etibarsız qırışmal! – deyə dilləndi.

Mən ilk baxışımda onu tanımadım. O, əlimi sıxdı, bir əli ilə də çiynimdən tutub silkələdi və qayımdan dedi:

– Hələ elə olar... Daha Mirzə Qulam dayını tanımazsan. Böyüklüyün xasiyyəti belədir, səndə günah yoxdur.

Adını çəkəndə, üç il bundan əvvəl kənddəki görüşümüz, Mirzə Qulamla söhbətimiz yadıma düşdü. İstər-istəməz əhvalını soruşdum:

– Necəsiniz, kefiniz, damağınız?

Mirzə Qulam cavab vermək əvəzinə soruşdu:

– Bəs harda düşmüşsən?

– Bu yaxında, mehmanxanada.

Bunu deyəndə Mirzə geri çəkildi, mənə bir tünd baxdı:

– Necə yəni mehmanxanada?

– Necəsiz-zadsız. Yerim də rahatdır.

Mirzə bərkdən dedi:

– Bəyəm mən ölmüşəm? Bəyəm mənim evim-eşiyim yoxdur ki, gəlib ayrı yerdə qalasan?

– Təfavütü nədir, – dedim, – ay Mirzə, bir-iki gün qalacağam. Nə eybi var?

– Çox eybi var. Adam olana, mən öz payıma deyirəm, çox eyibdir. Təvəqqe eləyirəm, bunu mənə dedin, daha bir kəsə deməyəsən. Mən də özümə görə bir adamam axı! Mənim də dostum var, düşmənim var. Sabah şəhərdə biri desə ki: "Mirzə Qulamın dostu filankəs gəlib qəstində gecələyir", onda daha mən gərək el içinə çıxmayım. Eyibdir. Boynuna

al, qardaşoğlu, çox eyib iş görmüşsən. Gedək, gedək evə!

Mirzə Qulam qolumdan tutub məni evə sarı çəkəndə, dayandım. Fikirləşdim ki, qonaqpərəstlik buralarda çox olsa da, hər evə getmək yaxşı deyil. Bəlkə kasıb adamdır, niyə xərcə salım. Nə lazımdır. Bəhanə gətirib, ayrılmaq istədim. Mirzə Qulam daha da möhkəm yapışdı:

– Bu da kənd deyil ki, söhbətimizi yarımçıq qoyasan. Bu can ölsün ki, səni əldən buraxdı yoxdur!

O, qolumdan çəkdi, gedəsi oldum. Özüm də bərk acmışdım.

– Gəl, – dedim, – Mirzə, – aşxanada nahar eləyək, söhbətə evə gedək.

Mirzə yenə üzümə tərs-tərs baxdı. Bir müddət dinmədi. Sonra başını aşağı salıb dedi:

– Elə zarafatları bir yana qoy ki, aramız dəyər. Xarabamızda sənin qarnını doydurmaq üçün bir tikə çörək tapılar.

Mən onun acıqlandığını görüb bir söz demədim. Yanına düşüb getdim. "Qoy, – dedim, – qəlbi sınmasın".

Mirzə Qulam məni bir qəssab dükanının qabağına apardı. Bığı xınalı, dəvərəgöz bir qəssab kötüyün üstündə ət doğrayırdı. Mirzə Qulam məni ona göstərib dedi:

– Məmmədhəsən, bizim bu oğlana bir üç-dörd kilo... – Bunu deyib Mirzə Qulam mənə tərəf döndü. – Nə deyirsən, qardaşoğlu, dörd kilo azlıq eləməz ki?

– Yox, – dedim, – bəs elər.

Mirzə yenə üzünü qəssaba tutdu və barmağı ilə mənə işarə elədi:

– Bizim bu oğlana bir dörd kilo kabablıq erkək əti ver. Məmmədhəsən, xatır üçün əməlli-başlı elə, yağlı tikəsi çox olsun, çünki bizim bu qardaşoğlu şəhərimizdə qonaqdır...

Qəssab qənarədən asılan ətləri bir-bir göstərib məndən soruşdu:

– Bu necədir, burasını bəyənirsiniz, kəsim?..

Mən razılıq verdim. Qəssab əti çəkib ikiəlli tərəzidən götürdü, mənə tərəf gəldi. Mirzə məndən soruşdu:

– Qabdan-zaddan nə təhər eliyək?

Mən əlimdə bükülmüş qəzeti verdim. O, əti qəzetə bükməkdə idi, qəssab mənim üzümə baxırdı. Baxdı, baxdı və dedi:



– On bir, on bir, elər iyirmi iki, o da iyirmi iki, cəmisi qırx dörd manat. Düz qırx dörd manat!

Mən tez əlimi cibimə atıb ətin pulunu verdim. Mirzə Qulam əti götürdü. Çıxdıq. Lavaşçı dükanına çatanda Mirzə Qulam gülümsəyərək dedi:

– Kababla bürüştə lavaşın ayrı ləzzəti olur!

– Bəli, – dedim, – ləzzətli olar!

Mən cavabımı qurtarmamış Mirzə Qulam lavaşçıya dedi:

– Bizim bu oğlana bir beş kilo ağ lavaş ver. Bürüştə olsun...

Mirzə məndən soruşdu:

– Beş kilo azlıq eləməz ki?

– Bəsimizdir, – dedim, – neçə adamıq ki!

Sözarası "neçə adamıq" – deyə soruşmaqda mənim məqsədim vardı: bilmək istəyirdim, görüm, Mirzənin neçə nəfər qonağı var? Mirzə buna cavab vermədi. Lavaşı çəkdirib, qoltuğuma vurdu. Mən pulunu verdim, qayıtdıq.

Bazarın başından ötəndə Mirzə içki dükanına girdi. Stolun dalında bir cavan oğlan dururdu. Mirzə onunla ermənicə danışdı. Sonra məni göstərib dedi:

– Bizim bu oğlana bir beş-altı butulka araq, çaxır ver. Lap əlasından ver, özü də hər cür ver. Məclisi rəngarəng eləyən olsun...

Cavan oğlan göstərdikcə, Mirzə seçdi. Şüşələri də lavaşın üstündən qoltuğuma yığdı. Mən içkinin də pulunu verdim. Çıxdıq.

Mirzə Qulam geriyə döndü, qolumdan çəkdi:

– Yadımızdan çıxıb, – dedi, – burada bir yaxşı qənnadı dükanı var, ətirli konfetlərdən keçmək insafdan deyil!

Mən konfet xoşlamadığımı dedim. Mirzə başa saldı ki: "Konfeti yalxı yeməzlər, ancaq uşaqlar elə yeyər. Amma məclisdə içki ilə, kef-damaqla ayrı ləzzəti var! Xanımlar konfetsiz adama kəlmə verib, kəlmə almazlar..."

Anladım ki, Mirzənin nahar üçün, deyəsən, böyük məclisi olacaqdır. Tədarükünə mane olmaq yaxşı deyil. Konfetin də pulunu verib çıxanda, cibimə fikir verdim, pulum azalmışdı. Axşam yeməyinə və mehmanxanaçıya birgecəlik mənzil pulu verməyə ancaq çatardı. Bir də

fikirləşdim ki, Mirzə Qulam qanacaqlı adama oxşayır, nə bilirsən, bəlkə, mən xərclədiyim pulların hesabını saxlayır. Bəlkə, evə çatan kimi ovcuma sayacaq! Bəlkə, kişi hazırlıqsız bazara çıxıbmış, məni gördü, qonaqlıq fikrinə düşdü. Puldan ötrü bir də evə getməmək üçün mənim xərcləməyimə razı oldu, evdə qaytaracaqdır. Bu fikirlərlə məşğul idim. Mirzənin səsi gəldi:

– Fayton, fayton! Bəri sür!

Uzunətək, gödərək faytonçu lap yanımıza, səkinin qırağına sürdü. Mirzə məni göstərib dedi:

– Bizim bu oğlanın xatırına elə sürərsən ki, tozun da görünməsin!

Biz faytona oturduq. Mirzə çaparaq gedən faytonun sürətindən nəşələnərək deyirdi:

– Andır evimiz bir balaca şəhərdən qıraqdır, həmişə faytonla gedirəm. Tanış faytonçumuz var, ancaq bu gün xəstədir, bir damaqlı oğlandır.

Evə çatanda Mirzə Qulam şeyləri qoltuğuna vurub, tez faytondan düşdü, həyətə girdi. Mən faytonçuya bir beşlik verdim. Razı olmadı, "azdır", – dedi. Bir üçlük də verdim, sağ ol da demədi, sürüb getdi. Fayton gedən kimi, Mirzə alçaq və nazik torpaq divarlı həyətin köhnə, işdən düşmüş qapısını açıb, içəridən çağırdı:

– Buyur gəl!

Mən içəri girdim. Balaca su arxının yanlarında əkilmiş qızılgül, ərik, armud ağaclarının arasından keçdik, Mirzə Qulamın evinə girdik. Saat beş, ya altının yarısı olardı. Yorulmuşdum. Aclıq məni dildən salmışdı. Tez stul çəkib oturdum. Mirzə şeyləri o birisi otağa apardı, təxminən bir on dəqiqə heç bir səs-səda eşitmədim. Darıxdığımdan, acımdan yenə saata baxdım. Yoldaşlarımla axşam görüşünə vədə verdiyim vaxt keçmişdi. Yəqin, onlar beş-on dəqiqə məni gözləyəcək, pərt olacaq, dalımca deyinəcək, çıxıb gedəcəkdilər. Nə isə, bu Mirzənin, mənim bu təzə dostumun naharı çox uzun çəkdi.

Mən başıaşağı, əlimdəki saatın əqrəbinə baxır, vaxtımı keçirirdim. Mirzə Qulam tələsik içəri girdi:

– Ay filankəs, – dedi, – oradan cibindən bir on beş manat da mənə ver, vacib iş var, bu saat gəlirəm.



Mən lap məəttəl qaldım. Bu pulsuz vaxtımda. Mirzənin kisəmə daş atmağına müəyyən məna verə bilmədim. Fikirləşməyə vaxt da yox idi. Mirzə başımın üstünü kəsmişdi, tələsdirirdi:

– Bircə, mən ölüm, tez ol ki, vacib iş var, bu saat gəlirəm!

O bu sözləri elə qəti, elə ərklə, elə etibarla deyirdi ki, hər kəs olsa, cibini boşaldıb, var-yoxunu verərdi. Mən onun dəm-dəsgah düzəltdiyini, nə təhər olmuşsa, pulunun çatışmadığını zənn etdim, əsirgəyə bilmədim. Cibimdə qalan son iyirmiliyi çıxardıb verdim. Mirzə, iyirmilik olduğuna daha çox heyifsiləndiyimi duyduğu üçün dedi:

– Eybi yoxdur, beş manatını qaytarar. Tez ol görüm!

Pulu əlimdən qapıb küçə qapısına tərəf qaçdı. Mən aclıqdan, əsəbilikdən, taqətsizlikdən otura bilmədim, qəbahət sayılsa da, yük yerindən balınc alıb palazın üstünə atdım və uzanıb dirsəkləndim.

Mirzədən səs çıxmadı. Saat yeddiyə işləyirdi, lap içim üzülmüşdü. Bu saat kabab, qovurma, ya da bozbaş iyinin məni vuracağını, o biri otaqdan samovar cızıltısının başlanacağını, Mirzənin başqa qonaqlarının bir-bir gəlib çıxacağını, ev sahibinin məndən üzr istəyəcəyini, geniş və iştahlı bir süfrə açacağını güman edirdim. Gözüm qapıda, qulağım səsdə idi... Nədənsə həyətdə bir ölüm sükutu hökm sürürdü. Mən təəccüb elədim: "Deyəsən, Mirzənin xörəyi başqa yerdə hazırlanır, deyəsən, heç bu həyətdə adam yoxdur, bəlkə qonaqlar başqa həyətə, başqa otağa yığılmışlar, bəlkə Mirzənin başı bərk qarışmışdır, mən yaddan çıxmışam..."

Pəncərədən boylanıb həyətə baxanda, arxın bulanıq suyundan, divar dibində eşələnən toyuqdan, əncir ağacının altında yatan ağ pişikdən başqa bir şey görmədim. Yan otağın qapısında da kimsə yox idi. O otaqla mən olan otağın arasında ikitaylı qapı vardı. Qapıya yanaşıb, qorxa-qorxa açar yerindən baxdım. Diqqətlə baxdım, qapı ağzında çöməlib oturan, corab toxuyan bir qadın gördüm. Daha başqa adam yox idi. "Görəsən bu kimdir? Mirzənin arvadıdırsa, bəs nə üçün belə arxayındır? Qonşudursa, nə üçün Mirzə şeyləri o evə apardı? Qulluqçudursa, gərək bu saat əldə-amanda ola, hazırlıq görə..."

Mən donub qalmışdım. Dedim, bəlkə o mənim burada olduğumu bilmir. Qoy bir səs salım, görüm nə olur. Əvvəl yavaş, sonradan bərk öskürdüm. Qulaq asdım, görüm qadın nə deyəcək. Bir səs gəlmədi. Açar

yerindən baxdım, qadın öz işində idi, ip corab toxuyurdu. Deyəsən, o qadın, ağac altında yatan pişik, sarı toyuq, evi bürüyən sükut, həyətdə hiss olunan arxayınlıq – hər şey, hər şey tox idi, yuxulayıb rahatlanırdı. Mən isə bütün əsəbiliyimlə, hirsimlə, aclığımla, qaranlıq bir sərgüzəştə düşmüş kimi, çaşıb qalmışdım. Nə dinə bilirdim, nə otura bilirdim, nə də dura bilirdim. Belə yerdə səbrə, utancaqlığa, xatir-hörmətə lənət oxudum, eyvana çıxdım, qadından soruşdum:

– Bacı, Mirzə hara getdi?

Qadın özünü yığışdırdı, örpəyini çəkib, başını aşağı saldı, nazik səslə cavab verdi:

– Bir söz deməyib, nə bilim!

– Siz onun əyalı deyilsiniz?

– Onun başı batsın, evdəkilərə sözmü deyər? Kim bilsin, harda indi başı qumara, çaxıra qızışıb!..

– Bəs gecə gələr?

– Nə deyim, ay qardaş, başı qızışsa, getdi gecəyarısına. Nə işiniz var idi?

Mən qadının bu qəribə sualına cavab tapa bilmədim.

– Heç, – dedim, – ürəyim onu çox istəyir.

Qadın dinmədi. Mən kor-peşman qalxıb, evdən çıxdım, uzaq, tozlu, qaranlıq yolları ac qarına yüyürə-yüyürə, güc-bəla ilə özümü mehmanxanaya saldım.

Odur-budur Mirzə Qulam gözümə görünmür. Görünmür ki, soruşam:

– Dostum, iyirmilikdən qalan beş manatı neylədin?

*1936*



# AYAZ

## I

Hələlik darıxmayın, mən Əkbərin cavanlığından danışmaq istəyirəm.

O, bəzəkli, təntənəli, gurultulu saraylarda gün keçirməmişdi. Yerişi ilə nişanlayan, kirpiyi ilə oxlayan, baxışı ilə xumarlanan, nazı ilə canlar alan xanımlar görməmişdi. Süfrəsi ilə bərq vuran şərab məclislərində sağlıq deməmişdi. Cəbhələrdə döyüşməmiş, vuruşmalarda igidlərlə qarşılaşmamışdı, həmlə, zərbə dadmamışdı.

Əkbər elm adamı, kitab düşgünü də deyildi. İşdə, həyatda gözə çarpan bir qabiliyyəti də yox idi. Natiqəsi zəif idi. Bəzi mühəndislər kimi, beş kəlməni bir-birinə calayıb içindən məna çıxarmağı bacarmazdı.

Yoldaş oxucu, deyəsən, ürəyinə yatmadı? Dodaqlarını büzüb ayağa qalxmaq istəyirsən...

Gəncsənsə, yəqin düşünürsən: "Əzizim, belə tiplərin ədəbiyyatda nə işi? Bunun sənətə layiq bir xasiyyəti yoxdur. Bir adam ki ürəyində

qız yarası görməyə, söyüd kölgəsində bir təbəssüm üçün hönkür-hönkür ağlamaya, eşq badəsini nuş etməyə, dünyanın, varlığın iyini bir tikməli yaylıqdan almaya, bir qəmzədə min bir məna oxumaya..."

Yaşlısansa, dünyanın yalnız istisini yox, soyuğunu da dadıbsansa, deyəcəksən: "Mübarizə görməyən, səyahətə getməyən, biliksiz, təcrübəsiz adamdan nə ibrət almaq olar?"

Əkbər siz deyən adamlardan olmasa da, özünə görə ibrətli həyat yolu var. Onun cavanlığı göl kimi sakit keçməmişdi. Onun gözü bənna şagirdliyində açıldı. İllərlə usta Murtuzun yanında sənət öyrənərdi. Bir də görərdin səhər açılmamış usta Murtuz adam göndərib tapşırardı:

– Əkbər, durma gəl!

Əkbər dərhal anlardı ki, iş var. Palçıq təknəsini, çiynini ağrıtmasın deyə tikdiyi köhnə arxalığı götürüb cumardı. Ustası, görərdin, filan tacirin, bəyin, mirzənin, axundun evini tikməyi boynuna götürmüşdür. Fəhlələr yer qazar, evin binəsini qoyar, usta taraz ilə ölçər, ip uzadar, başlayıb divarı qaldırardı. Əkbər torpaq gətirər, palçıq tutar, daş daşıyardı. Fəhlələrin hamısından çox işlərdi. Gün muzdunun isə yarısını alardı, çünki, usta Murtuz ilə qabaqcadan şərtləşmişdi: usta ona bənnalıq öyrədirdi, o da muzdunun yarısını ustadan almazdı. Bunu da ona görə edərdi ki, sənət öyrənsin, əli çörəyə çatandan sonra rahatca otursun, az işləyib, çox istirahət eləsin, çoxlu çay içsin, bu ağır, yuxusuz günlərin yorğunluğunu, əzabını canından çıxartsın.

Cəld işlədiyinə görə usta Murtuzun ondan xoşu gələrdi:

– Şagird deyil, igiddir, igid! Tikintinin fəndini öyrənsə, işin çəmini tapsa, ustaların əlini taxtaya bağlayacaq! Pah! İnsan da belə işçil olar? Əjdaha kimidir!

Bir il, dava düşən ili tacirlərin gəlhagəli idi. Hansı baqqalı dindirsən, alaxana-balaxanadan dəm vurardı. Şəhərin dar küçələri, sıx həyətləri, qaranlıq damları onları təmin etmədi. Kənarlara, yoncalıq, dirrik yerlərinə çəkildilər. Pulun gücünə beş ay ərzində koma-koma evlər tikildi. Bənnanın iş günü az qala, bir qızıla çıxmışdı.

Bunlar usta Murtuzun ürəyinə yatırdı. O çox işləyir, çox da qazanırdı. Sutkanın on altı saatını damda, divarda keçirirdi.

Əkbərin qoçaqlığı indi gözə çarpırdı. Günün yandırıcı istisində, təknə çiynində tər tökə-tökə nərdivanı qırğı kimi dırmandığını görənlər dayanıb tamaşa edirdilər. Onun ustaya kərpic atmasına, hətta palçıq dolu təknəni, baratanı "ya mədəd" – deyib, yuxarı tullamasına hamı mat qalırdı. Camaat əlini-əlinə vurub, heyrət etdikcə Əkbər qızışırdı, təknəni daha çox doldurar, daha etinasız atardı, özü də irəli yeriyib, təknənin altında durardı.

Bunun böyük mənası vardı. Başını aşağı salıb divarın dibində durmaqla demək istəyirdi: "Başımı verirəm! Düz atmamışamsa, qoy düşüb başımı parçalasın."

Usta Murtuz hərdən bir kişinin həyatində işlərdi. Bənna-fəhlənin xörəyini də iş sahibi verərdi. Nədənsə, qadınlar fəhlələrdən gizlənməzdi. Əkbər bundan əsəbiləşirdi: "Necə yəni? Biz kişi deyilik?"

Əlipaşanın həyatində Əkbər bir ev qulluqçusu gördü. Kaş ki, heç görməyə idi! Kişi durduğu yerdə pozulub haldan getdi.

Nə olar, qız görəndə? Adam qız da görər, qız ilə danışar da, zarafatlaşar da, şəhər yerində qol-qola verib, gəzər də...

Əkbər bunu bilirdi. Qonşu qızı Bilqeyis ilə o qədər qum-qum, gizlənpaç oynamış, o qədər əl-ələ verib kəpənək tutmağa, quş yuvası axtarmağa getmişdi ki...

Ancaq heç bu günə düşməmişdi!

İndi, nədənsə, gözü qulluqçu qıza sataşan kimi birtəhər oldu. Deyəsən, gözünə işıqüzünə qırmızı, könlünə xəyalat gəldi.

Qız göy köynək geyinmişdi, quyudan su çəkib, vedrələrə tökürdü, hərdən, üzünü örtən telini kənar etmək üçün başını geri atırdı, qara və ayıq gözləri ilə arabir yuxarıya, tikintidə çalışanlara baxırdı.

Əkbərin gözü qızın gözlərinə sataşanda dünya bir-birinə dəydi. Göyün buludları ağ ətəyini sallayıb, yeri örtdü. Ani bir külək yenicə tikilmiş yarımçıq evi qaldırıb, yeddi kərə fırlatdı, Əkbərin təpəsinə çaxdı. Əkbər bu zərbənin nə səsini eşitdi, nə ağrısını duydu. Ona elə gəldi ki, zərbə öz təsirini içəri verdi. Onun gənc və möhtəris qəlbi ovlanmış qartal kimi çırpınıb, köksünə vəlvələ saldı, az qaldı, yerindən qopub göyün boşluğuna uçsun...

– Ədə Əkbər, başımı yardın, nə xəbərdir!

Usta Murtuzun səsi Əkbəri xəyalatdan ayıltdı. Başını qaldıranda

göydən kərpic yağdığını gördü. Özü hiss etmədən kərpicləri bir-birinin ardınca elə tolazlamışdı ki, usta ürküb qaçmış, divarın bir kənarında durub bağırmışdı:

– Ədə Əkbər, başımı yardın, nə xəbərdir?

– ...

– Əkbər, sənə nə olub?

Əkbər utandı. Dinmədi. Başını aşağı salıb işlədi.

## II

Əkbər bir səhər yerindən qalxanda qıza əməlli-başlı bənd olduğunu hiss etdi. Əl-qolu boşalmış, dizi taqətdən düşmüş, könlü yaz suları kimi bulanmışdı. Özündə bir əskiklik duyurdu. Sanki onu bu evə, illərcə yaşadığı bu tənha və məhrəm guşəyə müvəqqəti buraxmışdılar. Vaxt bitdiyi üçün naməlum bir adam qapını kəsib, onu bayıra çıxarmaq istəyirdi. Buna sevinməlimi idi, ya ağlamalımı idi? Göyköynək qızın baxışları Əkbərin gələcək həyatından pərdələri qaldırmışdı.

O, açıq havanın qızdırıcı günəşini, baharın ətirli səhnələrini, ya yurdsuzluğun ağır günlərinimi gözləyirdi? Nə qədər fikirləşdisə, bunu aydın edə bilmədi.

Tələsik əl-üzünü yuyub, tikintiyə qaçdı. Hələ heç kəs gəlməmişdi. Çırmanıb palçıq hazırladı. İşi bəhanə edib, məhbubəsini gözaltı axtarmağa başladı.

Usta gəldi. Hamı öz işinə davam etdi. Qız yenə həyətdə göründü. Əkbərin gözündə aləm bir-birinə dəydi. Ürəyi döyündü, başı gicəlləndi. Qızın yaxına gələcəyini, bəlkə də onlara çay hazırlayacağını güman etdi. Nə cür oldusa, gözü yenə qızın şəvə kimi qara, yaz göyləri kimi aydın gözlərinə sataşdı. O, köhnə kişilərə inanırdı, onlar – "qəlbdən qəlbə yol var" deyirlər. Qız, Əkbərin qəlbindən xəbərdar olmasaydı, ustanı, başqa fəhlələri qoyub, düz Əkbərin gözünün içinə baxmazdı... Əkbər ayağa qalxıb, könül dolusu iştaha ilə baxmaq istəyəndə qız üzünü çevirdi, islanmış bir xalçanı başına qoyub həyətdən çıxdı, gözdən itdi. Əkbəri bir uşaq küskünlüyü bürüdü. Bir ah çəkdi. Gözünü qapı-bacadan



yığıb, kərpic atmağa başladı.

– Bərk!

– Əkbər, bərk at!

– Bir az bərk at, Əkbər!

Usta Murtuz heyrətindən qayıdıb aşağı baxdı:

– Bərk at, çatsın axı!

– Buyy! Oğlum, sənə nə oldu birdən-birə? Yoxsa keyfin xarabdır? Hə? Naxoşsan?

Əkbərin kərpicləri ikinci qata, ustanın əlinə çatmırdı. O, nə qədər gücənir, ayağını uca yerə qoyub atırdısa, kərpic getmirdi, əlindən çıxan təki, qəlp fişəng kimi qayıdıb, tıppıltı ilə yerə düşürdü. Usta Murtuz dayandı:

– Xəstəsən, bala, get yat, – dedi. – Yorğanı başına çək, bir möhkəm tərlə!

■ ■ ■

Əkbər doğrudan xəstələndi. Usta Murtuz gəlib onu yataqda görəndə təsəlli olmaq üçün hay-küy saldı:

– Sənin nəyindi yatasan, a qırışmal? Dur, əl-üzünü yu, eynin açılsın, yatdıqca ağırlaşarsan...

Usta Murtuz xəstənin ürəyini açmaq üçün şirin söhbətlər elədi, məzhəkə dedi. Dəsmalda gətirdiyi qırmızı almadan soyub, ona verdi.

Xəstənin üzünə bir şey deməsə də, fikirləşdi ki, "evsiz, adamsız oğlandır" baxan olmaz, xəstəliyi bərkiyər. Əlipaşaya deyim, buna şorbadan-zaddan hazırlatsın.

Əkbər mütəkkəyə arxalanıb pəncərədən baxırdı, fikir-xəyalatını dağıtmaq üçün, ya bir yerə yığmaq üçün papirosu-papirosa calayırdı.

Ayaz – Əlipaşanın ev qulluqçusu, həmin göyköynək qız – əlində bir qab xörək qəfildən içəri girdi.

Əkbərin huşu başından çıxdı. "İlahi, yuxu görürəm, ya bu aşkardır?" – deyə özünü toxtatdı. Yerində dik oturdu və qızın pul kimi qızarmış yanaqlarına baxıb güc-bəla ilə dilini tərpədə bildi:

– Nə zəhmət çəkirsiniz!

– Xoşdur!

Ayaz bu cavabı deyəndə, Əkbər sevincindən az qaldı sıçrayıb, ayağa qalxsın. Gülümsədi, Ayazın cavabını xəyalında dönə-dönə təkrar edib fərəhləndi. "Demək, mənim zəhmətimi çəkmək onun xoşuna gəlir", – deyə düşündü.

Əkbər ha fikirləşdi, Ayaza layiq və münasib bir cavab tapmadı. Aralıqda davam edən sükutdan utandı. Ömründə ilk dəfə nail olduğu belə əziz bir görüşdə sükutla ötən dəqiqələrə heyifsiləndi. Qızdan soruşdu:

– Gözəl qız, sənin adın nədir?

Bu sualın yersizliyini özü də anladı. Lakin əlacsızlıqdan soruşurdu. Ayaz ona duz, qaşıq verdi. Dəsmalı qatlayıb getməyə hazırlaşdı. Pəncərəyə baxa-baxa dedi.

– Qəşəng oğlan, hava ayazdır.

– Aybəniz qız, adını bəyan elə!

– Naçaq oğlan, məramını aç söylə!

– Qonağım qız, məni sağalt, amandır!

– Ellim oğlan, yatma dur!

Onların söhbəti aşıq deyişməsi kimi oldu. Əkbər qızın mehribanlığını və meylini görüb ayağa qalxdı, onu küçə qapısına qədər yola saldı. Dalınca uzun müddət baxa-baxa qaldı. Qız çoxdan gözdən itmişdi, lakin Əkbər onun izinə baxırdı.

Sabahı gün Əkbərin kərpicləri yenə göyərçin kimi, göyün yuxarı qatlarına qalxırdı. Ustalar, fəhlələr də ruhlanıb, axşam qaranlığına qədər işlədilər.

Usta Murtuz elçi düşdü. Əlipaşa şərt qoydu:

– İşləsin, tikintini bitirsin, işinə, mərifətinə baxarıq. Birdən-birə mən nə deyim? Çox da qulluqçu qızdır, axı mənim çörəyim ilə pərvəriş tapıb...

Əkbər iki ay bərk işlədi. Əlipaşanın bütün buyruqlarını yerinə yetirdi. Onun gözünə "iş görən, mərifətli" görünmək üçün tikintinin fəhlə işini də boynuna aldı. Əlipaşa, onun üçün muzdla işləyən iki fəhləni işdən çıxartdı. Usta Murtuza dedi:

– Əlinin altında Əkbər kimi əjdaha var. Sənə fəhlə nə lazımdır? İşlə, qoçum, qurtar!

– Usta Murtuz bir gün Əkbəri muştuluqladı:



Əlipaşa razı oldu. Qız sənindir. Tədarük gör!

Bu xəbərdən Əkbərin ürəyi dağa döndü. Qoluna yeni qüvvət gəldi.

Günlər get-gedə qızır, ağır işdə çalışmaq çətinləşirdi. Bir gün Əkbər fikirləşə-fikirləşə palçıq ayaqlayıb yetirməkdə idi. Usta hara isə getmişdi. Xanım eyvandan baxırdı, dördyaşlı oğlu da əlində çubuq həyətdə at çapırdı.

Uşaq palçığa yaxınlaşdı, söyüd çubuğu ilə Əkbərin çılpaq baldırına çəkdi. Əkbər ufuldadı. Uşaq gülüb anasına baxdı. Anası oğlunun şücaətindən qanadlanıb uçmaq istədi, işarə elədi:

– Oğlum, bir də vur! Balası bir də vursun, görüm!

Əkbər uşağa acıqlandı:

– Eləmə!

– Eləmə, a bala, qılçamı ağrıdır axı!

Uşağın qolundan tutub, həyətin o başına apardı. Qayıdıb palçığa girdi. Uşaq qaçıb gəldi. Gülə-gülə palçığın ətrafında hərləndi fürsət axtardı və qəfildən vurdu.

Əkbər yuxarı, eyvanın məhəccərinə söykənib, saçlarını sallayan və onlara tamaşa eləyən xanıma baxdı:

– Xanım, – dedi, – uşağı çağırın, ayağı palçığa batar!

Bu sözü o qədər nəzakət və ehtiyatla dedi ki, səsi boğuq çıxdı. Bu sözdə "mərifətinə" xələl gətirəcək heç bir şey olmadığına inandı. Lakin nədənsə xanım cavab vermədi, uşağı da çağırmadı, dişlərini ağardaraq durdu. Əkbər fikirləşdi. "Mərifət deyilən şey bunlara dözməkdən ibarətdirsə, bu, ölümdən də çətindir. Mən deyəsən, dözə bilməyəcəyəm. Ağadır, xozeyindir, qəbul. Daha mənim canıma dağ basmağa nə haqqı var?"

Uşaq onun baldırına tutarlı bir çubuq çəkib, gülə-gülə qaçdı. Əkbərin baldırı bərk göynədi. Əkbər istədi, işi, aclığı və hətta canından əziz tutduğu sevgilisini belə ayaqlayıb keçsin, canını bu körpə uşağın əlindən qurtarsın. Lakin cürət etmədi. Əlipaşanın zəhmi canına çökdü, səbir eləməyi məsləhət gördü.

Uşaq bir də yaxınlaşanda dilə tutdu, çubuğunu əlindən alıb, atmağa çalışdı. Xanım eyvandan qışqırdı:

– İşin olmasın!

Əkbər mülayim cavab verdi:
– Xanım, uşağa soyuq dəyər, çağırın evə!
Xanım dinmədi.
Əkbər palçığını ayaqlamağa davam etdi. Bir dövrə vurub, başa çıxmamış uşağın çubuğu sol qılçasını yandırdı. Bu dəfə Əkbərin yalnız qılçası yox, bütün əsəbləri yandı. O, palçıqlı ayağı ilə uşağın sinəsindən elə çırpdı ki, uşaq qartal caynağından düşən dovşan kimi, yerə dəydi, hərəkətsiz qaldı. Xanım qışqırıb, özünü uşağın üstünə atdı. Küy qopdu, adamlar töküldü. Əkbər palçıqdan çıxıb, ayaqlarını təmizlədi, bir kənarda dayandı, qovulmaq əmrini gözlədi. Uşağı ovutmağa apardılar. Xanım ustanı da Əkbərə qatıb söydü.
– Tez ol, – dedi, – bu saat gözümdən rədd ol!
Əkbər ayaqqabısını geyinib getmək istəyəndə Əlipaşa gəldi, mane oldu:
– İşini işlə, – dedi.
Üzünü xanıma tutub, yumşaqca dedi:
– Nə olar, uşaq döyülər də, ağlar da, kiriyər də!
– Necə nə olar? Balamı öldürürdü...
Əlipaşa onu sakit eləməyə çalışdı:
– Sənin işin olmasın. Get otur yerində!
Əkbər ömründə birinci dəfə belə heyrətli bir işə rast gəlmişdi. O düşünürdü:
"Ola bilməz! Əlipaşa məni niyə döydürüb dama basdırmadı?"
O dedi: "Uşaq döyülər də, ağlar da, kiriyər də..."
Əlipaşanın bu hərəkətinə Əkbər uzun müddət inanmadı, inandıqdan sonra isə ona hörməti artdı. Onun xasiyyətinə "əhsən" deyib, candil ilə işi qurtarmağa çalışdı.
İş qurtardı. Əlipaşanın hüzuruna adam göndərib, adaxlısını aparmaq fikrini bildirəndə, o etiraz etmədi:
– Mən, həmişə xeyir iş tərəfdarı olmuşam. Əyalıdır, gətirsin, borclarını versin, aparsın. Mənim bir sözüm yoxdur.
– Nə borc?
Bu sözdən mat qalan Əkbər təkrar elədi:
– Nə borc?



Əlipaşa qızı böyütməyinə min manat məxaric istəyirdi. Qızın ərə getməyini eşidib, mübarəkbadlığına gəlmiş qonaqları yola salmaq üçün də düz beş yüz altmış yeddi manat xərc çəkdiyini deyirdi. Sonra əlavə edirdi:
– Nəcib oğlan olar, bizim zəhmətimizə, atalıq ehtiramımıza müqabil bir xələtdən-zaddan da tədarük edər. Zarafat deyil, evlənir, ay parçası kimi qız alır. Ev olur, daha yurdsuzluqdan çıxır. Bu yaxşılığı ona heç kəs eləməz...
Əkbərin nə yalvarması, nə vasitəsi, nə vədəsi Əlipaşanın bir qəpiyinə əvəz ola bilmədi. Əlipaşa, bu barədə vasitəçi olanları az qala söyüb qovurdu.
Axırda Ayaz özü Əlipaşaya yalvardı:
– Ağa, – dedi, – mənə atalıq haqqı qoyub, çörək veribsən. Mən də xəcalətindən çıxaram. Biz borclu olaq, sən də...
Ayaz öz təmənnasını deməyə utanırdı. Əlipaşaya məsələ aydındı.
– İndi ki, sən xahiş edirsən, qız pulunu keçirəm. Amma qabaqca sən də mənim kiçik bir xahişimə boyun əyəcəksən.
– Ağa, gözüm üstə, buyurun.
– Bir söz deyəcəyəm sənə. Axşam danışarıq.
– Çox razıyam, indi buyurun, elə mən hazıram.
– Yox, elə məsələdir ki, gecə danışsaq yaxşıdır.
– ...
Ayaz Əlipaşanın – ürəyindəki "məsələni" anlamışdı. O gecə qorxudan özünü xəstəliyə vurub, bacılığı Gülzarın yanında qaldı. Gecə səhərə qədər gizli-gizli ağladı.
Səhər suya gedəndə Əkbəri orada duran gördü. Əkbər Əlipaşanın mərhəməti haqqında xəbər soruşmağa gəlmişdi. Ayazın üzünə baxan kimi, ağladığını hiss etdi. Köyrəldi, o da ağlamaq istədi. Özünü toxtadıb soruşdu:
– Sənə nə olub? Niyə ağlayıbsan? De görüm? Niyə?
Əkbərin sualı Ayazı daha köyrəltdi. Güyümü yerə qoyub dizlərini qucaqladı, hönkür-hönkür ağlamaq istədi. Utandı, ayağa qalxıb, kəhriz başı ilə yuxarıya, bağçaya sarı getdi. Əkbər də onun dalınca düşdü.
Dalda bir yerdə dayandılar. Ayaz Əkbərə nə dedisə, Əkbər əvvəl

kağız kimi ağardı, sonra pul kimi qızardı, bədəni alovlandı...

Həmin gecə Əkbər ilə Ayaz əl-ələ verib şəhərdən qaçdı.

## III

Sərin bir payız axşamında Əkbər səfərdən qayıdıb, Ayazın qucağında uşaq gördü. Astanadaca dayandı, sevincindən nə edəcəyini bilmədi. Gəlin ananı – hələ dodağından ilk öpüşün istisi soyumamış, qəlbindən ilk təbəssümün narıncı alovu sönməmiş, ilk baxışın həsrəti getməmiş Ayazı təbrik etsinmi? Sabahkı qara günlərini, ağzını əjdaha kimi açmış ehtiyacın dəhşətlərini düşünüb ağlasınmı?

Sevinsin!

Heyvan da balasına baxıb fərəhlənir. Lakin insan müstəsna bir məxluqdur. Uşaq iki qəlbin bir məhəbbəti, iki keçmişin bir gələcəyidir. Süfrəsi uşaq şıltağı, uşaq həvəsi, övlad səsi ilə şənlənməyən ailənin kədəri dağlardan ağır, zəhərlərdən acıdır. Onu tənhalığın qara və iti dişləri meyit kimi gəmirər. Ölüm belə onları quldur kimi çalıb aparar.

Bunları düşünərək, oğlunu bağrına basan ata övladının qırmızı, balaca, yumşaq yanaqlarını öpüb, başından ayağa qədər süzdü. Nədənsə o, atalar sayağı, uşağın qaş-gözünə, sifətinə diqqət edib, özündən bir əlamət görmədi. Gözü, uşağın əsgiyə bükülmüş, soyuqdan göyərmiş bədəninə sataşdı. Ayağına baxdı. Boğazından tutan ehtiyac və yoxsulluğun əzabını bir daha dərindən duydu. Qarşısına böyük hədiyyə ilə çıxan Ayaza boş əllərini göstərməyə xəcalət çəkdi.

Əkbəri kədər basdı: budur, ay günəşi, gecə gündüzü, soyuq istini qovub, aparır, uşaq ayaq alıb küçəyə çıxır, dil açıb atasından paltar, ayaqqabı, yemək, əyləncə şeyləri istəyir. Ata isə təqsirini boynuna almış bir cinayətkar kimi susur, susur...

Ayaz anlamışdı. Ərinə baxıb, o da xəcalətindən boğulur, ona daha bir ac qarın gətirdiyi üçün özünü böyük günahkar sayırdı. Balasına, sonra da Əkbərə baxıb ağladı. Əkbər də Ayaza baxıb ağladı. Ürkdümü, bir şeymi hiss etdi, nəsə, körpə də qışqırdı. Uşaq uzaq keçmişlərdən, xəyali gələcəklərdən qopan sızıltı ilə xəcalətliliyini bildirirdi? Atasına təsəllimi verirdi? Dərdlərinə şərikmi olurdu? Yoxsa yalana, hiyləyə, bədxahlığa açılmayan dili ilə gələcəkdən, bədbəxt ata-anasına məlum olmayan böyük və ağ günlərdən müjdəmi verirdi?



## IV

Gün o gün oldu ki, Əkbər kərpic zavodunda həmişəlik işə götürüldü. Direktorun əmrini alanda sevincindən idarədə dayana bilmədi. Qapıya çıxıb yaxasını açdı. Bahar günortasının ılıq və duru havasını bulaq suyu kimi içdi, böyük bir rahatlıq hiss etdi.

Doğrudur, bu son illərin hadisələri Əkbər deyən kimi keçib-gedirdi. Bu bahar çox adamları qış çiçəyini günəşə çıxaran kimi, işıqlı həyata çıxarıb, can verdi, sevindirdi. Lakin o heç vaxt bugünkü qədər sevinib, eşqə gəlməmişdi, özündə belə cəldlik, cəsarət və möhkəmlik hiss etməmişdi.

İndi o bir istehsalat ocağının həmişəlik işçisi, işçi ailəsinin bərabər bir üzvü olmuşdu. Onu işsizlik, ailə xəcaləti, soyuq qış gecələri, istirahətsiz yay günləri gözləmirdi. O, daha qapı-qapı düşüb, "ayıbalası" (kərpic) kəsməyəcəkdi, Əlipaşaların tikintisində qarın çörəyinə tər tökməyəcəkdi, qılçası göynəməyəcəkdi, adaxlısı ağır söz eşitməyəcəkdi.

İnqilab onun canını, qanını, insanlıq hüququnu, hətta namusunu belə oğruların əlindən çəkib almışdı, canavardan saldıran kimi saldırmışdı. Aldığı maaşla ailəsini təmin edəcək, orta güzəran ilə üç uşağını böyüdüb, bəsləyə biləcəkdi. İllərdən bəri çeynənən həyatını isidəcək, şənləndirəcəkdi. Uşaqlar böyüyüb hərəsi bir işin qulpundan yapışandan sonra Əkbər tamam rahat nəfəs alacaqdı, ehtiyacın daşını atacaqdı.

Bir gün işdən çıxanda direktor onu çağırdı:

– Əyləş! İşlərin necə gedir?

Əkbərə elə gəldi ki, direktor görəsən, incimişdi, işdənmi narazıdır, ya vəzifə tapşıracaq, nədir...

– Niyə, pis deyil, – deyə cavab verdi.

Onun yarımçıq cavabı direktora xoş gəlmədi:

– Burunaltı danışma. De görüm, nəyin çatmır? Niyə bikefsən?

Əkbər çaşdı. Fikirləşməmiş, hazırlaşmamış cavab verməkdən çətinlik çəksə də, kiriməd:

– Bikef deyiləm.

– Bəs niyə sozalırsan?

– Durub sənə "dasnıcors" oynamayacağam ki? Yorğun adamam. İndicə çıxıram işdən!

– Get naharını ye, dincəl, axşam yanıma gəl.

Nigarançılıq ilə keçən bir neçə saatda Əkbərin ürəyinə nələr gəlmədi? Direktorun nə üçün çağırdığını bilə bilmədi. İntizarı get-gedə artırdı.

– Bilirsən, nə var?

– Nə var?

– Neçə uşağın var?

– Var bir üç-dördü. Necə bəyəm?

– Burada bağça düzəldirik. Fəhlə uşaqlarını yığıb tərbiyə verəcəyik. Hər xərci bizdəndir. Müəllimi, yeri, çarpayısı, yeməyi, içməyi...

– Mən verə bilməyəcəyəm.

– Niyə? Niyə gərək verə bilməyəsən? Səbəbi?

Direktor Əkbərin etirazına təəccüb edib, təkid ilə soruşurdu. Əkbər soyuqqanlılıqla cavab verirdi:

– Çünki maaşım çatmır.

– Səndən pul istəyən kimdir?

– Ayın başında çıxmayacaqsınızmı?

– Kim?

– Bəs necə?

– Boş danışma, ağzımda söz deyirəm, xərci hökumətdəndir.

– Elə şey olmaz! Bəs xərci sizdəndirsə, bizi niyə çağırırsınız!

– Çağırırıq, bütün ataları çağırırıq ki, övladlarını versinlər.

– İndi gedim gətirim?

– İndi yox, bağça düzələndən sonra.

– Üçünü də götürərsinizmi?

– Ayaq tutanın hamısını! Siz gərək arvadları da başa salasınız.

– Ona söz vermirəm.

– Burada bir çətin iş yoxdur.



– Yox, yoldaş direktor! Kimin arvadını deyirsən, gətir başa salım, ancaq mənim arvadımı başa salmaq çətindir.

Əkbər bağçanın pulsuz olacağına heç inana bilmirdi. "Uşağın hökumətə nə xeyri var? Uşağı nə üçün bəsləsinlər? Yox, hökumət gəlir-çıxarını yaxşı bilir. Sabah-birisi gün görəcəksən budur, maaşlardan tutdular..."

Hər ay o maaş alanda, bağçada tərbiyə alan uşaqlarını yadına salır, onlara pul çıxacaqlarını güman edirdi. Hesabdar isə az qala, əlli-altmış manat da artıq verirdi. "Bu, fəhlənin paltar puludur", "bu dəfə mükafatın da var"– deyirdi.

Aylar, illər keçdi, Əkbərdən bağça haqqı tutmadılar.

Bir gün zavodda iclas vardı. Özgə yerdən də fəhlələr gəlmişdi. Direktor haqq-hesab vermək üçün pilləkənli kürsünün üstə çıxdı. Dedi, dedi. Zavodda görülən işləri saydı. Bağça məsələsinə gəlib çatanda Əkbərin ürəyi tıp-tıp elədi. "Deyəcək, Əkbər filan qədər borcludur."

Direktor elə demədi, belə dedi:

– Fəhlə uşaqları üçün qırx nəfərlik bir bağça düzəltmişik. Əvvəllər fəhlələrin bəzisi qorxub, uşağını vermirdi. Elə bilirdilər, onlardan pul çıxacağıq. Halbuki, idarə bağça üçün ildə dörd min beş yüz manat pul buraxır!

– Azdır, çox azdır! – deyə mərkəzdən gələn bir çeşməkli oğlan dözə bilməyib, yerindən səsləndi.

O, məruzədən sonra çıxıb direktoru bərk tənqid elədi:

– Mən baxmışam, o bağça ilə az məşğul olursunuz. Yoldaşlar, hökumətimiz qənaət deyir, ancaq qənaətin yeri var. Fəhlə uşağının tərbiyəsinə əsirgəmək qənaət deyil, xəyanətdir. Bəli, xəyanətdir! Yoldaş müdir anlamalıdır ki, zavod fəhlələrindir. Mən təklif edirəm: zavodun hesabına uşaqlara xüsusi bağça binası tikilsin. Həyəti, bağı, oyun otağı, hamamı, mətbəxi də içində. Orada hər cür oyun şeyləri olsun. Şəhərdən iki nəfər yaxşı tərbiyəçi çağırılsın. Uşaqlar bizim gələcəyimizdir, umudumuzdur.

Bunları eşidəndə Əkbəri heyrət götürdü. Ömründə ikinci dəfə idi ki, o, bu qədər təəccüb edirdi. Təəccüb etsə də, tamamilə inandı, Sovet hökumətinin, böyüklərə olan kimi, kiçiklərə də ata qayğısı bəslədiyini yə-

qin etdi. İxtiyarsız təbəssüm edən dodaqları tərpəndi: "Sovet hökuməti dedimi, eləyəcək! Buna nə söz!"

V

Son günlər göydə böyük bir hadisə oldu. Səhər camaat yerindən qalxıb, havanı kükürd rəngli gördü. Günəşin üzünə ləkə gəlirdi. Ləkə getgedə böyüyür, günəşin üzünü örtürdü. Xalq əl-ayağa düşdü. Günəş, qəlblərdən qopan həyəcanı, yaşamaq arzusunu duymuş kimi, qüdrətli əlini üzünə çəkdi, ləkələri təmizlədi. Dünyada ən böyük və ən müqəddəs olan vəzifəsinə davam etdi.

Həmin gün yerdə də böyük və heyrətli bir hadisə oldu: axşam Əkbər bir xəbər eşitdi:

– Uşaqlı ailələrə iki mindən tutmuş beş minə qədər pul bağışlayırlar. Qərar çıxıb.

Bunu Əkbərə ilk dəfə deyən qonşusu montyor Məhər olmuşdu.

Əkbərin səkkiz uşağı vardı. İkisi böyük idi, uzaq şəhərlərdə oxuyurdu. Böyük qızı tramvay sürən idi. On dörd yaşa qədər olan kiçiklər məktəblərin müxtəlif siniflərində oxuyurdular.

Əkbər işdən qayıdanda uşaqları küçədə pilləkən üstündə dayanıb, onu gözləyən görərdi. Onu görən kimi, qabağına yüyürüşərdilər. O, uşaqların hərəsinə bir şey verməklə sevindirər, özü isə hamıdan artıq şadlanardı. Onlar ətəyindən tutub, qollarından sallandıqca o xoşhallanar, yorğunluğu çıxardı.

Həmişəki kimi bu gün də uşaqları başına yığıb pilləkənlərdən düşürdü. Montyor Məhər ona rast gəlib, yuxarıdakı xəbəri deyəndə Əkbər zarafat sayıb ötdü.

Nahardan sonra qapıya çıxanda Məhər Əkbəri təbrik etdi.

– Demək, iki min manatı alırsan!

– Nə iki min?

– Sənə demədim, hökumətin qərarı var. Yeddi uşağı olan külfətə mükafat verirlər.

Əkbər başı ilə rədd işarəsi etdi:

– Sözdür!



– Qəzetdə var, nə deyirsən? Bizə iş vaxtı dedilər! Qərar var.

– Qərar?

– Bəli, qərar! Qərar var! Qəzet başdan-ayağa bundan yazır. Abort eləyənə də cərimə gəlir.

Əkbər oğlunu səslədi, bir abbası verdi:

– Qaç, – dedi, – Tahir, ordan bir "Yeni yol" al gətir.

Əkbər aldığı qəzetin hər maddəsini oxuduqca dayanıb fikirləşirdi. Çoxuşaqlı külfətlərin məsələsinə çatanda əlini əlinə çalıb, ayağa qalxdı.

– Pah! Pah! Gözüvə dönüm, a hökumət!

Ömründə unuda bilməyəcəyi üçüncü heyrətini soyutmaq üçün qəzetin o yerini bir də oxudu, ayağa qalxdı. Evinə girdi, sevincdən uşaq kimi Ayazı qucaqlayıb öpdü:

– İki min manat! Ay arvad, birdən iki min tapsan, nəyə verərsən?

– Lağ-lağ danışma. Qoy görüm, çaynik daşdı.

– Nəyə verərsən, arvad?

– Sən iki mini gətir, xərcləməyə yer çoxdur! Özümə bir qol saatı alaram, uşaqların da hərəsinə bir dəst paltar alaram. Təki pul olsun.

– Pul var. Pul olacaq. Hökumət qərar çıxarıb, ildə iki min pul verəcək.

– Mükafat var sənə, hə?

– Mənə yox, bu dəfə sənə!

– Mənim nəyimə mükafat olacaq? Əlimdən nə gəlir?

– Ay-hay! Əlindən nə gəlir? Sənin əlindən çox iş gəlir, heyif ki, qədrini bilmirsən!

– Nə iş?

– Doğmaq işi.

Ayaz zarafat sayıb, yaxasını qurtarmaq istədi. Əkbər buraxmadı:

– Sən öl, düzünü deyirəm. Yeddi uşağın varsa, iki min, on üç uşağın varsa, beş min pul bağışlayırlar.

Qadının üzündəki inanmamazlıq bir dəqiqədə həvəs və sevincə çevrildi:

– Əkbər, sən mənim canım, elə şey varmı? Gerçək sözündü?

– Ağzımda söz deyirəm... Hökumətin qərarı var... Özüm oxumuşam. Bizim hökumətin sözü bir olar: deyib – eyləyəcək.

Ayaz inanmışdı. Sevincdən uşaqlarını qucaqlayır, alınlarından öpürdü.

Əkbər evdən çıxdı. Fikrində tutmuşdu: dosta, tanışa rast gəlsə, dayandıracaq, bu şad xəbəri çatdırmaq üçün qəzetlərdən söz açacaq, söhbəti gətirib, mükafat məsələsinə çıxacaqdı.

Şəhər bağına girəndə şənlik səsi onu aldı. Yüzlərlə uşaq meydançada qaçışıb-oynaşır, yıxılıb-qalxır, gülüb-qışqırışırdı. Bu kiçikboylu, zərifüzlü, müxtəlif paltarlı balalar baharın laləli, bənövşəli çəmənliyini andırırdı. Böyüklər isə kənarda əyləşib, qəzet oxuyurdu. Onlar qəzeti əldən-ələ ötürür, danışırdılar.

Əkbər göylərin böyük hadisəsini yadına saldı. O səhər hamı göyə baxıb, qaralan günəşə heyifsilənirdi. İndi hamı yerlərin böyük hadisəsini qəzetdə oxuyur, fərəhlənirdi.

Əkbər bu ümumi sevinc içində hər uşaq səsində mənalı bir nəğmə duyurdu. Ürəyində isə yeni-yeni arzular doğurdu.

*1936*



# YANLIŞ BARMAQLAR

Dostlar oturmuşdular. Gecəni qiyamət keçirirdilər. Erkək ətin bozartması, soğan-sirkə, camış qatığı, sarı yağ, kəhrəba kimi buğda çörəyi. Süfrənin ortasında qızıl minarə kimi yüksələn bir çetverlik Kaxet çaxırı. Çay stəkanları dolur, şüşə get-gedə ağarır, süfrənin nizamı pozulur, çəngəl, bıçaq bir-birinə qarışır. Süfrə başındakıların qəhqəhəsi ucalır. Bayatı, şikəstə, musiqi, mahnı, "sağ olaq, mən ölüm" səsləri bir-birinə dəydikcə qabların içinə tökülüb, çilik-çilik olur. Çox keçmir, bu balaca otaq özünə gəlir. Doymuş qarınlar stola yapışır, sərxoş başlar söykənəcək axtarır. Yuxu, gecənin hakim komandanı, bir ılıq duman olub gözlərə dolur. Gözlər xumarlanır, kirpiklər süzülür, otaqda hərəkət kəsilir. Kimi üfürür, kimi xoruldayır, kimi də keçinmək üzrə olan xəstələr kimi, əl-qolu sallanmış, boyun əyilmiş halda xoruldayır. Bir sözlə, hər şey sərxoş və qeydsizdir. Pəncərədən baxan ay bu dostlara gülüb ötür.

■ ■ ■

Muradlı saat 11-də gözlərini açan kimi, dərs yadına düşdü. Tələsik özünü yığışdırdı, papağını başına basıb qaçdı. Məktəbə çatanda gördü ki, uşaqlar idman meydançasında atılıb oynaşırlar. Muradlı utandığından başını aşağı salıb yeyinlədi, özünü vacib bir iş və ya təsadüf üzündən gecikmiş göstərmək istəyərək ciddiləşdi. Uşaqlar onu görən kimi, toplanmağa başladılar.

– Müəllim, toqqanız sallanır!

– Müəllim, papirosunuz düşdü!

O, tələbələrin bu qeydindən utandısa da, mimikasını dəyişmədi.

– Eybi yoxdur, – deyə əzilmiş, bükülmüş papirosu alıb, şalvar cibinə soxdu.

– Gəlin, uşaqlar, onsuz da gecdir! Dərsə!

Uşaqlar sinfə doldular. Muradlı müəllim otağından jurnalı götürüb, dərsə girmək istədikdə gözü pəncərədən yamaca köç yoluna sataşdı. Bir portfelli oğlan gördü. Yarılğandan enib, düz məktəbə tərəf gəlirdi. Muradlı onun nabələdliyindən anladı ki, bu, yeni inspektordur. Təşvişə düşdü. "Bu nə bədbəxtlikdir... gəlib dərsə girəcək... Mən nə danışacağam?.." Tələsik sinfə girib, uşaqların diqqətini topladı:

– Görürsünüz, balam, odur yamacdan aşağı düşən inspektordur. Sizi yoxlamağa gəlir. Bilməsəniz, sizə pis olacaq, mənə ayıb. Bax, belə eləyək. Müzakirə edəcəyəm. Oradan-buradan soruşacağam. Bilən-bilməyən hamınız barmaq qaldırın! Sual ağzımdan çıxmamış barmaq göydə oynasın!

– Müəllim bəs...

– Dayan, – deyə Muradlı tələbənin sözünü ağzında qoydu. – Dayan. Ancaq bilənlər sağ əlini qaldırsın, bilməyənlər sol əlini! Mən həmişə sağ əllərə söz verərəm.

Müəllim inspektorun qabağına çıxdı. O, ayağını pilləkənin son pilləsinə qoyanda Muradlı əlini uzatdı.

– Xoş gəlmişsiniz, buyurun!

– Sağ olasınız! Bura məktəbdirmi?

– Bəli, məktəb buradır. Buyura bilərsiniz. Dərs keçirik.



İnspektorun mülayim hərəkəti, tabe vəziyyəti müəllimi sevindirdi. Onun iztirabı azaldı.

Müəllim, inspektor da onun dalınca sinfə girdilər.

Müəllim qışqırdı:

– Ayağa qalxın!

Uşaqlar gurultu ilə qalxdılar. Onlara oturmaq icazəsi verəndən sonra Muradlı əlini ovuşduraraq başladı:

– Hə, yoldaşlar, dərsimiz sual-cavabdır. Köhnə dərsləri bir az yadımıza salaq.

– Salaq.

– Kim mənə deyər: Zaqafqaziyada mərkəz haradır?

Sual qurtarmamış "barmaqlar göydə oynadı". Muradlı bu vəziyyətdən razı və təvazökaranə bir surətdə inspektorun üzünə baxdı, gülümsədi. Sağ əllərə söz verməyə başladı.

– Hə, sən de görüm. Qafqazda mərkəz haradır?

– Yevlax.

Bu cavab müəllimə qəribə gəldi. Tələbənin üzünə də baxmadan ötdü.

– Sən de görüm?

– Xəzər dənizi!

– Xəzər dənizinin harası? – deyə, müəllim başqasından soruşdu:

– Xəzər dənizinin ortası!

Müəllim başilə "Yooox!.." işarəsi edib, başqasına keçdi.

– Dibi!

– Böyrü!

Müəllim qızardı və tərlədi. İztirabını gizləmək üçün sinifdə o tərəfbu tərəfə gedirdi. Yaylığını çıxarıb, alnını silmək istəyəndə xırda pullar yerə töküldü. İki şahılıqlar diyirlənərək sanki müəllimin başına dolanmaq istəyirdilər. Qabaqda oturan uşaqlardan biri yığıb, stolun üstünə qoydu.

Müəllim pərt olmuşdu. Uşaqlar da mat qalmışdı. Onlar müəllimin sözünü səhv başa düşmüşdülər. Bilməyənlər sağ əlini qaldırmışdı.

Belə zamanlarda nədənsə vaxt da qurtarmır. Zəng iki saat çəkir. Hər dəqiqə adama bir il gəlir.

Muradlı özünü itirdi, başqa suala keçdi. Barmaqlar etimadını qırdığı üçün tanıdığı tələbəni birinci qaldırdı.

– Cəlal, sən de görüm, kənd təsərrüfatını reqonstruksiya etmişikmi?

Cəlal ayıq və ciddi tələbə idi. Mənasını anlamaq istədi.

– Müəllim, reqonstruksiya nədir?

Muradlı bir duruxdu, lakin yeri deyildi. "İnspektor adamın atasını yandırar. Tələbəni başa salmaq lazımdır".

İki əli ilə stola söykəndi. Bir inspektora, bir də pəncərəyə baxdı.

– Bəs qəzet oxumursunuz? Orada yazılıb ki!.. Reqonstruksiya... reqonstruksiya, necə deyərlər... Dilimizdə söz yoxdur ki! Nə cür deyirsən, çıxmır. Reqonstruksiya... bilirsiniz nədir? Bunu belə demək olar ki, fabrikaya girirsən, qapıdan girirsən, fabrikaya. Görürsən, bir yanda maşınlar, bir yanda fəhlələr vurhavur işləyirlər, bir tərəfdə də əlində tüfəng qaraul durmuş. Belədə adam birtəhər olur. Adamın ürəyi şad kimi olur. Əlbəttə ki, dostun ürəyi şad olar. Elə ki, birtəhər olursan ha, ona reqonstruksiya deyirlər. Başa düşdün də, Cəlal?

Bu halda zəng çalındı. Elə bi,l Muradlı həbsdən qurtuldu. O, qəmgin, pozulmuş, tabe halda inspektorun qoluna girib, irişə-irişə danışırdı:

– Kənddir də, evi yıxılsın keçən müəllimlərin, bunlara bir şey öyrətməyib ki! Məcbur olmuşam, başdan başlamağa... zənnimcə... nəzərə...

İnspektor portfeli götürüb çıxmaq istədi və soruşdu:

– Kənd sovetinin idarəsi haradadır?

Müəllimin dizləri titrədi. "Bu insafsız oğlu birdən-birə akt bağlamaq istəyir. Mən nə eləmişəm ki? Bu nə idi mən düşdüm? Nə yaman adam imiş. Suyun lal axanı...".

İnspektor balkona çıxdı, bir də soruşdu:

– Kənd soveti harada olur?

Uşaqlardan biri irəli yeriyib barmağılə göstərdi:

– Odur, çardaxlı damın qabağında. Daş evdə.

İnspektor cibindən bir kağız çıxarıb Muradlıya uzatdı. Muradlı qorxu və həyəcanla oxudu:

"Həsən Qasımov yoldaş Qumlu kənd sovetinə katiblik vəzifəsinə təyin olunur."



Muradlıda sevincqarışıq bir təəccüb doğdu. Gözünü kağızdan ayıra bilmirdi.

İnspektor əlavə etdi:

– Kənd şovetinə katib gəlmişəm, yoldaş müəllim.

Muradlı onun üzünə baxıb, qeyri-adi halda qaqqıldadı:

– Bay sənin, ay kişi, atan-anan yarımasın, hey!

Həsən Qasımov da məsələni anladı, pilləkənlərdən düşüb gedəndə gülə-gülə Muradlıya dedi:

– Nahaq çaşdın, müəllim, mən inspektor-zad deyiləm, amma reqonstruksiyanı düz demədin, öz aramızdır, incimə...

Muradlı gülümsədisə də ürəyində ehtiyat elədi:

– Bu söz maarif şöbəsinin qulağına çatmaya...

*1936*

# PƏRZAD

Mən bu hekayənin adını "Pərzad" qoyuram. Qəhrəmanım arvaddır. Onun iri və uzun gövdəsi, at kimi yerişi vardır. Hər addımında bir metr məsafəni geridə qoyur. Enli və dəyirmi üzündə şübhəli bir keçmiş oxunur. İlk baxışda bıçaq tiyəsi kimi işıldayan nazik, qara hörükləri nəzərə çarpır.

Məni ən çox maraqlandıran cəhət onun analığıdır. O, qəssab Hacının ikinci arvadıdır. Otuz yeddiillik həyatında üç qız anası olmuşdur.

El arasında deyərlər, "Qız nemət, oğul dövlətdir." Bu, boş sözdür. Elə oğlan var, hazır çörəyi çeynəyib ağzına qoyursan, uda bilməyir, aciz, bədbəxt, kirdarsızdır. Elə qız da var, köz kimidir. Sel ilə sönmür, yel ilə keçməyir. Pərzad arvadın özünü götürək. Onun qundağı və qucağı oğul görmədi. Gördüyü qız oldu. Kim deyir ki, o, qızı Məsmədən, Yasəməndən, Sitarədən oğlan qədər xeyir görməmiş? Cəsarətlə deyə bilərəm ki, tanıdığım oğlanların heç birindən anası Pərzad qədər "bəhrə" götürməmişdir.

...Hacı kişi o biri otaqda kömləkcək, yerin içində oturub gözlərdi.





Qadınlar isə Pərzadın başına toplaşar, salavat, bismillah ilə onun arvadını oxşardılar. Hamıdan artıq Hacı təəccüb edərdi: "Mənim kimi sağlam və tutumlu kişidən niyə oğul olmayır. Qız xəbərini eşitcək qaş-qabağını sallar, həftələrlə arvadı dindirməzdi, həmişə fikirləşərdi: "Bu zəhrimarı nə etməli? İt küçüyünü kim böyüdəcək?" Pərzad Hacının dərdlərini əksiltmək üçün təsəlli verərdi:

– A kişi, nəyin fikrini eləyirsən ey? İndiki oğullar bişüur çıxırlar. Qumarbaz, içkibaz, ağzı çörəyə çatan kimi, atadan üz çevirirlər, yenə Allah qıza bərəkət versin. Yaxşı yöndəmli yerinə salandan sonra kürəkənin sənə oğuldan artıqdır. Oğul baxta-baxtdır. Pis çıxdı evin yıxıldı, dünya zəhmətin itəcək, abrın da gedəcək. Amma kürəkəndir, biri pis oldu, sağ olsun onun əmisi oğlu. Qızımın qolundan tutub o birisinə verərəm. Nə çoxdur təşnə oğlanlar. Məsmə, Sitarə kimi ay parçasını göydə götürərlər. Sən heç fikir eləmə. Bunlar hamısı mənim boynuma.

Pərzad arvad hələ 8 yaşında ikən Məsməsini "ağ günə" çıxarmaq üçün əməli tədbirlərə başlamışdı. O, həmişə mızıldayaraq oxuyurdu:

*Ərə gedən qızını*
*Yaxşı ara izini.*
*Sonra peşmançılıqda*
*Qucaqlama dizini...*

Məsmənin Hacı Seyid kişiyə getməsinə Pərzadın başmaqları da razı idi. Lakin o bu razılığını öz evindən kənara çıxarmırdı. Arvadlar arasında Hacı Seyidə yaxın adamlarla danışanda deyirdi:

– Çox da varlıdır, Hacıdır, gəlir-götür sahibidir, axı qocadır. Qızım onun nəvəsi yerindədir. Mən onun hacılığına, abırlı adam olmasına görə Məsməni verirəm. Bunun qabağında beş min manat başlıq nədir ki, ona nəm-nüm edirlər? Lap eşiyə tullasam, Məsməyə ondan artıq başlıq qızıl alaram. Nə olub, xalqın uşağı çöldə qalmamışdır ki, beş min manata nə verirlər? O da Məsmə kimi qaragöz, indi hələ onun nə vaxtıdır. Qoy bir 12-sinə dolsun, döşü qalxsın, lap birinci tacir oğluna verməsəm...

Evdə qohum-əqrəba yanında isə Pərzad məsələni başqa cür izah edirdi:

– Varlı-karlı kişidir, niyə verməyək? Şərt o deyil ki, cavan olsun, üzündə ayran içməyəcəyik ha, bizə dolanışıq lazımdır. Kimi var ki? Qoca kişidir, sabah-birisi gün başını yerə qoyanda hamısı Məsmənin olacaq. İş də budur. Çox da ki qız istəmir! Özbaşına deyil ki!

Pərzadın dedikləri yerini aldı. Hacı Seyid Bağır ağa pərdə dalından Məsməyə xitab ilə deyirdi:

– Qızım, Hacı Seyid vələdi mərhum Hacı Əsədə zövcə olmaq meylin var, ya nə?

Qadınlar Məsməni aralığa alıb öyrədirdilər:

– Məsmə, axundun dediklərinə "bəli" de! Ayrı söz danışma.

Məsmə isə heç kəsə fikir verməyir, palazların altını eşələməyə, itirdiyi muncuğu axtarmağa məşğuldu. Onun əvəzində Şərəbanı xala səsini incəldərək "bəli" cavabı verdi.

18-ci ilin payızında Məsməyə keyfin istəyən təntənəli bir toy oldu. Hacı Seyiddən alınan başlıq qızıl, pal-paltar və məxaricdən başqa şabaşdan Pərzad arvadın əlinə 2700 manat köz kimi nəğd pul gəldi. Bu o deməkdi ki, Pərzad böyük bir çörək sahibi oldu. Toyun səhərisi gündən başlayaraq, Pərzad arvad özünü lap xoşbəxt hiss edirdi. Qızları və bacılıqları ilə bərabər Hacı Seyidin süfrəsindən yeyirdi. Məsmənin vasitəsilə hər ehtiyacını artıqlaması ilə ödəyirdi. Hacı Seyiddən kiçik olmağına baxmayaraq, onu "oğlum" deyə çağırır, başına dolanmaq istəyirdi.

18-19-cu illər böyük hərəkat və çaxnaşma illəri idi. Hökumət lap özünü itirmişdi. Qarışıqlıq, yiyəsizlik üzündən heç kəsin sabaha aydın ümidi yox idi. Bu momentlərdən istifadə ilə tacirlər, möhtəkirlər öz yükünü tuturdu. Ancaq bu dəfə Hacı Seyidə bədbəxtlik üz vermişdi. Onun 2 paroxod xuşkəbəri dənizdə batmış, veksellәri protestə getmiş, "sınıq" çıxaraq, qəfəsələri boşalmış dükanında zəif bir şam yandırmağa məcbur olmuşdu. Hacının başına gələn bu "iş" bir müddət nə Məsməyə, nə də Pərzada təsir etdi. Hələ evdə ehtiyat da var idi. Nə bişmişlərin dadı əksildi, nə də sandığın ehtiyatı. Hacı öz başına gələnləri və həmkarlarının heç birindən kömək görmədiyini acı-acı nağıl etdikcə Məsmə gülər, Pərzad təsəlli verərdi.

Lakin bu quru təsəllidən də bir nəticə çıxmadı. Yavaş-yavaş Hacı evə, qiymətli şeylərə əl atmağa məcbur oldu.



Vəziyyət artıq dözüləsi deyildi. Pərzad siyasətini dəyişməli idi. Daha doğrusu, kösöyün o biri başını çevirməli idi. O, bunu birdən-birə də edə bilərdi. Lakin gələcək üçün yaxşı deyildi. Ehtiyatlı tərpənmək, işi bişirmək lazım idi.

Pərzad bir müddət ayağını qızının evindən kəsdi, indi qızının görüşünə ayrı sifətdə gəlirdi. Bir axşam bu sözlərlə qızını görməyə gəldi:

– Allah məni öldürsün. Qızım, bu nə gündür, bu nə sifətdir düşmüsən... Buna bax! Qızın bət-bənizi qalmayıb ha. Mənim başıma daş düşsün. Qız, niyə bu günə düşmüsən?..

Hacı əvvəlcə başa düşmədi. O da bir tərəfdən Məsməni əzizləmək istədi:

– De da! Bilmirəm, bu nəyin fikrini çəkir? Deyəsən, mənim kimi gəmiləri batıb?

Pərzad oturmadı. Məsməni qapıya çağırıb, nə isə pıçıldadı, çıxıb getdi.

Hacı bir axşam evə qayıdanda qapını bağlı gördü. Açarı qonşudan alıb içəri girəndə köç tədarükünə oxşar bir mənzərə gördü! Balışların məxmər üzü soyulmuşdu. Divar xalçası, ağ samovar, böyük toy güzgüsü yoxdu. Xırım-xırda ev şeyləri yükdən açılmış kimi, aralığa tökülmüş, bir-birinə qarışmışdı.

Dərhal işi anladı. Qonşulardan sual etdikdə ona səkkiz qat bükülmüş, dalısı yağlı barmaqlardan kirlənmiş bir kağız verdilər. Pərzad Məsmənin dilindən yazdırdı:

"Kəbinim həlal, canım azad, mənim kağızımı ver, şeyini al."

■ ■ ■

– Gətirin qocanı. Sən bəyin qapısından keçəndə asqırmısan. Xanıma tək səbir düşmür. 50 manat cərimə verməlisən. Bircə tez ol.

– Hə, bu Həsənquludur. Sən nə cürət ilə izinsiz ot biçmisən, nə yeyib belə qudurmusan. Buna 20 qamçı, 30 manat pul, haydı.

Beləliklə, çəkməçi Məhərrəmin evində xalqa möhkəm toy tutulur. Toybəyi bığlarını dovşan qulağına döndərmişdir. Otaqda döyülən və cərimə edilənlər qaşqabaqlı oturmuşdu. Yeni gələnlər qorxudan içəri

girmirdi. Otuzluq lapmanın işığı adamların burnunu işıldadır. Toydur. Bəyin divanı ara verəndə zurnaçılar başlayır. Aşıq Abbasın dalınca zurnaçı Əkbər sürünür. O, otağın havasını sorub zurnasına doldururdu. Dəyirmi üzü tunc kimi qızarırdı. Qavala tökülən şabaşlara diqqətlə nəzər yetirir, ürəyində sayırdı. Yaxşı olub ki, götürə danışıblar. Şabaşa ümid olsaydılar, heç şey çıxmayacaqdı.

Gəlin isə çoxdan gətirilmişdi. Dibdə bir balaca otaqda arvadlar onun başına toplanmışdı. Yasəməni qurbanlıq quzu kimi bəzəmişlər. Üst-başına sırınmış piləklər onu qaraçı qadınlarına oxşadırdı. O, indi ağır bir yük altındadır. Onu öpən, buradan qaldırıb, orada oturdan, oxşayan qadınların heç birindən xəbəri yox idi. Yasəmən bir daşa, bir heykələ dönmüş, onu fikir götürmüş: keçmiş, gələcək, ev, ər, çadra...

O, burada nə gəzir, 14 baharı bitməmiş bir uşaqdan nə istəyirlər? Onudamı Məsmə kimi satacaqlar? Qızlar nə qədər bədbəxtdir! Nə üçün hamının üzərində dalğalanan azadlıq bayrağı Pərzadın damına gəlmədi? Nə üçün o iki ildən bəri başlayan yeni həyat yollarının qapısı Yasəmənə açılmadı? Bunun təqsiri kimdədir?

Bəlkə o qolundakı zəncirləri atıb, günəş altına çıxsa, bütün bu rəngbərəng və çirkin şeylərdən canı qurtarar... Buna onun haqqı vardı. Lakin cəsarəti çatmırdı. Yasəmən bu fikirlər içində boğulduğu zaman soyuq bir əl onu tərpətdi. Hamı yatmışdı. Səs kəsilmişdi. Pəncərədən sallanan ay da küsmüş kimi, çəkilib getmək üzrə idi...

■ ■ ■

Əlii yeddi gündü ki, Yasəmən Məhərrəmin evində idi. Qara gün nə uzun olurmuş... Ona elə gəlir ki, anadan olandan bu dörd divar arasında əsirdir. Hər zaman cəllad kimi baxan Məhərrəm hər axşam yeni-yeni tələblərlə gəlirdi. Bazardan gətirdiyi acığı da Yasəmənin üstünə tökürdü. Mətbəx, süpürgə Yasəmənin yeganə məşğuliyyəti olmuşdur.

Qayınana mırıldanırdı:

– Kütdür, toxumaq, yamamaq, yoğurub-yapmaq bilmir. Oğlumun ayağına durmur. Saqqız kimi yapışıb qalmışdır. Oğlum da yazıq oldu! Bir aləmcə xərc tökdük...



Yasəmən evlərindən və yoldaşlarından xəbər aldıqca daha da təsirlənirdi. Dünən qonşunun qızı Səliməni məktəbə gedərkən görmüş, yenə də bulud kimi dolmuşdu.

Pərzad arvad isə qızını unutmamış; o, bu dəfə qızını görməyə təkcə gəlir. Yasəmənə təsəlli verir:

– Qızım, fikir eləmə, arıqlamısan, görürəm. Səni başqa bir oğlana verəcəyəm. Heç fikir çəkmə! Maral kimi bir oğlan tapmışam, işin yoxdur... Ağzı nədir, qoymaram sənə korluq verə...

Pərzad özünü aldanmış saydığı kimi, Məhərrəm də özünə məğmun kimi baxırdı.

Pərzada nə çatmırdı?

Yasəməni Məhərrəmə verirkən, min manat başlıq almış, yarım girvənkə qızıl da qızın kəbininə saldırmışdı. O, bu fikirdə idi ki, Məhərrəm pullu və gəlirli adamdır. Onların nəsli arvada yaxşı baxan olubdur. Bu hal Pərzad üçün ən lazımlı moment idi. Lakin bu gözlənilən kimi çıxmadı.

Məhərrəm qız cəhətdən məğmun deyildi. Ancaq Yasəmənin ürəyini ələ gətirə bilmirdi. Tədbir qalmadı ki, ona etməsin. Mümkün olmur. Qızın üzü gülmürdü.

Məhərrəm buna dözə bilməzdi. Çox sıxılırdı. Yasəmən onun evindən əl götürmək, yorucu əzabdan qurtarmaq istəyirdi, mehr verməkdə Məhərrəm üçün imkansızdı. Buna görə Yasəməni getdikcə çox incidirdi ki, özü çıxıb getsin. Qayınanası isə bu kələkləri beşikdən öyrənmişdi. Onun ömrü qız alveri ilə keçmişdi. Onu aldada bilməzdilər. Məhərrəm Yasəməni qovub kəbini rədd edə bilərdi. Çünki zaqsın bundan xəbəri yox idi. Ancaq bu, Məhərrəmə ağır gəlirdi, arvad boşadı, kəbini dandı. "Dost var, düşmən var. Adama nə deyərlər? Yaxşı olmaz... Qoy özü rədd olsun",– deyirdi.

Hər iki tərəf gözləyir, lakin heç biri güzəştə getmirdi.

Bayram axşamı Məhərrəmin evində dava qızışdı. Onun anası balalı pişik kimi hamını cırmaqlayırdı. Pərzadın üstünü almışdı:

– Apar matahını evində saxla. İndi ki, bizim çörəyimizə naşükürlük edir.

– Mən qızımı vərəmləməyə verməmişəm. Yüz yerdən istədilər, onu

başımda saxladım. Düz-əməlli saxlamırsınızsa... bu nədir, qız mum kimi əriyir.

Bu çəkişmədən aydın bir nəticə çıxmadı.

Hər iki tərəf ürəyini boşaltdı. Yasəmən isə nə üçün bu davaların mövzusu olduğuna darılırdı. O, yenə də Məhərrəmin evində qalırdı, heç kəs onu dindirmirdi, o böyük bir cinayətkar kimi görünürdü.

Yasəmən bu məhbəsdən qurtarmalı idi, lakin ona kim kömək edəcək, anasımı, ərimi?

Bunlar Yasəmənin bir-birinə düşmən iki cəlladı idilər. Bunlardan uzaqlaşmayınca Yasəmən dincəlməyəcəkdi.

■ ■ ■

Hamı yatmışdı. Yalnız çayın bu tayında uzanan pəncərələr, qızaran gözləri ilə üfüqlərə və açıq səmaya baxır. O evlərdə oynayan uşaqlar görünürdü. Sabah onlar bayram edəcək, geyinəcək, görüşəcəkdi. Arxa tərəfdə yeni tikilmiş elektrostansiyanın qəlbi döyünərək, səslənir. Mahud fabrikası yeraltı qazlar kimi guruldayır... Bu təntənə nə üçün dilə gəlmir, nə üçün məsum bir ürəyin ağrılarını hiss etmir, yaralarını bağlamırdı?

Vaxtilə qaranlıqdan qorxan Yasəmən indi karvan başçısı kimi fabrikaya doğru iri addımlarla yürüyürdü. Qurtuluş onda idi.

Müseyib Yasəməni zavkomun yanına gətirdi.

– Bir sən deyilsən, bacı, Azərbaycan qızları indi ayılırlar. İnqilab gözlərdə asılan qara pərdələri yırtmışdır. Azadlıq ruhu qəlblərdə coşur. Hər gün fabrikamıza dəstə-dəstə qadınlar gəlirlər.

Zavkom mehriban və arxayın ifadə ilə əlavə etdi:

– Heç fikir çəkməyin! Sizi əyirici şöbəsinə qoyarıq, bir az təcrübələnərsiniz, ev cəhətdən hələlik Məryəmovanın yanında olun, biz sizi nəzərdə tutarıq.

Bu, Yasəmənin həyatında ilk və böyük bir dəyişiklik idi. O, ömründə heç istehsalat görməmişdi. Maşınları, sexləri, dəzgahları, gülərüzlü işçilərin qəhrəmanlıqlarını öz gözü ilə görə bildi. Bu qaynayan və coşqun həyat Yasəməni qucağına aldı. Çox çəkmədi, komsomol sıralarına



keçdi. Pərzaddan gələn sifariş və dəvətlərə qarşı deyirdi: "Mənim anam fabrikadır. Başqasını tanımıram!"

Pərzad arvad, elədiyindən peşman olmaya bilməzdi. O, həm Əlidən oldu, həm də Vəlidən: kəbindən bir kor quruş gəlmədi. Bir şey tələb etməyə də ümidi qalmadı. O biri tərəfdən isə təkrar satılası Yasəmən evdən çıxmışdı. Onun üçün Yasəmən yox kimi idi. İndi ümidi yalnız balaca qızı – Sitarəyə gəlirdi. Sitarənin 13 yaşı yenicə tamam olurdu. Buna baxmayaraq, gənclik və gözəllik cizgiləri özünü göstərməkdə idi.

Elçilər axıb gəlirdi. Onu kimə və nə cür vermək lazımdır? Qoy məktəbdən-zaddan qol-qanadını yığışdırsın. Pərzad isə bu işdə daha da ehtiyatlı tərpənmək ehtiyacı duyurdu:

– Zamana xarabdır. Qızın saqqızını oğurlayarlar. Nə demək olar? Yasəmənin bacısı deyilmi?!

Cümə günü çadrasına bürünərək, Möhsüm axundun evinə getdi. Sitarənin baxtını məşvərət elətdirmək istəyirdi, ürəyində tutmuşdu ki, Sitarəyə ən yaxşı adam dərzi Cahangirdir. "Özünün abrı, nəsli, daha nə istəyirsən? Tək oğlandır! Bir yığın güzəranı var. Qoy Yasəmənin gözü çıxsın. Qoy o, anasını fabrikalara satsın." Bütün bu təsəvvürlərin sözdən işə keçirilməsi üçün ciddi hərəkət və iş lazım idi. Bu böyük plandır. Məşvərət ilə başlamalı idi. Buna görə də Pərzad Möhsüm axundun başını ağrıdaraq, kitaba baxdırır, Allahın əmrini eşitmək istəyirdi.

Pərzadın gətirdiyi bir səbət üzüm axundu yarımçıq təmin etdi. Təvazö yolu ilə saqqalını qaşıyaraq deyirdi: "Nə zəhmət çəkirdin?! Nəyə lazımdır?! Nahaq gətirmisən!" Pərzad bu sözlərdən anladı ki, axund narazı qalmışdır, əlini qoltuğuna saldı, qırışmış bir beşlik çıxarıb, səbətin başına qoydu. Axund özünü görməzliyə vurub kitaba yönəldi. O, Xorasandan gətirdiyi qara təsbehini cütlədi və izah etdi:

– Mətləbinə çatacaqsan. Qabağında böyük bir dəniz görünür. Dənizdən sənin payın nicat gəmisidir. Sən bu gəmidə işıqlığa çıxacaqsan, gəmiçi sənin yaxının olacaq, əliaçıq və səxavətli adamdır. Onun qundağı sənin beşiyində görünür.

"Aydındır! Məşvərət qızıl kimi düz, savab kimi xoş gəlir. Dəniz yeni qaydaya qoşulan pozuq qızlardır. Gəmi toydur, gəmiçi Cahangirdir, qundağı mənim qucağımdadır. Yəni mənim oğlum olacaq."

– Allah qədəmini mübarək eləsin, imanın kamil olsun, axund, – deyə Pərzad çox şad qayıtdı.

Tezliklə işə başlamalı, Cahangirin elçilərini çağırmalı idi. O, köhnə bacılığı Həliməyə öyrətdi ki, Cahangiri dingildətsin. Həlimə boyun qaçırmadı, Cahangirə adam saldı, elçilər gəldi, ticarət başlandı.

■ ■ ■

Yaz idi. Müəllim uşaqları çölə aparmışdı. Məktəblilər bitkilərin, çiçəklərin adını müəllimdən soruşurdular. Çılpaq qayalara dırmanaraq, mədən daşı toplayırdılar. Qız, oğlan lalə kimi uzaqlardan seçilir, onlar çiçəklə daha çox maraqlanır, buket bağlayırlar. Sitarə kök bir dəstə hazırlamışdı. Xeyransanın dili dinc durmadı:

– Ağız, – dedi, – nişanlına, Cahangirəmi hazırlayırsan?

Bu söz Sitarəyə güllə kimi dəydi: pul kimi qızardı. Uşaqlardan biri Xeyransanı danladı:

– Nə işin var? Öz sözünü danış!

Doğrudur, Sitarə Cahangir barədə xalasından eşitmişdi, hamısına ağır cavab vermişdi. Lakin belə yerdə, uşaqlar arasında ilk dəfə eşidirdi. "Bu nə deməkdir, sabah bu söz yayılanda mən nə edəcəyəm? Müəllimlər eşitsə, nə deyər? O hara, mən hara? Hansı uğursuz bu söhbəti salmış?.."

Sitarə evə qayıdanda bərk tutulmuşdu, himə bənd idi, ya ağlayacaq, ya da top kimi partlayacaqdı.

Pərzad onun fikirlərini dağıtmaq üçün bir az oxşadı, başına dolandı, sonra yemək verdi.

– Qızım – dedi, – sabah dərsə getmə, evimizə adam gələcək, yaxşımı?!

Sitarənin o saat ürəyinə damdı.

– Nə qonaq? Mən qonaq-zad bilmirəm! Dərsimdən qala bilmərəm!

Pərzad özünü topladı, ciddiləşdi və rəsmiləşdi:

– Kəs!.. Sən də ölmüş bacından öyrənirsən söz qaytarmağı? Sənə nə deyirlər, qulaq as, qataram bir-birinə məktəbi də, dərsi də! Buna bax!

Sitarə cavab vermədi. Bir tikə çörəyini yeyib, yoluna düzəldi.



Səhər Sitarəni dərsə buraxmadılar. Günorta oldu. Pərzad plov qazanını ocaqdan düşürdü. Üç qadın gəldi. Biri qoca idi, o birisinin uşağı vardı, üçüncüsü lap təzə gəlin idi. Lakin bunların heç biri Sitarəyə tanış deyildi. Onlar çox rəsmiyyət və ehtiram ilə içəri girdi, qarğa kimi evin ortasına qonub oturdular. Qocası Sitarəyə çox diqqətlə baxdıqdan sonra əhvalını sordu, dərhal yeni mövzu açdı:

– Dünən Cahangir də dükandan yorğun gəlmişdi. Bacısı ölsün, inciyir.

Sitarə duydu, məsələ aydın idi. Kitablarını götürərək, evdən çıxdı.

Qonaqların başı söhbətdən ayıldı. Aralığa süfrə gəldi, onlar Sitarənin də birlikdə nahara oturmasını tələb edirdilər. Pərzad bayıra çıxdı, qızı tapa bilmədi. Məktəbə getdiyini bildi. "Ayıbdır" – deyə qonaqlara bildirmədi – "utanır" – dedi.

Sitarə qaranlıq qovuşanda qayıtdı. Pərzad ağzını açmamış o başladı:

– Ana, məni saxlaya bilmirsənsə, izin ver, gedim, mənim yaşamağımı istəyirsənsə, satma! Mən ərə getməyəcəyəm! Oxumaq istəyirəm!

Pərzada elə gəldi ki, kimsə qızın qılığına girib, başdan çıxarıb, yoxsa belə şey olmaz. "O, mənim südümü əmibsə, sözümdən çıxmayacaqdır. Yox, zatında şübhə varsa... nə bilim?" Arvadı fikir götürmüşdü. Od tutub yanırdı, pıçıldayaraq danışdığı arvadlar, qonşular hamısı deyirdi:

– Ehtiyatlı ol, qız əldən çıxar!

Ayrı cür ola bilməzdi. Sitarəyə nişan gəlmişdi. O, məktəbə getməməli idi. Evdə bəslənməli idi. Bunu yerinə yetirmək, qızın qarşısını almaq lazımdır. Pərzad tək qalmamaq üçün Cahangiri köməyə çağırdı. Axşam yeməyinə bir az qalmış Cahangir sakitcə evə təpildi. Sitarənin bədəni titrədi, gözü qızardı. Qayınanası Cahangirə yer göstərdi. Sitarə isə ilan vurmuş kimi, həyətə çıxdı. Pərzad da onun dalınca çıxdı. Lakin o, gözdən itmiş, bir quş kimi uçub qeyb olmuşdu. Pərzadın manevrası pozuldu. Cahangir də uduzmuş qumarbazlar kimi, ətəklərini silkərək, ac ehtirasını götürüb evdən çıxdı. Pərzad o gecəni yatmadı, bacısıgilə, qaynıgilə, müəllimlərin evinə getdi, Sitarə tapılmadı.

Sitarə isə texnikuma qəbul olunmuş, pansionda yaşayırdı. Yasəmən

onunla birləşmiş, onun hər bir işinə köməklik edirdi. Yəqin ki, Pərzad cinayətkarlığını anladıqdan sonra orada, o kimsəsiz damda qalmayacaqdı. Həyat ona indi çox acı, sıxıntılı görünürdü. O, Yasəmənə çox sifarişlər göndərdi. Sitarəni məktəbin küncünə çağıraraq, çox söhbətlər etdi. Onlar indi heç Pərzadın qızına oxşamırdılar. Onlar yeni yetişən xoşbəxt nəslin içində böyüyürdü. Onların əsl anası bu yeni cəmiyyətdi.

– Qızım, mən sizə analıq yox, cəlladlıq etdim. Məni bağışlayın.

Pərzadın bu halı, bu etirafı Yasəməni yumşaltmaya bilməzdi. Onun çirkin əməllərinin təqsiri bağışlanmazdı. Lakin qarşısındakı anadır. Bu çirkinliklərin kökü, səbəbi yalnız o deyildi. Köhnə cəmiyyətdi. Analar övladlarının bədbəxtliyini görmürdü. Tamah, pul, mövhumat, köhnə adətlər onların gözünü örtürdü.

Yasəmən anasını pasyolkaya gətirdi. Sitarəni çağırtdırdı. Üçüncü axşam işçi klubuna kinoya getdilər. Yasəmən bu kinodakı əhvalatı anasına izah etdikcə, heyran-heyran baxırdı.

– Bax, ana, o qadın Kösəri (qızını) zorla ərə vermək istəyir, qızı görürsən, qoymurlar... Odur küpəgirən qarı...

Pərzad kinoda bir özbək qadınını yox, uzun paltar geymiş özünü görürdü. Hamı ona gülür, hamıya o iyrənc və kirli görünür. O, qızlarına elədiyi çirkinliklərin cinayətdən də ağır olduğunu anlayırdı. Göz yaşlarını silə-silə deyirdi:

– Məni öldürün, mən naxələf oldum!

Sitarə onun ağarmaqda olan saçlarını tumarlayaraq, başını qaldırır.

– Yox, ana, biz unutmuşuq, sən bizim sevimli anamızsan. Biz səni daha artıq sevirik.

*1936*



# KAĞIZLAR ALƏMİ

Bu idarə şəhərin kənar bir yerində, görkəmsiz bir binada idi. Pəncərələri dar döngəyə baxırdı. Qapısı sısqa ağacları olan kölgəli, rütubətli bağçaya açılırdı. Qapının başında paslı və bozarmış bir lövhə vardı.

Saat doqquza qədər idarə suyu sovulmuş dəyirman kimi səssiz, hərəkətsiz olurdu. Stullar yorğun öküz kimi durardı. Mürəkkəb qabları uyuyar, qələmlər dincələrdi. Paltar asqısı üşüyər, qalın və xəzli paltoların intizarını çəkərdi.

Saatın böyük əqrəbi kiçik qardaşından ayrılıb on beş dəqiqə yoxuşa dırmanar, sonra ağzı aşağı yüyürməyə başlardı. Həmin bu vaxt pilləkənlər dillənərdi. Dönə-dönə rənglənməsinə baxmayaraq, qocalar kimi bəzək tutmayan, bozaran və laxlayan qapının tayı zırıldamağa başlardı.

Adamlar içəri girən kimi, düymələrini açar, paltarlarını çıxarar, otaqlara soxulardı. Çox çəkməzdi, hər stula bir qarğa qonar, kağızları dimdiklərdi. İdarənin çiçəyi sayılan qadınlar gələndə hava ətirlənər, otaqlar qızar, gözlər parlardı. Qadınların təbəssümü cib güzgüsü ki-

mi qarğaların üzünə işıq salardı. Onlar qımıldaşar, qarıldaşardı. İdarədə, ən uzun olmağına baxmayaraq, ən məşhur əzbər ad bu xanımlarınkı idi. Dördgözlü kişilər stol dalından qalxar, xanımların qabağında əyilib deyərdi:

– Bədiülcamal xanım... mmm... hərçənd zəhmətdir, bu təliqəni də dəftərə salarsınız... salarsınız... dəftərə... mmm...

Feodosiya Daşdəmirovna dəftəri gətirər, Bədiülcamal xanım qələmi mürəkkəbə batırıb, papiros tüstüsündən kiçilən gözlərilə kağıza baxardı. Mehralı bəy Sazandarov isə əlindəki kağıza diqqətlə baxardı.

– Deməli ki, yazacaqsınız, bu saat deyim necə... necə yazacaqsınız... yazacaqsınız... canım ərz eləsin xanımın qulluq şərifinə... yazacaqsınız min altı yüz on doqquz nömrə.

– Yazdım.

– Yazdınız ki?

– Yazdım.

– Çox gözəl. Birini də yazacaqsınız şəhər ticarət banginə.

Bədiülcamal xanım Mehralı bəyin sözünü təkrar edə-edə dəftərin küncündəki balaca sütunu qarışıq xətti ilə doldurardı:

– Şəhər ti-carət ban-gi-nə.

– Yazdım.

– Yazdınız ki?

– Yazdım, bəli!

Təliqə birdən-birə Bədiülcamal xanıma gəlib çıxmazdı (bu cinayət sayılardı). O, dönə-dönə yazılar, dönə-dönə düzəldilər, bir neçə yoxlamadan keçərdi. Özü kiçik bir şey olsa da, bəzən böyük bir mübahisə qopardı. İllah da ki, təliqələrin son sətri həmişə idarəni başına alan bir gurultuya səbəb olardı.

– "Xahiş olunur."

– "Rica olunur."

Cümləni bunların hansı ilə qurtarmaq lazımdır?

Kimisi (mənşə etibarilə kənddən çıxanlar) **"xahiş"** yazılmasını lazım bilərdi, günün çoxunu şantanlarda keçirən, kübar məclislərinə xüsusi dəvətnamə ilə çağırılanlar isə **"rica"** yazılmasını tələb edərdilər, hətta fikirlərini qol zoru ilə yeritmək istəyərdilər. Bunlar, lazım gələrsə,



fikirlərini yazılı surətdə izah və isbata da qalxışardılar:

– **Rica** ədəbi sözdür, ziyalılar arasında ən hörmətli sözlərdən biridir.

Kiçik bir qrup, daha doğrusu, idarədə özünün "yenipərəst"liyi ilə tanınan və müdirin yanında xüsusi xidməti ilə əziz olan (bu xüsusi xidmət nədən ibarətdi, bu heç kəsə bəlli deyildi, heç kəsin də bunu soruşmağa ixtiyarı yoxdu) Fikri Nəcat əfəndi isə həmişəki kimi indi də "orijinallıq" elər, üçüncü bir təklif irəli sürərdi.

– **Təmənna olunuyor...** Təliqətlərin son cümləsi belə bitirilsin: **"Təmənna olunuyor".**

Bu təklif lap gülünc çıxdı.

Ağa Nəbi ayağa qalxıb buyurdu:

– **"Təmənna"** qəliz çıxar. Həzəratdan xahiş edirəm ki, **"təmənna"** olunmasın.

Fikri Nəcat onun sözünü kəsdi.

– Qəliz çıxması pək gözəldir. Burası ədəbi lisan qollanmaqdır. Cahilmisən, yahu **"təmənna"** nə qədər cazibəli!

Ağa Nəbi etiraz etmək istədi. Mehralı bəy onun ətəyini çəkib işarə etdi:

– Ədə, otur aşağı, başın gövdənə ağırlıq eləməsin. Nəyinə borcdur sənin?

Ağa Nəbi oturdu, heç kəs dinmədi. Müdir ayağa qalxdı.

Bütün təklif sahibləri əlini ürəyinin başına qoyub onun hər bir kəlməsini əmr kimi gözləyirdi. Ağzı kotletə oxşayan bu şələbığ çal kişinin haçan yüngül səsli, ağır qiymətli sözlə başqalarının təklifini darmadağın edəcəyini, Fikri Nəcata yeni bir afərin deyəcəyini gözləyirdilər. Lakin bu dəfə həmişəki kimi olmadı. Müdir heç kəsin təklifini bəyənmədi:

– Yox, səhv edirsiniz, danışıqlar xoşuma gəlmədi. Hətta Fikri Nəcat əfəndinin özü də başlayanda az qaldı ki, bir balaca səhv eyləyən kimi olmaq istəyənə oxşasın.

Burada Fikri Nəcat öskürdü, razılıq işarəsi verdi.

– Pək doğrudur. Az qaldım ki, səhv eliyən kimi olmaq istəyənə oxşayım. Etiraf edirəm.

Müdir davam etdi:

– Məsələ belədir, həzərat! Siz idarənin mənafeyini tamamilə nəzərdən qaçırırsınız. Siz idarəni... siz idarəni müştərilər yanında alçaldırsınız.

– Hiyyy!

Kimdənsə belə bir heyrət nidası çıxdı. Müdir sözünü təkrar etdi:

– Bəli, alçaldırsınız! Necə yəni **"xahiş"**, **"rica"**, **"təmənna"**, yaxud **"arzu."** Axır biz də bir müəssisəyik, ya yox? Axır bu idarənin də başında bir nəfər bəy oturub, ya yox? Bütün ümuratı inanıb mənə həvalə ediblər, ya yox?

Müdir bu sualları verdikcə idarə işçilərinin heyrəti, diqqəti artırdı. Onlar ixtiyarsız, əlacsız müdirin suallarına bir ağızdan cavab verirdilər:

– Müəssisəyik!

– Oturub! Lap da böyük bir zat oturub!

– İnanıblar!

– İndi ki belə imiş, nə üçün bütün idarələrə düşüb **"rica"**, **"xahiş"**, **"təmənna"**, **"arzu"** edən biz oluruq? Bu qətiyyən doğru deyil! Qoy başqaları bizdən rica eləsin!

Fikri Nəcat əlini stola vurdu:

– Mərhaba bu fikrə! Mən öz **"təmənnamı"** geri götürürəm.

– Mən də **"rica"**nın əleyhinə çıxıram!

– Müdir cənablarına minnətdar olub, naqabil sözümdən üzr diləyirəm.

Hamı yerbəyerdən müdirin hələ tamamlanmamış fikrini alqışladı. Müdir sevincindən qızardı. Bir neçə dəfə gözlərini qırpıb yerə baxdı. Təbəssümü üzündəki ciddiyyətdə gizlətdi.

– Bizim nəyimiz başqalarından əskikdir? İdarəmiz var! Müdirimiz var! Mən heç vaxt bununla özümü demək istəmirəm, ha! Peçatımız var! Ştampımız ki, hamıdan yekədir! Makinaçımız var! Biz nə üçün yetənə **xahiş** edək?.. Belə eləmək lazımdır. Gərək təliqələri elə yazaq ki, öz hörmətimiz və idarəmizin adı bilinsin, məşhur olsun. Heç kəsi üstün tutmayaq. Belə yazaq: tutalım ki, nəzarətə yazırıq, filan hesabın ləğv olunması sizdən xahiş edilir. Yazaq: filan hesabın ləğv olunması sizə **məlum** edilir.



– Lap gözəl olar...



Kərpiç məsələsi səh.232

Bu fikri hamı bəyəndi. Müdir dərhal katibə tapşırdı ki, belə bir ştampı sifariş edərsən. Birisi günə qədər hazır olsun. Ştampda yazılsın:

**"...olması sizə məlum edilir".**

Hamı, hətta makinaçı da sevindi. Çünki hər təliqədə bir sətir əskik yazacaqdı. İndi təliqələrin son sətri həm iri, həm də başqa rəngdə olurdu:

"...N... idarəsi öhdəsindəki 647 manatı tezliklə bizim hesaba keçirməniz... olması sizə məlum edilir.

İmza"

## II

Tənəffüs vaxtı idarənin tam şadyanalığı başlanardı. Qarğalar stol dalından qalxıb koridora, yetim uşaq kimi sızıldayan samovarın başına yığışardılar. Asqının başına quş kimi qonmuş şlyapalar sanki, idarənin işinə, həm də dünyanın işinə fikir verirdi. Şlyapaların sahibi qadınlar stolun gözündən çıxardıqları yağ yaxmacını dişləri ilə çimdiklərdilər. Qarın dolusu yeyər, ağızdolusu deyər, könül dolusu gülərdilər.

İdarəyə işi düşən adamlar belə hallarda boynunu burub pilləkəndə durar, gözlərdilər. Tənəffüs isə hələm-hələm qurtarmazdı. "Molla Nəsrəddin"dən, cahan müharibəsindən tutmuş şair Kərbəlayi Yaftuməliyə kimi, ağızlarına gələn hər şeydən danışırdılar. Lakin, şəhərin gurultulu hadisələrinə bu idarədə çox soyuqqanlılıqla baxılardı. İdarədə qımıldaşan adamların ən əziz və istəklisi – yazdıqca, qaraladıqca bitib-tükənmək bilməyən kağızlar idi.

Kağızlar, kağızlar...

Müdir bir-bir imzalayıb qırağa qoyduğu kağızlara baxdıqca ixtiyarsız ürəyindən keçərdi:

Kağızlar, kağızlar...

O fikirləşərdi: "Bəzi yerlərdə, bəzi mühərrirlər kağızpərəstliyə, idarədarlığa nədənsə hörmət bəsləmirlər. Bunların hamısı sənədə, vəsiqəyə etina və etibar etmək qabiliyyətinin zəifliyindəndir. Burada, notarius deyilən bu idarədə işin canı kağızdır. Kağızın, yazının, sənədin hökmünə bir bax! Borclunun evini-eşiyini satdırır. Bütün əhdü-peymanları üzə

çıxarıb, qüvvətə mindirir. Adamların atasını yandırıb, verdiyi sözün dalında durmağa məcbur edir... Kirayənişinləri çölə töküb, bəyin otaqlarının təmizliyini gözləyir..."

Müdir başıaşağı, gözü uzun vaxtların, neçə-neçə yayların yandırdığı, qışların dondurduğu kağızdakı yazıya baxdığı və qədim kişilərin xallı-xallı möhürlərini araşdırdığı vaxt bəzən hay-küy eşidərdi:

– Bu nə idarədir, başa düşmürəm! Gəlib-getməkdən bezdim! Canım birdəfəliyə deyin olmaz, rədd olaq gedək! Bu nə işdir? Biz də yazığıq axı!..

Müdir ağsaqqal səbri ilə gələn narazı adamı əyləşdirər, tez onun qabağına bir stəkan tünd çay qoydurardı:

– İç, hövsələni bas.

– Sağ ol! Çaya meylim yoxdur. Məni yola salsan, elə bilərəm, toyuqplov yemişəm.

– Bilirsən, bu iş andır elə bir klyauzni işdir ki, tələsmək olmaz. Tələsdin, korladın! Burada hər bir hərfin əhəmiyyəti var. Hər bir imzanın dalında məsuliyyət durur. Sən gəlib kağız istəyirsən. Bu kağız noğul deyil, cibinə dolduralar. Bu gərək əlli min dəftərdən keçə. Yoxlana, baxıla, seçilə, razılaşdırıla, surəti çıxarıla...

Beləliklə, müdir müştərisini yumşaldar, yola salardı. Adam qapıdan bayıra çıxdıqdan sonra müdir bəbəklərini gözlüyü altından işıldada-işıldada Fikri Nəcata baxar, stolun altında qılçasını oynadar, özündən razı halda öskürər, zəngi basıb katibə yeni bir əmr verərdi.

Bir də görərdin, müdir, əliportfelli, gödəkcə geyinmiş bir oğlanla içəri girdi. Müdir qarnını qucaqlayıb öskürdü. Bu öskürəyin mənasını müfəttişdən başqa hamı anlardı. O saat bilinərdi ki, "gələn var". Müfəttişi görən hamı qarnı üstə stola yıxılar, yazar, qabağındakı kağızları tikiş maşını kimi şırtaşırt qaralayıb, qurtarmağa çalışardı. Müdir öz çinovniklərini müfəttiş cənablarına təqdim edərdi:

– Bu bizim əmlak sektorudur. Mehralı bəy bu sektoru idarə edir. Bu da surət sektorudur. Bilavasitə özümün rəhbərliyim altında çalışan Fikri Nəcat olduqca bacarıqlı bir piserdir. Bu küncdəki əmlak – qeyri-mənkulə sektoru, katib, kargüzar... –Bundan sonra müdir, kəndir ilə tikilmiş, iki put ağırlığında bir iş papkasına gücənərək stolun üstə qoyardı:



– Bu cari ildə biz bu işləri tapıb üzə çıxarmışıq. Qəbalələrdir. Buyurub baxa bilərsiniz.

Müfəttişin gözü qorxar, yaşından çox-çox qabaq olan və imza əvəzində mürəkkəbli barmaqlarla örtülü kağızları bir sağa, bir sola vərəqlər, müdir ilə xudahafizləşər, təftiş dəftərinə qol çəkib gedərdi.

## III

İdarənin günləri belə keçərdi. Maaş vaxtı hamı müdirin başına toplanardı (kassir hələlik yox idi).

Katib qol çəkdirər, Bədiülcamal xanım çotkəyə salar, müdir barmağını yaşlayıb, pıç-pıç səslərlə pul sayar, əlini salıb, şalvar cibindən xırda pul çıxarardı.

Haman gecə müdir və Bədiülcamal xanım tələbnamələrlə birlikdə müfəttişin evinə təşrif aparardı. Gündüzki tələbnamələrin və imzaların "əslinə mütaqib" surəti çıxarılardı.

## IV

Qış belə keçdi.

Yaz, illər yaraşığı, şənliklər aşığı yaz gəldi, bəzəkli qələmi ilə yerlərə sevinclər yazdı, isti küləyi ilə göyləri somurub, tərtəmiz elədi. Göyə mavi ekran çəkildi. Ekrandan sallanan altun fanar dağları, dərələri, şəhər və kəndləri parlatdı, isitdi. Mahir bir rəssam Yer kürəsinin boz və qara torpağında həyat tablosu çəkdi. Quşlar şeir oxudu. Lal təbiətin kamançası kökləndi, hər simində həyat nəğməsi çalındı. Yarpaqlar oynadı, sular çoxaldı, ağaclar güldü. Çöllər əkinçilərin əmək səsi ilə doldu. Bitkilər torpaqlar altından baş qaldırıb, günəşi salamladı. Lalələr qızardı. İlıq bahar küləyi üzləri yelpiklədi...

Belə vaxtlarda idarənin pəncərələri açılır, kifsimiş kağız qoxusu küçəyə yayılırdı. Qarğalar stol dalından qalxıb, pəncərələrə qonur, qarıldaşırdılar.

Bu yaz müdirin və onun Fikri Nəcat, Bədiülcamal xanım kimi dost-

larının kefi pozğundu.

Ölkədə böyük hadisələr olmuşdu. İşçi və kəndlilər, əməkçilər uzun illərin mübarizəsindən sonra istismarçıların hökumətini yıxmış, kapitalistləri, mülkədarları iş başından qovmuşdular. Xalq azad olmuşdu.

Aprel revolyusiyası notarius idarəsindəki çinovnikləri də narahat etmişdi. Müdir öz narahatlığını deyəndə Fikri Nəcat təsəlli verərdi:

– Maraq etməyin, revolyusiyanın bizim işimizə aidiyyəti azdır. Notarius, notariusluğunda qalır. Bu qalaqlıqda dəftər-kitab ki görürsünüz, – bizim kapitalımız budur. Bu, bolşeviklərin nəyinə lazımdır? Heç bizim qapıdan baxan olmayacaq! Heç maraq etməyin!

Bir müdir deyil, bütün çinovniklər narahat olmuşdu. Onlar isti və xəlvəti yuvalarına su bağlanmaq qorxusu hiss edən köstəbək kimi əl-ayağa düşmüşdülər. Hamının qulağı səsdə idi.

Bir gün idarədə hay-küy düşdü:

– Sən kimi ələ salmısan? Bu nə bürokratizmdir? Niyə mənim kağızımı vermirsən? Belə də iş olarmı? Bura sovet idarəsidir, ya yox?.. Yoxsa köhnə iyi burnunuzdan çıxartmaq istəmirsiniz!

Bədiülcamal xanımdan tutmuş Mehralı bəyə kimi hamısı dönüb baxdılar. Bir komsomol, şapkasında ulduz nişanı olan bir cavan oğlan Fikri Nəcatın üzünə tərs-tərs baxıb çığırırdı:

– Kimdir buranın müdiri?

Müdir yerindən qalxıb onu yanına çağırdı, əyləşməyə yer göstərdi. Siyirməsindən iki parça qənd çıxartdı və bir stəkan çay sifariş edib başladı:

– İç, bir özünə gəl!

– Mən özümdən çıxmamışam, bu idarə özünə gəlməlidir.

– Bir zəhmət çək əyləş, toxta!

– Beş gün əyləşmişəm, bəsdir! Bu saat mənim vəsiqəmi verin, vəssalam!

## V

Həmin bu hirsindən qızaran oğlan komsomol Məcid idi. O, ali məktəbə girməyə hazırlaşırdı. Vəsiqələrinin surətini əvvəlcədən qəbul komissiyasına göndərəcəkdi. Fikri Nəcat adəti üzrə əvvəlcə həmin



vəsiqələri dəftərə saldırmış, iki gün vaxt qoymuşdu.

İki gün sonra Məcid gələndə Fikri Nəcat onu yanına çağırıb demişdi:

– Sənin kasıblıq kağızın var, amma...

– Necə amma? Amması harasındadır?

– Elə bir amması yoxdur. Amma onu demək istəyirəm ki, ali məktəbə gedirsən...

– Əlbəttə, gedirəm. Mən də getməyəndə kim gedəcək? Yoxsul...

– Yoxsulluq məsələsi deyil. O qədər sənin kimi yoxsullar var ki... Məktəblərdə yer yoxdur. Seçirlər, ələyirlər.

– Seçirlər, qoy seçsinlər! Nə demək istəyirsən?

– Demək istəyirəm ki, seçəndə bizim kağızlara artıq fikir verirlər.

– Mənim kağızım pis yazılmayıb.

– Biz ondan da yaxşı yazmağı bacarardıq. Səni çəkməçi oğlu yazıblar.

– Mən elə çəkməçi oğluyam.

– Biz fəhlə oğlu yaza bilərdik.

Məcid Fikri Nəcatın bu sözünə həm hirsləndi, həm heyrət etdi. Dinmədi. Dik-dik onun üzünə baxdı. Nəhayət acığını dedi:

– Ver bəri! Mənim öz vəsiqəmin düzgün surətini ver!

Fikri Nəcat dilini dəyişdi, Məcidlə rəsmi danışdı:

– Yoldaş, ana dilində sənə deyirəm: hələ hazır deyil.

– Üç gündür!

– Dəftərə salınmayıb.

– Sal! Di tez ol!

– Yoldaş, mən sənə əməli katib ola bilmərəm! Bura idarədir. Qayda var, qanun var...

Məcid müdirin yanına gəldi. "Nə təhər olursa-olsun, bu saat mənim vəsiqəmi ver!" – deyə tələb etdi.

Müdir ayağa qalxdı. Fikri Nəcatı yanına çağırıb göz vurdu və ucadan danışdı:

– Bu yoldaşın vəsiqəsini tez hazır eləyin. Yoldaşı incitmək lazım deyil.

Məciddən sonra notariusdakıların canına daha bərk ağrı düşdü.

Vaxtilə göl kimi sakit olan idarə indi qayıq kimi yırğalanırdı. Müdirin ovqatı qarışmışdı, Fikri Nəcatın qazı qaçmışdı, Mehralı bəyin dodağı çatdamışdı, Bədiülcamal xanım əlində kağız dikdaban çəkməsi ilə otaqdan-otağa keçir, müdirdən soruşur, Fikri Nəcatı yanlayırdı:

– Nə var? Yenə nə olub?

Tənəffüs zamanı onlar xısın-xısın danışırdı.

Bədiülcamal xanım bir axşam müdirin yanına getdi. Yalnızlıqda, uzun isrardan sonra öyrəndi ki, "işlər xarabdır." Sən demə, o vaxt vəsiqə üstündə dava eləyən oğlan bir od, bir alovmuş. Fikri Nəcat adəti üzrə onun vəsiqəsindən bir neçə surət çıxarıb müştərilərinə satıbmış. Bunun üstü açılıb. Həmin oğlan açıb, müfəttişi işdən qovublar.

Notariusun sözünü böyük yerlərdə danışırlar...

## VI

Təhlükə gümanı azalmış, Məcidin acıqlı səsi qulaqlardan getmiş, müdirin rəngi üzünə gəlmişdi. İdarənin adi günlərindən biri idi. Saat birə yaxındı. Sadə geyimli, uzun, nazik bir oğlan içəri girdi. Müdiri soruşdu. Otağına girib salam verdi.

Müdirin əlində rəngli jurnal vardı. Jurnalı vərəqləyib, şəkillərə baxırdı. Özü üçün xoş mənzərəli, zəngin təbiətli, münasib bir yaylaq seçmək fikrində idi.

Uzun oğlan cibindən balaca bir kağız çıxartdı, müdirə göstərdi. Müdir özünü itirdi, ayağa qalxıb, katibi çağırdı. Açarları nazik oğlana verdi. Siyirməsini təmizləyib qoltuğuna vurdu...

Təzə müdirin xəbəri ildırım kimi idarəyə yayıldı, adamları yerindən silkələdi.

Bədiülcamal xanım əyilib, katibdən soruşdu:

– Bu kim ola? Hara adamıdır? Kommunist olmaya?

Katib əyilib, dodaqlarını onun qulağına dayadı, yavaşca dedi:

– Bəs nədir, canım? İrəli çəkiblər...

Arvadlar tələsik koridora çıxıb pudralarını silməyə başladılar. Kişilər stol yeşiklərini sıyırıb qalaq-qalaq kağızları əlüstü ortalığa tökdülər, özlərini işlək göstərməyə can atdılar.



Hamı bir-birinə dəymişdi. Katib möhür və ştampı yudurdub, təhvil vermək üçün hazırlayırdı. Mehralı bəy papirosu papirosa calayıb, fikrini dağıtmağa çalışırdı. İşlərin "aqibəti" onu qorxudurdu. Ürəyində "işləri fəna görürəm" deyirdi. Kimi üst-başını çırpırdı, kimi oturub tez-tez yazırdı, nə yazdığını özü də bilmirdi. Nazik oğlan qapını açıb, idarəyə baxanda qarğaşalığı gördü. Aləm bir-birinə qarışmışdı, idarə kağız ilə dolmuşdu. Adamlar kağız arasında siçovul kimi eşələnirdilər.

– Yoldaşlar, buraya yığılın, bir söhbət eyləyək. Hamınız yığılın! İclas var!

Bu iclas hamını maraqlandırdı. Qulluqçular stullarını götürüb müdirin otağına dolurdular.

Hamı hazırdı. Məcid içəri girdi. Nazik oğlan ayağa qalxdı. Məcid onun əlini sıxıb, gülümsədi:

– Təbrik!

– Sağ ol! Əyləş, səninlə işim var.

Məcid oturanda Bədiülcamal xanım onun üzünə elə nifrətlə baxdı ki, az qaldı, öz gözü tökülsün.

Mehralı bəy nazik oğlanın ağır hərkətlərində dərin düşüncə, iş qayğısı gördüyündən fikrə getdi. Sonra papirosunu söndürüb, qulaq asdı. Anladı ki, bu gün notariusun köhnə siçanlardan təmizlənməsi günüdür.

*1937*

# KƏRPİC MƏSƏLƏSİ

Hər səhər yatağımdan qalxanda, gözüm evimizin qabağındakı balkona sataşır. Diqqətlə baxıram, görüm, samovara od salan Babaxanın köhnə arvadıdır, yoxsa yox...

Babaxan çoxdan arvadı təzələmişdir.

Əvvəllər yaxın qonşumun bu hərəkəti, vurhavur arvad alıb-boşaması mənə ağır gəlirdi. Hirslənirdim, həm də təəccüb edirdim. Öz-özümə deyirdim: "Bəs onun vicdanı yoxmu? Qızları necə aldadır. Aldıqları kimlərdir?"

Anam bu suallara məna vermirdi, deyirdi:

– Babaxan iş bacaran adamdır. Ona nə var, tapır, düzəldir, alır, buraxır, tanışı çoxdur...

Sonralar məsələni anladım, fikir elədim ki, "cavan adamdır, yəqin ömrünü kefdə keçirmək istəyir."

Lakin mən Babaxanın toylarına heyran qalmışdım. O, cürbəcür qadınlarla evlənir, ayrılırdı. Tez-tez evlənsə də, çox gurultulu toy edirdi. Bir də görərdin, lüstrü yandırıb, evi çıraqban elədi. Pilləkənlərə xalça



döşədi. Limon ağacını balkona çıxartdı. Zər yazılı toy bileti payladı. Xanəndə çağırdı. Babaxanın dost-aşnası yığıldı. Saz çalındı. Qiyamət qopdu.

Səs-küydən dərsə hazırlaşmaq mümkün olmadığından dəftərlərimi qoltuğuma vurar, evdən çıxardım:

– Gözləmə, – deyərdim, – ana, qardaşlığımgildə yatacağam.

Anam da bezmişdi. Neçə kərə, Babaxanın elçi göndərdiyi qızların ailəsini öyrənib, xəbər vermək, onları yeni kürəkənin "bəzi" xasiyyətləri ilə tanış etmək istəmişdi. Ancaq məndən çəkinərdi.

– Qoymursan, bu tramvay altında qalmışın işləklərini bildirəm! Cavan-cavan qızları aldadır... Ayıb döyülmü? Bəs döyülmü?

Babaxanın balkonunda, şair mübaliğəsi olmasın, hər istirahət axşamı toydu, sazandası, xanəndəsi, plovu, içkisi, məzəsi, cehizi, başlığı öz qaydasında dəm-dəsgahlı bir toydu. Siz soruşarsınız: "Yaxşı, Babaxan bu dəm-dəsgah üçün pulu haradan alırdı?"

Babaxan mənim qapıbir qonşumdur. Mən ayda beş yüz manat alıram. Onun maaşı yüz əlli manatdır. Lakin o yalnız pəncərələrindən asılan təzə, qotazlı mahud pərdələri ilə mənim kimilərini alıb-satır. O, bir toy axşamında mənim evimin üç aylığını xərcləyir. Bunlara baxanda, mən də Babaxanın işinə heyran qalıram.

Kooperativçilər özü də onun işinə mat qalmışdı.

Babaxan kooperativlərin birində parça satardı. Mal gələndə tez yüyürüb, qapıları çəkərdi. Parçanı top-top təhvil alıb, qəfəsələrə yığdıqca ruhu şad olardı. Fıştırıq çala-çala, dodaqaltı "Yetim segah" oxuya-oxuya malı sahmanlardı. Sonra qapını açıb, qonaq qarşılayanlar kimi, müştəriyə təzim edərdi:

– Di buyurun! İndi buyura bilərsiniz!

Babaxanın, arvad almaqda olduğu kimi, parça satmaqda da məharəti vardı. Əvvəlcə malı yoxlardı. İki-üç topunu piştaxtanın altına ötürərdi, "Bazarı" malı qəfəsələrə, göz qabağına yığardı.

– Bu saat almışıq, axşama bir metr də qalmayacaq. Mən məsləhət görürəm, apar. Peşman olarsan, ha...

Yuxarı küçədən gəlmiş yarımçadralı qadınlar Babaxanın sözünü yerə salmaz, vurhavur ölçdürərdilər.

Bir də görərdin, bir gödəkcəli, balacagöz, burnubiz, üzü tüklü, çiy-

ni xurcunlu kişi alverin şirin yerində Babaxana salam verdi. Salamın dalınca əhvallaşmağa başladı:

– Nə var, nə yox?

Hamıya məlum olan bu sualın, hamıya bəlli də bir cavabı var:

– Sağlığın!

Babaxan xurcunlu kişinin qabağında boynunu burub əzilərdi, üzr istəyən bir əda ilə deyərdi.

– Qadası, bir az sonra gəl!

Camaat bu danışığa fikir verməzdi, fikir versə də, bir şey hiss etməzdi.

Bir dəfə Babaxan adəti üzrə, üzü tüklü kişi ilə "əhvallaşanda" bir cavan oğlan şübhələndi:

– Yoldaş, necə yəni "bir az sonra gəl?" Nədi gizlədib, sonra gələnə saxladığın? Bu saat bəri çıxart!

Babaxan hamamdan çıxmış adamlar kimi qızardı. Dili güc ilə söz tutdu:

– Yoldaş, o mənim bacanağımdır. Xüsusi işi var...

Oğlan qələmini çıxarıb, şikayət dəftərini istədi. Babaxan özünü itirdi. O yan-bu yandan mane oldular.

Oğlanın da acığı soyudu. Xata birtəhər sovuşdu. Babaxan bir də belə hərəkət etməsinə tövbə elədi.

Sonralar xurcunlu kişi özü də ehtiyatla gələrdi. Qapıda görünəndə, Babaxan nə dinər, nə danışardı. Yalnız burnunu çəkərdi. Bir dəfə burnunu çəkdi, deməli "bir saatdan sonra gəl", iki dəfə burnunu çəkdi, "iki saatdan..."

Babaxan əlaltı işlərinin bütün sirlərini burnunu çəkməklə ifadə edərdi. Yaxşı parçaların kooperativdən qabaq meydançada satılmasının sirri, onun gurultulu toylarının sirri, evinin dəm-dəsgahının sirri bunda idi...

Babaxan onu da gözəl bilirdi ki, burun çəkmək pis adətdir. Lakin "bu pis adətin nəticəsi əlamət olduğu üçün" boyun əyərdi.

Haqdan keçmək olmaz. Babaxan arvad "çıxaranda" cehizini də qaytarar, gəlinə aldığı bər-bəzəyi də ona bağışlardı. Bu məsələdə Babaxanı məcbur edən qanun, qayda vardı. Lakin o buna "səxavət" adı verərdi.



## II

Mən Babaxanla yaxın münasibət saxlamaqdan çəkinirdim. Qonşuluq üzündən, görəndə ötəri bir salam verirdim.

Onun növbəti arvadlarının biri diqqətimi cəlb etdi. Sadə olduğu üçün xoşuma gəlirdi. Bəlkə də, kim bilir, simpatiyamın səbəbi ayrı bir şeydi.

İnsanın bəzən tanımadığı, lakin uzaqdan gördüyü bir adamdan zəhləsi gedir. Nə üçün? Adam özü də bilmir, əksinə, bəzən aləmin zəhləsi gedən bir adam, sizə məsum və təmiz görünür. Yaxınlaşır, söhbət edirsiniz, axırda aldanıb, peşman olursunuz. Axırı ki, insanları tanımaq çətindir.

Babaxanın diqqətimi cəlb edən arvadı hələ gəlinliyin əziz və qayğısız günlərini yaşayırdı.

Babaxanın yeni arvadı Məlikə cavanca, şən bir qızdı, hər kəs ilə gülüb-danışardı, bunu da ərindən gizlətmirdi. Məlikə bizə gəlib-gedərdi. Onun yerli olmadığını, yerli məişət və adətlərə nabələd olduğunu zənn etmişdim. Yanılmırdım.

Məlikə Çakva çay plantasiyalarında fəhləlik edirmiş. Babaxanın oraya yolu düşür, belə gözəl bir qızı yayın istisində tarlada çalışan görür. Gözü düşür, ürəyi tutur.

– Məlikə də fəhləlik edərmi, ay qız! Sənin yerin bura deyil! Gedək, məni özünə nökərçiliyə götür.

Uzun ilticadan sonra Babaxan qızı inandırmışdı.

Məlikə etiraz etməmişdi. Öz sözü ilə "Azərbaycanı görməyə həvəsi gəlmişdi". Mən Məlikə kimi sadə, xoşqılıq bir qadınla tanış olduğuma sevinirdimsə də, yaxın günlərdə onun evdən çıxarılacağına da yanırdım.

İstirahət günü yaxınlaşdı... Babaxan Məlikə ilə xudahafizləşməli oldu. Qızın başmaqlarını cütlədi:

– Bacımsan. Xasiyyətimiz tutmur. Mən nə qədər özümü zorlayıb, səni sevmək istədimsə, mümkün olmadı. Buyur, bu da yol- xərcin, paltarın da özünə qalsın. Qayıt yerinizə. Məni bağışla. İmkan ver, subay yaşamaq istəyirəm.

Əvvəl Məlikə zarafat zənn etmişdi. Gülmüş, oynamaq istəmişdi. Babaxan özünü hirsli göstərmiş, qıfılı əlinə alıb, qapını bağlamaq üçün Məlikəni bayıra itələyəndə, qız məsələnin ciddiliyini anlamış, özünü itirmişdi.

Evdə oturub gilas yeyirdik, qonağım da vardı. Bir də gördüm, Məlikə özünü içəri atdı. Hönkür-hönkür ağladı. Anam onu ovutmaq istədi. Məlikə yanıqlı ağlayırdı. Ürəyim xarab oldu.

Məlikəni şikayətə göndərmək fikrində idim. Razı olmadı:

– İntiqam almaq istəmirəm, – dedi. – Babaxan ölsə də, mənim pozulmuş həyatım, puç olmuş ümidlərim qayıtmayacaq. Məni yola salın, vətənimə qaytarın!..

Babaxan ilə mübahisə açmağa dəyməzdi. Məlikənin xahişini dedim. Məmnuniyyətlə qəbul etdi:

– İnanın ki, Məlikə yaramaz olduğu üçün ayrılmıram, özüm yaramaz olduğum üçün ayrılıram. Cavan qızdır. Mənim daxmamda çürüməkdənsə, qoy getsin, azad gəzsin. Qonşuluq haqqına onu aparın Batumiyə yola salın!

Babaxan Məlikənin dolu, ağır çamadanını mənə verib, əlavə etdi:

– Buyurun! Heç bir şeyini istəmirəm. Nəyi varsa, özü ilə aparsın, xərclik lazım olsa, yenə verim.

– Heç zad lazım deyil. Mən onu yola salaram.

Mən çamadanı gətirib evə qoydum. Məlikə tanışları ilə vidalaşmağa getmişdi. Çox çəkmədi, qayıtdı. Biz stansiyaya yollandıq.

## III

Uşaqlar bayramı gözlər, böyüklər məzuniyyəti!

On bir ay işdə-gücdə çalışmaqdasan. Səfərə də çıxmırsan. Bu ayların nə vaxt gəlib-keçdiyini bəzən bilmirsən. Məzuniyyət gələndə, gözəl yaylaqlara gedib, şamlıqlarda nəfəs almaq, mühitini təzələmək istəyirsən. İstirahət sənin qanuni haqqındır. Məzuniyyətə gedənə o ki var, hörmət edirlər. Dəmiryollarda növbəsiz yola salırlar. Kurort bələdçiləri qabağına çıxırlar. Xörəyin, çörəyin, meyvənin, morojnanın, siroplu suyun yaxşısını sənə verirlər. Kinolar, teatrlar, çalğıçılar, şairlər, xanəndələr ruhunu oxşayır...

Bizim zəmanəmizdə hər kəs istirahət etməyə borcludur.

Məzuniyyət də onda şirin olar ki, hər işini artıqlaması ilə bitirəsən. Adın gələndə, müdirin ürəyi açıla. Əmr edə, sənə biraylıq mükafat da verələr. Qərar, pul, putyovka, bilet, maşın, hər şey hazır...

Bu halda eşidəsən ki, "istəklinin" ailəsi də sən gedən yerə gedib... Qız gedəndə səni görə bilməyib, yoldaşları ilə xəbər göndərib, səni qonaq çağırıb:

– Həl-həlbət gəlsin! Heç olmasa, ikicə gün! Gözləyirəm!

Nə durmusan!

Belə səfərə çıxanda adam qayıdacağını güman etmir. Dala baxmadan gedir. Stansiyalarda qatarın dayandığı hər dəqiqə bir il keçir, düşüb yüyürmək istəyirsən.

Mən bu damaq çağlığı ilə istirahət evinə yola düşdüm.

## IV

Maşın dırmandıqca mən özümü yüngül və rahat hiss edirdim. Dağların sərin mehi qulaqlarımda səslənirdi. Gözlərim laləli çöllərdən ayrılmırdı. Yolun lap kənarından başlanan taxıllar ləpələndikcə gümüşü rəngə çalırdı. Quşlar maşın səsindən hürküb uzaqlara uçurdu. Dağlardan buğ qalxırdı. Dağlar keçidindən görünən günəş uşaq kimi məsum-məsum baxırdı. Hər dəqiqə dəyişən mənzərələrdən, bir-birindən gözəl yerlərdən doymaq olmurdu. Dayanmaq, hər çiçəyə, hər kola, üfüqləri yarıb ötən hər quşa, hər böcəyə bir-bir baxmaq istənilirdi.

■ ■ ■

İstirahət evlərində xalatla gəzən kök və gödək bir həkim vardı. Məni yoxlayanda bərk tapşırdı:

– Siz əsəbisiniz, rejimi yaxşı gözləməlisiniz.

– Ay sağolmuş, məni əsəbi eləyən həmin bu tibbi rejimlər olmadımı? Buraxsana bu dağlarda nəfəs alım! Bəs deyilmi? Kəl kimi sakit adam idim. Pivə krantına döndərdiniz, bəs deyilmi?

Həkim güldü.

Mən çıxdım.

Anket dolduranda soruşdular:

– Hə? Kərimov?

– Bəli, Kərimov!

– Sizə deyəsən, tel vardı. Katib ayağa qalxıb qapıya sarı boylandı: – A Lətif, o gədəni bəri səslə, poçtalyon!

Lətif poçtalyonu çağırdı. Teleqram mənə idi. Açdım oxudum, mat-məəttəl qaldım:

– "Təcili qayıdın vergül lap bu gün tire Murtuz."

Teleqram yaxın və sirdaş məktəb yoldaşımdandı. Nə isə vacib iş vardı. Murtuz hələ-hələ mənim istirahətimin pozulmasına razı olmazdı.

Məni fikir götürdü: "Bu nə bədbəxtlikdir, ay canım?" Xəyalıma min cür şey gəldi: "Anam da bağdadır. Yəqin evi yarıblar, var-yox əldən gedib. Yaxşı lüt-üryan qaldım küçələrdə... Buna inanmıram. Yox elə şey olsa, Murtuz mənə xəbər verməzdi, kefimi pozmaq istəməzdi. Özü bu iş ilə məşğul olardı. Belə deyil, qohum-qardaşdan ölən var. Ya anamın başına bir iş gəlib... Nə bilim, dünyanın işidir. Bəlkə təcili məktəbə çağırırlar." Nə isə, gümanımı bir yerdə qərarlaşdıra bilmirdim. Bir istədim, "cəhənnəmə ki", deyə teleqramı unudum, axşamın ilhamlı və musiqili havasına doğru axışan xoşbəxtlərə qoşulub, sevgilimin görüşünə gedim. Olmadı. İntizar və nigaranlıq yolumu kəsdi. Hər şey, hər kəs məni tələsdirib, qaytarmağa çağırırdı. "Ağlını başına yığ, ehtiyatlı ol. Kişi sənə tel vurub, get, gör nə məsələdir. İstirahət evi qaçmır, iki gün gec gələndə nə olar?"

Yerimi, yurdumu, pasportumu, putyovkamı qoyub maşın ayağına götürüldüm.

Gecə saat doqquzda şəhərə çatdım. Yenə təndir kimi isti məni bürüdü. Tər tökdüm. Ağır nəfəs aldım. Yorğun yeridim. Acdım, lakin aclığımı hiss etmədim. İçimin gəmirildiyini, bədənimdə bütün ehtiyatın tükəndi-



yini zənn etdim. Üzvlərim mənə tabe olmaq istəmirdi. Qılçalarımı əyirdim. Güc-bəla özümü evə saldım.

Evi salamat görüb, bir az dincəldim. Qonum-qonşudan anamı xəbər aldım, "salamatdır" dedilər, soyundum, kranın altında dayanıb yuyundum, qurulandım. Evi nəzərdən keçirirdim, pəncərədə açıq məktub gördüm.

Əvvəlcə möhürünə, sonra imzasına baxdım. İki gün əvvəl gəlmişdi. Məlikədəndi. Sevindim. Acar qızına hörmətim artdı. Məktubu açdım:

*"Vicdansız alçaq!*

*Babaxanın dərdi azdı, bir də sənin kimi ölüsoyan kəmfürsətə rast gəldim. Evində yediyim duz-çörəkdən də utanmadınmı? Qərib bir qıza ehtiramın bu idimi, ey insan masqalı tülkü? Sənin Babaxandan nəyin əskikdir?*

*Məlikə"*

Bu nədir? Kim yazır? Kim yazır? Kim yazır?

Məktubun adresini, imzasını bir də yoxladım.

Məlikə yazırdı. Mənə yazırdı.

Qurudum qaldım.

Mənim Məlikəyə nə pisliyim olmuşdu? Ona neyləmişdim? Bu nə töhmətdir? Ömrümdə heç kəsdən, alçaq adamlar haqqında belə eşitmədiyim bu sözləri gör kimdən eşidirəm! Babaxana qarşı haqqını müdafiə etdiyim, bacı kimi baxdığım Məlikədən. Elədiyim yaxşılığa qarşı təşəkkür bu imişmi?

Məni od götürdü. Məktubu bir də oxudum. Məlikənin aldadıldığını, məndən nə isə bir şey eşitdiyini yəqin etdim. Nahaqdan qadına layiq olmayan küçə söyüşləri ilə mənə müraciət etdiyinə qızışdım. Mən də açıq məktub yazdım. Təhqir olunmuş gənclik vüqarımı müdafiə edərək, əsəbi və titrək barmaqlarımla ağzıma gələni yazdım, küçəyə çıxdım, məktubu poçt qutusuna atdım. Bununla ürəyimə təskinlik verdim.

Səhər yenicə açılmışdı. Xoruzlar ağız-ağıza verib camaatı ayıldırdı. Mənim isə intizardan, fikir-xəyaldan başqa işim yoxdu. Gah Murtuzun teleqramını düşünürdüm, gah Məlikənin təhqirinə əsəbiləşirdim. Az qalırdım, bilet alıb Acarıstana gedim. Vaxtilə simpatiya bəslədiyim, sadə və səmimi saydığım qızın üzünə durum, yazdıqlarının məsuliyyətini

ona hiss etdirim.

Durdum, yuyundum. Köhnə qəzetlərdən birinə baxırdım, qapı döyüldü. Açdım bir nəfər milis içəri girdi.

– Salam!

– Salam.

Cinayət-axtarış idarəsinin naçalnikinin imzası ilə mənə bir çağırış verdi və dedi:

– Eviniz axtarılacaq.

Mən çəkilib bir kənarda durdum. O, evi axtardı. Sandıq, şkaf, çamadan, bufet, siyirmə qalmadı, hamısını yoxladı. Nədənsə heç bir şeyə dəymədi.

Cinayət-axtarış idarəsinə yollandıq.

Dağdan qayıdanda intizarım bir idisə, indi yüz oldu. Bu əhvalat daha ciddi, daha qorxulu və qətiyyən gözlənilməz idi.

Heç şahid sifətilə də məhkəmə tanımadığım halda birdən-birə nə iş idi düşdüm! Məni nə üçün qurdalayırlar?

Mən uşaqlığımdan başlayıb, bu günə qədər bütün həyatımı, münəqqidlər demişkən "tənqidi surətdə" gözdən keçirdim, cinayət aradım, xatırlaya bilmədim.

Başaşağı, bənizi ağarmış, iztirabdan sarsılmış halda gedirdim.

Budur, mən müstəntiqin qarşısındayam. O nə isə yazır. Başını qaldırıb, üzümə baxdı. Mən də baxdım.

Qarasaçlı, enlikürəkli, üzündə iş qayğısı hiss olunan bu oğlan mənim məktəb yoldaşımdı. İbtidai məktəbi bitirdikdən sonra ixtisas məktəblərinə getdik. Hərə bir sənət seçdi. Bir-birimizdən ayrı düşdük.

İllər keçdikcə aramızda olan uşaqlıq, məktəbli səmimiyyəti də əriyib getdi. Hər kəs özünə, təbii, yeni yoldaşlar tapdı. Mən bu adamı unutmuşdum. Ancaq burada, gözüm onun təzəcə tüklənmiş üzünə sataşanda xatırladım. Bu, məktəbdə yumru, dəcəl və hazırcavab bir oğlandı. Dərsin, müəllimin, məktəbin nöqsanını hamıdan tez görərdi və deyərdi. Hətta hesab müəllimi, məsələləri taxtada həll edəndən sonra zarafatyana üzünü ona çevirər, soruşardı:

– Yaqub, necədir, etirazın yoxdur ki?

O gülər, başını aşağı salıb, məsələnin həllini dəftərinə köçürərdi.



İndi o, böyük, ciddi, məsul bir adam olmuşdur. Başqa yerdə rast gəlsəydik, tanışlıq verərdim. Bəlkə əlini də sıxardım, əhvalını da soruşardım! Lakin burada bir müqəssir sifətilə onun qarşısında dururkən tanışlıq verməzdim. Bir təmənna fikrilə tanışlıq verdiyimi, ondan kömək umduğumu zənn edə bilərdi. Qoy qanun nə tələb edirsə, onu yazsın, yoldaşıyam deyə, mənə üz görməsin. Nədənsə o da tanışlıq vermədi. Başını qaldıran kimi adımı, familiyamı soruşdu.

– Siz, – dedi, – Məmmədyarov küçəsindəmi olursunuz?

– Bəli, orada olurdum.

Ayağa qalxdı. Acıqlanmışdı. Qolumdan tutub küncə tərəf çəkdi. Güman etdim ki, qulağıma xəlvəti söz pıçıldayacaq. Küncə tökülmüş kərpic parçalarını göstərib soruşdu:

– Bu nədir?

Mən müstəntiqin üzünə baxdım. Baxdım ki, bu sualın mənasını anlayım. Lakin anlaya bilmədim. Pərişan və ümidsiz səslə cavab verdim.

– Kərpicdir!

– Fikirləş, gör bu nədir? – O, sualını daha da qətiləşdirir, şəhadət barmağını kərpiclərə uzadıb dururdu. – Fikirləş gör, bu nədir? Yaxşı fikirləş!

– Cisimdir!

– Necə yəni cisimdir?

– Həndəsi cisimdir, sülb...

O, papiros yandırıb əyləşdi. Suallarında davam etdi:

– Siz Məlikə adlı acar qızını tanıyırsınızmı?

– Bəli, tanıyıram, Babaxanın arvadı!

– Siz Məlikəni Batumiyə yola salmışsınızmı?

– Salmı...

Müstəntiq sözümü kəsdi:

– Bütün cavab ver!

– Mən Məlikəni Batumiyə yola salmışam.

– Düzdür?

– Düzdür!

Yazdı.

– Vağzala gedəndə Məlikənin çamadanını siz aparmışdınızmı?

– Apar... Bağışlayın, vağzala gedəndə Məlikənin çamadanını mən aparmışdım.
– Doğrudur?
– Doğrudur!
– Çamadan dolu idi, ağırdı, ya yox?
– Çamadan lap dolu idi, ağırdı, az qalırdı, qolum üzülə.
– Belədir?
– Belədir!
– Təsdiq edirsiniz?
– Təsdiq edirəm!
– Çox gözəl. – Başını aşağı salıb, tez-tez yazdı. Yenə soruşdu: – Çamadanı açıb, şeylərini götürüb, əvəzinə kərpic yığmışsınızmı?
– ...
– Yığmışsınızmı?
– Çamadanı açıb, şeylərini götürüb, əvəzinə kərpic yığmamışam. – Mən səsimi ucaltdım. – Yoldaş müstəntiq, bu, başdan-ayağa şər...
O, əlini qaldırdı:
– Hirslənmək lazım deyil! Cavabını bir də təkrar elə, yazım.
– Çamadanı açıb, şeylərini götürüb, əvəzinə kərpic yığmamışam.
– Aha... demək, çamadanı açıb, şeylərini götürmüşsünüz, ancaq əvəzinə kərpic yığmamışsınız, eləmi?
– Xeyr, xeyr, yoldaş! Mən demək istəyirəm ki, nə çamadanı açmışam, nə şey götürmüşəm, nə əvəzinə kərpic qoymuşam, nə də mənim bu işdən xəbərim var.
– Açığını de!
– Açığı budur.
– Olub belə şey?
– Olmayıb elə şey.
– Siz doğrusunu deyin. Yalan cəzanızı artıra bilər. Doğruluq, günahı boynuna almaq işinizi yüngülləşdirər. Deyin görək, nə üçün qızı yola salanda çamadanından qiymətli şeyləri götürüb, yerinə, bax, bu kərpicləri doldurubsunuz? Bunları yazıq qıza yük eləyib, Batumiyə göndəribsiniz? Vicdanla danışın, bu nə hərəkətdir, hə?
Mən müstəntiqin kəskin sualları qarşısında heyrətimdən dondum.



İndi bildim ki, Babaxan hansı səxavətlə həftədə bir toy etməyi, arvad boşamağı bacarırmış.
Müstəntiqə dedim:
– Qələmi götürün, yoldaş müstəntiq, mən hamısını deyim, siz yazın.

*1937*

# NANƏNİN HÜNƏRİ

Pəncərədən stola düşən günəş çəhrayı və şəffaf pərdə kimi süfrəni örtmüşdü. Stol üstə qoyulmuş kəhrəba kimi buğda çörəyi səliqə ilə doğranıb, boşqaba yığılmışdı. Süfrədə bandaqlardan yenicə kəsilmiş, çöpü qurumuş Kirovabad üzümü, paxlava şəklində dilimlənmiş Cərco qovunu, qırmızı turp, toz kimi narın və ağ Naxçıvan duzu, par-par parıldayan çəngəl-bıçaq, üçbucaq salfetlər, göy rəngli, ağ qulplu su qrafinkası düzülmüşdü.

Nanə xala qolu çırmalı, əlində qaşıq xörəyə ədviyyə tökür, hərdən mətbəxin qapısından boylanırdı. Ərinin və oğlunun gəlməsini gözləyirdi.

Nahar vaxtı idi.

Çox çəkmədi, ata-ananın əziz oğlu Hünərin səsi eyvanda eşidildi. Hünər od kimi içəri girdi. Portfeli stol üstünə qoydu. Xışıldayan plaşını, papağını çıxarıb asdı. Əl-üzünü yudu, sonra anasını səslədi:

– Yaman acmışam, xörək hazırdırmı, ay ana? Atam hanı?

Hünər evə gələndə özü ilə şənlik və dilxoşluq gətirərdi. Onun gəlişi bir toy, bir bayram şənliyini andırardı. Səsi eşidildimi, üzlərdən kölgə, ürəklərdən kədər silinər, gözlər gülər, dillər açılardı.



Hünər süfrənin başında yenicə əyləşmişdi ki, atası da gəldi.

Nanə xala xörəyi gətirəndə, otağa zəfəran səpilmiş kimi oldu. Bütün külfət can sağlığı, damaq çağlığı və şirin iştaha ilə süfrə başına yeməyə əyləşdi. Nanə xala yeyir, bişirdiyi xörəyin dadını-duzunu soruşurdu:

– Necədir, Hünər? Göyərtisi az deyil ki?

– Mən havaxt anadan olmuşam?

Nanə xala Hünərin bu göydəndüşmə sualına cavab verməkdə çətinlik çəkdi. Atası dedi:

– Bu il payızda 15 yaşın tamam olur.

– Çox olar!

– Tarixin aydındır, mən partiyaya girən ili, 22-ci ildə anadan olmuşsan. İndiki kimi yadımdadır. Onda mən ictimai işlə təzə məşğul olurdum.

– Niyə 15 olsun?

– Necə niyə, niyəsi yoxdur ki?

– İyirmi ildir yaşayıram, hələ 15 yaş?

Atası təəccüblə dedi:

– Sənə elə gəlir. Zəmanəmiz sürət, iş, yaratmaq, qurmaq dövrüdür. Bir ildə iyirmi ilin işi görülür. Eyvandan şəhərə baxanda, rayonlara çıxanda, təzə şəhərləri, tikintiləri, abadanlığı görəndə, Azərbaycanın köhnə vaxtını yada salanda deyirəm, doğrudan da bu işlər bütün yaradıcı qüvvələri, qabiliyyətləri işə salıb. Əsrlər boyu zəncirlənib qalmış hünərlər indi qüvvətli bahar çayları kimi axıb, ümumi işimizə, sosializmə qüvvət və sürət verir. Odur ki, adam elə bilir, bu mədəniyyət sarayları neçə-neçə on illərdə tikilib...

Hünər atasını diqqətlə dinlədi, bir az düşündü və dedi:

– Bunlar hamısı doğrudur, amma mənim tariximi səhv yazıbsınız. Yoxsa məndə 15 nədir, 20-yəcən yaş var.

Nanə xala etiraz elədi:

– Ədə, sən dünənki uşaq deyilsənmi, ağzından süd iyi gəlir!

Atası maraqlandı:

– Sənə nə olub, Hünər, tez qocalmaqmı istəyirsən?

– Qocalmaq niyə! Qocalmaram. Seçmək istəyirəm!

Atası Hünərin marağını anladı:

– Nə darıxırsan, – dedi, – on səkkiz yaşına az qalıb, o qədər seçəcəksən, o qədər seçiləcəksən ki? Vətənimizin, cəmiyyətin gələcəyi siz gənclərindir. Siz gələcəyin günəşlərisiz. Sən əsil gənclik dövrünə çatanda, bəşəriyyətə möhkəm və energiyalı, sovet tərbiyəsi görmüş igidlər çox lazım olacaq.

– Gələcəkdə, əlbəttə ki, o işlər borcumuzdur. Amma mən indi seçmək istərdim. Konstitusiyanı kimdən pis bilirəm? Soruş, maddə-maddə deyim! Seçməyi də bacarıram.

Bu zaman qapının tayı açıldı. Komsomolçu Həbib lülələnmiş bir kağızı Nanə xalaya verib qayıtdı. O, kağızı stolun üstünə qoydu. Atası açıb baxdı. Gözəl və igid bir oğlanın rəngli və bəzəkli şəkli çəkilmişdi. Qıraqlarında da çoxlu yazı vardı. Ata dedi:

– Bizim dairənin namizədi haqqındadır. Bu oğlanı Ali Sovetə seçməyə namizəd göstəriblər. Yazıblar kimdir, nəçidir, nə təhər adamdır.

Hünər əyilib şəklə baxanda duruxdu, birdən dikləndi:

– Bu ki bizim müəllimdir, ay ata!

– Özüdür, indi tərcümeyi-halını yazırlar ki, tanıyın, görün necə adamdır, məsləhət bilsəniz, bunu seçin!

Nahar qurtarandan sonra ata oxumağa başladı:

– ...doğulmuşdur. Orta məktəb qurtarmış, komsomol təşkilatında fəal olmuş, komsomolun Mərkəzi Komitəsinə üzv seçilmiş, qabaqcıl müəllim olmuş, bütün rayonda partiyaya sədaqətli, möhkəm və sınanmış, vicdanlı, təmiz, partiya işi, sosializm işi uğrunda fədakar bir adam kimi tanınmışdır...

Hünər daha da maraqlandı:

– Ata, – dedi, – qurtar ver, mən də oxuyum!

Axşamüstü seçiciləri iclasa çağırdılar. Lenin adına kolxozun staxanovçularının xahişinə görə Ali Sovetə seçmək üçün namizəd göstərilmiş yoldaş seçicilərlə söhbət edəcəkdi.

Bu xəbəri eşidəndə Hünərin ürəyi sevincdən döyünməyə başladı. Ata-anasına qoşulub, o da iclasa getdi.



## II

Həmin bu dəqiqədə köç yolunda, söyüd ağaclarının kölgəsi ilə iki adam da iclasa gedirdi. Onlar qonşu kənddən idilər. Namizədlərin müzakirəsini bilib, yollanmışdılar. Yeyin gedirdilər, tövşüyürdülər. Yol boyu, ətrafı sakit, tənhalıq görüb vacib söhbətlər edirdilər.

Onların biri yeddi-səkkiz il əvvəl kənd sovetində sədr olmuş uzunburun Məşədi Müslüm idi. O, "pis işləməzdi". Hamıya "hörmət" qoyardı. Cavanlara "kasıblıq" kağızı verib, oxumağa göndərərdi. Ağsaqqalların könlünü alardı. Peşkəş alıb vergiləri azaldardı. Nə cür oldusa, kəndlilər Məşədi Müslümün bu "haqqı-sayına" o qədər də məna vermədilər. Camaat sayıq düşdü. Məşədi Müslümün keçmişini də qurdaladılar. 29-cu ilin sovet seçkisində ona əl qaldıran olmadı. Kişini dinməz-söyləməz sədrlikdən qırağa atdılar. O idi ki, Məşədi Müslüm camaatdan bir az incimişdi.

– Bizim kənddə, – deyərdi, – işçinin qədrini bilən hanı? İstəyir beş barmağının beşini də bal elə!..

Onun bu axşamkı yoldaşı Kəhrizov Novruz idi. Əslinə baxsan, Məşədi Müslim kimi, Novruzun da qəlbinə dəymişdilər. Xata elədi, arvadı boşadı. Traktor kursunda oxuyan Yarpız adlı bir qıza bənd oldu. Qızı aldı da. Sonra qız xoşuna gəlmədi. ZAQS-a aparmaq istədi. Demə, qız od-alov imiş. Novruzun başına bir oyun açdı ki, Novruz öz adını da yanıldı.

Məşədi Müslüm özü üçün yoldaş seçməkdə yanılmamışdı. Kəhrizov ilə arxayın dərdləşə bilirdi. Yol uzun, vaxt münasib, söhbət şirin idi.

Məşədi Müslüm dayanıb, kibriti ovucları içinə aldı, başını aşağı əydi, papirosunu alışdırdı, müştüyü dişində tutub soruşdu:

– A Novruz, o müəllimi ki, seçmək istəyirlər ha, nə təhər adamdı? Sən tanıyırsan?

Novruz çiynini çəkdi:

– Məşədi, üzünü görmüşəm, amma tanımıram. Tərifləyirlər.

– Deyəsən, Qasımlı kəndindəndir. Mən o kəndin küyçülüyünü çoxdan bilirəm. Öz adamlarını keçirmək üçün, əlbəttə ki, tərifləyəcəklər. O kənd yaman kənddir!

– Nə bilim.
– Nə bilim demə, bilməli çox şey var. Ancaq deyən lazımdır.
– Nəyi deyən?
– Onu deyən ki, bu adam demirik pisdir, yaxşıdır, müəllimdir, atası rəhmətlik... Daha bunu hökumət niyə seçmək? Gərək bu, heç olmasa, bir beş ay mənim kimi sovet sədri olub, heç olmasa, sədr demirəm, katib olub? Heç beş gün də olmayıb.

Novruz əlini tovladı:

– Ona baxmırlar.
– Necə baxmırlar?

Məşədi Müslüm səsini ciddiləşdirdi, ürəkdən dedi:

– Mən ölü, sən diri. Bunu seçsinlər, kənd sovetinin işini apara bilsə, mən adımı dəyişdirərəm. Nə danışırsan?.. Zarafatdır bəyəm, hökumət işi? Müəllim hara, ispalkomluq hara?.. Rayona bax, gələn qonağı yerbəyer elə, yağ hazırlığı, onun ZAQS işi var. Yer, su, nə bilim, sığorta, filan... Müəllim səkkiz yaşında uşağın öhdəsindən gələ bilmir, davasını ispalkom kəsir, bu qədər camaatın ağzını bir yerə yığa bilərmi?

Məşədi Müslüm danışırdı, Novruzu dilləndirmək üçün çox ciddcəhd edirdi. Hərdən dayanıb gözləyirdi ki, yoldaşı dinsin, sözlərinin təsirini kafi görməyəndə təzədən döşəyirdi:

– Kiriyib durmağın da mənası yoxdur. Hökumətimiz bizi məsləhətə çağırır. Durub, açıq fikrimizi deyək gərək. Başa salaq gərək ki, bizə müəllim yox, ispalkom işçisi lazımdır. Elə adam olsun ki, qolçomaqlarla, xainlərlə döyüşə bilsin, sovet işində təcrübəli, işləmiş olsun, bələd olsun, xam olmasın.

– Kimi görsədək bəs?

– Eh, sağolmuş, görsətməyə adam azdır? Əvvəla, namizəd bizim kənddən olmalıdır. Çünki biz şəhərə yaxınıq, özü də camaatımız diribaş! Görsətməyə qalan yerdə, illər ilə sovet işində olmuş adamlar var. Niyə görsətməyək?..

Məşədi Müslüm burada özünü nəzərdə tuturdu. Dönə-dönə işarə vurdu ki, Novruz məsələni açsın, olmadı. Novruz dedi:

– İclasdır, ay Məşədi, çıxıb danışarsan, kimi istəsən, görsədərsən...

Məşədi Müslüm etiraz etdi:



– Yox, Novruz, mən desəm, yaxşı düşməz. Deyərlər, sədr olub, indi də sədrlik iddiasındadır. Onsuz da camaatdan məni istəyən çoxdur. Çox adam deyir. Özüm razı olmuram. Mən heç ağzımı açıb danışmayacağam da. Siz desəniz, yaxşı olar. Özüm kəndli balası... – Məşədi Müslüm onun yaxasından tutub çəkdi: – Axı mən bilmirəm burada sənin kimi yoxsul balası dura-dura, Qasımlı kəndindən bir gəlmə müəllimin seçilməyi... Yəni ki... Niyə, səni seçmək olmaz? Axı niyə?

Bu sözdən Novruzun gözündə məğrurluq qığılcımı oynadı. Özünü tox tutdu. Məşədinin sözünü tamamilə doğru saydı. Bir az düşündü, ürəyində dedi: "Doğrudan da mənim adımı araya çəkən yoxdur, yoxsa o saat seçərlər."

Məşədi Müslüm Novruzun sükutunu görüb sevindi, sözü güllə kimi yağdırdı:

– Hamısı bizdən asılıdır. İndi qaraqorxu-zad yoxdur. Sən ölsən, gizli səsvermə üsulunda kimi ürəyin istədi, onu seçəcəksən, ancaq bir az adamda kişilik də lazımdır ki, iclasda o müəllim nədir, çıxıb boynumuza minməsin. Mənim gerçək sözümdür. Çoxdan ürəyimdə tutmuşam, səni namizəd vermək istəyirəm. Ancaq gərək o müəllimin adını ortadan rədd eləyən olsun ki, mən də həvəsə gələm, danışam. Təklif eləyəm ki, balam, biz adamları lap nahaq yerə unuduruq. Budur, gül kimi oğlanlarımız var: özü zəhmətkeş, ağıllı-başlı, kasıb adam, xasiyyəti də xoş...

Novruz Məşədiyə tamamilə inandı. Seçilməməsini böyük bir haqsızlıq bilib, əsəbiləşdi də:

– Müəllim barəsində danışmaq lazımdır.

– Lazımdır yox, vacibdir! Bax, qalxıb açıq deyərsən ki, canım, biz istəmirik! Qaldı, Novruz, özün bilirsən də, iclasda söz keçirməyin qaydası var. Sənin kimi bir zəhmətkeş ki, tribunadan dedi: "Canım, istəmirik!" Onda qardaşın da bir fənd eləyəcək axı!

– Nə fənd?
– Nə fənd?! Hələ sən uşaqsan, elə şeyləri bilməzsən...
– Mən ölüm, Məşədi, nə fənddir?
– Öz aramızdır, burda qalsın, sənə inanıb deyirəm. Sən tribunadan: "Canım istəmirik!" deyəndə, iclasın o başından qışqıracağam ki: "Pravilna!" Balaqardaşa da tapşıracağam, otursun sədrin qulağının dibində,

baxsın gözünün içinə. O da bağırsın: "Pravilna!" Sən bilmirsən: iclasın içində ki, biz sənin sözünü təsdiqlədik, "Pravilna!" dedik, bu bir möhür kimi protokola yapışacaq, deyən kim idi, niyə dedilər – heç kəs maraqlanmayacaq. Deyəcəklər: "Kütlədir, tələb eləyir, nə söz?" Elə ki, müəllimin adını sildilər, sədr deyər, adam verin, namizəd qoyaq. Onda mənim dilim uzun olar. Qalxıb sənin barəndə bir tutarlı nitq deyərəm. Bildin?

## III

Kolxoz klubunun qabağında bənövşəyi rəngdə, bildirçin kimi yaraşıqlı bir maşın durmuşdu. Adamlar eyvana yığışırdılar. İçəridən zəng səsi gəldi. Hamı kluba doldu.

Hünər lap qabaqda anasına yer elədi. Özü də yanında oturub baxırdı. Sədr iclası açdı. Seçicilərlə görüşə gələn namizədə söz verdi. Camaat əl çaldı, gurultu qopdu. Şüar dedilər.

Bir ucaboy, qarasaç və frençli oğlan tribunaya çıxdı. Qabağına qoyduğu kağıza baxdı, asta-asta danışdı:

– Mən burada öz seçicilərimin qabağında ürəyimdəki şadlığı deməyə söz tapa bilmirəm. Mən gör nə xoşbəxtəm, xalqımız etibar edib, məni Ali Sovetə seçmək istəyir. Mən sovet seçicilərinin bu etibarına təşəkkür edirəm. Onu da deyim ki, bu etimadı doğrultmaq üçün, hökumət işini, sosializm işini irəli aparmaq üçün başımı da əsirgəməyəcəyəm...

Ucaboy oğlan atasının, özünün keçmişdə ağır həyatından danışdı. Sonra Sovet hökumətinin onu necə ata-ana qayğısı ilə böyütdüyünü, oxutduğunu, bəslədiyini, ona mühüm işlər tapşırdığını söylədi...

Yerlərdən sual verən, danışanlar oldu. Hamı ucaboy oğlanın sədaqətindən, igidliyindən, hörmətindən danışırdı.

Məşədi Müslüm soruşdu:

– Yoldaş desin görək, heç ispalkomda işləyib, ya yox?

Ucaboy oğlan cavab verdi:

– Yox, kənd sovetində işləməmişəm.

Məşədi Müslüm yerindən dilləndi:



– Heç işləməmişsən?

– İşləməmişəm.

– İndi, yoldaş, biz səni seçsək, bu nabələd olduğun hökumət işinə, neçə il naşılıq eləyəcəksən? Bu işi neçə il müəllimlik kimi öyrənib, yaxşı aparmağa söz verirsən?

Yerlərdən səs gəldi: "Yersiz sualdır!", "Biz namizədimizin bacarığını bilirik!", "Kənd sovetinə sədr seçmirik ha! Bu Məşədi nə sayıqlayır?"

Kəhrizov Novruz ayağa qalxdı:

– Sualım var, yoldaş! Yoldaş, de görək, inişil sürgünə gedən Hacı Məlik ilə necə qohumsan? Əlaqəndən danış!

Ucaboy oğlan çox sakit və arxayın cavab verdi:

– Mənim o adda qohumum olmayıb, elələri ilə əlaqəm də yoxdur.

Novruz yerindən dilləndi:

– Hacı Məlikin əmisi oğlu sənin doğma bacanağın deyil?

– Mənim heç baldızım yoxdur!

– Baldız demirəm, yoldaş, doğma bacanağın!

Sədr Novruzun səsini kəsdi:

– Sən çaşmısan nədi, ay Kəhrizov! Bacanaq da doğma olarmı? Nə danışırsan?

Yerlərdən səs qopdu, Novruzun dili dolaşdı. Ayaq üstə qaldı. Hünər ucaboy oğlana baxıb, yerindən dilləndi:

– Onu, deyəsən, öyrədiblər, ay müəllim!

Kim isə dedi:

– Fitnədir!

Novruz Hünərə baxıb, qıpqırmızı qızardı, bir az dayandı. Birdən günə qoyulmuş buz kimi əriyib açıldı:

– Ay yoldaşlar, – dedi, – bilirsiniz nə var! Açığı, məni öyrətdilər. Yoxsa mən namizədimizi yaxşı tanıyıram. Brilyant kimi oğlandır. Məni bax, bu Məşədi Müslüm kişi öyrətdi ki, belə sözləri de!

Novruz bunu deyib, Məşədi Müslümü göstərdi. Hamı onun üzünə baxdı, Məşədi sapsarı saralıb, zəfərana döndü. Qalxa bilmirdi. Lakin nə isə demək istəyirdi. Camaat hiddətlənmişdi:

– Bu saat iclasdan çıxmalıdır!

– Bu saat!

Nanə xala indi başa düşdü ki, seçki işi onun düşündüyü kimi o qədər də sadə və asan iş deyilmiş. Burada bərk mübarizələr gedirmiş. Xalqın düşmənləri gör nə fırıldaqlar qurur, gör nə hiylələr düzəldir... "Bunlar camaat içinə soxulub, kim bilir, daha nələr edirlər, bunlardan ehtiyat etmək lazımdır! Hünər hər gün bunların qara məqsədlərindən danışardı. Deyirəm axı!.."

Məşədi Müslümün ispalkom olduğu illər Nanənin yadına gəldi. O zaman idarəyə yaxın düşmək olmazdı. Məşədi qoçuları başına yığmışdı.

Nanə xala xəyalına gətirirdi ki: "Bəlkə Novruz kimilərin fırıldağı üzündən Məşədi Müslüm bir də hökumət işinə keçə idi". Bu təsəvvürü başına sığdıra bilmədi. "Bıyyy!" deyib, dodağını dişlədi. Öz-özünə fikirləşdi: "Yox, balam, seçki işini heç kimə inana bilmərəm: kağızımı özüm alacağam, özüm səs verəcəyəm!"

## IV

Yığıncaqdan qayıdanda Hünər yenə atasından soruşdu:

– Ata, siz necə razı olursunuz ki, Novruz seçsin, mən seçməyim?

– Sənin yaşın azdır hələ. Qanun var. On səkkiz yaşından aşağı olanları hələ seçkiyə buraxmırlar.

– Anama seçki bülleteni verəcəklər, ya yox?

– Verəcəklər!

– Anam savadsızdır, onsuz da bir adama tapşıracaq. Özüm götürərəm, əvəzində seçərəm.

– Elə bu biliklə Konstitusiyanı əzbərdən bilirdin?

– Anam ki oxumağı bilmir!

– Əvvəla, onu bil ki, seçki hüququ olmayan, siyahıda adı olmayan adamı seçki otağına buraxmırlar. İkincisi, anan və hər bir seçici təkcə otağa girib, bülletenini öz əli ilə qutuya salmalıdır.

– Yəni anam mənə inanmır?

– İnanır, amma sən seçici deyilsən.

Hünərin sözü kəsildi. Atası ona ayrı şey təklif etdi:

– Seçməyə belə həvəsin var, düşmənlərimizin içimizə soxulmağına yol verməmək üçün xalq kimi sən də ananı öyrət!



– Nə öyrədim?

– Anana savad öyrət ki, seçki qaydalarını özü oxusun. Daha yanınca bir "mirzəsi" də olmasın. Belə eləsən, seçkidə iştirak etmiş kimi olarsan!

Atanın sözü Hünərin beyninə batdı. Tez qalxıb o biri otağa keçdi. Nanə xala maşında nə isə tikirdi. Hünər soruşdu:

– Ana, nə zaman boş olursan?

– Necə yəni, bala?

– Nə vaxt işsiz olursan?

– Mən işsiz olmuram. Min cür işim var.

– Sabahdan dərs başlayırıq.

– Nə dərsi?

– Seçki dərsi.

– Mənim savadıma nə gəlib? Qol çəkə bilirəm ki...

– Seçəndə sənin qolun lazım olmayacaq, fikrin lazım olacaq. Sən gərək oxumağı yaxşı biləsən!

Atası da işə qarışdı:

– Qoy bir tərəfə, ay arvad, bu xırım-xırda işi! Gündə iki saatını sərf elə savada! Bizim evə savadsızlıq yaraşmaz. Seçki günündə gedib, ondan-bundan xahiş eləmə! Qaydaları, siyahını özün oxu, özün bil, özün seç!

Nanə Məşədi Müslümün və Novruzun çıxışını xatırladı. Belə tülkülərin qabağında özünün savadsızlığına əsəbiləşdi. Özünün zəifliyini hiss etdi. Əl-ayağını tərtəmiz yudu. Hünərin çantasından iki dəftər çıxartdı. Qələm hazırladı. Oğlunu çağırdı:

– Başlayaq! – dedi.

Hünər sevindi, anasını öpdü. O gündən müntəzəm dərs başlandı. O, hərfləri iri yazırdı ki, anası tez seçsin, öyrənsin, tez oxusun!

## V

Nanə xala hər gün beş vərəq qaralayırdı, vaxt-bivaxt hazırlaşırdı, yazırdı, pozurdu. Hər kəlməni öyrəndikcə dünyalar qədər sevinirdi. Əlinə aldığı kitab ona yeni aləmlər açırdı. Nanə xala ömründə bu kitab ki-

mi qeybət, yalan və hiylə bilməz dostlara az rast gəlmişdi.

O, savad kitabını qurtarmaq üzrə idi. Hər gün Hünər qəzet oxuyur, seçkidən ona təzə xəbərlər verirdi.

Dekabrın 12-sini Nanə və Hünər aramsız gözləyirdilər. Nanə xala indi məntəqədə savadlı adam axtarmayacaqdı. Fərəhlə seçki otağına girərək, yazılmış bülleteni oxuyacaq, düşünəcək, inandığı, etibar etdiyi namizədə səs verəcəkdi!

Ehtimal ki, bu dəqiqədə zirək və kamallı Hünər bütün hünərləri ilə gəlib, ananın gözü qabağında duracaqdı.

Nanə xala əlinin qələminə, oğlunun üzünə, səs verdiyi namizədə baxacaq, dodaqlarında açılan təbəssümlə bütün otağa işıq salacaq. Yüksək vətəndaşlıq vəzifəsini bitirdikdən sonra otaqdan çıxacaq, qapıda onu gözləyən əziz oğlunu bağrına basıb öpəcək, öpəcək.

*1937*



# GÖZÜN AYDIN

*Oğlum Arifə*

## I

Axşam istirahətindən sonra eyvana çıxmışdım. Uzaqlarda, şəhərin dənizə sallanan ətəklərinə baxırdım. Yerə ulduz səpilmişdi. Hər yan çıraqban idi. Rəngli lampaları gördükcə küçələrin daş-qaşa tutulduğunu zənn edirdim. Sahil sularından qızıl sütunlar asılmış, dəniz bəzənmişdi. Sahil xiyabanlarında camaat qaynaşırdı. Şaqqıldayıb gülən cavanların sədası, radiolardan musiqi səsi ətrafa yayılırdı. Gündüzün məhsuldar zəhmətindən sonra sanki bütün şəhər dincəlirdi.

Mən belə təsirli vaxtlarda özümü saxlaya bilmirəm, danışmaq istəyirəm. Sinəmdə alovlu bir arzu qaynayırdı: deyəsən, isti bir əl qolumdan tutdu, gətirib, yazı stolunun dalında əyləşdirdi.

Qələmi əlimə aldım.

Üç ildən bəri görüşmədiyim və həmişə xahişini təxirə saldığım ana-

ma kağız yazmağa başladım. Salamsız-kalamsız yazdım:

– "Ana, mən lap bakılı oldum, getdim. İnanma bir də qayıdam. Buraya elə bağlanmışam ki, traktor qoşasan, məni buradan üzə bilməz.

İlk günlər darıxırdım, şəhər mənə qəribə gəlirdi. Nə maşın, nə fit, nə zəng səsi qulağıma batırdı. Kəndimizin söyüdlü çəpərlərini arzulayırdım. Vaxt tapan kimi, binalardan uzaqlaşıb, kənara, açıqlığa qaçırdım. İstəyirdim, sərin külək olsun, yarpaq xışıldasın, quşlar uçsun, küçələr boyu su axsın...

Darıxmağım uzun sürmədi.

Dərs başlandı. O başlayan oldu, bilmədim həftələr, aylar, illər necə gəlib keçir. Tələbəliyin məğrur, qayğısız yoldaşlıq həyatı, dərs, yarış, kitab, mütaliə, gənclik, gəzmək... Bir də gördüm buraxılış konserti – yəhərlənmiş at kimi – budur, hazır!

Məktəbi qurtarandan sonra hökumət bizi daha çox əzizlədi. Bizə bir şadyanalıq elədilər ki, mən mat qaldım. Hərəmizə bir dəst mahud paltar tikildi. Döşümüzə qızılgül taxıldı. Böyük yerlərdən dəstə-dəstə qonaqlar gəldi. Bizi qabaq cərgədə əyləşdirdilər. Direktorumuz nitq dedi. Musiqi çalındı. Qızlar xorla oxudular. Camaat bizi dönə-dönə alqışladı. Müəllimlər əlimizi sıxıb xeyir-dua verdilər, salamatlaşdılar.

Oğluna utanmaz desən də gizlətməyəcəyəm. Ana, həmin konsert axşamı Həbibə adlı bir qız ilə görüşdüm... Mənə bənd oldu..."

– Yalansa gözündən gəlməsin! Bir ay ondan qabaq qapımızda əsim-əsim əsməyin nə idi bəs?

Mən başımı qaldıranda Həbibəni yanımda gördüm. Tez əlimlə kağızı örtdüm.

– Yoldaş, – dedim, – özgənin kağızını icazəsiz oxumaq olmaz.

– Özgənin kağızını oxumuram, haqqımda uydurduğun yalanı oxuyuram.

– Nəyi yalandır?

Həbibə beşiyə tərəf gedib uşağı tərpətdi və yavaşca dedi:

– Saqqız kimi suvaşan sən idin, mən? Niyə yazmırsan ki, altı ay dalınca süründüm, bir qarış dil çıxardıb mələdim?

– Sürünən sən idin, mən?

– Sürünsəydim, mən də on bir kağız yazardım.





– Nə olsun, onda avam idim! Qanmadım, yazdım.

Həbibənin daha da acığı tutdu:

– Demək, indi ağıllanmısan, məni istəmirsən? Hə?!

Mən onun könlünü aldım:

– Səni istəməyib, kimi istəyəcəyəm, ay qız! Anamdır, küsməsin ki, niyə məsləhət eləmədin, niyə demədin, filan... Ona görə yazıram. Başa düş, özündən çıxma!

O, sakit oldu, mən yazdım:

"... Həkim qız, sənin gəlinin Həbibə bu saat uşağı rahatlayır. Gözün aydın! Girdəsifət bir nəvən olmuşdur.

Ev sakitlikdir. Pəncərənin qabağında oturmuşam, sənə kağız yazıram. Bakının aydın və ulduzlu gecəsi mənə sakit-sakit baxır. Dünən evdə vur-çatlasın idi. Bizi istəyənlər tökülüb gəlmişdilər. Nəvənə ad qoyurduq, şadyanalıq edirdik. Çalıb-oynayır, deyib-gülür, yeyib-içirdik.

Ana, bilirsən ki, bu əziz və ağ günümdə səni nə qədər arzulamışam! Mən sevincdən uçuram: hökumət bizə təzə ev tikib: mən üçüncü qatda, gümüş kimi tərtəmiz otaqlardayam. Suyu, işığı, radiosu, telefonu, mətbəxi, hamamı içində... Deyirəm, anam gələydi, evimdə oturub rahatlanaydı. Mənim xoşbəxt həyatımda iştirak edəydi. Deyəydim: "Ana, köhnə zamanda çox korluq çəkmişsən, otur, rahatlıq elə! Qara günlərin acısı tər kimi tökülsün."

Hansını yazım?

Bilirəm, 21-ci ildə qızını xəstəxanaya gətirəndə Bakını görmüşsən. Ay ana, o zaman gördüyün tozlu-torpaqlı, boz Bakıdan bircə İçərişəhər qalıb. Dənizin quruyan sahilində böyük bulvar-bağlar salınıb. Bayıl yolunda, sən gördüyün o köhnə yerlərdə xiyabanlar yamyaşıl, yollar gümüş kimi! Bu yollarda pirə gedən arvadlar əvəzinə indi neftçi mühəndis qızları, məktəbliləri, maşınlarda süzüb gedən mədən işçilərini görərsən, tez-tez dolub-boşalan tramvayları görərsən.

Təpələrin dalında yeni və geniş mədənlər salınıb, saysız-hesabsız buruqlar, yarışan adamlar kimi, şıdırğı işləyir, baltalar enib-qalxdıqca "Neft!, neft!" – deyir. Hər yana baxırsan, göyün bir qatına qalxan təptəzə binalar, bunlarda gülüb oynaşan cavanlar görünür. Nəhəng xörək

fabrikini, bərli-bəzəkli işçi mənzillərini, mədəniyyət sarayları, kino və teatrları, İnturist mehmanxanasınımı deyim...

Bakı eninə, uzununa, həm də göylərə doğru böyüyür. Çox çəkməz Abşeron yarımadası Bakı yarımadası olar. Bu qurmaq, tikmək, yaratmaq işi ki Bakıda başlanıb, şəhəri bir neçə il sonra çətin tanımaq olar.

Ezamiyyətə getmişdim. 20-25 gün çəkdi. Qayıdanda tramvaydan düşdüm ki, "Novbahar" aşxanasında nahar eləyim, saatın altından iki addım yeridim. Bir də gördüm, azmışam, gedib güllü-çiçəkli bir bağa çıxmışam. Yan-yörəmə baxdım, çaşıb qaldım, ələcım kəsildi. Qayıdıb, bələdlədiyim küçə ilə təzədən gəldim. Saatın altından dönüb, düz "Novbahar" tərəfə yüyürdüm. Bir də gördüm ki, nə o "Novbahar" var, nə o küçə. O yerdə bağ salınıb. Musiqi çalınır, körpə uşaqlar oynaşır. Daş pilləkənlərin yanlarında çiçəklər baş-başa verib, nilufər, gülsabah, nərgiz ləkləri salınıb. Güllərin ətri aləmi götürüb, orada bir cüt qız oturmuşdu, yanaşıb soruşdum:

– Bacı, "Novbahar" haradadır?

Qız dedi:

– Elə buradır!

Mən söz tapmadım. Ötmək istəyəndə başa saldı:

– Qardaş, – dedi, – düz gəlmişsən. Gördüyün o köhnə dükanların yerində bir ay olmaz ki, bu bağ salınıb.

Mən qıza baxdım. Bağa, çiçəklərə, yaşıllanan yerlərə baxdım, işçilərin, yaradan əllərin hünərinə afərin dedim..."

– Altı ay nişanlı qaldıq, bir-birimizdən ayrı düşdük, nə olardı, mənə də belə bir kağız yazaydın?

Həbibə əlimdən çıxan vərəqləri oxuyurdu və məndən gileylənirdi.

– Nişanlı, – dedim, – tapılar, amma ana ələ düşməz!

Həbibə beşikdə yatan körpəni göstərib dedi:

– Onu bil ki, mən indi nişanlı deyiləm, mən özüm də anayam!

Mən Həbibənin könlünü alır, məktubumu davam etdirirdim.

Yazırdım, gəncliyimin bəxtiyar günlərindən, Vətənimin boy atmasından yazdıqca yazırdım:

"...Eşitmiş olarsan, ana, ölkəmizdə Staxanov adlı bir igid çıxıb, sadə, yaraşıqlı, cavan fəhlədir. Köhnə normaları, qədim adamların qoyduğu iş üsullarını vurub darmadağın edib, aləmə sübut eləyib ki, indi azadlıq və hünər ölkəsində, əl-qolu açıq, ruhla, ürəklə işləyəndə dağı dağ üstə qoymaq olar. Onun iş qaydasını indi hamı öyrənir! Minlərlə qabaqcıl adam staxanovçu olub, o qayda ilə işləyir. Ayda birə beş, birə on məhsul verən, 3000-3600 manat qazanan fəhlələr çoxdur.

Bir ucdan da şəhər bəzənir, abadlaşır, gözəlləşir.

Nə deyim, ana, yazmaqla başa gələsi deyil. Sovet hökuməti Bakının köhnə evlərinin yerində başdan-başa bəzəkli təzə üsullu, çoxqatlı binalar tikir. Hər gün yeni və nəhəng bir binanın bünövrəsi qoyulur."

## II

Kağızı göndərəndən sonra narahat idim. Cavab gözləyirdim. Bilirdim, anam dönə-dönə oxudacaq, gözlərinə sürtəcək, haçandan bəri görüşmədiyi oğluna ürək dolusu kağız yazacaq, bəlkə də, əgər-əskik nə varsa, xahiş edib istəyəcək.

Səhər yenicə açılmışdı. Yağışlı bir gün idi. Elə yağırdı ki, deyərsən, göydən vedrə ilə su tökülür. Novalçalar kran kimi işləyir, küçələrdən su gedirdi. Üfüqlər elə qaralmışdı, deyərdin, bu hava daha açılmaz. Rütubətli, ağır havada hər şey bomboz və kədərli idi. Hələ sönməyən lampalar limona bənzəyirdi. Adamlar yerə baxır, yeyin ötür, bir-birini basıb tramvaylara doluşurdular. Cəld ötən çətirli qadınlar səyyar çadır kimi görünürdülər. Yer, səməni qazanı kimi, pıqqapıq qaynayırdı. Mən eyvanın pəncərələrini açmışdım. Radionun komandası altında idman edirdim. Telefon səsləndi. Dəstəyi götürdüm, bir qız səsi gəlirdi. Heç nə anlaşılmırdı. Dəstəyi yerinə asıb, idmanıma qayıtdım. Bir də zəng oldu. Zil bir qız səsi gəlirdi. Nömrəmi soruşdu:

– Danışın – dedi, – Lenin kolxozuna cavab verin!

Səs kəsildi, dəstək xışıldadı. Deyəsən, xəkə tökülürdü. Sonra dərindən, uzaqdan gələn bir səs eşitdim. Onun dalınca bir arvad dilləndi, adımı çağırdı.

Bu səsdəki hərarət bütün bədənimi mum kimi yumşaltdı. Hər şey mənə təsirli gəldi. Özümü mehriban anamın bəsləyici, ovuducu, rahat

qucağında hiss etdim. Anamın sevincdən yaşarmış gözlərini, titrəyən dodaqlarını, açıq qollarını, mənə tərəf gələn qısa və yeyin addımlarını görürdüm, ürəyim quş kimi çırpınırdı. Dedim:

– Ana? Xoş gördük, ana! Kefin, əhvalın? Kağızımı aldın?

Anam tələsirdimi, telefonu ağır eşidirdimi, nəsə müxtəsər danışdı:

– Kağızını almışam, oğul. Sağ olasan, əlin var olsun. Ancaq səndən bərk incimişəm. Dayan bir!..

Mən bunları eşitdim. Lakin inanmağım gəlmədi. Anam belə deməz. Bu yəqin, özgəsidir. Dünya dağıla, anam mənim boyumu oxşamamış dindirməz. Bu nə işdir?

Bu sözlər mənə dəydi. Tutuldum, qızardım, anamın sonra nə danışdığını bilmədim. Bircə bunu eşitdim ki:

– Birisigün səhər maşın ayağına çıx. Gecikmə, yarımca saat vaxtım var. Hələlik salamat qal!

Səs kəsildi. İstər-istəməz dəstəyi yerinə qoydum. Donub qaldım. Bir müddət dəstəyə baxdım. Sanki dəstəyin bu saat təzədən səslənəcəyini, anamın gileyli sözlərini mənə açıq deyəcəyini, bayaqkı danışıqdan pozulmuş oğlunun könlünü alacağını gözləyirdim. Dəstək isə başını aşağı salıb susurdu.

Anamdan xəcalətlilik, intizar məni boğurdu. Ha fikirləşirdim ki, anama nə pislik eləmişəm, bir şey xatırlaya bilmirdim. Kağızda, görəsən, nə səhv buraxmışam. Bəlkə də, bəlkə də toy barəsində...

Kağızı sətir-sətir xəyalıma gətirməyə, yoxlamağa, anamı küsdürən səbəbləri aramağa çalışırdım. Anamın gəlməyinə də bir məna verə bilmirdim. Axı, qoca arvad tək-tənha Bakıya niyə gəlir? Bu tezliklə Bakıya gələcəkdisə, daha telefon ilə danışmağa nə ehtiyac? Yəqin mənim yanıma, gəlinini, nəvəsini görməyə, ya burada istirahət eləməyə gəlir. Telefon ilə danışmağı da xəbər vermək, qabağına çıxıb qarşılamaq üçün imiş. Yəqin belədir ki, var. Buna da inana bilmərəm. Yanıma gəlir, bəs nə üçün "gecikmə, deyir, yarımca saat vaxtım var!" Bu hansı yarım saatdır?

Mən belə fikirləşirdim, lakin bir tərəfdən də biri gün maşın ayağına çıxmaq vaxtını aramsız gözləyirdim.



## III

Bu səhər hava bulaq suyu kimi dumduru, saf, sərin idi. Oktyabr günəşinin parlaq işığı qaranlıqları yox etmiş, kölgələri aydınlatmış, hamını, hər şeyi oyatmışdı.

Anamın pişvazına gedəsi idik. Geyindik, kecindik. Çıxanda küçədə böyük təntənə gördük. Sən demə, idmançıların şəhər nümayişi imiş. Yollar tərtəmiz süpürülmüşdü. Binalar bəzənmiş, tramvaylar dayanmışdı. Radio guruldayır, orkestr çalırdı. Komsomolçular gənclik, qüdrət mahnısı oxuya-oxuya addımlayırdılar. Qırmızı yaxalıqlı ağ mayka geyinmiş sağlam cavanlar dalğalanan bayraqlar altında dəstə-dəstə izdihamlı küçələrə doluşurdu. Onlar yeridikcə fərəhlənir, fərəhləndikcə daha möhkəm addımla yeriyirdilər. Musiqi susanda gənc qızların addımları asfalt döşəmədə "şib-şib" səsi verirdi.

Sürətlə uçan, fişəng kimi vıyıldayan ulduz nişanlı təyyarələr nizami dəstələrə oxşayırdı. Onlar nümayişçiləri salamlamağa gəlmişdilər. Göydən təbrik üçün gül tökdülər. Fəza çiçəklərlə doldu. Hər tərəfə dağılan çiçəklər yerə endikcə məni heyrət bürüyürdü.

Biz paraşütçülərin yerə enməsinə tamaşa edirdik. Təyyarələrdən tökülən əl boyda qırmızı kağızlar sovet şahinlərinin 20 illik bayrama necə hazırlaşdıqlarını deyirdi. Kağızlar göydə, günəşdə bərq vurur, qırmızı pilləyə oxşayırdı və aşağı endikcə dağılırdı. Yerdən minlərlə əl onları tutmağa uzanmışdı.

Həbibənin körpəsi də bu şənlik aləminə ağzını açır, gözünü zilləyir, əl atıb kağız tutmaq istəyirdi. Mən ona bir kağız verdim. Ovcunda xışıldatdı, sevinib qışqırdı, ağzına təpmək istədi.

Həbibə komsomol forması geyinmiş paraşütçü qızlar dəstəsinə baxırdı. Mən onun yadına saldım:

– Gedək! Qayınanan gəlir axı!

Mən bufetin qarşısında vağzal səkisinə çıxıb cərgə ilə dayanan vaqonlara, qapılarda danışan adamlara, pəncərələrdən yaylıq oynadanlara diqqətlə baxır, anamı axtarırdım, lakin görə bilmirdim. Dal vaqonlardan birinin qabağında duran oğlan mənə əl elədi. Mən götürüldüm. O, məktəb yoldaşım Ümid idi:

– Tbilisiyə gedirəm, – dedi, – sözündən, sovundan?
– Bu vaqonlarda bir arvad görmədin?
– Vaqonlarda çox arvad var. Necə arvad deyirsən?
– Qoca arvad!
– Bilirsən ki, mən arvadlara, xüsusən qarılara baxmaram.
Mən anamın gələcəyini dedim. O, məni başa saldı:
– Gecikmişsən! Tbilisi qatarı ötdü. Bu, Moskva qatarıdır.
– Nə danışırsan! – deyə mən lap pozuldum. Dedim, daha anam mənim üzümə baxmayacaq.

## IV

Bir gün səhər tələsik evdən çıxdım. Birinci dərsim var idi. Sinifə girdim, danışmağa başladım. Tələbələrdən bəzilərinin mənə baxıb, gülümsədiyini duyurdum, lakin səbəbini anlaya bilmirdim.

Bəlkə, deyirdim, danışığıma gülürlər? Ya pis geyinmişəm, başımı daramamışam? Birtəhər dərsi başa verməyi, müəllim otağına qaçıb üst-başıma, üz-gözümə yaxşıca diqqət eləməyi qət etdim.

Zəng çalındı, sinifdən çıxanda gülümsəyən tələbələrin biri məni yanladı:

– Müəllim, – dedi, – sizi qəzetə vurublar?
– Necə?
Mən sualı sual üstündən verdim:
– Nə vaxt, hansı qəzetdə, nə üçün yazıb, nə yazıb?
Tələbə qiraətxanaya yüyürüb, qəzeti gətirdi.

Mən, palto geyinmiş, üzü-gözü, alnı-başı açıq ciddi və fərəhli dayanmış bir qadının şəklini gördüm. Deyəsən, mən onu tanıyıram... Bu ki anamdır! Anamın cavan çağlarıdır... Anamın şəklini görüb, dördgözlə qəzeti oxumaq istədim.

Anam Moskvada, pambıqçı staxanovçular müşavirəsində iştirak edib danışmışdı. Qəzet yuxarı sütunlarda anamın danışığını başdan-ayağa çap etmişdi.



O, kəndimizin inkişafından, kolxozçuların yeni həyatından, mədəni yaşayışından danışırdı. Nitqinin bir yerini gətirib o məsələyə çıxarırdı ki, "Şəhərdə oturan bəzi yoldaşlar kənddən yaxşı xəbərdar deyillər. Beş-on il bundan qabaq kəndi necə qoyub gəliblərsə, indi də elə bilirlər. Amma onlar çox səhv edirlər. Biri götürək elə mənim oğlumu. Özü oxumuş, məktəb qurtarmış bir müəllimdir. Amma di gəl, kənddən əsla xəbəri yoxdur. Bu yaxınlarda mənə kağız yazıb. Bakıdan danışır, yenilikləri bir-bir sayır. Bunlar hamısı düz, öz yerində. Amma oğlumun səhvi ondadır ki, kənddəkiləri, mənim özümü az qala, avam hesab eləyir. Görün nə yazır?

Yazır ki: "Ana, şəhərdə Staxanov adlı bir igid çıxıb, belədir, filan... Əvvəla, yoldaşlara məlumdur ki, Staxanov, o igidin adı deyil, familiyasıdır. Həmin igidin adı Alekseydir. Qoy mənim oğlum bilmirsə, bilsin..."

Anam mətləbi bura yetirəndə mən onun nitqindən sonra zalda qopan alqış səslərini eşitdim, özümü həmin zalda hiss etdim. Budur, hamı dönüb mənə baxır, ana tənqidinin təsirini görmək istəyirlər.

"Sonra oğlum yazır: "Ana, səni arzulayıram, deyirəm, anam gələydi, evimdə oturub, rahatlanaydı, mənim xoşbəxt həyatımda iştirak edəydi." Əziz oğlum burada da yanılmışdır. Deyən ola, ay oğul, sən Bakıdan nə deyirsənsə, kəndimizi də elə bil! Gəl camaata, kolxozun işinə, məktəbinə, xəstəxanasına, kinosuna, doğum evinə, radiosuna, elektrik işığına bax! Bolluğa, firavanlığa bax! Həyətlərdə taxılı tığ vurmuşuq. Sən xəyal eləyirsən, 20-ci illərdir ki, kəndlinin uşağı şəhərə gedənəcən pianino nə olduğunu bilməsin? Xeyr, keçmiş ola! Kəndli qızlar indi dərs ilə bahəm neçə sənət öyrənirlər. Mən, kolxozda çalışan bir ana kimi, özümü oğlumdan da əskik saymıram. Sən xoşbəxtsən, mən də üstəlik! Öz xoşbəxtliyim sənə bərabər, oğlumunku da üstəlik! Oğlum tək öz xoşbəxtliyi ilə öyünürsə, mən oğlumun da xoşbəxtliyi ilə öyünürəm. Mən əslən kəndimizin, bütün xalqımızın xoşbəxtliyi ilə fəxr edirəm..."

Anamın faktlarla dolu sadə, mənalı nitqi məni sevindirdi. O yaşda qoca bir qadının böyük ictimai tribunalardan ləyaqətlə danışmasına hansı oğul sevinməz?

■ ■ ■

İndi mən, yarımçadralı, ağzıdualı, köhnə bir qadını yox, minlərlə kolxozçu adından danışan, yeni kəndin məşhur adamlarından sayılan hörmətli bir nümayəndə gözləyirdim. Onun qarşısına çıxmağa hazırlaşırdım. Onu staxanovçuların nümayəndələri də qarşılayırdı.

Yoldaşım mənə dedi:

– 15 il oxumusan, yenə qoca arvad sənin qələtini tutur! Bir yazanda fikirləş, başına vur, sonra yaz! Bunu uşaq da bilir ki, Staxanov o igidin familiyasıdır. Bunu bilməyə nə var ki?

Mən də ona dedim:

– Sən ki oxumuşdun, niyə səhvimi düzəltmədin?

*1937*



# HİKMƏTDƏN XƏBƏR

## I

İttifaqın sədri telefon eləyib məni çağırmışdı. İşin axırında tramvaya oturub getdim.

– Yaxşı gəlmişsən, – dedi, – əyləş, səni gözləyirdim.

Siyirməsindən bloknot çıxartdı, bir neçə vərəq geri qatladı, qələmi mürəkkəbə batırıb yazmaq istədi, nə fikirləşdisə, əl saxladı, üzümə baxdı:

– Bilirsən, Rəhim, – dedi, – nə var? Seçki məntəqələrində çalışmaq üçün bizdən bir təbliğatçı istəyirlər. Buna da hər adamı göndərmək olmaz, yoldaşlarla məsləhətləşdik ki, sən gedəsən. İş, özün bilirsən, çox məsul və olduqca şərəflidir. Hazırlıqlı komsomolçusan, işləmişsən, məktəb görmüşsən, bacararsan, – sonra sədr səsini bir az alçaltdı və yumşaq bir əda ilə danışdı: – Ancaq ayrı şey demək istəyirəm.

Telefon zəng elədi. Sədr telefon xəttini o biri otağa bağladı, davam etdi.

– Axı çoxunuz evdar qadınlara dərs deyəcəksiniz, cürbəcür adamlara rast gələcəksiniz. Qocası, qarısı var, çoxu savadsızdır! Namaz qılanı var, üzüyolası, sözə baxmayanı, dinməzi, dilli-dilavəri var. Gərək hər biri ilə danışanda özünə görə dil tapmağı, müsahibəyə cəlb etməyi, işə alışdırmağı, seçki qanununu sadə sözlər, uyğun misallarla başa salmağı bacarasan. Sənə köməklik, rəhbərlik olacaq. Amma işin nəticəsi səndən asılıdır. Ürəklə yapışıb can yandırsan, bütün kəm-kəsiri yox eləyərsən. Xahişim budur: elə eləyəsən ki, sabah peşmançılıq olmasın.

Mən təbliğat işinə başladım. Evdar qadınları başıma yığdım. Müsahibələrimi sadə, aydın və həyati misallarla qurmağa çalışırdım. Mənə tapşırılan işin yaxşı getməsi üçün əlimdən gələni əsirgəmədim.

İttifaq sədri də məni unutmamışdı. Özü dərnəyimə gəlirdi. Bir gün yanına çağırdı. "Danış, – dedi, – görək dərnəyin nə haldadır?" Mən başıma gələnlərin hamısını söylədim.

## II

101, 105, 107 nömrəli evləri mənim öhdəmə vermişdilər. Burada evlər müdirinin məlumatına görə, 19 nəfər evdar qadın vardı. Əvvəlcə mən yoxlamalı idim. Qapı-qapı otaqları gəzib, qadınların adbaad siyahısını tutmalı, dinləyicilərin hamısına yaxın bir yer tapmalı idim. Nömrələri yanaşı yazılan bu evlər bir-birinə o qədər də yaxın deyildi, 101-ci evlə 105-ci evin arasında böyük bir xəstəxana binası vardı. 107 nömrəli ev bağlı-bağçalı bir hasarın lap dibində idi.

Mənim siyahımda iki nəfər artıq çıxdı.

Bu iki nəfər – bir qız, bir ana – Gilə xalanın qonaqları idi. Qadın dərnək açılacağını, dərs keçiləcəyini biləndə qiyamət qoparıb, öz adını qaralatdı ki, bizim xəstəmiz var, üç-dörd günə çıxıb gedirik. Bu yaşa gəlmişəm, əlif-bey deməmişəm. Mənim nə vaxtımdır, oxumağa gedəm?

Qız isə oxumaq istəyirdi. Anası onu da dilə tutmaq istədi:

– A Hikmət, ay qızım, yazılma, biz ki buralı deyilik, nə lazım dəftər, kitab?..

O, sual şəklində verdiyi məsləhətə Hikmətdən cavab gözləyirdi.



Hikmət razı olmadı:

– Gedəndə gedərik də! Nə qədər buradayam, oxuyacağam, yeni seçki qanununu öyrənəcəyəm.

Mən onların mübahisəsindən istifadə edib Hikmətə baxırdım. Hikmətin, o mütənasib boylu, yaraşıqlı, təmiz və səliqəli geyinmiş qızın zahirinə baxan adam onu anadangəlmə şəhər qızı, məktəb tələbəsi, ya da idarələrdən birinin əməkdaşı sayardı və bunda yanılmazdı. Lakin zahirdə belə idi. Sonra öyrəndim ki, Hikmətin şəhərə ilk gəlişidir. O, kənddən-rayondan kənara çıxmamışdı. Hikmətin yaraşığında və gözəlliyində libasın, modanın, demək olar ki, qətiyyən iştirakı yox idi. Əksinə, onun əynindəki qırmızı kofta, başındakı abı kəlağayı, ayağındakı yüngül tufli Hikmətin gözəlliyindən ümumi və gözəl bir ahəng alırdı.

Mən Hikməti 18 yaşında yazanda anası qapıya çıxdı:

– Əvvəla, – dedi, – yazma! İndi ki yazırsan, düz yaz: qızın on doqquzca yaşı var.

Mən Hikmətin üzünə baxdım: "Cavab ver!" demək istəyirdim.

Hikmət dedi:

– Ay ana, odur, metrikada tarixim var: düz yazıb, 18 yaş!

Arvad bir az da cinləndi:

– Ay qızım, bu da təzə qaydalar, təzə haqq-hesablar deyil ki, məni çaş-baş qoyasınız! Sənin yaşını beş barmağım kimi bilirəm. Sən olmuşsan düz orucluq bayramının günündə! Orucluq bayramına hələ neçə ay var.

Mən soruşdum:

– Ay xala, Hikmət, deyirsiniz, orucluq bayramının günündə olub, eləmi?

– Bəli, elədir.

– İndi də, deyirsiniz, orucluğa hələ bir neçə ay var?

– Elədir!

– Elə isə Hikmət deyən düzdür, 18 yaş!

Bunu deyib başımı aşağı saldım, yazdım. Kəndli qadının acığı tutdu:

– Həlbət ki, Hikmət deyən düz olar... O, yeniyetmə, alma kimi bir qız... Mən qarının biri! Həlbət ki, Hikmət deyən düz olar!..

Onun sözünə gülüşdülər.

– Xala, – dedim, – bir başa düşün ki, sizin o orucluq ayları, qurban ayları ildə azı 10 gün dal-qabaq vurur. Mollalar özləri il on iki ay camaatı aldatdıqları kimi, tarixləri də sizi aldadır. 18 ildə azı 6 ay aldanırsınız, Hikmət bir gün də aldanmayıb, onun hesabı düz çıxır.

Gilə də mənim sözümə qüvvət verdi:

– Doğru deyir, ay bacı, lap doğru deyir: müsəlman ayları dəyirman daşı kimi dolanır axı, bir də görürsən, orucluq getdi qışa düşdü.

Deyilənlər, yəqin ki, qadına təsir etmişdi. O, bir əlində corab, o biri əlində iş yerində donub qaldı.

Yer axtarmaqda çətinlik çəkmədim. Ağzımı açmamış Gilə xala özünün bərli-bəzəkli qonaq otağını təklif etdi: kağız, qələm, mürəkkəb gətirdi.

Mən savad bilənlərə kitabçalar verdim. Hikmət hardansa çoxlu karandaş gətirib stolun üstünə qoydu. Qadınlar böyük həvəslə qulaq asırdılar. Mən onlara yeni Sovet Konstitusiyasını və yeni seçki qanununu öyrətməyə, günün siyasi hadisələrindən müsahibələr keçirməyə başladım.

Çox çəkmədi mənim dərnəyim nizamlı-qaydalı bir sinif otağına döndü. Hər gün naharımı yeyib gedəndə hamını hazır görürdüm. Hətta Hikmətin anası da gəlirdi. Qadınların bəzisi uşağını yatırıb gəlirdi, kimisi qucağında gətirirdi, eləsi də vardı ki, ərinin qılığına girib, "bir saatlığa" uşağı ona tapşırır, kitablarını götürüb dərsə tələsirdi.

Hikmət dərnəyin bütün işlərində mənə kömək edirdi. Xüsusilə, onun bir xidmətini heç vaxt unuda bilməyəcəyəm.

Dinləyicilərin sırasında Şərabanı adlı bir qarı var idi. O, müsahibənin ilk günlərində seçki qanununa dair şıdırğı suallar yağdırırdı. Cavablarımdan sevinirdi.

– Arvadlarla kişilərin seçkidə bir təfavütü ki yoxdur?

Mən cavabımı bitirməmiş o üzünü dərs oxuyanlara tutdu, əl-qolunu ölçə-ölçə dedi:

– Görün bir, bacılar, bir görün! Başına döndüyüm Sovet hökumətinin gözəl-gözəl qanunlarına baxın, qəşəng-qəşəng qaydalarına baxın! Arvad, kişi olub bərabər. Sabahları, deməli ki, əl qaldırıb, içimizdən bir



ağbirçəyi seçib, iş başına qoysaq, qoyarıq. İxtiyar öz əlimizdədir, niyə də qoymayaq!

Mən Şərabanı arvadı başa salmaq üçün seçki qanununun müəyyən maddələrini oxumaq istəyirdim, o, macal vermədi, mənim yumşaqlığımdan istifadə edib danışdı:

– A qadan alım, başağrısı olmasın, indi budur, timsalən deyirəm, biz zəhmətkeşlər, söz belə, istəsək, burada oturan arvadların birini seçək, nə olar, inanırıq, görürük ki, timsal belə, yaxşı işləyir, dilli-ağızlıdır, haqq-ədalətnən baxandır, ağbirçəkdir, ürəyimizə yatır, seçirik. A qadan alım, necə eləyək ki, seçək? Söz məsəli deyirəm!

Şərabanının sual yerində danışdığı söhbətlər məni gündəlik temamdan kənar salsa da, cavab verməyə məcbur idim.

– Bizim dərnəkdə cəmi 15-20 adam var. Deputatlığa seçilən yoldaşa isə gərək minlərlə adam səs versin. Rayonumuzun bütün seçiciləri bir yoldaşı namizəd göstərəndə, əlbəttə ki, biz də ona səs verərik.

Mən qurtarmamış o başlayırdı:

– Bacılara bəlli oldu ki, biz zəhmətkeşlər kimi istəsək öz içimizdən seçərik, seçəcəyik. Həlbət ki, elə yaxşıdır. Bəs necə, tanımadığımız bir qıraqdan gələni, həlbət ki, seçməyəcəyik. Biz öz yoldaşlarımızdan seçəcəyik. Təki bizim öz yoldaşlarımızdan olsun. Timsalən deyirəm. Gilə bacı, Həcər, ya o birisi söz bir eləyib, məni seçəndə, həlbət ki, mən də kişi qızıyam, yadımda saxlayacağam. Sabah özümüzünkülərin, beş barmağım kimi tanıdığım arvadların işinə tez baxacağam.

Mən yəqin elədim ki, Şərabanı arvad ya qohumlarından birini seçmək istəyir, ya özü seçilmək istəyir, ya da ki özünü "fəal" qələmə verib, qadınlar arasında ad çıxarmaq istəyir. Bu fikrimi bir az örtülü və yumşaq halda Şərabanıya dedim. Xahiş elədim ki, suallarını axırda versin.

Sonrakı məşğələdə Şərabanı arvad bir az dal tərəfdə dinməz-söyləməz oturmuşdu. Mən danışırdım. Dərsin şirin yerində Həcər geri döndü, acıqla qışqırdı:

– Yaxşı, yaxşı, ay arvad, yaxşı!

Mən soruşdum:

– Nə məsələdir?

Şərabanı qızardı. Həcər cavab vermədi. Hamı onlar tərəfə döndü.

Mən çox maraqlandım:

– Nədir yaxşı ola, nədən danışırsınız?

Həcər acığını söndürmək istəyənlər kimi:

– Heç, müəllim, – dedi, – dərsimizi keçək!

Mən davam etsəm də, Şərabanı ilə Həcərin arasındakı söhbətdən nigaran qaldım. Xəyalımda qoydum ki, dərsdən sonra Həcəri kənara çəkim, soruşum, görüm dərs arasında nə söhbət idi.

Dərsi yenicə bitirmişdim. Hikmət məni çağırdı:

– Xəstəxanaya atamın yanına gedirəm, sizə sözüm var, – dedi.

Nədənsə onun ürəyində bir söz olduğunu hiss etdim.

Qapıdan bir az uzaqlaşmışdıq. Hikmət Şərabanı arvaddan söhbət açdı:

– Yoldaş müəllim, – dedi, – o arvaddan ehtiyatlı olun! O, məscid mücavirinin arvadıdır. Əri qırağa çıxmır. Özü meydan alıb, arvadların bəzisinə dua yazdırır, üzdə bir cür, dalda da bir cür danışır. Həcər sizə demədi? Şərabanı on gündür qadınlardan əl çəkmir ki: "Məni seçin, özüm qadın, ağbirçək, sizi tanıyıram". Yaxşı olardı ki, siz Şərabanı arvadı tanıyaydınız. Mənim ondan gözüm su içmir, yağlı dilinə baxmayın!

Hikmət düz seçmişdi, sonradan məlum oldu ki, Şərabanı alverçilərin, mollaların, azançıların, mücavirlərin ortalığa saldığı adam imiş. Ali Sovetə seçkilər zamanı düşmənlər Şərabanının dili ilə əks-təbliğat aparmaq üçün əldən gələni edirmişlər.

Hikmətin atası sağalıb gəlmişdi. Qızının dərnəkdə oxumağına sevinir, mənə təşəkkür edirdi. Onlar gedəsi oldular. Dərnəkdə oxuyanlar Hikməti öz qızları, öz bacıları kimi hörmətlə rayona yola saldılar.

## III

Dərnəklərə mədəni xidmət üçün bəzi idarələr şefliyi boyunlarına götürmüşdülər. Teatr, kino bileti göndərirdilər. İstirahət günləri bir də görürdün "M-1" maşını qapıda dayandı, dinləyiciləri növbə ilə əyləşdirib gəzdirirdik. Vurhavur işləyən neft mədənlərini, camaat qaynaşan mədəniyyət saraylarını, muzeyləri, musiqisi, mahnısı ucalan istirahət evlərini, yeni qəsəbələri, zümrüd kimi yamyaşıl, çit kimi əlvan bağları gördükcə, evdar qadınlar həvəslənir, sevinir, ruhlanırdılar. Maşın asfaltın üstündə axıb getdikcə, onlar gözlərini tamaşadan götürmürdülər. Tanımadığı yerlərdən, yeni gördükləri tikintilərdən suallar verirdilər.

Bir gün dərnəkçilərimi ekskursiya üçün seçki məntəqəsinə aparmışdım. Otaqları bir-bir gəzdirib, seçki texnikasını təkrar yadlarına salırdım:

– Gördüyünüz bu bəzəkli yer istirahət zalıdır. Bu bir otaqdır, pasportunuzu göstərib seçki bülleteni alacaqsınız. Bax, bu ikinci otaqdakı pərdəli guşələri görürsünüz, burada səs verəcəksiniz. Sonra üçüncü otağa keçəcəksiniz. Bura seçki işinin həll olunduğu yerdir, seçki qutusu buradadır, bülleteni qutuya salacaqsınız.

Ekskursiyanı bitirməmişdim. Gilənin oğlu tövşüyə-tövşüyə gəldi:

– Yoldaş müəllim, – dedi, – çağırırlar, evə adam gəlib.

Qayıtdım. Tələm-tələsik ekskursiyanı bitirib, Gilə xalagilə getdim.

Dərnəkdə oxuyanlar da maraqlandılar, güman edirdilər ki, bəlkə bilet gəlib, ya da yeni plakat, kitab gətiriblər.

Biz evə çatanda Gilə xalanın əri və uşaqları dayanmışdılar. Gələn adam ayağını səkiyə qoyub, dizinə dirsəklənmişdi.

– Qol çəkin, – dedi, – yoldaş, sizə sovqat var.

Poçtalyonu görəndə təəccüb eləmişdim: "Mənə sovqat göndərən bəs bu adresə niyə göndərsin?" Soruşdum:

– Haradandır ki?

– Gərək ki, Qarabağdandır.

"Qarabağ" adı gələndə Hikməti, ay yarımdan bəri tamam unutduğum qızı xatırladım. Nədənsə ürəyim döyündü, əl çamadanı boyda, yüngülvari bağlını əlimə aldım. Görəsən, bu nə olar? Meyvə deyil, kitab da deyil. Paltara bənzəyir. Ancaq Hikmət hara, mən hara, paltar hara? Nigarançılığım bir az da artdı, özümü itirdim.

Bağlamanın kəndirini dartıb qırdım. Qadınlar baxırdılar. Hamının gözü sökülməkdə olan bağlamada, intizardan əsəbi işləyən əllərimdə idi. Giş parçasını sökdüm, içində bezə bükülmüş bir şey var idi. Bezin də tikişini kəsdim. Səliqə ilə qatlanmış yumşaq şeyi açanda otağa işıq düşdü, sevincdən sifətlər qıpqırmızı qızardı: bu, Hikmətin toxuduğu və bizə hə-

diyyə göndərdiyi gözəl balaca bir xalça idi. Lenin yoldaşın şəklini elə gözəl yaratmışdı ki, mahir bir rəssamın sənətindən çıxmış əsərə oxşayırdı. Biz sevincdən, heyrətdən baxa-baxa qalmışdıq. Hamı sevindi və Hikmətin məharətini alqışladı. Xalçanın baş səmtində çap xəttilə qırmızı sapla yazılmışdı: "Bakı fəhlələrinə".

Gilə xala adamları aralayıb irəli keçəndə Həcər ona gözaydınlığı verdi:

– Hikmətdən xəbər yoxdur, deyirdin, gözün aydın, buyur, bu da Hikmətdən xəbər!

O, təzə, yumşaq, nazik xalçaya, rəhbərin şəklinə baxdıqca baxmağı gəlirdi. Xalçanın naxışlı yol-yol haşiyələri gözlərdə parıldayırdı. Tərpətdikcə rəng çalırdı. Sanki çiçək və bənövşə səpilmiş axar suya baxırsan. Onun hər ilməsində, hər xalında və hər gülündə gənc Hikmətin ağ və möhkəm barmaqları görünürdü. Mən ona baxdıqca fərəhlənir, həm də düşünürdüm. O balaca, sakit və nəcib qızın qabiliyyətini, özünə şərait və zəminə tapan istedadların gücünü, necə bahar kimi çiçəkləndiyini düşünürdüm.

– Halal olsun belə qızı doğan anaya!

Gilə xalanın bu sözünə hamı əl çaldı.

– Xala, – dedim, – onu da bilmək lazımdır ki, Hikmətin əsl anası inqilabdır, onu böyüdən, onu bu sənətkar qabiliyyətinə yetirən orucluq haqq-hesabı ilə yaşayan qadın deyildir, – sonra bir təklif elədik: – yoldaşlar, gəlin Hikmətin bu qəşəng hədiyyəsini ləyaqətlə yerinə çatdıraq. Gəlin bunu, məntəqəmizin seçki komissiyasına bağışlayaq. Səs verilən otaqda, seçki qutusunun üstündən assınlar. Səs verənlər sovet xalqının birinci və böyük namizədinə baxsın, onun adı ilə daha da ruhlansınlar. Qoy qadınlara, qızlara, onların tükənməz qüdrətinə və hünərinə xor baxanların gözləri çıxsın. Qoy Hikmətin əsərinə baxanlar, azad əməyin gücündəki hikməti bir daha bilsinlər!..

Bu təklif hamının ürəyindəndi. Xalçanı məntəqəyə apardıq.

*1937*



# ANKET ANKETOV

Anketov hamamlar trestinə rəis təyin olunan gündən indiyə qədər kabinetinin qapısında həmişə adam olur. Bəzən uzun bir növbə düzülür. Birinin rəisə şikayəti var, biri maaşının artırılmasını xahiş edir, biri qulluğunu dəyişir, biri oxumağa gedir, biri iş paltarı davası edir, biri məzuniyyətə çıxır, kurorta getmək istəyir.

İş böyük, işçi az, məsuliyyət ağır, Anketov da bu postda təzə!

Çoxları güman edirdi ki, Anketov bacarmayacaq, hətta onun təyininə etirazlar da olmuşdu.

Anketovun qulağına çatanda, belə cavab verdi:

– Nə olar, etiraz eləsinlər. Bəyəm, etiraz eləyənlər kimlərdir? Aydındır ki, kapitalizm tör-töküntüləri... Onlar artıq özlərinin ölümə məhkum olduqlarını hiss etmişlər. Mənhus işlərini indi də bu yanda görmək istəyirlər. Onların öhdəsindən gəlmək mənim boynuma.

Vəzifə başına keçən kimi, hamam müdirlərini yanına çağırdı. Hamısından "liçni delo" tələb elədi. Onlar: "Baş üstə!" – deyib oturmaq istəyəndə, Anketov qoymadı:

– Baş üstə olunca, əl üstə olsun, bu saat liçni delolar mənim qabağımda olmalıdır!

– Yoldaş Anketov, getsək, iclas bəs nə olsun?

Anketov bu sualdan heyrətə gəldi. Əllərini, bir şey qucaqlamaq istəyirmiş kimi, yana açdı və həzin səslə dedi:

– Liçni delosuz nə iclas, balam? Mən bilməliyəm, kimlər ilə iclas eləyirəm, ya yox?

Müdirlər durub getdilər. Bəzisi evdən, bəzisi idarədən şəxsi işlərini gətirdilər. Bəziləri də tələsik anket doldurdu, tərcümeyi-hal yazdı, iş qovluğu aldı.

Şəxsi işləri stolun üstünə yığandan sonra Anketov müdirlərdən üzr istədi:

– Yoldaşlar, mən sizinlə tanış olmaq istəyirəm. Ona görə, xahiş edirəm, kabinetdən çölə çıxasınız.

Bunu deyib başını aşağı saldı, anketləri varaqlamağa, höccələyə-höccələyə oxumağa başladı:

– Mmm... Ağaverdi oğlu Mürsəl Hadiyev. Min doqquz yüz on birinci ildə doğulmuş. Atası nalbənd... – Anketov bu sözün altından bir qırmızı xətt çəkdi, haşiyədə sual işarəsi qoyub, Hadiyevin başqa sənədlərini diqqətlə nəzərdən keçirtdi.

Müdirlər kabinetin qabağında bir saata qədər gözləməmişdilər ki, qonşu otaqdan katib çıxıb, əlindəki siyahıya baxa-baxa dedi:

– Əhmədov Murad Rəhim oğlu evlərinə gedə bilər. Hadiyev Mürsəl öz atası barədə yoxlama gətirməlidir. Qalan yoldaşlar içəri buyursunlar.

Əhmədov bir şey anlamadı:

– Yoldaş, bu nə sözdür? O, işimdən danışsın, görüm mənə tapşırığı nədi? Yoxsa mənim niyə vaxtımı itirir.

Hadiyevin səsi də Əhmədovun qışqırığına qarışdı:

– Atam barədə nə yoxlama? Otuz ildən çoxdur öləli, sümüyü də çürüyüb...

Katib onun sözünü lağa qoydu:

– Sən niyə avam söz danışırsan? Atanın ölüsü naçalnikə yox, İnkir-minkirə lazımdır. Naçalnik bilmək istəyir atan nəçi idi!



Hadiyev bərkdən dedi:

– Canım, anketimə baxsın. Nalbənd yazılıbdır ki!

Katib şikayətçilərdən yaxa qurtarmaq üçün qaçıb öz otağına girdi. Şikayətçilər onu boşlamadılar. Axırda dedi:

– Ərizə yazın!

– Nə ərizə?

– Ərizə yazın görək nə istəyirsiniz?

– Biz bir şey istəmirik. Siz deyin, görək bizdən nə istəyirsiniz?

Katib yenə başa saldı:

– Özünüz yaxşı bilirsiniz ki, naçalnik öz kadrlarını yoxlayır. Bir saatdır, sizin liçni delolardan başını qaldırmayıb. İndi məni çağırdı, belə dedi. Buradan görünür ki, sizin liçni delonuz onu təmin etmir...

– Bəs özümüz? Özümüzə sözü nədir?

– Özünüz ilə o, maraqlanmır, əldə dokument lazımdır.

Əhmədov acıq eləyib getdi. Hadiyev iclasın axırını gözlədi ki, rəislə üzbəüz danışsın.

Anketov müdirləri çox saxlamadı. Hamısına bərk tapşırdı ki, bütün işçilərin şəxsi işini düzəldib, üç gündən gec olmayaraq şəxsən rəisə təqdim etsinlər. Müdirlər çıxanda, Hadiyev Anketovun kabinetinə girdi. Anketov başıaşağı stolunun başında dayanmış, səliqə ilə düzdüyü kağız qovluqlarının yan-yörəsini sahmanlayırdı. Başını qaldırıb, Hadiyevin əlinə baxdı. Əlində kağız görməyib soruşdu:

– Nə istəyirsən?

– Mən bir şey istəmirəm, katibin deməyinə görə, siz məndən yoxlama istəyirsiniz.

Rəis bir əli ilə başının tükünü yana daradı, bir əlini iş qovluqlarının üstünə qoyub soruşdu:

– Familin nədi?

Hadiyev cavab verən kimi, Anketov onun iş qovluğunu tapıb açdı. Mənalı bir "da!"deyib, barmağını bayaq yazdığı sualın üstünə qoydu:

– Sən, – dedi, – çox örtülü yazmısan. Mən sənin işini başdan-ayağa oxudum, diqqətlə oxudum, genə səni yaxşı tanıya bilmədim. Məsələn, vajnı bir yer: yazırsan, atam nalbənd olub. Nalbənd cürbəcür olur...

Hadiyev onun sözünü kəsdi:

– Cürü-mürü yoxdur bunun! At nallayıb, öküz nallayıb...

Anketov, sifətində istehzalı bir təbəssüm doğurmağa gücəndi. Başını tərpətdi:

– Məsələ atda, öküzdə deyil. Məsələ onun sahibindədir. Görək sənin atan qaniçən, istismarçı hampaların heyvanını nallayıb, yoxsa füqərayi-kasibənin...

Hadiyevi gülmək tutdu:

– Hər kəs pul veribsə, onun heyvanını nallayıb.

– Şübhəsiz ki, burjuaziya dövründə, hansı ki, sənin atanın həyat-fəaliyyəti təsadüf edir, hampanın pulu çox idi, çem füqərayi-kasibə.

– Əlbəttə ki, hampa pullu idi.

– Deməli, sənin atana gələn pulun çoxu, görürsən ki, istismarçılardan...

Hadiyev dedi:

– Axı nə olsun?

Anketov başını kağızdan qaldırmayıb, əli ilə sükut işarəsi verdi:

– Dayan, dayan. Belədir, ya yox?

– Hə?

– Düzdürmü ki, hampalar daha çox at nalladar?

– Düzdür!

– Elə mənə də bu bəsdir, gedə bilərsən.

Hadiyev dedi:

– Mən anlamıram ki, siz nə üçün mənim atamın nalbəndliyi ilə bu qədər maraqlanırsınız. Nallanası şeyiniz varsa, buyurun deyin.

Anketov yenə başını kağızlardan qaldırmadı. Sol əlinin baş barmağını Hadiyev familiyasının üstünə qoydu. Yazıya baxa-baxa sağ əlinin şəhadət barmağını silkələdi. Sonra qələmi əlinə alıb, kəsik-kəsik xətlərlə yazdı: "İşə buraxılmayacaqsan, on günlüyə sənə izin verilir ki, öz xərcinlə valideyninin ictimai vəziyyətilə məşğul olasan."

Anketov bunları yazdı. Hadiyev heç nə demədi. Ehtimal ki, heç Hadiyevin axırıncı sözlərini eşitmədi də, çünki Anketovun fikri şəxsi işlər, anketlər, tərcümeyi-hallar, xarakteristikalar, yoxlamalar, şəhadətnamələr, izahatlar, ərizələrlə məşğul idi. O, bütün işlərinin bu iş qovluqlarından asılı olduğuna ürəkdən inanmışdı. Onları sahmana salmaqla trestdəki işlərin sahmana düşəcəyinə, nöqsanların aradan qalxacağına inanırdı. Gün olurdu ki, səhərdən gecə saat birə qədər Anketov kabine-



tinə qapanır, "liçni deloları" maraqlı bir roman kimi, başdan-ayağa, ayaqdan-başa oxuyurdu. Qovluqları da sahiblərinin ictimai vəziyyətlərinə görə cərgə ilə düzürdü.

Acığı gəldiyi adamın iş qovluğunu aparıb lap aşağı başa salır, xoşladığını başa keçirirdi. Anketlərin kənarında yazırdı: "Başqa vəzifəyə keçirdim, maaşını əlli manat artırıram", "Yaxşı işlədiyinə görə, səni irəli çəkirəm."

Anketov əlinə alıb varaqladığı, bu qəfəsədən o qəfəsəyə apardığı kağızlarla əməlli-başlı danışırdı. Qıraqdan qulaq asan, lakin onu görməyən adam güman edirdi ki, kabinetdə Anketovdan başqa beş-altı nəfər üzüyola, sakit bağça uşağı var. Anketov o uşaqların qolundan tutur, birini bu, birini o biri kürsüdə oturdur. Hərdənbir də danışır. O, anketlərə həqiqi insan, işçi və öz dili ilə desək "kadr" kimi baxırdı. Ona elə gəlirdi ki, pis-yaxşı işləyənlər həmin bu anketlərdir. Hamamda görünən müdir, kassir, tulanbarçı, süpürgəçi iş qovluqlarının səyyar kölgələridirlər, başqa şey deyillər. Əsl iş bu qovluqlardadır. Anketin təmiz-dürüstlüyü, sahibinin həmişəlik təmizliyi, dürüstlüyü deməkdir. Anketin kənarına yazılıb "qovulan adam", öz-özünə kölgə kimi işdən çəkilir, əksinə, anketinə "qəbul" yazılan adam da o dəqiqə işdə görünür.

Bir adam gəlib Anketova desə idi ki, yoldaş rəis, filan işçimiz xəstələnib, xəstəxanada yatır. Anketov inanmırdı, dərhal iş qovluqlarını töküşdürür, həmin adamın "şəxsi işini" götürüb baxırdı. Anketdə xüsusi bir qeyd görmədikdə deyirdi:

– Bağışlayasan, filankəs sağ-salamat öz yerində işləyir.

Hətta bəzən tanıdığı iş qovluğunu heç açmırdı. Kənarındaca qəfəsəyə baxır, onun cərgə nömrəsini düz görüb, başını tərpədirdi:

– Filankəs öz vəzifəsində bərqərardır.

Katib əlini dizinə döyüb deyirdi:

– Vay atonnan, inanmır ha! Yoldaş Anketov, Qurbanəli üç aydır ki, əsgər gedib. Uzaqlardan kağızı gəlir, özü də sanitar işləyir, sən deyirsən, vəzifəsində bərqərardır.

Anketov hirslənirdi, sonra hövsələsini basıb, katibi başa salırdı:

– Ay küt, niyə başa düşmürsən? Liçni delosı odur ey, göz qabağında. Liçni delosız hara gedə bilər? Ağzı nədi, addımını kənara qoya! Getmiş olsaydı, "liçni delo" çoxdan oradan çıxıb, lazımi yerinə getmişdi.

Katib təngləşib çıxırdı, baş qoşmurdu. Baş qoşmaq da faydasız idi, çünki anketlər Anketov üçün nameyi-əmal hökmündə idi. Hər kəs nə etsə, nə düşünsə, xəyalından nə keçirsə, guya dərhal anketdə həkk olunur, qiyamətə qədər silinmir. Bir adamın işinə qiymət vermək üçün anketini rəisin hüzuruna – "məhşər ayağına" gətirmək kifayət edər...

Hansı iclas idisə, axırda Anketov qalxıb təklif elədi:

– Yoldaşlar! Hamamlarda köhnədən bir pis qayda var. Mən jalobni knişkaları demək istəyirəm. Hər gələn oraya yazır. Bilmirik, bu şikayət yazan dostdur, düşməndir, ya barışdırıcıdır. Mən təklif edirəm: ya şikayət yazan qabaqcadan anket doldurub bizim təsdiqimizə versin, ya da bu qaydalar lazım deyil. Yazırlar, yazırlar, bilmirsən, hansı liçni deloya tikəsən. Bu barədə...

Kommunxoz müdiri Anketovun sözünü ağzında qoydu:

– Yum, yoldaş Anketov, ağıllı söz danışmadın. Sən, görünür, kütlənin səsini eşitməyin, rəyini öyrənməyin nə olduğunu başa düşməkdə çətinlik çəkirsən. Bu sözü bir də ağzına alma! Onu bil ki, həmin şikayət dəftəri xalqın səsi, müştərilərin söylədiyi rəylərdir. Onlar həmişə qalacaqdır.

Anketov qıpqırmızı qızardı, danışdığına peşman oldu, söz alıb ayağa qalxdı, dodağı əsə-əsə dedi:

– Mən burada kobud bir səhv buraxdım. Özüm indi səhvimi başa düşmüşəm, yüz faiz boynuma alıram. Amma çox xahiş eləyirəm, bu məsələ anketimə yazılmasın, protokola düşməsin.

Anketov öz anketini beləcə qoruyurdu.

Hamam müdirlərindən bəziləri gəlib şikayət edirdi:

– Yoldaş Anketov, işçilər tələb edirlər, deyirlər bir gəlsin yanımıza, baxsın görək necə işləyirik...

Anketov o saat iş qovluqlarına baxırdı.

– O, hansı işçidir, de görüm? – Əli ilə qəfəsəni göstərirdi: – Gecə-gündüz mən bunlarla bir yerdə deyiləmmi, daha nə istəyirlər?

## II

X nömrəli hamamın müdirinə bir qadın kisəçisi, iki süpürgəçi, bir hesabdar lazım idi. Müdir, Anketovun xasiyyətinə bələd olduğu üçün,



işə girmək istəyənlərin şəxsi işlərini hazırladı, iş qovluğuna tikdi, rəisin yanına gətirdi, dedi:

– Özləri də qapıdadırlar, gəlsinlərmi?

– Neyləyirəm özlərini, qara gözlərinə-zadlarına aşıq deyiləm ki!..

– Bəlkə danışdırıb elədiniz?

Anketov enli və bərk əli ilə iş qovluqlarını şapalaqladı:

– Bunlar, budur ey, bunlarla danışacağam. Əsl doğru-düzgün söhbət bunlardadır.

Müdir çıxıb getdi, Anketov "təzə kadronu" yoxlamağa girişdi.

Şəxsi işlərdən biri Nuru Nuruzadə adlı komsomolçunun idi. Müdir onu hesabdar götürmək istəyirdi. Nurunun bu işdə az da olsa, təcrübəsi var idi. Hesabdan həmişə əla oxumuşdu.

Biri də Qənbər qızı Nisanın işi idi. Onu qadın hamamına kisəçi götürmək istəyirdilər. Nisa da öz vəzifəsinə layiq adam idi. Altı il bir qələmə Tiflisdə 9 nömrəli hamamda çalışmışdı.

Süpürgəçiliyə girmək istəyənlərin biri Şərəbanı arvad idi, biri də onun ərindən boşanmış qızı Məsmə idi.

Anketov qırmızı qələmi əlinə alıb, anketlərin kənarında öz əmrlərini yazdı. Məsməni rədd elədi ki, keçmiş ərin ilə əlaqən barəsində rəsmi dokument gətir. Şərəbanını işə götürdü.

Nisa Qənbər qızının anketi, tərcümeyi-halı çox xoşuna gəldi. Oxudu, oxuduqca ruhlandı: "Özü dəmirçi qızı, özünün bir kəs ilə əlaqəsi olmamış, özü ev qadını, özü savad kursunda oxuyur... Mənə belə təmiz kadrlar lazımdır." Anketov Nisanı hesabdar təyin elədi. Nurunu onun əvəzinə qadın hamamına kisəçi təyin elədi. Səliqə ilə iş qovluqlarını qatlayıb qəfəsəyə yığdı. Gəlib əllərini ovuşdura-ovuşdura otaqda özündən razı bir halda gəzindi.

## III

Müdir telefonla deyəndə ki, Nisa Qənbər qızı hesabdarlıq vəzifəsini boynuna götürmür və yaxşı da eləyir götürmür, çünki o, kəmsavaddır, iki rəqəmi cəmləyə bilməz, Anketov özündən çıxdı:

– Ağzı nədir, götürməyə, dayan bir mən özü ilə danışım.

Dəstəyi asdı, cəld Nisanın anketini açıb qabağına qoydu, danlama-

ğa başladı:

– Heç gözləməzdim səndən. Gözləməzdim, həqiqətən gözləməzdim. Mən sənə daverit eləyirəm. Mən səni baş qulluğa qoyuram. Bu nə zarafatdır! Buna mən zarafatdan savayı özgə bir ad vermərəm. Bir də belə zarafatları eləmiyəsən, haydı, işə başla!

İş qovluğunu qatlayıb yenə qəfəsəyə qoydu. Birdən qapı açıldı, başıaçıq bir oğlan içəri girdi.

– Salaməleyküm!.. Anketov yoldaş sizsiniz?

Anketov stolun dalına keçib dayandı. Əllərini şalvar cibinə salıb qurdalandı, deyəsən, bir şey axtarırdı. Başını qaldırıb soruşdu:

– Necə bəyəm?

– Gəlmişəm təşəkkür eləməyə. Mənimi arvad hamamına kisəçi təyin etmək istəyirsiniz?

– İstəyirsiniz nədir, çoxdan əmr yazılıb, iki gündür siz işləyirsiniz.

– Xeyr, bağışlayasınız, bu vəzifədə işləmək üçün sizin kimi mühakimədən məhrum olmaq lazımdır!

Anketov dik-dik Nurunun üzünə baxdı. Heç nə demədi. Keçib qəfəsədən Nuruzadənin şəxsi işini götürdü. Acıqlı-acıqlı anketinə yazdı:

– Səni işdən qovuram. Get, hara gedirsən, get!

Nuru iş qovluğunu çəkib Anketovun əlindən aldı. Anketov diksinən kimi oldu.

– Yavaş ol, – dedi, – kağızları tökərsən.

– Görüm üstünə nə yazıb korlamısan?

Nuru bunu deyib anketini açdı, Anketovun qeydinə baxıb gülümsədi:

– Bambılının iddiasına bir bax! Sən nəkarəsən, məni qovasan, həpənd!

Nuru, rəisin qeydini cırıb tullayanda, Anketov "uff!" eləyib özündən getdi, çul kimi yerə sərildi.

1937



# SÖYÜD KÖLGƏSİ

Dünyada hərənin bir həvəsi, bir adəti olar. Bostançı Salman əminin də adəti belə idi: ürəyi yandığı adama əlindən gələni əsirgəməzdi.

Bir gün bostanın qırağında, yol ağzında dayanıb nəyi isə düşünürdü. Günorta yerinə qalxmış günəş düz onun açıq başına döyür, tunc kimi qırmızı alnı işım-işım işıldayırdı. O, nədənsə birdən-birə əli ilə gözünü günəşdən qorudu, xəyalına nə gəldisə, dönüb yerə baxdı, bir şey itirmiş kimi, yolun o yan-bu yanına gedib-gəldi, çarıqlı ayağı ilə bərk torpağı eşələdi də.

Onun səhərisi, hələ gün qalxmamış Salman əmi həmin yerdə bir çuxur qazıdı. Çox çəkmədi gətirdiyi iri bir söyüd qələmini basdırdı, kənarlarına da bir az tikan düzdü ki, mal-qara toxunmasın.

■ ■ ■

Salman əmi günorta ləklərin arasında işləyəndə, kürəyinə dəyən isti yay günəşindən təngişəndə, dəyəsinə qayıdıb dincələrdi. Yolun ortasında belə bir kölgəliyə ehtiyac hiss edəndə, deyəsən, sakit bir səs içəridən ona tapşırırdı: "Burada bir ağac ək!"

Daşlıca azı kənddən beş verst kənarda, bağ-bağat yollarının ayrıcında bir yer idi. Ətraf əkin yeri idi. Ancaq nədənsə, bir kölgəlik yox idi. Salman əminin bostan yerinə yaxın "Saz bulağı" deyilən balaca bir bulaq da var idi. Yolçular yay günü bu bulaqdan içməmiş, əl-üzünü yumamış ötməzdilər. Di gəl ki, günün istisindən yayınmağa, bir hovur oturub nəfəs dərməyə daş kölgəsi də yox idi.

Salman əmi buna görə yol ağzında bir söyüd ağacı əkdi, beş il ondan yaxşıca muğayat olub böyütdü.

Cavan və tənha ağac qol-budaq atdığı kimi, çoxdan kök buraxıb, rişəsini suya yetirmişdi. Bulaq suyundan içir, səhər günəşindən işıq, istilik alır, ildən-ilə canlanır, böyüyür, yaşıl budaqlarını yasəmən salxımları kimi yolçuların başına sallayır, kölgəsi ilə çölün havasını sərinlədir, gəlib-gedəni salamlayırdı. Lap kənardan ötən, bulaqdan xəbərsiz yolçular da söyüd kölgəsinə sərinləməyə gedirdilər. Salman kişi bunu görəndə ürəyi böyüyür, könlü açılır, xələf övlad böyütmüş atalar kimi xoşhal olurdu.

– Gərək, – deyirdi, – yoxlayam, görəm bu ağacın qədrini bilən varmı, gəlib-gedən nə deyir?

Bu məqsədlə kölgəlikdə adam olan zaman, saymazyana gəlib dayanmaq, deyilənləri eşitmək istəyirdi. Bu dəfə iki atlı gəlib, söyüd altında düşdü. Salman əmi əlində bel mərzi selləmək bəhanəsilə yol ağzına yanaşıb, atlılara qulaq verdi. Atlılar geyimlərindən müəllimə, ya həkimə oxşayırdılar. Nə isə, oxumuş adam idilər. Atları kola bağladılar. Gülüşə-gülüşə bulağa enib, su içdilər. Sonra ağır-ağır qalxıb, kölgəlikdə, göy ot üstündə dirsəkləndilər.

Salman əmi sevindi, çünki onların çox arxayın və söhbət istəyən adam olduqları bilinirdi. Atlıların biri cibindən qutu çıxarıb, papiros bükdü, o birisi, nisbətən alçaqboy oğlan çoxdan başlanmış, özü də mübahisəli bir söhbəti təzələdi:

– Səhvin var, sən adam tanıya bilmirsən.

Papiros çəkən də soyuqqanlı cavab verdi:

– Mən bir baxışda bilirəm, bu nə yuvanın quşudur. Şirin dilə aldanmıram.

Atlılar kimin barəsindəsə deyişirdilər. O dedi: bu dandı, bu dedi, o



radd elədi. Onların söhbətindən bir mətləb çıxmadığını görən bostançı məyus və peşman öz dəyəsinə qayıtdı.

İkinci gün Salman əmi kölgəlikdə uzanan bir şəhərlini dinləyirdi. Şəhərli, görünür ki, piyadalıq görmədiyindən, yol yorğunu olduğundan səssiz, hərəkətsiz uzanmışdı. Bir xeyli dayanandan sonra Salman əmi çıxıb getmək istəyirdi ki, şəhərli dilləndi:

– Necə sözdü, ay dayı?

Salman kişi bu üzə döndü:

– Nə söz, a bacıoğlu?

Şəhərli qalxıb oturdu:

– Bu ağacı əkəni deyirəm ey, deyirəm tünbətün oğlu zəhmət çəkib əkirsən, meyvə ağacı əksənə, bir tut ağacı, ya armud ağacı əksəydin, əlin topal olmazdı ki...

Şəhərlinin sözü Salman əmini bərk tutdu. Kişi heç bir cavab verməyib, başını aşağı saldı, qayıdıb dəyəsinə gəldi.

Üçüncü gün kölgəlikdə bir kəl arabası əyləndi. Arabaçı əlində bıçaq, söyüd ağacına dırmandı.

Salman əmi yüyürüb, yaxın gəldi. Arabaçının samı qayırmaq üçün ağac axtardığını bilib, sakit oldu.

– Ay eloğlu, – dedi, – bəlkə, bu ağac burada əkilməyəydi, samını haradan alacaqdın?

Salman kişi bu işarə ilə yaxşı söz eşitmək istəyirdi. Arabaçı başıaşağı budağın qabığını yontalaya-yontalaya etinasız dedi:

– Zalım oğlu, bunun yerində qarağacdan, çinardan bir möhkəm şey əkə bilməzdimi? Söyüdün samıya nə davamı olacaq? Əlacsızlıqdan yonuram. Bilirəm ki, hədərdi...

Salman əmi ona da cavab vermədi.

Dördüncü gün havanın lap bürkü vaxtında ki, nəfəs almaq olmurdu, bir dəstə biçinçi "Saz bulağı"na töküldü. Onlar yaxın tarlaların birində işləyirdilər. Söyüd kölgəsində nahar eləməyə gəlmişdilər. Yetirən kimi, xurcunu açıb süfrə sərdilər, torbadan süzmə çıxartdılar, bulaqdan su götürüb, ayran elədilər – çörək, soğan, xiyar doğradılar. Ağac qaşıqları əllərinə alıb, iştaha ilə yedilər.

Salman əmi istədi, onları bostan tərəvəzinə qonaq eləsin. Sonra fi-

kirləşdi ki, kənarda dayanıb, dinləmək lazımdır: görək bunlar xeyir işi görürlər, ya yox?

Biçinçilər süfrəni yığdılar, əllərini başları altına çataqlayıb, söyüd kölgəsində uzandılar.

– Rəhmət içində olasan, ay ağac əkən kişi!

Salman əmi diqqət yetirəndə, lap kənarda uzanan qarasaçlı oğlanın danışığını seçdi. Bir başqası onun sözünə qüvvət verdi:

– Bu düzün ortasında söyüd kölgəsi dünyalara dəyər. Var olsun bunu əkən əllər!

Salman əmi özünü saxlaya bilmədi. Mərzin dibindən qalxıb, kölgəliyə tərəf yeridi və dilləndi:

– Var olsun qədirbilən igidlər!

Biçinçilər ağac əkən kişini tanıdılar. Qarasaçlı oğlan dikəlib oturdu:

– Əmi, bu saat sənə rəhmət oxudum, bağışla məni!

– Nə olar, oğul, rəhmət diriyə də lazımdır. Siz ki, mənim əməyimi bilir, haqq-sayımı deyirsiniz, bundan yaxşı rəhmət olmaz!

Salman əmi bir əlini toqqasına keçirtdi, bir əlini şəhadət barmağı ilə söyüd kölgəsini göstərib ürək sözünü dedi:

– Burada çoxları oturub, çoxları gəlib-gedib, çoxları da ağac əkənin ata-babasını söyüb gedib. Bu qulağımla eşitmişəm, dinləmişəm, çünki onlar öz mənfəətlərini güdürdülər. Dünyada, bacıoğlu, hər sifətdə insan var. Mən bilirdim ki, bu kölgənin qədrini bilənlər, mənə "Sağ ol!" – deyənlər olacaq! Dünya xali deyil. İndi budur, sizin rahatlandığınızı görəndə, söhbətinizi eşidəndə bütün ağrılar canımdan çıxır. Özümü anadangəlmə bilirəm, dünyada borcumu ödəmiş oluram...

Biçinçilərdən biri Salman əminin sözünü kəsdi:

– Zər qədrini zərgər bilər, əmi, biz özümüz də zəhmət adamıyıq.

– Oğul, mənim zənnimcə, dünyada xeyir iş görməyən adam bir heç məqamındadır. Niyə ki, it də başını dolandırar. Biz insanların gərək dünyada izi qalsın, yaxşı işi, əl yerisi qalsın.

Salman əmi üzünü aşağıya çevirdi, qucaqlamaq istər kimi, qollarını açdı:

– Budur ey, üzüaşağı görürsünüz, hamısı bağdı, bostandı. Atalar, babalar əkiblər, tər töküb becəriblər, xeyrini biz görürük. Biz də gərək əkək, yetirək ki, xeyrini balalar görsün. Yoxsa hamı ancaq yemək qeydinə qalsa, onca ildə dünya xaraba qalar.

Biçinçilər birağızdan Salman əminin sözünü təsdiq elədilər. Onlar qalxıb gedəndə, söyüd ağacı cavan, yaşıl təmiz yarpaqlı budaqlarını dalğa kimi tərpədir, ipək kimi zərif, xışıltılı səsi ilə Salman əminin fikrinə sanki: "Bəli, bəli", – deyirdi.

1937

# İGİD OĞLAN

## I

Zavodun meydan kimi böyük, bağ kimi hasarlı həyətinə minlərlə adam dolmuşdu. Mühüm bir işin müzakirəsinə yığılan şad, igid oğlanların, gözəl və sağlam qızların iti və gülər gözləri tribunaya dikilmişdi. Danışanlar, fatehlər kimi tribunaya qalxıb-enirdilər. Staxanovçu Leyla əllərini kürsüyə söykəyib, tez-tez danışır, başındakı qırmızı ləçəyin ucları yaz küləyindən qızılquş kimi qanad çalırdı. Leylanın nazik, gümüş kimi saf səsi qulaqlardan getməmiş Seymur dayının enli və qabarıq sinəsi tribunada heykəl kimi göründü. Onun dalınca bir komsomolçu söz aldı. Montyor İlyas şüar deməyə tələsirdi.

Fəhlələr Baş Sovetə deputatlığa namizədlər göstərirdilər. Hamının dilində, hamının qəlbində partiya və hökumət rəhbərlərinin adı gəzirdi.

Tribunada adi bir işçinin, mühəndis müavini Barxudarın da adını çəkirdilər. Onun xalqa, vətənə sədaqətindən, məslək eşqindən, təmizliyindən, işə can yandırmasından danışırdılar.





Barxudar özü iclasda yox idi. Vacib iş üçün Tbilisiyə göndərilmişdi. Qayıdan gün öz adını ümumi iclasın qətnaməsində oxuyanda sevincindən, heyrətindən və ya iftixarındanmı, nədənsə, rəngi qızardı.

İki min nəfərlik böyük, nüfuzlu və məsul bir iclas onu Baş Sovetə deputatlığa layiq bilir, onu hökumət işlərinə qadir bilir, ona bel bağlayır.

Barxudar bu xoşbəxtliyin dərəcəsini, mənasını düşünəndə üzünə gələn şərəfli, məsuliyyətli günləri yaşayır kimi oldu. Sanki minlərlə seçicilər onun əlini sıxır, onu təbrik edir, ona iş tapşırıb, arxayın olur.

## II

Günəşli və sərin bir səhərdi. Aləm bayram içində idi. Böyük binaların belindən qırmızı kəmər çəkilmişdi. Lalə bayraqlar əsirdi. "M-1" maşınları çay üstündə uçan qaranquş kimi asfaltlı küçələrlə süzüb gedirdi. Hər tində, hər meydanda radiolar oxuyurdu. Camaat hər yandan axışıb gəlir, dəstə-dəstə seçki məntəqələrinə dolurdu. Barxudar da səs verməyə gedirdi. Barxudarın şadlığı özgələrinkindən ayrılırdı.

Hamı həvəslə gəlib inandığı, bel bağladığı namizədə – kommunistlərlə partiyada olmayanlar blokunun irəli sürdüyü namizədə səs verdi. Seçkidəki işini, vətəndaşlıq vəzifəsini ödədiyi üçün ürəyində rahatlıq hiss edirdi. Barxudar isə rahat ola bilmirdi, çünki o, yalnız səs verməklə vəzifəsini bitirmirdi. Bu gün, həmin bu saat başqa bir məntəqədə onun üçün tamamilə yeni və müqəddəs bir iş tapşırırlar. Bu vaxt onun həyatında ən mühüm və unudulmaz saatlardır, çünki onun adı neçə məntəqədə minlərlə seçicilərin – qanacaqlı, mədəni, azad sovet vətəndaşlarının müzakirəsinə qoyulmuşdu. Seçicilər bu gün seçki qutusunun yanına gəlib, Barxudar haqqında öz fikirlərini deyəcəklər. Onların rəyi Barxudar haqqında, xalqın hökmü olacaqdır. Dünyada xalqın hökmündən də doğru və qüvvətli hökm yoxdur.

Barxudar namizəd göstərildiyi okruqda seçki prosesini bütün canlılığı ilə təsəvvür edirdi. Əlində paket, iri və qəti addımlarla qutuya ya-

xınlaşanların ayaq səslərini eşidirdi, qutunun başında əyləşən komissiya üzvlərinin gülər üzünü görürdü.

Barxudarı daha çox düşündürən deputat olmağın, bu şərəfli adı daşımağın məsuliyyəti idi. O, yaxşı bilirdi ki, deputat xalqın elçisidir: seçicilər ondan adma layiq iş tələb etməyə, hünər gözləməyə haqlıdırlar və bunu edəcəklər də. Oğul odur, böyük xalqın etibarını, etimadını doğrultsun. Oğul odur, seçicilərin yanında həmişə üzüağ olsun, onları peşman eləməsin.

Bütün bu düşüncələr Barxudarı bir imtahan kürsüsü qabağında duran məktəbli kimi silkələyirdi, onun o gənc, sağlam və işsevən canındakı, əqlindəki bütün qabiliyyət və bacarıqları çağırırdı.

■ ■ ■

Seçkilər bitdi. Barxudar səsə qoyulduğu okruqda birsəslə Baş Sovetə deputat seçildi. O, deputatlıq vəsiqəsini alanda, on min nəfərə yaxın bir camaatın ona arxayın olub, iş tapşırdığını görəndə arxasının dağlara söykəndiyini hiss etdi, vücudunda sarsılmaz bir möhkəmlik sezdi, gözlərində ildırımlar oynadı.

## II

Barxudar seçildiyi okruqda seçicilərlə görüşə gedəndə Qumaş adlı bir komsomolçu qızla tanış olmuşdu. O, qızın zirəkliyini, iti hərəkətini və aydın danışığını xoşlamışdı. Qəzetlərin birində Qumaşın imzasını görəndə marağı artdı. Ürəyində dedi: "Sən demə, Qumaşın nitqi kimi, iti qələmi də var imiş". Qumaş qısa, mənalı, bir məqalə yazmışdı. Rayonun Kürqırağı kəndlərində daşqınla mübarizənin zəifliyini, bu işdə xalq düşmənlərinin vurduğu ziyanları göstərmişdi. Bir sıra əlaqədar təşkilat işçilərinin adını çəkmişdi və demişdi: "Daşqının qabağını dağ kimi qaytarmalıyıq..."

İstirahət günü axşam Barxudar boş vaxtından faydalanıb rayona, öz seçicilərinin yanına getdi. Qumaş sanki çoxdan Barxudarı gözləyirmiş,





maşına işarə edib: "Əyləşin gedək", – dedi. Onlar bir saat sonra Kürün qırağında, daşqın ağzında olan tarlalara, bağçaya çatdılar. Barxudar ayrı aləm gördü. Düzənliyin çökək yerlərini su tutmuşdu. Camaat çırmanıb, şıdırğı çalışırdı. Dirək basdıran, torpaq gətirən, təpənin başını qazıb, aşağılara tökən, bənd basdıran, at üstündə qışqıran, yaxın kənd evlərini at, araba ilə köçürən kim...

Kənd Soveti sədri qarnına qədər islanmış atını Barxudarın yanına sürdü.

Barxudar heç daşqın görməmişdi, ona görə də hər şeyə və hər kəsə heyrətlə baxırdı.

Sədr və Qumaş Kürün daşan yerini, alçaq sahilinin uzunluğunu Barxudara göstərirdilər. Barxudar fikirləşirdi.

"Birdəfəlik qüvvələri səfərbərliyə alasan, bax bu alçaq sahilləri daşla, sementlə doldurasan, sovet mühəndislərindən 4-5 nəfərini çağırıb, burada qala kimi uca bir bənd çəkəsən, Kürün qol-qanadını elə qırasan ki, şalban kimi, öz yolu ilə üzüb gedə..."

■ ■ ■

Bu əhvalatdan on-on beş gün keçmişdi. Suyun qabağı da birtəhər alınmışdı, amma çökəklərdə yığılıb qalan gölməçələr qurumamışdı. Durğun suyun qırağında toz kimi ditdili uçuşurdu. Sanitar məntəqəsinin adamları bunu eşidib gəlmişdilər.

Bir də gördülər, "QAZ" maşınlarının ağzı açıldı. Sement, daş, torpaq, ağac daşıyan tonyarımlıq maşınlar sakit kəndə böyük bir gurultu saldı. Sovet sədri pəncərədən boylanıb, dolu maşınları görəndə ixtiyarsız olaraq, Barxudarı xatırladı. Papağını da götürməyə macal tapmadı, onlara tərəf yüyürdü. Yaxına gedəndə apaşa geyinmiş bir qarayanız oğlan irəli yeridi və əl verdi:

– Məni tanımırsan, deyəsən, yoldaş Qələndər! Mən Məsmənin oğluyam.

Tənbəki doldurmaq istədiyi qəlyan sədrin əlindən yerə düşdü, apaşalı oğlan tez qəlyanı götürüb, ona verdi. O isə donmuşdu. Apaşalı oğlan dedi:

– Məsmənin oğlunu, Güloğlanı tanımırsanmı? Məni məktəbə qoyan özün deyildinmi?

Qələndər kişi Güloğlanı tanıdı və bağrına basdı.

– Maşallah, nə böyük oğlan olubsan, a kişi! Mən yazıq necə tanıyım, a bacıoğlu, səndən heç kəndli iyi gəlmir. Yepyekə bir injenerə oxşayırsan, dayın necə tanısın?

Güloğlan cibindən bir kağız çıxartdı və gülümsünərək dedi:

– Yaxşı dedin, elə injenerəm, elə onun üçün gəlmişəm. Barxudar yazıb, zəhmət çək, oxu...

Barxudar Bakıya qayıdandan sonra möhkəm və həmişəlik bir bənd bağlamaq, daşqın qorxusunu yox eləmək üçün mərkəzin əlaqədar təşkilatları ilə danışdığını, təşəbbüsünün alqışlandığını və bunun üçün kifayət qədər pul buraxıldığını yazırdı. Göstərirdi ki: "Həmin kağızı sizə verən oğlan gənc staxanovçu mühəndislərdəndir, tikintinin rəisi olur. Ona kömək edin. Mərkəzdən, şəxsən mənim bacardığımdan asılı nə lazımsa, düzəldəcəyəm. Sizin də işiniz o olsun ki, bu mühüm təşəbbüsü bütün kolxozçulara başa salın, camaatda olan həvəsi, qüvvəni təşkil edin. Tezliklə görüşərik..."

Qələndər məsələdən tamam halı olandan sonra bilmədi, şadlığından nə etsin. Güloğlanın əlindən tutub, dönə-dönə, bərk-bərk sıxdı:

– Ay sən bizə çox-çox xoş gəlmisən. Başla-canla sənə kömək etməyə hazırıq! Onu da bil ki, bunu, bu dəm-dəsgahı... – Qələndər bir az duruxdu. Dik-dik Güloğlanın üzünə baxdı: – Bunu, bu dəm-dəsgahı ki başlayırıq ha, mən yatsam, yuxumda da görə bilməzdim. Var olsun, sağ olsun o Barxudarı, var olsun kəndlinin qeydinə qalan atamız Sovet hökuməti!..

## III

Gün keçdi, həftə dolandı, aylar ötdü. Köçaxır kəndi köyşənində Kür qırağına çəkilən bənd tikilib başa gəldi. İnsan nə qədər ağır, çətin iş başlayır-başlasın, nə qədər əziyyət çəkir-çəksin, əməyinin məhsulunu, yaratdığını görəndə bütün əziyyətlər yadından çıxır, sevincindən dağa-daşa sığmır. Ürək şadlıq, könül fərəh, baş məğrurluq, can rahatlıq hiss edir.



İllah da belə əmək ki xalq üçün, xoşbəxtlik üçün həm indi, həm də gələcək üçün olsun. Camaat möhkəm və uca, böyük şəhərlərin küçələri qədər enli divarın, bəndin üstünə çıxıb gəzinirdi. Ağzı qayıtmış Kürün burula-burula axıb getməyinə tamaşa edirdi. Kürün çox yuxarılardan qızmış buğa kimi fısqıra-fısqıra gələn suyu sovet adamlarının – mühəndislərin, fəhlələrin, kolxozçuların əli ilə tikilmiş polad bəndə çırpanda çini qab kimi çilik-çilik olub tökülürdü. Dalğalar sanki öz gücünü yoxlayırdı. Bir müddət gedəndən sonra, Kürün dərinlərindən, suyun gur yerindən qüvvət alandan sonra qayıdıb bəndə hücum edirdi, tamam məğlub olduğunu duyub, uzaqlara doğru gedirdi. Kolxozçular tamaşa elədikcə fərəhlənirdilər. Kimisi bəndin qabağındakı yerlərdə bağ salmaqdan, kimisi çoxmərtəbəli ev tikib pəncərələrini Kürə açmaqdan, kimisi bənd işində hamıdan çox çalışan staxanovçulardan danışırdı.

Bu adamların içində Barxudarın – deputatın adı ayrı bir hörmətlə çəkilirdi, çünki bu işin təşəbbüsçüsü o idi. Hamı onu təbrik edirdi, hamı ona təşəkkür edirdi.

■ ■ ■

Barxudarın yaxşı işlərindən danışılan sözlər qoruqçu Ağanın arvadı Bədirnisənin qulağına çatdı. O, ərindən soruşdu:

– Bu ki deyirlər, bəndi basdıran oğlan, bu hansıdır?

– Hansı olacaq, yadında yoxdur, seçki oldu ha, səs verdik... Sən getməmişdin, bərk xəstə idin, yatırdın.

Bədirnisəni fikir götürdü: "Belə igid oğlana barmaq qaldırmamışam. Görəsən, necə eləyim..."

Bədirnisə qalxıb, mücrüsünə baxdı, o zaman komsomolçuların payladığı seçki kağızı hələ də dururdu. Hamı bu kağızla deputat seçkisinə getmişdi. Bədirnisə seçki kağızını ovcunda sıxdı. "Ya mədəd" deyib, yerindən qalxdı, geyindi, hazırlaşdı. Ərinin qoruqdan qayıtmasını gözləmədi, qapının ağzına bir qıfıl vurub, ispalkomun idarəsinə getdi. Bir qız telefonla danışırdı, həyətdə də bir maşın durmuşdu. Bədirnisə içəri girməyə cəsarət eləmədi. Qapıdan boylanıb, geri qayıtdı. Qız çağırdı:

– Buyur, ay xala, nə işin var, gəl, qayıtma!

Bədirnisə içəri girdi və qızdan soruşdu:

– İspalkom hanı, a qızım?

– Bənd üstündədir. Camaat hamısı ora gedib, nə işin var?

Bədirnisə geri qayıtdı, istədi qızın sualına cavab verməsin. Bir də nə fikirləşdisə, lap irəli gəldi, əllərini stola söykədi, qızın qabağında dayandı, onun üzünə baxdı:

– O oğlanın adı nədir, seçilənin?

– Hansı seçilənin deyirsən, deputatımızınmı?

– Hə, hə!

– Barxudar!

– Barxudara kağızım var, dedim, ispalkom tez çatdırar. Zəhmət çək, mənə bir paket, əl-ayaq elə.

Qız ayağa qalxdı, kitabının arasından bir narıncı paket çıxardıb verdi və dedi:

– Barxudarın özü bu saat bənd başındadır. Getsən, özünü görərsən. Ancaq uzaqdır, istəyirsən gözlə, axşamüstü burada olacaq, gəlib ərizəni verərsən.

Bədirnisə yenə duruxdu, fikirləşdi: "Gedim-getməyim, gedim-getməyim."

Qız əyilib qapıdan baxanda Bədirnisənin əllərini belində çataqlayıb, bəndə tərəf yeyin getdiyini gördü. İstədi səsləsin ki, "ay xala, yorulub dildən düşərsən, gözlə qayıtsın". Ancaq Bədirnisə arvad uzaqlaşmışdı, səsləsə də, eşitməzdi.

## IV

Bənd üstündə, mitinqin şirin yerində Qumaş Barxudarı geri çağırdı ki: "Bir qarı var, sizi görmək istəyir." Barxudar aşağı düşəndə Bədirnisə əlindəki kağızı ona verdi və mehriban-mehriban dedi:

– Bağışla, ay oğul, xəstə olmuşam, qocalığın üzü qara olsun, məni bağışla!

Kənd soveti sədri Qələndər kişi kənardan göz qoyurdu. Bədirnisənin, ömründə ictimai həyat, idarə, iclas tanımayan qarının deputata ərizə gətirdiyini görəndə bir az da narahat olmuşdu: "Görəsən, bu nə şikayətdir. Yəqin, bunu öyrədən var. Bəlkə mənim özümdən ərizə verir, kim bilir..."



Başqa bir məsələ olsaydı, Qələndər kişi Barxudardan soruşardı. Bilirdi ki, Barxudar ondan söz gizlətməz. Amma burada özü haqqında bir iş olacağından ehtiyatlanıb, soruşmağa ürək eləmədi. Yanakı bir Bədirnisəyə baxdı, bir də Barxudarın əlindəki paketə baxdı, bir şey hiss edə bilmədiyindən köksünü ötürdü.

Bədirnisə kağızı verib, deputatın əlini sıxandan sonra qayıtmaq istəyirdi. Barxudarın paketi açdığını, kağızı oxuduğunu görəndə dayandı ki, görsün nə deyəcək.

Barxudar seçki dəvətnaməsinə baxa-baxa qaldı. Elə bildi, qarı yanılmışdır. Paketin içinə ərizə əvəzinə bunu qoymuşdur. Əl eləyib Bədirnisəni çağırdı:

– Nə istəyirsən, ay ana, sözünü de!

– Heç bir şey istəmirəm, ay oğul, sənin igid canının sağlığını istəyirəm. O mənə bəsdir.

Barxudar yenə bir şey başa düşmədi:

– Bu sənin seçki kağızındır ki!

– Demədimmi, ay oğul, bağışla, eldən geri qalmışam, bağışla.

Barxudar onun səs verməyə getmədiyini bildi, Qumaşı yanına çağırdı. Qarının adını soruşdu. Üzünü Bədirnisəyə tutdu:

– Səsini mənə verməyinə təşəkkür eləyirəm. Mənə inanırsan, çox sağ ol, ay ana! Ancaq səndən bir xahişim var.

– Buyur, ay oğul, əlimdən gələni...

– Gələr, əlindən gələn işdir...

Barxudar Qumaşı göstərdi.

– Bu qızı ki tanıyırsan.

– Tanıyıram, ellimdir!

– Necə qızdır?

Barxudar bunu deyəndə Bədirnisənin xəyalına gəldi: "Oğlan Qumaşı istəyir, yəqin, məndən xahişi var ki, bu işi düzəldim". Barxudar kimi bir igidin ona işi düşdüyünə ürəkdən sevindi. Lakin bu işin düzələ bilməyəcəyinə heyifsiləndi (çünki Qumaşın əri vardı). Cavab verdi:

– Yaxşı qızdır, amma, ay oğul, onun əri var!

Barxudar güldü:

– Amma niyə? Əri olanda yaxşı qız ola bilməz? – Bədirnisə dinmədi. Barxudar davam etdi: – Özün də təsdiq edirsən, bu çox yaxşı qızdır.

Kənddə qadınların irəli getməyinə çox can yandırandır. Səndən xahişim budur ki, çox yox, bircə ay bunun yanında oxuyasan. Bizim seçki qaydalarını lap yaxşı öyrənərsən. Gündə yarım saat bu qızın söhbətini eşitsən, kifayətdir.

Bədirnisə söz verdi:

– Baş üstə, ay oğul! Baş üstə! Lap iki saat desin, mən hazıram. Qarı olanda, nə olar, mən özüm öyrənmək istəyirəm...

## V

Mitinqdən sonra Barxudar Bakıya qayıtmağa hazırlaşırdı. Kənd işçiləri deputatı yola salmaq üçün maşının başına yığılmışdılar. Barxudar Bədirnisə arvadla məşğul olmağı Qumaşa bir də tapşırırdı. Qələndər kişi arvadın adını eşidəndə diqqətlə qulaq verdi. Barxudarın qayımdan danışdığını görüb cürətləndi və soruşmaq istədi: "Kimi deyirsiniz, qoruqçunun arvadı Bədirnisədənmi danışırsınız?.." Barxudar əhvalatı ona danışanda Qələndərin rəngi açıldı.

– A səni sağ olasan, bunu bayaqdan de də. Ürəyim üzüldü ki: mən də deyirəm arvadın, görəsən, bizdən nə şikayəti var. Belə de də!..

Barxudar hamı ilə xudahafizləşdi. Maşın küçələrə səs sala-sala kənddən çıxıb, gözdən itincə Qumaş baxırdı. Barxudarı – bacarığı, igidliyi ilə özünü camaata sevdirən oğlanı düşünürdü. Ona elə gəlirdi ki, Barxudarın igidliyində, qabiliyyətində qeyri-adi, təəccüblü heç bir şey yoxdur. Çünki onun gücü onu böyüdüb yetirən partiyanın gücüdür, onun gücü xalqın birləşmiş, polada dönmüş səsinin gücüdür. Onun igidliyi partiyasına, xalqına, öz seçicilərinə sədaqətindəndir, xalqa xidmət işinə olan sevgisindəndir, yaratmaq, yarıtmaq, bütün qabiliyyətini sosializm işinə vermək eşqindədir. Qumaş bu fikirlərində yanılmırdı.

*1938*



# VƏTƏN OĞLU

## I

Mənim nə dərdim vardı? Yalnız ailəmin, ata-anamın razılığını almağı düşünürdüm.

Atam da, anam da Zahidi görmüşdü. Mənim məktəb yoldaşım, məlumatlı, mərifətli bir oğlan olduğunu, yaxşıca kamança çaldığını bilirdilər.

Mən ailəmin rəyini soruşmamışdımsa da, onların bu işə razı olacaqlarına şübhə etmirdim. Ona görə məsələni cəsarətlə anama açdım:

– Ay ana, Zahid məndən əl çəkmir, nə deyirsiniz?

Anam dik-dik baxdı:

– Nə danışırsan, a qız! – dedi. – Özbaşınasan, nədir?

Mən hər nə qədər azad hərəkət etsəm, sərbəst olsam da, hər işdə ata-anamın ehtiramını saxlar, onlardan izin alardım.

– Özbaşına olmadığım üçün, – dedim, – sizdən soruşuram, yoxsa bəziləri kimi, heç sizə deməzdim.

Anam üstümə çığırdı:

– Kişi dünyanı dağıdar. Zəhmət çəkib, qız böyütmüşük. Sənin nə haqqın var, alışıb-verişəsən, ay ərkansız!

– Məni satmaq üçünmü böyütmüşsünüz, ana?

Anam dinmədi. Krantı açıb, əl-üzünü yumağa başladı. Mən evə girdim. Pəncərənin qabağında məyus-məyus dayandım.

Dalandan anamın səsi gəldi:

– Haralıdır, ay qız?

"Görünür, o, bu barədə danışıq aparmağa razıdır", – deyə düşündüm və cavab verməkdə bir az gecikdim.

Qapını açıb çağırdı:

– Bura gəl, görüm!

O, sanki xəlvət bir şey soruşur, heç kəs bilməsin deyə, ətrafına baxıb döyükürdü:

– Haralıdır o gədə, hayandandır?

– Qarabağdan.

Bir müddət anam dinmədi. Yəqin, cavabımdan razı qalmışdı. Yenə soruşdu:

– Atası-anası varmı?

– Bir qoca atası var, anası çoxdan ölüb.

– Qardaşdan, bacıdan nəyi var?

– Ərdə bir bacısı var.

Anam daha kiridi. Mən bildim ki, o, Zahidin qohum-qardaşı haqqındakı cavablardan razı qaldı. Çünki "oğlanın anası yoxdur." Deməк, qızı qayınana qeydi çəkməyəcək, evdə dedi-qodu olmayacaqdır. Anam, görünür, buna çox məna verirdi.

Mən anamın susmasını fürsət bilib, şərti kəsmək istədim:

– Razısanmı, ana? Daha bir sualın, sözün varmı?

O gülümsündü və dedi:

– Mən heç bir şey bilmirəm, atandan soruş! – o, özünü ciddiləşdirdi və səsini dəyişdirdi:

– İndiki oğlanlara nə etibar! Sabah elə olmadı, belə oldu.

– Necə oldu? Mən atama söz deyə bilmərəm.

Atam çox zaman işdə olurdu. İşıq idarəsində montyor idi. Sənətinə



çox həvəsi var idi. İş paltarını əynindən çıxarmaq istəməzdi. Xatırını da istərdilər, ona etibar edərdilər. Çətin işdə, avariya vaxtlarında bir də görərdin, qapıda maşın səsləndi. Atam xörəyini qabağında qoyub yüyürərdi. Hər işi qaydaya salmamış qayıtmazdı.

Anama yalvarmışdım ki, mən evdə olanda atama heç nə danışmasın!

Bu gün dərsdən qayıdanda atamı istirahət eləyən gördüm. Evdə özgə adam yox idi. Söhbətin açılmış olduğunu yəqin etdim. Atamın üzünə baxa bilməsəm də, kefi açıq olduğunu hiss edirdim. Xəyalımdan keçdi: "Atam, deyəsən, razıdır."

Anam mətbəxdə qurdalanırdı. Yanlayıb qulağına əyildim və:

– Nə deyir? – deyə soruşdum. – Anam eşitmədi, ya özünü eşitməməzliyə qoydu, bir də soruşdum: – Nə dedi?

Anam gözlərini mətbəx stolundan ayırmadı, ahəstə cavab verdi.

– Danışmamışam. İndicə gəlib.

Sən demə, o məndən gizlədirmiş. Bir də gördüm, atam məni çağırdı. Stul çəkib əyləşdirdi, kefimi soruşdu.

O məni çox istəyirdi. Lakin indiki ehtiramında mən yeni bir istilik, səsində xüsusi bir nəvaziş duyurdum.

Qapını örtdü, yanımda oturdu. Üzümə yox, vərəqlədiyi kitabın cildinə baxa-baxa başladı:

– Qızım, Sitarə, bilirsən ki, biz, – ata-anan səni necə istəyirik. Mənim fikrim-zikrim sənsən. Gözümün, necə deyərlər, ağı-qarası, görübgörəcəyim, oğlum da, qızım da sənsən. Tay-tuşların içində başıuca olmağını, həmişə xoş gün keçirməyini, ürəyinə zərrə qədər xiffət gətirməməyini istəmişəm. Bunun üçün əlimdən gələni eləmişəm, eləyəcəyəm də. Anan da bu cür. Bizim böyük arzumuz var, gərək sənin xeyir işin, ömrümüz boyu çəkdiyimiz qəm-qüssənin hamısını yuyub aparsın. Ancaq, qızım, sənə bir ata məsləhətim var!

Atamın hər şeydən xəbərdar olduğunu bilib, qıpqırmızı qızardım, başımı aşağı salıb, dözmək istədim. Lakin atamın sözləri, indiyə qədər eşitmədiyim və bəlkə bir daha eşitməyəcəyim təsirli sözlər qüvvətli bir təlqin kimi məni aldı. Atam mənim toyumdan, köçməyimdən, cehizimdən xəbər verirdi. Deməli, mən bu evdən, böyüyüb bəsləndiyim ana qu-

cağından, ata yurdundan ayrılacağam. Bu mümkündürmü? Uşaqlıq, gənclik həyatımın əziz, qayğısız günlərini, xoşbəxt dəqiqələrini bu evdə töküb gedə bilərəmmi? Yox, yox! Mənim sevgilim də, ailəm də, gələcəyim də buradadır. Anamın, o mehriban anamın munis qucağı nə tez soyudu, nə tez mənə yad oldu!

Gözlənilməz və kədərli bir duyğu məni aldı. Əvvəllər, icazə almaq arzusunda olduğum zaman atamı köhnə həyat qaydalarından silkinməmiş, sevgidən, məhəbbətdən uzaqlaşmış, sevdalı qəlbin mahnılarına yad bir adam kimi təsəvvür edirdim. İndi isə atam qarşımda böyük və həssas bir qəlb sahibi kimi dururdu. Sanki onun birdəqiqəlik müqəddiməsi mənə kitablar qədər mənalı idi.

Hər şey: keçmişim, gələcəyim, şən və acı dəqiqələrim, arzularım, həsrətli çağlarım, könül yoldaşlarım – hamısı, hamısı gəlib, gözümün önündə dayandı. Gözlərimdən axan səssiz damlaların yanaqlarımı islatdığını duyanda başımı daha da aşağı saldım, yaylıqla üzümü örtdüm. Atam məni sakit elədi.

Atamın sözləri məni sanki daxili həyəcandan ayıltdı, qəlbimə su səpdi. İndi o məni öyrədib, oxudub mübarizə meydanına yola salan, öz ixtiyarıma, öz bacarığıma tapşıran bir müəllim kimi görünürdü. Mən müəllimin dediklərini ürəyimdə təkrarlayır, azmamaq üçün, onu şad etmək və özümü pis təsadüfdən qorumaq üçün düşünürdüm. Düşünürdüm ki, doğrudan da Zahidin şirin söhbətləri, zahirən mülayim xasiyyəti mənim üçün ideal ola bilməz. Mən onun bir insan olaraq, cəmiyyətdə, həyatda, xalq yanında nə qədər faydalı olduğunu yoxlamaq istəyirdim. Onu bərkə-boşa salıb, imtahandan çıxarmaq üçün fürsət, vasitə axtarırdım. Onun, atam dediyi kimi, daha nəyi sevdiyini və nəyə nifrət etdiyini bilməliydim. Mən bilməliydim ki, qoltuğunda gəzdirdiyi qalın kitabların nəyini sevir, nə üçün sevir. Bəlkə bu bir görkəmdir. Zahidin bütün xasiyyətlərini təsəvvürümə gətirir, bir-bir mühakimə edirdim. Onun yoldaşları ilə olan bir söhbəti yadıma düşdü və məni sevindirdi.

O, tibb institutunu qurtarandan sonra kəndə göndəriləcəyinə təəssüf edən bir yoldaşına deyirdi:

"Mən bu məktəbə daxil olan gündən bilirəm ki, kəndə gedəcəyəm.



Pis həkim olduğum üçün yox, kəndə yaxşı həkim lazım olduğu üçün gedəcəyəm. Mən axı komsomolçuyam. Mən kənddə çalışmalıyam. Getdiyim yerdə qızdırmanın kökünü kəsincəyə qədər qalacağam. Kəndlilərin uşaqlı-böyüklü sapsağlam olduğunu, yanaqlardan qan damdığını, "qızdırma" sözünün ancaq nağıl kimi, söhbətlərdə deyildiyini görəndən sonra, bəlkə kənddən çıxam, bəlkə uzaq və kiçik kəndlərin birində bəzi adamların qanında gizlənib qalan qızdırma mikrobları ilə son mübarizə də mənə qismət oldu. Mən bununla xalqa bacardığım xidməti etmiş olaram."

■ ■ ■

Mən bir il də Zahidi ləngitdim. Etiraf edim ki, onu çox incitdim də. Ona inanmamağa heç bir əsas tapa bilmədim. Yanılmadığıma sevindim. Səhər evdən çıxanda atama əl boyda bir məktub qoydum:

"Əziz atam, sizin tanıdığınız oğlana "hə" dedim. Siz çox evlərə, çox qaranlıq yerlərə işıq çəkirsiniz. İki gəncin könül otağında yenicə parlayan məhəbbət işığının sönməsinə yəqin ki, razı olmazsınız!.."

## II

Bizdə də, Zahidgildə də toya hazırlıq gedirdi. Zahid diplom işini bitirmişdi. Mən hələ çalışırdım. O, axşamlar gəlib mənə kömək edirdi. Dediyim kitabları tapıb gətirir, sitatların üzünü köçürür, qaralanmış vərəqələri ağardırdı.

Yayın əvvəllərində Zahidi hərbi stola çağırdılar. Bir il gedəsi oldu.

Çağırış məntəqəsinə qədər onu özüm yola saldım. Mənə təsəlli verir, azı həftədə bir məktub yazacağına and içirdi, tez-tez cavab yazmağı xahiş edirdi:

– Heç bir hazırlıq işi üçün, – deyirdi, – özünü yorma. Sağlıq olsun, özüm qayıdan kimi, hər şeyi düzəldəcəyəm. Sən diplom işini bitir, sonra otur dincəl, çox yorulmuşsan, sınıxmışsan.

Öz yaxın yoldaşlarından bir neçəsi ilə onu Uzaq Şərqə yola salırdıq.

Qatar hərəkət fitini verib stansiyadan çıxdı. Qəlbim də onunla, pəncərədən çəkilməyən, əl edib, mənimlə vidalaşan sevgilimlə getdi.

■ ■ ■

Mən diplom işimi bitirəndən sonra, həm onun tapşırığını yerinə yetirmək, həm də Bakının bərk iyul bürkülərindən qurtulmaq üçün məktəbdən putyovka alıb Kislovodska, sanatoriyaya getdim.

Deyə bilərəm ki, bu yay ömrümün ən əziz, ən arxayın yaylarından biri idi. Məktəbi yaxşı bitirdiyim üçünmü, sevgimə nail olduğum üçünmü, sanatoriyanın dinc, təmiz və təmin olunmuş əyləncəli həyatından xoşlandığım üçünmü, vaxtımı təbiət döşündə, gül-çiçək içində keçirdiyim üçünmü, nə isə bu günlər mən özümdə diləgəlməz bir xoşhallıq, xoşbəxtlik hiss edirdim.

Məni gözlənilməz və nagahani bir intizar tapdı. Bu o günlər idi ki, düşmənlərin qudurğanlığı həddini aşmışdı. Qəzetlər Yaponiya samuraylarının Uzaq Şərq sərhədlərində bizim torpağımıza soxulduğunu xəbər verirdilər. Bu xəbərlər xalqı həyəcana gətirmişdi. Milyonlarla zəhmətkeş müqəddəs Sovet torpağını qorumaq üçün candan-başdan keçməyə hazır olduqlarını bildirir, samuraylara nifrət yağdırır, onlara qəti zərbə vurulmasını tələb edirdilər.

Qəzetlər Xasan gölü ətrafında olan döyüşlərdən xəbər verirdilər. Mən ikitərəfli narahat idim. Sanatoriya həyatı daha nəzərimdə yox idi. Axşam istirahətindən sonra qızlar əl-ələ verib parka çıxanda mən yayınırdım. Kənar, səssiz xiyabanlarda başıaşağı gəzinir, Zahidi düşünürdüm. Mənə elə gəlirdi ki, o yanımdadır. Budur, onun möhkəm əlinin istisi ovcumdadır. Solumda yeriyən addımlarından qum xışıldayır, mənalı söhbəti qulağımda səslənir...

Başımı qaldıranda teleqrafxana lampalarının işığı üzümə düşdü. Anama teleqram vurdum. "Çox nigaranam, mənə bir xəbər!"

Əsəbi barmaqlarım qələmi elə bərk sıxırdı ki, pero kağızda yerimirdi.

Bütün gecəni gözümə yuxu getmədi. Alacağım sabahkı cavabı düşünürdüm: "Anam yəqin ki, Zahiddən nigaran olduğumu bilir, ondan



aldığım məktub, ya teleqramdan məni xəbərdar edəcəkdir".

İki gün səbirsizliklə gözlədiyim cavab məni daha da əsəbiləşdirdi. Anam yazırdı: "Biz yaxşıyıq, nigaran olma!"

Zahiddən heç bir xəbər bilə bilmədim. Evimizin də bir xəbər almadığına inandım. Məktub alsaydılar, mənə bildirərdilər. Bir də fikirləşirdim: "Bəlkə bu, anamın sadəlövhlüyündəndir. Bəlkə mənim teleqramımı duya bilməmişdir. Bəlkə də onun məktublarını əziz bir sovqat kimi yığıb, qayıtmağımı gözləyir?"

Bu təsəvvürlər, şübhəsiz, məni rahat edə bilməzdi. Qəzetləri oxumaqla təsəlli tapırdım. Sərhəddə vuruşan döyüşçülərimizin dünyanı heyrətə salan qəhrəmanlığına sevinirdim. Zahidi də unuda bilmirdim. Cəbhədən gələn ümumi xəbərlərdən onun halını bilmək istəyirdim, sanki onun haqqında ayrıca yazılacaqdı...

Hər səhər qəzet kiosku açılmamış növbəyə dururdum. Narahat dayandığımı kənardan baxanlar da hiss edirdilər. Qəzet üçün dayananların içində qırmızı paltarlı, sarışın bir qız var idi. O öz növbəsini gözləməyə dözə bilmirdi. Yanaşıb kənardan, mən baxdığım qəzetə baxırdı. Onun bu hərəkəti mənə qəribə gəlmirdi. Lakin mənim əhvalımı hiss etmədiyinə, yaxud hiss edib, maraqlanmadığına acığım tuturdu. Tanış olmasaq da, dillənməyə məcbur oldum:

– Mənim cəbhədə adamım var, sizə nə olmuşdur?

O, üzümə baxdı, sonra gözlərini qəzetin sütunlarına çevirib cavab verdi:

– Sizin bir adamınız oradadırsa, mənim minlərlə qardaşlarım oradadır, mənim müqəddəs vətən torpağım oradadır.

## III

Mən qəzetləri oxuyub, radionu dinlədikcə sanki Zahidi görürdüm. Gah hücumda, tozlu-dumanlı havalar içində dəstə ilə irəliyə doğru yüyürdüyünü, silahını bayraq kimi göyə qaldırıb – "Ura!" çəkdiyini görür, sevincimdən nə edəcəyimi bilmirdim. Xəyalımda canlanan qəhrəmanların qalibiyyət səsini hamı eşitsin deyə hər şeyi susmağa, dinləməyə ça-

ğırmaq istəyirdim.

Zahid cavandır, komandirdir. Ştabda oturmaz, atəş xəttində vuruşar!

Odur, səngərə sığınmış, dizini yerə qoyub atan, üfüqdə başı tərpənən düşmənləri bir-bir dənləyən Zahid deyilmi? O, necə də əsəbidir! O boylanır, qartal kimi cummaq istəyir, hirsindən dişi-dodağını kəsir. Amandır, Zahid, səngərə sin, güllə yağır!

Bəzən də onu xəstəxanada görürəm. Başına ağ dəsmal bağlanmışdır, rəngi solmuş, üzünü yanaqlarına qədər tük basmışdır. Nə qədər də sınıxmışdır – əl sümükləri şəbəkə kimi görünür. O, gənc, həsrət nəzərlərini çevirib, başı üstündə dayanan şəfqət bacılarına baxır. Qaraxallı, ağxalatlı qız əyilib, onun nə istədiyini soruşur. O cavab vermir, solğun gözləri ilə ağır-ağır sağına-soluna baxıb susur! Şəfqət bacısı onu anlaya bilmir.

Gözəl qız, mehriban qız, özünü yorma, Zahid ayrı adam axtarır, inandığı, könül verdiyi bir etibarsızı axtarır...

Of... bu xəyallar nə qədər ağırdır! Başımdan ağrı qopur, gözlərimə qaranlıq çökür. Xəyallar, bir bıçaq kimi qəlbimə sancılan xəyallar, məndən uzaq olun, dağlara, daşlara!

Bu tənha düşüncələrdən ayrılıb parka çıxmışdım. Yoldaşlarım məndən muştuluq istədilər.

Primorye döyüşçülərinin düşməni məğlub etməsi, torpağımızın samuraylardan təmizlənməsi haqqındakı son məlumatı qəzetdə oxudum. Qəzetlər bu qələbənin ayrı-ayrı səhnələrini təsvir edən maraqlı yazılarla dolu idi. Biz həvəslə bir-bir oxuyurduq. İç səhifədə "Vətənin oğlu" adlı bir oçerk çap olunmuşdu. Sanki mənim qulağıma pıçıldadılar: "Oxu!"

Mən xırda hərflərlə yığılmış sətirlər arasında qara və iri hərflə yazılmış Zahid kəlməsini görəndə ürəyim döyündü, ayağa qalxdım, qəzeti yoldaşlarımın əlindən aldım, sanki hərfləri gözümlə yeyəcəkdim. Onlar mənim hərəkətimə heyran qaldılar. Soruşdular, qalxıb qolumdan tutdular, dönə-dönə dindirdilər. Lakin mən heç nə etmir, heç nə görmür, heç nə duymurdum. Bütün duyğularım gözümə cəmlənmişdi. Gözüm bir ada sancılıb qalmışdı. Ha istəyirdim, oxuyum, ha istəyirdim,



görüm onun başında nə var, ha istəyirdim, tez bilim, səadətimdənmi, müsibətimdənmi yazırlar, lakin nəzərim sətirlərdə yerimirdi. Mən titrəyirdim, ixtiyarsız diz üstə çökdüm. Qəzet əlimdən düşdü. Yoldaşıma işarə elədim.

– Oxu, tez ol görüm, nə var?..

Onlar mənim bu oçerkdə adı çəkilən adamlardan birinə bağlı olduğumu duymuşdular. Ona görə ehtiyat edirdilər. Məni kədərləndirə biləcək heç nə demək istəmirdilər. Mən onların duruxmasına hirsləndim, bərk qışqırdım:

– Oxu, oxu, ay bacı, Zahidi oxu!

Yoldaşım ucadan oxudu:

"...Zahid adlı bir qəhrəman döyüşçünü on doqquz nəfər düşmən əhatə etmişdi. Gülləni dolu kimi yağdırırdılar. Mühasirədə, duman içində tək qalan o polad vücud, əl pulemyotu ilə düşməni yaxına qoymur, dumanda seçə bildiyi hədəfi dərhal aşırır, çətin dəqiqələrin ola biləcəyini düşünüb, patronu israf etmirdi. Düşmənlərin beşini öldürdü. Yeddi nəfəri isə "sürünə-sürünə irəliləyirdi. Görünür, düşmənlər qəhrəmanı diri tutmaq istəyirlərmiş. Zahid onların hənirtisindən yaxınlaşdıqlarını duyur, torpağı onların başına sovururdu. Onlar yenə irəliləyirdilər. Zahid birinin canavar kimi, həris gözlərini görür, əsəbiləşirdi, canından artıq sevdiyi sovet silahını bağrına basır, düşmən üzərinə ildırım kimi şığıyırdı. Uzaqda vuruşan döyüşçülər onun odlu səsini eşitmişdilər. O, düşməni vahiməyə salan nifrətlə bağırırdı:

– "Canavar, sənə silahımı vermərəm! Öl, murdar!.."

Mən ancaq buraya qədər dinləyə bilmişdim. Gözümü açıb özümü yatağımda gördüm. Qızlar məni təbrik edirdilər.

– Zahid sağdır. Zahid qəhrəmandır. Zahidi indi milyonlar tanıyır, əzizləyir. Gör nə yazılıb:

"...Belə böyük qəhrəmanları olan xalq məğlubedilməzdir!"

Mən oçerki başdan-ayağa bir də oxudum. Zahidin əsl qəhrəman kimi vuruşduğunu, mühasirədən aslan kimi çıxdığını yazmışdılar. Yaralandığını da yazmışdılar. Səhifənin ortasındakı şəklə baxdım. Deyəsən, rəssam bu şəklə mənim baxacağımı bilirmiş. Onun silah çəkib hücum etdiyini, bükülməz qollarını, məğrur başını, geniş köksünü nə gözəl çə-

kib! Geri daranan bu sıx və qara saçlar onunkudur. Rəssam yəqin, onu görmüşdür. Rəssam onu tanımamış deyil!

Mən bilet alıb Bakıya qayıtdım. Anamın dediyinə görə, bacısı yaralandığını eşidib, ərilə Uzaq Şərqə gedib.

Mən Zahidin adresini götürüb, vağzala getmək, bilet sifariş etmək istəyirdim. Atam mane oldu:

– Sənin getməyinə ehtiyac yoxdur, – dedi, – qayıt, otur yerində!

Anam da çox soyuq danışırdı:

– Hara gedəcəksən, ay qız? Ağlın azıb, nədir? Yollarda tək-tənhamı qalmaq istəyirsən? Qız oğlan dalınca getməz!

Xəyalıma gəldi ki, bəlkə, Zahidin başında bir iş var. Bəlkə, anam qəsdən məni soyutmaq üçün, mənim qüssəmi azaltmaq üçün belə danışır. Qayıdıb soruşdum:

– Ay ana, yoxsa Zahiddən xəbər bilirsiniz? Düzünü deyin görüm, oğlan haradadır?

Anam duruxdu, atam da anama baxdı. Mən onların baxışmasına məna verə bilmədim.

Anam dedi:

– Nə olacaq, ondan ötrü niyə üzülürsən?

Onun sağ olmadığı haqqında şübhəm daha da artdı, ağlamaq məni boğdu. O biri otağa keçdim.

Anam yanıma gəldi. Qolumdan tutub aparmaq, təsəlli vermək istədi. Mən başımı aşağı salıb, gözümün yaşını tökürdüm. Birdən anamın içini çəkdiyini eşitdim.

– Qonaq istəyirsinizmi?

Bu səsdə mən özümdən, səadətimdən, gəncliyimdən bir hiss duydum. Qışqırıb özümü Zahidin qucağına atdım.

O güldü və dedi:

– Yenə bunu kim incitmişdir? Sizə tapşırmamışdımmı? Ay Sitarə, bu nə halətdir, sənə ağlamaq yaraşmır. Məni təbrik et! Vətən torpağını düşmənlərdən təmizləməyimi təbrik et! Yoldaşının isti qanı ilə qoruduğu bu müqəddəs torpağı təbrik et!

O, dəsmalla gətirdiyi qanlı torpağı mənə göstərdi və dedi:

– Yaralarım məni haldan salanda, bədənim bir yarpaq kimi yüngül olub sözümə baxmayanda hirsimdən torpağı xışmalamışdım. Xəstəxanada bu qanlı torpağı əzizləyib saxlatdım. Sevgilimə, dedim, hədiyyə aparacağam. Qoy bu torpaq mənim sədaqətim və ilqarım üçün böyük andım olsun!

Mən danışa bilmirdim, sevincimdən dünyanı bir parça nur görürdüm. Ailəmizə böyük bir şənlik üz vermişdi. Qonum-qonşu tökülüb gəlmişdi. Çay qoyan, xörək hazırlayan Zahidin hərbi geyiminə, döşündə gün kimi yanan ordeninə baxır, onun əlini sıxırdı.

*1938*

# HİLAL DAYI

Ləklərin arasında pişik kimi kiçik və boz bir şey tərpənir. Yaxın gedəndə görürsən, belini düzəltdi və başı ilə salam verdi.

– Ay Hilal dayı, qışın günündə soyuqda nə gəzirsən burada. Yorğanı başına çəkib isti evdə rahatlana bilmirsən?

– Qərəlim gəlmir. Mənim isti yerim elə buralardır. Öyrənişmişəm, əlləşməyə xoşum var.

Başqaları payızda məhsulunu yığıb-yığışdırır, qışda oturub keyf çəkir. Hilal dayı bunu bacarmır. Deyəsən, kişi torpağa, bitkilərə vurulmuşdur. Bir gün çölə çıxmasa, bulud kimi tutular. Onun bərkimiş balaca əllərindən, inamlı baxışından, qocalmış sifətindən iş yağır. Onu görən kimi, tağları, dirrikləklərini, peyvənd ağacları xatırlayırsan, dirriyi görəndə Hilal dayını xatırlayırsan. Hilal dayı 70 illik ömrünün çoxunu bağbostan bitkilərinə qulluq eləməkdə keçirmişdir. İşlə, zəhmətlə elə qaynayıb qarışmışdır ki, bunlar biri-birindən ayrı heç təsəvvürə gəlməz. Onun, oğul kimi bəsləyib-böyütdüyü ağaclar var. Lapatka ilə açdığı arxlar, külüng ilə qazdığı su quyuları vardır. O, meyvə-göyərti artelinə girəndən sonra anladı ki, canında nə qədər cövhər var imiş. Həm ləzzətlə işləyib bostanını bəsləyirdi, həm də bir aləm iş günü qazanırdı.

Dünən axşam Hilal dayı qaranlıqlaşanda evə gəldi. Kürkünü soyunub bir kənara qoydu, belindən qəlyanını çıxardıb doldurdu, buxarının başında döşəkcə üstündə oturdu. Oğlu Məhər oturub qəzet oxuyurdu, balaca qardaşını başa salırdı:

– Molotov yoldaşın on səkkizinci partiya qurultayında edəcəyi məruzənin tezislərində göstərilir ki, gərək üçüncü beşillikdə bütün mərkəz şəhərlərin ətrafında şəhər təsərrüfatı genişlənsin, kartoşka, göyərti bazası yaransın. İş elə artsın ki, məsələn, Bakının ətrafında əkilən kartoşka və göyərti bütün Bakı camaatını ödəyə bilsin...

Hilal dayı "göyərti" sözü eşidən kimi, baş barmağını çubuğun qabaran külünə basdı, Məhərə qulaq asmağa başladı. Meyvə-göyərtidən, dirrikdən söhbət olanda Hilal dayı elə güman edirdi ki, şəxsən onun özündən danışırlar, onun uşaqlıqdan bəri məhsuldar torpaqlara tökdüyü zəhmətdən danışırlar. Belə yerdə Hilal dayı qulaq asmaqla dözmürdü. Ürəkdolusu sözlərlə söhbətə qarışmaq istəyirdi.

Lakin indi Məhər qəzet oxuyurdu, izah edirdi. Hilal dayının üzünə də baxmırdı. Hilal dayı fikirləşirdi ki, söhbətə necə qarışsın. İstədi gözləsin, qəzet qurtarandan sonra Məhərdən əməlli-başlı öyrənsin, görsün, nə məsələdir. Üzünü çevirib yanan buxarının divarları yalayan və uzanıb gödələn alovuna baxdı. Gördü, yox, dözə bilməyəcək. Məhərdən soruşdu:

– Nə məsələdi o, göyərti ki deyirsən... nə olan işdi?

Məhər söhbətini o qədər də xoşlamadığı atasının bu sualını əvvəlcədən gözlədiyi üçün cavab da hazırlamışdı:

– Sən deyən şey deyil, beşillik plan məsələsidir.

Məhər bu cavabla atasını birdəfəlik susdurmaq, artıq suala yol verməmək istəyirdi, lakin Hilal dayı əl çəkmədi:

– Axı göyərtidən dedin orda, qəzetmi yazır onu?

Məhər daha da ağır cavab verdi:

– Əşi, – dedi, – bu ayrı məsələdir, beşillik plan tuturlar, sənin kimisinə nə dəxli!

Məhər bununla demək istəyirdi ki, "qoca kişisən, otur yerində, sən

hara, belə böyük məsələlər hara?"

Oğlunun tünd danışmağı Hilal dayının xatirinə dəydi. Bunu öz oğlu yox, bir başqası desəydi, yəqin ki, üzüyuxarı söyüb biabır edərdi. Ancaq əlacı nə idi. Doğma oğlunun nanəcibliyinə ancaq təəssüf edə bilərdi! Hirs kişini boğurdu, yerində bir qurcuxdu və dedi:

– Əyə, bambılı, nə oldu, planın mənə dəxli olmadı? Bu nə sözdür, deyirsən, bəyəm, hansı işdə səndən əskik olmuşam.

Hilal dayının sinəsindən tüstü kimi bir ah qopdu. Bu, sönüb getməkdə, günü-gündən ulduz kimi uzaqlaşmaqda olan gənclik arzu və ehtiraslarına, tükənən enerjiyə, azalan taqətə qarşı qocalıq təəssüfü idi. Doğrudan da, qocalıq kişini yaman yerdə yaxalamışdır. Bu əyyamda qocalıq insafdan deyil. Aləm sel-su kimi cuşa gəlib, dünya ayılıb, insan qəd-qiymətini tapıb, zamana taraz kimi düzəlir.

Hilal dayı onunla təsəlli tapırdı ki, "bu peşədə cavanlıq o qədər də lazım deyil. Bir qələmə yüyürməyəcəksən, daş daşımayacaqsan, zora girməyəcəksən. Burada göyərtinin dilini bilmək gərək. Yarpağına baxan kimi, başının ağrısından xəbər tutmaq gərək. Şükür ki, bu da mənim əlimdən gəlir".

Məhər atasının acıqlandığını görüb dediyinə peşman oldu. Mənasını yaxşı düşünəndə özünün səhv danışdığını anladı. Səsinin ahəngini dəyişib üzr istəyən kimi oldu. Hilal dayı qulaq asmırdı. Üzünü yana çevirib nə isə mızıldayır, yəqin ki, Məhərdən narazılıq edirdi.

Hilal dayı başını qaldırıb kiçik oğluna döndü:

– Ədə, – dedi, – dur, çıx yuxarıdan Qurbanəliyə deynən, atam bu günün qəzetini istəyir.

Məhər qəzeti Hilal dayıya uzatdı:

– Buyur, bu qəzet!

İbrahim qardaşının qəzetini götürüb, stulunu atasının yanına çəkdi. Hilal dayı İbrahimin də üzünə tünd baxdı. İstədi, Məhərin qəzetini alıb qırağa tullasın, uşağa da acıqlansın ki: "tez ol, dur Qurbanəlidən qəzet al gətir!" Sanki İbrahim onun baxışından nə demək istədiyini anlamışdı:

– Qurbanəli dərsdədir, saat 11-də gəlir.

Hilal dayı tərpənmədən bir müddət buxarıya baxdı. Məhər pərt oldu, qalxıb eşiyə çıxdı. Hilal dayı İbrahimə dedi:



– Al qəzeti oxu!

– Tezisləri oxuyum?

– Tezis nədir, o bayaqkı yeri, nədi hökumət üçüncü dəfə beşillik plan tökür ha, oranı oxu!

İbrahim onillik məktəbi bu il qurtarırdı. Siyasi savadı o qədər də olmasa, hər gün qəzet oxuyardı. Tezisləri başdan başlayıb, imtahanda müəllim qabağında imiş kimi, ucadan oxudu.

İbrahim nəzərlərini uzun sütunların başından salıb başdan-ayağatan su kimi oxuya-oxuya gedir, ancaq sütunun ayağında nəfəs alırdı.

Bakının və Bakı kimi mərkəz şəhərlərin ətrafında şəhər təsərrüfatının genişləndirilməsi məsələsinə çatanda Hilal dayı İbrahimi dayandırdı:

– Oranı bir də oxu!

İbrahim təkrar oxudu.

– Saxla!

Hilal dayı İbrahimə işarə ilə dedi ki, "dur qələm gətir, orasına nişan qoy!" İbrahim qəzetin o yerini qeyd elədi. Sakit dayandı.

Hilal dayı çubuğunu tüstülədə-tüstülədə buxarıya baxmağında davam elədi. Bir xeyli sonra dönüb İbrahimin üzünə baxdı:

– Dur yat, – dedi, – sabah dərsin var, dur!

■ ■ ■

Hilal dayı Molotov yoldaşın nə böyük məsələlər qoyduğunu anlamışdı. Ürəyində vuruşdurub fikirləşirdi, öz-özünə deyirdi:

– Deməli, Bakının milyon camaatına göyərti çatdırasan gərək. Gör nə qədər gərək torpaq əkilə. Nə qədər dirrikçi ola. Başa-baş sular çəkilə, həngamə başlana...

Fikirləşdikcə Hilal dayının zehnində böyük bir təsərrüfat dünyası canlanırdı. Abşeronun bütün quru yerləri sürülüb lək-lək naxışlanmışdır. Bir ucu dəmiryoldan başlanan dirrik və bostanların o biri ucu gedib dənizə çıxır. Yük maşınları yollarda toz qaldırıb, gübrə daşıyır. Kəmər kimi düz, qab kimi təmiz arxlardan axan Şollar suyu kələm, soğan lək-

lərinə dolub sakitcə dayanır, sanki mənzilə çatdığı üçün dincəlir.

Aqronomlar gəlib yenicə göyərən tərəvəzin körpə yarpaqlarına baxırlar. Faraş səpilmiş reyhan iyi adamı valeh edir. Parniklərin ağzı açılmış, qışdan qorunan, keçmiş qızlar kimi pərdədə bəslənib böyüyən yarpaqlar və zoğlar nəmli şüşələrdən eşiyə boylanıb bahara, günəşə baxır, dəstə-dəstə tamaşaya gələnlər dirrikçilərdən söz soruşurlar...

Bütün bu mənzərəni həqiqət kimi duyan Hilal dayı marağını gizlədə bilmirdi. Bir adam tapıb bu barədə ətraflı danışmaq, Sovet hökumətinin başladığı və onun peşəsinə dair olan iş haqqında ürəyindəkiləri demək istəyirdi. Özünə ən yaxın adam saydığı oğlunu çağırdı:

– Ay İbrahim, bir fikrə düşmüşəm axı.

– Necə?

– Nə xəyaldasan, bu plan işlərində bizləri də saya-hesaba salan olar, yoxsa aqronomlar gələsidir?

İbrahim müəyyən cavab verə bilmədi:

– Əlbəttə ki, təzə aqronomlar olacaq, ancaq köhnə kadrdan da istifadə eləyərlər, çünki onların praktikası var axı!

Hilal dayı oğluna qulaq asmadı.

– İstəyirəm, Molotovun özünə yazam!

Bu söz İbrahimə lap qəribə gəldi. Atasından birinci dəfə belə cəsarətli fikir eşidirdi. 70 yaşında bir dirrikçi, özü də savadsız bir kişi, Molotova nə yaza bilərdi?

– Nə yazacaqsan, əşi?

– Yazam ki, belə də, beşillik plana xeyrim dəyər.

– Nə olsun dəyər.

– Qoy bilsin ki, biz də bir peşə sahibiyik. Sabah Abşeronda iş açılanda məni kim yada salacaq?

– Molotov hökumətdir, vaxtı nə gəzir.

– Tapar, tapar. Əl boyda kağızı elə avtomobildə oxuyar, nə olub?

– Bəyəm, yazan bir sənsən?

– Yaxşı, el yazır, oba yazır, mən niyə yazmayım? Ballı arvad Kalinin yoldaşa yazmaqnan imarət aldı. Mən niyə yazmayım?

– Sən də imarət istəyirsən?

– İmarət istəmirəm, ancaq dirrik işində əlim olsun.



İbrahim atasının inadını görüb məktubun öz boynuna düşəcəyini bildi və dedi:

– Elə kağızı hər adam yaza bilməz.

– Mən deyərəm, özüm, indi qələmim olmasa da, ağlım ki başımdadır. Deyərəm, sən də yavaş-yavaş yazarsan. Elə öz dilimizdə yazarsan, Molotov yoldaşın dilmancı olmamış olmaz...

İbrahim mürəkkəb-qələm gətirdi. Səliqəli bir kağız hazırlayıb atasının dediklərini yazmağa başladı.

Hilal dayı ömrünün ən ciddi və mühüm çağlarında olduğu kimi özünü yığışdırdı, gəlib oğlu ilə qabaq-qabağa stul üstündə oturdu, dirsəklərini stola söykəyib kağız tərəfə əyildi. Görən deyərdi İbrahim yazanı oxuyub yoxlamaq istəyir. Yavaş-yavaş və bir az da ibarəli dil ilə diqtə eləməyə başladı.

– Əvvəl başdan yaz ki, salam göndərir Sovet hökumətimizin əziz böyüyünə Altıağac kəndinin sakini Hilal Kəlbə Həbib oğlu, ikinci, o plan ki buyurmuşdunuz, gəldi çatdı, oxuyub məzmunundan hali olduq, çox şadıq. Allah sizə ömür versin...

Hilal dayı dayandı, barmağını uzadıb son sətirləri göstərdi və soruşdu:

– Burada nə yazdın, bir oxu, bala!

İbrahim oxudu:

– ...Çox şad olduq, Allah sizə ömür versin...

Hilal dayı barmağını qılınc kimi kağızın üstündən çəkib dedi:

– Allahı qarala. Allahdan acığı gələr, poz getsin! Eləcə yaz ki, min yaşayasınız, çox irazıyam!..

İbrahim yazdı.

Hilal dayı yenə fikrə getdi. O fikirləşəndə göz qapaqlarını aşağı salar, günahkar uşaqlar kimi məyus bir vəziyyətdə dayanardı. Bir də görərdin başını qaldırdı. Dərin və kiçik gözləri quyu suyu kimi işıldadı və həzin, təsirli səsi eşidildi. İndi o, fikirləşir, xəyalında düzəltdiyi cümləni demək üçün əlini İbrahim tərəfə uzadır və başlayırdı, sonra yarımçıq qoyub "yox, yavaş görüm" deyib təkrar fikrə gedirdi.

İbrahim qalxıb su içdi və su qabını gətirib stolun üstünə qoydu, yerində oturub atasına müntəzir oldu. Hilal dayı dilləndi:

– Hə... çox irazıyam yazmısan da?!

– Var.

– Var ol. Onun dalınca yaz ki, mən dirrikçiyəm, sənətim budur, əlli il dirrik becərmişəm... Hilal dayı səsini dəyişdi:

– Urusca bostana nə deyir?

– Aqarod.

– Yaz ki, aqarodçuyam. Torpağı da ovcuma alan kimi, tanıyıram. İki barmağımın arasında sürtdümmü, bilərəm, ay torpaq, sən nəsən. Səndən kartoşka iyi gəlir, yoxsa tərəvəz, soğan, kələm, ya qeyri.

İbrahim acıqlandı:

– Cümləni qarışdırma, bir-bir de!

Hilal dayı bir az kiridi və sonra mehriban bir dil ilə dedi:

– Mən deyəni başa düş, oğul, cümləni özün düzərsən.

İbrahimin qələmi dayanmamış Hilal dayı davam etdi:

– Siz yoldaşlardan təvəqqe eləyirəm ki, Abşeronda təsərrüfat ki, qurulacaq, məni yaddan çıxartmayasınız. Sovet hökumətinin yolunda canbaş ilə varam. Niyə ki, bu hökumət mənim özümü də, oğlanlarımı da quş kimi pərvaz eləyib. Boynuma böyük minnət qoyub.Məndən salamdua, Molotov yoldaş, ev uşaqlarınıza və dost-aşnanıza. Baqi vəssalam. Əztərəfi Hilal Kəlbə Həbib oğlu.

İbrahim bilirdi ki, atasının ağlı köhnə məktublara gedib, ona görə nə "baqi vəssalam" yazdı, nə də "əztərəfi". Məktubun axırında imza yerində atasının adını yazıb qatladı, paketə qoyub ağzını bağladı.

■ ■ ■

Məktubu göndərəndən sonra Hilal dayının ürəyi tıp-tıp eləyirdi, qulağı səsdə idi. Hərdən fikirləşirdi ki, görəsən, tutduğum işin nəticəsi nə olacaqdır. Görəsən, xalq bilsə, nə deyər, görəsən, yazdığımın ləyaqəti varmı. Görəsən, poçtalyon çatdıracaqmı?

Günün birində Hilal dayı həyətdə odun yarırdı. Küçədə maşın səsi eşitdi. Hilal dayıgilin kəndi ucqar və balaca yer idi. Maşın az gələrdi. Maşını görəndə kənd uşaqları cücə kimi başına yığılardılar.

Maşın dayanan kimi, darvazadan qışqırdılar:

– Hilal Kəlbə Həbib oğlunun evi haradadır?



Hilal dayı baltanı yerə atıb qapıya çıxdı, portfelli bir cavan oğlan dayanmışdı.

– Nə buyurursunuz?

– Hilal Kəlbə Həbib oğlu kimdir?

– Mənəm, nə buyuracaqsınız?

Portfelli oğlan əlini uzatdı:

– Xoş gördük səni, Hilal dayı, gəl tanış olaq. Mən Torpaq Komissariatından gəlmişəm. Narkom səni görmək istəyir, buyur, əyləş maşına gedək.

Hilal dayının rəngi dəyişdi. Nə deyəcəyini bilmədi. Nə dindi, nə danışdı, nə geri qayıtdı, nə cavab verdi. Portfelli oğlan kişinin çaşdığını görüb əlavə etdi:

– Di tez olun gedək. Molotov yoldaşdan tapşırıq var, narkom məxsus oturub sizin yolunuzu gözləyir...

Sanki Hilal dayı indi başa düşdü, indi inandı ki, yazdığı kağızda nə güc var imiş, biixtiyar ondan sual ahəngində bir səs çıxdı:

– Hə, hə?!

– Bəli, narkom gözləyir.

– Bu saat, a qadan alım, bircə dəqiqə.

Hilal dayı evə girdi, gülə-gülə oğlunun üzünə baxdı, əllərini açıb işarə ilə öz üst-başını göstərdi.

– Ay İbrahim, narkomdan eyibdi belə, mənə bir nimdaş kastyum tap.

İbrahim məsələni bilib, tələsik skafı açdı, Məhərin kostyumunu gətirib atasının əyninə geyindirdi. Kişi xudahafiz deyib çıxanda İbrahim səsləndi:

– Ay ağa, qayışını bağla, sallanır.

Hilal dayı onun səsini eşitdi, ancaq nə dediyini anlamadı və bənd olmadı da.

Hilal dayı komissarın təmiz, rəngli çıraq kimi yanan kabinetinə girəndə ayaqqabısını çıxarmaq istədi. Portfelli oğlan onun qolundan tutub içəri çəkdi ki:

– Ay rəhmətliyin oğlu, bəri gəl!

Komissar bir xoşsifət, gülərüzlü gödərək oğlan idi. Hilal dayının əlini sıxdı, ona yer göstərdi.

Komissariatın aqronomları da Hilal dayının söhbətinə gəldilər. Ona suallar verdilər. Onun uzun təcrübələr nəticəsində yığdığı biliyi təqdir etdilər, o qoca kişidə olan alovlu iş marağına sevindilər. Uzun və şirin söhbətdən sonra komissar Hilal dayının adresini bloknotuna yazıb götürdü, ondan razılıq elədi.

Maşın ilə onu evlərinə yola salanda Hilal dayı özünü 22 yaşında bir adaxlı oğlan kimi hiss edirdi. Maşın mis kimi asfalt üstündə süzüb gedir, Hilal dayı kiçik gözləri ilə şoferin başı üstündən irəliyə doğru baxır, üç şey düşünürdü: Molotov yoldaşın ona elədiyi yaxşılığı, Abşeron çöllərində qurulacaq təsərrüfatda igid kimi işləməyi, yazbaşı dirrikçilərə öz təcrübələri haqqında danışacağı sözləri. Bunların birindən xəcalətlik çəkir, birini intizar və sevinclə gözləyir. Birindən ehtiyatlı danışırdı.

*1938*



# DOST GÖRÜŞÜ

Məzuniyyətdə idim. Cibim dolu, kefim saz. On-on beş günümü şəhərdə keçirtdim. Sonra doydum, darıxdım. Əziz dostlarımdan biri, uşaqlıqdan məktəb yoldaşım olan Fətulla yadıma düşdü. Onun şəhərə yaxın kəndlərdən birində evlənib kök saldığını, müəllimliklə məşğul olduğunu bilirdim. Bazar ağzına çıxıb maşınların birinə oturdum. Birbaş kəndə yollandım.

Fətulla mənim dostum idi. Özü də, münəqqidlər demişkən, "sözün əsl mənasında" dostum idi. Bilmirəm, lüğət yazanlar dost sözünə nə məna verirlər, amma mən öz "lüğətimdə" dost o adama deyirəm ki, öz qəlbimi onun köksünə, onun qəlbini öz köksümə qoymağa razı olum, o da razı olsun. Bu razılıqdan doğan bütün nəticələr gərək ki, öz-özünə məlumdur.

Fətulla ilə belə dost idik. Mən həyatımda olan bütün işləri (xeyir, şər, fərqi yoxdur) hamıdan qabaq ona bildirməyi, məsləhətləşməyi borc və daxili bir ehtiyac sayırdım. Beş-on gün görüşməyəndə, bu müddətdə yaşadıqlarım, təsirlərim mənə yarımçıq və natamam gəlir-

di. Bütün ləzzətlərin dadı o zaman damağımda duyulurdu ki, onlar haqqında Fətulla ilə söhbət etmiş olam.

Ancaq həyat özü qəribə, bizdən asılı olmayan və izahı çətin qanunlarla qurulub. İş dəyişir, yaş dəyişir, baş dəyişir, bunların nəticəsində zövq də dəyişir. Əziz dostunun bəzi hərəkətləri sənə artıq xoş gəlmir, səninki də ona. Görürsən, onun səndən də əziz dostu tapıldı, sənin ondan da mehriban dostun var imiş. Hər şeyin təzəsi deyirlər, dostun köhnəsi. Mənim zənnimcə, təzəlik, ya köhnəliyin burada əhəmiyyəti azdır. Dostun sədaqətlisi yaxşıdır. Sədaqət olmayandan sonra, yüz ilin köhnəsi olsun, nəyə lazımdır?

Əslinə baxsan, belə söhbətlər Fətulla ilə mənim barəmdə lap artıqdır, çünki biz dost olanda müzakirəyə qoyub dost olmamışıq və hələ aramızda belə müzakirələrə səbəb olan heç bir hadisə baş verməyib.

Bəli, dedim ki, dostum Fətulla yadıma düşmüşdü, maşına oturdum. Elə anlaşılmasın ki, Fətullanı bu neçə ildə unutmuşdum, birdən xatırladım. Heç vaxt, nəinki unutmaq, hələ mən həmişə xəyalımda özümü məzəmmət edərdim ki, onun işi kənddədir, külfət sahibidir, hər saat gələ bilmir, mən getməliyəm axı. Məhz məzuniyyət vaxtında Fətulla ilə görüşməyi niyyətimə qoymuşdum.

Bazar ağzında həmin bu niyyətim yadıma düşdü. Maşına oturub getdim.

Maşın məni xəzəlli, əyrim-üyrüm yollarla gətirib Çanaqçı kəndinə çıxartdı. Bir kəndlidən soruşdum ki, Fətulla müəllimin evi haradadır? Göstərdi. Çay qırağında, alçaqdivarlı, taydarvazalı bir həyət idi. İçində meyvə ağacları da var idi. Maşını yola salıb, dar küçə ilə ora yanaşdım, qapını döydüm.

Ayağında köhnə, böyük bir başmaq sürütləyən qız uşağı qapıya gəldi. Beş-altı yaşı olardı. Belə başa düşdüm ki, Fətullanın evləndiyi dörd il, ya dörd il yarım ancaq olar. Onun bu yaşda qızı haradandır?

– Fətullanın evi budurmu? – deyə soruşdum.

– Bəli, – deyə qız cavab verdi.

– Özü evdədirmi?

Qız ikinci sualıma cavab vermədi. Qayıdıb evə getdi. Bir dəqiqə çəkmədi ki, qaça-qaça gəldi:



– Deyir, buyursun!

Mən eyvanda qaloşumu çıxarıb, evə girəndə ayrı bir mənzərə gördüm. Hərarətli görüş üçün, sevinmək, gülüşmək, qucaqlaşmaq niyyətilə daxil olduğum evdə bir qış soyuqluğu məni dondurdu. Fətulla evin yuxarı başında, çarpayıda yaman gündə yatırdı. Onu çətin tanımaq olurdu. Dolusifətli, qırmızıyanaq, şən və gülümsər müəllimdən quru bir qəfəs, şam kimi işıldayan bir cüt göz qalmışdı. Məni görən kimi, Fətullanı qəhər tutdu, gözləri yaşardı. Başını yastıqdan götürməyə, dirsəklənməyə çalışdı. Dodaqları tərpəndi, zəif səs ilə nə isə dedi.

Xəstənin yanında oturdum. Nəbzini əlimə aldım, halını soruşdum. Arvadının deməyinə görə, xəstələndiyi bir aydan artıq idi. On beş gün rayon xəstəxanasında yatmışdı. Özünü babat hiss edən kimi, uşaqları üçün qəribsəyib dözməmiş və onu evinə gətirmişdilər. Evdə sinəsindən qan açılmış, get-gedə vücudu əriyib, qüvvətdən, taqətdən düşüb...

Kənd həkimi hər gün müalicəyə gəlirmiş. Onun yazdığı reseptlərə baxdım. Mənə elə gəldi ki, bu dərmanların Fətullanın xəstəliyinə dəxli azdır. Xəstəyə zəhmət də olsa, onu mən əməlli-başlı müayinə etdim. Bütün bacardığımı işlətməyə baxmayaraq, kənd həkiminin diaqnozundan bir əlamət tapa bilmədim. Yəqin ki, həkimi qorxudan xəstənin sinəsindən gələn qan imiş. Qanı kəsmək üçün isə belə dərman vermək olmaz. Bu dərmanı xəstə qadınlara, özü də bir az miqdarda vermək olar.

Fətullanın ailəsi: arvadı və körpə uşaqları ailə başçısını ağır naxoş görüb, külək vuran zərif bağ bitkiləri kimi soluxmuşdular.

Qadın mənim Fətullanı diqqətlə müayinəmi ümid və intizarla gözləyirdi. Cəld hərəkətlərilə xəstəyə və mənə kömək edir, hər dəmdə xəstənin gecələr sayıqladığını, çay və dərmandan başqa heç nə içmədiyini, yemədiyini şikayətli bir ifadə ilə deyirdi.

Dostumun bu vəziyyəti məni çox kədərləndirdisə, kənd həkiminin müalicəsi də lap əsəbiləşdirdi. Dərman kağızlarını cırıb tullamaq, evinə adam göndərib, çağırtdırmaq istədim. Belə bir təlaşdan ailənin daha da təşvişə düşə biləcəyini düşünüb, özümü sükuta məcbur etdim. Fətullanın başaltısını hündür etdirdim, oturub həkimin gəlməyinə müntəzir oldum.

Bəli, axşama yaxın bir də gördüm, əlində bir itdöyən ağac, qoltu-

ğunda nə isə, qəzetə bükülmüş bir bağlı, ortayaşlı, gödərək bir kişi içəri girdi. Onun adını bilmirdim, ancaq "Mirzə" deyirdilər. Mirzə çox arxayın və ərkyana bir əda ilə soyunub, yuxarı başa keçdi. Üzünü qadına tutdu:

– Hə, – dedi, – necədir, öskürək çoxalıb, azalıb, qan gəlib, ya yox?

Qadın nə isə cavab verdi. Mirzə xəstənin nəbzinə baxdı, o yan-bu yanına keçdi, çəliyini əlinə aldı və bağlamasını qoltuğuna vurdu:

– Dediyim qayda ilə dərmanı içirdərsən, gecələr üstünü də möhkəm örtərsən...

O çıxmaq istəyəndə mən dilləndim:

– Mirzə, – dedim, – bu yazığın bir sürü külfəti var, mümkün etsəniz, müalicəsilə ciddi məşğul olun, halı ağırdır.

Mirzə qayıdıb mənə əyri-əyri baxdı:

– Ciddi, ya qeyri-ciddiliyini siz nədən bilirsiniz? Təbabətin qayda-qanunu var. Necə ki, lazımdır, rəftar olunur. Bu, pambıq planı deyil artıqlaması ilə, necə deyərlər, vaxtından əvvəl zad eləyəsən...

Mənim səfər geyimim bir o qədər yaxşı deyildi. Sakit oturmağım da həkimə başqa təsir bağışlaya bilməzdi. Hətta, o mənim xahişimi lağa da qoyurdu. Bundan məlum idi ki, Mirzə məni çöl adamı, ya təsadüfi yolçu sayırmış. Mən qalxdım, onun yazdığı resepti götürüb, latınca yazılan sözləri ona oxudum və dedim:

– Doktor, məni bağışlayın, sizin yazdığınız dərman qadın xəstəlikləri üçündür. Sizin diaqnozunuz yanlışa oxşayır...

Latın sözləri mənim ağzımdan çıxanda Mirzə bir diksinən kimi oldu. Özünü yığışdırdı, yaxın gəlib resepti məndən aldı. Baxa-baxa qaldı. Guya oxuyurdu. Halbuki, qıpqırmızı qızarmışdı, gicgahında tər damcıları işıldayır, xəcalətindən başını kağızdan qaldıra bilmirdi. Mən ona kömək etdim:

– Doktor, – dedim, – mənim fikrimcə, xəstənin dərdi belədir.

Mirzə mənim danışığımdan həkim olduğumu yəqin etmişdi.

– A səni sağ olasan, – dedi, – bu qüvvəniz var idi, niyə bir az qabaqdan gəlmirdiniz?

Mirzə xəstənin dərmanını mən dediyim kimi dəyişdi, mənim kim olduğumu, haradan gəlib, hara getdiyimlə maraqlandı. Mən hamısını danışdım.



Lakin Mirzənin canına düşən qorxu bir dəqiqə də olsun, simasından çəkilmirdi, bütün hal və hərəkətində hiss olunurdu. Qalxıb getmək istəyəndə məni həyətə çağırdı:

– Görürəm, – dedi, – siz bir alicənab adamsınız, gəlin mənim çörəyimə bais olmayın. Bildiyinizi, bir daş üstdən, bir daş altdan, qoyun burada qalsın.

– Necə bilirsiniz, – dedim, – Mirzə, Fətulla sizin müalicənizlə dirilə bilərmi?

Mirzə dinmədi. Ağacını ata-ata başıaşağı bir az yeridi. Sonra mənə tərəf döndü:

– Bilirsiniz, günah bizim müəllimlərimizdə olub, siz alan bilik, əlbəttə ki, bizə qismət olmayıb...

Mirzəni qapıya qədər yola saldım, qayıtmaq istəyəndə qolumdan tutdu:

– Xahişimi yerə salmayın. Mən də bir bölük külfət sahibiyəm...

– Qorxmayın, – dedim, – Mirzə, mənim heç kəsə pisliyim dəyməz. Ancaq bu barədə sonra danışarıq.

Mən qollarımı çirməyib, Fətullanın müalicəsilə məşğul oldum. Fayton tutdurub, rayona, aptekdən bəzi şeyləri almağa adam çağırtdım. Fətullanın evində, demək olar ki, xəstəxanaya yaraşan bir şərait düzəltdim.

Xəstənin yaxşılaşması, irəli gəlməsinin bir səbəbi də onun mənəvi cəhətdən, ruhən dinc və arxayınlığıdır. O, mənim müalicəmə və özümə inandığı üçün bütün tapşırıqlarıma boyun əyir, öz-özünə diqqət yetirməyə çalışırdı. Həm də darıxmağa qoymurdum. Özüm darıxsam da, yanında oturub söhbət edir, yuxu vaxtında ətrafda sükutu təmin edirdim. Ayıq zamanında Fətullanı əyləndirir, xəstəliyini unutdurmağa çalışırdım.

Mirzənin vəziyyəti Fətullanı da düşündürürdü. O da hərdən hirslənir, Mirzənin məsuliyyət duymayan adam olduğunu deyirdi.

Gəlişimin on dördüncü günü Fətulla tamam sağalıb durmuşdu. Hətta kənd həkimi bu gün bizi evinə qonaq çağırmışdı. Mən gedə bilməyəcəyimi bildirdim. Fətulladan qabaq arvadı razı olmadı:

– Yox, mümkün olsa, ürəyini sındırmayın, – dedi. – Bir də siz çıxıb şəhərə gedəcəksiniz, biz həmişə Mirzə ilə üz-üzə gələcəyik, işimiz dü-

şəcək. Elə olmasın ki, incisin, yaxşı olmaz...

Mən o gün şəhərə qayıdırdım. Mirzəni yol ağzına çağırıb dedim:

– Neçə ildir buradasınız?

– On bir il var.

– Bu qəbiristanlıqda yatanların neçə faizindən xəcalətlisiniz?

Mirzə qarşıda, yamacda düşən qəbiristanlığa, mənə və sonra çəkməsinin ucu ilə eşələdiyi torpağa baxdı:

– Onların hamısından artıq sizin yanınızda xəcalətliyəm. Ancaq bir xahiş idi, elədim. Nə olar, adamın adama işi düşər.

– Mirzə, – dedim, – sizə pisliyim dəyməyəcək, buna lap arxayın ola bilərsiniz. Camaatı belə, baytarcasına müalicənizə qarşı isə susa bilməyəcəyəm, bunu da yəqin edin.

Mirzə qızardı və duruxdu:

– Bildim, deməli, mənə nə etsəniz, hökumət əlilə edəcəksiniz. Hə! Həm öz əlinizlə, həm də hökumət əlilə!

– Necə yəni! – deyib Mirzənin qolundan tutdum və onu yoldan kənara çəkdim. Divar dibində, daş üstündə oturduq. – Ayda neçə alırsınız? – deyə sual verdim.

– Beş-altı yüz.

– Sizə bir yüngül qulluq düzəltsəm, özünüzü də tibb işçilərinin ixtisas kursuna qəbul etdirsəm, necədir!

Mirzə sevindi:

– Oxumağa mənim başmaqlarım da razıdır. Ancaq ailə dolansın.

– Ailəli olduğunuz üçün sizə təqaüd də verərlər. Qulluqdan da alarsınız, heç olmasa, bir-iki il oxuyun, onda görərsiniz elm aləmində yeni nələr var. Səhvinizi anlarsınız, hazırlaşıb düz-əməlli həkim olarsınız, mənim kimisinin yanında diliniz də gödək olmaz.

Doğrudur, Mirzə mənim sözlərimə "bəli" – deyir və əlini gözü üstünə qoyurdu, amma sifətindəki nigarançılıqdan bəlli idi ki, vədlərimə inanmır, onun səhvini aləmə yayacağımdan, vəzifədən qovduracağımdan qorxur.

Mən artıq heç bir şey demədim, Fətulla ilə xudahafizləşib, şəhərə gəldim.

Mirzəyə verdiyim vədi yerinə yetirmək üçün rayon səhiyyə işçiləri





də mənə kömək etdilər. Mirzə ilə şəhərdə görüşəndə o, əlimi sıxır və vicdanına and içirdi:

– Ya loğmana bərabər həkim olacağam, ya da ki bu sənətdən tamam əl çəkəcəyəm. İndi görürəm ki, mən necə avam imişəm!..

O, kursla kifayətlənmirdi, tibb institutunda mühazirələrə də davam edirdi.

*1938*

Qonaqpərəst səh.370

# VİCDAN ƏZABI

Mənim həkimliyim yüksək bir hisslə başlanmışdı. Bütün təhsilim boyunca insanın yalnız bədən quruluşunu, fizioloji aləmini deyil, psixologiyasını, mənəvi aləmini də öyrənməyə çalışmışam.

Bəlkə buna görə idi ki, mən başqa sənətə yox, həkimliyə getdim. Bu sənətə başladığım ilk illərdə mən öz gücümə güvənirdim. Güman edirdim ki, sağlam başı, möhkəm ürəyi olan bir vücudun min cür azarı da olsa, sağaltmaq, ayağa qaldırmaq mümkündür. Müalicəsiz xəstəlik yoxdur. Bütün vaxtsız ölənlərin ölümü həkimlərin acizliyindən, yaxud müalicə tədbirlərinin gecikməsindən, ölənlərin səhlənkarlığındandır, çünki insan bədəni həddə-hesaba gəlməz maddi imkanlarla, həyat qüvvələri ilə zəngindir. Hansı vəzifədə, harada çalışsan, fərqi yoxdur. Əsl məqsəd xalqa xeyir vermək, sovet məktəbinin verdiyi bilik və bacarığı həyatda səmərəli işlətməkdir.

İlk aylar rayonda səhiyyə məntəqəsində çalışırdım. Çox həkimlər çətinlik çəkdikdə yanıma gəlirdilər. Çox zaman xeyirli məsləhət alırdılar. Biliyimdən, bacarığımdan aşağı dərəcəli vəzifəyə getdiyim üçün



dostlarım, tanışlarım məni danlayırdılar. Mən onları qane etməyə çalışırdım:

– Vəzifənin böyük-kiçiyi yoxdur. Pis və ya yaxşı işləmək vardır.

İttifaq düşdü ki, bir iş bizim mübahisəmizə də, mənim həkimlik sənətimə də son qoydu.

Mən qulluğa girən ilin qış ayları idi. Rayonda boğaz ağrısı yayılırdı. Səhiyyə şöbəsinin əmri ilə uşaqlara iynə vururduq. Bu işə tibbi rəhbərlik mənə tapşırılmışdı.

Ata-anaların çoxu səhiyyə tədbirlərinin xeyrini və vacibliyini yaxşı düşünmüşdülər. Uşaqların əllərindən tutub, məntəqəyə müalicə tədbirləri üçün gətirirdilər.

Şübhəsiz ki, hələ lazımınca maariflə işıqlandırılmamış ailələr də vardır. Bəzi analar əziz uşaqlarının qoluna iynə batırılanda, uşaq ufuldayanda və ya ağlayanda dözmürlər, ürəkləri yanır. Mən belələrini başa salmağa çalışırdım. Rayonda tibbi təbliğatı da çox genişləndirirdik. İnandırırdıq ki, fəryada məcbur olmamaq üçün, uşağı qorxulu xəstəliklərdən qorumaq üçün, onun ufultusuna dözmək, məna verməmək lazımdır.

Həkimlər, feldşerlər və tibb bacıları uşaqları az sevmirlər. Onlar müalicənin, xəstəliklə mübarizənin müvəffəqiyyətləri ilə fəxr edirlər. Fərqi yoxdur, tanısalar da, tanımasalar da, xəstə kim olursa-olsun, onun müalicəsini məcburi vətəndaşlıq borcu sayırlar. Xəstəlik – təbabətin qəddar düşmənidir.

Mən iş otağımda oturmuşdum. Uşaqlarla görüşür, mehriban danışır, zarafat edirdim. Onları əyləndirməyə, cürətləndirməyə çalışırdım.

Bir qadın səkkizyaşlı oğlunu iynə vurmağa gətirmişdi. Uşağın familiyası, yanılmıramsa, Mürsəlzadə idi, adı, lap yaxşı yadımdadır ki, İmran idi. İmran girdəsifət, alagöz, gülərüz, gözəl bir uşaq idi. Yəqin ki, şair Lermontovun uşaqlıq şəklini görmüsünüz. İmran onun kimi, ağzı-burnu yaraşıqlı, genişalınlı, qıvrımsaçlı, enlikürək bir uşaq idi.

Bunların hamısından artıq mənə təsir edən uşağın şənliyi, gülüb-oynamağı idi. O, maraqlı bir oyuna gəlirmiş kimi, sevinc və həvəslə məntəqəyə gəlmiş, qolunu çirməyib, növbəsiz-zadsız tibb bacısının qabağına keçmişdi. Onun düz, mərmər kimi ağ və ətli qolu indi də gözümün qa-

bağındadır. Sanki o, musiqi çalmaq, ya rəsm çəkmək, şeir yazmaq üçün yaranmış uzun, incə və diri barmaqlarını indi də oynadır, sanki ovcunu indi də yumub-açır, saf və səmimi uşaq səsilə indi də gülə-gülə çağırır:

– Doktor, məni də iynələ!

Bütün işçilərin xoşuna gələn bu gözəl uşağın anası bizim gəlin analara məxsus utancaqlıqla bir az kənarda iftixarla dayanmışdı. Məsud və xoş baxışları ilə oğlunun hərəkətlərini izləyirdi. Mən uşağın əlini sıxdım, adını və kefini soruşdum. O, düz və ağıllı cavablar verirdi.

Tibb bacısını çağırdım. İmranı iynələdi. Uşaq ufuldadısa da, üzündəki xoş ifadəni pozmağı özünə ar bildi. Qızardı, kənara çəkilib, qoluna vurulan yodun qurumasını gözlədi, birdən diz çökdü.

Mən başqaları ilə məşğul idim, arxadan bir səs eşitdim:

– Doktor, buna nə oldu?

Dönəndə anasının İmranı tutduğunu, uşağın rənginin dəyişdiyini gördüm. Tez yaxın gəlib, nəbzinə baxdım. Get-gedə İmran saralır, taqətdən düşür, gözləri sönürdü. Cəld onu qucağıma aldım. Anasının təşvişini artırmamaq üçün:

– Gəl, – dedim, – bacı, dalımca, bu saat ona dərman verərik, düzələr, iynə uşağı incitmişdir.

Biz yaxında olan klinikaya doğru addımlayırdıq. Mən uşağı yaxşı öyrənmək üçün anasına suallar verirdim və çalışırdım ki, o uşağın halının xarablığını hiss etməsin, suallarıma çox da məna verməsin. Mən klinika pilləkənlərindən çıxanda gözüm uşağın sifətinə düşdü. Bu dəqiqəni ömrüm boyu unutmaram. Bu vaxt mənim halımı təsəvvür etmək və qələmə almaq çətin bir işdir!

İmran çoxdan keçinmişdi. Mən buz kimi soyuq bir bədəni müalicəyə aparırdım. Uşağın anası dalımca gəlirdi. Tövşüyə-tövşüyə pilləkənləri çıxır, təlaş içində nə isə deyirdi. Məntəqədən gələndə uşağın bədənində, yəqin ki, öyrənmədiyimiz bir xəstəlik olduğunu, tibb bacısının bacarıqsızlığını və ya dərmanın pisliyini düşünürdümsə də, indi şüurum özümdə deyildi. Bu müdhiş və ağır hadisənin təsirilə tamam sarsılmışdım. Ani fikirlər təsəvvürümdə oyanır, yenə sönürdü. Mən onları sel suyunda axan alma kimi tutmaq istəyirdim, əlimə heç nə gəlmirdi. Bu bulanıq və nərəli sel məni vurub yıxır, aparırdı.



Nə etməli idim? Qucağımdakını hara aparım, necə aparım ki, bilən olmasın, necə edim ki, bədbəxt ananı heç olmasa, bir saatlığa aldadım, ya dayanıb qollarımı yanıma salımmı? Uşağın meyitini sahibinə tapşırım, ya harada gizlədim?..

Bu fəlakətli xəbəri mən kimə deyim, necə deyim, nə üzlə deyim? Mənə elə gəlirdi ki, cibimdə silahım olsa, uşağı yerə qoyar, ananın naləsini eşitməmək, cinayətimi qanımla yumaq üçün ürəyimə bir güllə sıxardım.

Heç bilmədim ki, o boyda binanı, ikinci və üçüncü mərtəbəni necə və nə vəziyyətdə dörd dolanmışam. Nə ananın, nə arxamca düşənlərin səsini eşidirdim. Qan-tər içində yüyürək, bir süratlə uşağın meyitini haraya isə aparırdım. Uzun və dar koridorlar boyu addımladıqca, uşağın balaca və zəif ayaqları dizimə toxunurdu.

Bir zaman gözümü açıb, arxamca bir izdihamın axışdığını gördüm. Səslər ucalırdı:

– Doktor, doktor, doktor!

Yeyinləyirdim.

Təpiyimlə vurub açdığım bir kabinetin qapısını dərhal basdım. Uşağı taxtın üstünə qoyub, tez qapıda dayandım.

– Ancaq, – dedim, – qadınlar gəlməsin, qadınlar gəlməsin!

Həkimlər, işçilər tökülüşdülər, meyiti görüb dalbadal soruşdular. Mən kimsəyə bir cavab verə bilmirdim. Qulağım qapıda idi. Bədbəxt ananın halına acıyan ürəyim sanki qana dönüb axır, əsəbi və pozulmuş damarlarımla beynimə tökülürdü, bu saat gözlərimdən yaş yox, qan axacaqdır!

Bir də gördüm, qapı açıldı. Baş həkimlə ana içəri girdi. Mən qışqırıb, nə isə demək istəyirdim. Boğazım tutuldu, qəlbimdən vurulmuş kimi, bütün taqətimi itirdim, yerə yıxıldım.

Deyirlər, bir gün sonra ayılmışam. Deyirlər, ayılmışam, amma İmranın ölümündən sonra mən ayılmamışam və görəsən, ayılacağammı?

Tibb bacısı və mən İmranın qatilləriyik. Onun qanında dərmanla şiddətlənən bir xəstəlik varmış ki, mən öyrənməli, bilməli idim. Mən bütün uşaqlara bir biçimdə, bir ölçüdə, bir vəzndə olan konserv qutularına yanaşan kimi yanaşmışam. Mən o zəif və mürəkkəb insanların

vücudunu, xüsusiyyətini öyrənməmişdim.

İmranın ata-anasının müsibəti mənim xəcalətim qədər ağır idi. Onlar qan, qisas iddiasında ola bilərdilər. Mən başımı verməyə, qanun və ədalət divanı önündə ən ağır cəza qəbul etməyə hazır idim.

Lakin onlar bu iddiada deyildilər. Səhiyyə işçiləri onları sakit etməyə, məni müdafiəyə çalışırdılar.

Mən bu axşam gedib Mürsəlzadənin qarşısında durdum.

– Ey bədbəxt ata! – dedim, – sənin gözünün ağı-qarası, ailənizin əzizi, sevinci olan gül kimi bir balanı mən öldürmüşəm. Götür baltanı, mənim bu qatil əllərimi doğra! Mənim səhlənkar başımı kəs!

Mürsəlzadənin dərdi daha da artdı. O, kədərdən enən göz qapaqlarını güclə qaldırdı. Mənə yox, üfüqlərə baxa-baxa dedi:

– Qəsdən öldürməmisən ki. Get sən bil, vicdanın bilsin! Get, amma başqalarını öldürmə!

O, alicənab və möhkəm atanın rəftarı mənim xəcalətimi, peşmançılığımı və təəssüfümü daha da artırdı.

O oldu ki, mən həkimlik sənətini yerə qoydum. Şəhərdən yığışdım, işdən haqq-hesabımı kəsdim. Cinayətkar sifətimlə el üzünə çıxmamaq, hər görünməyimlə hər dəfə Mürsəlzadələrin dərdini təzələməmək üçün ən uzaq kəndlərdən birinə yollandım.

İndi mən kənddə bağça mürəbbisiyəm. İyirmi-otuz uşağa baxıram. İşimdən, güzəranım və həyatımdan çox razıyam. Ən böyük dərdim İmranın ölümüdür. Onu, o gözəl və günahsız məxluqu unuda bilmirəm. Mənim nəzərimdə o yaşayır, gülür, oynayır və böyüyür, hərdən məsum bir sükut içində mənə baxır. Sanki bu baxış İmranın deyil, mənim ittihamnaməmi oxuyan təmiz bir vicdanın müraciətidir. Əcəl məni boğazlayınca, bu vicdan mənə əzab verəcək, hər görüşündə mənim qəlbimi təzədən yaralayacaq, hər dəfə məni daha ağır ittihamla əzəcəkdir.

Mən isə cinayətimi yumaq, İmranın qanına əvəz vermək üçün kəndə gəlmişəm. Günümü sevdiyim, öz övladım kimi əzizlədiyim uşaqlarla keçirirəm. Şəhərdən gətirdiyim bütün bilik və təcrübəmi, bütün qüvvə və bacarığımı sərf edib, bu kiçik günəşlərin böyüyüb parlamasına sərf edirəm. Bu işdəki müvəffəqiyyətlərimi ən böyük təsəlli sayıram. Bu özü də həkimlikdir. Əslinə baxsan, ən yaxşı həkimlik budur! Mənim vəzifəm ana qucağından sağlam aldığım balaları üç-dörd ilə böyütdükdən sonra sapsağlam məktəbə təhvil verməkdir. Məktəb də eyni həkimliyi etməlidir. Şagirdləri yalnız fikircə deyil, bədəncə də sağlam yetirib, yuxarılara – texnikumlara, institutlara təhvil verməlidir. Eyni borcu ali məktəblər də gözəl ödəsələr, gənclərimiz xəstəlikdən uzaq olarlar. Xəstələnməməyi təmin etmək isə ən yaxşı müalicə üsuludur.

Mən şəxsən işlədiyim dairədə buna nail olmağa çalışıram. Bunu bacara bilsəm, cinayətimi qəlb aynamdan silinmiş sayar, el içinə çıxanda xəcalət çəkmərəm. Həkimlikdən tamam əl çəkdim, çünki yaxşı həkim ola bilmədim. Həkimin isə miyanası olmasın gərək!

*1938*

# MÜALİCƏ

– Sənə kimdən deyim, özümdən. Günlərin bir günündə, qardaş, Bakıda özümə bəzəkli bir otaq düzəltdim.

Vaqona oturub getdim kəndə. Neçə il idi anamı qoyub gəlmişdim. Orada baxanı yox idi. Həmişə şikayətlənirdi ki, saymırsan. Onun haqlı şikayəti bir yana dursun, özümün arzum var idi. Cavanlıqdır, həmişə ürəyimdən keçirdi: gətirim, anam Bakıda, yanımda olsun, Sovet hökumətinin sayəsində bu mərtəbələrə çatan oğlunun bir xeyrini-bəhərini görsün, o hisli ocaq-bucaqdan qurtulsun, ömrünün bu çağında dincəlsin, evdəcə əyləşib mənə sağlıq istəsin.

Anam da çox sevindi. Ev-eşiyini yığışdırdı, yar-yoldaşı ilə vidalaşdı. Qonşumuz Bəsti qarı, Həmzət xala, Gülbadam qarı ilə dönə-dönə öpüşdülər. Halallaşdılar.

– Qonşuluqdur, – dedi, – arada söz-sovumuz olub, Allah şeytana min lənət eləsin. Keç, ay bacı, halallıq ver, işdir, qəzadır, bəlkə də qayıtmadım.

Gülbadam qarı ağzıdualı arvad idi. Dişsiz ağzında xamır kimi yastılanan, saqqız kimi səslənən sözləri ilə bizi yola saldı. Qərəz, nə başını ağrıdım, kənddən çıxdıq. Anamı sağ-salamat gətirdim, gəldim. İki gün çəkmədi, vurdu, anam xəstə düşdü.





Dostumdan soruşdum:

– Xəstəliyi nə idi?

– Elə məsələ ondadır. Söhbətimin canı da ondadır. Yaxşı qulaq as, görəcəksən nə idi. Xəstə düşdü, bərk düşdü. Durduğu yerdə arvadı qızdırma götürdü. Qapı-bacanı açdırıb, otağı yelə verirdim, olmurdu. Yaxasını, başını söküb bağırırdı. "Çatladım, boğuldum ki, ay oğul!" – deyə qışqırırdı. "Ay oğul, mənə çarə, partladım!" Doğrusu, mən özüm də yaman qorxdum. Dedim, evim yıxıldı, arvadın başına hava gəlib, arvad əldən getdi. O yandan da qardaşlarım məndən görəcəklər, deyəcəklər: "Anamız rahat oturduğu yerdə niyə qoymadın otursun. Arvadın başına nə oyun açdın, a biqeyrət!.." Dünyada bundan da pis işmi olar? Anana qulluq etmək üçün ev düzəldəsən, işdən-filandan izin alıb gedəsən, vaqona əyləşdirib (özü də yumşaq vaqona) gətirəsən, birdən belə mərəkə başlana. Məni dərd götürdü. Fikirləşdim ki, arvada nə oldusa, məndən oldu. Kənddə sapsağlam, top kimi arvad idi. Mən bədbəxt, olmasaydım, rahat yaşayacaq idi. İndi bunun başına bir iş gəlsə, mən el üzünə çıxa bilmərəm, gün işığına baxa bilmərəm, özümü dənizə atmalıyam, ya da tramvay altına yıxılmalıyam.

Yoldaşımın təfsilatına dözə bilmirdim, tez soruşdum:

– Bəs xəstəliyi nə idi, axı?

– Darıxma, – dedi, – qulaq as! Anam: "Bağrım çatladı" deyəndə qalxıb, əlimi başına qoyub hərarətini ölçürdüm. Termometr bir şey göstərə bilmirdi. Tez pəncərələri, qapıları açırdım. Anamın qoluna girib, pəncərə qabağına gətirirdim. O, sağına-soluna göz gəzdirir, yerə baxır, zıqqıldayırdı, mən ha soruşurdum:

– Haran ağrıyır, ay ana, nəyindir, dərdin nədir, anacan?

O, bir cavab vermirdi. Dik-dik üzümə baxırdı.

Buz gətirtdim, camış qatığı tapdırıb ayran elətdim, sərin şeydir, dedim bəlkə ürəyini basa. Qonum-qonşudan gələnlər olurdu. Di su səp, di əl-ayağını ovxala, damcı dərmanı ver... Bir saat, iki saat kiriyirdi. Bir də görürdün, yenə başladı.

Həkim çağırdım. Əhvalatı danışdım. Müayinə elədi. Əvvəl ciyərlərinə baxdı. Nəbzini yoxladı, qan dövranını ölçdü, üzümə baxdı, soruşdu:

– Bu ağır işdən-zaddan yapışmayıb ki?

– Yox, – dedim, – doktor, beş-altı gündür kənddən gəlib, gələndən evdəcə oturub, heç bir işə əl vurmağa qoymuram, xörəyi, çayı da hazır gətirirəm. Qaldı ki, kənddə olanda işləmirdi. Balaca həyətimizdəcə oturub, tay-tuşları ilə vaxt keçirirdi. Ağır işi harda gördü?

Həkim anamın özündən soruşdu:

– Əsəbi deyilsən ki, ay ana?

Anam mənim üzümə baxdı və soruşdu:

– Bu nə deyir?

– Hirsli deyilsən ki, deyir, acığın tutmur ki?

Anam elə bildi ki, həkim onun döş-başına əl vurduğu üçün üzr istəyir. O:

– Nə bilim, – dedi, -acığım niyə tutur? Qiyamətin günündə o da mənim oğlum...

Mən həkimə cavab verdim ki, xasiyyəti mülayimdir.

– Bəlkə qorxubdur?

– Ay ana, bir şeydən qorxub eləməmisən?

Anam başı ilə yox işarəsi verdisə də, həkimin sözü ağlıma batdı. Dedim, yəqin, belə nagahani iztirab ancaq qorxudan ola bilər. Yavaşca həkimə pıçıldadım. O, əsəbləri və ürəyi sakit etmək üçün dərman yazdı. Evdən çıxanda mənə dedi:

– Anan çox sağlam adamdır, haracan desən! O xəstəlik ki, sən deyirsən, doğrusu, mən onda tapa bilmədim. Bu dərmanları verərsən, içər. Amma səndən xahiş edirəm, nəticəsini mənə deyəsən. Mən özüm bu xəstə ilə maraqlanıram.

■ ■ ■

Həkimin yazdığı dərmanı anama çətinliklə içirtdim. Çimçəşirdi, ürəyi götürmürdü. Mənim üzümdən keçmirdi. Mən evdə olmayanda bir damcı da içmirdi. Hamısı birdir, içsə də, içməsə də, dərman kar eləmirdi. Anam əvvəlki kimi, öz qaydasında iztirab çəkirdi, darıxırdı, yaxasını cırır, tez-tez köksünü ötürürdü, ağır nəfəs alırdı.



Yoldaşlardan biri mənə məşhur bir həkimin ünvanını verdi. O həkim, deyildiyinə görə, ürək xəstəliklərində ad qazanmışdı. Özü də professor idi. İstədim, həmin professoru çağırım. Bir də xəyalıma gəldi ki, əvvəlki həkim məndən xahiş eləmişdi, "maraqlanıram", – demişdi. Yəqin, o, anamın xəstəliyindən bir şey bilir. Bəlkə dərmanın kar eləmədiyini desəm, kişi əsl azarı tapacaqdır. Onu çağırmasam da, verdiyi dərmanın nəticələrini ona deməliyəm. Mən bu fikir ilə pilləkənlərdən düşürdüm. Həmin həkimin bizə gəldiyini görüb qayıtdım. Görən kimi soruşdu:

– Ananın halı necədir, dərman kar eləyirmi?

– Elə əvvəlki kimidir, – dedim. Dərmanın kar etmədiyini söyləməyə dilim gəlmədi. Bu, zənnimcə, doktordan ayıb olardı.

Qapını açıb evə girəndə anamın yenə ah-vay eləyə-eləyə bir əli sinəsində evi gəzdiyini gördük. O, həkimi görüb yaşmağını qaldırdı, yaxasını çəkdi, mənim üzümə baxdı.

Həkim bir də müayinə elədi, bu dəfə daha diqqətlə müayinə elədi. Mənə dedi:

– Çətin olmaz ki, ananı bir bizə aparaq?

– Nə var, – dedim, – buyurun gedək.

Anam özü də çıxmaq istəyirdi. Zəng elədim, taksi maşını gəldi. Oturub həkimin evinə gətirdik. Doğrudur, gedirdik, amma mən nə üçün getdiyimizi bilmirdim. Bəlkə həkimin evdə daha mühüm və vacib priborları vardır. Bəlkə anamı rentgenə salacaqdır. Kim bilir, bəlkə ayrı müayinəsi var!

Sanki həkim mənim nə fikirləşdiyimi bilirdi, şoferin yanından mənə tərəf döndü və dedi:

– Bizdə ananı bir də müayinə edərik, amma arxayın olun ki, qorxulu heç bir şey yoxdur, bir az ürək narahatlığı var. Onu da rəf etmək asandır. Təki ananda olan o polad can məndə olaydı!

Anam elə bilirdi ki, həkim mənə təsəlli verir. Dinmirdi. Gözləri düz şoferin kürəklərinə dikilmişdi. O, maşında səliqə ilə oturmuşdu, dümdüz qabağa tərəf baxırdı. Sanki gözünün qırağı ilə yana baxsa, günah olardı.

Həkimin evi dəniz kənarında, böyük beşmərtəbəli bir binada idi. Ana altdan yuxarı uca və uzun pilləkənlərə baxanda həkim duymuşdu:

– Qorxma, – dedi, – ana, qoymaram bu pilləkənləri piyada çıxasınız, bəri gəlin!

Anam həkimə tərəf döndü. Amma bir şey başa düşmədi. Avtomobilin pilləkənlərə yerləşmədiyini bilirdi. Piyada çıxmamaq üçün, onun fikrincə, bir adamı minmək lazım gələcək idi. Buna da, şübhəsiz, anam razı olmazdı.

– Yox, oğul, – dedi, – zəhmət çəkmə, özüm çıxaram.

Həkim düyməni basdı. Liftin qapısı açıldı. Biz əyləşdik. Lift bizi göyə qaldırdıqca, anam döyükürdü, uca pilləkənləri, dalanları keçə-keçə mərtəbələri ötüb, göyə doğru yüksəldiyimizi gördükcə, ehtimal, anama elə gəlirdi ki, "Həzrət İsa kimi qeyb olmağa" gedirik. Anamın rəngi qızarmışdı. Gah sağa, gah sola baxırdı. Hər şeyin yerə çökdüyünü güman etdiyindən vahimələnirdi.

Həkim məni öz kabinetinə apardı, yer göstərdi:

– Əyləş!

Mən oturdum, həkimin kitablarla əhatə olunmuş kabineti mənə müayinə otağı yox, kitabxana kimi görünürdü. Arxayın olsaydım, əlimi qəfəsələrə atıb kitablara baxardım. İndi isə anamdan başqa heç bir şey gözümə görünmürdü. Gözüm həkimdə idi. Onun hər hərəkətini izləyirdim. O, əvvəlcə kostyumunu soyundu, köynəyinin boğazmı açdı. Əllərini yuyub quruladı, gəlib stolun dalında əyləşdi. Onun belə tələsmədən, adi qayda ilə, sanki müayinəyə yox, istirahətə hazırlaşdığını görəndə, o biri evdə isə qulluqçunun cingildəyən şeylər yuduğunu eşidəndə mən yəqin elədim ki, anamın xəstəliyi çox ciddi xəstəlikdir. Ya işığa salınacaq, ya da operasiya olunacaqdır. Ona görə, həkim tələsmir, pribor təmizlədir. Mən bunları fikirləşir, ürəyimə çökən qorxuya təslim olmamağa çalışırdım. Birdən həkim dilləndi:

– Əzizim, – dedi, – açığı, sənin ananda heç bir xəstəlik yoxdur, heç bir dava-dərman müalicəsinə, ya xəstəxanaya ehtiyacı yoxdur. Amma bununla belə ona salamat demək olmaz. Mənim gümanım gələn bir diaqnozu bu gün yoxlamaq istəyirəm, istəyirəm, sənin özün də müşahidə edəsən, inanasan. Bu saat sənin anan nənəmin yanında əyləşmişdir. Onların yanında heç kəs yoxdur. Onlar üz-üzə əyləşib söhbət edirlər. Buyur, burada pərdəli pəncərənin dalında əyləş, dinlə, gör ananın halı necədir, gör o özünü necə hiss edir.



Bu tapşırıq mənə qəribə gəldi. Bu nə deməkdir?

Onun nənəsinin anamın xəstəliyinə nə dəxli var? Ancaq qəribə gəlsə də, bu tapşırığını yerinə yetirməyə tələsdim ki, görüm axırı necə olur.

Nazik cuna pərdəli balaca pəncərənin dalında oturub baxanda qarıların hər ikisinin döşəmədə bardaş qurub, qabaq-qabağa oturduğunu və üfürə-üfürə çay içdiyini gördüm. Anam nəlbəkiyə tökdüyü çayı içə-içə söhbət edirdi:

– Allah köçənlərinizə rəhmət eləsin, mənim bir qayınxatınım var idi, ayrı cür şey idi. Məni elə istərdi ki, indi istəməsin, can bir ciyər kimi, mənsiz addımını bayıra qoymazdı, mənsiz bir tikə yeməzdi, dinməzdi, danışmazdı, elə ki, ikimiz olardıq, bir demək, bir danışmaq, bir qaqqıltı, bir şaqqıltı... Ay məşədi bacı, daha nə deyim!

Anamın sözünü dinləyən qarı başını əyib, "bəli" deyirdi. Ancaq dözmürdü, əli ilə işarə verib, onun sözünü kəsmək, özü danışmaq istəyirdi:

– Sözünün dalında oğlanların dursun, elə mənim İsmət bacılığımı görəsən, bizimkinə bacılıq demə, vallahi, heç bir bacı belə mehriban...

Anam onu susdurdu:

– Heç yadımdan çıxmaz gəlin getməyim. Sözünü də kəsirəm, bacımla məni, üzüm də səndən qara, lap bir tikə boyda olanda köçürtdülər. Oğlan demişdi, görmüşəm, bəyənmişəm, vəssalam! Axı bizlərdə kəhrizə suya gedərlər. Lap balaca idim, sənəyi götürə bilmirdim, hıqqanırdım. Bir də gördüm, bir oğlan sənəyi əlimdən aldı, mən biabır oldum ki!..

Qarı başını tərpədə-tərpədə təsdiq elədi:

– Mənim özüm bəyəm indikilər kimi gördüm, getdim? Bacı canı, heç bir şey qanmırdım. İnandığımıza and olsun, paltar gələndə...

Anam yerindən ona tərəf boylanıb, bərkdən dedi:

– Paltar, mənə bir qanavuz arxalıq...

Qarı qulaq asmaq istəmədi, başını aşağı salıb, söhbətinə davam etdi:

– Paltar gələndə mən həyətdə qum-qum oynayan bir parça uşaq idim. Heç yadımdan çıxmaz, dayım məni qucağına...

Anam dözə bilmədi, əlini uzadıb ovcu ilə qarının ağzını örtmək istədi:

– Bir gör nə deyirəm, ay qız, neçə taxtadan tuman çıxardı. Ay Allah, tumanımı sürüyənəcən mənimki mənə dəyərdi.

– Sən öləsən, mən də elə idim! Tuman da ki, bir yorğan-döşəkdi! Özü də dəstədəst təzə idi, yeriyəndə xış-xış, xış-xış!

– A qız, cehiz var, cehiz var!

– Yorğan-döşəyi mənim anam haçandan tutmuşdu. Nə bilim. Mən gözümü açanda oğlan evində cehizimi hazır gördüm, deynən bir neçə!

– Ağız, cehiz var, cehiz var!

Özünü tərifləyən anam dedi:

– Kiri, kiri, bəyəm cehizimi görmüsən ki, elə deyirsən? And olsun aramızda olan bacılığa, and olsun...

Bir də gördüm, həkim mənə him eləyir:

– Bir qapıdan ananın halını soruş.

Mən gəldim, qapını açıb dedim:

– Ay ana, kefin necədir, özünü necə hiss eləyirsən?

Mənə dilucu cavab verdi:

– Çox yaxşıyam, oğul!

Müsahibilə söhbətini davam etdirdi.

– Darıxmırsan ki, ana?

– Yox, oğul, arxayın ol!

– Bəs naxoşluğundan, zaddan...

O, iki əlini sevinclə yuxarı qaldırdı:

– Oğul, deyəsən, axı lap yaxşılaşmışam. Ürəyim də sakit olub, məşədi bacı ilə söhbət eləyirik. İşin varsa, sən get!

Mən nə isə demək istəyirdim, həkim qolumdan tutub çəkdi.

– Bəri gəl, – dedi, – mən deyəndir, tapmışam onun azarını. O, çox danışandır. Çənəsi öyrənib, sən onu, yəqin, həmsöhbətlərindən ayırmısan. Görürsən, nənəm ilə bir saat oturanda necə kefi sazlandı! Budur ki, var! Onun azarı söz-söhbət azarıdır. Onun çənəsinin altına belə bir qarı arvad sal ki, qulaq asmağa tabı olsun, ayrı heç bir dərman lazım deyil.



Həkimin təcrübəsi mənə çox qəribə və yeni bir icad kimi gəldi. Heyran qaldım. Anamın kənd müsahiblərini, güc ilə yadıma sala bildiyim Gülbadam qarını xatırladım. Pəncərədən içəri qışqırdım:

– Ay ana, Gülbadam xala gəlib, xəbərin varmı?

Anam əlindəki stəkanı yerə elə bərk çırpıb qalxdı ki, az qaldı, stəkan çilik-çilik ola. Qalxmağı ilə eyvana çıxmağı bir oldu. Məni danışdırmadı, sevincək, ayaqyalın, qollarını ata-ata, qızarmış gözləri böyümüş halda, gülümsəyə-gülümsəyə düz pilləkənlərə tərəf yüyürdü. Qapının cırıltısını eşidər-eşitməz dilləndi:

– Ay ərkansız arvad, harda qalmısan, çatladım ki, harda qalmısan, ürəyim partladı ki! Gəlsənə, bir gəlsənə, görüm nə var, nə yox!..

Pilləkənlərdən çıxan bir ucaboy nabələd kişini görəndə anam kül kimi söndü. Gözlərini çevirib mənə baxdı. Baxışı ilə sanki soruşurdu: "Hanı Gülbadam?"

– Darıxma, – dedim, – ay ana, gələr. Sən başmaqlarını geyin, hazırlaş gedirik!

Mən həkimin əlini sıxdım, razılıq etdim. Tezliklə ya Gülbadam qarını anama, ya da anamı Gülbadam qarıya yetirməyi qət etdim.

Həkim mənə məsləhət elədi:

– Sonra onların hər ikisinin ictimai müalicəsi ilə məşğul olmaq lazım gələcək, bunun yolunu sən məndən yaxşı bilirsən. Yavaş-yavaş onları kinoya dadandır. Bir dəfə gördükləri kinodan bir il söhbət eləyəcəklər. Bu, onların şüuruna təsir etmək üçün əldə vasitə ola bilər. Əlbət ki, müalicə müvəqqəti vasitələrdən ustayana istifadə etməyi bacarmaqdan asılıdır. Mən isə sizin bacarığınıza əminəm.

Mən həkimdən ayrıldım, anam isə qarıdan ayrıla bilmirdi.

■ ■ ■

Dostum söhbətini bitirməmiş mən həmin həkimin məharətinə əhsən dedim. Dostumun anasının ictimai müalicəsi ilə maraqlandım, müalicənin nə ilə nəticələndiyini bilmək istədim:

– De görüm, anan ilə rəftarın necə oldu? Onu kəndə apardın, ya Gülbadamı gətirdin?

Dostum dedi:

– Heç birini eləmədim. Anamı bir dəfə kinoya apardım və aldatmağa məcbur oldum. Bilirsən, dedim, ana, heç səni kinoya gətirməzdim, mömin adamsan, üz vurmazdım, ancaq mənə iş yerimdən bərk tapşırıblar ki, gərək kinoya baxasan, orada nə olub, gəlib idarə yoldaşlarına daklad eləyəsən. Mən özüm baxıram, amma fikrim dağınıqdır. Hamısı yadımda qalmır. Sən bax, sonra mənə deyərsən...

Anam bir az çətinlik çəkdi:

– Mən nə bilirəm, nə deyim! Dil bilmirəm ki...

– Yox, – dedim, – ancaq fikir ver, gör kim gəlir, kim gedir, kim nə eləyir, niyə eləyir. Sonra mənə deyərsən, yadıma düşər.

Nə isə, anamı razı saldım. Anam düşdü kinolara. Bax, indi yenə anam kinodadır, azca qalıb, indi qayıdar.

Dostum söhbətini qurtarmamışdı ki, şüşəbənd qapısının çalındığını gördüm. Çox çəkmədi, sarafan geymiş, saçını peysərinə yığmış qıvraq bir qadın içəri girdi, gülümsər halda mənə baxdı:

– Xoş gəlibsiniz!

Dostum işarə elədi:

– Tanış olun anam ilə! Ay ana, bir danış görək necə kinodur!

Qadın oturdu, gördüklərini vəcd ilə, şirin-şirin danışmağa başladı. Mən dostum dediyi kimi, qarının söhbətinə maraqla qulaq asırdım.

*1938*



# MÖHLƏTOVUN TƏRCÜMEYİ-HALI

Möhlətov birtəhər elədi, Allahsızlar İttifaqında kargüzar oldu. Bir-iki ay ürəklə işlədi. Səhər hamıdan tez gəldi, axşam hamıdan gec getdi. Nə dedilər, "baş üstə" ilə dinməz-söyləməz yerinə yetirdi. Onu işə düzəldən dostu da döşünə döyüb sədrin yanında öyünürdü:

– Mən belə işçi taparam!

Möhlətov öz yerini isidəndən sonra şəxsi planlarını həyata keçirmək vaxtının çatdığını yəqin etdi. Günün birində şöbə müdirinin yanına gəlib dedi:

– Fındıqlı rayonunda Allahsızlar İttifaqının işləri yaxşı getmir.

Müdir nə ilə məşğul idisə, eşitmədi, Möhlətov da bənd olmadı.

Sabahısı gün qəzetləri müdirə verəndə dedi:

– Fındıqlı rayonunda işlərimiz pis gedir!

Müdir qəzetləri açmamış onun üzünə baxdı:

– Necə bəyəm?

Möhlətov bilmədi nə desin. O, müdirin konkret şeylər soruşacağını, Fındıqlıdakı nöqsanların nədən ibarət olduğunu bilmək istəyəcəyini

əvvəlcədən təyin etsə idi, əlbət ki, hazırlaşardı, ya da heç ağzını açıb danışmazdı...

Bir az fikirləşib dedi:

– Oradan bizim bir tanış gəlmişdi, o söyləyirdi.

– Nə söyləyirdi axı?

– Yoldaş müdir, yaxşısı budur, sabah o adamla danışıb xəbərini sizə verərəm. Çünki, mən məna verməmişdim, əməlli-başlı soruşmamışdım.

Üçüncü gün Möhlətov müdirin yanına hazır gəldi:

– Fındıqlı rayonunda, – dedi, – yoldaş müdir, işlərimiz bərbad haldadır. Rayon allahsızlar bürosunun katibi Heydərov içib keflənib, istəyənləri üzv yazmayıb, üzvlük haqlarını, kim bilsin, neyləyib... Qərəz ki, çox işlər olub.

Müdir dedi:

– Bunu kim deyir?

– Bunu bizim adam deyir, ondan əlavə material da vardır. Rayondakı üzvlərimizdən bir neçəsi yazıb.

Müdir məruzəyə hazırlaşırdı. Möhlətovun dediklərinə də əslinə yetişməmiş inanmaq istəmirdi. Bloknotunu çıxarıb nə isə yazdı, Möhlətova dedi:

– Bu yaxınlarda Allahsızlar İttifaqı rayon şöbələrinin haqq-hesabı olacaq, təzədən seçki aparacağıq, nə ki material var, get hazırla, baxarıq.

Allahsızlar İttifaqı rayon şöbələrinin işini yoxlamaq üçün adam göndəriləndə Möhlətov özünü yırtıb tökürdü ki, "məni Fındıqlıya yazın, rayonun şəraitini bilirəm, müdirin tapşırığı üzrə oradakı şöbənin də işlərini öyrənmişəm. Orada məndən yaxşı kim iş aparacaq!.."

■ ■ ■

Möhlətov Fındıqlı rayonuna yola düşəndə elə bildi ki, anadan olandan indiyə qədər ürəyinə gələn kiçik, böyük, çətin, asan, köhnə, yeni, yaxın, uzaq, müvəqqəti, daimi, maddi, mənəvi... arzuların hamısı artıqlaması ilə həyata keçdi. Müdir onun aylardan bəri həsrətini çəkdiyi komandirovka kağızına qol çəkəndə Möhlətov elə bildi ki, ona həmişəlik səadət vərəqəsi verildi. Şadlığından qızardı, özünü itirdi, ixtiyarsız əllərini uzadıb müdirin əlindən tutdu, bərk-bərk sıxdı. Müdir bunun mənasını anlaya bilmədiyindən dik-dik baxdı. Möhlətov öz hərəkətinin yersiz olduğunu duyub müdiri dilə basdı:



– Bağışla, yoldaş müdir, sabah tezdən çıxıram, bəlkə görüşə bilmədik. Hələlik xudahafiz!

Müdir:

– Yaxşı yol! – deyib işinə məşğul oldu.

Möhlətov şeylərini yığışdırıb idarədən çıxdı.

Poyezdə əyləşəndə Möhlətovun dodaqları qaçdı, dərin və mənalı bir gülüş onun uzun zaman dolaşıq tozlu-paslı qalan xəyallarını işıqlandırdı. O, vaqonun divarına söykənib şirin-şirin düşündü. İlk dəfə onun fikrinə gələn söz bu oldu:

"Ay yazıq Heydərov, nə durmusan, qənimin gəlir! Səmayə ilə çəkdiyin keyfləri burnundan tökməyə gələn igidi görəndə halın necə olacaq, ay yazıq!"

Möhlətov portfelini göydə silkələyəndə yanında oturan kişi heyrət elədi:

– Yoxsa bir şey itirmisiniz?

Möhlətov fikir-xəyaldan ayılan kimi oldu, "xeyr!" deyib yenə xəyal aləminə cumdu.

Möhlətovun bu fikir-xəyalatının balaca bir tarixçəsi vardır. Bu tarixçəni deməsək, onun tərcümeyi-halı yarımçıq olar.

Möhlətov indi intiqam almaq üçün getdiyi, necə deyərlər, qanını içməyə "hazır olduğu", gözünün düşməni Heydərovla cavanlıqda məktəb yoldaşı olmuşdu.

Təki heç olmaya idi!

O zaman orta məktəbdə qızlarla oğlanlar təzəcə bir yerdə oxumağa başlamışdı. Möhlətov Səmayə adlı bir ağbəniz qıza bənd olmuşdu. Qızın dalınca düşmüşdü. Onun dərsini "öyrətməyə hazır olduğunu" bildirmişdi. Teatrda, kinoda ona bilet alırdı, konsertdə ona yer saxlayırdı. Gecə vaxtı qarda, soyuqda titrəyə-titrəyə onu gözləyib, evlərinə yola salırdı. Onun adına bir bəzəkli albom yazmışdı, "S" hərfini qoluna döydürmüşdü, gecələr qızı yuxuda görürdü. "Səma" sözü olan bütün şeirləri əzbərləmişdi, hətta birini də özü qaralamışdı.

Qərəz ki, öz aləmində sevmək, sevişmək, vurulub haldan getmək üçün nə lazımdırsa, nə mümkündürsə, hamısını eləmişdi. Lakin Səmayədən müəyyən bir cavab çıxmırdı.

Tənəffüs zamanı, böyük balkonda uşaqlar gəzişəndə, dincələndə Möhlətov özünə cəsarət verib Səmayəyə yanaşardı. Dərsdən, gördüyü kinolardan, eşitdiyi romanlardan söz açardı. Səmayənin onunla tam bir mehriban yoldaş kimi danışmasından həzz alardı. Güman edirdi ki, "Səmayə məni sevməsə, belə danışmaz, hər söz başı qımışıb gülməz. Yəqin sevir! Amma sevgisini izhar edə bilmir..."

Ancaq Səmayənin cavabları onu şübhəyə salardı. Möhlətov gördüyü, ya eşitdiyi kinonun adını tutanda Səmayə onun sözünü kəsərdi, əsəri təhlil edib öz fikrini deyərdi.

Möhlətov dözə bilməzdi.

– Bəs kinoya gedəcəkdin, niyə demirdin, bir yerdə gedərdik...

Möhlətovun bu sözünə qarşı Səmayə belə deyərdi:

– Heydərovla gedirəm. O, rusca da yaxşı bilir, başa düşmədiyim yerləri deyir.

Heydərovun adını eşidəndə qısqanclıqdan Möhlətovun alın damarları şişdi. "Necə yəni, Heydərov... Bəyəm, mən burada ölmüşəm?"

Onu fikir götürdü. Bir istədi, bıçaq götürüb Heydərovun yolunu kəssin. Bir istədi nə dinsin, nə danışsın, Səmayənin gözünün qarşısında aralığa salıb Heydərovu möhkəm əzsin, elə hörmətdən salsın ki, Səmayə deyil, heç bir qız ona yaxın durmasın...

Hirsi soyudumu, məktəbdən qovulacağından, biabır olacağından qorxdumu, Heydərovun özündən çəkindimi, nəsə... fikrini dəyişdi. Dərsi yarımçıq buraxıb evlərinə getdi. Qırmızı mürəkkəblə bir, qara mürəkkəblə də bir məktub yazdı.

Qırmızı mürəkkəblə yazdığını belə bir xitabla başlayırdı:

"Həyatımın telləri qədər sevdiyim Səmayəciyimə..."

Möhlətovun belə məktublar yazmaqda xüsusi məharəti vardı. Ona görə nə plan tökdü, nə qaralama yazdı. Qələmi əlinə alan kimi, odlu cümlələr öz-özünə kağıza tökülməyə başladı.

Əvvəlcə Səmayəni əzizlədi, sevgisinin tarixini yazdı, "əbədi" olmasına and içdi. Sonra "Heydərov məsələsini" açdı. Bunun bir xəncər kimi öz ürəyinə sancıldığını dönə-dönə təkrar etdi və ondan "qəti olaraq uzaqlaşmağı" tapşırdı. Məktubun axırını bəzi kargüzarların təliqəsi kimi qurtardı:

"Əksi təqdirdə ikimizdən birimiz yaşamayacaqdır! Ya Heydərov, ya Möhlətov!"

Qara mürəkkəblə yazdığı kağızı Heydərova yazdı. Onu bərk hədələdi: "Başın bədəninə ağırlıq etmirsə, Səmayədən uzaq ol! Cavansan, özünə yazığın gəlsin!.." Buna imza da atmadı. Məktubların hər ikisini poçta saldı.

Bu əhvalatdan on-on beş gün sonra Möhlətovu Profkoma çağırdılar. Yazdığı məktubları ona göstərdilər və bunlarla nə demək istədiyini soruşdular...

Profkomun iclasında on bir nəfər adam vardı. Səmayə özü də orada idi, çünki Profkom üzvü idi.

Sədr üzünü Möhlətova tutub soruşdu:

– Yoldaş Bilal Möhlətov, bu məktublarla nə demək istəyirsiniz və buna nə ad qoymaq olar?

Möhlətov gözlənməz bir hadisə ilə qarşılaşdığı üçün özünü itirdi, dinəcəyi olmadı.

Sədr Səmayədən soruşdu:

– Bəlkə, yoldaş Səmayə, sizin Möhlətovla doğrudan da yaxınlığınız vardır? Bəlkə ona söz vermişsiniz, o da sizə arxayın...

Səmayə sədrin sözünü kəsdi:

– Mənim Möhlətovu görəcək gözüm yoxdur və olmayıb. O, bir məktəb yoldaşı kimi tənəffüslərdə mənə yanaşıb dərs soruşanda, söhbət eləyəndə mən də adam kimi cavab vermişəm. Onun ürəyində belə bir güman olduğunu bilsəm, heç üzünə də baxmazdım. O hara, mən hara! Getsin tayını tapsın!..

Səmayə bu çıxışı ilə Möhlətovun ağzını elə qaytardı ki, daha sədrin deməyə sözü qalmadı. Möhlətov qulağının dibindən qızardı, burun qanadları açıldı. Qalxıb papağını götürdü, dalına baxmadan getdi.

Möhlətovu divar qəzetində də möhkəm bəzədilər. Adı dillərə düşdü, adam içinə çıxa bilmədi. Dostları ilə dərdləşəndə demişdi: "Bu dərd məni dəng elər. Heydərovu sağ-salamat yaşamağa qoysam, atamın oğ-

lu deyiləm! O, Səmayə əvəzinə burnunun ucunu görər..." Dost da Möhlətovun sirrini saxlamadı, onun dediklərini bir də qəzetə yazdılar. O oldu, Möhlətov bir də nə Səmayənin, nə də Heydərovun adını çəkdi.

Heydərovla Səmayə evləndilər, məktəb yoldaşlarını çağırdılar, dəsgahlı bir toy elədilər.

Möhlətov bunları eşitdikcə içindən yanır, qovrulurdu. Amma üzə vurmurdu. Zahirdə eşitməzliyə, saymazlığa salırdı, ürəyində isə fürsət axtarırdı. Onun bəxti gətirdi, on il sonra olsa da, belə bir fürsət əlinə keçdi.

O, yol uzunu fikirləşirdi. Ürəyində ölçüb-biçirdi, "Heydərovun xoruzunu qoltuğuna vermək" üçün plan tökürdü:

"Bir təhkimçi kimi Heydərovun işlərini yoxlayaram. Həlbət bir tutarlı yer taparam. Tutarlı yer olmasa da, xırda nöqsanları yığışdırıb cəmləşdirərəm. Yaxşı danışan uşaqlardan bir-ikisini də kənara çəkib öyrədərəm. İclasda o ki, var Heydərovun cəmdəyinə döşəyərəm. Ondan sonra, həlbət ki, Allahsızlar ittifaqı bürosuna yeni kandidatlar qoyaram. İclasdakılar mənim sözümdən çıxmaz. Özümü də büro üzvülüyünə salaram. Sonra iclas adından belə bir xahiş də düzəltmək olar: "Rayonda Allahsızlar ittifaqının işlərini möhkəmlətmək üçün yoldaş Mövlətovun həmişəlik bizim rayonda qalmasına icazə verilməsini ittifaqın mərkəzi bürosundan xahiş etməli... Belə bir əsas olsa, mənim özümü rayon şöbəsinə rəhbər təyin edərlər. Heydərov da gedər öz işinə. Səmayənin ağlı olsa, mənim belə irəli getdiyimi görən kimi köhnə ərindən iyrənər... Mən özüm də ona yazaram, bildirərəm ki: "Mənim sabiq sevgilim, qorxma, ağuşuma gəl. Günahlarından keçərəm, gəl!.."

Möhlətov bir sutkalıq yolda bu xəyalatı o qədər çək-çövür elədi, o qədər təkrarladı ki, bunlar ona həqiqət kimi görünürdü. Səmayəni, səkkiz ildən bəri üzünü görmədiyi "sevimli qızı" qucağında gördü...

■ ■ ■

Möhlətov rayona çatan kimi, Allahsızlar İttifaqı rayon şöbəsinin katibini axtardı. Özünü nabələdliyə, tanımazlığa qoyub hər yetəndən soruşurdu: "Sizin şöbədə katib kimdir?" Heydərovun adını eşidəndə çiyinlərini çəkirdi:



– Tanımıram, – deyirdi. Sonra tez əlavə edirdi:

– Heydərov kimdir, nəçidir, bilmirəm. Amma Allahsızlar ittifaqının işi burada çox zəifdir. Bu barədə mənə bərk tapşırıq var. Belə zəif çalışmağa, daha doğrusu, tənbəllik etməyə bilmirəm nə ad verək...

Allahsızlar İttifaqı üzvlərindən biri Möhlətovun sözünə güldü:

– A yoldaş təhkimçi, siz lap baltanı dibindən vurursunuz. Hələ işlərlə tanış olmamış, Heydərovun məruzəsini eşitməmiş qiymət verirsiniz... Qəribə işdir...

Möhlətov istədi, bu güləşqabaq oğlanın sözünə soyuqqanlılıqla yanaşsın, məna verməsin, bunu edə bilmədi. Çünki o indidən öz "ağzının kəsərini göstərməli idi." Başqa üzvlər də məsələyə belə yanaşsalar, onun bütün planları pozulacaqdı. O, güləşqabaq oğlana tünd baxdı və dedi:

– Bura bax, yoldaş! Xahiş olunur bizi öyrətməyəsiniz. Hər halda, məni buraya təhkimçi göndərən məsul idarələr və məsul işçilər vardır.

Möhlətovun bu tünd baxışından və danışığından güləşqabaq oğlan pozulan kimi oldu:

– Acığınız niyə tutur, təhkimçi olanda, nə olar? Təhkimçini tənqid etmək olmaz?

Möhlətov onun sözünü kəsdi:

– Tənqid edən qoçaq oğlan idin, öz qulağının dibində olan nöqsanları tənqid edə idin. Rayonda ittifaqın işlərini bərbad edənləri tənqid edə idin. Biz də eşidib afərin deyərdik. İşlər də ki irəli düşərdi... yoxsa... – Möhlətov sözünü dəyişdi:

– Yoldaş, sənin familin nədir?

Güləşqabaq oğlan "Rəhimov" deyib, əlini tovladı və getdi.

Heydərov nə iş üçünsə kəndə getmişdi. Qayıdanda təhkimçi gəldiyini dedilər.

Sabahısı gün Möhlətov Allahsızlar İttifaqı aktiv üzvlərinin iclasını çağırdı. Heydərovun ümumi iclasda edəcəyi məruzəsinin planından, geniş özünütənqiddən və yeni heyət seçkisindən danışdı. Üzvləri danışmağa, nöqsanları göstərməyə çağırdı.

Üzvlər söz alıb danışdıqca, Möhlətov onların familiyasını və danışıqlarının lazımi yerlərini dəftərinə yazırdı. Arabir danışanlara sual da verirdi.

Qurban öz çıxışında göstərdi ki, bizdə Allahsızlar İttifaqına yeni üzvlər cəlb etmək işi zəifdir. Rayonda bir sıra aktiv çalışqan yoldaşlar vardır ki, hələ də ittifaqın üzvü deyil.

Möhlətov başını yazıdan qaldırıb soruşdu:

– Yoldaş Qurban, sənin deməyindən elə çıxır ki, rayonda hələ də Allahsızlar İttifaqına yazılmayanlar var, eləmi?

Qurban təsdiq etdi:

– Bəli, var, çoxdur!

– Çoxdur?

– Bəli, çoxdur!

Möhlətov başını buladı:

– Biabırçılıqdır, biabırçılıq!

Mərdan çıxışında dedi:

– Bizim işlərimizdəki nöqsanlardan biri də dinə qarşı mübarizə işinə qadın və qızlardan lazımi qədər cəlb etməməyimizdir!

Möhlətov müdhiş bir xəbər eşitmiş kimi, ayağa durdu.

– Qadınlar cəlb olunmayıb?

Mərdan sözünü təkrar etməyə məcbur oldu:

– Cəlb olunub, yoldaş Möhlətov, ancaq lazımi qədər yox!

Möhlətov dedi:

– Belə çıxır ki, lazımsız qədər qadın cəlb olunub?

Onun sözünə gülüşənlər oldu. O hirsləndi:

– Mən bilmirəm bu "lazımsız qədər" kimə lazımdır! Buna nə ad qoymaq olar?..

Danışıqların axırında Möhlətov üzünü Heydərova tutub soruşdu:

– Yoldaş rayon şöbəsinin katibi, de görək bu deyilən mühüm nöqsanlar və biabırçılıqlar ki eşitdik, bunları yüz prosent boynunuza alırsınız, ya necə?..

Heydərov qızarmış və hirslənmişdi:

– Məhkəmə qarşısında deyiləm, – dedi, – yoxsa cavab verərdim. Ümumi iclasda məruzəmi edərəm, boynuma alıb-almadığımı görərsiniz.

Möhlətov təslim olmaq istəmədi:

– Sən, – dedi, – yəqin bil: boynuna alsan da, almasan da ifşa olunacaqsan. Kütlənin qabağında sənin bütün biabırçılıqların açılır və açılacaqdır. Sonrasını özün bilərsən.



Üzvlər Möhlətovun sözünə və hərəkətinə təəccüb etdilər. Səs-səsə verib soruşdular:

– Yoldaş Möhlətov, hansı biabırçılıqdan danışırsınız? Biz bilmək istəyirik.

Möhlətov ayağa qalxdı, portfelini götürüb dedi:

– O biabırçılıqlardan, hansını ki, buradakı bəzi müzür ünsürlər örtbasdır etmək istəyirlər. O biabırçılıqları deyirəm, hansı ki, materialı çoxdan gəlib bizə, Bakıya çıxıb. Danmaq istəyənlər görərlər!

O, birdən bərk qışqırdı:

– Yoldaşlar, onu da bilin ki, Heydərov artıq sizin şöbədə katib qala bilməyəcək, Heydərovdan qorxmaq lazım deyil. Düzünü demək, onu ifşa etmək lazımdır.

Sədr qışqırdı:

– Yoldaş Möhlətov, sənə söz verməmişəm, yerindən danışırsan.

Heydərov nə isə demək istəyirdi. Sədr mane oldu.

■ ■ ■

Ümumi iclasda sədr haqq-hesab məruzəsi üçün Heydərova söz verəndə Möhlətov qalxıb dedi:

– Vaxt təyin eləmək lazımdır. Məncə, on beş dəqiqə bəsdir.

Sədr məruzəçidən soruşdu.

Heydərov dedi:

– Bir saat danışacağam.

Möhlətov tələsirdi. Heydərovun "xoruzunu qoltuğuna verməyə" və "Səmayəni ələ gətirməyə" tələsirdi. Ona görə də qalxıb öz təklifinin səsə qoyulmasını təkid elədi. Sədr səsə qoydu. İclas məruzəçiyə bir saat vaxt verdi.

Möhlətov öz təklifinin keçmədiyini görüb hirsləndi. Xəyalında özünün bu məğlubiyyətinin hayıfını iclasdan almağı qət etdi:

"Yoxsa Heydərov haqqında qərar çıxarılanda da barmaq qaldırmazlar. İndidən bir qara-qorxu gəlmək lazımdır."

Möhlətov söz almamış ayağa qalxdı, üzünü sədrə tutub dedi:

– Görünür ki, burada oturanların, adını Allahsızlar İttifaqının üzvü qoyanların çoxu öz vəzifələrini yaxşı başa düşmürlər. Görünür ki, o yoldaşlar bugünkü iclasın, içimizdəki dönüşün əhəmiyyətini anlamırlar! Belə məlum olur ki, onlar yenə Heydərov kimi adamın işləməkdə davam etməsini istəyirlər. Onlar heydərovçuluqdan əl çəkmək istəmirlər... Ona görə...

Sədr dedi:

– A yoldaş Möhlətov, siz lap məni şübhəyə salmısınız: əvvəla söz almamış danışırsınız, "Başa düşmürlər, anlamırlar, qanmırlar..." Deməli, kim siz deyənə barmaq qaldırmadı, onu qanmaz hesab edirsiniz. Halbuki, əksinə, bu sözlər bunları danışanın qanacağından bir-iki kilometr uzaqda dayandığını göstərir... Bu...

Möhlətov qızdı:

– Təklif edirəm ki, mənim etirazım pratokola yazılsın.

Sədr cavab verdi:

– Yazılsın, yaxşı.

Möhlətov kirimədi:

– İşin gələcək məsuliyyəti...

Sədr dilləndi:

– Məsuliyyəti siz bildiyiniz qədər biz də bilirik. Qoy məruzəçi danışsın, vaxt keçir.

İclasda oturanların çoxu həyəcan içində idi. Möhlətovun necə adam olduğunu heç kəs təyin edə bilmirdi. Onun Heydərova qarşı belə bir cəbhə tutmağının səbəbi hamını maraqlandırırdı.

Məruzədən sonra söz alıb danışanlar rayon şöbəsinin xırda nöqsanları ilə yanaşı müvəffəqiyyətlərini də deyirdilər. Heydərovun ittifaq işlərinə can yandırmasını, antidin agitasiyanı yaxşı aparmasını, ədəbiyyat yaymasını göstərirdilər.

Möhlətov söz aldı. Hamı onu diqqətlə dinləyirdi. Sədr də, Heydərov da əllərində qələm Möhlətovun çıxışından bəzi qeydlər götürürdülər.

Möhlətov illərdən bəri Heydərova bəslədiyi nifrəti, Səmayəyə bəslədiyi məhəbbəti ifadə edən və ürəyini dəlməkdə olan intiqam hirsini soyudan bir nitq söyləmək istəyirdi. İclasın əvvəlindəki deyişmələrdən



hirsləndiyinə baxmayaraq, öz vəzifəsindən, nümayəndəlik adının nüfuzundan istifadə edərək, Heydərovun rayondakı nüfuzunu bir quru qamış kimi qırmaq istəyirdi, özü dediyi kimi, "rayon şöbəsində bir dönüş" yaratmaq istəyirdi. Ona elə gəlirdi ki, Səmayə, öz ərinin "sarsılmaqda olan taleyinə" soyuqqanlılıqla baxacaq. Möhlətovun bir işarəsi ilə ərindən boşanacaq, ondan daha böyük vəzifədə olan Möhlətovun qucağına atılacaqdır.

Bütün bunları nəzərə aldığı üçün ətraflı və "təsirli" bir nitq demək istəyirdi.

Əvvəlcə ümumi işlərdən, şöbənin vəzifələrindən danışdı. Sonra özünə olan möhkəm tapşırıqlardan və şöbədəki köhnə rəhbərliyin (burada Heydərovu nəzərdə tuturdu) sürünməsindən dedi. Onu da göstərdi ki:

– Köhnə rəhbərliyi, Heydərov kimilərini hələ də müdafiə edən üzvləri tapıb aşkara çıxarmaq...

İclasda oturanların bir neçəsi dilləndi:

– Aşkardır. Heydərovun yaxşı işçi olduğunu göstərənlər aşkardadır. Mən onu tərifləmişəm, yenə onun yaxşı işçi olduğunu deyirəm. Bunun nəyi günahdır, buyur başa sal.

Sədr karandaşı stola vurdu. Möhlətov danışan oğlana baxdı, üzünü katibə çevirdi:

– Bunu yadında saxla! Materiallarını mənə verərsən! Görək bu hansı düşmənin havasını çalır! Artıq belə-belə ziyançılarla hesablaşmağın vaxtı...

Danışan oğlan yerindən qışqırdı:

– Ziyançı da özünsən, düşmən də. Danışığını bil, səni məhkəməyə çəkərəm!

Sədr yenə birtəhər sakitlik düzəltdi. Möhlətov qızardısa da dinmədi, çünki o ürəyinin əsl mətləbini "sözünün canını" hələ deməmişdi. Birtəhər özünü sakit elədi, çıxışının mabədinə keçdi.

– ...Həlbət ki, yoldaşlar, biz, ittifaqın aktiv üzvləri, Heydərovu işdən qovmaqla kifayətlənməyəcəyik. Bu barədə bizə xüsusi tapşırıq da vardır. İllər uzunu rayon şöbəsinin başında oturub bildiyini eləyən adamların yaxasından əl çəkməyəcəyik. Biz çox yaxşı bilirik ki, Heydərov kimilər öz əxlaqsız hərəkətləri ilə bəzi yoldaşları da korlamış, pozmuş-

lar. Mən Heydərovun arvadı olmağa məcbur olan Səmayəni deyirəm. O, özü bir yaxşı ictimaiyyətçi qızdı, Heydərov onu al dillə aldadıb yoldan çıxartmışdır. Qız özü peşman olmuşdur. (Bu barədə bizdə məlumat vardır.) Bununla onu demək istəyirəm ki, yoldaşlar, biz hamıya bir ölçü ilə yanaşmamalıyıq. Sabah biz Səmayəni də günahkar edə bilmərik ki, Heydərov ilə əlaqən var... Bir işdir olub. İndi bizim vəzifəmiz onu başa salmaq, o cavan qızı tərbiyə eləməkdir. Mən şəxsən özüm Səmayənin yenidən tərbiyələnməsini boynuma alıram. Mən onunla özüm məşğul olacağam. Qaldı, yoldaşlar, yeni heyət məsələsi. Doğrudur, mənim özümü yeni heyətə keçirirsiniz, ancaq mən Bakıda olacağam. Yoldaşların bəzisi mənim sədr keçməyimi təklif edirlər. Bu təklifi əslən Bakıda mənə dedilər. Qərəz ki, gərək bundan sonra sizinlə birlikdə...

Möhlətovdan sonra üzvlər bir-bir danışdı.

Möhlətov gözləmədiyi sözlər eşidirdi.

Qəribova adlı bir qız deyirdi:

– Möhlətovun burada qurmaq istədiyi fırıldaqları teleqramma ilə mərkəzi idarəyə bildirməliyik.

Başqa bir komsomolçu deyirdi:

– Qəzetdə yazmaq lazımdır: Möhlətov burada sovet demokratiyasını pozmaq, özünün murdar karyerasını yeritmək, yaxşı işçiləri ləkələyib şəxsi intiqam almaq istəyir. Möhlətov kimi bambılılara bildirmək, hiss etdirmək lazımdır ki, rayon onun təsəvvür etdiyi rayon deyildir. Rayon indi gözüaçıq, kulturalı, təcrübəli əməkçilər vətənidir. Rayon işçiləri çox Möhlətov kimi avantüristlərin maskasını yırtmışdır... Mən təklif edirəm: onun vəsiqəsi alınsın, özü haqda da işlədiyi yerə təcili məlumat verilsin.

Səmayə çoxdan söz istəyirdi, sədr vermirdi. Qalxıb irəliyə, sədrin stolunun yanına gəldi.

Sədr ona söz verdi:

– Yoldaşlar, – dedi, – bu Möhlətov on beş ildir bizdən intiqam almaq istəyir. Bu mənim dalımca düşmüşdü. Əl çəkmirdi, mənim də bundan, doğrusu, zəhləm gedirdi. Bu istəyirdi, qoçuluqla, qara-qorxu ilə məni razı salsın. Biz Heydərovla evlənəndən bunun başına daş düşüb...



■ ■ ■

Möhlətov papiros çəkmək bahanasına iclasdan çıxdı, düz vağzala, dəmiryola qaçdı. Birtəhər bilet alıb Bakıya gəldi. İdarə müdiri ilə əl verib görüşəndə gülə-gülə dedi:

– Haqq-hesab kampaniyası mənim rəhbərliyim altında qiyamət keçdi. Məni heyətə seçirdilər, güc ilə yaxamı qurtarmışam.

*1939*

# KİMYA TƏLƏSİR

Yay səhərinin xəfif, sərin küləyi tük süpürgə kimi, həyətə çəkilirdi. Balkonun qabağında yatışanlar şirin yuxuda idi.

Sol tərəfdəki ağ, bəzəkli uşaq çarpayısının toru cırıldadı, üstündəki tiftik adyal tərpəndi, səkkizyaşlı Kimya dik qalxıb oturdu. Əvvəlcə üzünə tökülən saçlarını kənar elədi, gözlərini silib həyətə, işıqlanan üfüqə baxdı, sonra yerindən sıçrayıb anasını oyatdı.

– Ay ana, vaxtım keçdi, tez ol!

Kimyanın saatdan o qədər başı çıxmazdı. Ancaq üç vaxtı yaxşı bilirdi: səhəri, günortanı, axşamı. Nədənsə bu səhər Kimya çox tez qalxmışdı. Həmişə anası samovarı hazır edər, bəzən də süfrəni salardı, Kimya çayın soyumuş vaxtına çatardı. Amma bu gün Kimya alaqaranlıqdan durmuşdu, çay heç yadına da düşmürdü. Anasını oyatmaqdan məqsədi çay qoydurub içmək deyil, o, bərk tələsirdi. Anasının çiynindən tutub silkələdi:

– Ay ana, tez ol, mənim qalstukumu bağla!

Anası gözünü açıb, Kimyanı görəndə yerindən sıçradı. Havaya baxıb yerə oturdu:



– Tezdir! Tezdir hələ, qızım, darıxma!

Kimya dedi:

– Nəyi tezdir. Odur ey, uşaqlar qaça-qaça getdilər. Vaxtdır! Qalstukumu bəri elə!

Anası uşağı sakit eləmək və vaxtı dürüst bilmək üçün saata baxdı. Əlini qızının başına çəkib dedi:

– Tezdir hələ, qızım, düz iki saat var, tələsmə.

Saat səkkizin yarısında Kimya anası ilə ağaclar arasından keçib, məktəbə gəlirdi. Anası ha yeyinləyir, addımlarını iriləndirdi, yenə Kimyaya çata bilmirdi. Kimya qəribə və nadir bir tamaşaya tələsən uşaq marağı ilə dalına baxmadan, anasının əlindən tutmadan, dinməz-söyləməz yüyürür, özünü məktəb həyətinə salmaq istəyirdi.

Bu gün kənddə qəribə bir aləm vardı. Məktəb yaşına çatmış uşaqlar, bahar xəbəri gətirən sığırçınlar kimi, fərəhdən uçurdular. Onlar geyinib-kecinmişdilər. Bəslənmiş əmlik kimi, analarının yanına düşüb yüyürürdülər.

Hər tərəfdən axışıb gələn uşaqlar və onları birinci dəfə məktəbə yola salan analar əlindən məktəb həyətində tərpənmək olmurdu.

Zəng çalınanda əmişdən sonra ayrılan qoyun-quzu kimi, uşaqlar böyüklərdən ayrıldı. Böyüklərin bəzisi uşağını dərs otağına buraxıb getdi, bəzisi də ağac altında, həyətin bir tərəfində dayanıb, pəncərədən dərs otağına baxırdı.

Müəllim Kimyanı adı ilə çağıranda, əlindən tutub skamyalardan birində əyləşdirəndə qız elə bildi ki, bu müəllim deyil, doğma atadır. Hamını yerbəyer eləyəndən sonra müəllim gülə-gülə uşaqlara dedi:

– Uşaqlar, indi siz məktəbli oldunuz. Məktəbə girməyiniz mübarək olsun!

Müəllimin bu mehriban sözləri Kimyanı lap ürəkləndirdi, oturduğu skamyadan durub, düz müəllimin stolunun qabağına gəldi. Onun ətəyindən tutub dedi:

– Müəllim dayı!..

Müəllim yanında pişik kimi ehmallıca tərpənən uşağa döndü, onun bir şey xahiş etdiyini və ya bir söz demək istədiyini güman edib soruşdu:

– Nədir, qızım? Nə sözün var, Kimya?

Kimya, müəllimin ona "qızım" deməyindən, dönə-dönə adını çəkməyindən lap ürəkləndi. Müəllimin bu ehtiramından utandı, sağ əlilə sol barmaqlarını oynada-oynada, başıaşağı ancaq bunu deyə bildi:

– Salaməleykim!

Dərslərin birində müəllim uşaqlara ev şeylərini saydırırdı. Cavab vermək üçün barmaq qaldıranlara müəllim söz verirdi.

Uşaqlar deyirdi:

– Qazan, müəllim... Müəllim, samovar, stəkan, müəllim.

Kimya da söz aldı. O da ev şeylərini sanamaq istəyirdi. Öz evləri – bayramqabağı olan kimi, bəzənmiş-düzənmiş evləri gəlib gözünün qabağında durdu. O, gördüklərini sanadı:

– Ev şeyləri, müəllim, bunlardır: kitab, radio, müəllim, müəllim, patefon...

Kimyanın cavabları müəllimə birtəhər gəldi. O, yavaş-yavaş yeriyib Kimyanın qabağına gəldi. Kimya hələ sanayırdı. Uşaqlar müəllimə baxırdılar. Bu saat onun ağzından çıxacaq sözləri, Kimyanın cavabına verəcəyi qiyməti gözləyirdilər. Uşaqlar Kimyanın cavabında bir başqalıq, bir xüsusiyyət olduğunu müəllimin hərəkətindən seçirdilər. Çoxu qibtə ilə Kimyanın üzünə baxırdı. Bəziləri də müəllimin duruxmağından şübhələnirdi. Biri özünə cəsarət verib, yerindən dilləndi:

"Düz deyil."

Müəllim başı ilə buna razılıq işarəsi vermədi. Kimyanın sözünü təsdiq etdi, ancaq bu barədə çox danışmadı.

Müəllim Kimyanın cavabını ona görə çox düşünürdü ki, bu adi cavab deyildi. Bəlkə də Kimya üçün, bəlkə də məktəb, həyat haqqında ilk və səmimi təsəvvürlərini gətirən bir uşaq üçün burada düşünməli bir şey yox idi, ancaq müəllimi bir məsələ çox maraqlandırırdı.

O, müəllimlər otağında marağını hamıya söylədi:

– Kimya – səkkizyaşlı bir qız uşağı kitabı vacib ev şeyi sayanda, görün nə aləmdir! Həyat o qədər dəyişmişdir, mədəniyyət, doğrudan da, kəndlinin məişətinə o qədər yerimişdir ki, uşaq kitabsız ev təsəvvür edə bilmir! Biz uşaq olduğumuz zaman belə bir sualı versəydilər, nə deyərdik? Sabir demişkən:



*Nə bilirdik nə zəhrimardı kitab,*
*Biz olan evdə haçan vardı kitab...*

Mənə çox qəribə gəlir. Balaca bir uşaq təsəvvüründə də inkişafımız, mədəni həyatımız özünü göstərir. Uşağa heç kəs leksiya deməmiş, heç kəs kitabın əhəmiyyətini öyrətməmişdir. Ancaq o özü, təcrübədə, həyatda kitabı vacib ev şeyi kimi görmüşdür. O buna alışmışdır. Ehtimal, o, kitabsız, patefonsuz ev təsəvvür etmir, çünki bizim yeni nəsil gözünü namaz, dua, fal kimi çirkin şeylərə yox, mədəni şəraitə açır... Bunları ata-analar iclasında demək lazımdır.

■ ■ ■

Əl işi dərsində müəllim uşaqlara şəkil çəkdirir, cızıq öyrədirdi. Uşaqlardan biri rəngli bir şəkil gətirmişdi. Müəllim onun şəklini hamıya göstərib təriflədi. Kimya şəklə baxdı, dinmədi. O, xəyalında tutdu ki, evdəki şəkillərini, atasının aldığı əyləncə şeylərini gətirib müəllimə göstərsin.

Elə də etdi.

Hazırlanmış hissələrdən quraşdırıb düzəltdiyi aeroplan modelini müəllimə göstərib dedi:

– Müəllim, özüm qayırmışam! Necədi, müəllim?

Müəllim modeli hamıya göstərdi. Uşaqlar bir-bir yerlərindən qalxıb, aeroplan modelinə baxırdılar. Kimyanın skamya yoldaşı Qüdrət yavaşca dedi:

– Ay Kimya, aeroplanına məni də şərik elə, nə olar?

Uşaqlar baxdıqca, müəllim modeli göstərdikcə Kimya sevinir, ürəyi açılırdı. O, özündəki bacarığın, yaratdığı məhsulun diqqətəlayiq olduğunu görüb fərəhlənir, ürəyində daha yaxşı işlər görməyi fikirləşirdi. Uşaqlar isə müəllimə suallar verirdilər. Müəllim aeroplandan, onun hissələrindən məlumat verirdi.

Kimya müəllimin köməyini, onun yeni-yeni şeylər öyrətdiyini görüb dedi:

– Müəllim, bəs biz haçan aeroplan sürəcəyik?

Müəllim Kimyaya başa saldı:

– Bir neçə ildən sonra, məktəbi bitirdikdən sonra. Xüsusi aeroplan

məktəbi var, orada oxuyacaqsan, orada aeroplan sürməyi öyrənəcəksən.

Müəllimin cavabı Kimyanı təmin etmədi. Fikirləşdi. "Mən aeroplan modelini düzəldirəm. Sürməyini də öyrətsin də, nə olar..."

Kimya sevinə-sevinə evə qayıtdı. Modelini məktəbdə bəyəndikləri-ni, təriflədiklərini danışıb gülürdü.

Radio səsləndi. Radioda Sovet Aviasiya günü haqqında danışılır, aviasiyamızın qələbələrindən, onun dünya rekordlarından, şərəfli qəhrəmanlarından məlumat verilirdi. Kimya stulunu radionun yanına çəkdi, diqqətlə dinlədi.

O, aviasiya haqqındakı müsahibələrə dərsdən artıq qulaq asırdı. Anası dillənəndə, əlini ağzına qoyub "sus!" deyirdi. Gözü ilə işarə edirdi ki, "bir eşit, gör dünyada nələr var!"

Müsahibə qurtarandan sonra Kimya anasından xahiş etdi:

– Müəllimə de, bizə aeroplan sürməyi öyrətsin.

Kimya sakit olmadı. Axşam atası onu kinoya aparanda müəllimdən şikayət etdi:

– Mən aeroplanı bilirəm. Model düzəldirəm. Hər şeyini öyrənmişəm. Bəs müəllim niyə aeroplan sürməyi öyrətmir?

Atası qısa cavab verdi:

– Tələsmə, qızım, tələsmə! Müəllim vaxtını yaxşı bilir. Sənə nə deyirlər, onu öyrən, tələsmə!

– Bəs haçan öyrədəcəklər?

– Məktəbi yaxşı qurtarsan, yeddi-səkkiz ildən sonra səni özüm aparıb, aeroplan məktəbinə qoyaram, aeroplançı olarsan, göylərdə uçarsan.

– Dəri paltar alarsan, dəri əlcək alarsan?

– Hamısını alaram. Vaxtında...

■ ■ ■

Məktəbdə kiçikyaşlı uşaqların konserti idi. Birinci, ikinci, üçüncü sinfin uşaqlarını hazırlamışdılar. Kimi şeir oxuyacaq, kimi oynayacaq, kimi çalacaq, kimi də artistlik edəcəkdi.

Kimya anasını da gətirmişdi. Anası uşaqların oyununa tamaşa eləyirdi. Hər nömrədən sonra əl çalırdı. Uşaqların bacarığını alqışlayırdı. Bir uşaq – Kərim Babayev "Şamili" oynadı, zaldakılar onu iki dəfə çağırdılar. Alqış, gurultu əlindən qulaq tutulurdu. Kimya düşünürdü ki,



"görəsən, mənə də belə əl çalacaqlarmı? Görəsən, məni də təkrar çağıracaqlarmı?.." Bir şey yadına düşdü, canına bir rahatsızlıq gəldi. Kimya nə üçün narahat idi? Onun çıxışı konsertin ikinci hissəsində olacaqdı. O özü hazırladığı aeroplanı səhnədən uçurdacaqdı. Zaldakıların hamısı başını qaldırıb, uçan və əyrim-üyrüm gedən aeroplana baxacaq, bu işin "ustasına" – səhnədə dayanan Kimyaya əl çalacaqdılar.

Kimyaya elə gəlirdi ki, onun çıxışı hamının xoşuna gələcəkdir. Onu da "Şamili" oynayan oğlan kimi, gurultu ilə alqışlayacaqlar, bir də çağıracaqlar.

"Yaxşı, ikinci kərə gələndə mən nə edəcəyəm? "Şamili" deyil ki, bir də oynayım. Mənə bir dənə də model lazımdır axı!"

Kimya tez səhnənin dalısına qaçdı. Qırmızı bayraqlar və ulduz şəkilləri ilə bəzədiyi aeroplanı əlinə alıb, diqqətlə bir də baxdı. Ürəyindən keçdi, "Ay, ay... Bundan bir dənə də olaydı..."

Gecdi.

Yeni bir model hazırlamağa vaxt çatmazdı. Ayrı əlac tapmaq lazımdı. Kimya anasının yanına qaçdı, müəllimini tapdı. Tələsə-tələsə, kəsmə-kəsmə sözlərlə öz həyəcanını dedi. Anası bir cavab verə bilmədi. Müəllim də güldü.

– Alqışlasalar, bir də çağırsalar, məni uçurdarsan, mən səhnədə olacağam.

Anası güldü, Kimya başa düşmədi:

– Necə yəni, müəllim!

Müəllim Kimyanın qolundan tutub, səhnənin dalına apardı:

– Oxu görüm, aeroplan şərqisini əzbərdən bilirsənmi?

Kimya gözünü səqfə dikib, yavaş səslə oxudu:

*Qızıl quşam, polad quşam havada,*
*Uçuşumdan şahinləri sal yada.*

Müəllim dedi:

– İkinci kərə çağıranda bu şərqini oxuyarsan, ucadan! Yaxşımı!

1939

# MƏNİM PARLAMENTİM

Özümü ideya aləmində, mənəvi həyatda duyuram. Yazdır, saf, sakit, sərin və xoş bir səhər açılır. Üfüqlərdən gənclik, sevinc, mahnı və səadət yağır. Adama elə gəlir ki, varlıq bundan ibarətdir. Gecələr, köhnə dünyanın zülmət deyilən qaranlıqları, fəlakət, işgəncələr sanki heç yoxmuş. Bu səadət səhəri o qədər əngin və işıqlıdır ki, başlanan günəşli gündüzün əbədiliyinə şübhə etmirsən... Kirov parkının təmiz, geniş xiyabanları, əlvan çiçəklikləri, daş pilləkənlərin başında əyləşən tamaşa salonları, oyun, sport meydançaları, uşaq stadionları səhərin qızıl şəfəqləri altında daş-qaşa tutulmuş saraya bənzəyir. Sanki hər şey, kainatın bütün gözəllikləri, zənginlikləri, öz tükənməz qucağını açmış, dünyanı yaradan insanları, əmək qəhrəmanlarını, hər gün burada əylənən və dincələn minlərlə şən oğlan və qızları gözləyir. Budur, fəvvarəli hovuzun kənarında bir dəstə adam əyləşmişdir. Danüzü, səhərin bu oğlan vaxtında parkın bu sakitlik, səssizliyində sulara, sonalara, səhər şüalarına vurulan kim ola?

Onların içində qoca da var, gənc də, kişi də, qadın da. Kimi saqqallıdır, kiminin əlində əsası, kiminin qoltuğunda kitab, kimi gül iyləyir, kimi tamaşa eləyir. Bu müxtəlif boylu, müxtəlif geyimli, müxtəlif yaşlı adamların üzündə də, şəfəqlərdən əks olunmuş kimi, bir işıq, bir mənalı şadlıq, bir sevinc, bir məğrurluq vardır.

Azərbaycanın əzizləri, ədəbiyyatımızın, şeirimizin klassikləri – ədiblər, şairlər – o gözəllik aşiqləri, o həqiqət carçıları xalqımızın böyük, əbədi bir xoşbəxtlik bayramında iştiraka gəlmişlər.

Hamı buradadır. Lakin Məhəmməd Füzuli hələ gəlib çıxmamışdır, hamı onun yolunu gözləyir.

Füzuli əsrlərdən bəri öz doğma vətənindən nigarandı; çünki, onu istilaçı atlarının ayağı altında, xanların, xaqanların təpikləri altında tapdanan, "Seyli-sitəmdən xarab" halda qoyub getmişdi. Füzuli xalqı sarıdan narahatdı, çünki onu paşaların, şahların, əmirlərin, cəlladların əlində əsir, "fələkdən başına daşlar yağan" halda görmüşdü. Onun zəmanəsində "doğruluq əyri qılınc tək yanda qalmışdır", "Alilər xaki məzəllətdə, dənilər mötəbər" idi. "Şeirin bazarı kasad olmuşdu".

Dahi şairin böyük arzularla dolu qəlbi ümidsizliklə, kimsəsizliklə boşalmışdı. Təbindəki, dühasındakı nəhəng qüdrəti ilə zülmə, haqsızlığa üsyan edən şairin səsi boğulmuşdu. Füzuli "dərdi çox, həmdərdi yox, düşməni güclü, taleyi zəbun, dostu bipərva, quruluşu rəhmsiz" görüb "dərd əlindən dağlara çıxmışdı". Həqiqətə susayan tərlan könlündən üzr istəmişdi ki, "bu qəfəsdən mən səni, əlbəttə, azad, eylərəm..."

Lakin nə şahların ölüm gətirən hökmləri, nə ruhanilərin həyasızlığı, nə qorxu, nə aclıq, nə təhqir, nə tənhalıq, nə göz yaşları o böyük insanın məğrur başını əyə bilməmişdi. O, haqsızlıqlarla dolu mühitinə qarşı sinə gərmişdi. "Qəm karvanının başçılığını" boynuna almışdı. "Ahının baltası ilə fələkin bünövrəsini sökmüşdü". "Min dağı bir dırnaqla qoparıb atmışdı". "Çırağının fitilini iliyi ilə yandırmışdı". "Sözü kobud, zatı pis olanlara", "şairi və xalqı həqir sayanlara" qarşı Füzulinin dahi cavabı bu idi:

*Səadəti-əzəli qabili-zəval olmaz,*
*Günəş yer üstünə gər düşsə, payimal olmaz.*

Füzuli deyən düz çıxdı. "Səadət əzəli", xalqın, zəhmətkeşlərin səadət və azadlıq günəşi sönmədi. İyirminci əsrin iyirminci ili muştuluq kimi gəlib çatdı. Qürbətdə intizar çəkən, xalqına yanan Füzulinin arzuları bahar görmüş güllər kimi açılmağa başladı.

Bəşəriyyətin xilaskarları, revolyusiyamızın dahiləri – Lenin, Stalin bütün sovet ölkəsi ilə birlikdə Azərbaycanı istilaçılardan, qaniçənlərdən təmizlədi. Lenin-Stalin bütün sovet xalqı kimi Azərbaycan xalqını əsirlikdən qurtardı, ağ günə çıxartdı. Sovet Azərbaycanının azadlıq, şənlik, xoşbəxtlik günləri, əsl inkişaf günləri başlandı.

Füzulinin və hər bir xalq aşiqinin bundan da böyük bayramı ola bilərmi? Füzuli Bağdadda necə dayansın ki, onun vətəni qardaş Rus xalqının köməyi ilə Şərqdə nümunəvi bir respublika olmuşdur. Füzuli Bağdadda necə dayansın ki, onun vətəni dünyaya səs salmışdır! Şərqin qapısında azadlıq mayakı kimi parlayır! Füzuli adı dillərə düşən vətənini görməyə gəlir.

Şairlər əziz qonağı qarşılamağa tələsirlər.

Nizami ağır bir təmkinlə dayanıb günəşə baxır, Nəbati, Füzulinin hüzurunda oxumaq üçün "görüş" şeri yazır. Sabir bağçada gəzinib tez-tez saata baxır. Vaqif, Vidadi parkı seyr edir. Cəfər Cabbarlı sevincindən dayana bilmir. Dəqiqəbaşı yola qaçıb pilləkənlərdən aşağı baxır, qayıdıb Mirzə Fətəliyə, Molla Nəsrəddinə nə isə deyir, Abbas Səhhət dahi Puşkindən etdiyi tərcümələri oxumaq fikrindədir. Mirzə Fətəli özünün əlifba proyektini Füzuliyə göstərməyə hazırlaşır. Aşıq Ələsgər sazını kökləyir.

■ ■ ■

Cəfər Cabbarlı böyük bir ehtiram və sevinclə Füzulinin əlini sıxır. Onun qoca əllərində bir möhkəmlik, qətilik hiss edir. Onun uzun, nəcib barmaqlarına diqqət edir, fikrinə gəlir ki, "bu barmaqlar sənət üçün yaranmışdır. Bu barmaqlar insan qəlbini çalmaq, onun tükənməz mahnısını səsə salmaq üçün yaranmışdır. Qaranlıq keçmişə, həqiqi sənətin qədrini bilməyənlərə lənət!"

Şairlər, ədiblər Cəfərin dalınca yola düzəlirlər. Cəfər onları Sovet



Azərbaycanının paytaxtını gəzdirir. O, özünəməxsus utancaq bir əda ilə deyir:

– Yoldaşlar, ekskursiyamızın temasını deyim: "Vədə deyil, faktdır!" Bu tema ilə, bu marşrutla gedəcəyik.

Şairlər, ədiblər, "M-1" və "ZİS" maşınlarında gəzirlər. Heyrət və sevinclə Azərbaycan xalqının, revolyusiyamızın yaratdıqlarına baxırlar. Onlar öz ölkəsinin, öz dövlətinin, öz istehsalatının ağası olan fəhlələri şair məhəbbəti ilə öpürlər. Tarla qəhrəmanlarına – bəstilərə, manyalara, miliyonçu kolxozlara mahnılar deyirlər. Hər addımında onları sovet injenerləri, sovet rəssamları, sovet ədibləri, alimlər, pilotlar, kompozitorlar, təşkilatçılar qarşılayırlar. Bir pioner, xalqın sevincini və ruhunu ifadə edən nitqində deyir:

– Biz, Lenin-Stalin əsrinin adamları çox xoşbəxtik. Biz bir də ona görə xoşbəxtik ki, dünyanın, tarixin böyük simalarının yüksək və müqəddəs arzuları, – sosializm arzuları, azadlıq arzuları, bərabərlik arzuları, xoşbəxtlik arzuları, qardaşlıq arzuları, birlik arzuları, sülh arzuları, kultura arzuları, işıqlıq arzuları ancaq bizim əlimizlə, Lenin-Stalin partiyasının əlilə, sovet xalqının əlilə həyata keçdi.

Pioner camaatdakı diqqəti gördü, gənc qəlbində alovlanan sevinc ehtirası ilə səsini ucaltdı:

– Qoy dahi Füzuli Leylisinin Məcnun ilə xoşbəxt həyatını, təmiz eşqin, sədaqətin qələbəsini seyr etsin! Qoy Mirzə Fətəli kultura saraylarını, yeni əlifbasının təntənəsini görsün! Böyük Sabir vaxtilə "bir loğma çörək üçün ağlayan" uşaq əvəzinə minlərlə talantlara, sovet uşaqları üçün yaranan yeni inkişaf dünyasına baxsın! Abbas Səhhət, "qanadı sınmış quşlar" əvəzinə, döşü ulduzlu polad quşlarımızı, qütb fatehlərimizi, paraşütçülərimizi alqışlasın.

Şairlərin, ədiblərin alqış səsi ucaldı, xalq da onlara qoşuldu. Pionerin səsi alqışlar içində itəndə gurultu səsi eşidildi, camaat göyə baxdı. Sabir Vaqifdən soruşdu:

– Ustad şair, bunlar sizin durnalarınızdır, ya Vidadinin?

Vaqif gülümsədi, Cəfər cavab verdi:

– Böyük müəllim, – dedi, – bunlar sizin "hürriyyət qartallarınızdır". Siz həyatınızda böyük bir arzu bəsləmişdiniz. Sizin azadlıq, qurtuluş

əməllərinizi sovet xalqı həqiqətə çevirdi.

Füzuli soruşdu:

– Bu gurultu nədir?

– Bu gün, dedilər, ümumxalq bayramıdır. Bu gün Sovet Azərbaycanının birinci parlamenti açılır. Xalq Stalinin şərəfinə nümayişə çıxır. Bu gün böyükdən-kiçiyə hamının bayramıdır.

Şairlər, ədiblər nə dindilər, nə danışdılar, tribunaya qalxdılar. Onlar – əsrlərcə bəslədikləri arzuların həqiqət olduğunu görən adamlar, ömürlərini köhnə dünyanın zülm və işgəncəsi altında keçirən adamlar, qanadlanmış quş kimi fərəhdən uçurdular. Onlar tribunadan danışmaq, öz səslərini böyük Stalinə verdiklərini bildirmək, xalqın tükənməz sevinc bayramına şərik olmaq istəyirdilər.

Füzuli əlini qaldırmışdı. Sanki danışmaq üçün sükut arzulayırdı. Alqış səsləri isə susmurdu.

Bu halda Füzuliyə teleqramma gətirdilər. Bağdaddandı, "təcili qayıtmasını" tələb edirdilər.

Böyük şair qaşlarının altında dərinləşmiş gözlərini teleqrammaya dikdi, iti, mənalı baxışı ilə bir müddət baxdı, üzünü katibinə çevirib dedi:

– Cavab yaz! Yaz ki, mən qayıdası olmadım. Vətənim qəm-qüssədən qurtulmuşdur. Mənim azad Sovet parlamentim açılır. Mən vətənimin ağ günlərində, azad xalqımın dil açmış tutisi, gülünə çatmış bülbülü olub, xalqıma nəğmələr ötəcəyəm. Mən qayıtmayacağam.

*1939*



# KƏMTƏROVLAR AİLƏSİ

*Hörmətli ədibimiz Ə.Haqverdiyevə*

## I

–Yallah, yallah! Haradasan? Kefin necədir?

– Sən nə təhərsən?

– Göz dəyməsin, qıvraqlaşmısan, rəngin açılıb.

– Bir qıvraqlığım yoxdu. İşdən baş açıram ki.

– Neyləyək ki, bir görüşək?

– Bu vıxodnoy zanitəm. Gələn vıxodnoy bəlkə...

– Sən evdə olacaqsan?

– Söz versən, gözlərəm.

– Gözlə, birtəhər eləyib gələrəm.

Bir-birinin əlini hərarətlə sıxan, əhvallaşan bu aziz dostlar, görəsən, kimdir? Desəm, onların ikisi də bir şəhərdə yaşayır, inanmayacaqsı-

nız... Desəm onlar bir evdə yaşayırlar, heç inanmayacaqsınız. "Necə ola bilər ki, bir yerdə yaşayasan, bir-birindən xəbərsiz olasan?"– deyəcəksiniz. Desəm, onlar ər-arvaddırlar, təəccüb edib deyəcəksiniz: "Nə danışır bu!"

Nəyə deyirsiniz, and içim ki, belədir: Qulam Kəmtərovla arvadı Leylanın həyatı belədir. Deyəcəksiniz, yəqin, Kəmtərovla Leyla keçmişdə, bir zaman ər-arvad olublar, sonradan xasiyyətləri tutmayıb, ayrılıblar, bir yerdə yaşamaları da mənzilsizlik bəlasıdır. Xeyr, sizin bu gümanınız da düz deyil. Nə Kəmtərov Leylanı boşayıb, nə Leyla Kəmtərovdan boşanıb. Əgər günü bu gün mənzil idarəsinin müdiri Kəmtərovu, ya Leylanı çağırıb, üçüncü qatda dörd otaqdan ibarət bir qurulu mənzilin açarını verə, təklif edə ki, biriniz köhnə mənzildə qalın, biriniz köçün, heç biri köçməz. Birbaş qayıdıb, öz evlərinə gələrlər. Mənzil idarəsinin də zəhməti hədər gedər.

Məsələ bunda deyil.

Bəs nədədir?

Kəmtərovu sizə tanıtmaq üçün gərək bir az vaxtınızı alam.

Kəmtərov Qulamla Leyla, bayaq dediyim kimi, ər-arvaddırlar. Özü də "xala-xatirin qalmasın" yox. Lap istəkli, şairlər demişkən, aşiq-məşuqdurlar. Cəmi iki il olmaz ki, toy ediblər. Asanlıqla da toy etməyiblər. Leyla Qulamın ucundan bir il ata-anası ilə küsülü qalıb. Qulam Leylanın uğrunda İçərişəhərdə bıçaqlanıb, qulağının dibində yaranın yeri indi də durur və ölənəcən duracaq.

Qış da onları bir-birindən soyuda bilməz. Qulamın şorgöz oğlanlardan acığı gəlir. Leyla da könlü-gözü tox qızdır. Yer üzündə Qulamdan başqa kişi olduğuna inanmaz.

Bəs bu istəklilər niyə belə çətin görüşür, az-az görüşürlər? Mümkün deyil ki, ər-arvad olasan, istəkli olasan, bir evdə yaşayasan, həftə ilə görüşməyəsən. Ürəyinizə şübhə gələ bilər: "Bəlkə açıq deyilməsi ayıb olan səbəblər üçün görüşməyə ehtiyac duymurlar."

Yox, heç yox!

Onu da bilin ki, nə Qulamın, nə Leylanın qulluğu uzaq – kənar-guşə yerdə və ya namünasib qulluq deyil. İkisi də şəhərdə çalışır. Onların qulluğunda olan minlərlə qız, oğlan, ər, arvad, qəşəngcə yaşayır, günün



çoxunu evdə öz külfətləri ilə olurlar.

Bəs bizim qəhrəmanların azarı nədir?

Bu, bir az köhnədən qalma azardır.

Başdan danışaq. Deyə bilərəm, dünyada beş nəfər arvadını sevən varsa, biri Qulam Kəmtərovdur. Kəmtərovun nə eşqlə, nə sevda, nə həvəslə toy edib, Leylanı evinə gətirdiyini qələm yazmaqdan acizdir. Ona elə gəlirdi ki, dünyanın bütün naz-neməti, kef və ləzzəti Leylanın üzündə cəmlənmişdir. Leylanı alsa, həyatda bir arzu-kamı qalmayacaq, tamam xoşbəxt olacaq.

Kəmtərov düşünürdü ki: "Bu mənim ən ağır və ən son çətinliyimdir. Toy dəsgahını tamam-kamal düzəldib, xeyir işimi başa versəm, daha ömür-billah arxayın olaram. Sonra bir tikə yavan çörək də tapsam, sevgilimlə qabaq-qabağa əyləşib, ağız ləzzəti, iştaha ilə yeyərəm".

Ancaq, necə deyərlər, insanın gözünü torpaqdan savay heç nə doyurmaz. Kəmtərov xeyir işini bitirəndən, dünyada ən böyük arzusuna çatandan sonra bir də gördü ki, xeyr, indi də ürəyi yeni-yeni şeylər istəyir. Könlü min bir eşqə düşür. Haradansa, baharda bitki kimi göyərib baş verən arzu və ehtiyaclar kişini məşğul etməyə başladı. Dünya gör-götür dünyasıdır.

Leyla görürdü ki, artist Əyyubun arvadı barmağında cüt-cüt brilyant üzük, qulağında bahalı sırğa qırğı kimi gəzir. Görürdü ki, qıyıq Ələkbərin üçmərtəbə evinə hamballar piano çıxarır, qoz ağacından düzəlmə mebel daşınır, bədənnüma güzgü, Varşava çarpayısı, Quba xalçası gəlir. Leyla bunların hamısını görürdü və Kəmtərova danışırdı. Kəmtərov qaşlarını çatır, başını tərpədib arvadını inandırırdı:

– Bilirsən, nə var, Leylacan, biz gərək işləyək! İşləyək. Lap möhkəmcə işləyək! Mənim də qeyrətim qəbul eləməz. Qıyıq Ələkbərin nəyi məndən artıqdır? Özümüzü oda-közə vursaq da, gərək bir dəsgahlı ev-eşik düzəldək. Qonşular baxsın, yana-yana qalsın.

Leyla ərinin məsləhətindən çıxan deyildi. Təki pul olsun...

Kəmtərov əvvəlcə Leylaya bir iş soraqlaşdı. Leyla qızlığında maşinistkalıq etmişdi. Bu sənəti pis bilmirdi. Kəmtərov arvadına iki yerdə iş tapdı: Azərittifaqda və Ünvanlar bürosunda. Bir çox götür-qoydan sonra hələlik, rast gəlmişkən, hər iki yeri əldə saxlamağı məsləhət bildilər.

Azərittifaqda iş səhər səkkizdən dördə qədər, Ünvanlar bürosunda axşam saat beşdən on birə qədər idi. Leyla iki növbə ilə işləməyə razı oldu. Kəmtərov onu ev işindən, sil-süpürdən tamam azad etdi.

Leyladan arxayın olandan sonra Kəmtərov özünün boş vaxtlarını "doldurmağa" başladı. Kəmtərov zirək və savadlı adam idi. İş tapmaq onun üçün su içmək kimi, asan bir şey idi. Özü nəşriyyatda tərcüməçi idi. Səhər saat ondan gedib, altıda çıxırdı. Bir saat dincini alandan sonra, yəni saat səkkizdən on ikiyədək layihə idarəsində olurdu. Fikirləşib gördü ki, iki növbədə işləsə də, arada yenə boş vaxtı var: "Səhər saat onadək yatmaq bu zəmanənin adamına, xüsusən "roskoşni" güzəran qurmaq istəyən bir abırlı kişiyə heç yaraşmaz. Yarım, ya bir növbə işi rahat apara bilərəm. Beş-altı yüz manat alsam, əlimi qaraltmaz ki..."

Kəmtərov daha bir yeni iş tapdı. Gecə saat on ikidən dördədək "İşıq" mətbəəsində korrektor vəzifəsi var idi. Ayın səkkizindən Qulam mətbəədə yeni əlavə qulluğa düzəldi.

Bu gün Kəmtərov toy gecəsindəkindən az sevinməmişdi. Haqq-hesaba vurub gördü ki, özünün üç qulluğunu, Leylanın iki qulluğunu, bir az da "o yan-bu yandan" gələn əl xərcliyini yığıb-yığışdıranda bir neçə minə çıxır. İki-üç il belə getsə, çervonu yığıb-yığışdırmaq olmaz. Di qoy Ələkbər gəlsin, qıyıq gözü ilə gətir-götürümüzə baxsın!

## II

Payızın soyuq günlərində ağzından buğ çıxa-çıxa Kommunist küçəsilə başaşağı yeyin gedən boz paltolu adamı kim görməmişdir? Onun üzündən, gözündən, baxışından, yerişindən tələsmək yağır. Elə gedir ki, deyərsən: yerə dəysə, min parça olar. Sürtülməkdən rəngi dəyişmiş köhnə və "hamilə" portfelini bu qoltuğundan o birinə verir, gah əlini cibinə qoyur, gah damağındakı papirosu barmaqları arasına alıb sıxır, gah çəkməsinin sallanan bağına baxır, məna vermir, daha da yeyinləyir. Bəzən görürsən, Kəmtərov qopdu, nə qopdu! Tramvay sürətlə ötdüyü halda quş kimi atılıb minir, milis ağzını açmamış çıxardıb bir üçlük verir, qəbz almaq istəmir. Uzaq tanışlarına bir işarə ilə salam verir. Yaxın tanışlarını görür, görməzliyə vurur. "Müftə yerə niyə vaxt itsin?" Vaxt alan hər bir əyləncə Kəmtərovun düşmənidir. Onu ictimai yerlərdə görməzsən. İş yerində ancaq vacib, ad yoxlanan iclaslara gələr, adını qeyd etdirib, xəyal kimi gözdən itər. Teatr, kinolar barədə yoldaşlardan eşitdiyilə kifayətlənər.

Bəzi yazıçılarla şəxsən tanış olduğundan, əsər oxumağa ehtiyac duymaz. Qohum-əqrəbası rayondadır. Buradakılar isə Kəmtərovun ünvanını ələ keçirə bilmirlər. Kəmtərovun şəxsi, ictimai həyatı beləcə öz qaydasındadır.

O, ailədə daha ciddi, daha səliqəlidir. Bir adam onun evindən səs-küy, qalmaqal eşitməyib. Qapı açıq olanda olur, olmayanda girvənkəlik qıfıl qarovul çəkir, evə quş səkmir. Kəmtərov səhər saat onda yuxudan qalxır. Deyəcəksiniz, onda işə gedən adam, heç olmasa, bir saat tez durmalıdır. Doğrudur, durmalıdır, amma unutmayın ki, yazıq Qulam mətbəədən, təshih işindən tez qayıdanda gecə saat dörddə, beşin yarısında qayıdır. Necə qayıtdığından özünün də xəbəri olmur. Qəzetin axır səhifələrini mürgüləyə-mürgüləyə, alnı tıqqıltı ilə stola dəyə-dəyə oxuyur. Birtəhər özünü evə salır, çul kimi düşür.

Qulam olmasın, siz olun, saat doqquzda dura bilərsinizmi?

Kəmtərovun səslənən bir stol saatı var. Qulağının dibində qoyur. Vaxta on dəqiqə qalmış saat qışqırır. Kəmtərov dəli kimi yuxudan qalxır, tələm-tələsik geyinir, qapını bağlayıb qaçır.

Leylanın da işi Qulamınkından əskik deyildi.

Atalar deyib: "Arvad ərinə oxşayar." Xülasə, baş elə qarışmışdı ki, Qulamın Leyladan, Leylanın Qulamdan xəbəri olmurdu. Qulam gecə mətbəədən qayıdanda sevgilisini yatmış görürdü. Leyla səhər işə gedəndə Qulamı şirin yuxuda qoyub gedirdi. Vacib sözü olanda balaca kağız yazıb, stolun üstünə qoyurdu: "Qulam, qayğanaq bişirəsi olsan, yumurta bufetin alt gözündədir, yağ da taxçada."

Qulam da gedəndə Leyla üçün kağız qoyub gedirdi. Onların arasında əməlli-başlı bir məktublaşma var idi. Ancaq markasız, poçtalyonsuz ötüşürdülər.

Leylanın məktubları bu məzmunda idi: "Dəyişəklərini tiyanın içinə tulla, paltaryuyana göndərəcəyəm!" "Açarı asma. Çarhovuzun üstündəki kərpicin altına qoy, görən olmasın". "Redaksiyadan dalınca gəl-

mişdilər, zəng vur."

Qulamın məktublarından ələ keçən bunlardır: "Qadası, mənim soyuz kitabçamı görməmisən? Tapsan, stolun yeşiyinə qoy", "Maşinkada yazmağa vaxtın olsa, bizim idarədə xaltura var, gətirim", "Adama cavab niyə yazmırsan? Dediyim məsələ necə oldu?"

Bu qısa və gündəlik məktublar Kəmtərovlar ailəsində yeganə və əsas münasibət idi.

Qulamla Leylanın sevgi və məhəbbəti bu məktubların qara, dolaşıq, tələsik xətlərindən keçirdi. İnsan hər şeyə alışarmış! Bu sevgili ər-arvad qurduqları yeni yaşayışa elə öyrənmişdilər ki, "köhnə" həyatı tamam unutmuşdular. Onlar indi belə güman edirdilər ki, dəm-dəsgahlı ev qurmaq istəyənlərin, oxumuşluğun, qarşılıqlı sevgi ilə qurulmuş ailənin qaydası belədir ki, var.

Doğrudur, Leyla yazırdı ki: "Açarı kərpicin altına qoy, görən olmasın", Qulam da çalışırdı ki, istəklisinin tapşırığını yerinə yetirsin, amma olacağa çarə yoxdur, açarı görən olmuşdu...

Bir Sarıköynək qadının hər gün saat ondan, Qulam gedəndən sonra gəlib, qayda ilə kərpicin altından açarı götürdüyünü, öz evi kimi Kəmtərovların otağını açdığını və tərtəmiz silib-süpürdükdən sonra çıxıb getdiyini qonşular görmüşdülər. Onları şübhədən çıxarmaq üçün Sarıköynək qadın deyərdi: "Mənə özləri tapşırıb, bacılar,ürəyinizə bir şey gəlməsin."

Dili dinc durmayan qonşu qadınlardan biri Sarıköynək qadının gəlib-getdiyini Qulama dedi. Qulam güman etdi ki, Leylanın gətirdiyi qulluqçu qadın olacaq. Leyla da düşünürdü ki, Sarıköynək qadını Qulam çağırıb, səliqə-sahman üçün çağırıb. Eşidən kimi, qonşuya sualı bu oldu:

– Cavandı, ya qoca?

– Ahıl adamdır, bir nazik...

Leyla Qulamın pis niyyətə düşmədiyini bilib, arxayın oldu. Daha bu barədə söhbəti artıq sayıb, qapıdan çıxdı.

Bu günlərdə belə məktublar yazılırdı: "Mənim ipək paltarımı hara qoymusan?" "Zayomları tapa bilmədim. Çıxart yoxlayaq, yeni uduş var." "Gümüş qaşıqlar hardadır?" "Dünən bir qadının başında, lap səninkinə oxşar bir şal gördüm. Az qalmışdım səni dəyişik salam".



Sarıköynək qadın isə öz işində idi. Hər gün gəlib evi süpürür, zəhmət haqqı üçün də ağlı kəsən, evdə gözə dəyən şeylərdən birini sarı köynəyinin altına vurub, soldat bazarına aparırdı. O, Qulamın da, Leylanın da iş-peşəsini, üst-alt paltarlarını, qulluq vaxtlarını yaxşıca öyrənmişdi. Odur ki, evə çox arxayın gəlib-gedirdi. Hətta bir dəfə "köhnə paltar alan" pullu müştərilərdən bir-ikisini özü ilə lap evə gətirmişdi. Qulamın bufetindəki şüşələrdən pivə töküb, bir-birinin sağlığına və bu pivəni bazardan alıb gətirənin sağlığına içmişdilər. Sonra yük yerindən yorğanlardan soyduqları ipəyi, çarpayı xalçasını, sandıq şeylərindən dəyərlisini ortaya töküb sövdələşmişdilər.

Pullu müştərilərlə yollaşandan, çervonları alıb yerbəyer edəndən sonra Sarıköynək qadın Qulamın məscidə dönmüş evinə baxıb, ürəyində demişdi: "Yox, balam, daha mən bir də bura nə üzlə gələ bilərəm!.. Həmişəlik xudahafiz!"

## III

– De görüm, bir korrektor kimi səhifəni oxuyub qol çəkmisən, ya yox?

– Bu nə sözdü, yoldaş redaktor? Siz məni o qədər məsuliyyətsiz sayırsınız ki, guya oxumamış da qol çəkərəm?

– Demək, oxumusunuz?

– Əlbəttə, özü də kəlmə-kəlmə!

– Bəs bu nədir: "işləyirlər" əvəzinə "dişləyirlər" gedib?

Qulam qəzetin o yerinə diqqətlə baxdı. Ciddi vəziyyətini pozub dedi:

– Bu heç, buna səhv deməzlər! Gözdən qaçıb, yoldaş redaktor. Bir də, işləyib, dişləyib, ikisi də bir sözdür. Yəni düz gəlir. Bizim qaydamıza lap tuş gəlir ki, işləyən dişləyər, işləməyən dişləməz!

Redaktor qəzeti çəkib Qulamın əlindən aldı:

– Neçə yerdə işləyirsən?

Qulam dik-dik baxdı:

– Bunun məsələyə nə dəxli var?

– Soruşuram, neçə yerdə işləyirsən?

– Cəmisi bir-iki...
– Nəşriyyatda çalışırsan?
– O heç... səhərdi o.
– Layihə idarəsi necə?
– Cəmisi bir altı saat.
– Zaqotzernoda necə?
– Yoldaş redaktor, o zdelnidir!
Redaktor hirsləndi:
– Yaraşarmı sizə, yaraşarmı bu qədər yerdə...
– Yaraşmasın o adamlara ki, işləmirlər. Biz ki, gecə-gündüz çalışırıq, tər tökürük, bu da mükafatımızdırmı?
Redaktor ayağa qalxdı:
– Sizin bugünkü səhvinizin üstündən keçmək olar. Saydığım yerlərdən azad olunmasanız, sabah işə buraxılmayacaqsınız. Yorğun başla, üzgün zehinlə mətbuat işinə xeyir vermək olmaz!
Qulam qalxıb ətəklərini tovlaya-tovlaya, fikir içində yeni və pullu qulluq xəyalı ilə evə gəldi.
O axşam Leylanın da gözünə yuxu getmədi. Pambıq kimi atım-atım edilmiş evdə əli qoynunda oturub Qulamı gözlədi. Ürəyinə min cür fikir gəlirdi: "Bu nə işdir! Yoxsa Qulam özgə bir arvad alıb, mənə kələk gəlmək istəyir? Yoxsa şeyləri yarı bölüb, öz payını aparmaq istəyir? Bəlkə də heç bu zalım oğlu işləmir, bəlkə də vaxtını restoranlarda keçirir? Var-yoxunu şəraba, qumara qoyur?.. İnsanı nə tanımaq olar!"
Gecə də orucluq ayı kimi uzanırdı. Leyla gah durub yük yerini töküşdürür, anasının cehiz verdiyi ipək yorğanı, xalçanı axtarır, şaraqqıltı ilə bufetin gözlərini açıb, örtür, işıldayan hər şeyi götürüb diqqətlə baxır, gümüş qaşıqların itdiyinə inana bilmirdi.
Aləm yıxılıb yatdı. Radio susdu. Tramvaylar dayandı. Xoruzlar bir ağız səsləndi. Haçandan-haçana birdən həyətdə ayaq səsi eşidildi. Qulam içəri girib, Leylanı əli qoynunda, məyus oturmuş görəndə əvvəl bir duruxdu, soruşmaq istədi ki: "Əzizim, niyə bu zamanacan yatmamısan?"
Gözü evin ortasına tökülmüş şeylərə sataşdı.
Leyla macal vermədi. Sökülmüş pərdələri, tökülmüş yükü iki əli ilə göstərib dedi:



– Bu nədir? Bu nə hərrac bazarıdır?
Qulamın dili dolaşdı:
– Necə bəyəm, nə gedib?
– Mənim cer-cehizim hanı? Hanı mənim ev-eşiyim, paltarlarım, ata-ana yadigarlarım?..
Bunu deyib Leyla hönkür-hönkür ağladı. Qulamın rəngi saraldı.
– Bəs kim açıb bu qapını? – deyə təəccüblə soruşdu. Onların səsinə qonşular çıxdılar.
Sarıköynək qadından kim nə bilirdisə, dedi. Leyla bir tərəfdə yıxılıb, hissiz qaldı. Qulam qonşulardan iki nəfər şahid götürüb, milis idarəsinə yollandı.
O, sinəsindən ah qopa-qopa, ürəyində peşmançılıq qaynaya-qaynaya gedirdi. Ancaq bilmirdi, kimdən şikayət etsin. Sarıköynək qadındanmı, qonşularındanmı, yoxsa özünün dəm-dəsgah hərisliyindənmi?!

*1939*

# QONAQPƏRƏST

*Ən yaxşı müalicə xəstələnməməyə çalışmaqdır.*

Həkim hekayələri, bir müddət həkimlik etdikdən sonra sənətindən əl çəkən bir tanışımın xatirələrindəndir. Burada xoşagələn nə varsa, o kişininkidir. Ancaq əl zəhməti ədibindir. Yazının yaraşıqsızlığı üçün ədibi töhmətləndirmək lazımdır.

Yəqin, bu hekayələr çap olunmuş bir şəkildə xatirə sahibinin özünə də çatacaqdır. Eşitdiyimə görə, o, indi rayonların birində bağça mürəbbisidir, boş vaxtı var, oxuyar.

Xahişimiz budur ki, "Qonaqpərəst", "Dost görüşü" və "Vicdan əzabı" hekayələrindən alınan təsir haqqında arada-bərədə danışılmasın. Əl boyda bir məktubla müəllifin özünə bildirilsin. Deyirlər, xarici restoranlarda belə yazılar var: "Xörəyin yaxşılığını hamıya de, pisliyini isə ancaq restorançıya de." Biz isə belə şərtləşək: yazının pisliyini də, yaxşılığını da hamıdan əvvəl yazanın özünə deyək.





■ ■ ■

Bağban Nəsibin evinə ilk dəfə yazda, sular bulananda onun altıyaşlı qızını müayinəyə getmişdim. O zaman mən cavan və təcrübəsiz bir həkim idim. Buna baxmayaraq, çox iddialı idim. Naşılığımı hiss etdirməz, özümü yuxarı pillələrdə saxlardım. Bu, şübhəsiz ki, az bilməyin, daha doğrusu, uşaqlıq qalıqlarının əlaməti idi, sonralar qızğın həyat günəşinin təsirilə yaz qarı kimi əriyib getdi. Lakin bunun başqa, xeyirli bir cəhətini də görürdük. Bu iddiaya münasib, mən rəftarımda tamam bişmiş, təcrübə görmüş təmkinli bir həkim görünməyə çalışırdım. Evlərə çağırılanda başıma panama qoyur, təkatlı bir fayton kirayə edirdim. Evə girən kimi, panamamı və paltomu çıxarırdım. Xəstə yatan otağa keçməmiş ahəstə öskürüb, xəbərdarlıq edirdim. Mehriban bir səslə deyilən "buyur" sözünü eşitməkdən həzz alırdım. Ev sahibi əl-ayağa düşür, stul çəkir, kağız, qələm hazırlayırdı. Mən ağzımı açanda hamılıqca susur, diqqətlə qulaq asırdılar. Ürəyimdə deyirdim: "Nə olaydı, bütün insanlar ya bu evin sahibi kimi mehriban, ya da mənim kimi həkim olaydılar!" Xəstənin nəbzini, ürəyini, ciyərini yoxlayır, dilinə, boğazına baxır, dərman yazırdım. Evdən çıxanda min bir razılıq eşidirdim. Doğrusu, bilmirdim, camaat təkcə mənəmi, yoxsa bütün həkimlərə belə hörmət edir. Uşaq vaxtımda bizim evimizə həkim ayağı dəyməmişdi. Müalicə haqqında ancaq nağıllar eşitmişdim. Eşitmişdim ki, gün girən evə həkim girməz. Amma bizim evə nə gün girərdi, nə də həkim.

Mətləbə qayıdaq. Nəsib kişinin balaca və xəstə qızı mətbəxə oxşayan dar bir daxmada, taxtın üstündə quru bir əl ağacı kimi uzanmışdı. Qızdırma uşağın zərif vücudunu bir bəla kimi bürümüşdü. Qız gündəngünə quruyurdu. Taqətsizlikdən nəfəs alırdı, verə bilmirdi, verirdi, ala bilmirdi: onun üzündə həyat sönürdü. Yalnız nigaran və yalvarıcı bir baxış oxunan, hər kəsdən kömək gözləyən iri qoşa gözlərində hərəkət vardı.

Dava-dərman yazmaq istədikdə atası qolumdan tutub eşiyə tərəf çəkdi. Həyətin sağ tərəfindən bir neçə pillə çıxıb, fərş döşənmiş gözəl və bəzəkli bir otağa girdik. Yazı stolu və lampa var idi. Mürəkkəb, qələm hazır idi. Oturdum, dərman yazdım. Xəstənin işıqlı, havalı, təmiz bir

otaqda saxlanmasını məsləhət gördüm, pəhriz tapşırıb çıxdım.

Bir də o qızın üzünü görmək mənə qismət olmadı. Sabahısı nə iş üçünsə uzaq yerə getdim. Nəsibin qızının, eləcə də başqa xəstələrimin müalicəsindən xəbər tuta bilmədim.

İki, ya iki il yarım sonra, payız vaxtı Nəsibin evinə bir də yolum düşdü. Həmin daxmada, həmin taxtın üstündə dörd-beş yaşlı bir oğlan uşağı yatırdı. Onun rəngi soluxmuş, dil-dodağı qurumuşdu. İshaldan yatırdı. Atasının dediyinə görə, məni evdə tapa bilməyib, bir neçə başqa həkim çağırıblar, xəstə çox dərman içib, ancaq xeyrini görməyib. Mən reseptlərə baxdım. Xəstənin yastığı yanında bir tərəfi çürük nar gördüm.

– Onun, – dedim, – təmizini, yaxşısını tapın, sıxın, suyunu içsin.

Dərman yazmaq üçün yenə yuxarı, qonaq otağına çıxdıq. Dərman yazdım. Nədənsə ilk gəlişim və qızdırmalı uşaq yadıma dişdü, soruşdum:

– Qızın kefi necədir?

Nəsib kişi başını aşağı saldı, sinəsindən soyuq bir ah qopdu. Məyus bir dillə dedi:

– Ömrünü sizə bağışladı.

Soruşduğuma peşman oldum, xəcalətimdən qızardım. Mən əvvəl güman edirdim ki, Nəsib kişi məndən razıdır. Qızını yaxşı müalicə etdiyim üçün indi də məni çağırır. Zənnim tamam dəyişdi. Mənə elə gəldi ki, bu kişi qəsdən məni çağırır, utandırmağa, qızartmağa çağırır. "Ömrünü sizə bağışladı", – deməklə Nəsib kişi, deyəsən, mənə, mənim müalicəmə gülürdü...

Məni daha artıq incidən o balaca qız, açılmadan solan qönçə idi. O, nə üçün ölsün? O, yaşamalı idi. Yaşasa idi, bu ailənin şənliyi pozulmazdı. Məktəblərdə oxuyar, gələcəkdə xalqımıza xeyir verən yüz minlərdən biri olardı. Bəlkə də yeni, ziyalı bir ana, nümunəvi bir tərbiyəçi olardı. Yaşasaydı, mənim də başım aşağı, dilim gödək olmazdı. Ölüm nə qədər vəhşi və amansızdır!

Bu təsirlərlə o qədər pozulmuşdum ki, iki sətirlik resepti yaza bilmirdim. Qalxdım, ayaqüstü bir-iki kəlmə təsəlli sözü deyib getmək istədim. Nəsib kişi mane oldu.

Bir də gördüm, qapının hər iki tayı açıldı. Məcməyi dolusu meyvə



gəldi. Boşqablara böyük, saf, şirin narlar, sarı armud, üzüm qalanmışdı.

– Zəhmət çəkin, yeyin, – dedi, – doktor, öz bağımızın məhsuludur.

Narın birini kəsdim. Zoğal kimi iri, əqiq kimi duru giləlari var idi. Belə meyvələrdə təbiətin həyat və səhhət gətirən şirəsindən, sağlamlıqdan başqa bir şey aramaq nahaqdır.

– Nəsib əmi, – dedim, – əcəb nardır. Bunun suyundan uşaqlara içirdin, xeyir eləyər.

– Doktor, – dedi, – kəsin yeyin, onlar üçün tapılar. Bunlar sizin kimi əziz qonaqlar üçündür.

Bir az söhbətdən sonra getmək istədim. Nəsib kişi yenə əl çəkmədi.

– Nahar vaxtıdır, – dedi, – sizi hara buraxıram! Meyvə ilə başınızı məşğul edirdim. Əyləşin, yaxşı yarpaq dolmamız var, əyləşin!

Çox çəkmədi, Nəsib kişinin böyük oğlu süfrə açdı, çörək gətirdi. Biz yeməyə məşğul olduq. Oğlan ayaqüstə dayanıb nəyi isə gözləyirdi. Mən onu süfrəyə çağırdım. Atası gözünü necə ağartdısa, oğlan tez əkildi.

– Bu heç yaxşı olmadı, – dedim. – Gərək İmran oturub bizimlə nahar eləyəydi.

Nəsib kişi həm əli, həm də başı ilə "yox" işarəsi verib dedi:

– Doktor, böyüyün böyük yeri var, kiçiyin kiçik. Onlar çardağın altında yeyərlər.

– Burada yesə, nə olar?

– Yox, hər şeyin qaydası var. Bura qonaq otağıdır. Qonağın qonaq yeri var, qaranın qara. Uşaqlara sən deyən kimi, vol versəm, iki gündə bu evlər samanlığa dönər. Gəlib-gedən olur. Dost var, düşmən var. Səliqə-sahman yaxşı şeydir axı, doktor. Beş adam gələndə, heç olmasa, bir təmizlik görsün.

■ ■ ■

Üçüncü dəfə Nəsib kişinin evinə qışda getmişdim. Böyük oğlu İmran revmatizmdən yatırdı, qılçalarının ağrısından yata bilmirdi. Tanış daxmaya girməmiş ev sahibi qabağımı kəsdi:

– Ay doktor, – dedi, – amanın bir günüdür, İmrana çarə! Gedənin

qılçaları açılmır. Bir addım ata bilmir.

Mən dinmədim, xəstəyə baxmağa başladım. Kişi sözü və xahişi ilə mənə təsir etdiyini və ya nəyi isə düşündü, davam etdi:

– Doktor, bilmirəm, nə bədbəxtlikdir, məni basıb. Yeddi uşaqdan üçünü basdırmışam. Dördü də belə. Ölmə-diril, yarımayaq dolanır. Həkim bundan artıq olmaz, dava-dərman bundan çox olmaz. Sizin kimi, handa bir təbiblərin qədəmi buradan əskik olmur, aptekləri uşaqların qarnına boşaldıram. Lap bahalı dərmanlar yazdırıb alıram, olmur ki, olmur. Uşaqlar gündən-günə saralırlar. Mat-məəttəl qalmışam ki, bu nə bəladır, nəzərdir, gözdür, afatdır, vurğundur, qarğışdır, nədir, bilmirəm! Nədisə, məni tutub, yaman tutub!

İmranın anası da əlini əli üstünə qoyub dayanmışdı. Kişi danışdıqca o da ah-vay edir, köksünü ötürür, yalvarıcı bir dillə mənə nə isə demək istəyirdi, kəlməbaşı ərinin sözünə qüvvət verir, kəsmə-kəsmə danışırdı.

Xəstəni müayinədən sonra ata da, ana da gözlərini mənim dodaqlarıma zilləmişdi. Onlar övladlarının müalicəsindən xeyir xəbər, ümidli bir söz eşitmək istəyirdilər. Bunun üçün hər şeydən keçməyə, vardan-yoxdan çıxmağa hazır idilər.

Mən hirslənmişdim, bilmirdim, nə deyim və necə deyim. Mənim duruxmağıma Nəsib kişi ayrı məna verirdi. Deyəcəyim müalicə tədbirinin, bəlkə də çox pul götürən bahalı bir məsələ olduğunu düşünmüşdü. Əlini sinəsinə qoyub qabağa yeriyir, boynunu əyib ürəkdən deyirdi:

– Doktor, xərcdən, puldan arxayın olun, nə çarə lazımdır buyur, lap dərmanı Moskvada da olsa, aparacağam: de, vardan-yoxdan çıxmağa razıyam, təki İmran oğlum ayağa qalxsın...

Oğlunun adını çəkəndə kişi daha da təsirləndi, boğazını qəhər tutdu, gözü doldu, udqundu, güclə özünü saxlamağa çalışdı və müsibətini gizlədə bilməyən bir səslə davam etdi:

– Ay doktor... bunlarsız mənə güzəran... nəyə lazım! Xiffət məni üzür, doktor!

Mən bir tərəfi hirs, bir tərəfi ərk yolu, onları dalımca çağırdım. Pilləkənləri çıxdım. Təpiklə vurub, döşənmiş qonaq otağının qapısını açdım.



– Bu ev, – dedim, – kimindir?

– Kimin olacaq, ay doktor? Şükür Allaha, özümüzün! Qonaq otağımızdır da, bilmirsiniz?

– O yankı, o çarpayı qoyulan otaq kimindir?

İmranın anası dilləndi:

– Eh, – dedi, – ay doktor, fələyin üzü qara olsun. Arzu-kamımız var axı bizim. Oranı İmranın toyuna, gəlininə saxlamışıq...

Mən ikinci otağın da qapılarını taybatay açdım. Ağ və böyük nikel çarpayının üstündən pərdəni açdım, qırmızı ipəkli yorğan-döşək göründü.

– İmran burada yatsa, nə olar? – dedim.

Nəsib kişi mətləbi anladı. Susdu. Mən davam etdim:

– Qonaq üçün, qonaq üçün... Ay müsəlman oğlu, bağışla məni, sənin övladlarını bir-bir əlindən alan həmin bu niyyətindir, sənin özünsən. Xəstəni Moskvaya aparmaq lazım deyil, ağzına qıfıl vurub, haçana, hansı qonağa saxladığın bu otağa gətirmək lazımdır. Ölən uşaqlar dirilib qəbirdən qalxsalar, sizdəki qonaqpərəstliyə lənət oxuyarlar. Doktorlara təklif etdiyin peşkəşi hamıdan qabaq öz övladlarına qıy, onlara yazığın gəlsin! Narın yaxşısını qonağa, çürüyünü qızına verəndə, qonağı işıqlı otaqda, uşağını qaranlıq daxmada saxlayanda, qonağı ipəklə, oğlunu çul-palazla yatıranda bilmirsənmi ki, axır nəticəsi belə olar?! Sənin bu işlərini bilən həkim bir də bu evə ayaq basa bilərmi? Ayaq basıb nə deyəcək? Qoy övladlarının hesabına əzizlədiyin qonaqlar gəlib sənin İmranını diriltsinlər, ya sənə övlad olsunlar!

Ata və ana məyus, xəcalət, peşmanlıq yağan nəzərlərilə mənə baxırdı, heç biri dinmirdi.

*1940*

# QƏMBƏRQULU

Texnikumun həyatində adam əlindən tərpənmək olmurdu. Bu il yüz iyirmi nəfərin yerinə dörd yüzdən çox ərizə verən var idi. Kimi qəbul komisyonunun qərarını gözləyirdi, kimi tibbi yoxlamadan keçirilməli, kimi anket doldurmalı idi.

Ərizə verənlər sevinc və intizardan yata bilmir, səhər açılan kimi gəlib məktəbin qabağını kəsir, özlərinin işi haqqında hər saat yeni və sevincli bir xəbər eşitmək istəyirdilər.

Direktorun otağı ilə yanaşı, qapısı həyətə açılan balaca otağın divarından kirli elan taxtası asılmışdı. Buraya, kim bilir, il uzunu neçə-neçə əmr və elan yapışdırılıb-qopardılmışdı. Qopardılmış elanların yapışqanlı ucları ağac qabığı kimi quruyub qatlanmış, saralmışdı. Taxtaya yapışdırılan uzun ağ kağızın təzəliyi uzaqdan məlum idi. Bu, imtahana buraxılan və deməli, qəbul komisyonundan keçən yetmiş bir nəfərin siyahısı idi.

Ərizə verən uşaqlar həmin siyahının qabağında saatlarla dayanırdılar. Əvvəlcə hər kəs tələm-tələsik öz familiyasını axtarırdı. Tapanlar



sevincək yoldaşlarını çağırır, onların familiyasını arayırdı. Öz familiyasını tapa bilməyənlər əvvəlcə siyahını başdan aşağı, sonra aşağıdan yuxarı bir-bir oxuyurdu.

... Qısası, götürülən də, götürülməyən də siyahıdan uzaqlaşmırdı. Deyəsən, bu şeylərin hamısı taxtadakı kağızdan asılı imiş.

Direktor isə balkonda bir müəllimlə gəzinirdi. Birdən uşaqlara tərəf diqqətlə baxdı və qayıdıb müəllimdən soruşdu:

– O apaşeli gədə nə gəzir burada? Sonra məktəbə soxular ha! Mən tanıyıram onu, dədəsi cin duası yazırdı.

Müəllim apaşeli oğlana baxdı, direktorun sözünə münasib bir cavab deyə bilmədi:

– Tanımıram.

## I

Direktor yanılmamışdı. Apaşeli oğlan, Qulamın oğlu Fazil idi, rəssamlıq texnikumuna ərizə vermişdi və qəbul da olunmuşdu.

Direktor ikinci kərə onu balkonda görəndə düz tədrisat otağına qayıtdı, müavinini pəncərə qabağına çağırdı, oğlanı göstərib yavaşdan soruşdu:

– Bu nə gəzir, yoxsa ərizə verib?

Tədris müdiri Tağızadə cavab verdi:

– Ərizə də verib, qəbul da olunub.

– Nə danışırsan əşi, necə yəni qəbul olunub?

– Bəli, onu özüm yoxlamışam, əla imtahan verib.

Direktor Tağızadəyə macal vermədi:

– Nə imtahanbazlıqdır, ey evi tikilmiş! Sənin nə danışdığındır? Onun dabbaxda gönünü tanıyıram. Elə adamı texnikuma götürmək olarmı?

Direktor bunu deyib əlini göydə oynatdı, əyri-əyri Tağızadənin üzünə baxdı və küsmüş kimi otaqdan çıxdı. Tağızadə direktoru belə görüb tez şkafı açdı. İş qovluqlarını o yan-bu yan elədi. Fazilin materiallarını çıxarıb gətirdi, bir-bir yoxlamağa başladı.

Əvvəlcə onun ərizəsinə, yaş və sağlamlıq kağızına baxdı. Sonra

komsomol komitəsinin təsdiq etdiyi anketi oxudu. Fazilin atası məsciddə başmaq cütləyən imiş, on səkkizinci ildə ölmüşdü. Uşağı anası böyütmüşdü. Tağızadənin fikrinə gəldi ki, bəlkə direktor bu məsələyə işarə edir. Sonra ürəyində belə mənasız şeyə güldü. Fazilin tərcümeyi-halını oxudu, burada da bir şey görmədi. Tələbənin imtahan qiymətlərinə bir də baxdı, yazı işlərini, çəkdiyi rəsmləri özü bir də nəzərdən keçirdi. Fazil texnikuma layiq adam idi.

Tağızadə direktorun özündən soruşmağı vacib bildi. "Bəlkə, elə bir məsələdir ki, biz bilmirik". Bir də fikirləşirdi ki, ayrı nə məsələ ola bilər, yoxsa xuliqanlıq edən uşaqdır, heç üz-gözünə yaraşmır...

Tağızadə ağzını açmamış direktor soruşdu:

– Nə oldu, o gədəni rədd elədin, ya yox?

– Rədd eləməyə nə var, amma bir səbəbini desəydiniz, yaxşı olardı, mən onun işləri...

– İşləri-zadı lazım deyil. Mən onu tanıyıram, xalis molla oğludur, istismarçı balasıdır!

Tağızadə duruxdu. O, gözləyirdi ki, direktor çox şeylər, doğrudan da Fazili tələbəlikdən məhrum edə bilən səbəblər söyləsin. Lakin direktor mat-mat Tağızadənin üzünə baxırdı. Tağızadə dilləndi:

– Elə bu?

– Bəyəm bu azdır. Molla oğluna sözün nədir?

– Molla oğlu məsələsini mən də bilirəm. Axı oğul ataya cavabdeh deyil. Onu anası böyüdüb.

– Bura bax, xahiş edirəm mənə ictimaiyyət oxumayasan. Adam qurtarıb qəbul eləməyə, elə gərək molla Qulamın oğlunu götürək. Mən ölüm, rədd elə getsin.

Tağızadə çiynini çəkdi:

– Bilmirəm, siz nə üçün kiçik bir şeyə bu qədər əhəmiyyət verirsiniz. O uşağı anası böyütmüşdür. Komsomol təşkilatında tərbiyə...

Direktor stuluna söykənib, sanki mübahisənin uzun sürəcəyini güman etdiyi üçün izahla danışdı:

– Toxum məsələsi var. Toxum xarab olandan sonra ha su ver, nə göyərəcək... Sədi deyir: "kürk zadə kürk şəvəd", yəni: qurd balası qurd olar. Ondan təcrübəni götür, məsələn: qoz içindən fındıq çərdəyi çıxdığını görübsənmi?..



– Axı, bilirsiniz...

Direktor qoymadı Tağızadə fikrini desin:

– Mən ölüm, Tağızadə, onu rədd elə getsin. Sonra içindən qənbərqulu çıxar, nə lazım...

– Axı nə deyim, əla imtahan vermiş adama.

– Deyinən yerimiz yoxdur.

– Deyər, vaxtında qəbul eləməyəydin.

– Sənin günahındır ha. Harada çəlpəşik iş var, elə mənim başımda gərək çatlasın. Mən də yazığam axı. Getsin ayrı məktəbə girsin. Allah xatırına, belə adamlardan məni uzaq elə...

Tağızadə lap məəttəl qalmışdı:

– Belə məsələdən qorxmaq tamam nahaqdır. Yoldaş direktor...

Direktor razı olmadı ki, onun inadına qorxaqlıq adı qoyulsun:

– Qorxuya dəxli yoxdur. Özün oxumuş adamsan, burada sayıqlıq var, burada sinfi mübarizə var, burada...

O, dalısını demədi. Cümləsini yarımçıq qoymaqla öz müavininə demək istəyirdi ki, yəni sizin bilmədiyiniz və sizə deyilə bilməyən çox şeylər var...

Ən axırda direktor ayağa qalxdı, Tağızadəni qapıya qədər yola saldı və bir də tapşırdı:

– Rədd elə getsin, içindən qənbərqulu çıxar.

Direktor Tağızadəyə o qədər də arxayın olmadığından birinci kursun sinifkomunu çağırıb dedi:

– Fazil nəyofdur, o sizin sinifdə apaşeli oğlan, o sinifə buraxılmayacaq, bilin!

■ ■ ■

Tağızadə, doğrudur, direktorun əmrini yerinə yetirməyə məcbur idi, ancaq bilmirdi necə eləsin, nə ad qoyub Fazilin sənədlərini özünə qaytarsın.

Səhərisi dərsdən qabaq Fazili otağına çağırdı. Əyləşdirdi, onun sənədlərinə baxa-baxa danışmağa söz axtarırdı.

Nə desin?

Atasını desə, məsələ gedib böyük yerlərə çata bilər. Sonra direktor bir kənara dursun, bütün məktəbi biabır edərlər. "Yer yoxdur" de-

sə, Fazili inandıra bilməyəcək, çünki yer vardır. Ayrı məktəb məsləhət görsə, yenə səbəbini deməlidir.

Bir də Tağızadənin vicdanı ağrıyırdı. Bütün tələbləri ödəyərək, qayda-qanunla texnikuma qəbul olunan bir gəncin qəlbini qırmaq, onu nahaq yerə qovmaq çox ağır bir cinayət idi. Tağızadə əvvəl qabağındakı kağızlara, sonra Fazilin üzünə baxdı. Dönüb direktorun otağına tərəf nəzər saldı və birdən başını aşağı salıb Fazilə dedi:

– Dur get dərsinə, sonra danışarıq.

İki gün keçdi. Direktor haradansa Fazilin dərsə davam etdiyini bilib hirsləndi. Zəngi basıb Tağızadəni çağırdı:

– Sən nə aciz adamsan, ədə... Haram olsun o pansionun çörəyi... Bir düşmən balasını rədd eləməyi bacarmırsan, bəlkə sabah dünya inqilabında səni səngərə göndərdik, onda nə edərsən?

Tağızadə bilirdi nə üçün çağırılır:

– Yoldaş direktor, narkomatdan zəng edib soruşdular ki, Fazili niyə incidirsiniz...

Direktor dik-dik Tağızadənin üzünə baxdı:

– Doğru deyirlər. Doğru deyirlər. Get-gələ salanda, əlbət ki, inciyər. Bir kəlmə açıq desən, bala, yerimiz yoxdur, çıx get, nə inciyər, nə də sənə zəng eləyən olar. Bilirsən, bir az cəsarət lazımdır.

Direktor burada bir balaca haşiyə çıxdı:

– Cəsarət lazımdır... Mən özüm çox çətin məsələlər həll eləmişəm... Xaç su budkasında növbə olurdu. Yay günü camaat tökülüşürdü, sitro, limonad-filan da azlıq edirdi. Bütün rayon təşkilatları çalışmışdı, növbənin qabağını ala bilməmişdi. Mən yetirən kimi tədbir tökdüm. Deyinən neylədin: vağzal hamballarından ikisini çağırdım, gecə ikən su budkasını sökdürdüm, yerini də süpürtdürüb təmizlətdim. Sabahısı gün isti düşəndə nə budka vardı, nə də su üçün növbə. Heç bilmədim o qədər növbəyə duran adam necə oldu?.. Hansı ki, onları milis ilə qovmaq olmazdı... İndi, a sağolmuş, gərək təşkilatçılıq da bacarasan axı... Bir uşaq nədir onun əlində avara qalmısan... Biz Nikolay kimi zalımı, əjdahanı qovmuşuq, sən molla oğlu Fazilin əlində aciz qalmısan.



## II

Tağızadənin direktora nə cavab verdiyi və nə tədbir işlətdiyini bilmirik. Ancaq bizə məlum olan budur ki, Fazil öz dərsinə davam edir, direktorun gözünə görünməməyə, birtəhər ili başa verməyə çalışırdı. Direktoru hər görəndə qorxusundanmı, acığındanmı qızarır, üzünü yana çevirir, ya çəkilib bir tərəfə gedirdi.

Nə yaxşı ki, bu vəziyyət Fazilin dərsə olan həvəsinə təsir etmirdi. Əksinə, onu daha da ciddi çalışmağa, özünün xeyirli və lazımlı tələbə olduğunu aləmə isbat etməyə çalışırdı. Onun direktora ən yaxşı cavabı da bu olacaqdı.

Semestrin ortalarında texnikumda bir mənzərə çəkmək üçün müsabiqə elan olundu. Cavanlar, yeniyetmələr arasındakı istedadlı, qabiliyyətli gəncləri üzə çıxarmaq, onların tərbiyəsi, inkişafı ilə bərk məşğul olmaq məqsədilə texnikuma bu tapşırığı İncəsənət İşləri İdarəsi vermişdi. Direktor qorxmasa bu tədbirə etiraz edərdi:

“Canım, nə lazım uşaqlar arasına inciklik salmaq, mükafat alan ilə almayanlar arasında sinfi ziddiyyətləri kəskinləşdirmək...” Qərəz, direktorun bu sözləri ürəyində qaldı. İstər-istəməz Tağızadənin və rəsm müəlliminin tutduğu planı qəbul etdi.

Tələbələr arasında müsabiqə elan olundu. Ən yaxşı mənzərə çəkənə min manat mükafat təyin edilmişdi. Əsərlərə beş nəfərlik jüri qiymət verəcək idi.

Müsabiqənin yaxşı tərəflərindən biri də odur ki, əsər sahibləri əvvəlcə bilinmir. Əsərlərə qiymət qoyulur, açıq imzalar yazılan paketlər açılır. Budur, belə paketlərdən təxminən bir əlli dənəsi direktorun stolunun üstündədir. Jüri üzvü Tağızadə də jürinin qərarını yazıb protokolu hazırlamışdır.

Birinci mükafat “Heyran” adlı gözəl bir mənzərəyə təyin edilmişdir. Bu mənzərə müəllifinin kim olduğu hələ bəlli deyildir. Jüri üzvlərinin hamısı intizarla paketlərin açılmasını gözləyirdilər. Direktor isə sanki çox ehtiyatla “bismillah” çəkə-çəkə paketləri açır, adları oxuyur, kənara qoyur.

Birdən o oturduğu yerdə döndü: "Necə?"

Rəngi qaçmış halda, ağzından çıxan bu ixtiyarsız sualdan məlum idi ki, direktor arzu olunmayan bir işə rast gəlib.

– Necə, elə bircə bu qalmışdı...

Direktor bunu deyib əlindəki kağızı ovcunda xışmaladı, yerə çırpdı. Tağızadə dərhal həmin kağızı alıb, qırışığını açdı, güman etdiyini görüb direktorun üzünə baxdı. O, direktora demək istəyirdi: "Bu yaxşı iş deyil ki, siz edirsiniz..."

Direktor ondan qabağa düşdü. Barmağını ona tərəf elə acıqla uzatdı, deyəsən kişinin gözünü tökmək istəyirdi:

– Sənsən vinavat, sən! Gör bir nə oyun açırsan, bir o qalmışdı ki, hökumətin çervonlarını molla, istismarçı balasının cibinə tökək...

Tağızadə belə yerdə direktoru eşitməyə alışmamışdı:

– Sizin hərəkətiniz həmin bu dörd divar arasından kənara çıxsa, yəqin bilin ki, özünüz də məktəbdən kənara çıxmalı olacaqsınız. Ehtimal biz də sizin dalınızca çıxmalı olacağıq... Bəli. Yəqin bilin!

Jüri üzvləri də məsələdən hali oldular: mənzərənin müəllifi Fazildir, direktor ona mükafat verməyə qətiyyən razı deyil.

Üzvlər təkidlə qanunu müdafiə etdilər. Direktor isə əlini stola döyüb deyirdi:

– Sabah, birisigün işin içindən qənbərqulu çıxanda hərəniz bir dərədə olacaqsınız. Mən qoymaram molla balası, zəhmətkeşlərin qanını soran istismarçı balası mükafat alsın. Çox da şəkil çəkib, bu bizim məktəbin böyük səhvidir ki, o, şəkil çəkib...

## III

Son dərsin ortasında tələbələr təşkilatının sədri müəllim otağında oturub bir portfelli oğlanın suallarına cavab verirdi. Tağızadə isə siniflərə elan edirdi ki, dərsdən çıxan kimi kluba yığılın... Məktəb klubu ağzınatan doldu. Tələbələr, müəllimlər intizarla iclasın açılmasını, "Kommunist" qəzeti nümayəndəsinin çıxışını gözləyirdilər.

İclası Tağızadə açdı. Məktəbə girəndən indiyə qədər Fazilin başına gələn tarixçəni söylədi. Ondan sonra danışanlar bu tarixçəni bir az genişlətdilər, təfsilatla danışdılar. Kimisi də direktorun "tarixçə"sini açıb tökdü.



Qəzetdən gələn portfelli oğlanın acığı tutdu. Dönüb direktordan soruşdu:

– Ay yoldaş direktor, Fazil nə günahın sahibidir, sizə kim ixtiyar verib onunla vicdansız rəftar edəsiniz?

Direktor yerindən qışqırdı:

– O, molla oğludur. O, istismarçı balasıdır...

Qəzet nümayəndəsi irəli yeridi, nitq kürsüsünün qabağına gəlib dayandı, üzünü camaata tutdu:

– Fazil molla oğludur, seyid oğludur... Bu, tutaq ki, faktdır. Biz Şeyx Nəsrullah deyilik. Ölüləri qəbirdən çıxartmaq, diriltmək istəmirik. Siz tələbədən, əli qabiliyyətli bir tələbədən danışın görək niyə o, layiq olduğu mükafatı almasın, niyə?

O, sözünü elə möhkəm və təsirlə dedi ki, hamı dönüb direktorun üzünə baxdı. Direktor yerində qurcuxur, əlini qaldırır, döyükür, yan-yörəsinə baxırdı.

Nümayəndə isə hirslə danışırdı:

– Heç bir əclaf, demokratiyamızın yolunda əngəl ola bilməz. Stalin qanunlarının xalqa verdiyi feyz və işıq zəmanə prişibeyevlərinin, mərdimazarların gözünü kor etmişdir... Fazilin əhvalatı göstərdi ki, burada əyləşən möhtərəm direktor öz vəzifəsinin ləyaqətindən çox uzaqdadır...

Nümayəndənin alqışlar altında bitən son sözündən sonra direktor dodaqaltı mızıldanırdı:

– Bundan qənbərqulu çıxmasa mən anqırram...

Tağızadə onun üzünə mənalı-mənalı baxıb ürəkdən dedi:

– Eh... Qənbərqulu ki, qənbərqulu.

*1940*

# ƏMƏLİ SALEH

## I

Minik qatarı uzaqlaşdı. Stansiyanın çəpərli, bağçalı həyətlərinə təkrar axşam sükutu endi.

Ancaq dəmiryolunun sağında, aşağılara – Rəmə düzünə gedən yolda nəsə qalmaqal eşidilirdi. Küçənin ortasında, lap batdaq içində dayanan iki adam, deyəsən savaşırdı. Onların yanında bir quzu da var idi. Quzu savaşan adamların əlindən qurtarmaq üçün gah aşağı, gah yuxarı qaçırdı. Ancaq onu qoymurdular. Birisi boynundan tutub, o birisinin qabağına itələyir, o birisi də geri qaytarırdı. Bu heyvan top kimi atılıb-tutulmaqdan gicəlmişdi. Kənardan baxan güman edərdi ki, quzunu bunların biri satıb, alan adam isə peşman olub, sahibinə qaytarır, sahibi də qəbul etmək istəmir.

– Aparmaram!

– Adam oğlusan, axı!

– Yox, vallah!



– Sən məni nə hesab eləyirsən?

– Qoy dursun, dəymə!

– Sən öləsən, almaram!

– Bir də haqq-salam eləməyək, deyirsən?

– Məni qəbrə qoyasan, yox!

– Ay canım!

– Bəsdi.

...

– Qızıl ola, götürmərəm, dedim!

– Ötürdüm çölə ha!

– Mal sənin, məsləhət sənin!

Savaşanların biri boz pencək geyinmiş, əsgər şalvarına dolaq sarımış, başıaçıq, qıvraq, uzun oğlan idi. Bu, stansiyanın montyoru Qara Əmrah idi.

İkincisi qolsuz kürk və dəri papaq geymiş, ortaboylu, çopur, üzübatıq, arıq bir kişi idi. Bu da Əmrahın qonşusu, taxta zavodunun dülgəri Sahman oğlu Saleh idi.

İndi görək bunlar, bu iki qonşu niyə savaşırlar? Quzu nə quzu idi və onu nə eləmək istəyirdilər? Onu da bilmək lazımdır ki, Əmrah bu kəndə təzə gəlmişdir. Əslən ağdaşlıdır. Əvvəllər, lap cavan vaxtında yaxın kəndlərə məktub, qəzet daşıyar, evlərə xoş xəbər aparardı. Orduda onu oxudub radist elədilər. Davada sol qılçasından şikəstlik alandan sonra qayıtdı. Köhnə sənətindən əl çəkməli oldu. Buraya, həmin bu balaca stansiyaya işə göndərildi. Çox çəkmədən bir ləzgi qızı ilə tapışıb sevişdi, evləndi, ev-eşik sahibi oldu.

Qonşuluğuna Əmrah kimi "salim, öz tükünün üstündə" olan bir adamın köçdüyünü görən Saleh kişi çox sevinmiş, mübarəkbadlıq eləmişdi.

## II

Bir gecə şamdan sonra Saleh kişi qapıda qəlyanını tüstülədərək, aydınlıq səmaya, buluddan-buluda yuvarlanaraq uşaq kimi gah tutulub, gah açılan Aya tamaşa edirdi. Qonşusunun tələsik ötdüyünü gördü.

– Bu vaxt hara belə, Əmrah!
– Əziz qonağımız gəlib şəhərdən. Görüm ət taparammı?
Saleh kişi onu saxladı:
– Bura qayıt!
– Necə?
– Ət üçün gedirsənsə, bəri qayıt!
Saleh kişi içəri dönüb oğlunu səslədi:
– Əliş!
Əliş cəld qapıya çıxdı.
– Qaç, o qara quzunu tövlədən bəri çıxart!
Əmrah razılıq edib qara quzunu kəsdi, qonaqlarını yola saldı. Əmrahın stansiyada olmasa da, kənddə kolxozçu atasının evində özünə görə təsərrüfatı, güzəranı yaxşı idi. Burada, dəmiryolda da bir-iki qoyun saxlamaq fikrində idi.
Beş gün çəkmədi ki, atası iki quzu gətirdi. Əmrah quzuların kökünü – qaşqa və erkək quzunu – qara quzuya əvəz olaraq, qonşusuna – Saleh kişiyə göndərdi.
Saleh kişi həyətdə yad bir quzunun otladığını görüb soruşdu. Arvad əhvalatı danışdı:
– Əmrah göndərib!
– Niyə göndərib?
– Borcunu verir də!
Saleh kişi bunu eşidəndə bir qədər duruxdu, sonra nəzərini quzudan ayırmadan arvadını danladı:
– Niyə aldın, a qız?
– Həyətə ötürdü, getdi!
– Sən də aparıb qapısına ötürə bilmirdin?..
Saleh kişi quzunun belindən yapışıb, dinməz-söyləməz küçəyə çıxartdı. Qonşular küçədə qabaqlaşdılar. Salam-kalamı da giley-güzar ilə başladılar:
– A sağolmuş!
– Ay səni pir olasan görüm!..
Saleh quzunu Əmrah tərəfə, Əmrah Saleh tərəfə qovurdu. Qaşqa quzu isə ömründə birinci dəfə düşdüyü iki "inad" adamın arasında özünü itirmişdi. Onunla nə etmək istədiklərini anlaya bilmirdi. Mələyərək gah aşağı, gah yuxarı vurnuxur, qurtulub qaçmaq istəyirdi. Qonşuların isə inciklik səsi doğrudan savaşan adamların qalmaqalını keçmişdi.



– Aparmaram!
– Necə yəni?..
– Qızıl ola, götürmərəm!
– Öz malındır!
– Sən məni adam yerinə qoymursan?
– Belə də qonşuluq olar!..
Əmrah bacara bilmədi. Saleh kişi qaşqa quzunu gətirib lap onun evinə ötürdü və özü də ərk ilə ləzgi qızına acıqlandı:
– Quzudan muğayat ol, a qız!

■ ■ ■

Məktəblər açılan günlər Əliş atasına dərs kitabları sifariş verirdi:
– Coğrafiya, tarix, ana dili, hesab... Altıncıda bizə on bir kitab lazımdır...
Əmrah bunu eşitmişdi və işıq ləvazimatı üçün rayona gələndə kitab mağazasına girmiş, Əliş üçün məktəb tədarükü görmüşdü.
Ləzgi qızı kitabları, dəftərləri aparıb qucaq ilə Saleh kişinin evinə tökəndə Əliş sevinmiş, anası heyrət etmiş, Saleh kişi isə birtəhər olmuşdu:
– Bu nə zəhmətdir, bu nə xəcalətdir Əmrah verir! Canım, mən özüm alardım. Pulu neçə tutub?
Ləzgi qızı heç bir şey eşitmək istəməyən kimi, evdən çıxmağa tələsdi.
– Pul-mul verməyib... bağışlayıblar...
Əliş təzə cildli, şəkilli kitabların birini götürüb, birini qoyur, birini ikincisindən göyçək görür, sevincindən bilmirdi nə eləsin, cildlərə necə kağız çəksin.
Saleh kişi dedi:
– Arvad, belə olmaz. Əmrah bizi borclu elədi. Bu yaxşılığın qabağında görəsən nə eləyək?

Arvad ona təskinlik verdi:

– İş düşər, sən də əvəzini verərsən! Allah ona oğul versin, uşağı çox sevindirdi.

Saleh kişi yaxşılıq itirən adam deyildi, fürsət axtarırdı. Ancaq Əmrahın ona nə işi düşəcəkdi?

Bu fikir ilə istirahət günü küçədə gəzinirdi. Gözü Əmrahın həyət qapısına sataşdı. Bu, qapı deyildi, çəpərin ortasında bir-birinə çataqlanmış bir neçə ağac idi.

– Aha! Bu kişiyə bir əla qapı lazımdı!

Uzun müddət axtardığı müşkül bir işi həll etmiş kimi, sevincək evə qaçıb arşın götürdü. Əmrahın qapı-çərçivəsini ölçüb getdi.

## III

Taxta zavodunda Salehin xüsusi xətir-hörməti var idi. O bu peşədə sümük sındırmış, işinə məsul yanaşan, səliqəli, qocaman ustalardan idi. Bayram olmazdı, onun adına mükafat yazılmasın, tədbir olmazdı, Saleh kişi məsləhətə çağırılmasın, məclis olmazdı, adı çəkilməsin.

Bir gün tənəffüs zamanı direktorun yanına gedib dedi:

– Sizdən bir xahişim var!

Direktor ayağa qalxıb ustaya yer göstərdi:

– Əyləş, Saleh əmi! Nə qulluq?

– Mənə bir qapı lazım olub, iki-üç dənə taxta almaq üçün izin istəyirəm! Lap o yanacağa gedənlərdən!..

Direktorun əmri ilə naryad yazıb, Saleh kişiyə taxta verdilər. Saleh kişi öz həyətində iki günün içində ikitaylı gözəl bir qapı qayırıb, üzünə qəhvəyi rəng çəkdi, gün qabağında qoyub qurutdu.

Onun adəti idi: səliqəli işlərin hamısına möhür vurardı. Bu möhürü o, hələ lap cavan vaxtından xarrat işində çalışanda gümüşdən tökdürmüşdü. Xəmir tabaqlarının küncünə, kürsülərə, tar, kaman ağacına, xörək çömçələrinin əlcəyinə vurardı.

"Yadigar", – deyə möhürünü odda qızdırdı, qapının baş tərəfinə basdı: "Əməli Saleh."



Qəsdən gözlədi. Əmrah evdə olmayan zaman gətirib qapını yerinə saldı. Ləzgi qızı razılıq eləməyə söz tapmır, qarovul kimi dayanan təzə və uca qapının hər tayını səsləndirərək, tez-tez içəri keçib, eşiyə çıxırdı.

Əmrah işdən gələndə çaşıb qaldı. Öz qapısını tanımadı. Bir neçə addım ötüb aşağı keçmişdi ki, gördü: "Yox, həyət bizimkidir... Bəs bu qapı?"

Ləzgi qızı ərinin qabağına çıxdı:

– Öz qapına gəlirsən, gəl!

– Bunu kim dikəldib?

– Tap görüm, kimin işidir?

Əmrah qapının o yan-bu yanına göz gəzdirdi. Dəstəyi tutub silkələdi. Yuxarıdakı yumru yazıya diqqət edib oxudu: "Əməli Saleh".

– Saleh əmi?

– Özgə kim gətirəcək! Deyir ki, dəvəçi ilə dost olanın darvazası gen gərək!

Bir müddət əvvəl Saleh kişinin arvadına dediyi sözləri indi Əmrah ləzgi qızına deyirdi:

– Arvad, belə olmaz! Saleh bizi borclu elədi! Bu qapını gərək özümüz çoxdan düzəldəydik!

Ləzgi qızı sanki, ərinin bu sualına əvvəlcədən cavab hazırlamışdı:

– Qonşudur, qapını sahman elədi, sağlıq olar, sən də onun evini bir sahman eləyərsən! Hər yerə işıq gətirən sən deyilsən?..

Deyəsən, Əmrahın fikrindən keçirdi ki, qonşusunun eyvanı çıraqban olsun. İşıq keçən xətlərə göz gəzdirir, fürsət axtarırdı ki, Saleh xəbər tutmasın!

*1940*

# Şəxsi məsələ

*Böyük insana, insanpərəstə,*
*insanpərvərə – Stalinə*

## I

Cənnət xanım güzgü qabağında dayanıb pudralanırdı. Qonşu otaqdan qapını tıqqıldatdılar. Səs təkrar olundu. Cənnət xanım hirsləndi:

– Allahü əkbər, ha!

Məsum kişi xanımının acıqlı səsini eşitdi, lakin nə dediyini seçə bilmədi. Qorxa-qorxa qapını açdı, başını içəri uzatdı:

– Gəlin xanım, mənə bir alt köynəyi...

Cənnət xanım əlində pudrasilən, üzü güzgüyə sarı durmuşdu. Başını silkib elə qışqırdı ki, üzündən pudra ələndi:

– Ört qapını, kaftarın biri kaftar! Gözün kordur!

Məsum kişi peşman oldu, dərhal qapını basıb mətbəxə qayıtdı. Bir müddət ayaq üstündə tir kimi dayandı. Ömrünün bu axır çağlarında düşdüyü ağır vəziyyəti, gördüyü bihörmətliyi, eşitdiyi nalayiq sözləri düşündü. Min bir sevinclə böyütdüyü yeganə oğlunun körpəlik, uşaqlıq çağlarında ona bəslədiyi ümidi nəzərində canlandırdı, mərhum arvadını xatırladı...





Bütün bunlar iti bir külək kimi onun başından əsib keçdi, canına ani bir üşütmə gəldi. Sinəsindən odlu bir ah qopdu. Sanki bu ah illərdən bəri oğluna bağladığı böyük və dadlı ümidlərin yanıb kül olduğunu bildirən tüstü idi. Bu ahdan sonra, deyəsən, onun sinəsi şumlanmış zəmi kimi boşaldı. Kirpiklərini qaldıranda havanın tamam qaranlıqlaşdığını görüb yatağını açdı, soyunub yerinə girmək istədi.

Bu zaman küçə qapısı açıldı, sonra da bərk örtüldü.

Gələn Həpir idi.

Həpir həmişə evə tufan kimi girərdi. Bəlkə, Həpir özünü zabitəli hiss etdirmək, arvad-uşağı qorxuzmaq üçün qəzəblə gəlirdi? Xeyr, onun xasiyyəti belədir. Özünü bilən gündən bəri onu mənası aydın olmayan daimi bir təlaş almışdır. Həpiri görən nabələd adamlar ona vacib və təcili bir məsələ ariz olduğunu güman edərək, hər sözünü maraqla dinlər, hərəkətini diqqətlə izlərdilər. Həpiri tanıyanlar isə onun sağalmaz bir təşviş azarına tutulduğunu yaxşı bilir, nə sözünə, nə özünə məna verirdilər.

Həpir proektbüroda məsul icraçı vəzifəsində çalışırdı. İdarəyə girib qışqıranda ki, "biabırçılıqdır, rüsvayçılıqdır, qarşısı alınmalıdır", deyərdin görəsən şəhərdə nə böyük cinayət olub. Həpirin idarə yoldaşları isə heç başlarını qaldırmaz, eşitmirmiş kimi dayanardılar. Yerli komitə üzvlərindən biri isə yavaşca deyərdi: "Ey, Verdiyev, yenə başladın?" İşlər müdiri gözünü ağardar, Verdiyev süzməni tuluğa salardı.

Evdə isə nə yerli komitə, nə işlər müdiri var idi. Zənn olunmasın ki, Verdiyev evdə istədiyi zaman eninə-uzununa çığır-bağır salır. Yox. Belə deyil. Doğrudur, evdə işlər müdiri yox idi, ancaq, əvəzində Cənnət xanım kimi əjdaha var idi. Verdiyev Cənnət xanımdan qorxduğu qədər heç əzrayıldan da qorxmazdı.

Bəs necə olur ki, Cənnət xanım evdə ola-ola, özü də güzgü qabağında bəzəndiyi bir zamanda Verdiyevin küy-kələyi aləmi başına alır.

Aydın məsələdir ki, Verdiyev bunu Cənnət xanıma qarşı etmir və etməz də. O, ancaq Cənnət xanımın xatirinə öz atasına qışqırır və buna görə də heç bir şeydən çəkinmir. Hərdən elə qışqırır ki, evin səqfi cing-cing cingildəyir.

– Bu nə zibil çaydı mənə verirsən? Götür qoy atamın qabağına!

– Bu şındır-mındırı dişmi tutar? Kim belə ətə pul verir gətirir...

Cənnət xanım ərinin nə demək istədiyini gözəl bilir, o saat Məsum kişiyə eşitdirir:

– Kişiyə de də. Mən bacarmıram onnan daha. Aparır pulu atır çölə, çıxıb gəlir. Bu kişi gələndən kooperativlərin nəki zibili, pəsməndası var, biz yeyirik. Əlli yaşında kişidir, başında əlli quruşluq ağlı yox.

Cənnət xanım o qədər dedi, o qədər danladı ki, axırda Həpir atasına nə pul verdi, nə iş tapşırdı.

Bu gün Verdiyevin qanı lap qara idi. Xörək başına oturmamış atasını çağırtdı.

Məsum kişi arxalığın yaxasını düymələyə-düymələyə içəri girdi. Nökər kimi aşağı başda ayaq üstə dayandı. Güman etdi ki, oğlu ona söz tapşıracaq. Lakin onun qaşqabağından zəhər yağdığını görüb soruşmağa cəsarət etmədi. Müntəzir dayandı.

Verdiyev dönüb qapıya, atasına sarı baxdı:

– A kişi, utanmırsan, gedib orda-burda gileylik eləyirsən, a saqqalın qanına bulansın. Sən özün bir zibil deyilsən, axı mənim adım-sanım var. Beş kişinin biriyəm, axı niyə məni tay-tuş içində yerə vurursan!..

Məsum kişini tər basdı. Əlini irəli verib nə isə cavab vermək istədi.

Pəncərə qabağında dayanıb bu mənzərədən zövq alan Cənnət xanım irəli yeridi. Barmağını az qaldı kişinin gözünə soxsun:

– Elə bu üz iləmi bayaqdan mənnən köynək davası döyürdün? A meyitini görüm, mən sənə köynək-tuman yumağa gəlmişəm?

Cənnət xanım dönüb ərinə çığırdı:

– Bax, qəti deyirəm, sabahdan bu evdə ya odur, ya mən! Bəsdir beş-altı ayı özümü çürütdüyüm. Mən də insanam, mən də cavanam, arzum-kamım var, bu nədi, canım, toyuq kimi aləmi mur-mundar eləyir. Gəlin köpək qızı başına nə daş salsın...

Verdiyev yerindən durdu, əllərini cibinə qoyub atasına tərəf gəldi. Qonum-qonşuya hay düşməmək üçün, bir az asta danışdı:

– Bura bax, mən sənin üçün kəniz almışam, ya özüm üçün arvad?

Məsum kişi özünü itirmiş və əlacsız bir vəziyyətdə dayanaraq, nə isə demək istəyirdi. Ancaq söz tapmırdı.



– Oğul, adam atasını bu qədər...

Verdiyev onun sözünü istehza ilə təkrarladı.

– Ata... Ataya bax. Mənə nə atalıq eləmisən, a kişi? Xalqlar kimi mülk, maaş sahibisən? Ya partizan kinişkan var, mənə nə xeyrin dəyib? Şükür ki, hər iki dünyadan avarasan, hardan azıb başımıza bəla gəldin, a kişi! Günümüzü qara elədin, bəsdir axı, bəsdir axı, canım!

Məsum kişi özünü saxlaya bilmədi. Gözündən pırıl-pırıl yaş tökdü.

– Baş üstə, oğul. Gedərəm. Razı olmaram sənin külfətin incisin, mən baş alıb gedərəm.

Məsum kişi evdən çıxdısa da, Həpirin hirsi soyumadı. O öz-özünə deyinirdi:

– Taleyim belədir. Xalqın yeddi arxa yadları ağzını açanda tərif tökür, pisini qoyub yaxşılığını danışır. Mənim bədbəxtliyimə bax ki, doğma atam ayağımdan çəkir. Güclə beş adam içində tanınmışam. Min cür çətinliklə başımı bir yerə yığmışam. İndi də bu. Düşmənim ocaq başındadır. Canım, mənim evimdə pis baxırlar, qalma da! Çıx get də!

Cənnət xanım qayınatasının "baş alıb gedərəm" sözündən çox sevindi. Kişinin dalınca qapıya çıxdı, çıxdı ki, görsün, doğrudan da yorğan-döşəyini yığışdırıb gedirmi?

Məsum kişi gecənin bu vaxtında hara gedə bilərdi? Onun bu vaxt gedəsi heç bir yeri yox idi.

O, keçən ilin son ayına qədər öz vətənində – Qələmqaş rayonunda əkin əkərdi. Bir öküzü, bir-iki sağmal keçisi var idi. Arvadı öləndən sonra, qüssədənmi, tənhalıqdanmı, ya özünü itirdiyindənmi vaxtını ev-də-eşikdə keçirər, el içinə az çıxardı.

Günün birində oğlundan, soyuqluğuna bələd olduğu, bir övlad kimi əl üzdüyü Həpirdən məktub aldı. Həpir xeyir iş başladığını yazır, atasını yanına çağırırdı. Həpir onu toya qonaq yox, həmişəliyə Bakıda yaşamağa, ev-eşiyin üstündə olmağa çağırırdı.

Ona görə də sadəcə "gəl" yazmırdı. Dönə-dönə təkrar edirdi ki, "hələ-hələbət yığış gəl, gözləyirəm".

Məsum kişi oğlunun xeyir işinə sevindisə də, köçüb getməyə ürək

eləmədi. Ona görə ürək eləmirdi ki, oğluna inanmırdı. Bir tərəfdən könlü qanadlanıb uçur, ata üçün ən böyük xoşbəxtlik olan övlad toyuna tələsirdi. O biri tərəfdən nə qədər çalışırdı, oğlunun etibarsızlığını, soyuqluğunu xatirindən çıxara bilmirdi. Üç gün bu məsələni götür-qoy elədi. Gah getmək istədi, gah da isti yerini soyutmaqdan qorxdu. Axırda bu fikrə gəldi ki, getməmək namərdlik olar. Yəqin Həpir ağıllanıb, uşaqlıq xasiyyətlərini yerə qoyub, kamil adam olub, bir də ki, qürbət şəhərdə kimi-kimsəsi yoxdur. Sabah ev-eşiyi dolandırmağa kömək lazımdır. Özgəsi ona nə can yandıracaq? Pulunu yeyib, özünü də peyləyəcəkdir. Allah göstərməsin, bilirəm arvadın qohum-əqrəbası başına yığılıb necə dartışdıracaqlar. Belə olan surətdə niyə gərək getməyəm, öz can-ciyərimi niyə gərək ona-buna möhtac qoyam. Buna baxmayaraq, işini daha da möhkəm tutmaq üçün oğluna məktub yazdı ki, "oğul, deyirsən, yığış gəl, oralarda dolana bilərəmmi? Ev-eşiyi nə sayaq eləyim?"

İki gün çəkmədi, Həpirdən təcili cavab gəldi. Həpir atasının dolanmaq dərdinə qalmağını yersiz sayırdı. "Bakıda, deyirdi, 15-16 adam mənim çörəyimi yeyir. Mənə ayıb olar ki, atam bu qoca vaxtında, güzəran qeydi çəkə, yığış gəl. Belə sözü mənə dedin, bir də heç kəsə demə".

Bu cavab Məsum kişini çox sevindirdi. Onun oğlu haqqındakı bütün pis təsəvvürlərini və tərəddüdlərini qüvvətli sel kimi yuyub apardı. O, tələm-tələsik hər şeyi dəyər-dəyməzinə satıb-sovdu. Pal-paltarını bağlayıb baqaja verdi. Bilet alıb Bakıya yollandı.

Məsum kişi oğlunun toyuna xoşbəxt bir ata kimi gəlir, gəlininə hədiyyə də gətirirdi. Min bir arzu və həsrətlə böyüdüb 22 yaşa çatdırdığı və anasızlığına nisgil etdiyi oğlunun xeyir işi və gələcəyi üçün fikrində aydın və möhkəm bir plan tökmüşdü. Buna plan demək düz olmazdı. Bu, qurulu bir imarət idi. Məsum kişinin oğlu üçün hazırlanmış bərli-bəzəkli, dəmli-dəsgahlı bir evdi. Burada Məsumun quzu kimi salihə və mehriban gəlini yaşayır. Qayınatası ilə can deyib, can eşidir. Brilyant kimi balalar doğur. Balalar səhər-axşam, xoşbəxt babalarının başına yığılırlar. Baba da cücəli toyuq kimi, onlara dil tökür, qucağına alır, oynadır, öpür, dindirir, əzizləyir...

Onlar "baba" dedikcə, Məsum kişinin ürəyi dağ qədər böyüyür.



Fərəhindən yerə-göyə sığmır.

Sən demə, bunlar, bu dadlı təsəvvürlər bir xəyal olaraq yollarda qalacaqmış...

Məsum kişi oğlunun xasiyyətinə və ailəsinə yaxşıca bələd olandan sonra şirin xəyalları, top vurmuş bina kimi sanki gurultu ilə uçub kişinin üstünə töküldülər, qocalıqdan əyilmiş belini kitab kimi daha da büküdülər.

Həpir atasını yazdığı kimi də qarşıladı. Evin tədarük işini ona tapşırdı. Məsum kişi həvəslə oğlunun yeni və xoşbəxt xanimanının təməlini qoymağa başladı. Təəssüf ki, bu sevincli günlər uzun sürmədi, hardansa əsmiş qara bir yelin təsiri ilə sanki, kişinin bütün əməl çiçəkləri soluxmağa, ölüşkəməyə üz qoydu.

Gəlin, aylardan bəri gözlənən o əziz qonaq, Həpirin evinə qədəm qoyan gündən hər şey başqalaşdı. Evin vəziyyəti, yaşayış qaydaları dəyişdi. Həpirin də atasına münasibəti özgə oldu. Mülayim baxışlar söndü. Sonra bu baxışlar etinasızlığa, daha sonra, nifrətə və nəhayət, qəzəbə, ədavətə çevrildi.

Məsum kişi bütün bu gözlənilməz şeylərə susur, səbir edirdi. Onun fikrincə bu müvəqqəti bir haldır. Yəqin işdə, idarədə, ya arvad ilə öz arasında sözü-sovu var. Ovqatı qarışıqdır. Həmişə belə getməz, oğludur, düzələr. Amma deyəsən belə deyildi. Günü-gündən Məsum kişi bu evdə artıq görünür, onun bütün sözləri, hərəkətləri ərin də, arvadın da qəzəbini artırırdı.

Gəlin onu astanadan içəri qoymur, itə atan kimi ona bir parça çörək verib mətbəxə qovurdu. Şübhəsiz ki, belə gözlənilməz, acı və qəribə bir vəziyyətə düşən kişinin ürəyindən qanlar axacaqdı. Lakin bu qanlar axdıqca axır, qurtarmaq bilmirdi. Kişiyə elə gəlirdi ki, onun ümid və arzu ilə bərkiyən qəlbi dərd ilə əriyir, qan olub tökülür.

Məsum kişi nə üçün qayıdıb kəndə, öz köhnə yurduna getmirdi?

Neçə dəfə bu niyyətə düşmüşdü. Amma mümkün deyildi. Bir də kəndə qayıda bilməyəcəkdi. Bunun mühüm səbəbi var idi:

Əvvəla ona görə gedə bilmirdi ki, kənd ilə həmişəlik vidalaşmışdı. Hər şeyini satıb sovmuşdu. Kor-peşman necə qayıtsın? İndi əliboş kəndə qayıdıb kolxoza girmək istəsə, deyəcəklər: "Aşna, öküzü, ev-eşi-

yi satıb altına vurmusan, bizə kələk gəlmək istəyirsən. Düz adamsan, təsərrüfatın ilə gəl. Əl-qolunu ata-ata niyə gəlirsən?"

Bundan əlavə Məsum kişi ağır bir böhtana da düşmüşdü. Çünki ata oğlu ilə deyişib çıxanda Cənnət xanım da onun dalınca mətbəxə gəldi. Gəldi ki, görsün, kişi doğrudan da yığışıb gedir, ya yox?

Qayınatasının soyunub yatağına girdiyini görəndə, hirsindən, bilmədi nə etsin. Ürəyində dedi: "Xeyr, bu kaftar əl çəkən deyil, asanlıqla bundan yaxa qurtarmaq olmayacaq. Bir çarə lazımdır".

Cənnət xanım o saat çarə düşündü.

Əvvəlcə hirsini soyutmaq üçün mətbəxin lampasını yandırdı. Kişinin gözü qabağında bankadakı ərik qurusunu, yumurtaları, tavadakı boyat kotletləri yığışdırıb evə apardı. Hirsli-hirsli, başıaçıq, o yan-bu yana vurnuxduqca gözaltı hərdən kişiyə baxırdı. Çalışırdı. Çalışırdı ki, o, bütün bunları görsün və anlasın.

Məsum kişinin gözünə yuxu getmirdi və getməyəcəkdi. O, gəlinin bütün hərəkətlərini görürdü.

Gəlin bununla da kifayətlənə bilmədi: "Kəndlinin, tərəkəmənin biridir. Belə şeyləri nə qanır, lap qıpqırmızı üzünə demək lazımdır!".

– Bilmirəm, – dedi, – bu mətbəxdə xörək-mörəyi hansı sancılanmış yeyir. Nə qoyursan, səhərəcən yarı olur. Köpək oğlunun xarabasında gərək soğan-sarımsağı da qıfıla vuraq. Belə də iş olarmı?..

Gəlin bu sözləri bərkdən deyir və Məsum kişinin dillənməsini istəyirdi. Kişi dilləndimi, o saat "atama söydü", – deyə qışqırıb tufan qoparacaq, bu saat evdən çıxmasını ərindən tələb edəcəkdi.

Deyəsən, Məsum kişi Cənnət xanımın niyyətlərini bilirdi. Ona görə də gördüyünə, eşitdiyinə qarşı dözür, cınqırını çəkmirdi. Bu böyründən o böyrü üstə çevrilir, bəzən də yorğanı başına çəkib, bir çox şeyləri eşitməmək üçün öskürürdü.

Olmadı, Cənnət xanımın hirsi soyumadı. Üzüyünü mətbəxdə çıxarıb masanın üstünə, Məsum kişinin toqqasının yanına qoydu və şarappaşarap ilə əl-üzünü yudu.

Gedib evdə qurulandı və bir xeyli güzgü qabağında dayanıb nə isə düşündü. Sonra yavaş-yavaş gəlib mətbəxdən üzüyünü götürdü. Qapıları bağlayıb otağına çəkildi.



Səhər yerindən qalxandan sonra üzüyünü götürmək bəhanəsilə mətbəxə gəldi. Məsum kişi geyinib oturmuşdu, ac qarına papirosu papirosa calayırdı. Gəlin masaya baxıb Məsum kişidən soruşdu:

– Axşam üzüyü bura qoymuşdum, hanı?

– Görməmişəm, xanım.

– Necə görməmişəm, a kişi, brilyant üzük necə oldu buradan?

– Vallah bilmirəm, xanım.

– Bəs kim bilir, ay kaftar, burada yatan sən, necə "bilmirəm"; üzüyü bəri elə. Bircə bu qalmışdı.

Məsum kişi özünü itirmiş, qızarmış ayağa qalxdı, əllərini açıb andaman elədi:

– Din, iman haqqı, gəlin xanım, mən üzük-zad görməmişəm.

– A kişi, toqqa hanı?

Məsum kişi əli ilə göstərdi:

– Budu, belimdə!

– Bu toqqanı götürəndə bəs üzüyü neynədin?

– Bir oğlumun canı üçün, qızım, heç elə şey olar?

– Sarsaqlama, kişi, sən oğlunu istəyirsən ki, onun canına da and içirsən?

Məsum kişi toqqa məsələsindən şübhələndi. Masanın müşəmbəsini qaldırıb altına baxdı. Döşəməni diqqətlə gəzməyə başladı.

Gəlin şəhadət barmağını masaya döyə-döyə dedi:

– Kişi, bilmirəm hara qoymusan, bu saat mənim üzüyümü verməsən, qiyamət qopardaram. Bu saat üzüyü səndən istəyirəm, bu saat!!!

Cənnət xanım mətbəxdən çıxdı. Zəng eləyib idarədən ərini çağırdı:

– Durma, gəl ki, dədən ev-eşiyi taladı!

Həpir evə gəlməmiş Cənnət xanım dizlərinə çırpıb vay-şivən saldı. Yaxın qonşular töküldü. Kimisi yeri-yurdu axtarır, kimisi təsəlli verir, kimisi də gəlinin halına acıyaraq Məsum kişiyə – "bu kobud kəndliyə" nifrətlə baxırdı.

Qəribə burasıdır ki, üzük itdiyinə hamıdan bərk inanan və hamıdan artıq heyifsilənən Məsum kişinin özü idi. O, mətbəxi ələk-vələk elədi. Su qablarına, qaloşların, çəkmələrin içinə, zibil yeşiyinə qədər eşələyib

axtardı. Axtardıqca öz-özünə deyirdi:

"Hər bədbəxtlik məni tapar, təki axşam yığışıb cəhənnəm olaydım. Hər kəs məndən görəcək. Yer ayrılaydı mən girəydim, başıma bu iş gəlməyə idi."

Buna görə idi ki, Məsum kişi gedə bilmirdi. Dalanda kürəyini divara söykəyib düşünürdü.

Getsə, düşünə bilərdilər ki, kişi özünə daş-baş, əl-ayaq elədi, kəndə qaçdı.

Gözləyir, haradansa üzüyün tapılacağına, bu böhtanın açılacağına inanırdı.

Qoy Məsum kişi nə düşünür-düşünsün, Həpir ayrı fikirdə idi.

Həpirin yəqini idi ki, bu zırıltıdan sonra atası onun evində qalmaz, baş götürüb gedər, bununla "izbavitsa" olarıq, qalmaqal kəsilər. Hər halda, arvadının səsinə hay vermək, dərdinə şərik olmaq üçün qaş-qabağını tökür, ağzını dalana sarı tutub deyirdi:

– Bu da mənim yaxşılığımdır. Bu da mənim hörmətimdir. Haşa buradan bəzi köpək oğlu məni məzəmmət eləyir ki, atanla belə dur, belə otur, filan!.. Bu atanı dama basdırmaq lazımdır. O saqqalda kişi, evdən, öz gəlinindən oğurluq eləyəndə, daha nə deyəsən. Eybi yoxdur. Qoy itsin, getsin, cəhənnəm olsun, o da, üzük də...

Həpir, "bəzi köpək oğlu" deyə komsomolçu Tahir Əliyevi nəzərdə tuturdu.

Bir-iki ay bundan əvvəl Tahir haradansa Həpirin ailə həyatından xəbər tutmuşdu. Atasının başına nələr açdığını öyrənmiş və iclasların birində qalxıb demişdi.

Həpir özündən çıxdı. Əsdi-coşdu ki, bu, böhtandır, bu, yalandır. Bu, işçinin şəxsi işinə qarışmaqdır. Ata ilə oğul arasına girmək hansı qanunda var? Qərəzə bax ha, indi ev-eşiyimə əl atırlar. Qoymurlar işləyək.

Tahir ona toxtaq verir kimi danışırdı:

– Mayovkaya gedəndə yadındadırmı, atana bilmirəm nə aldırmaq üçün pul vermişdin. Arvadın ona itin sözünü dedi. Az qaldım mən dillənəm, yenə özümü saxladım. Hər halda Cənnət xanım sənin ağzını yoxlamamış, o yaşda kişini hörmətdən salmağa cürət etməz.

Verdiyev ayağa qalxdı:



– Yoldaş Tahir, danışırsınız ha, siz nə bilirsiniz mənim atam nə sayaq adamdır? Neujeli, Cənnətin onunla pul haqq-hesabı çəkməyə ixtiyarı yoxdur. A kişilər, neujeli, mən, şəxsi işimdə də sizinlə məsləhətləşməliyəm. Sluşay...

Sədr onun sözünü kəsdi:

– Hər halda, yoldaş Verdiyev, o sənin atandır.

– Ata yəhər qoyub məni minməyəcək ki...

Tahir dedi:

– Guya o kişi səni incidir, hə?

Verdiyev Tahirin üzünə baxdı və tutqun səslə cavab verdi:

– Bilirsiniz necə pis xasiyyəti var!

– Mənə bax, qoca kişidir, avamdır, köhnə adamdır. Demirəm əziyyəti dəymir, amma gərək yola verəsən, atadır, sənə zəhmət çəkib.

– Mənə bir zəhmət çəkməyib.

– Səni böyüdüb bu boya gətirib, elə bilirsən keçmiş zamanda bala böyütmək asan idi?

Verdiyev qolunu tovladı:

– Bu bir zəhmət deyil, böyütməsə daha yaxşı olardı. Məni priyuta verərdilər, əməlli-başlı oxuyardım, indi də tərcümeyi-halımda, yurd uşağı olmağımın böyük köməyi dəyərdi. Daha nəinki kəndçi oğlu.

Tahir təngə gəldi:

– Sənə dil yetirmək çətindir. Biz istəmirik ailəndə belə narazılıqlar ola. Get yaxşıca fikirləş. Qoca kişiyə bir hörmətsizlik-zad olubsa tərgit. A balam, bu sənin atandır, ümidi, adamı bir sənsən də. Sən də ona kəs baxanda yazıq dığlanar ki... Onun qəlbinə dəyməyəsən gərək, sən komsomolçusan, axı!

Doğrudur, həmin iclas Həpiri bir az yumşaltdı. Amma o, yeri gəldikcə işinin pisliyini, nöqsanlarını tənqid edənlərə bəhanə gətirirdi: "Neyləyim, qoyurlar işləyəm? Mənim ailəmə, şəxsi işimə qarışırlar. Məni atam ilə, atamı arvadımla vuruşdururlar. Bu şəraitdə əsəbi adam necə işləsin?"

Həpir, bununla bəzi işçiləri inandırır, bəzilərini də qorxudurdu. Odur ki, çoxları Məsum kişinin halını bilsə də, Həpirdən çəkinib dinmirdilər.

## II

Xoş və mülayim bir yaz axşamında səkilər, bulvarlar, xiyabanlar dolusu gəzən deyib-gülən adamların arasından keçərək dənizə tərəf gedən zəif və qısa bir kölgə heç kəsin diqqətini çəkmirdi. Bu, həmin bu kölgə ehmal və iradəsiz addımlarla yeriyən, heç yana baxmayan, yalnız adamları aralayıb yol tapmağa çalışan Məsum kişi idi. Sahili seyrə çıxan adamlardan biri o kişinin libasına, yerişinə baxsaydı, ondakı qəribəliyi və qeyri-adiliyi dərhal duyardı. Bunun üçün o qədər də həssaslıq, yaxud dərin müşahidə gərək deyildi. Çox ehtimal ki, bir çoxları Məsum kişiyə baxır, onun məyusluğunu, yasa batmış kimi pərişanlığını hiss edirdi. Lakin onu dayandırmağa, onun haraya getdiyini, nə apardığını soruşmağa kimsə cəsarət etmirdi.

Məsum kişi sahilə yaxınlaşdıqca dizləri titrəyir, addımları yavaşıyır, yerişi mütərəddid bir hal alırdı. Qarşıdakı guya dəniz deyil, qara gövdəsini yerə verib yatan, ucsuz-bucaqsız bir məsafəni qapayan amansız ölümdür. Sanki o, bu axşam xüsusi bir iştaha ilə dərin və sirli gözlərini sahilə dikib işıqlar və insanlar arasından gələn Məsum kişini gözləyir. Sanki bu sərin külək onun, o məchul və dəhşətli aləmin fısıltılı və soyuq nəfəsi idi. Lap dərinlərdə, qaranlığın ortasında tez-tez qalxıb sönən qırmızı işıq isə mayak deyildir, ölümün kəlləsində yanan məşəldir. O da müntəzirdir. O da tez-tez şəhərə baxır, Məsum kişini gözləyir. Şəhərin ayağından dənizə sallanan qızıl sütunlar da fələkətə enməyə pilləkənlərdir. Ləpələr bu pilləkənləri saxsı qab kimi vurub qırır. Dəniz isə bədbəxt qonağını gözlədiyi üçün dərhal sakitləşib pilləkəni yerinə gətirir. Dəniz bu ani sakitliyində dilini uzadıb qonağı sahil daşlarından istəyir, daşların sükutu isə "gözləyin, gözləyin" deyir, yem olmaq üçün gələn Məsum kişi sahilin tənha bir yerində dayanıb özünün geniş, qaranlıq, soyuq və dərin məzarına baxır...

Onun heçliklərdən qaralan nəzərləri, sanki dənizdən bir kəmənd gətirirdi. Kəmənd boynuna salındı: "Vaxtdır, əcəl gəlmişdir."

Məsum kişi başını göylərə qaldırıb, Allah dərgahından öz günahlarına əfv istəmək üçün təsirli sözlər aradı. Lakin sanki bu sözlərin ixtiyarı oğlunda, o naxələfin əlində idi. Sanki dili nitqindən qalmışdı.



Vidalaşmaq, üzülmək üçün son dəfə qayıdıb həyata, şəhərə baxdı. Bu baxışında, ailəsindən ayrılmağa məcbur olan bir məhkumun həsrət və əzabı, sarsıntı və həyəcanı vardı. O, şəhərə baxmaq üçün boynunu birdən qanırmışdı. İndi nəzərləri şəhərdən, işıqdan, bu insanlardan, bu həyatdan və bəşər məskənindən üzülmüşdü. Üzü həyatdan dönmürdü. Başı ağır-ağır çevrilirdisə də, gözləri şəhərdən ayrılmaq istəmirdi.

Təki heç dönüb baxmayaydı!

Məsum kişi bu baxışında nələr görürdü. Pəncərələrindən buket kimi işıq püskürən evləri, səkilərdə və balkonlarda çay içən, deyib-gülən adamları, quş kimi süzüb gedən tramvayları görürdü. Qız qalasının ətrafından yüksələn musiqini eşidirdi.

Bu baxış sanki, Məsum kişinin 55 illik həyatından ləzzətli və mənalı idi. Hər şey, görüb duyduğu hər şey gəlib onun önündə diz çökür, yalvarırdı: "Getmə, getmə."

Sanki, yeni tikilən və həyat gətirən evlər onunla dəniz arasında sədd çəkir. Uzun və cavan ağaclar sahilə sərilib ölümün yolunu kəsir. Uşaqlar, o əziz balalar əl-ələ verib Məsum kişini qaytarırlar: "Yox, qoymarıq, qoymarıq, əmi, qayıt".

Uşaqlığın qayğısız günləri, gəncliyin coşqun və alovlu saatları, kənd həyatının sakit, şirin və ləzzətli dəqiqələri gəlib süfrə kimi Məsumun önündə açıldı: "Of, həyat nə qədər şirindir. Of, ömrümün əziz çağları, gəlin, siz haradasınız? Başımın üstündən bir qırlanqıç kimi nə üçün ötüb getdiniz?.."

Təsirdən Məsum kişinin qəlbi döyündü, başına bərk bir ağrı sıçradı, qaşları düyüldü, gözləri kiçildi, sifəti bozardı, qaməti sınmaq üçün oda qoyulmuş yaş ağac kimi qanrıldı. O, gözünü hər şeydən yumub, dənizə – ölümə açmaq və onun qucağına atılmaq istədi. Bu arzu onun ürəyində artıq lap möhkəmlənmişdi: "Nə fərqi var, budur, iki dəqiqə sonra mən dalğalar arasında can verəcəyəm, oğlum, gəlinim isə yaşayacaqlar..."

Məsum kişi evi xəyalına gətirdi. Bu saat onlar qapını bağlayıb, qolqola seyrə çıxıblar. Bəli, bir neçə saat sonra mən haqq dünyada olacağam. Görəydim oğlum, o naxələf mənim dalımca düşüb axtaracaqmı?..

Məsum kişi boğazını biçən bu odlu suala tüstülü bir ah ilə cavab verdi:

"Yox, yox... Bəlkə də sevinəcək, şad olacaqlar. Allah heç bəndəsinə belə ölüm qismət eləməsin. Mənim dalımca baxan, nigarançılığımı çəkən kimim var? Əziz arvadım, mehriban qızım, xələf oğlummu?"

Məsum kişi bu sözləri deyəndə odlu yaşlar dolu kimi gözündən tökülür, başından tüstü-duman qalxırdı.

Yuxarı, Bayıl tərəfdən eşidilən addım səsləri Məsum kişini xəyalından ayırdı. Diqqət edəndə matrosların dəstə ilə gəldiyini gördü. O, özünü itirdi. Bir istədi – tez suya tullansın, bir də fikrinə gəldi ki, "duyarlar, igid adamlardır, atılıb çıxardarlar, biabır olaram..." Onların ötübgetməsini gözlədi. Matroslar yaxınlaşanda gurultulu səslə mahnı başladılar.

*Stalin bizlərə həyat verəndir,*
*Stalin bizlərə qanad verəndir,*
*Böyük Stalin tək arxamız vardır!*

Matroslar getdikcə yavaşıyan mahnı da, tarixə qarışmış gənclik həyatı kimi, Məsum kişidən uzaqlaşırdı. Mahnı uzaqlaşdıqca günəş yamaclardan buz qopardan kimi, kişinin qəlbindən ahlar-amanlar qoparırdı: "Əlbət ki, bəxtəvərsiniz, mənim də bir elə atam, köməyim olsaydı, Stalin mənim də dərdimə qalsaydı..."

Məyusluq küləyi kişinin canını üşütdü:

– Mən Stalinin nəyinə lazımam? Stalin yeni, igid adamları qoruyur. Komandir deyiləm, doktor, injener deyiləm, müəllim deyiləm, partizan deyiləm, əlimdən nə gəlir... qocalıb işdən düşmüş adamam, kimə lazımam? Məni kim tanıyır?

Yenə də matrosların mahnısı Məsumun qulaqlarında cingildədi:

*Stalin bizlərə həyat verəndir,*
*Stalin bizlərə qanad verəndir...*

Stalin ki, bunların heç birini şəxsən tanımır. Bunlar onu görməyiblər. Amma günəş kimi onunla isinib, cana gəlirlər. Bu günəşdən mənim niyə qismətim olmasın? Niyə olmasın?



Bu sual ilə o, nə isə demək, nə isə başlamaq istəyirdi. Onun xəyalında parlayan bir işıq, ona doğru və geniş bir nicat yolu göstərirdi. Onu kölgəliklər, uçurumlar, fəlakətli sahillərdən qayıtmağa çağırırdı.

– Mən havaxt bu yolu tutdum ki? Mən havaxt o kişiyə ağız açdım, havaxt dərdimi dedim?.. O kişi atadır, ata qədrimi bilər. Mənim səsimi eşidər...

Bir də qutqaşınlı dostunun dedikləri yadına düşdü: "Stalin kənddən gələnlərin keyfini necə soruşurmuş, necə o, anasının görüşünə gedib, necə ata-oğul hörməti tutandır..."

Bu fikirlər Məsumun başında doğub sanki, qurşun kimi əridi. Qanına keçib bütün damarlarına axdı, mum kimi yumşalmış bədənini heykəl kimi bərkitdi. Dizinə taqət, ürəyinə tab gəldi. O, öz-özünə mızıldandı: "Gəl sən bir yoxla, əl boyda ərizəyə nə gəlib..."

Kişi sahildən geri çəkildi. Sənələrdən bəri aradığı, uğrunda dəmir başmaq yırtdığı bir sirri gözləmədiyi qaranlıq bir yerdə tapmış kimi sevincək qayıtdı. Stalinə yazacağı ərizəni düşünə-düşünə şəhərə, yanan işıqlara, gəzən adamlara, gurultulu küçələrə doğru yeridi.

Məsum gedirdi, gedə-gedə fikirləşirdi. Fikirlər onu gah sevindirir, gah bir ümidə bağlayır, gah ruhdan salır, gah məyus və peşman edir, gah da lap çaşbaş qoyurdu.

Onun yerişi də belə idi, gah iri addımları ilə asfaltı ölçür, gah ağacların narın kölgələri altına çəkilib yavaşıyır, gah boynunu qaşıyaraq, sağına-soluna baxır, ya dimdik huşyar dayanıb sanki uzaqdan gələn bir səsi dinləyirdi.

Bütün bu tərəddüdlərdən sonra yalnız bir şey üzərində bərk durdu: Stalinə şikayət!

Məsum kişinin həyata doğru yeganə yolu bu idi. Onu bu əzmindən qaytarmaq ölüm deməkdi və ancaq ölüm qaytara bilərdi.

Bəs Məsum kişini məyus edən nə idi? O, savadsızdı. Belə bir ərizə yazmaq onun əlindən gəlməzdi. Aydındır ki, bunu oğlundan da xahiş edə bilməyəcəkdi.

Tanışlardan heç kəsə ürəyi qızmır. Bilir ki, bu balaca məsələ deyil. Bilənlər o saat oğluna xəbər verəcəklər.

Məsum kişi çox fikirləşdi. Axırını bir yana çıxara bilmədi. Ərizə yazan bir idarə tanımır. Ürəyi bir adam tapmırdı. Fikir-xəyal içində get-

dikcə gedirdi. Başını qaldıranda özünü kitab dükanının qabağında gördü.

Cavan-cavan məktəblilər vitrinaların qabağında dayanıb baxır, kitabların üstünü oxuyur, bir-birinə göstərirdilər. Məsum kişi bir qarayağız oğlanın qolundan yapışdı:

– Bacıoğlu, sənə sözüm var.

Oğlan, belə laübali bir kişinin gözlənilməz hərəkətindən və sözündən xoflandı. Bir onun üzünə, bir qiyafəsinə baxdı. Dinmədi. Məsum kişi sözünü deyəndən sonra çəkilib küçənin bir tərəfində dayandı. Məktəblini gözlədi. Məktəbli ona yaxınlaşdı. Kişi məktəbliyə dedi:

– Bacıoğlu, səndən bir xahişim var, təvəqqe edirəm, mənə əl boyda bir kağız yazasan. Stalinə şikayətim var, işim düşüb. Allah səni ata-na-anana çox görməsin.

Məktəbli yoldaşlarını çağırdı:

– Ay İbrahim, kağızın varmı?

– Var, neynirsən?

– Əmiyə ərizə yazaq.

– Nə ərizədi, ayaq üstdə?

İbrahim kağız çıxardı, qarayağız oğlan küçənin sağına tərəf getdi:

– Bura gəlin, qiraətxanaya gəlin.

## III

Məsum kişi belini əyir, bir əlini dizinə qoyur, bir əli ilə də kağıza işarə edib tələbəyə deyirdi:

– Əzəl başdan yaz ki, məndən, Qarxınlı Məsumdan çox-çox salamdua... İkincisi, yoldaş Stalin, sənə oğlumdan şikayətim var. Harda yazılıb ki, oğul atanı evindən qovsun, ayağa salsın. Mən özüm yaxşı bilirəm ki, yoldaş Stalin, sən özün dünya rəhbərisən. İşin çox-çoxdur. Yenə ananı görmək üçün Moskvadan Tiflisə gəlirsən. Çünki vacib bilirsən...

Tələbə dayandı:

– A kişi, sən düz adama oxşamırsan. Elə yerlərdə nə işin var. Sən şikayətini elə, bu nə söhbətdir.



Tələbə bunu deyib qələmi yerə qoydu:

– Mənim işim deyil, xatası-zadı çıxar. Sabah di gəl görək bunu yazan kimdir. Yox əmi, məni bağışla...

Tələbə yazdığını cırdı, çıxıb getdi. Məsum kişi qiraətxananın qapısında mat-məəttəl, donmuş kimi qaldı. Tələbənin hərəkəti onu bir az qorxutdu: "Hə, görəsən, rəhbərin acığı tutar?" Yenə kişini fikir-xəyalat götürdü. Darıxdığından eşiyə çıxdı, yaxasını cırdı. Yenə üzünü sahilə sarı tutub yeridi: "Deyəsən, mənim o dənizdən savayı nicat yolum yoxdur, axı." Gedirdi, amma ürəksiz gedirdi.

Heç inana bilmirdi ki, rəhbərə şikayət üzündən ərizə yazmaq qəbahət sayılsın. Bir deyil, min adamdan eşitmiş, neçəsinin işinin düzəldiyini gözü ilə görmüşdü. Öz-özünə fikirləşdi: "Yox, belə deyil ki, belə olsun. Stalin özü fəhlə balasıdır. Özünün başı pis adamlardan az cəfa çəkməyib, sürgün görüb, pis gün görüb, kasıb-kusubun halını ovcunun içi kimi bilir. Ərizəyə acığı niyə gəlsin... Tələbəyə inanmağı gəlmirdi:

"Oxuyanda nə olar, – deyirdi, – uşağın birisidir. Dünyanın işlərini nə qanır? İsti-soyuq dadmayıb. Yox, canım, ayrısına yazdıracağam."

Bu sözü ürəyində deməyi ilə təkrar qiraətxanaya sarı dönməyi bir oldu.

## IV

Məsum kişi şikayət kağızı yazdırandan sonra oğlunun evinə dönmədi. Bütün gecəni böyük şəhərin işıqlı küçələrində əli qoynunda, yorğun, yuxusuz, sərgərdan gəzdi.

Axırda əldən düşdü, bir çörəkxanaya girib xahiş elədi:

– Yerim yoxdur, bir gecəliyə qoyun daldalanım.

Çörəkxanadakılar vurhavur işləyir, su tökür, xamır yoğurur, kürəyə od qoyurdular. Qolu çirməkli, uzunboy xamırgir işarə ilə taxtın üstünü göstərdi.

Məsum kişi "Allah səndən razı olsun" deyib içəri girdi. Taxtın üstünə qalxıb palaz üstündə uzandı. Kişini o saat yuxu apardı.

Çörəkçilər gecəni səhərə qədər işləyər, verilən unu çörək eləyib arabalara doldurmayınca rahat olmazdılar. Bu gün saat doqquzu vu-

randa işlər tamam qurtarmışdı. Süpürgəçi teşti yuyur, kürəni təmizləyir, aranı yığışdırırdı. Məsum kişi gözünü açanda ucaboy xamırgirin oturub çay içdiyini gördü, xamırgir soruşdu:

– Yəqin, taqqataqdan yatmadınız, hə?

– Yox, qardaşoğlu, lap rahat yuxuladım. Həmişə rahatlıqda olasan.

Xamırgir Məsumun qabağına da bir stəkan çay qoydu.

– Haradan belə, – dedi, – əmi? Qərib adama oxşayırsınız?

Məsum kişi, xamırgirin sözündən köyrəldi. Başını aşağı saldı və dedi:

– Qərib olsam nə var, ay oğul, bədbəxtəm.

Xamırgir maraqlandı:

– Necə bəyəm, əmi, nə üz verib?

Kişi başına gələnləri açıb danışanda xamırgir təəccüb elədi. Doğma övladdan belə işi birinci dəfə eşitdiyini dedi və əlavə etdi:

– Özünüzdə günah var. Acığına gəlməsin, səndə də var.

– Mən nə eliyə bilərəm, ay bala?

Xamırgir hirsli bir ahənglə danışdı:

– Necə nə eləyə bilərəm, səni sağ olasan, bu nə zəmanədir ki, sən bu tövr övladın kölgəsində yaşayırsan. Bəyəm sənə nə olub, əlin, başın salamat adamsan. Qoca olanda nə olar. Tüpürərəm, elə oğlun evinə də, eşiyinə də. Odur ey, sağ olsun hökumətin işi, qayğısı, gəl, lap mənnən köməkləş, bir aydır adam axtarıram. Qapıda 5-6 saat qaravul durmağa bir adam tapmıram. Sənə nə olub, bir tikə çörəkdən ötrü, bağışla məni, itin sözünü eşidəsən.

Məsum kişinin gözləri işıqlandı.

– Sən doğrudan deyirsən?

– Doğrusu yoxdur. Günü bu gündən sən mənim işçimsən, meylin çəkirsə.

Məsum kişi şadlıqdan gülümsədi, dinmədi, yadına bir şey düşmüş kimi soruşdu:

– Ay oğul, axı mənim qalmağa yerim də yoxdur.

Xamırgir əli ilə olduğu yeri göstərdi:

– Yer budur ey, bəyəm mənim alaxanam-balaxanam var? Hələlik burada yaşayıram, sağlıq olar, otaq-zad düzəldərik, söz veriblər.



O gündən Məsum çörəkxanada qarovulçu vəzifəsində çalışmağa, xamırgirə bir yerdə yaşamağa başladı.

O, indiki dinc və sakit həyatından o qədər razı idi ki, oğlunun evindəki günlərinə lənət oxuyurdu. Belə bir yeri vaxtında axtarıb tapa bilməməsinə, nahaq yerə pis fikirlərə düşməsinə təəssüf elədi. Öz-özünə dedi: "Gərək ərizə-zad da yazmayaydım."

Məsum kişi on-on iki gün yaşadı və ürəyində qoydu ki, bu məsələni xamırgirə heç açmasın.

Bir axşam Məsum kişi özünə qənd almağa, aşağılara, mağazalara sarı getmişdi. Çörəkxananın qabağında bir maşın dayandı. Qarabuğdayı cavan bir oğlan düşüb içəri gəldi. Xamırgirdən Məsum kişini soruşdu.

Xamırgir unlu kisələri sayıb üst-üstə yığırdı.

Maşını və oğlanı görəndə, Məsum kişini axtardıqlarını biləndə quruyub ayaq üstdə qaldı:

– Qardaş, neynirsiniz Məsum kişini?

Qarabuğdayı oğlan dedi:

– Vacib işimiz var. Haradadır o?

Xamırgir irəliyə gəldi:

– Bu saat burada idi. Qənd almağa getdi.

– Ha tərəfə?

– Bu yana, yəqin mağazada olacaq, istəyirsiniz gedim çağırım.

Qarabuğdayı oğlan xahiş etdi:

– Mümkünsə çağırın, mən üzdən tanımıram, yoxsa özüm gedərdim.

Xamırgir pencəyini əyninə çəkdi. Papağını başına atıb mağazalara sarı götürüldü.

Məsum kişi qucağında kağıza bükülü nə isə gətirirdi. Xamırgir əli ilə işarə elədi:

– A kişi, sən düz adama oxşamırsan. Bu nə işdi, maşın ilə axtarırlar, gəl görək.

Məsum kişi qızardı:

– Necə bəyəm?

– Maşın gəlib dalınca. Nə işdi bu? Məni də xataya-zada salarsan ha? Müsürmana yaxşılıq yoxdu...

Məsum kişi özünü itirdi və xamırgirin sözündən utandı:

– Qorxma, qardaşoğlu, hər nə olsa, sənə ziyanım dəyməz. Ərizəm var, bəlkəm...

Qarabuğdayı oğlan Məsum kişi ilə əl verib görüşəndə və xoş dindirib maşına əyləşdirəndə xamırgirin ürəyi yerinə gəldi. Bildi ki, "xeyir olacaq!"

V

Bakı Soveti sədri, rəhbərə yazılan ərizə ilə tanış olandan və Məsum kişinin özünü danışdırandan sonra hirsindən dil-dodağını gəmirirdi. Bilmirdi haradan başlasın, Verdiyevi necə tənbeh eləsin ki, ürəyi soyusun.

Verdiyev onların işçisi idi. Həm də komsomolçu idi. Onun tutduğu bu bəd əməldən bütün idarə, komsomol katibindən tutmuş həmkarlar təşkilatçısına qədər, hamısı utanırdı. Sədr Verdiyevi kabinəsinə çağırmışdı. Verdiyev ərklə içəri girib sədrə əl verdi və təklifsiz-zadsız oturdu. Qıçını qıçının üstünə aşırdı. O güman edirdi ki, sədr onu, kim bilsin, hansı idarə işi, ictimai tapşırıq üçün çağırmışdır. "Axı mən komsomolçuyam, inanırlar, saya salırlar..."

Verdiyevin özünü belə saymazyana aparması sədrin acığını daha da artırdı. Sədr zəngi basıb qapıçısına tapşırdı ki, adam buraxmasın. Verdiyev bunu görəndə mühüm və ya xüsusi bir məsələ üçün çağırıldığına inanıb bir az döyükdü və özünü yığışdırdı.

Sədr dedi:

– Verdiyev, səndən material var, deyirlər, alverçilərdən üzük alırsan.

Sədrin sözündən Verdiyevin başı gicəlləndi, gözləri bərəldi. Stulundan qalxıb təzədən oturdu. Heyrətindən ağzıaçıq qaldı, nə isə demək istədi. Sədr davam etdi:

– Bəli, deyirlər, alverçilərdən arvadına brilyant üzük alırsan, doğrudurmu?



Verdiyev and-aman elədi:

– Vicdan və məsləkimiz haqqı yalandır, yoldaş Nadir. Mənim arvadımın iki dənə brilyant üzüyü var. İkisini də Mostorqdan almışam. Birini toyda, birini də beş-altı ay bundan qabaq. İstəsəniz...

– Onların kiftansiyası varmı?

– Var, bəli, bu saat istəyirsiniz...

Sədr istədi:

– Lazımdır, gətirin, kiftansiyaları olmasa da, Mostorq malı məlumdur. Bu saat gətirin, sonra danışaq.

Verdiyev yüyürərək gedib evdən üzükləri gətirdi. Cənnət xanım məsələni bilib təşvişə düşdü, geyinib ərinin dalınca yollandı:

– Özüm gedim, görüm bu nə böhtandır. Cənnət xanımı sədrin yanına buraxmadılar. O, qapıda müntəzir və səbirsiz gəzinirdi. Verdiyev sədrin qabağında dayanmış, stolun üstünə qoyduğu üzüklər barədə izahat verirdi.

– Bəlkə sizdə bunlardan başqa üzük olmuşdur. Sonra itib batmışdır.

Verdiyev əlini qətiyyətlə rədd elədi:

– Xeyr, xeyr, bizdə bundan başqa üzük-müzük olmayıb. Biz, vobşe, şey itirən deyilik. Handa qalmış üzük ola.

Sədr zəngi basdı. Məsum kişi içəri girdi. Sədr üzünü Verdiyevə tutdu:

– Bəs deyirlər bu kişi sənin evindən üzük oğurlayıb?

Atasını görəndə Verdiyevdə rəng-ruf qalmadı, elektrik vurmuş kimi qapqara qaraldı. Bütün taqəti getdi. Əl-qolu yanına düşdü. Bədəni od tutub yandı. Üzündən tər axdı. Nadir davam etdi:

– Bunu tanıyırsan ki, deyirlər sənin üzüyünü oğurlamışdır?

Verdiyevin gözü alacalandı, dili söz tutmadı. Qorxusundan dizləri əsdi.

Sədr öz yerindən keçib gəldi, Verdiyevin lap qabağında şax dayandı. O, niyyətində tutmuşdu ki, "heç bir cəza ilə ürəyim soyumayacaq, bu vicdansıza bir şillə tutuzduram gərək, mənimki keçib."

Bu fikirlə də Verdiyevin lap gözünün içinə baxdı, sağ əlini cibindən çıxartdı. Məsum kişini göstərib bərkdən soruşdu:

– Tanıyırsan ki?
Verdiyev başını aşağı salıb yavaşdan dedi:
– Atamdır.
Məsum kişi dilləndi:
– Mənim o adda oğlum yoxdur, yoldaş Nadir.
Nadir güclə özünü saxladı, yerinə keçib dedi:
– Verdiyev, doğrusu, mən səndən qorxuram.
Verdiyev məzlum bir səslə cavab verdi:
– Mənim nəyimdən qorxursunuz, yol...
Sədr onun sözünü ağzında qoydu:
– Qorxmalıdır, vicdansız adamdan bir xalq, böyük bir ölkə də qorxmalıdır.
Bunu deyib katibini çağırdı. Komsomol komitəsi katibi Salman da gəldi.
– Yaz, bunun işini şəhər prokurorluğuna göndər. Yoldaş Salman, siz də bunun məsələsini komitədə qoyun. Baxaq görək hansı axmaq buna komsomol kitabçası verib.
Nadir Məsum kişinin qolundan tutub mənzil sektoruna apardı. Sektor naçalniki ayağa qalxdı, sədr ona tapşırdı:
– Yoldaş Rəhim, bu kişiyə nə təhər olsa, sabaha qədər bir otaq düzəltməliyik. Rəhbərin tapşırığı var, elə elə ki, ləngiməsin. Nəticəsini mən bilim.
Rəhim Məsum kişinin familiyasını, ünvanını yazıb götürdü.
Nadir Məsum kişi ilə yenə öz kabinəsinə döndü.
– Əmi, doğrusu, mən xəcalət çəkirəm o binamusun əvəzinə. Hərçənd sənin öz oğlundur. Amma bir yandan da bizim işçimizdir. Bizi biabır edir. Nə isə, Rəhimin verdiyi otağa köçərsən. Prokurorluq da baxacaqdır. Həpirin qazancından sənə çatası ata haqqını hər ay gəlib bizim kassadan apararsan. Ləngidib eləsələr, incitsələr bax, düz bu otağa, öz yanıma gələrsən.
Məsum kişi bilmirdi, sədrə necə, nə dillə razılıq etsin. Onun əlini ovucları arasına alıb bərk-bərk sıxır və ürəkdən deyirdi:
– Sizi görüm, oğul, pis gün görməyəsiz...
Məsum kişi Nadirin əllərini buraxmır, nə isə demək istəyirdi, lakin deyə bilmirdi. O, qızarmış və həyəcanlı gözləri ilə yuxarı baxır, əllərini şimala sarı qaldırıb deyirdi:
– Görüm, ay yoldaş, o Stalini, o kişini, o rəhbəri görüm min yaşasın. Onu görüm dünya durduqca sayəsi başımızdan əskik olmasın. Onsuz bir günümüz olmasın, bala.
Məsum kişinin, öz doğma oğlundan bəlalar, cəfalar görmüş qocanın rəhbərə məhəbbətini, duasını, duyğusunu görən Nadirin gözləri yaşardı. Kişini qucaqlayıb öpdü, öpdü...
Bu dəqiqədə Həpir pərt bir halda küçə ilə gedir. Cənnət xanım da onu təqib edirdi:
– Bəs demədin mənim şəxsi işimdir?
Həpir də qaşqabaqlı soruşdu:
– Prokurorluqda tanışın var?
Üç gün sonra Məsum kişi əlində uzun bir açar xamırgirin qolundan tutub çəkirdi:
– Sənsiz qədəm götürmərəm. Mənim oğlumsan. Mənimlə bir mənzilə köçməlisən, vəssalam!

*1940*

# MƏRİFƏT DƏRSİ

Qayıdanda iki gün Tbilisidə qaldı, o gözəl, səfalı şəhəri yaxşıca gəzdi.

Botanika bağından qayıdanda körpüdə dayanıb Kürə baxırdı. Yaz idi. İlkindi günəşinin altında sular tunc rəngi çalırdı. Bu böyük, sakit, lal axar çaya baxdıqca İlyasın gözü axırdı. Xəyalı qırlanqıç kimi Kür üstündə qanad salıb süzürdü. Azad və məğrur Qafqazın uca dağlarını, yalçın, qartallı və müdhiş qayalıqlarını, geniş və ceyranlı düzlərini, güllü-bülbüllü bağlarını, məhsullu tarlalarını, şənlikli yollarını, təzə kəndlərini, böyük şəhərlərini, yollarını, körpülərini seyr edirdi.

İlyasın çiyninə bir əl toxundu. Dönəndə ibtidai məktəb yoldaşı və çoxdan ayrıldığı dostu Kamili gördü.

– Xoş gördük, dostum, sən hara, bura hara? Nə əcəb, xeyir ola?

İlyas Kamilin əlini sıxdı, Naxçıvandan gəldiyini, Tbilisini seyr etmək üçün iki günlüyə əyləndiyini dedi. Kamil soruşdu:

– Bəs hara düşmüsən?

– "Orient"dəyəm!



– Çox ayıb olsun mənə. Mən burada dura-dura, Tbilisidə evimiz ola-ola, döşənmiş otaqlarımız boş qala-qala mehmanxanaya niyə düşürsən, a sağolmuş?

İlyas bir az utanan kimi oldu.

– Burada yaşadığınızı bilirəm, ancaq adresini necə tapaydım?

– Vəfalı dost axtarar da, tapar da.

Kamil dostu İlyası o qədər sözə basdı ki, az qaldı İlyas xəcalətindən qızarsın. Başını aşağı salıb söhbəti dəyişmək üçün söz axtardı. Deyəsən, bunu Kamil də hiss etmişdi. İfadəsini dəyişib soruşdu:

– Nə vaxt gedirsən?

– Bu axşam saat doqquz maşını ilə çıxıram.

– Düzün de!

– Dostumcanı, biletim budur cibimdə!

İlyas bunu dedi və güman elədi ki, dostu getməyinə razı olmayacaqdır. Qonaq saxlamaq, ev-eşiyini göstərmək üçün qalmağını təkid edəcəkdir. Xəyalında qoydu ki, çox bənd olsa qalsın, Tbilisiyə yaxşı bələd olan dostu ilə bir də gəzsin, gürcü rəssamlarının sərgisinə, mümkün olsa bir teatra da getsin.

Amma Kamil İlyasın gedəcəyini eşidəndə bir az da sevindi.

– Mən, sənin kimi Bakıya gedən bir adamı göydə axtarırdım, yerdə əlimə düşmüşsən. Baldızımı Bakıya yola salacağam. Dostdan-tanışdan bir arxayın adam axtarırdım qoşam. Nabələddir, Tbilisidən qırağa çıxmayıb, tək buraxmağa qorxuram. Nə yaxşı oldu, sən rast gəldin. Gedim bilet alım, çamadanı-zadı hazırlayım, gəlsin.

Dostunun bu xəbəri İlyası çox sevindirdi. İlyasın yerinə hər kəs olsa sevinərdi, yumşaq vaqonda, belə bir həmdəmlə uzaq yol getmək çox ürəkaçan şeydir, hər adama da müyəssər olan xoşbəxtlik deyil.

İlyas razılıq verdi:

– Arxayın ol, – dedi, – baldızını aparıb istədiyi yerə çatdıraram, hər nə zəhməti də olsa mənim boynuma. Ayrı nə qulluğun olsa, ona da hazıram.

– Çox sağ ol, elə bunun özü böyük minnətdir boynuma qoyursan, mən sənin kimi arxayın adamı haradan tapacaqdım? Lap yaxşı oldu ki, görüşdük...

Kamil tələsik dönüb bilet dalınca gedəndə İlyasdan soruşdu:

– Neçənci vaqondasan?

İlyas on birinci yumşaq vaqonda olduğunu söylədi və ürəyində arzuladı ki, "qız ilə bir vaqona düşsəydik nə gözəl olardı..." Yarı qətiyyət, yarı həya ilə Kamilə dedi:

– İstəyirsən birlikdə gedək, mənim kupemdə boş yer var, kassirə deyərik, həmin yerə bilet verər. Daha sonra başağrısı olmasın, özgə vaqonda nə lazım, tək... Bərkə qalanda mən yerimi ona verib özüm ayaq üstə də dura bilərəm...

Dostlar vağzala getdilər. Yumşaq vaqona, beşinci kupedəki boş yerə bilet aldılar. İlyas işi ürəyi istəyən kimi düzəltdiyinə daha da sevindi.

Axşam saat doqquzun yarısında maşının tərpənməyinə yarım saat qalanda, vağzalda görüşməyi şərtləşdilər. Kamil evə yollandı.

Kamildən ayrılandan sonra İlyasın ürəyi döyünməyə başladı. Sanki dostu, baldızı sarıdan İlyasa arxayın olmaqla, onun öz arxayınlığını əlindən aldı. İlyas yerişində, tərpənişində mənasız bir təlaş duydu, ürəyində ümidli bir intizar oyandı. Nəyi isə düşünə-düşünə, nə üçünsə o tərəf-bu tərəfə vurnuxa-vurnuxa böyük şəhərin izdihamlı küçələrində dolaşdı. Gözünü açanda özünü şirniyyat mağazalarının birində gördü. Satıcının səsi onu lap ayıltdı.

– Hansından buyurursunuz, yoldaş?

İlyas bəzəkli, bahalı konfetlərdən seçdi, hərəsindən bir az-bir az çəkdirdi. Sonra ətriyyat mağazasına keçib iki balaca şüşə ətir, bir gülcahan sabunu, bir diş şotkası, xlorodont aldı. Yadına düşdü ki, məhrabası yaman gündədir, üzə çıxası deyil. Mağazalar da bağlanmışdı. Dərzi dükanının qabağından keçəndə, divardan asılı dəsmal kimi bir şey görüb içəri girdi. Dükandar irəli yeridi ki, "xahişiniz nədir?" İlyas piştaxtanın üstündən əyilib divardakı paltarlara diqqətlə baxdı. Qadın paltarı, naxışlı köynəklərdi. Çıxmaq istədi, nə fikirləşdisə dayandı, üzünü satıcıya tutdu:

– Qonşu, – dedi, – mən paltar-zad alan deyiləm, qərib adamam. Amma sizə bir işim düşüb, yoldaşımın bir yaxşı üz dəsmalı mənim çamadanımda idi, yolda oğurlatmışam. Yoldaşım da kəndlidir, pul verirəm, almır. Deyir, öz dəsmalımı ver. Özüm də yola tələsirəm, mağazalar da bağlanıb. Mümkün elə, tanış evlərdən-zaddan mənə bir dəsmal tap, neçəyə olsa alaram.



Satıcı bir az dinmədi, fikirləşdi, İlyasın darda qaldığına inandı.

– Tapılar, – dedi, – bu yaxınlarda bir dərzi dükanı var, qadınlar işləyir, nə cür dəsmal desən olar, ora gedin.

On-on iki yaşlı bir uşaq çağırdı tapşırdı:

– Mişka, bu yoldaşa Nataşanı nişan ver, şey almaq istəyir.

Nataşa saya dəsmal verdi, İlyas bəyənmədi. Kənarlarında xoruz şəkli çəkilmiş naxışlı bir dəsmal gətirib dedi:

– Buna necəsən, beləsi sizlərdə moddur, görmüşəm.

İlyas özünü sındırmadı:

– Yox, Nataşa bacı, bu naxışlar köhnə şeylərdir. Xoruz döyüşdürən qədim kişilərin zövqü belə imiş. Ancaq zövqdən-zaddan keçib, yol üstəyəm, bunun pulu neçə eləyir, deyin!

Dəsmalı alıb vağzala gedərkən, yenə fikirləşdi, Kamilin baldızını fikirləşirdi: "Doğrudur, Kamil ilə dostam, amma çoxdan ayrılmışıq. Onun burada olduğunu və gözəl bir tbilisili qızı aldığını eşitmişdim, onu da eşitmişəm, şairlərin əsərlərində oxumuşam ki, tbilisili qızlar gözəl olur. Gözəllikdən əlavə, kulturalı olurlar, üç-dörd dil bilirlər... Mən indi Kamilin baldızı, tbilisili qız ilə bir sutka yol yoldaşı olacağam. Onunla rəftarı, yanaşmağı, oturub-durmadı, danışmağı bacarmalıyam... Elə olsun ki, qız Bakıda da məndən əl çəkməsin."

İlyas vağzala çatanda düz səkkiz tamamdı. Tez vaqona girdi. Əl-üzünü yudu, çamadanını açıb üst köynəyini dəyişmək istəyirdi. Konduktor gəldi:

– Yoldaş, bu saat yuyunan siz idinizmi?

– Bəli, mən idim.

Konduktor bir qəbz yazıb İlyasa verdi:

– Üç manat cərimə verəcəksiniz, vaqon durduğu yerdə yuyunmaq qadağandır.

Ayrı vaxt olsa İlyas konduktora bir kor qəpik də verməzdi, qışqırıb aləmi başına yığardı. İndi əhval başqa cürdü. Qızın yanında abırlı, mərifətli görünmək üçün əlindən gələni eləyirdi. Konduktor beş manat

yox, yüz manat da istəsə, İlyas dinməyəcəkdi. Qoltuq cibindən bir beşlik çıxarıb konduktora verdi, işinə məşğul oldu. Təzə köynəyini geyib güzgünün önündə dayananda, üzünü saqqal basdığını görüb vaysılandı. Çamadanını bağlayıb yuxarı qoydu, vağzal bərbərxanasına yüyürdü. Yeddi-səkkiz adam növbəyə durmuşdu. Lap qabaq stulda qarayanız, uzunsifət, zahirən mülayim bir adam oturmuşdu. İlyas onun qulağına pıçıldadı:

– Əziz yoldaş, bizim poyezd on beş dəqiqəyə yola düşür, tük də üzümü yeyir. Çox xahiş edirəm, mümkün olsa, növbənizi mənə güzəştə...

Qarayanız oğlan razılıq verdi. İlyas keçib oturdu, ustaya dedi:

– Əlinə dönüm, usta, baş-gözümə bir yaxşı seyqəl ver görüm...

O, tamam hazır olub vaqona çıxanda poyezdin tərpənməyinə hələ on dəqiqə vardı. Vağzal ağzında camaat qarınca kimi qaynaşırdı. Adamlar dəstə-dəstə əllərində çamadan, səbət, bağlama, qucaqlarında uşaq o tərəf-bu tərəfə qaçışıb öz vaqonlarını axtarırdılar. Konduktorlar fanar işığında biletləri yoxlayıb içəri buraxırdılar. İlyasın gözü bufetin qapılarında idi. Dostunu, daha açığı, dostunun baldızını aramsız gözləyirdi. Dörd gözlə baxırdı, elə xəyal eləyirdi ki, bu saat bufetin ağzında əlində şey olan bir hambal, onun yanında tələsik yeriyən və döyükərək vaqonların nömrəsinə baxan dostu, yanında da nazik, ipək yaz libası geyinmiş qız görünəcəkdir... İlyas fikrində qoymuşdu ki, onlar bufet səkisinə çıxan kimi mən yerə düşərəm, qabaqlarına qaçaram, zəhmət çəkib axtarmalarına macal verməram...

Nə fikirləşdisə, tez konduktoru tapdı, kupeni süpürdüb təmizlətdi, kupesindəki boş yerə bilet alındığını dedi. Özgə adamın kupeyə buraxılmamasını tapşırdı. Qız üçün təmiz bir yatacaq gətirtdi. Konduktor yatacağı açmaq istəyəndə o, mane oldu:

– Dayan, – dedi, – qoy dursun, hələ açma. Mən səni çağıranda gəlib yerbəyer eləyərsən.

İlyas qorxurdu ki, tbilisili qız yatacağı açıq, hazır görə, elə bilər ki, yatacaq da biletin üstündədir. Bunun üçün əvvəlcədən düşünən, onun qayğısına qalan adamın zəhmətini, ehtiramını hiss etməz: bu yatacağı ona gətirdən var, onun qeydinə qalan var. "Qoy tbilisili qız öz gözilə görsün ki, onun yolunda bir alagöz beşliyindən keçən var. Bunun ayrı təsiri olacaq". Konduktor isə bunu başa düşmədi. Güman etdi ki, İlyas yoldaşına yatacaq gətirməyinə peşman olmuşdur. Bir az duruxdu:

– İstəmirsiniz, – dedi, – aparım.

İlyas pərt oldu:

– Bu sənin pulun, acizanə rica edirəm, yoldaş, hələlik açmayasan, yerin yiyəsi gələndə çağıraram açarsan, başa düşdün?

Konduktor çıxıb getdi. Dostunun gecikməyindən İlyas lap darıxdı. "Yəqin, – dedi, – O, bizim poyezdin yerini yanılıb. Bəlkə xamdır, dal poyezdlərdən birinə çıxıb məni axtarır." Bu fikir başına gələn kimi İlyas düşdü, yolları hoppana-hoppana dal vaqonları gəzməyə getdi. Aləmi bir-birinə vurdu. Vaqonlara girib itikli adamlar kimi hamını bir-bir nəzərdən keçirdi. Dostunu və tbilisili qızını tapa bilmədi. Vaqonlardakı gözəl-gözəl qızları gördükcə, musiqi kimi xoş səslərini eşitdikcə, onlarla şirin-şirin söhbət eləyən, deyib-gülən, onlara gül verən gəncləri gördükcə paxıllığı tuturdu, ürəyi tələsirdi. Xoşuna gələnləri dostunun baldızına oxşadırdı. Amma, nədənsə, xəyalında onu, hələ görmədiyi, tanımadığı tbilisili qızı gördüklərinin hamısından gözəl və munis bilirdi. Ona elə gəlirdi ki, qız ilə tanış olub qabaq-qabağa oturan kimi, onunla Azərbaycan dilində kəlmə verib, kəlmə alan kimi bütün vaqondakılar, hətta bu təntənəli xanımlarla vaxt keçirən oğlanların ağzı açıla qalacaq, hamısı həsrət çəkəcəklər.

Poyezdin tərpənməyinə üç dəqiqə qalanda, İlyas dostunu tapa bilmədiyindən məyus halda vaqona çıxdı. Kupesinin qapısında çox adam durduğunu görüb yüyürdü. Qapıdan içəri boylananlara baxanda yəqin elədi ki, qız gəlmişdir, vaqondakılar da, hərə bir şey bəhanə edib, qıza baxmaq üçün kupeyə boylanırlar. Onların bu cür kulturasız hərəkətlərinə bir qədər əsəbiləşdi də. Adamları birtəhər aralayıb içəri baxanda, dostunun qan-tər içində nərdivan pilləsində dayandığını, çamadanları yerbəyer elədiyini gördü, şadlığından ürəyi döyündü, güclə deyə bildi:

– Ay Kamil, bəs hardasan sən?

Kamil gülümsəyib cavab verdi:

– İçəri keç, baldızım səni axtarır. Gəl tanış olun!

Kamilin sözünə, qapıdakı adamlar ara verdilər. İlyas kupeyə gi-

rəndə qoca, arıq, kaftar bir qarının söykənib oturduğunu gördü. Dostunun baldızını, o tbilisili qızı görmək üçün sağa-sola çevrikdi, yuxarıya baxdı. Kamil qarını göstərib dedi:

– Tanış ol, baldızım ilə tanış ol!

İlyas qurudu qaldı. İstər-istəməz əlini qabıq kimi nazik, soyuq, quru bir ələ toxundurdu. İlyas gülünc bir heyrət, qəribə bir dolaşıqlıq içində çaşıb donmuşdu. Kamil sanki onun gəlməyini gözləyirmiş, dəsmalı ilə alnının tərini sildi, "di xudafiz" deyə, görüşüb getmək istədi.

İlyas dedi:

– Bəs sənin kiçik baldızın, deyirdin tapşırmaq...

Kamil İlyasın nə demək istədiyini gözəlcə anlayırdı, ona görə cümləsini bitirməyə qoymadı.

– Yox, kiçik baldızım öz yanımda qalır. Ancaq bunu sənə tapşırıram, arxayın oluram. Hələlik, yaxşı yol...

Kamil çıxanda İlyas hiss elədi ki, konduktor qapıda ona müntəzirdir. Konduktor İlyasın başı açıldığını görən kimi üst yerdəki yatacağa işarə edib soruşdu:

– Açımmı?

Onun sualına qarı da başını qaldırıb yatacağa baxdı. İlyas hirsindən dolmuş gözləri ilə bir qarıya, bir yatacağa, bir özünə baxdı, bir də konduktora baxdı. Danışmağa dili gəlmədi. Gözü ilə konduktora işarə elədi və əlini tovladı.

– Aç!

Poyezd çoxdan yollanmışdı. Hər kəs öz yerinə çəkilmişdi. Beşinci kupedə bir qarı, bir də İlyas qalmışdı.

İlyas ha çalışırdı ki, boşa çıxan ümidlərinin xarabalığına baxmasın, olmurdu. Balaca bir kupedə bu mümkün deyildi. Qarı pis əməl kimi İlyasın gözünə soxulurdu. İlyas dünyada belə bir ifritə kimi də baldız olacağını əvvəlcədən düşünə bilmədiyinə heyifsiləndi. İndi anladı ki, dostu nə üçün baldızını tapşırmağa adam tapmırmış. Cəhənnəmə olsun, çətini poyezdə oturana qədərdi. Burada mənə əziyyəti dəyməz. Bakıya düşəndə də birtəhər yayınıb başımdan rədd eləyərəm.

İlyas pəncərədən baxa-baxa fikirləşirdi, qarı yastığına dirsəklənib həmsöhbət axtarırdı. Neçə dəfə İlyasa söz atdı: "Bu hansı vağzaldır?", "Deyəsən, yağış var", "Siz çoxdanmı Bakıdasınız?.." İlyas onun suallarını eşitmirdi, eşitsə də cavab vermirdi, bəzən də üzünü pəncərəyə tutub könülsüz bir "yox", ya "hə" deyirdi.



Birdən İlyasın ətəyini çəkdilər. Dönəndə qarının əsəbi üzünü, titrəyən dodaqlarını gördü.

– Sizə deyirəm bir dəqiqə məni tək buraxın, soyunum, sonra gələrsiniz! Soyunuram!

İlyas başını aşağı saldı, kupedən çıxdı.

■ ■ ■

Poyezd təmiz havada, səhər günəşinin ilk şüalarını kəsib ötəndə vaqonlarda həyat qaynayırdı. Kimi geyinib pəncərə qabağında durur, kimi vaqon-restoran arzulayır, kimi öz kupesində çay-çörək hazırlayıb qəlyanaltı eləyirdi. Bufetin satıcıları səbət dolusu bulki, pirojna, şəkərçörəyi, konfet, kürü, limon gətirirdilər.

İlyas da oyandı, gözünün ucu ilə baxanda qarının geyinib oturduğunu gördü, o da qalxdı.

Qarı çamadandan balaca, göy çaynik çıxarıb dedi:

– Çay içməsəm başım gicəllənər, ürəyim gedər. Çox pis öyrənmişəm, ay oğul. Gör bu çayniki vağzalda dağ su ilə doldura bilərsənmi?

İlyasın acığı tutdu, cavab vermədən eşiyə çıxdı. Xəyalında deyirdi: "Bəli də, xeyriniz olsun. Xalq mələk kimi qızlarla məzə versin, məzə alsın, biz də qarı nənəyə su daşıyaq... Bircə onu görə bilməyəcəksən, ay kaftar..."

İlyas bu fikirdə vaqonun perronunda pəncərə qabağında söhbətə qızışan adamların içində qəsdən vaxt yubadırdı ki, poyezd vağzala çatanda yaxası qarının əlinə keçməsin.

Poyezd böyük vağzalda dayananda İlyas vaqonların birindən göz yetirirdi. Qarının göy çaynikini heç kəsin əlində görmədi. Poyezd yollanandan sonra öz yerinə gəldi, yetirən kimi çəkmələrini soyunub uzanmaq istədi. Qarı oturmuşdu. Göy çaynik də piştaxtanın qabağında idi. İlyas qarının hələ də çaysız olduğunu bildi, lakin əhəmiyyət vermədi.

Qarı birdən İlyasdan soruşdu:

– Nədəndir, bəzi kişilər vicdansız olur?

İlyasa elə gəlirdi ki, qarı öz yeznəsindən, onu özgələrə qoşub uzaq yola səfərə göndərməsindən narazıdır, onun sözünə qüvvət vermək istəyirdi.

– Sizin yeznə kimilərimi?

– Yox, sizin özünüz kimiləri.

İlyas qulaqlarına inanmadı:

– Mənə deyirsiniz?

– Bəli, sən vicdansıza!

İlyas qızardı, nə deyəcəyini kəsdirə bilmədi:

– Başına hava gəlib nədi, ay arvad!

– Hava sənin başındadır ki, çalmağa sim tapmırsan. Bir stəkan su gətirmək nədir ki, onu mənə gətirmədin?..

İlyas hirsləndi, qarını söymək, ağzına gələni demək istədi. Ancaq qarının qışqırıb ucadan danışmasından, qapıda, pəncərədə dayananları buraya yığmasından qorxurdu. Acıqlı, lakin ahəstə dedi:

– Sən bəlkə dalına minməyə də adam axtarırsan. Düz-əməlli olsan, yeznən səni mənə tapşırmazdı.

İlyas bunu dediyini gördü. Qarı bir "vayy" deyib qışqırdı, üzü üstə yıxıldı.

Qışqırtıya camaat töküldü. Bir qızıl əsgər qarını huşsuz yıxılmış görüb qolundan tutdu, nəbzinə baxdı, su istədi.

İlyasın rəngi qaçmışdı. Qarının bir əngəl açacağından, onun boynuna bir böhtan atacağından qorxurdu. Əsgər onun özünü itirdiyini görüb acıqlandı:

– Niyə donmusan, a yoldaş, yapışsana arvadı arxası üstə çevirək.

İlyas tez qarının sol qolundan tutdu, onu arxası üstə çevirdilər.

İlyas qarıdan nə qədər uzaq durmaq istəyirdisə mümkün olmurdu, adamlar onu İlyasa ana bilirdilər, deyirdilər:

– Əl-qolunu ovxala tez ayılsın! Bərk, elə, tez-tez ovxala, tez-tez!

İlyas qalxıb getmək istəyirdi, lakin camaatdan qorxurdu. İstər-istəməz qarının qara, qırışıq dərili arıq əllərini ovurdu.

Handan-hana qarı özünə gəldi, başını qaldırıb oturdu, əli ilə işarə verib su istədi. İlyas qaçıb su gətirdi.



Adamlar qarının ayıldığını görüb dağılışdılar və İlyasa bərk tapşırdılar ki, "muğayat ol, soyuqdan gözlə, tək qoyma, qabaqkı vağzalda həkim çağır..." İlyas yaxasını qırağa çəkə bilmirdi və çəkə də bilməzdi:

– Baş üstə, – deyirdi, – hər nə lazımdır edərəm. Təki yaxşı olsun.

İlyas qarıdan soruşdu:

– Bu xəstəlik əvvəllər də sizdə vardımı?

– Əvvəllər heç kəs məni bu qədər təhqir etməyib ki, ürəyim parçalansın.

– Mən sizə nə demişəm.

– Daha nə deyəcəksən? Mənim "düz-əməlli" olmadığımı məhkəmə qarşısında sübut etməsən, səndən əl çəkməyəcəyəm.

İlyas qorxusundan qarını dilə tutmaq istədi.

– Mən o mənada demədim, ay xala, yəni ki, xəstəsən deyirdim.

– Xəstə cənabındır. Məni xəstəliyə salan sənsən. Bu da sənə ucuz başa gəlməyəcək. Yəqin bil ki, arzuladığın və ismətini ayaqlamaq istədiyin bir qız qarşısındakı cinayətin üçün daşıyacağından daha artıq məsuliyyət daşımalı olacaqsan.

İlyasın dil-dodağı qurumuşdu. O, nə tələm-tələsik üzünə verdiyi sığalın, nə boşa çıxan arzularının, nə məhrəbaya verdiyi pulun, nə də yol əziyyətlərinin dərdini çəkirdi. Onu yalnız bir şey rahatsız edirdi: "Necə edim ki, dostumun baldızı məndən razı qalsın? Necə edim ki, adım bu kaftarın dilindən düşsün, məni Bakıda yadına salmasın..."

*1940*

# TAMAŞA

## I

Hətəm dayı astanada dayanıb aşağılara, küləşli taxıl yerlərinə, sürülmüş zəmilərə, yeni salınmış üzüm bağlarına, dərələri örtən ağaclıqlara, böyrünü yerə verib payız günəşində isinən təpələrə, təpələr arasında iplik kimi dolaşıq düşən cığırlara baxırdı. Rəngli üfüq bir cild xətti kimi əlvan yeri, aydın göyü birləşdirir, ayırırdı. Doğrudan da böyük bir kitab açılmışdı.

Hətəm kişi gülər gözlərini bu kitabın səhifələrindən ayıra bilmirdi. Qarış-qarış bələd olduğu bu ana torpağının min bir məna deyən hüsnü, gözəllikləri, sanki onu məftun etmişdi. Sanki bir səsin, bir nidanın yüksələcəyinə müntəzir idi. Sanki bu tarlalar, bu bağ-bağat sükutla ifadə olunan məhəbbət dili ilə onu, o torpağın oğlunu, həm də atasını çağırırdı. Hətəm Qabil oğlu gözü önündə canlanan aləmdə özünü, qırxillik ömrünü, həyatını görürdü. Balıq sudan kənarda nəsə, Hətəm də bu torpaqdan ayrı odur, kişinin gözünə köyşənlər, gah sürülmüş şum, gah göyərmiş taxıl görünürdü. Sütül sünbüllər ağır başlarını əyib sanki biçinçini gözləyirlər. Budur... tayalarla dolu xırman, sovruq, tığlanmış kəhrəba buğda!



Hətəm dayının tamaşaya həvəsli nəzərləri uzaqları gəzib qayıtdı, gəlib çardaq altında böyür-böyürə vermiş dolu çuvallarda dayandı. Kişi cəld və bərk əllərini gözünün qabağına gətirdi. Enli ovcuna, qısa və düz barmaqlarına, budaq atan qabarıq damarlarına baxdı. Nə fikirləşdisə irəli yeridi, çuvaldakı buğdadan bir ovuc götürdü. Cavahir kimi təmiz dənələri barmağı ilə aralayıb baxdı, baxdı. Oxuduğu həyat kitabının məzmunu burada idi: torpaq, əmək, çörək.

Yox, gərək o kişi gələydi. Gərək o kişi görəydi. Bunu deyib Qüdrətin evinə yollanan Hətəm ürəyindəkini deməyə, kolxoz sədrinin rəyini bilməyə tələsdi.

Qüdrət bilirdi ki, bu vaxt – şər qarışan zaman Hətəm boş yerə gəlməz.

– Nə əcəb, Hətəm dayı?

Hətəm dinmədi. Pilləkənləri çıxa-çıxa yavaşca dedi:

– Başıma bir söz gəlib!

Qüdrət içəridən kürsü gətirdi. Hətəm kürsünü kənara itələyib balkonun məhəccərinə söykəndi.

– Gedəcəyəm, zəhmət çəkmə, söz budur ki, Qüdrət, biz məhsul bayramı keçirdik, gəliri-zadı böldük. Hamı da bol-bol apardı. Ancaq bir iş var, axı. Atalar məsəlidir, mərd igid çörək itirməsin gərək.

Qüdrət, Hətəm kişinin söhbəti hara gətirəcəyini bilmirdi:

– Həlbət ki, kişi gərək haqq-sayı itirməsin.

– Deyəsən, biz itiririk axı!

– Biz, yəni kim?

– Yəni belə lap sən Qüdrət Məlik oğlu, mən Hətəm Qabil oğlu. Sən kolxoz, mən kolxozçu, ümumən "Bənövşə" kolxozu.

Qüdrət bir şey başa düşmədi. Əvvəl zənn edirdi ki, Hətəmin sözü şəxsən ona aiddir. Kolxoza işarə vurduğunu görəndə gümanı dəyişdi.

– Kimin haqqını itirmişik biz?

Hətəm özünəməxsus suallı, eyhamlı bir dil ilə danışdı:

– Lap az aparan neçə tağar taxıl götürüb?

– Tağar yarım!
– Pul necə?
– Pul da o nisbət!
– Hamının anbarında üzümü, narına-heyvasınatan qış zumarı. Bu yandan da ki, məktəbimiz, klubumuz.
Qüdrət dözmədi:
– Var, ey var, bu məlum şeyləri saymaqdan nə olsun? Ancaq gəl mətləb üstünə.
Hətəm ahəngini pozmadı:
– Bəs bayaq niyə ac idik?
– Bayaq, yəni keçmişəmi deyirsən?
– Bəli, bəs keçmişdə niyə əlimiz boşda qalırdı?
Qüdrət acıqlandı:
– Bəllidir də niyə! Mən sənə burada ictimaiyyat dərsi deməyəcəyəm ki.
Hətəm də səsini dəyişdi:
– Mənə sənin dərsin-mərsin lazım deyil, sözümün canına qulaq as, bizim bu çörəyimizə bir bais var axı!
– Əlbət ki, var. Sağ olsun atadan mehriban rəhbərimiz...
Hətəm Qüdrətin sözünü kəsdi. Şəhadət barmağı ilə şimala işarə edib, qaşlarını çatdı. Səsini ucaltdı:
– O kişi gərək bizim məhsul bayramımızda olaydı. Gərək qonaq çağıraydıq. Buna sən nə deyirsən?
Hətəmin sözü Qüdrətə qəribə gəldi. Kim istəməz ki, dünyanın ən böyük adamı, əsrin Lenini ona qonaq gəlməsin. Kim istəməz ki, xalqın xilaskarına məclis qurub qulluq etməsin. O gün qoca Qafqaz qoşa qollarını açıb yerlərin günəşini gözlər. Xəzər, təbəssümlü dodaqlarında min illərin salamını gətirər. Ceyran düzü əlvan süfrəsini açar. Barlı ağaclar ağır başlarını yollara əyər, çiçəklər günə baxar, bulaqlardan şərbət qaynar. Səhərini açmış xalq günəşini qarşılamağa çıxar.
Böyük rəhbər saray kimi yüksələn qızıl Azərbaycanı, bu qaynar həyatı görər, əlinin əməyindən ləzzət alan bağban kimi gülümsər və deyər.
– Əcəb, əcəb!





Amma rəhbərin qonaq gəlməyə vaxtı hanı? Onun hər nəfəsi milyonlara can verən bir həyatı var. Kim bilir, biz burada, məhsul bayramında çalıb çağıranda, o kişi hansı xalqın azadlığına, hansı elin səadətinə tədbir tökür.
Qüdrət bunları fikirləşir, Hətəm kişiyə haqq verirdi: "Biz, bu ağ günümüzə bais olan o böyük rəhbərə təşəkkürümüzü bildirməliyik". Lakin bu işin necə, nə şəkildə təşkil edilməsini hələ kəsdirə bilmirdi:
– Düzünü axtarsan, Hətəm dayı, – dedi, – müəyyən cavab deyə bilməyəcəyəm, bir az fikirləşmək lazımdır. Məsləhətləşmək gərək.
Qüdrət qonağını bu cavabla yola saldı.

## II

Hətəm kişi kəndin o kişilərindən idi ki, müstəqil sözünün mənasını bilməzdi, amma müstəqil adam idi. İradə sözünü anlamazdı. Amma poladdan möhkəm bir inadı vardı. Qüdrətgildən qayıdanda, ürəyində demişdi: "Sən fikirləş, mən bildiyimi edəcəyəm. Ağıllı fikirləşincə, dəli vurar çayı keçər."
Sübh yerindən qalxan kimi, dülgər Qafarın yanına cumdu. Yüz limon tutan bir yeşik sifariş elədi. Qayıdanda qonşusu Müseyibin oğlunu gördü. Kağız yazmaq üçün xahiş etdi.
Hətəmin fikrini arvadı da bəyənmişdi. Onlar özlərinin son illərdə bəsləyib yetirdikləri ağacların məhsulundan rəhbərə kiçik bir töhfə göndərmək fikrində idilər. İndi bu töhfə çox aziz yerə getdiyindən ləyaqətli iş görmək istəyirdilər. Hətəm limonları özü seçəcək, elə düzməyə çalışacaqdı ki, hər birinin üstündə yarpaq da olsun. Düzmək üçün bağban Allahyarı çağıracaqdı. Şıx-şıx kağız tapacaq, yeşiyin üstünü iki dildə, səliqəli yazdıracaqdı. Kişi ayrı cür əl-ayaqda idi.
Bütün bunlar ailənin istəklisi, doqquz yaşlı Tamaşanın gözünün önündə olurdu.
Tamaşa könlü-gözü tox uşaq idi. Nə limon, nə töhfə onu maraqlandırırdı. Stalinin adını eşidəndə, atasının rəhbərə məktub yazdırmaq istədiyini biləndə maraq onu götürdü. Qız hər şeydən əl çəkdi:

– Ata, qoy rəhbərə mən də yazım.

Atanı gülmək tutdu:

– Qızım, sən iki kəlmə danışmağı bacarmırsan, rəhbərə nə yaza bilərsən? Sən hələ uşaqsan. Otur yerində.

Tamaşa bir söz demədi. Çəkilib bir kənarda durdu.

Uşaq qəlbi qapalı bir aləmdir. Yol tapıb bu aləmi seyr etmək çox çətindir.

Tamaşa, doğrudur, atasına inanır, onun sözünə qulaq asırdı. Amma ürəyində özünün uşaq olmağına çox təəssüf edirdi. Hara tərpəşirsə, uşaq deyirlər. O, havaxt böyüyəcəkdi. Havaxt rəhbərə məktub yazmağa izin verəcəkdilər, havaxt o da adamlara qarışacaqdı... Tamaşaya elə gəlirdi ki, o indinin özündə rəhbərə kağız yazmağı bacarar. Ürəyinin sözünü Stalin babaya yazar. "Amma böyüklər qoyur ki... adama uşaq deyirlər. Gör nə boydayam. (Tamaşa bədənnümа güzgünün qabağında dayanıb dabanlarını qaldırır). Uşaq olanda nə olar! Məktəbdə oxuyuram ki, yazmaq bilirəm ki..."

Tamaşa bir qədər bu fikirlərlə məşğul oldu, sonra çarpayısına girib yatdı.

Səhərisi gün İlyas müəllim sinfə balaca, qırmızı bir kitab gətirdi.

– Uşaqlar, – dedi, – qulaq asın, pionerin Voroşilov yoldaşa məktubunu oxuyaq.

İlyas müəllim bir qəribə şeir oxudu. Pioner Murad Voroşilova yazmışdı ki: "Qardaşım əsgər getdi, yoldaş komissar, məni də yaz. Yadında saxla, böyüyəndə gələcəyəm". Bu şeiri eşidəndən sonra Tamaşa yerində otura bilmirdi. O, dirsəyini skamyaya dayayıb barmaq qaldırdı:

– Müəllim...

Müəllimin başı qarışıq idi. Gah kitaba baxır, gah yeriyib taxtada yazır, gah danışırdı.

– Müəllim! İlyas müəllim!

İlyas müəllim izin verdi:

– Tamaşa, nə soruşursan?

Tamaşa cəld ayağa qalxdı, skamyanın taxtasını qatladı, kəsmə-kəsmə sözlər ilə dedi:



– Müəllim. Murad Voroşilov yoldaşa yazıb. Bəs uşaq rəhbərə kağız yazar, yaza bilər?

Müəllim başa saldı:

– Yazar, vacib məsələ barəsində yaza bilər.

Tamaşa oturdu. Oturdu, ancaq rahatlığı tutmurdu. Ürəyi darıxırdı, zəngi gözləyirdi. Dərsdən çıxan kimi atasının yanına cumacaq, xəbər verəcəkdi:

– Ata, müəllim deyir rəhbərə məktub yazmaq olar. Uşaq da yazsa olar.

Atasını inandırmaq üçün "Pionerin məktubu" kitabını almağı da lazım bilirdi. Fikirləşdiyi bütün işlərinin "düzəldiyinə" sevinən qız çantasını qoltuğuna vurub yüyürərək evlərinə gəldi.

Ancaq müəllimin cavabından onun qabağına yeni bir sual çıxmışdı. Bu sual əvvəlkindən asan deyildi. Müəllim deyirdi ki, uşaq rəhbərə məktub yaza bilər, amma gərək vacib məsələ olsun. İndi kim bilsin, vacib məsələ nədir? "Muradın qardaşı əsgər gedib. Buna vacib deyirlər. Mənim qardaşım yoxdur ha! Bəs bu necə? Mənim vacib deyiləsi işim nə olsun?" Bunları düşünəndə Tamaşanın çiçək kimi ağ və girdə sifətinə sərin məyusluq kölgəsi enirdi. "Heç mənim vacib məsələm yoxdur ki? Mən təyyarə modeli düzəltmişəm. Rəhbərə göndərsəm, görəsən, nə olar. Görəsən, bu vacibdi, ya yox?.."

Tamaşa həmin kitabı aldı, anasına, atasına da göstərdi. Amma nə atasına bir "xəbər" dedi, nə də danışdı. Ayrı şey soruşdu.

– Ata, vacib məsələ nədir?

Hətəm kişi əlində nə isə təlis kimi bir şeyin kəndirini sökürdü, qızının üzünə bir tərs baxdı:

– Bu qızdan elə atmaca söz çıxır ki! Vacib məsələ. Vacib məsələdi də. Vacibdi, yəni, fərzdi, gərəklidi!

Anası kişinin hirsli cavabını, qızının pozulduğunu görüb sözə qarışdı:

– Qızım, vacib məsəli də bilmirsən? Adam adama deyər, "oruc-namazdan vacib". İndi də deyirlər, söz məsəli, iş vacib, məktəb vacib. Bir də var ki, belə ha, olmasa da...

Tamaşa bu söhbətlərdən öz işinə münasib bir şey öyrənə bilmədi.

Ürəyində dedi:

"Qalsın, İlyas müəllimdən soruşaram."

– Müəllim, vacib nədir?

Tamaşa bunu soruşanda, İlyas müəllim taxtada yaza-yaza cavab vermişdi:

– Qızım, dərsə qulaq asmaqdan vacib şey yoxdur, səs salma!

Deyəsən, bu gün Tamaşanınkı gətirmirdi. Müəllimin acıqlı olduğunu görüb dinmədi. Tənəffüsdə pioner rəhbərinin yanına qaçıb soruşdu:

– Yoldaş rəhbər, mən təyyarə modeli düzəltmişəm ha. Bu vacibdi, ya yox?

Pioner rəhbəri Tamaşanın düzəltdiyi modeli ikincilərin sərgisində görmüşdü. Onun sualına da belə məna verirdi ki, "uşaqdır, maraqlanır, istəyir ki, işdən deyib-danışsınlar".

– Həlbət ki, – dedi, – vacibdir. Bacım, sənin işin çox maraqlıdır. Hələ bizə çoxlu qonaqlar gələcək, sənin əl işinə baxacaqlar.

Tamaşa məktəbdən çox sevincək qayıtdı. Yetirən kimi, atasından izin istədi:

– Ata, deyirlər, olar. Qoy Stalin babama mən də məktub yazım da, nə olar!

Hətəm mülayimliklə qızını sakit etmək istədi:

– Qızım, müəllim elə deyir ki, sənin ürəyin sınmasın. Əl boyda uşaqsan, sənin nə yazın var!..

– Axı modelimi də göndərmək istəyirəm.

– Model rəhbərin nəyinə lazımdır? Gündə yüzlərlə polad təyyarələr gəlir rəhbərin hüzuruna.

– Bəs rəhbər məni tanımasın?

Ata qızının başını sığalladı:

– Sağlıq olsun, qızım, böyüyəndə təyyarəçidən, injenerdən-zaddan olarsan, rəhbərin hüzuruna bir ləyaqətlə gedərsən.

Tamaşa soruşdu:

– Sən də mənnən gedərsən, ha?

– Məni neynirsən, qızım, daha?

– Rəhbər məni tanımaz axı!



– Onda səni mənnən tanımayacaqlar. Məni sənnən tanıyacaqlar. Sənə "Hətəmin qızı" deməyəcəklər, mənə "Tamaşanın" atası deyəcəklər, bildinmi?

Tamaşa sözü hayana çevirdi, nə bəhanə gətirmək istədisə olmadı.

Rəhbərə hədiyyə üçün hazırlanmış limon yeşiyi pəncərəyə qoyulmuşdu, hələ ağzı mıxlanmamışdı. Tamaşanın gözü ona sataşanda ürəyi daha bərk döyünür, könlü uçmaq istəyirdi.

Qız, bir limon olmaq, yeşiyin bir küncündə gedib Moskvaya– Stalin babanın yanına çatmaq istəyirdi. "Heç olmasa, məktubsa da yazıb göndərməyə nə var. Uşaq olanda nə olar. Bəs Murad niyə göndərir?"

Bu fikir Tamaşanın başından çıxmırdı. Necə də çıxsın ki, pəncərəyə qoyulan limonlar günü sabah maşınlarda Moskvaya gedəcəkdir. Onun əl boyda məktubu niyə getməsin?

Hətəm kişi gecə qonşuya söhbətə getmişdi. Tamaşa anasının da işlə məşğul olduğunu görüb dəftər-qələmini stol üstünə tökdü. Dərs öyrənmək bəhanəsilə səliqəli bir məktub başladı. O, əvvəldən nə yazacağını fikirləşmişdi. Elə bilirdi ki, oturan kimi, yazıb qurtaracaqdır. "Sən demə, rəhbərə məktub yazmaq çətin imiş, ürəyinə sözlər gəlir. Çox söz gəlir. Amma yaza bilmir." Tamaşanı karıxdıran, məktubun çətinliyi deyil, sevincdən ürək döyüntüsü idi. Sözlər onun qələmindən çətinliklə çıxırdı. Çünki, o bu sözlərin rəhbərə, bütün məktəblilərin atasına, bütün dünyanın böyük rəhbərinə deyildiyini bilirdi.

O yazdıqca, hərdən iri və qara gözlərinin ucu ilə pəncərəyə baxırdı. Xəyalına gəlirdi ki, uşaqlar bilsələr, xəbər tutsalar, tökülüşüb yalvarırlar: "Mənim adımdan da yaz, mənim dilimdən də yaz".

Belə məsul bir məktubu necə bitirmək olar! Tamaşa quraşdırıb yazdığı hər sətrə baxdıqca sevinir, sevindikcə yazırdı:

– "Əziz rəhbərimiz Stalin! Çox-çox salam göndərirəm sənə. Yoldaş Stalin, sən bizim babamızsan. Mən səni çox sevirəm. Ürəyimdən çıxartmıram. Mən ikincidəyəm. Özüm də əlaçıyam. Təyyarə modeli düzəltmişəm. Sərgiyə qoymuşam. Böyüyəndə təyyarəçi olmaq istəyirəm. Uçub Moskvaya gələcəyəm. Yoldaş rəhbər, səni görəcəyəm. Əziz olan babam Stalin, mənim adım da Tamaşadır. Atam, anam kolxozda çalışır..."

O, məktubu bitirib paketə qoyanda hələ atası qayıtmamışdı. Tamaşa dili ilə paketin ağzını yaşladı və yapışdırdı. Görən olmasın deyə köynəyinin yaxasını açdı, məktubu döşünə qoyub balkona çıxdı. Anası ona acıqlandı:

– Niyə yıxılıb yatmırsan? Axı sabah dərsə gedəcəksən.

– Dərs öyrənirdim.

Tamaşa anasının gözündən yayınıb pəncərəyə tərəf gəldi. Yavaşca limonların üst cərgəsini götürdü. Məktubu alta qoyub ağ kağız ilə örtdü. Üstdən yenə limonları düzdü. Ancaq uzun fikir-xəyal və çətinlikdən sonra bitirə bildiyi böyük bir işin sevincindən, pişik kimi yerə hoppanıb çarpayısına qaçdı. Şadlıqdanmı, intizardanmı, nədənsə yenə Tamaşanın gözünə yuxu getmirdi. Yeşik mıxlanıb poçta verilməyincə, yəqin ki, qızın intizarı sönməyəcəkdi. Evdə addım səsi eşidən kimi, Tamaşa güman edirdi ki, limonların yanına gedən var. Anası pəncərəyə yaxınlaşanda qızın ürəyi qopurdu: "Aha, bu saat məktubu çəkib yeşikdən çıxardacaq."

Hətəm kişi yeşiyi MTS-in maşınına qoyub yola salanda, maşın burulan tozlar içində itəndə Tamaşanın ürəyi yerinə gəldi.

## III

Bu əhvalatdan on-on beş gün keçdi. "Bənövşə" kolxozçuları ellikcə yığılıb Stalin yoldaşa bir təşəkkür məktubu yazdılar. Hətəm kişi də bu işin başçılarından biri oldu.

Tamaşa isə tutduğu işin intizarını çəkirdi. Atasından dönə-dönə soruşurdu: "Moskvaya kağız neçə günə gedər? Limon neçə günə gedir?"

O, gah yazdığı məktubun rəhbərə çatdığını yuxuda görürdü, gah atasının bu işdən xəbər tutacağından və acıqlanacağından çəkinirdi, gah da ürəyini dələn, onu incidən bu sirri açıb anasına demək istəyirdi:

"Görəsən, anam bilsə, atama deməz ki?"

Bu səhər poçtalyon, Hətəmin evinə iri, möhkəm bağlanmış, o yanbu yanı kağızlı, möhürlü bir yeşik gətirdi. Hətəm körpü üstünə, hansı



qonaqları isə yola salmağa getmişdi. Arvad yeşiyə baxdı. Xəyalında bir yerə gümanı gəlmədi. Birdən yadına düşdü: "Bu ki, bizim limon yolladığımız yeşikdir." Arvad çaşan kimi oldu.

Tamaşaya dedi:

– Qız, qaç atanı çağır. Deynən limonları geri göndəriblər.

Tamaşa da bir şey anlaya bilmədi. Atasının dalınca yüyürdü. Hətəm kişi eşidəndə ki, "limonları geri göndəriblər", bədəni buz kimi oldu.

– Necə yəni geri göndəriblər. Qız, bunu sənə kim dedi?

– Anam dedi, tez gəlsin.

Hətəmin inanmağı gəlmədi:

– Qız, yalan olar bu söz, düzünü de görüm, anan məni neynir?

Tamaşa and içdi:

– Atam canı, odur ey, yeşik balkonda.

Hətəmin dinəcəyi olmadı. Əllərini gödəkcəsinin ciblərinə qoymuşdu. Əsəbilikdən yumruqları ilə ciblərini elə aşağı basdı ki, az qaldı paltarın tikişi atsın. Onun keyfi pozulmuşdu. Düz yolunu yeriyə bilmirdi. Doqqazda dayanıb Tamaşanın üzünə sərt baxdı.

– Qız, bu xəbər yalan olar, gəl sən məni çaşdırma!

Tamaşa, gətirdiyi xəbərin atasına bu qədər ağır gələcəyini bilsəydi, heç deməzdi. Atasının bu heyrətli sualları, Tamaşanın da keyfini pozdu. Onun yadına ayrı şey gəldi. Düşündü ki, atası bu saat yeşiyi açacaq, limonları götürəcək, qızın məktubunu tapacaq. "Onda mən nə deyərəm? Bəlkə elə mənim məktubumu görüblər, deyiblər uşaq bu boyda limonu haradan alıb?.. Bəlkə adresi yazmamışam, onunçün?"

Qızın ürəyi səksəkədə idi. Gözləyirdi ki, bu saat atası əlində məktub onun üstünə gələcək: "Bu nə işdi eləmisən, qız?"

Hətəm başını aşağı salıb yeyinlədi. Evə çatanda arvad balkondan səsləndi:

– Gəl, gəl, ay kişi, limonlarına sahib dur!

Hətəm hirsindən cavab vermədi. Təpiklərini pilləkənlərə bərk vura-vura çıxdı. Gözü bağlı yeşiyə sataşanda soruşdu:

– Budurmu, a qız?

– Hə, odu!

Hətəm bıçağını çıxardıb sökmək istədi. Nə düşündüsə, arvadını səslədi:

– Sonra özgəsinin olar, ha!

Arvadın sanki, indi yadına düşdü. İçəri keçib şkafın üstündən bir məktub da gətirdi:

– Yox, – dedi, – bizimkidir. Həyətdə oxutmuşam. Kağızı da bu!

Hətəm adam göndərib Müseyibin oğlunu çağırdı. Rusca yazılan adresi bir də oxutdu.

Yeşiyi sökəndə içindən bir qırmızı nişan patefon, içi val ilə dolu bir qutu, bir balaca yeşik də kitab, məxmər üzlü dəftərlər çıxdı. Hətəm kişi baxıb heyran qaldı: "Bunu kim göndərib, kimə göndərib". Kağızı açıb baxanda qaşının düyünü açıldı, dodaqları qaçdı, sifəti sevinc ilə işıqlandı. Sinəsini dolduran intizar bir anda boşaldı:

– Ay Müseyib oğlu, sən yaxşı oxuyursan, al! Nə varsa bunda, bu kağızda olacaq, oxu!

Müseyib oğlunun gözləri ilk sətirlərə sataşan kimi Tamaşanı səslədi:

– Gəl, ay Tamaşa, gör rəhbər sənə nələr göndərib, gəl!

Məktubu, rəhbərin köməkçi işçilərindən biri yazırdı:

"Balaca qız, Tamaşa, rəhbərə yazdığın məktub çatdı. Çox sağ ol. Rəhbərin sənə üç tapşırığı var: birincisi oxumaq, ikincisi oxumaq, üçüncüsü oxumaq. Sənə balaca bir hədiyyə də göndərdik. Kitabları oxuyarsan, yorulanda patefon çalarsan. Hələlik..."

Tamaşa sevincindən qıpqırmızı qızarmış, durduğu yerdə patefona, kitablara baxa-baxa qalmışdı. Anası onun başını sığallayırdı:

– Xeyir olsun, bəxtəvər, hər şeyin Moskvadan gəlir.

Hətəm kişi mat qalmışdı. Arvadından soruşurdu:

– Sən mənnən huşlusan, biz bu qızın barəsində yazmışdıq, ya yox?

Arvadın xatırında yox idi. Hətəm kişi ona heyran idi ki, Tamaşanın adını Moskvada kim bilib.

Hətəm, Müseyib oğlundan soruşdu:

– Yazan sən idin axı?

Müseyib oğlu dedi:

– Mən qızın adını yazmamışdım. Orada Tamaşadan bir şey yox idi.



– Bəs bu qızı Moskvada kim tanıyır?

Tamaşa açdı söylədi:

– Özüm yazmışam, ay ata, özüm rəhbərə məktub yazdım.

Hətəm kişinin gözləri böyüdü. Heyrətindən qışqırdı:

– Qız, sən nə danışırsan?

– Bunu deyib balaca, gözəl və cəsarətli qızını bağrına basdı. Bir müddət qəlb-qəlbə dayanan ata-baladan səs çıxmadı. Ancaq onların qızarmış yanaqları görünürdü.

Bir az sonra, altdan yuxarı baxan Tamaşa atasına xatırladırdı:

– Bəs sən deyirdin, uşaqsan!

Tamaşa, doğrudan da, bir tamaşalı qız olmuşdu. Daha İlyas müəllimə sual vermir, xahiş edirdi:

– Müəllim, – deyirdi, – mənə çox dərs öyrədin, rəhbər kitab göndərib axı, tapşırıb axı, gərək oxuyam. Mənə lap çox öyrədin!

*1940*

# İLHAMIN ANASI

## I

Bu gün Səltənət uşağını konsultasiyaya aparmışdı. Həkim məsləhətini dinləmişdi, süd, qatıq alıb qayıdırdı. Köhnə məktəb yoldaşlarından birisinə – Ceyrana rast gəldi. Ceyran tərtəmiz geyinib-kecinmişdi, bəzənib-düzənmişdi. Bir oğlanın qoltuğuna yaslanıb gedirdi. Səltənəti görəndə istehza ilə güldü:

– Ay yazıq, – dedi, – gözəlcə qız idi, maral kimi qaş-gözü var idi, o boy məndə olsaydı, dünyanı dağıdardım, bu getdi pasanlara niyançit eləməyə, uşaq-muşaq böyütməyə. Ox, uşaq nədir? Anamın canı üçün nenaviju!

Ceyran bunları deyib, hərdən yanakı, təhqirlə Səltənətə baxırdı. Onun, məktəbdə hər dərsdən zəif olan bir tənbəlin belə yuxarıdan baxmağı Səltənətə güllə kimi dəydi. Qız qızardı, nəsə demək istədi, lakin dili gəlmədi.

Ceyran Səltənətin uşağına, analığına, sadəliyinə gülürdü. Səltənət bilirdi ki, Ceyranın bu hərəkəti böyük və bağışlanmaz bir qəbahətdir.





Ceyran bu sözü bir məclisdə deyə də bilməz, çünki, onun o boyalı üzünə tüpürərlər. Səltənət özü də Ceyrana ağır və layiqli bir cavab vermək istədi, ancaq hirsindən boğulub qaldı. "Gör mənim başıma nəyi qaxınc edirlər! Gör mənə kim qaxınc edir!"

Səltənət çox çalışdı ki, bu təsadüfü ərindən gizləsin. İlyas əl çəkmədi, axırda öyrəndi.

– Sən elə avaraların sözünü niyə saya salırsan? Niyə ürəyini sıxırsan?

Bəlkə də Səltənət ali məktəbə girmədiyi, uşağına görə təhsilini davam etdirməkdə çətinlik çəkdiyi üçün kədərlənirdi. İlyas bunu anlamışdı. Bir ev qulluqçusu tutdu. Səltənətin xahişinə görə, onun sənədlərini sahmanladı, Azərbaycan Pedaqoji İnstitutuna verdi. Səltənət böyük bir həvəslə ali təhsilinə davam etdi.

## II

Səltənət dərsə gedəndən sonra bəzən evdə nizamsızlıq olurdu. İlyasın naharı gec hazırlanırdı, buna görə Səltənət İlyasdan üzr istədi.

– Gərək məni bağışlayasan!

İlyas dedi:

– Əzizim, mən subaylığımda da xörəkdən, istirahətdən korluq çəkməmişəm. İşdən qayıtdımmı, beş dəqiqənin içində görürsən, pilətəni alışdırdım, budur qovurması, budur qayğanağı, nə bilim, çayı, çörəyi... nəki, lazımdır. Sən məndən heç nigaran olma. Sən iki şeyi unutma!

İlyas bunu deyib, Səltənətin üzünə ciddi və mənalı baxdı. Səltənət ərinin yoldaşlıq məsləhətlərini diqqətlə dinlədi:

– İki şeyi unutma! Qalanı öz yolu ilə gedəcək. Xörək, nahar, filan – sən bunların qayğısına qalma. Bu saat böyük quruluş və inkişaf işi gedir. Vətənimiz yeni bir aləmdir, hamı yaradır, hamı qurur, hamı qəhrəman olmaq istəyir və çoxu da olur. Unutma ki, sən hər şeydən əvvəl sovet vətəndaşısan. Ölkəmizə, xalqımıza fayda verməyə borclusan! Mən dözmərəm, dözmərəm ki, məktəbdə səndən narazı olsunlar. Eşidəm, biləm dərsdən zəifsən, acığım gələr, müəllimin yanına qiymətini düzəltmək üçün xahişə getmə. Geridə olma, oldun, birinci ol, üstün ol, əlaçı

ol, qabaqcıl ol! Tələbəsənmi, lap yaxşısından ol! Sənin oxumağın üçün hökumətimiz hər nə şərait lazımsa, düzəldib, mən də əlimdən gələni edirəm! Bu bir, ikincisi, – İlyas bunu deyib, şəhadət barmağı ilə o biri otaqda oynayan uşağı, İlhamı göstərdi: – İkincisi odur! Unutma ki, sən anasan, yaxşı analıq çətin, lakin çox şərəfli, çox müqəddəs işdir. Böyük adamlar, dahilər, ədiblər anadan yazıblar, deyiblər. Ana qəlbi insanın ilk məktəbidir. Məhəbbətin, səmimiyyətin, sədaqətin pozulmaz kitabıdır. Görmürsənmi, Sovet hökuməti anaları nə qədər əzizləyir!

Səltənət gəncliyin bu çağlarında belə bir xoşbəxt həyatına, təmiz və şən ailəsinə, ay parçası kimi parlayan İlhamına sevindi. O, İlyas deyən kimi, işdə də, analıqda da qabaqcıl olmağa can atırdı. Lakin Ceyranın küçədə elədiyi tənələri unuda bilmirdi.

Nə təhər oldusa, yenə belə bir təsadüf düşdü: saat dörd idi, Səltənət uşaq bağçasından gəlirdi, oğlunun əlindən tutub, Kommunist küçəsindən ötürdü. Bakı Sovetinin qabağında bir-birinə rast gəldilər. Ceyran Səltənətə yaxınlaşdı, gülümsəyərək dedi:

– Ay qız, sən lap ana oldun getdin. Bu köhnəlikdən, bu mövhumatçılıqdan əl çək. Get kefini çək, bu pasanları bir adama zada...

Səltənət qızışdı, sanki aylardan bəri ürəyində saxladığı söz dağının acığını çıxmaq üçün qəsdən Ceyranı axtarıb tapıblar, Bakının ən məşhur küçələrinin birində onunla qarşılaşdırıblar ki, buyur, Səltənət yoldaş, ürəyindəkini de!

Səltənət kəskin və əsəbi səslə dedi:

– Analıq çox böyük şərəfdir. Hər adama çatmayan şərəfdir. Mən bununla fəxr edirəm! Biraylıq kef üçün həftədə bir aborta gedən, adam öldürən alçaq, qatil olmaq istəmirəm. Çünki sinəmdəki boyalarla dolu redikül deyil, isti qanla dolu bir qəlbdir. Mən anayam, qəhrəmanları, xilaskarları, igidləri, qütb fatehlərini, göylərin məğrur şahinlərini doğan analardan olmaq istəyirəm. Vətənimiz belə anaların vətənidir. İnqilabımız belə anaların başını uca etmişdir. Bunlar insanlığın anası, qadınlığın bəzəyidir. Siz, bağışlayın, bunu anlamırsınızsa, başınızı remonta verin...

İlham anasının həyəcanını hiss edib, qolundan çəkdi ki, "bəri gəl, ana!" Ceyran pis vəziyyətdə idi. Onun yanşaq ağzı açıla qalmışdı. Çox çətinliklə sifətini yığdı, dodağını büzdü, əlini tovladı və dedi:

– Padumayiş!



Hələ dörd yaşını bitirməmiş İlham diribaş, zehinli, hər şeylə maraqlanan bir uşaq idi. Anasından soruşdu:

– O kimdir, ana?

– Ceyrandır!

İlham anasının üzünə baxdı:

– Hanı ceyrandır, heç onun buynuzları var?

Səltənət özünü saxlaya bilmədi, əsəbiliyini unutdu, güldü. İlhamla keçirdiyi saatlarda o, xüsusi bir nəşə duyurdu. Uşaq maraqlı və hazırcavab sözləriilə onu məşğul edərdi. Tramvaydan düşəndə soruşardı:

– Ana, niyə poyezd dayananda fit çalır, tramvay çalmır?

Sahili gəzəndə soruşardı:

– Ana, bu qayıqlar nə üçün evlərinə getmirlər?

Mürəbbə yeyəndə anası açıqlanardı ki:

– Gilası bütün-bütün udma, çeynə, tumunu çıxart!

İlham mürəbbəli qaşığı ağzına dayamış halda altdan-altdan anasına baxar, cavab verərdi:

– Bulvarda sən hava uddun, heç çeynəmədin!

Bundan sonra Səltənət səhvini düzəltdi, "hava udmağa gedək" deməzdi.

## III

Rayon səhiyyə məntəqəsi sağlam uşaqların yarışını düzəltmişdi. Həkimlər klubu bəzənmişdi, divarlar şəkil, plakat, şüarlarla dolu idi. Oyuncaqlar alınmışdı, bufet qoyulmuşdu, mebellər hazırlanmışdı. Analar uşaqları ilə yarışa gəlirdilər. Həkimlər uşaqlara baxır, çəkir, ölçür, yoxlayır, dindirirdilər. Sağlam və yaxşı bəslənmiş uşaqları ilk mükafata yazırdılar. Səltənət oğlu İlhamı əyləşdirmişdi. Altıaylıq qızı Validəni qucağında saxlamışdı. Bir əl onun çiynindən yapışdı, dönəndə məktəb yoldaşları Rübabəni, Böyükxanımı gördü. Şirin-şirin soruşdular, xoş-beş etdilər:

– Ay qız, gözün aydın, ikiləmisən ki, adı nədir?

– Sağ ol, Validədir. Sənin necə, ilkindirmi?

Böyükxanımın qucağında bir kök, totuq uşaq var idi. Əl-qolunu oynadırdı, dolu və möhkəm bir uşaq idi. Əldə, ayaqda durmurdu. Balıq kimi qatlanırdı.

Cavan, gəlin analar söhbətə başladılar. Ailə həyatından başlayıb, məktəbə, uşaqlıq günlərinə qədər xatırladılar. İndi onların hərəsi xoşbəxt bir ana, ixtisaslı bir işçi, azad və fəal bir vətəndaş idi. Rübabə həkim idi, Böyükxanım "Azərbalıq"da hesabdardı. Səltənət orta məktəbdə dərs deyirdi. Üçü də gözəl ev-eşik sahibi, üçü də sağlam uşaq anası idi.

Uşaqlar üçün musiqi çalınırdı.

Böyükxanım Səltənətdən soruşdu:

– Ceyrandan halısanmı? Bilirəm, səni təhqir etdiyini eşitmişəm. İndi sən görən Ceyran deyil, həkimlərə baxdırıb, deyiblər abort səni xarab edib, uşağın olmaz. Qız soyuq dizlərini qucaqlayıb, hönkür-hönkür ağlayır. Uşaq görən kimi gözünün yaşını tökür. Axırda bir gün anası da yanına düşür, doğum evinə gedirlər ki: "Yiyəsiz bir uşaq verin, biz böyüdək." Orada deyiblər: "Ay balam, indi nə zəmanədir ki, yiyəsiz uşaq olsun, hamı uşağını əzizləyib saxlayır, eşqlə böyüdür, yiyəsiz uşaq hardadır?" İndi Ceyran uşaq bağçasındamı, yaslidəmi qulluğa girib ki, bəlkə analıq həsrətini unuda...

Böyükxanım sözünü bitirməmiş zəng çalındı. Stol yanında dayanan uzunsaç bir qız mükafat siyahısını oxudu. Mükafat alanlar içində Səltənətin, Böyükxanımın, Rübabənin adı var idi. Rübabə təəccüb elədi:

– Necə oldu ki, bizim üçümüz də mükafata düşdük?

– Necəsi yoxdur. Bəs Sovet hökuməti on il bizi oxudub gözüaçıq və mədəni adam etmişdir. Kəblə Tükəzbanlar ilə sənin, mənim təfavütüm bilinməsinmi? Budur bax, indi sovet balalarının sovet anası olmaq budur!

Uşaqların hərəsinə bir kostyum, bir dəst oyuncaq şeyləri verdilər. Onları düzüb oturtdular, oyuncaq şeylərini hər kəsin öz qabağına qoydular ki, şəkillərini alsınlar, fotoqraf əlini əlinə çalıb, aparatı göstərib dedi:

– Uşaqlar, bura baxın, buradan quş çıxacaq!

Uşaqlar başını qaldırıb baxırdı. İlham öz-özünə dedi: "Allatmağına bax! Heç maşında quş olar!"

*1940*



# MÜNDƏRİCAT


Müasir nəsrimizin hekayə ustadı ........ 5
Mirzə ........ 21
Həkim ........ 26
Hacının xəyalı ........ 30
İlk günlər ........ 35
Səfər ........ 53
Badamın ləzzəti ........ 58
"Myaxqiy" ........ 68
İstifadə ........ 72
Mərkəz adamı ........ 83
Qaymaq ........ 96
Sara ........ 103
Təzə toyun nəzakət qaydaları ........ 112
"Kim"in andı ........ 122
Letun ........ 128
Göz ........ 133
"Matışgə" ........ 148
Kartoşka məsələsi ........ 152
Bostan oğrusu ........ 162
Sınaq günü ........ 172
Dostumun qonaqlığı (təsadüf) ........ 181
Ayaz ........ 189
Yanlış barmaqlar ........ 205
Pərzad ........ 210
Kağızlar aləmi ........ 221
Kərpic məsələsi ........ 232
Nanənin hünəri ........ 244
Gözün aydın ........ 255
Hikmətdən xəbər ........ 265

Anket Anketov ....................................................................273
Söyüd kölgəsi....................................................................281
İgid oğlan.........................................................................286
Vətən oğlu .......................................................................295
Hilal dayı .........................................................................306
Dost görüşü.......................................................................315
Vicdan əzabı......................................................................322
Müalicə ...........................................................................328
Möhlətovun tərcümeyi-halı...............................................337
Kimya tələsir ....................................................................350
Mənim parlamentim ..........................................................356
Kəmtərovlar ailəsi ............................................................361
Qonaqpərəst......................................................................370
Qəmbərqulu .....................................................................376
Əməli saleh.......................................................................384
Şəxsi məsələ......................................................................390
Mərifət dərsi .....................................................................412
Tamaşa .............................................................................422
İlhamın anası.....................................................................434

**MİR CƏLAL. ƏSƏRLƏRİ. 5 CİLDDƏ**
**I CİLD**

Naşir: **HİDAYƏT ƏSGƏROV**

Nəşriyyat redaktoru: **İlahə HƏŞİMOVA**

Səhifələyici: **Elvira NADİRQIZI**

Dizayner: **Aynur ƏSGƏRLİ**

Çapa imzalanmışdır: 10.01.2013
Kağız formatı: 70x90 1/16
Həcmi: 27 ç.v; Sifariş: 12 ; Sayı: 500

«ADİLOĞLU» nəşriyyatında nəşrə hazırlanmış
və ofset üsulu ilə çap edilmişdir.
Ünvan: Bakı şəh., Alatava I, Ə.Salamzadə küç 9C
Tel.: (050) 593 27 77, (055) 222-71-93
Web: www.adiloglu.az;